**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**

**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-tədqiqat laboratoriyası**

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK
## (Elmi-nəzəri toplu)

## V BURAXILIŞ

*Azərbaycan Respublikasının müstəqilliyinin 25-ci ildönümünə və Dünya azərbaycanlılarının həmrəylik gününün təsis edilməsinin 25 illik yubileyinə həsr edilir.*

*BDU Tarix fakültəsi Elmi Şurasının 21 fevral 2017-ci il tarixli qərarı ilə çap edilir.*

**BAKI – 2017**

**Redaksiya heyəti:** **akad. A.M.Məhərrəmov**
**prof. L.L.Həsənova**
**dos. A.Ə.Rzayev**
**dos. M.Q.Abdullayev**
**dos. A.Ə.Məmmədova**
**dos. Səidə Əli qızı**
**dos. E.M.Lətifova**
**dos. G.Ə.Rizayeva**
**dos. L.A.Əliyeva**
**dos. R.Q.Hətəmov**
**t.f.d. G.T.Novruzova**
**t.f.d. S.Z.Quliyeva**
**t.f.d. L.Ə. Hüseynova**
**b.e.i. U.M.Paşayeva**

**Dünya azərbaycanlıları: tarix və müasirlik**. Elmi-nəzəri toplu. V buraxılış. – Bakı, Bakı Universiteti nəşriyyatı, 2017, 353 s.

***Ünvan:*** Bakı şəhəri, AZ1148, Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, III tədris binası, 10-cu mərtəbə, 1007-ci otaq
***Əlaqə:*** 012-537-04-61; dunya.azerbaycanlilari.etl@gmail.com

# ÖN SÖZ

"Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-tədqiqat laboratoriyası özünün "**Dünya azərbaycanlıları: tarix və müasirlik**" adlı toplusunun V xüsusi buraxılışını ictimaiyyətə təqdim edir.

Toplunun bu buraxılışına 2016-cı il 21-22 dekabr tarixlərində laboratoriyanın təşkilatçılığı ilə keçirilən "Dünya azərbaycanlıları: tarix və müasirlik" konfransında dinlənilən məruzələrin əsasında hazırlanmış məqalələr daxil edilmişdir.

Qeyd edək ki, birincisi universitetdaxili, gələcəkdə isə daha geniş auditoriya üçün nəzərdə tutulmuş bu konfrans ilk təcrübə idi və bakalavr, magistr və doktorantura pillələrində təhsil alan gənclərin elmi araşdırmalara olan maragını artırmaq, onlara öz potensiallarını nümayiş etdirmək, fikirlərini sərbəst ifadə etmək imkanı yaratmaq məqsədilə reallaşdırılmışdır. Bu səbəbdən konfransda iştirak etmək üçün Təşkilat Komitəsinə edilən 53 müraciətə diqqətlə yanaşılmış, məqalələr 3 mərhələli mütəxəssis rəyindən keçirilmiş və müsbət rəy almış 43 məruzənin müəllifi çıxış etmək imkanı əldə etmişdir.

BDU-nun Tarix fakültəsində keçirilən konfrans ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmış və KİV tərəfindən geniş işıqlandırılmışdır.

Təqdim olunan məqalələr gənc araşdırmaçıların Təşkilat Komitəsi tərəfindən təqdim edilən "***Azərbaycanın ərazisi və əhalisi (XIX-XXI əsrlər)***", "***Dünya Azərbaycanlılarının həmrəylik günü və Azərbaycançılıq ideologiyasına elmi-nəzəri baxış***", "***Azərbaycan mühacirətinin tarixindən***", "***Azərbaycan diasporu və onun fəaliyyət istiqamətləri***", "***Azərbaycan Respublikası müstəqillik illərində"*** kimi elmi araşdırma istiqamətlərinə maraq göstərdiklərini göstərdi.

Redaksiya heyəti ümid edir ki, ənənəvi keçirilməsi nəzərdə tutulan bu konfrans və onun toplunun V xüsusi buraxılışında çap edilən materialları gənc tədqiqatçıların, tələbələrin araşdırmalara olan marağını daha da artıracaq və onları konfransda hakim olan fikir plüralizmi şəraitində yeni araşdırmalara, elmi yeniliklərə və fikirlərə sövq edəcəkdir.

***REDAKSİYA HEYƏTİ***

## MÜNDƏRİCAT

### I BÖLMƏ. AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ (XIX-XXI ƏSRLƏR)

***Abdullayev Allahşükür Əbülfəz o.***
XX əsrin II yarısında Azərbaycanda etno-demoqrafik proseslər 8
***Cabbarova Aytac Şahin q.***
Qədim Azərbaycan yurdu Naxçıvanın XIX əsrin I yarısında ərazisi və əhalisi 15
***İslamova Zəhra Rüstəm q.***
Azərbaycan bölgələrinin etno-siyasi və demoqrafik vəziyyəti (XVIII-XIX əsr mənbələri əsasında) 20
***Kərimli İlahə Əlizamin q.***
XIX əsrin I yarısında Rusiya -İran müharibələri və onların Azərbaycandakı etno-siyasi vəziyyətə təsiri 26
***Məmmədova Arzu Əşrəf q., Paşayeva Ulduz Miri q.***
Müstəqillik illərində Şəki rayon əhalisinin təhsil səviyyəsi (1999-cu il-2009-cu il siyahıyaalma materialları əsasında) 32
***Mirzəyeva Nəsibə Eldar q.***
Gürcüstan azərbaycanlıları: dünən və bu gün 51
***Mustafayeva Lamiyə Nizami q.***
Azərbaycan I Dünya müharibəsi illərində (1914-1918-ci illər) 58
***Novruzova Xəyalə Ceyhun q.***
1918-ci il Mart qırğınlarının tarixşünaslığı 63
***Şirvanova Təranə Əmirağa q.***
Rusiyanın Şərq siyasətində erməni amilinin tətbiqinin xüsusiyyətləri 69
***Ümid Niayeş***
İranın müasir tarix dərsliklərində türklər (2012-2016-cı illər) 80

### II BÖLMƏ. DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA ELMİ-NƏZƏRİ BAXIŞ

***Babaxani Nərgiz Pərviz q.***
Dünya azərbaycanlıları anlayışının yaranması və bu mövzuda tədqiqatlar 88
***Bayramova Günay Vahid q.*** 95
Azərbaycan xalqının təşəkkülü prosesinə elmi-nəzəri baxış

***Əzimov Orxan Rasim o.***
Cəlilabadda milli azadlıq hərəkatı və SSRİ-İran İslam Respublikası sərhəd dirəklərinin dağıdılması 101
***Hacıyeva Elmira Əli q.***
Azərbaycan tarixi kitabları və onlarda Azərbaycan xalqının yaranışı və etnogenezis məsələsi 107
***Hüseynova Leyla Əhliman q.***
Dünya Azərbaycanlılarının təşkilatlanması Heydər Əliyevin Azərbaycan tarixi məsələlərinin tərkib hissəsi kimi 112
***Nuriyev Sədulla Kənan o.***
Məhəmməd Əmin Rəsulzadənin əsərlərində Azərbaycan tarixi məsələləri 120
***Yusifli Aytəkin Çingiz q.***
Azərbaycançılıq ideologiyasının yaranması 128

**III BÖLMƏ. AZƏRBAYCAN MÜHACİRƏTİNİN TARİXİNDƏN**

***Abbasova-Quliyeva Aytən Zabil q.***
Əlimərdan bəy Topçubaşovun AXC-ABŞ münasibətlərinin qurulmasında xidmətləri 136
***Cəlilov Elman Kamal oğlu***
Azərbaycanlıların II Dünya müharibəsi illərində ön və arxa cəbhədəki fəaliyyəti 141
***Əsgərli Aysel Şiralı q.***
Ceyhun Hacıbəyli Azərbaycan mühacirətinin nümayəndəsi kimi 147
***Kərimova Ayan Polad q.***
Azərbaycan legionu II Dünya müharibəsində 153
***Qasımova Mərziyə İbrahim q.***
Azərbaycan mühacirət ədəbiyyatı və Almas İldırım 156
***Məmmədli Minə Tofiq q.***
Azərbaycan II Dünya müharibəsi illərində-Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski 162
***Məmmədova Kəmalə İbadəddin q.***
II Dünya müharibəsi illərində Almaniya siyasi dairələrinin "Azərbaycan planı"nda siyasi mühacirlər və legionerlər 166
***Musayeva Sübhanə Şahin q.***
Azərbaycanın mühacirətdəki ictimai xadimi-Əhməd Ağaoğlu 174
***Müzəffərli Xoşbəxt Çingiz q.***
Azərbaycan mühacirəti: Mirzə Bala Məmmədzadə 181

***Üzeyirova Tünzalə Əbil q.***
Azərbaycanın ictimai fikrində Əli bəy Hüseynzadə 187
***Zeynalova Gülər Kamil q.***
Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin mühacirət tarixində rolu 194

## IV BÖLMƏ. AZƏRBAYCAN DİASPORU VƏ ONUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

***Əhmədli Mütübə Şahlar q.***
Azərbaycan diasporu və onun Pakistanda fəaliyyəti 201
***Əhmədzadə Qızyetər Abdurrahman q.***
Azərbaycan diasporunun Fransadakı fəaliyyətinə baxış 206
***İbadullayeva Lalə İbadulla q.***
Azərbaycan diasporu və Dağlıq Qarabağ münaqişəsinin həqiqətləri 212
***İsmayılzadə Əfruz Sahib q.***
Dünya azərbaycanlılarının qurultayları 218
***Kərimova Nərgiz Tofik q.***
Rusiyada Azərbaycan diasporu və fəaliyyət istiqamətləri 222
***Nağıyeva Kamilə Nuru q.***
Azərbaycan diasporunun ABŞ-dakı fəaliyyətinə dair 228
***Rəsulov Elşən Salman o.***
Dünya azərbaycanlılarının I qurultayına dair 236

## V BÖLMƏ. AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

***Allahverdiyeva Fəridə Məhəmmədəli q.***
Dağlıq Qarabağ problemi və bölgə ermənilərinin etnik kimliyinə dair 244
***Əhmədova Həmidə Etibar q.***
Azərbaycan-NATO münasibətlərində enerji təhlükəsizliyi məsələləri 249
***Əsədzadə Ləman Eynulla q.***
Azərbaycan torpaqlarına ermənilər tərəfindən ərazi iddialarının tarixinə dair 255
***Hüseynova Nigar Samir q.***
Dağlıq Qarabağ münaqişəsi: erməni diasporunun bu istiqamətdə fəaliyyəti 259
***İsmayılova Aygün Vilayət q.***
Müstəqillik illərində Azərbaycan-Çexiya əlaqələri 265
***Qurbanzadə Billurə Siyavuş q.***
Müstəqillik illərində Azərbaycan Respublikasının Uzaq-Şərq ölkələri 272

ilə mədəni əlaqələri
***Məhiyeva Vüsalə Ənvər q.***
Oğuz rayonu Dağlıq Qarabağ müharibəsi illərində 280
***Muradova Nərmin Mustafa q.***
Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən işğalı, qaçqın və məcburi köçkünlərin problemi 285
***Nəbiyeva Səidə Vahid q.***
Müstəqillik illərində əlifba islahatı 290

## VI BÖLMƏ . ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

***Babayeva Həbibə Marif q.***
XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı şəhər memarları 296
***Əsədov Murad Elçin o.***
Gürcüstandakı etnik münaqişələr zamanı yaranan miqrasiyalar (Abxaziya və Cənubi Osetiya timsalında). 302
***Həsənova Aysel Vaqif q.***
Azərbaycan Respublikası müstəqillik illərində: kitabxanaların yanaşması (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanasının materialları əsasında) 319
***Həsilova Sona Namiq q.***
Qonşu dövlətlərdə mövcud olan Azərbaycan məktəbləri 327
***Leyla Vaqif qızı***
Azərbaycanın Şimal-Qərb rayonlarında kitabxanaların fəaliyyəti 333
***Şirinova Əminə Qasım q.***
Azərbaycanda turizm sahəsində dövlət siyasəti 340

"Dünya azərbaycanlıları: tarix və müasirlik" elmi-nəzəri toplusunun I-IV buraxılışlarında çap olunan məqalələr 347
Məqalələrin qəbulu şərtləri 351

# I BÖLMƏ. AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ (XIX-XXI ƏSRLƏR)

## XX ƏSRİN II YARISINDA AZƏRBAYCANDA ETNO-DEMOQRAFİK PROSESLƏR (1959-1979-CU İL SİYAHIYAALMALARINA ƏSASƏN)

**Abdullayev Allahşükür Əbülfəz oğlu**
**Tarix fakültəsi, bakalavr, IV kurs**
**abdullayevallahsukur@gmail.com**

*Məqalədə statistik materiallar əsasında XX əsrin II yarısında Azərbaycan əhalisinin etnik tərkibi, xalqların sayının dəyişməsi araşdırılır. Mənbələr təsdiq edir ki, XX əsrdə Azərbaycanda yaşayan əhali arasında üstünlüyü azərbaycanlılar təşkil etmişdir. Etnodemoqrafik göstəricilərə əsasən azərbaycanlıların sayı faiz etibarilə artmış, digər xalqların göstəriciləri isə stabil olmamışdır.*
***Açar sözlər**: Azərbaycan, əhali, etno-demoqrafik göstəricilər*

***The Ethno-demographical processes in Azerbaijan at the II half of the 20th century***
*The ethnic composition of Azerbaijan population, changing of population size in the second half of the 20th century are investigated in the article based on statistic materials. The sources prove that, Azerbaijanis outweigh in number of population inhabited in Azerbaijan in the 20th century. According to ethnographic factors numbers of Azerbaijanis had increased by percentage whereas other nationals' indicators hadn't remained stable.*
***Key words:** Azerbaijan, population, ethno-demographic factors*

**Giriş.** "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı üzrə dövlət proqramı" və Azərbaycan Respublikası əhalisinin say tərkibinin öyrənilməsi ilə Dövlət proqramları, əhalinin say tərkibinin öyrənilməsinə və bu sahədə tədqiqatlar aparmağa böyük ehtiyac olduğunu göstərir. Həmçinin etno-demoqrafik proseslərə təsir edən amillər, bu amillərin say tərkibinə təsiri, əhalinin psixologiyasında və həyat tərzində hansı xüsusiyyətlərin formalaşmasında rolu və digər məsələlərin öyrənilməsi də ən vacib məsələlərdəndir.

**Əhalinin milli tərkibi.** İstınad etdiyimiz əsas satistik qaynaq olan 1959 və 1979-cu il siyahıyaalmalarına əsasən Azərbaycanda əhalinin milli tərkibi aşağıdakı kimi olmuşdur: 1959-cu il siyahıyaalmasına görə, azərbaycanlı əhalinin sayı 2.494.381, rusların sayı 501.282, ermənilərin sayı 442.089, gürcülərin sayı 9.526, avarların sayı 17.254, ləzgilərin sayı 98.211, osetinlərin sayı

2.114, yəhudilərin sayı 29.350, tatların sayı 5.887, kürdlərin sayı 1.487 nəfər olmuşdur. Qeyd olunan göstəricilər əhalinin şəhər və kəndlər üzrə yerləşməsi əsasında nəzərə alınmışdır. Şəhər əhalisi üzrə hər iki cinsin say göstəriciləri bu cür təsnif olunmuşdur: azərbaycanlılar 927.451, ruslar 440.039, ermənilər 268.722, gürcülər 4.243, avarlar 761, ləzgilər 29.946, saxurlar 74, osetinlər 1.966, yəhudilər 28.454, talışlar 74, kürdlər 654 nəfər. Kənd əhalisi üzrə kişilərin göstəriciləri: azərbaycanlılar 744.702, ruslar 29.750, ermənilər 83.355, gürcülər 2.506, avarlar 7.811, ləzgilər 32.779, saxurlar 1.238, osetinlər 77, yəhudilər 438, talışlar 6, tatlar 9, kürdlər 416 nəfər idi. Kənd əhalisi üzrə qadınların göstəriciləri: azərbaycanlılar 822.228, ruslar 31.493, ermənilər 90.012, gürcülər 2.777, avarlar 8.682, ləzgilər 35.486, saxurlar 1.564, osetinlər 71, yəhudilər 458, talışlar 5, tatlar 13, kürdlər 417 nəfərdən ibarət idi. 1979-cu il siyahıyaalma materialları əhalinin say tərkibində artımı göstərir: azərbaycanlılar 3.776.778, ruslar 510.059, ukraynalılar 29.160, gürcülər 13.595, ermənilər 483.520, avarlar 30.735, ləzgilər 37.250, saxurlar 6.208, osetinlər 2.315, tatarlar 31.353, yəhudilər 59.392, tatlar 7.769, udinlər 5.492, kürdlər 5.488 nəfər olmuşdur (1).

1959-cu il statistik göstəriciləriunə bir çox hadisələr təsir göstərmişdi. Represiyalar, II Dünya müharibəsi, ərzaq qıtlığı, deportasiyalar əhalinin say tərkibinə təsir göstərən, kütləvi ölüm hallarının qeydə alındığı ən mühüm hadisələr idi. İ.Stalin diktaturası dönəminin müharibədən sonrakı son 8 ilində də vəziyyət ürəkaçıcı deyildi. Düzdür, həmin dönəmdə İ.Stalin repressiyaları əvvəlki kimi kütləvi xarakter daşımasa da, öz təsirini göstərməkdə davam etmişdir. Müharibənin bitməsi və Sovet İttifaqının 14 qalib ölkə statusunda olması şübhəsiz ki, əhalinin həyat səviyyəsinin, sosial-iqtisadi həyatın nisbətən yüksəlişinə səbəb olmuşdu. Xüsusilə də əsgərlikdən tərxis olunmuş yüz minlərlə kişi əhalinin evlərinə geri dönməsi demoqrafik proseslərin normallaşmasına təsir göstərmişdi.

Burada 1947-53-cü illərdə demoqrafik proseslərə təsir göstərən iki qərarı xüsusi qeyd etmək istərdik: 1: 1947-ci il 23 dekabr 4083 saylı -"Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar. Bu qərarın 1-ci maddəsində deyilirdi ki, "1948-1950-ci illərdə Ermənistan SSR-dən könüllülük əsasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına 100 min kolxozçu və başqa azərbaycanlı köçürülsün, onlardan 10 min nəfər-1948-ci ildə, 40 min nəfər - 1949-cu ildə, 50 min nəfər-1950-ci ildə"; 2: 1948-ci il 10 mart tarixli 754 saylı "kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" qərar idi. Birinci qərarda "könüllülük" ifadəsinin həmin qərarın repressiv mahiyyətini ört-basdır etmək üçün işlədildiyinə heç bir şübhə yeri

qalmır. Belə ki, ikinci qərarın axırıncı - 11-ci maddəsində deyilir ki, "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə edilsin". Həmin qərarların əsasında 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfər azərbaycanlı öz tarixi ərazilərindən yük vaqonlarına doldurularaq Azərbaycanın adı çəkilən bölgəsinə sürgün edildilər. Əsasən Ermənistanın dağlıq rayonlarından köçürülən bu əhalinin heç bir nəfərinə Dağlıq Qarabağda məskunlaşmağa icazə verilmədi. Kür-Araz ovalığının iqliminə adaptasiya ola bilmədikləri üçün və yaşayış şəraitində ciddi çatışmazlıqların olması üzündən bu əhalinin təxminən üçdə biri aclıq və xəstəliklər nəticəsində həlak oldu. İ.Stalin öləndən sonra deportasiya prosesi dayandırıldı və əhaliyə Ermənistanda boş, baxımsız qalmış ev-eşiklərinə dönməsinə icazə verildi. Bunun nəticəsində salamat qalanların 40-45%-i bütün çətinliklərə və təzyiqlərə baxmayaraq, öz doğma torpaqlarına qayıtdılar. Qeyd etmək lazımdır ki, icazənin verilməsi təsadüfi deyildi. Belə ki, Ermənistanda əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabalığa çevrilmişdi. Ermənistanın KP MK-nın 1975-ci il yanvar plenumunda deyilmişdir ki, həmin kəndlərin 476-dan çoxu istifadəsiz qalmışdır. Erməni millətçilərinin özləri də 90-cı illərdə etiraf etmişlər ki, azərbaycanlıların köçürülməsi ilə bağlı boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn ermənilərin yerləşdirilməsi üçün istifadə edilməmişdir. Beləliklə, İ.Stalin repressiyalarının son akkordlarının yer aldığı 1946-1954-cü illəri əhatə edən bu dövrdə ən çox ziyan çəkən Azərbaycan xalqı olmuşdur.

Bütün baş verənlərin fonunda bu dövrdə, xüsusilə də 1950-1955-ci illərdə Azərbaycanın əhalisi kifayət qədər yüksək templərlə artmışdır. Bu artımda Rusiyadan Azərbaycana miqrasiyanın davam etməsi də az rol oynamamışdır. Bütövlükdə əhalinin sayı 20%-dən çox artmışdır. Orta illik artım 122,7 min nəfər və ya 3%-dən bir qədər yüksək olmuşdur. Bu dövrü Azərbaycan üçün demoqrafik sıçrayış və ya demoqrafik partlayış dövrü hesab etmək olar. Əhali artımı 14,6% təşkil etmiş və orta illik artım 83,7 min nəfər və ya 2,8% olmuşdur. 1955-1970-ci illər Azərbaycanın demoqrafik tarıxində ən uğurlu dövr kimi təsbit edilmişdir. 15 ili əhatə edən bu dövrdə əhalinin sayı 56,1% artmışdır. Bu dövrdə əhalinin say dinamikasında miqrasiya proseslərinin heç bir rolu olmamış, əhali təbii artım hesabına yüksək templərlə artmışdır. Xüsusilə 1959-1962-ci illərdə əhalinin sayı çox yüksək templərlə artmış və orta illik artım 3,7%-ə bərabər olmuşdur. Azərbaycan tarixində ən yüksək əhali artımı isə 1960-cı ildə - 4,1% qeydə alınmışdır. Həmin illərdə əhalinin təbii artım templərinə görə Azərbaycan nəinki SSRİ-nin digər müttəfiq respublikaları ilə müqayisədə ilk sıralarda yer almışdır. Bu dövrdə Azərbaycanda demoqrafik sıçrayışa səbəb olan

başlıca amillər SSRİ-nin iqtisadiyyatında, xüsusilə də siyasi həyatında iri miqyaslı müsbət dəyişikliklərin baş verməsi idi. Belə ki, bu dövr stabil yüksək iqtisadi və texnoloji inkişafın və ictimai həyatın bütün sahələrində böyük irəliləyişlərin baş verməsi ilə fərqlənirdi. SSRİ hökümətinin daxili siyasətində baş verən köklü islahatlar nəticəsində isə əhali repressiv hakimiyyət orqanlarının zülmündən və qorxu-hürküsündən azad oldu. Sürgündə və həbsdə olan milyonlarla əhaliyə öz doğma torpaqlarına və ev-eşiklərinə dönməsinə icazə verildi (Krım tatarları, Axıska türkləri və almanlar istisna olmaqla). Əhalinin sosial və iqtisadi fəallığını məhdudlaşdıran bir çox qadağalar aradan götürüldü. Məsələn, əhaliyə elmi texniki nailiyyətlərdən faydalanmağa, o cümlədən şəxsi nəqliyyat vasitələrinə sahib olmağa icazə verildi. Kəndlilərə öz həyətyanı sahələrində sərbəst təsərrüfat fəaliyyəti ilə məşğul olmağa və əldə etdikləri məhsulları istədikləri yerdə, istədikləri qiymətə pərakəndə satışına şərait yaradıldı. Bütün bu müsbət dəyişikliklər nəticəsində Azərbaycan əhalisinin, xüsusilə də kənd əhalisinin rifah səviyyəsi olduqca yüksəldi. Belə ki, öz həyətyani ərazilərində bol meyvə-tərəvəz yetişdirmiş kəndlilər bu məhsulları Rusiyanın iri şəhərlərində, xüsusilə Moskva bazarlarında daha baha qiymətə satmağa və yüksək gəlir əldə etməyə imkan tapdılar. Bütün bunlarla yanaşı qeyd edək ki, bu dövrdə əhalinin təbii artımının kəskin şəkildə yüksəlməsinə birbaşa təkan verən başlıca amil 50-ci illərdə tibb sahəsində inqilabi yeniliklərin baş verməsi idi. Bu yeniliklərin SSRİ-də, o cümlədən Azərbaycanda kütləvi şəkildə tədbiq edilməsi nəticəsində körpə ölümü sürətlə aşağı düşmüşdür. Təsadüfi deyildir ki, bu dövrdə təkcə Azərbaycanda deyil, doğum əmsalının yüksək olduğu və yeni tibbi preparatların tədbiq edildiyi bütün dünya ölkələrində əhalinin təbii artımında sıçrayişlı yüksəliş olmuşdur (2,səh.34).

1959-1960-cı illərdə Azərbaycanda yaşayan əhalinin ümumi sayındakı artım, milli tərkibə də öz təsirini göstərmişdi. Məsələn, burada yaşayan ruslar arasında doğum əmsalı ermənilərlə müqayisədə 1,5 dəfə, azərbaycanlılarla müqayisədə isə 2,1 dəfə aşağı olsa da, 1959- 1970-ci illər ərzində Azərbaycanda rusların sayı ümumilikdə 1,8% artmışdı. Ruslarla müqayisədə ermənilərin sayı gözə çarpacaq dərəcədə artmışdı. Ancaq artıq onlarda da təbii artım azərbaycanlılarla müqayisədə olduqca aşağı idi. 1950-70-ci illərdə Azərbaycanda yaşayan digər xalqların, məsələn, avarların, saxurların və özəlliklə də kürdlərin sayının kəskin şəkildə artması (orta hesabla 2 dəfə) isə başlıca olaraq, 1970-ci il əhali siyahıyaalmasında onların etnik tərkibinin daha düzgün qeydə alınması ilə bağlı idi. Ləzgilərin, gürcü kimi qeydə alınan ingiloyların və tat kimi qeydə alınan dağ yəhudilərinin sayının yüksək templərlə artması isə əsasən təbii artım hesabına mümkün olmuşdur. Yəhudilərin, tatarların və ukraynalıların demoqrafik göstəriciləri isə demək

olar ki, ruslarla eyni idi. Ona görə də onların sayının artımı aşağı olmuş və əhalinin etnik tərkibində bu millətlərin xüsusi çəkisinin də xeyli aşağı düşməsinə səbəb olmuşdur. Qeyd edək ki, 1970-ci ildə Azərbaycanda 8,5 min nəfər türk qeydə alınmışdı. Məsələ burasındadır ki, 1944-cü ildə Gürcüstandan Orta Asiya və Qazaxıstana deportasiya edilmiş Axıska türklərinin bir qrupuna 1958-ci ildən başlayaraq Azərbaycanda məskunlaşmağa icazə verilmişdi. Onlar əsasən Saatlı rayonunda məskunlaşmışdılar.

**Cədvəl 1**

**Azərbaycan əhalisinin etnik tərkibi (1959,1970 və 1979-cu il siyahıyalınmalara əsasən)**

| Milliyyətlər | 1959-cu il | | 1970-ci il | | 1979-cu il | |
|---|---|---|---|---|---|---|
| | Min nəfər | % | Min nəfər | % | Min nəfər | % |
| Azərbaycanlılar | 2494,4 | 67,4 | 3776,8 | 73,8 | 4708,8 | 78,1 |
| Ermənilər | 442,1 | 11,9 | 483,5 | 9,4 | 475,4 | 7,9 |
| Ruslar | 501,3 | 13,6 | 510,1 | 10,0 | 475,3 | 7,9 |
| Ləzgilər | 98,2 | 2,7 | 137,3 | 2,7 | 158,1 | 2,6 |
| Avarlar | 17,3 | 0,5 | 30,7 | 0,6 | 36,0 | 0,6 |
| Saxurlar | 2,9 | 0,1 | 6,2 | 0,1 | 8,5 | 0,1 |
| Yəhudilər | 40,2 | 1,1 | 41,3 | 0,8 | 35,4 | 0,6 |
| Tatarlar | 29,6 | 0,8 | 31,8 | 0,6 | 31.4 | 0.5 |
| Ukraynalılar | 25,8 | 0,7 | 29,2 | 0,6 | 8,8 | 0,1 |
| Gürcülər | 9,5 | 0,2 | 13,6 | 0,3 | 11,4 | 0,2 |
| Tatlar | 5,9 | 0,2 | 7,8 | 0,2 | 8,8 | 0,1 |
| Kürdlər | 1,5 | 0,0 | 5,5 | 0,1 | 5,7 | 0,1 |
| Talışlar | 5,9 | 0,2 | 7,8 | 0,2 | 8,8 | 0,1 |
| Başqaları | 29,0 | 0,8 | 43,3 | 0.8 | 45,3 | 0,8 |
| Bütün əhali | 3697,7 | 100 | 5117.1 | 100 | 6026,5 | 100 |

**Mənbə:** Şahbaz Muradov, Çingiz Baxış. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər:dəyişkənliklər və reallıqlar (2, səh.76).

Bu 11 ildə təbii artımın çox yüksək olması sayəsində azərbaycanlıların sayı 51,4% artmışdı. 1960-cı illərin əvvəllərində azərbaycanlıların sayının orta illik artım tempi 4%-dən çox olmuşdur. Orta Asiyanın yerli xalqlarını çıxmaq şərti ilə SSRİ-nin digər respublikalarında belə təbii artım tempi qeydə alınmamışdır. Bu dövrdə Gürcüstandan və Ermənistandan Azərbaycana miqrasiya edən soydaşlarımızın sayı təxminən 25-30 min nəfər olmuşdur ki, bu da bütövlükdə azərbaycanlıların sayının artımına çox cüzi təsir göstərmişdir. Azərbaycanlıların əhalinin etnik tərkibində xüsusi çəkisi də intensiv olaraq artaraq 67,4%-dən 73,8%-ə qədər yüksəlmişdi. Bakı əhalisinin tərkibində isə azərbaycanlıların xüsusi çəkisi daha sürətlə artmış

və 1959-cu ildəki 37,8%-dən 1970-ci ildə 46,3%-ə yüksəlmişdi. Xatırladaq ki, 1959-cu ildə olduğu kimi 1970-ci ildə də talışlar və tatlar azərbaycanlı kimi qeydə alınmışdılar. Əgər tatların əksəriyyəti artıq azərbaycanlılarla qaynayıb qarışmış hesab edilə bilərdilərsə, talışlar haqqında bunu demək yanlış olardı. Talışların əksəriyyəti kompakt yaşadıqları üçün ana dillərini və etnik kimliklərini qoruyub saxlayırdılar. 1960-cı illərin ortalarından başlayaraq Azərbaycanda doğumun və uyğun olaraq təbii artımın səviyyəsi sürətlə aşağı düşməyə başladı. Bütün millətlərdə, o cümlədən azərbaycanlılarda gedən bu prosesin bir sıra səbəbləri var idi. Bu səbəblər arasında ən başlıcası müharibə illərində doğulan nəslin olduqca az saylı olması idi. Bu nəslin nikah yaşına çatması 1960-cı illərin ortalarına təsadüf etdiyi üçün həmin dövrdə nikahda olanların sayının artımı kəskin şəkildə aşağı düşmüşdü. Buna uyğun olaraq doğumun səviyyəsi də aşağı düşməyə başlamışdı. Doğumun aşağı düşməsinə şəhərləşmə prosesinin güclənməsi də xeyli təsir göstərmişdir: Şəhər həyat tərzi, yeni dəyərlər sistemi, qadınların sosial aktivliyinin yüksəlməsi və onların evdən kənarda işə cəlb edilməsi ailədə uşaqların sayının məhdudlaşdırılması meyllərinin yayılmasına təkan verirdi. Böyük əksəriyyəti şəhərlilərdən ibarət olan ermənilərdə doğum və təbii artımın aşağı düşməsi prosesi daha sürətlə getmişdir. 1970-ci ildə artıq ermənilərdə doğumun səviyyəsi ruslarda olduğu səviyyəyə yaxın idi. Qeyd edək ki, 1970-ci ildə təkcə Bakıda 207,5 min nəfər erməni yaşayırdı ki, bu da bütün Azərbaycanda yaşayan ermənilərin 43%-nə bərabər idi. 1970-ci illərdə əsasən azərbaycanlılar arasında doğumun səviyyəsi stabilləşməyə başladı, çünki ailənin planlaşdırılması meyllərinin güclənməsi müharibədən sonrakı illərdə doğulan çoxsaylı koqortaların nikah yaşına girməsi ilə kompensasiya olunurdu. Ona görə də, əhalinin etnik tərkibinin dinamikasında 1959-1970-ci illərdə müşahidə edilən tendensiyalar 1970 və 1979-cu illər arasındakı dövrdə də davam etmişdir. Əhalinin tərkibində azərbaycanlıların xüsusi çəkisi artmaqda davam etmiş, rusların və ermənilərin xüsusi çəkisi isə başlıca olaraq, doğumun azalması səbəbi ilə aşağı düşmüşdür. 1970-1979-cu illərdə azərbaycanlıların sayının orta illik artımı əvvəlki sayımlar arası dövrdəkinə nisbətən bir qədər azalmışdı. Ancaq eyni zamanda bu dövr rusların, eləcə də yəhudilərin və ukraynalıların sayının xeyli azalması ilə müşahidə edilmişdir. Qeyd edək ki, 1979-cu ildə artıq ermənilərin 75,6%-i, rusların isə 94,1%-i şəhər əhalisi idi. Bütövlükdə bu dövrdə əksəriyyəti kənd əhalisi olan ləzgiləri, avarları və saxurları çıxmaq şərti ilə bütün etnik azlıqların sayı ya azalmış, ya da çox az artmışdı. Bunun əsas səbəblərindən biri də respublikalararası miqrasiya proseslərinin intensivləşməsi idi. Daha doğrusu, bu dövrdən başlayaraq Azərbaycan öz tarixində ilk dəfə olaraq miqrantlar qəbul edən ölkədən miqrant göndərən ölkəyə çevrildi. Milliyyə-

tindən asılı olmayaraq bütün gənc əhali arasında Rusiyaya, eləcə də SSRİ-nin bir sıra başqa bölgələrinə miqrasiya edənlərin sayı durmadan artmaqda idi. Bunun da əsas səbəbi əhalinin həyat səviyyəsinə görə Azərbaycanla SSRİ-nin bir çox bölgələri arasında böyük fərqlərin yaranması idi. Təkcə onu qeyd etmək kifayətdir ki, bu dövrdə Azərbaycanda adambaşına düşən illik büdcə həcminə görə nəinki Rusiyadan və SSRI-nin bütün qərb respublikalarından, hətta, qonşu Gürcüstandan və Ermənistandan olduqca geri qalırdı. Bu dövrdə Gürcüstandan və xüsusilə Ermənistandan Azərbaycana miqrasiya edən soydaşlarımızın da sayı xeyli artmışdı. Belə ki, bizim hesablamalarımıza görə 9 illik dövrdə (1970-1979-cu illər) bu respublikalardan Azərbaycana köçən soydaşlarımızın sayı təxminən 40 min nəfər idi. Ancaq ölkədən kənara miqrasiya edən azərbaycanlıların sayı daha çox idi. Azərbaycanlı, ləzgi, avar və saxurlarda əhalinin təbii artımı ruslarla, ermənilərlə və başqaları ilə müqayisədə yüksək olduğu üçün onların sayının dinamikasında miqrasiya proseslərinin təsiri zəif idi (2,səh .37).

**Nəticə.** Beləliklə, 1959 və 1979-cu il əhali siyahıya alınmalarına əsasən həmin dövrdə respublika əhalisinin say tərkibinin artmasının qeydə alınmışdır. Azərbaycanda yaşayan əhalinin milli tərkibi rəngarəng olsa da sayca üstün mövqe azərbaycanlıların payına düşürdü.

**Ədəbiyyat siyahısı:**

1. Разработочные таблицы со сведениями о численности и распределение наличного городского и сельского населения обоего пола по национальности, имеющего занятия и уровню образования по районам Азерб.ССР, Нах.АССР и НКАО (табл. 12 А), 1979 // ЦСУ Азербайджанской ССР Отдел Переписи населения Ф.2511 Оп.8 Ед.хр.60 Св.№2, 1959.

2.Şahbaz Muradov və Çingiz Baxış. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: dəyişkənliklər və reallıqlar. Bakı: 2013, 135 s.

3.İbrahim Ağayev. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı: 2006, 280 s.

4.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsini saytı //hhttp:// www.stat.gov.az

# QƏDİM AZƏRBAYCAN YURDU NAXÇIVANIN XIX ƏSRİN I YARISINDA ƏRAZİSİ VƏ ƏHALİSİ

**Cabbarova Aytac Şahin qızı**
**Tarix fakültəsi, bakalavr, I kurs**
**aytaccabbarova99@mail.ru**

*Tarixi Azərbaycan torpaqları, o cümlədən Naxçıvan ərazisi yadelli işğalçıların, xüsusən də mənfur düşmənlərimizin daim diqqət mərkəzində olub. Ermənilər özlərini Cənubi Qafqazın ən qədim sakinləri sayır və bunu sübut etmək üçün, öz yalanları ilə Naxçıvanı özlərinə aid edərək böyük səylə tarixi faktları saxtalaşdırmağa çalışırlar. Məqalənin yazılmasında məqsəd tarixi mənbələrə əsaslanaraq qədim torpağımız olan Naxçıvanın ərazisi və əhalisinin sayına, etnik tərkibinə bir daha nəzər salmaqdır.*
***Açar sözlər:*** *Azərbaycan , Erməni vilayəti , Naxçıvan qəzası , Rusiya*

***Ancient land of Azerbaijan Nakhchivan`s territory and population in the first part of XIX century***

*Historical lands of Azerbaijan, also Nakhchivan territory was the center of attention of foreign invaders, especially the nasty enemies all times. Armenians consider themselves the most ancient inhabitants of the South Caucasus and try to prove it with their falses. The paper dials with the Nakhchivan's territory and population, ethnic composition.*
***Key words:*** *Azerbaijan, Armenian province, Nakhchivan district, Russiya*

Xarici havadarların yardımı ilə 1918-ci ildə Qərbi Azərbaycan ərazisində dövlət yaradan ermənilər saxta Naxçıvan tarixşünaslıq “məktəbi”ni yaratdılar. Onlar bu ərazilərə gəlmə olduqlarını qəbul etmir, özlərini Naxçıvanın yerli əhalisi sayırdılar. Əlbəttə ki, bu cür iddianı faktlarla susdurmaq olardı. Naxçıvanın XIX əsrin I yarısına aid ərazisinin və etnik tərkibinin araşdırılması və 180 il əvvəl buraya köçmüş ermənilərə Naxçıvanın yerli əhalisi olmadıqlarını sübut etmək lazım idi. 1918-1921-ci illərdə Ermənilərin Naxçıvana olan ərazi iddiaları davam edirdi. Türkiyə-RSFSR arasında bağlanmış Moskva və Qars müqavilələri Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq etdi. Moskva müqaviləsinin 3-cü maddəsində deyilir: “Razılığa gələn hər iki tərəf hazırki müqavilənin əlavəsində göstərilən sərhədlərlə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman 3-cü bir dövlətə güzəştə getməyəcəkdir” [5, s.6]. Bu şərtlər Qars muqaviləsinin 5-ci maddəsində də öz əksini tapmışdı. Ermənilər bu müqavilələrin şərtlərini pozaraq, Naxçıvana yenə də ərazi iddiaları ilə çıxış edir-

dilər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) "NMR-ın 75 illiyinin keçirilməsi haqqında" 1999-cu il 4 fevral tarixli fərmanında göstərilirdi: "Ermənistan Naxçıvan MR-ın Azərbaycan tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, iddialarından əl çəkmirdi. Ermənistanın hakim dairələri Naxçıvanın bəzi torpaqlarını qoparmağa nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi-Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçivan kəndi və Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövürlərdə də davam etmiş və indi də bu çirkin niyyətlərindən əl çəkmir" [5, s.6]. Buna görə də, bu mövzu istər XX əsrdə, istərsə də XXI əsrdə aktual olmuş və bu gün də aktuallığını saxlamaqdadır. Bu səbəbdən araşdırmamız da Naxçıvanın ərazi və əhali məsələlərinə həsr olunmuşdur.

Beləliklə, Türkmənçay müqaviləsi nəticəsində indiki Naxçıvan MR-nın da ərazisinin daxil olduğu Naxçıvan xanlığı Rusiyaya ilhaq edildi. Həmin dövrdə Naxçıvanın ərazisində və demoqrafik vəziyyətində hansı dəyişikliklərin baş verdiyinə diqqət edək. Naxçıvan xanlığı Rusiya tərəfindən zəbt edilərkən İ.Şopenə görə, Naxçıvan, Dərələyəz və Azadcirana bölünürdü. Naxçıvan Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz mahallarına ayrılırdı. Azadciran adı ilə tanınan Ordubad dairəsi Ordubad, Əylis, Dəstə, Biləv və Çananab mahallarından ibarət idi. Naxçıvan xanlığı Qacarlar dövləti sistemində Azərbaycan (Cənubi Azərbaycan) əyalətinə daxil olub, vəliəhd Abbas Mirzəyə tabe idi. 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsinə görə, Naxçıvan Rusiyaya birləşdirildi. Çar hökuməti Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Naxçıvanda da eyni siyasəti yeridir [4,s.190]. Özünün cənub sərhədlərini möhkəmləndirmək məqsədilə Naxçıvan xanlığını ləğv etdi. I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv edilən Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradıldı. Həmin inzibati bölgü 1850-ci ilə qədər davam etdi [2, s.73]. Çar fərmanında göstərilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali Senatın lazımı fərmanları olacaqdır" [3,s.29]. I Nikolayın fərmanından sonra müvəqqəti idarə vilayət idarəsilə əvəz olundu. 1830-cu ildən "Erməni vilayəti"nin idarəsi əslən erməni olan D.O.Behbudova (1793-1867) həvalə edilmişdi. D.Behbudov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqeyini möhkəmləndirməyə başlamışdı [3, s.31]. Çar hökuməti "Erməni vilayəti"

yaradıldıqdan beş il sonra, 1933-cü il iyunun 23-də "Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında əsasnamə qəbul etdi. İrəvan əyalətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə-İrəvan, Şərur, Sürməli və Sərdərabada bölündü. Dairələr də mahallardan ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati bölgüsündə qalırdı [5, s.24]. Naxçıvan əyalətində polis idarə sistemi saxlanıldı. Bu inzibati-idarə sistemi əhali arasında narazılığa səbəb oldu. Buna görə də Çar hökuməti vəziyyəti sabitləşdirmək üçün inzibati-idarə sahəsində islahatlar keçirməyə məcbur oldu. I Nikolay 1840-cı il aprelin 10-da Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar adlı sənədi imzaladı. Bu sənədə əsasən Zaqafqaziya diyarının ərazisi müəyyənləşdirildi. Xəzər vilayəti və Gürcü-İmeret quberniyası yaradıldı. Naxçıvan da Gürcü-İmeret quberniyasının bölündüyü 11 qəzadan birini təşkil etdi. Naxçıvan və Ordubad əyalətləri Naxçıvan qəzasını əmələ gətirmişdi. Naxçıvan qəzası üç sahəyə-Naxçıvan, Ordubad və Dərələyəzə ayrılırdı. Lakin 1840-cı il 10 aprel islahatı gözlənilən nəticəni vermədi. Zaqafqaziyanı yeni çıxışlar bürüdü. Çar I Nikolayın göstərişilə Qafqazda canişinlik yaradıldı. İlk canişin M.S.Vorontsov Qafqazı sakitləşdirmək məqsədilə bəzi tədbirlərə əl atdı. Çar I Nikolayın 1846-cı il 14 dekabr fərmanı ilə Zaqafqaziyanın inzibati-idarə sistemində dəyişiklik edildi. Zaqafqaziya Tiflis, Qutais, Şamaxı və Dərbənd olmaqla dörd quberniyaya bölündü. İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi Tiflis quberniyasına verildi. Lakin bu qəzalar Tiflis quberniyasının tərkibində çox qalmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyası yaradıldı. Bu quberniya yaradılan zaman Naxçıvan bölgəsinin ərazisi İrəvan qəzasının Şərur sahəsini, Naxçıvan qəzasının Naxçıvan sahəsini və Ordubad qəzasını əhatə edirdi. Bütün keçmiş "Erməni vilayəti", o cümlədən Aleksandropol qəzası və Mehri sahəsinin bir hissəsi İrəvan quberniyasının tərkibinə verildi. Quberniya beş qəzaya-Naxçıvan, İrəvan, Aleksandropol, Novobəyazit və Ordubada bölünürdü [5,s.38].

Göründüyü kimi Ordubad ayrı bir qəza kimi ayrılmışdı. Bəzi qəzalar da sahələrə bölünürdü. Naxçıvan qəzası isə Naxçıvan və Dərələyəz sahələrinə bölünmüşdü. Naxçıvanın mərkəzi Naxçıvan şəhəri, Dərələyəzin mərkəzi isə Keşişkənd idi. Çar Rusiyası tərəfindən bu sonuncu dəyişikliklər deyildi. Bundan sonra da bir neçə dəfə, xüsusilə, Naxçıvan bölgəsində ərazi dəyişiklikləri həyata keçirilib. Bütün siyasət əsas etibarilə Naxçıvan torpaqlarını Azərbaycandan ayırmaq idi. Lakin heç bir inzibati-ərazi bölgüsü Naxçıvan ərazisinin Azərbaycandan ayrılmasına nail ola bilmədi. Bu dövrlə bağlı müxtəlif qaynaqlarda Naxçıvan əhalisinə dair məlumatlar var. Rusiya işğalı ərəfəsində və ilk illərində Naxçıvan bölgəsi əhalisinin sayını müəyyən etmək üçün əsas qaynaqlardan biri İ.Şopenin "Rusiya imperiyasına birləş-

dirilən dövrdə Erməni vilayətinin vəziyyətinin tarixi abidəsi" adlı əsəridir. Bu əsərdə göstərilən məlumatlara əsasən, Naxçıvan bölgəsi əhalisinin sayını müəyyən etməklə yanaşı, sonrakı dövrün vəziyyətini də izləmək mümkün olmuşdur. Əldə olan məlumata görə Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə şəhərdə 5.470 nəfər yaşayırdı. İ.Şopenin verdiyi məlumata görə, XIX əsrin 30-cu illərinin başlanğıcında Naxçıvanda 873 ailə var idi. Həmin ailələrdən 127-sini xan, bəy, sultan, yüksək rütbəli zabit, ali ruhani, axund və molla və s. ailələr təşkil edirdi. Belə ki, 127-dən 2-si xan ailəsi, 45-i bəy və sultan ailəsi, 11-i hərbi vəzifəli şəxslərin ailəsi, 2-ni ali müsəlman ruhani ailəsi, 36-nı axund və molla ailəsi, 22-ni seyid ailəsi, 3-ü dərviş ailəsi və 6-nı mirzə ailəsi təşkil edirdi. Burdan aydın olur ki, 873 ailədən yalnız 166-sını yüksək feodal məmur və ruhani ailəsi təşkil edirdi. Yerdə qalan 707 ailə isə güman etmək olar ki, sənətkar, tacir və kəndli ailələri idi [2, s. 50]. Göstərilən bu statistik rəqəmlər bizə bunu deməyə imkan verir ki, Naxçıvanda da Azərbaycanın digər şəhərlərində olduğu kimi ictimai təbəqələşmə mövcud olub. Təbiidir ki, sənətkarlar və xırda ticarətlə məşğul olanlar əhalinin ən yoxsul təbəqəsini təşkil edirdilər. Naxçıvan şəhərinin özündə də kəndli ailələri vardı. Bu digər şəhərlərə nisbətən daha çox idi. Əlbəttə ki, bu da təsadüfi deyildi. Çünki Azərbaycanın başqa şəhər-qalalarından fərqli olaraq Naxçıvan şəhər-qalasında əkinə yararlı torpaqlar daha çox idi. Mənbələrdən aldığımız məlumata görə Naxçıvan xanlığında 600 xalvar əkinə yararlı torpaq vardı. Bundan başqa Naxçıvan şəhər evlərinin həyətlərində də çoxlu üzüm və meyvə bağları vardı.

Qaynaqlardan aydın olur ki, İrəvan əyalətindən Şərur mahalı bütünlüklə, Vedibasar mahalından Sədərək kəndi, Naxçıvan əyalətindən Əlincəçay, Naxçıvan və Xok mahalları, Ordubad dairəsi isə bütünlüklə müasir Naxçıvan bölgəsinin əsasını təşkil edirdi. Həmin ərazilərə dair məlumatlara əsasən Naxçıvan bölgəsində 1829-cu ildə 8.567 ailə və ya 40.248 nəfər əhali yaşayırdı. İ.Şopenin məlumatı ilə birgə quberniya katibi Zolotnitskinin 1831-ci ildə apardığı kameral təsvirin materialları da Naxçıvan bölgəsinin əhalisi haqqında təsəvvürləri dəqiqləşdirməyə imkan verir. 1848-ci ildə yeni kameral təsviri keçirilmişdi. Lakin həmin kameral təsvirin Naxçıvan bölgəsinə dair materialları tam şəkildə bizə gəlib çatmamışdır.

1850-ci il məlumatına əsasən, həmin ildə Naxçıvan bölgəsində 56.000 ailə yaşayırdı. Həmin vaxt Ordubad qəzası ləğv olunaraq Naxçıvan qəzasına birləşdirilmişdi. Naxçıvan qəzası bütövlükdə üç sahəni Naxçıvan, Dərələyəz və Ordubad sahələrini əhatə edirdi. Tarixi Azərbaycan ərazisi olan Naxçıvanın yerli əhalisini azərbaycanlılar təşkil edirdi. Naxçıvan bölgəsinin erməni əhalisi isə buraya gəlmə idi. Gəlmə erməniləri də iki yerə bölmək olar: 1) Rusiya işğalınadək bu bölgəyə gələnlər (rus qafqazşünaslığında onlar

səhvən “yerlilər”, yaxud “ köhnədən yaşayanlar” adlandırılır), 2) İşğal zamanı və sonra gələnlər. İ.Şopenə görə, Naxçıvan əyaləti üzrə Rusiya işğalınadək gəlmə ermənilər 530 ailə (2.690 nəfər), Ordubad dairəsi üzrə 400 ailədən (2.388 nəfər) ibarət idi. Müqayisə üçün bildirək ki, həmin dövrdə azərbaycanlıların müvafiq sayı 3.863 ailə (17.138 nəfər) və 1.675 ailəni (7.247 nəfər) təşkil etmişdir. Yalnız köçürmə hesabına çar hökuməti əhalinin etnik tərkibində xeyli dəyişiklik yaratmışdı. Rusiya işğalından sonra həmin dövr üzrə Naxçıvanda 8.863 ailə qeydə alınmışdı ki, onlardan 5.538 ailə (64,49%) azərbaycanlı, 3.325 ailə (37.51%) erməni idi [5,s.72].

Naxçıvan bölgəsi əhalisinin əksərən azərbaycanlılardan ibarət olmasını toponimik materiallar da təsdiq edir. Beləliklə, istinad etdiyimiz faktlardan da göründüyü kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır və onun yerli sakinləri də azərbaycanlılardır.

**Ədəbiyyat siyahısı:**

1. И.Шопен. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. 1852,. 631 с
2. Fuad Əliyev, Mirabdulla Əliyev. Naxçıvan xanlığı. Bakı, 2007, 119 s.
3. İsmayıl Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, 2012 , 192 s.
4. İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı, 2015, 336 s.
5. Şahverdiyev Zəhmət . Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.

# AZƏRBAYCAN BÖLGƏLƏRİNİN ETNO-SİYASİ VƏ DEMOQRAFİK VƏZİYYƏTİ (XVIII-XIX ƏSR MƏNBƏLƏRİ ƏSASINDA)

**İslamova Zəhra Rüstəm qızı**
**Tarix fakültəsi, doktorant**
**ayxan.islamli@mail.ru**

*Məqalədə XVIII-XIX əsrin ilkin mənbələri əsasında Azərbaycanın etnik tərkibi, əhalisinin sayı, yerləşməsi, ölkəmizin ümumi demoqrafik vəziyyəti araşdırılmışdır. Tədqiqata cəlb edilən əsərlərin hər biri dərindən təhlil edilmiş, yerli və xarici ədəbiyyatlarla müqayisələr aparılmışdır. Tədqiqatı mühüm edən həmin mənbələr əsasında əldə edilmiş elmi nəticələr və onların tarixi gerçəkliyi əks etdirməsidir.*

***Açar sözlər:*** *Azərbaycan, etno-siyasi vəziyyət, demoqrafiya, Yevetski, Şopen*

***Sources of the XVIII-XIX centuries about ethno-political and demographic situation in the regions of Azerbaijan***

*The paper deals with the ethnic composition of the population, the location, the demographic situation of the country on the basis of the primary source of the XVIII-XIX centuries. Each of these sources, involeved in research, were analyzed and were compared with the local and foreign literature. Scientific results, which has been achieved under the investigation, are very important, because they reflect the historical reality.*

***Key words:*** *Azerbaijan, ethno-political situation, demography, Evetsky, Shopen*

Tarix elmimizin qarşısında duran vacib vəzifələrdən biri Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin hərtərəfli şəkildə araşdırılmasıdır. Xüsusilə etno-siyasi və demoqrafik proseslərin ilkin mənbələr əsasında izlənilməsi tarixi araşdırılmanın özəyidir. Müasir dövrdə Azərbaycanın tarixi vilayətlərinin etnik tərkibi, əhalisinin sayı, demoqrafik dəyişikliklərin izlənilməsi böyük elmi aktuallıq və mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, XIX əsrdə torpaqlarımızın Rusiya çarizmi tərəfindən işğal edilməsini nəzərə alaraq həmin dövrdə yazılmış əsərlərin tədqiq edilməsi, eyni zamanda digər ilkin mənbələr ilə müqayisə edilərək təhlil edilməsi Azərbaycanın demoqrafiya tarixinin öyrənilməsi baxımından mühümdür. XIX əsrdən başlayaraq Azərbaycanın siyasi, iqtisadi, mədəni və xüsusilə sosial vəziyyətini özündə əks etdirən əsərlər yazılmağa başlandı. Nəzərə alsaq ki, bu əsərlər Çarizmin işğalçı fəaliyyətinə qanuni don geyindərmək məqsədilə yazılmışdı, bu səbəbdən həmin əsərlərdəki məlumatları dərindən araşdırmaq, müqayisələr aparmaqla tarixi gerçəkliyin ortalığa çıxarılması üçün tənqidi yanaşmaq

lazımdır. Onu da nəzərə almalıyıq ki, bu əsərlərin bəzilərinin müəllifləri müəyyən hadisələrin birbaşa iştirakçısı olmuşlar və əsərlərində öz gözləri ilə gördükləri hadisələrə də yer vermişdilər ki, bu da həmin mənbələrin istifadəsini daha da zəruri edir.

Təqdim edilən məqalədə XIX əsr Rusiya tədqiqatçısı Orest Yevetskinin redaktəsi ilə 1835-ci ildə nəşr olunmuş "Zaqafqaziya bölgəsinin statistik təsviri" adlı monoqrafiyası [15] əsasında Azərbaycanın demoqrafik vəziyyəti araşdırılmışdır. Adı çəkilən əsər XVIII əsr mənbələrinə əsaslandığına görə araşdırdığımız mövzu üçün xüsusilə qiymətlidir. Orest Stepanoviç Yevetski statist, etnoqraf olmuş və onun əsərində Cənubi Qafqazın siyasi, iqtisadi, sosial və mədəni həyatına aid olduqca qiymətli, elmi əhəmiyyətli faktlar, materiallar mövcuddur. Lakin əsərdə bəzən təhriflərə yol verilmiş, tək-tək hallarda rast gəlinən hadisələr bütün ölkəyə şamil edilmişdir. Etno-siyasi məsələlər tədqiqat zamanı dəqiqləşdirilmiş və digər ədəbiyyatlardan əldə edilmiş faktlarla müqayisəli təhlil edilmişdir. Əsərdə əhalinin vəziyyəti, sayı və etnik tərkibi haqqında müxtəlif məlumatlar vardı. Azərbaycanın ayrı-ayrı şəhər və bölgələrinin təsviri zamanı əhali və onun etnik tərkibi barədə qısa qeydlər aparılmışdı. İrəvan, Ordubad və Naxçıvan bölgələrinin etnik tərkibinin öyrənilməsi müasir dövrdə tarix elminin əsas tələblərindəndir.

XVIII əsrin I yarısında əhalinin sıx məskunlaşdığı ərazilərdən hesab edilən İrəvanın əsas əhalisi türklərdən ibarət olmuşdur. L.Lokhart buranın əhalisinin İran ermənilərindən ibarət olmasını qeyd etsə də [9, c.4-5], bu məlumatın yanlış olmasını dövrün digər mənbələri təsdiq edir. İmperatriça II Yekaterinanın təşəbbüsü ilə Azərbaycanın öyrənilməsi ilə məşğul olan ekspedisiya rəhbəri İ.A.Qildenştedt yazır ki, İrəvan mahalı (xanlığı – Z.İ.) Pəmbəklə qonşu olub, əhalisi tərəkəmə (türkmən-Z.İ.), tatarlardır [12, c.170]. Fransız diplomatı C.Otter İrəvan şəhərinin coğrafi uzunluqlarını göstərərkən yazır: "türk torpağı olan Rəvan Çuxur-Səəd vilayətində yerləşir və Zəngi çayı ilə sərhədlənir" [7, c.290]. Zəngi çayından söz düşmüşkən, fransız səyyahı J.P.Turnefort qeyd edir ki, "Zəngi çayı şimal-qərb istiqamətində, Qırxbulaqdan cənub-qərbə doğru axır və öz başlanğıcını İrəvandakı göldən götürür. Zəngi çayının üzərində üç aşırımı olan körpü salınmışdı ki, vilayətin hakimi olan Xan isti yay günlərində sərinləmək üçün buraya gəlir" [11, c.142].

O.Yevetskinin məlumatlarına əsasən, "Naxçıvan, İrəvan, Ordubad şəhərlərində 4345 ailə vardı. Bunlardan 2.606 ailə müsəlman, 1023 ailə erməni, 716 ailə Azərbaycanın cənubundan köçmələrdi. Gələnlərin az hissəsi müsəlmandı, çoxusu ermənilərdi. Əkinçilər 23.066 ailə, köçmə əhali 3.653 ailədən ibarətdir" [15, c.192] (rəqəmlərdəki fərq mənbədə izah edilmir - İ.Z.). J.P.Turnefort isə yazır ki, "oval formalı İrəvan qalasında səkkiz mindən çox müsəlman vardı, ermənilər isə gecə yatmağa buraya gəlirlər"

[11, c.142]. Həm say baxımından azərbaycanlıların üstün olmasını, həm də məskun əhalinin məhz azərbaycanlılar olduğunu sübut edən fransız səyyahın bu qeydinə əsasən ermənilər şəhərdən kənarda olub, gecəni təhlükəsiz ərazidə keçirtmək üçün buraya gəldiklərini göstərir. İ.Şopen İrəvan şəhərində 1807 müsəlman ailə (7331 sakin) olduğu halda, yerli erməni ailəsinin sayını 567 (2369 sakin), İrandan köçürülən erməni ailəsinin sayını 366 (1715 sakin), Türkiyədən köçürülənlərin isə 11 ailə (48 sakin) olduğunu göstərir [17, c.638]. Bununla belə, yenə müsəlmanların (türklərin - Z.İ.) sayı ermənilərin ümumi sayından 4-5 dəfə çox olur. Nəticə etibarilə İrəvan şəhərində 11463 nəfərdən 7331-i türk, 4132-nin köçürülənlərlə birlikdə erməni olduğunu görürük. İrəvan əyalətində yaşayanların isə 9196 türk ailəsi (49875 sakin), 3498 yerli erməni ailəsi (20073 sakin) olmuş, İrandan 4559 erməni ailəsi (23568 sakin), Türkiyədən 3674 erməni ailəsi (21639 sakin) köçürülmüşdür. Ermənilərin Azərbaycan ərazisinə Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra köçürülməsi və verilən məlumatların XIX əsr mənbələrindən götürüldüyünü nəzərə alsaq, XVIII əsrdə əzəli Azərbaycan türk torpağı olan Çuxur-Səəd bəylərbəyiliyində əhalinin böyük hissəsi azərbaycanlılardan ibarət olmuşdu. Qafqazşünas alim olan İ.Şopen yazırdı ki, “Rusiyaya məxsus erməni vilayətində 440 min adam vardır ki, onların əksəriyyəti məhəmmədlərdir” [17, c.18]. Rus mənşəli alimin bu nəticəsi general qraf Paskeviç tərəfindən də təsdiqlənir. Rus general qraf Paskeviç-İrəvanski etiraf edirdi ki, “...hətta ermənilərin köçürülüb, gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsini Azərbaycan türkləri təşkil edirdi. Bundan başqa, tanınmış rus tədqiqatçısı N.Şavrov 1911-ci ildə yazırdı: “Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb, gətirmişik” [16, c.63-64].

Analoji müqayisəni Naxçıvan bölgəsi üçün də apardıqda eyni mənzərə ilə qarşılaşırıq. XVIII əsrin I yarısında Naxçıvan Çuxur-Səəd bəylərbəyiliyinin ərazisinə daxil idi. Azərbaycanın ən qədim şəhərlərindən biri hesab edilən Naxçıvan şəhəri XVIII əsrdə iki dəfə dağıntıya məruz qalmış, əhalinin sayı altı mindən çox deyildi. XVIII əsrin sonunda Naxçıvanda 1000 ailə yaşayırdı. Qış vaxtlarında şəhərə “əlavə 1000-ə qədər köçəri ailə” gəlirdi, yəni köçmə maldarlıqla məşğul olurdular. Naxçıvanda XIX əsrin ilk illərində 2000-ə qədər ailə yaşayırdı. İ.Şopen belə hesab edir ki, Naxçıvan xanlığı çar Rusiyası tərəfindən işğal olunana qədər, Naxçıvan şəhərinin əhalisi 5700 nəfər idi [17, c.638]. Onu qeyd etməliyik ki, Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən hesab edilir. 3500 il əvvəl əsasının qoyulduğu şəhərin, “yeni məskən” mənasını verən Naxçıvanın Nuh peyğəmbər tərəfindən salındığını A.Araratski qeyd etmişdi [13, c.163]. Türkmənçay

(1828) və Ədirnə (1829) müqavilələrinə əsasən ermənilərin köçürüldüyü bölgələrdən hesab edilən Naxçıvan əyalətinə İrandan 2137 erməni ailəsi (10652 sakin) köçürülmüşdür. Türkiyədən köçürülən səkkiz ailə (27 nəfər) Naxçıvanın Dərələyəz mahalında yerləşdirilmişdir. Köçürülmə zamanı bölgədə 3863 türk ailəsi (17138 sakin) və cəmi 530 yerli erməni ailəsi (2690 sakin) vardı [17, c.635-636].

Naxçıvan yaxınlığında yerləşən təkcə Sərdarabad qalasında 700 ev vardı [15, c.199]. Bir qalanın əhalisi 3500-4000 nəfər olarsa, bu sözsüz ki, inkişafdan xəbər verir. Amma təəssüflər olsun ki, bu yaşayış məskəni haqqında nə mənbələrdə, nə də tarix ədəbiyyatında məlumat verilməmişdir.

Naxçıvan bölgəsinin digər iri yaşayış məskəni olan Culfa şəhəri karvan yolları üzərində yerləşirdi. Vaxtilə sıx əhalisi ilə seçilən Culfa sakinləri siyasi hadisələrlə bağlı Şah I Abbas (1587-1629) tərəfindən köçürülmüşdülər. XIX əsrin əvvəlləri üçün O.Yevetski yazırdı ki, "hal-hazırda Culfada 25 ev vardı" [15, c.200].

XVIII əsrin 70-ci illərində İ.A.Qildenştedt qərb bölgələrimizin əhalisi və etnik tərkibi haqqında yazır ki, Qazax və Borçalı türkmən mahallarıdır. Qazax mahalı Kürün sağ sahilində olub, İncidən aşağı Borçalı mahalına qədər və digər tərəfdən Gəncəyə qədər geniş ərazini əhatə edir. Ondan cənubda isə Pəmbək mahalı yerləşir. Burada 6000 ailənin olması təxmin edilir ki, onların 2/3-si tatar, 1/3-i ermənilərdir. Ancaq müəllif əsərində Qazax mahalına aid iyirmi altı kəndin adını qeyd etmiş və onlardan ancaq birinin sırf erməni kəndi olduğunu göstərmişdir [12, c.168,170]. M.Biberşteyn "Qazaxlar məhəmmədi olsalar da, Zaarın igid və sədaqətli əsgərləridi, buna baxmayaraq az da olsa, quldurluqları da var" [1, c.407].

Qarabağ xanlığının siyasi mərkəzi olan Şuşa şəhərində XVIII əsrin sonunda 3073 evdə 13957 nəfər yaşayırdı. 1750-ci illərin sonlarında Pənahəli xan əyan və məmur ailələrini, rəiyyəti Şuşaya köçürdü. Mirzə Camal Cavanşir yazır ki, o vaxta kimi burada ev yox idi [8, c.29]. İ.A.Qildenştedt Gəncə əyalətinin əhalisinin tərəkəmə tatarlar olduğunu və əsərinin sonrakı səhifəsində isə əyaləti türkmən mahalı kimi qeyd edir [12, c.170,171].

XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərində 5-10 min əhali vardı. XVIII əsrin 70-ci illərində Şamaxıda minə yaxın evdə 5-6 min adam yaşayırdı. Şəkinin altı min, Bakının 4-5 min, Dərbəndin on min, Şuşanın on min əhalisi var idi. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Lənkəranda əhalinin sayının üç min nəfər olduğu göstərilmişdir.

XVIII əsrdə Avropalıların kütləvi şəkildə Azərbaycanda yaşaması haqqında məlumatlara rast gəlinmir. Bəzən müəyyən səbəblərdən Azərbaycanda Avropa xalqlarından nümayəndələr yaşayırdı. C.Bel Şamaxıda olarkən Dansiqdən olan, Polşa elçiliyinin tərkibində gələn, alman dilli

zadəganla görüşmüşdü. İsfahanda Polşa səfiri öldükdən sonra həmin şəxsin öz yerliləri ilə mübahisəsi düşmüş, müsəlmanlığı qəbul edərək, burada qalmış, dili öyrənmiş və hazırda Şamaxıda ailəsi olduğunu bildirmişdir [14, c.394]. XVIII əsrdə Azərbaycan ərazisində müxtəlif səbəblərdən məskunlaşmış və yerli əhali ilə qaynayıb-qarışmış əcnəbilərlə rastlaşmaq olardı. Bu tipli faktlara mənbələrdə çox az hallarda təsadüf olunur.

Mənbə və elmi əsərlərin bir çoxunda ermənilərin Azərbaycana köçürülüb, yerləşdirilməsinin vaxtı və səbəbləri göstərilmədiyinə görə, onlara bizim torpaqlarımızda uydurma dövlət yaratmaları iddiası ilə çıxış etməyə imkan yaranmışdı. Məlum olduğu kimi, ermənilərin Güney Qafqaza, xüsusilə də onun şimal-şərq bölgələrinə, yəni tarixi yurd yerlərimizə köçürülməsi Rusiya çarı I Pyotr tərəfindən 1724-cü ildən cəhd göstərilmiş [10, c.146] və onların bu diyara kütləvi köçürülüb, yerləşdirilməsi Rusiya işğalından sonra həyata keçirilmişdi. Tədqiqata cəlb etdiyimiz bir çox qaynaqlar XVIII əsrdə Azərbaycanın bəzi bölgələrində qeydiyyata düşmüş ermənilərin elə həmin əsrdə dini, ideoloji, hərbi, siyasi məqsədlərlə qonşu ölkələrdən köçürülüb, yerləşdirilməsindən xəbər verir. Fərid Ələkbərlinin Vatikan kitabxanalarından əldə etdiyi mənbə və sənədlər əsasında yazdığı əsərdə holland coğrafiyaşünası İsaak Tirionun (1701-1765) və Osmanlı kartoqrafı İbrahim Mütəfərriqənin 1729-cu ildə nəşr olunmuş xəritələri ermənilərin Azərbaycana köçürülməsi haqqında məlumatın doğruluğunu sübut edir. Müəllif yazır: "İssaq Tirionun xəritəsində Van gölündən Gilana qədər ərazi Azərbaycan kimi göstərilmişdi. Ermənistan çox balaca ərazi kimi müasir Türkiyənin hüdudlarında, Van gölünün ətrafında göstərilir... Müasir osmanlı kartoqrafı Mütəfərriqənin xəritəsində erməni ərazisi ümumiyyətlə yoxdur. Müasir Ermənistan Respublikasının ərazisi Rəvan, Gəncə və digər Azərbaycan vilayətlərinin ərazisi kimi göstərilmişdir" [6, c.30].

Beləliklə, məqalədə ilkin mənbələrdən əldə edilmiş fraqmental şəkildə olan kiçik materiallar birləşdirilərək Azərbaycan əhalisinin sayı və onun etnik tərkibi araşdırılmış, ölkəmizin etnik durumuna bir daha nəzər salınmışdır. Yerli statistik mənbələrin azlığı şəraitində, XVIII-XIX əsr mənbələri əsasında Azərbaycanın əhalisi, etnik və sosial tərkibi haqqında çox qiymətli məlumatlar bölgənin əsas və köklü əhalisi olan Azərbaycan türklərinin öz etnik tərkibini və üstün mövqeyini sabit saxladığını sübuta yetirməklə yanaşı, xüsusilə əhalinin etnik mənsubiyyəti ilə bağlı müxtəlif ədəbiyyatlarda öz əksini tapmış yalnış mülahizələri ortadan qaldırır.

**Ədəbiyyat siyahısı:**

1. A General, historical, and topographical description of Mount Caucasus. With a Catalogue of Plants midigenous to the Country. In II volums. Translated from

the works of Dr. Reineggs and Marshal Bieberstein, by C. Wilkinson. With a map and plates. Vol. I. London: 1807, pp. 407

2. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər), S.S.Əliyarlının redaktəsi ilə. Bakı, “Azərbaycan” nəşriyyatı, 1996, 872 s.
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq”, 2007, 400 s.
4. Azərbaycan tarixi. Bakı, “BakıUniversiteti”, 2014, 380 s.
5. Azərbaycan tarixi. 7 cilddə, III c., Bakı, Elm, 2007, 592 s.
6. Ələkbərli F. Vatikan arxivində saxlanılan Azərbaycana aid əlyazmalar. Bakı, “Elm və Təhsil”, 2014, 75 s.
7. Jean Otter. Voyage en Turquie et en Perse. Avec un Relation des expeditions de Tahmas Kouli-Khan. T.I. Paris, 1748, p.415
8. Qarabağnamələr. I kitab. Bakı, Şərq-Qərb, 2006, 216 s.
9. Lockhart L. The fall of Safavids Dinasty and the Afqan Occupation of Persia. Cambridge,1958, pp. 583
10. Lokkart L. Nadir Şah. Ruscadan tərcümə edən Nəriman Əbdülrəhmanlı. Bakı, Qanun nəşriyyatı, 2013, 552 s.
11. M. Pitton de Tournefort. Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Constantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perse & de l'Asie Mineure. T.II, Amsterdam, Aux dépens de la Compagnie, 1717, pp. 208.
12. Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. Перевод Т.К.Шафрановский, Спб: Петербургское Востоковедение, 2002, 512 с.
13. Жизнь Артемия Араратского. Издание подготовиль К.Н.Григорьян при участии Р.Р.Орбели. 1981, 224 с.
14. Путешественники об Азербайджане. Под редакцией Э.М.Шахмалиева. т.I, Составиль З.И.Ямпольский. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 425 с.
15. Статистическое описание Закавказского края съ присовокуплениемъ статьи: Политическое состояние Закавказского края въ исходъ XVIII века и сравненье онаго съ нынешнимъ. Составилъ Орестъ Евецкийъ в двух частяхъ. Санкт-петербургъ. Печатано вь Типографии Штаба Отдельнаго Корпуса Внутренний стражи, 1835, 306 с.
16. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцамь. СПб, Типографиа Редакции периодическихъ изданий Министерства финансов, 1911, 156 с.
17. Шопен И. Исторический памятник состояния Армянской областии в эпоху ее присоединения к Российской империи. СПб, 1852, 1232 с.

# XIX ƏSRİN I YARISINDA RUSİYA-İRAN MÜHARİBƏLƏRİ VƏ ONLARIN AZƏRBAYCANDAKI ETNO-SİYASİ VƏZİYYƏTƏ TƏSİRİ

**Kərimli İlahə Əlizamin qızı**
**Tarix fakültəsi, magistrant, II kurs**
**ilahekerim@gmail.com**

*Məqalədə XIX əsrin I yarısında baş vermiş Rusiya-İran müharibələrindən və bunun nəticəsində Qafqaz regionunda baş vermiş etno-siyasi proseslər, köçürmə siyasəti nəticəsində Azərbaycan ərazisində demoqrafik proseslərdən bəhs edilir. Azərbaycanın yerli əhalisinin mövqeyi, Rusiya-İran müharibəsinə münasibəti eyni cür deyildir. Əhali nə İran, nə də Rusiyanın istilasına məruz qalmaq istəmir, İstilaçılara qarşı mübarizə aparırdılar.*

***Açar sözlər:*** *Rusiya-İran müharibəsi, "Erməni vilayəti", "Gülüstan müqaviləsi", "Türkmənçay müqaviləsi", köçürmə siyasəti*

***The Russo–Persian wars in the first half of the 19th century and their influence on the ethno-political situation in the Caucasus***

*The article dedicated to historical events, such as Russia-Iran wars, which occurred in the first half of the 19th century and the ethno political actions in the Caucasus as a result of this war, and also the re-settlement policy, which influence on the demographic processes in Azerbaijan. Azerbaijani locals had different position and attitude to the Russo-Persian wars. The population didn't want to be invaded nor by Russia, neither by Iran; and they struggled against invaders.*

***Key word:*** *Russo-persian war, "Armenian province", "Treaty of Gulistan", "Treaty of Turkmanchay", "re-settlement policy"*

**Giriş.** XVIII-XIX əsrlərdə Azərbaycanın daxili və beynəlxalq vəziyyəti olduqca mürəkkəb Xırda dövlətlərə bölünmüş ölkə feodal pərakəndəliyi dövrünü yaşayırdı. Xanlıq üsulu-idarəsinin hökm sürdüyü ərazidə qonşu xanlıqların ərazilərini ələ keçirmək uğrunda mübarizə gedirdi. Ardı-arası kəsilməyən ara müharibələri, yerli feodallarla kəndlilər arasında ziddiyyətlərin dərinləşməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyəvi hal idi. Rusiya və Qacarlar İranının Cənubi Qafqazla bağlı işğalçı siyasəti vəziyyəti daha da gərginləşdirirdi.

Bəhs edilən dövrdə Rusiyanın əsas məqsədlərindən biri Cənubi Qafqaz regionunun istilası idi. Carizm Qafqaza əlavə gəlir mənbəyi kimi yanaşırdı, eləcə də əsas məqsədlərdən biri Xəzəri Rusiyanın daxili dənizinə çevirmək idi. Azərbaycan ərazisinin təbii sərvətləri artıq Rus elminə bəlli idi, bu da təsadüfi deyil ki, II Yekaterina ölkə ərazisinin sərvətlərinin mənimsənilməsi

üçün ərazilərin işğalını vacib hesab edirdi. Zəngin təbii sərvətləri olan Azərbaycan qızılboya, yun, ipək, pambıq, tütün, yanacaq və s. ilə Rusiya sənayesinin xammal və yanacaq bazası ola bilərdi.

Onu da nəzərə almaq lazımdır ki, Zaqafqaziya bölgəsi siyasi və hərbi-strateji baxımdan da əhəmiyyətli idi. Bu diyarın işğalı çoxdan hökm sürən Rusiya-Osmanlı münaqişəsində qüvvələrin rusların xeyrinə dəyişməsi demək idi. Əlavə olaraq Rusiya-Böyük Britaniya rəqabətinin hökm sürməsi Cənubi Qafqazın, xüsusilə Azərbaycan ərazisinin əhəmiyyətini artırırdı. Rusiyanın burada baş tutacaq işğalları Böyük Britaniyanın Şərqdəki təsirinə zərbə vura bilərdi, başqa sözlə Ost-Hind kompaniyasının inhisarına ciddi təhlükə ola bilərdi.

Rusiya və Qacarlar İranının Qafqaz ugrunda mübarizəsi də həmin dövrün ən mühüm məsələlərindəndir və biz də bu məqalədə XIX əsrin ilk illərindən başlamış istilaya, Gülüstan və Türkmənçay müqavilələri ilə yekunlaşan müharibələrə diqqəti edəcəyik. Belə ki, hələ XVIII əsrin sonu-1795-1797-ci illərdə baş verən hadisələr - Rusiya imperatriçası tərəfindən general Zubovun rəhbərliyi ilə Azərbaycana heyətin göndərilməsi, Ağa Məhəmməd Şah Qacarın yürüşləri hər iki tərəfin bu bölğədəki maraqlarını aydın göstərirdi. İki rəqibin döyüş meydanında üz-üzə gəlməsi isə XIX əsrin ilk illərinə təsadüf edir.

**I və II Rusiya-İran müharibələrinə qısa nəzər.** Çar Aleksandr ikinci dəfə 1801-ci il sentyabrın 12-də Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında fərman verdi. Şərqi Gürcüstan adlandırılan ərazi ilə birlikdə Azərbaycan torpaqları olan – Qazax, Borçalı və Şəmşəddil torpaqları da Rusiya tərkibinə qatıldı. Rusiya çarının siyasəti onun ayrıca bir göstərişində bu şəkildə bildirilməkdə idi: "Ətraf hökmdarlar və xalqlarla əlaqə saxlayaraq, Rusiya tərəfdarlarının sayını artırmağa çalışmalı, xüsusən hələ Baba xanın (Fətəli şahın) hakimiyyəti altına düşməmiş və buna görə də, belə bir şəraitdə əlbəttə, özlərinin təhlükəsizliyi naminə Rusiyaya daha çox meyl göstərəcək İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqların xanlarını tərəfimizə cəlb etməli" [4,13].

Lakin Qacarlar İranı bu siyasətlə razılaşmaq istəmirdi. Məlumdur ki, onun bu ərazidə özünün maraqları var idi. Şərqi Gürcüstanın və Azərbaycan torpaqlarının bir hissəsinin işğalı İranı, eləcədə onun arxasında dayanan qərb ölkələrini narahat edirdi.Avropa dövlətlərinin köməyinə arxalanmaqla Qacarlar İranı Gürcüstanı Rusiya himayəsindən qoparmağa çalışır, Rusiyaya qarşı yönələn çıxışlara yardım edirdi. Azərbaycan xanlıqları ilə dil tapmağa cəhd edən İran özü üçün strateji meydan hazırlamağa çalışırdı. 1802-ci ildə Qarabağ və Bakı xanlıqlarına İrana tabe olmalarını təklif etmişdi. 1804-cü ilin may ayında İran hakim dairələri rus qoşunlarının Qafqazı tərk etməsini tələb etdi, lakin, tələb rədd edildi. 1804-cü il iyulun 10-da Rusiya ilə Qacar-

lar İranı arasında diplomatik əlaqələr kəsildi, müharibə başlandı və 10 il müddətinə davam etdi. Bu müharibə Azərbaycanın şimal xanlıqlarının işğalı və Gülüstan müqaviləsi ilə yekunlaşdı.

Rusiya ilə Qacarlar İranı arasında münasibətlərə bu müqavilə ilə tam aydınlıq gəlmədi. Azərbaycan torpaqları uğrunda iki dövlətin maraqları yenidən toqquşurdu. Uduzan tərəf olan Qacarlar İranı müharibənin nəticəsi ilə razı deyildi. Qafqazın əldən çıxması onun üçün böyük itki idi. Rusiya isə şimalı Azərbaycanın-Naxçıvan və İrəvan xanlıqlarının və Cənubi Azərbaycan xanlıqlarının işğalında maraqlı idi. Eləcə də müqavilədə Lənkəran xanlığı ilə bağlı maddə mübahisə doğururdu. Məhz bu şəraitdə Rusiyada 1825-ci il dekabristlər üsyanının baş verməsi şah hökumətini yenidən şirnikləndirdi. Çar Rusiyası Osmanlı ilə münasibətlərin gərginləşməsi fonunda Lənkəran xanlığını İrana güzəştə getməklə sülhə nail olmaq istəyirdi. Lakin bu məqsədlə başlamış danışıq səmərəsiz nəticələndi. 1826-cı il iyulun 16-da 60 minlik İran ordusu Azərbaycanın şimal torpaqlarına soxuldu. Azərbaycan torpaqları uğrunda II Rusiya – İran savaşı başlandı. Lakin müharibədə gedişat heç də İranın düşündüyü kimi olmadı. 1826-cı il Şəmkir döyüşündə İran qoşunları ağır məğlubiyyətə uğradı. Sentyabrın 13-də baş verən Gəncə döyüşündəki məğlubiyyətdən sonra İran danışıqlara getməli olduğunu anladı. Ruslar İrəvan və Naxçıvan xanlıqlarını işğal edərək, Cənubi Azərbaycan torpaqlarına daxil oldular. Urmiya, Ərdəbil, Xoy, Təbriz tutuldu. Vəziyyəti ağır görən İran danışıqlara başladı. 10 fevral 1828-ci il Türkmənçay müqaviləsi ilə müharibəyə yekun vuruldu [11].

**XIX əsrin I yarısında Qafqazda dəyişən etno-siyasi, demoqrafik durum.** 1828-ci ilin fevralın 10-da Türkmənçay müqaviləsi ilə, Gülüstan müqaviləsinin də bəzi maddələrinin məzmunu saxlanılmaqla tərəflər arasında barışıq elan edildi. Müharibədən və onun nəticəsindən ən böyük zərər Azərbaycana dəydi. Müqavilənin təbəə alış-verişi ilə bağlı olan 12, 14 və 15-ci maddələri bilavasitə bölgənin demoqrafik tarazlığının imperiyanın xeyrinə dəyişdirilməsinə yönəlmiş bir addım idi. Bəhs edilən maddələrlə imperiyanın cənub hüdudlarında "etibarlı xiristianlardan" ibarət xüsusi qurşağın təşkil edilməsi nəzərdə tutulurdu. Xüsusən sonuncu maddədə bunun kifayət qədər geniş izahı verilirdi. Müqavilədə göstərilirdi ki, İran şahı tərəfindən "Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir". Eləcə də, "hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmaması" qeyd olunurdu.

Müqavilənin bəhs edilən maddəsi ilə ermənilərin Transqafqaza köçürülməsi məsələsi birbaşa olmasa da "dini əqidəsinə görə kimsəyi təqib etmə-

yəcəyinə" dair təminatın verilməsi və hadisələrin sonrakı inkişafı göstərdi ki, söhbət məhz ermənilərdən gedir, bu isə onu göstərir ki, müqavilədə əksini tapmamış gizli razılaşma olmuşdur. "Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir"[7].

İran vilayətində yaşayan təbəələrə öz ailələri ilə birlikdə sərhəddi sərbəst keçmək, hər hansı gömrük və vergi ödəmədən tərpənən mülkiyyətlərini aparmaq və ya 1 il ərzində satmaq, tərpənməyən mülklərini isə 5 il ərzində satmaq hüququ verilirdi. Köçürülən ermənilər üçün Rusiya tərəfi də böyük güzəştlər nəzərdə tuturdu. Belə ki, xristian təbəələrə lazımi miqdarda məhsuldar xəzinə torpaq sahəsinin ayrılacağına, 6 il müddətinə hər cür vergidən və 3 il ərzində zemstvo mükəlləfiyyətlərindən azad olunacaqlarına dair təminat verildi, köçürülən ailələrə maddi yardım da göstərildi [5].

Beləliklə, İranın da iştirakı ilə çar Rusiyasının Şimali Azərbaycan ərazisində əhalinin mövcud etnik vəziyyətini öz xeyrinə dəyişmək üçün əlinə yeni imkan keçdi. Bu hal xüsusilə Azərbaycan türklərinin torpaqlarına göz dikən erməni millətçiləri üçün fürsət oldu. İran ərazisində yaşayan ermənilərin Şimali Azərbaycana köçürülməsi işinə rəhbərlik erməni mənşəli polkovnik Lazarevə tapşırıldı. Türkmənçay müqaviləsi ilə razılaşdırılan köçürmə kampaniyasının ilk mərhələsi 26 fevral- 11 iyun 1828-ci ildən, 1830-cu ilə qədər davam etdi, bu zaman 40 mindən çox erməni düşünülmüş şəkildə Azərbaycan ərazisində, əsasən İrəvan, Naxçıvan və Qarabağda yerləşdirildi. Bu məqsədlə onlar üçün 200 min desyatindən çox münbit torpaq ayrıldı və müsəlmanlardan bunun üçün 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alındı. Osmanlı ərazisindən 84 min erməni və qeyri-rəsmi köçənlərlə birlikdə köçürülənlərin sayı 200 mini ötüb keçdi.

Hələ müharibə başa çatmamış 1827-ci il oktyabrın 6-da İ.V.Paskeviçin təşəbbüsü ilə İrəvanda "müvəqqəti idarə" yaradılmışdı. İdarənin üzvləri sədr-leytinant Krakovski, Aştaraketsi və İrəvan qalasının komendantı podpolkovnik Borodindən ibarət idi. 1828-ci il, 21 mart tarixində çar I Nikolayın fərmanı ilə ləğv edilmiş Naxçıvan və İrəvan xanlıqları əsasında "Erməni vilayəti" adlı müvəqqəti inzibati-idarə yaradıldı. Diqqət çəkən məqam odur ki, Rusiya hakimiyyəti dövründə bu torpaqlar Ermənistan deyil, "Erməni vilayəti" adlandırılmışdı. Vilayət idarəsi vilayət rəisindən, iki

rus müşavirindən və iki iclasçıdan ibarət idi. İclasçılardan biri azərbaycanlı, digəri erməni icmasından idi. Çar hökümətinin tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti" yaratması ilə I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyini təsdiq edirdi. Yeni yaradılmış vilayət - İrəvan və Naxçıvan əyalətlərindən ibarət idi.

"Erməni vilayəti" əhalisinin 73,4 %-ni türklər təşkil edirdi. İrəvanda yaşayan müsəlman bəylərin irsi torpaqları əllərindən alınaraq, bu ərazidə yeni köçürülmüş ermənilər yerləşdirildi. Məhz bu siyasətin nəticəsində 1823-1827-ci illərdə Qarabağ əyalətində məskunlaşmış əhalinin cəmi 8 faizini təşkil edən ermənilərin sayı 1828-1830-cu illərdə 35 faizə, Naxçıvan əyalətində müvafiq olaraq 13 faizdən 49 faizə, nəhayət "Erməni vilayəti"ndə isə 24 faizdən 54 faizə çatdırıldı [3,634].

Təbii ki, bunun müqabilində də eyni illərdə Azərbaycan türklərinin sayı Qarabağda 91 faizdən 65 faizə, Naxçıvan əyalətində 86 faizdən 51 faizə və "Erməni vilayəti"ndə 73,8 faizdən 46,2 faizə düşmüş oldu. Rus müəllifi Şavrovun da etiraf etdiyi kimi, XX yüzilliyin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermənininin bir milyondan çoxu diyarın köklü sakinləri olmayıb çar Rusiyası tərəfindən məskunlaşdırıldı .

Fransız mənşəli rus tədqiqatçısı İ.Şopenin 1829-1832-ci illərdə rəsmən apardığı araşdırmaya görə, artıq burada 31.201 ailə, 164.450 nəfər əhali qeydə alınmışdı. Onlardan 16.078 ailə (51.53%), 81.749 nəfər (49.71%) müsəlmanlar (azərbaycanlılar); 4.428 ailə (14.19%) 25.151 nəfər (15.29%) köçürməyədək burada yaşayan ermənilər; 6.949 ailə (22.27%), 35.560 nəfər (21.62%) İrandan köçürülmüş ermənilər; 3.682 ailə (11.80%), 21.666 nəfər (13.17%) Osmanlıdan köçürülmüş ermənilər idi. Bu faktlardan aydın olduğu kimi vilayətə Qacarlar İranı və Osmanlıdan birgə 10.631 ailə (bütün ailələrin 34.07%-i), 57.226 nəfər (34.79%) erməni köçürülmüşdü. Belə bir vəziyyət İrəvan şəhərində də müşahidə edilirdi. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə burada 1.807 azərbaycanlı ailəsi, yaxud 7.331 nəfər (3.749 kişi, 3.582 qadın), 567 erməni ailəsi, yaxud 2.369 nəfər (1.220 kişi, 1.149 qadın) qeydə alınmışdı. Köçürülmələrdən sonra azərbaycanlıların sayı 64 %-ə enmiş, ermənilərin sayı isə 36%-ə qədər artmışdı. Beləliklə, çar hökümətı Şimali Azərbaycanın işğalı zamanı ermənilərin çar ordusuna göstərdiyi "xidmət" müqabilində onlara işğal olunmuş Azərbaycan torpaqlarında Naxçıvan və İrəvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazini "bəxşiş" verdi. Bununla ermənilər Cənubi Qafqazda çar hökümətinin dəstəyi ilə ozlərinə baza yaratmaq imkanı əldə etdi. Çar hökümətı isə Qafqazın işğalını başa çatdırdıqdan və burada möhkəmləndikdən sonra 1840-cı il 10 aprel qanunu ilə "Erməni vilayəti"ni ləğv edərək, ərazisini İrəvan və Naxçıvan qəzalarına çevirdi. Çar I Nikolayın fərmanı ilə 1849-cu il iyunun

9-da keçmiş “Erməni vilayəti” və Aleksandropol (Gümrü) qəzası əsasında İrəvan quberniyası yaradıldı. Bəzi inzibati ərazi dəyişikliklərindən sonra quberniya İrəvan, Aleksandropol, Eçmiədzin, Naxçıvan, Novobayazid, Şərur-Dərələyəz və Sürməli qəzalarına bölündü.

Göründüyü kimi, Ermənilərin XIX əsrin I yarısında Azərbaycan ərazisinə köçürülməsi Qafqazdakı demoqrafik vəziyyəti və etno-siyasi vəziyyəti kökündən dəyişdi.

**Nəticə.** XIX əsrin birinci yarısında Azərbaycan torpaqları uğrunda gedən mübarizə, aparılan müharibələr ədalətsiz idi. İki dövlətin öz mənafeyi naminə üçüncü dövlətin ərazisinə təcavüz etməsi, onun torpaqlarını öz aralarında bölüşdürməyə yönəlmiş bu siyasət Azərbaycan tarixi üçün faciə kimi qiymətləndirilir. Bəhs edilən dövrdə Qafqazdakı etno-siyasi durumun dəyişdirilməsi sonralarda Azərbaycan torpaqlarının yenidən işğal edilməsinə, öz planlarından istifadə etmək üçün baza rolu oynadı. Bütün bunları nəzərə almaqla söyləmək olar ki, XIX əsrin I yarısı Azərbaycan ərazisində baş vermiş hadisələr Azərbaycan tarixi üçün mühüm mərhələ olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Arzumanlı V., Mustafa N. “Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq” Bakı,1998, 280 s.
2. Azərbaycan tarixi (XIX əsr).Yeddi cilddə, IV cild. Bakı,2007, 451 s
3. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər), Bakı,1996, 872 s
4. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı,2010, 545 s
5. Babaşov M. XIX əsrdə Çar Rusiyasının Azərbaycanda yeritdiyi milli və dini ayri-seçkilik siyasətinin mahiyyəti http://journal.qu.edu.az/article_pdf/1030_339.pdf
6. Əliyev.F, Həsənov U. “İrəvan xanlığı”, Bakı, 2007 http://1905.az/ir%C9%99van-vilay%C9%99ti-v%C9%99-ir%C9%99van-quberniyasinin-yaradilmasi/
7. Əliyarov S. S., Mahmudov F. R. və b. “Azərbaycan tarixi üzrə qaynaqlar”. Bakı, 1989, 400 s.
8. Gülüstan müqaviləsi. http://www.azerbaijan.az/portal/ History/HistDocs/ Documents/ 02. pdf
9. Mahmudov Y.M., Şükürov K.K. “Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828 )” Dörd cilddə, I cild, Bakı,2009, 512 s
10. Şükürov K.K. “Türkmənçay – 1828: Tarixi xronika (İxtisarla)” Bakı-2006, 188 s.
11. Türkmənçay müqaviləsi http://www.azerbaijan.az /portal/ History/ Hist Docs /Documents/ 03.pdf
12. Tariximizin qanla yazılmış səhifələri. http://www.anl.az/soyqirim/ meqale /tqys_rra 200931marts3.pdf

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ŞƏKİ RAYON ƏHALİSİNİN TƏHSİL SƏVİYYƏSİ (1999-CU İL-2009-CU İL SİYAHIYAALMA MATERİALLARI ƏSASINDA)

**Məmmədova Arzu Əşrəf qızı**
**Azərbaycan tarixi (təbiət fakültələri üzrə)**
**kafedrasının dosenti**
**arzuashraf74@gmail.com**
**Paşayeva Ulduz Miri qızı**
**Tarix fakültəsi, böyük elmi işçi**
**star.miri@mail.ru**

*Təhsil millətlərin gələcək müqəddəratını həll edən mühüm məsələlərdən biridir. Müasir dövrdə dövlətlər əhalisinin təkcə kəmiyyət artımına diqqət yetirmir, həm də onun keyfiyyət dəyişikliyini diqqətdə saxlayır, sağlam, təhsilli, dövlətçiliyə sadiq nəsillər yetişdirməyə çalışırlar. Gənc Azərbaycan dövlətinin də qarşısında duran əsas məsələlərdən biri sağlam nəsillərin yetişdirilməsidir. Lakin təhsil və səhiyyə sahəsindəki bir sıra uğursuz islahatlar, gənc nəslin oxumağa marağının azalması bu məsələdə ciddi problemlər yaratmaqdadır. Bunun respublikanın ümumi əhalisinin və eləcə də bölğələrdəki əhalinin səviyyəsinə necə təsir etdiyini aydınlaşdırmaq və səbəbləri aradan qaldırmaq olduqca vacibdir.*

*Məqalədə dövlətçilik tariximizdə mühüm rol oynamış, eyni zamanda mədəniyyət mərkəzi olan Şəki rayonunda 1999-2009-cu illərdə əhalinin təhsil səviyyəsi və onda baş verən dəyişiklilər izlənilmişdir.*

***Açar sözlər**: Azərbaycan, Şəki, Şəki-Zaqatala coğrafi-iqtisadi rayonu, əhali, təhsil*

**The level of education of Sheki population in the years of indepence**

*Education is one of the most important issues in the determination of nations' future. In modern times states pay attention not only to the growth of the population in number, but also to the change in its quality, trying to bring up generations healthy, educated, loyal to the statehood. One of the key issues facing Azerbaijan is bringing up of the healthy young generation. However, a number of unsuccessful reforms in the field of education and health care, the reduction of the young people's interest to study create serious problems for this issue. It is very important to clarify how it affects to the level of the total population of the country, as well as the regions' population and eliminate these causes. The article deals with the level of education of the population in 1999-2009 in Sheki region which is a cultural center and played a significant role in the statehood history of our country and show the changes taking place in this.*

***Keywords:** Azerbaijan, Sheki, Sheki-Zagatala geographic and economic district, population, education*

Müstəqil Azərbaycan Respublikasında ciddi islahatlara ehtiyacı olan sahələrdən biri də təhsildir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasınn illik hesabatları yeni nəsillər arasında təhsil səviyyəsinin əvvəlki illərlə müqayisədə hər il daha aşağı endiyini, mütaliəyə maragın sürətlə azaldığını və bu səbəbdən gənclərin fikirlərini belə ifadə etməkdə çətinlik çəkdiklərini aydın göstərir.

Dövlətçilik tariximizdə mühüm rol oynamış, mədəniyyət, sənətkarlıq mərkəzlərimizdən olan Şəkidə təhsilə həmişə yüksək dəyər verilmiş, burada dəqiq elmlərə böyük maraq olmuşdur. Bir vaxtlar SSRİ-nin ən aparıcı universitetlərində Şəkinin ucqar kəndlərindən texniki təmayüllü təhsil alan gənclərə rast gəlmək çətin deyildi. Amma, 1980-ci illərin ortalarından aparılan yenidənqurma siyasəti nəticəsində SSRİ-nin dağılmasının sürətlənməsi, müstəqilliyini bərpa edən Azərbaycanın təhsil sistemində baş verən dəyişikliklər, uğursuz təhsil islahatları bu bölgəmizin də əhalisinin təhsil səviyyəsinə və onun təhsilə maragına öz təsirini göstərmişdir.

Bu məqalədə 10 il ərzində, yəni 1999 və 2009-cu illərdə Şəki rayonunun əhalisinin təhsil səviyyəsini və baş verən dəyişiklikləri statistik rəqəmlər əsasında izləyəcəyik.

1999-cu il siyahıyaalmasına əsasən həmin ildə qeydə alınan 7.068.562 nəfər respublika əhalisindən 573.574 ali təhsilli, 680.987 orta ixtisas təhsilli, 2.811.666 ümumi orta təhsilli, 920.753 nəfər natamam orta təhsilli olmuşdur. 942.133 nəfər isə təhsili olmayanlar qrupunda yer almışlar ki, bunlardan 814.099 nəfər təhsil almasalar da oxuyub-yazmağı bacaran, 128.034 nəfər isə tamamilə savadı olmayanlar kimi qeydə alınmışlar [1, s.17].

1999-cu ildə respublika əhalisinin 3.657.949 nəfəri (51,7 %) şəhər əhalisi, 3.410.613 nəfəri (48,3 %) isə kənd əhalisi olmuşdur. Baxmayaraq ki, şəhər əhalisi kənd əhalisindən az bir fərqlə, cəmi 247.336 nəfər, çox olmuşdur, amma, respublika əhalisinin təhsil üzrə bölgüsü və yerləşməsində şəhər və kənd əhalisi arasındakı fərq özünü ciddi şəkildə göstərir. Respublikada qeydə alınan 573.574 ali təhsillilərin 439.170 nəfəri (76,6 %) şəhər əhalisinin, 134.404 (23,4 %) nəfəri isə kənd əhalisinin payına düşmüşdür. Təhsili olmayanlar qrupunda yer alan 942.133 nəfərin 495.992 nəfəri (52,6 %) kənd əhalisi, 446.141 nəfəri (47,4 %) isə şəhər əhalisi olmuşdur [1,s.23-24].

7.068.562 nəfər respublika əhalisinin 456.806 nəfəri, yəni 6,5 %-i Şəki-Zaqatala coğrafi-iqtisadi rayonunda məskunlaşmışdır. Onlardan 23.540 nəfəri ali təhsillidir ki, bu da respublikanın ali təhsilli əhalisinin 4,1 %-ni təşkil edir. Şəki-Zaqatala coğrafi-iqtisadi rayonuna daxil olan 6 rayon arasında ali təhsillilərin sayı aşağıdakı kimi olmuşdur: Balakən 3.026 nəfər (12,9 %), Qax 3.402 nəfər (14,5 %), Qəbələ 3.402 nəfər (14,5 %), Oguz 1.918 nəfər (8,1 %), Zaqatala 5.286 nəfər (22,4 %), Şəki 6.506 nəfər (27,6

%). Şəki əhalinin ümumi sayına və eləcə də ali təhsillilərin sayına görə digər 5 rayonla müqayisədə üstün mövqedə idi [1,s.29-30].

Balakəndə 6.925, Qaxda 5.940, Qəbələdə 5.882, Oğuzda 3.322, Zaqatalada 11.213, Şəkidə 13.134 nəfər isə orta ixtisas təhsilli vardı. Bölgə üzrə təhsil almayan qrupa aid edilən əhalinin ümumi sayı 61.796 nəfər olmuşdur. 1999-cu ildə 6 rayon üzrə təhsili olmayanların sayı isə aşağıdakı kimi idi: Balakəndə 73.792 nəfərdən 10.045 nəfər (rayon əhalisinin 13,6 %), Qaxda 45.371 nəfərdən 5.605 nəfər (12,3 %), Qəbələdə 71.501 nəfərdən 10.263 nəfər (14,3 %), Oğuzda 31.796 nəfərdən 4.812 nəfər (15,1 %), Zaqatalada 95.012 nəfərdən 12.641 nəfər (13,3 %), Şəki rayonunda 139.334 nəfərdən 18.430 (13,2 faiz) nəfər təhsili olmayan kimi qeydə alınmışdır [1,s.33].

Bölgə üzrə təhsil almayan 61.796 nəfərin 16,2 %-i Balakən, 9,1 %-i Qax,16,6 %-i Qəbələ, 7,8 %-i Oğuz, 20,5 %-i Zaqatala, 29,8 %-i Şəki rayonunun payına düşmüşdür.

Respublika üzrə 10 və daha yuxarı yaş üzrə savadı olmayan 65.654 nəfərin isə 4.776 nəfəri (7,3 %) bu altı rayonun payına düşmüşdür. Onlardan 801 nəfər (16,8 %) Balakəndə, 273 nəfər (5,7 %) Qaxda, 734 nəfər (15,4 %) Qəbələdə, 487 nəfər (10,2 %) Oğuzda, 699 nəfər (14,6 %) Zaqatalada, 1.782 nəfər (37,3 %) Şəki rayonunda qeydə alınmışdır [1,s.35-37].

1999-cu il siyahıyaalması zamanı Şəki-Zaqatala coğrafi-iqtisadi rayonu üzrə əhalinin müxtəlif təhsil müəssisələrində oxuyan hissəsinin sayı isə aşağıdaki kimi idi: Şəki rayonu üzrə tədris müəssisələrində oxuyanların cəmi sayı 39.525 nəfər, onlardan ali təhsil alanların sayı 1.583 nəfər, Balakən rayonunda 20.476 nəfər, ali təhsil alanların sayı 439 nəfər, Qax rayonunda 12.797 nəfər,ali təhsil alanların sayı 879 nəfər, Qəbələ rayonunda 20.841 nəfər, ali təhsil alanların sayı 713 nəfər, Oguz rayonunda 9.452 nəfər, onlardan ali təhsil alanların sayı 299 nəfər, Zaqatala rayonunda 26.518 nəfər, onlardan ali təhsil alanların sayı 1.024 nəfər olmuşdur [2,s.15-36].

**Cədvəl 1**

**Şəki-Zaqatala coğrafi-iqtisadi rayonunun təhsil müəssisələrində oxuyan əhalinin bölgüsü (1999-cu il, 6 yaş və yuxarı)**

| ƏRAZİ | Tədris müəssisə lərində oxuyanlar – CƏMİ | Onlardan | | | |
|---|---|---|---|---|---|
| | | Ali təhsil müəssisə-lərində oxuyanlar | Orta ixtisas təhsili müəs-sisələrində oxuyanlar | Orta ümum-təhsil mək-təblərində oxuyanlar | Digər tədris müəssisə-lərində oxuyanlar |
| **Azərbaycan Respublikası** | **2133025** | **147393** | **40556** | **1911513** | **33563** |
| kişilər: | 1101105 | 85878 | 17755 | 978506 | 18966 |
| qadınlar: | 1031920 | 61515 | 22801 | 933007 | 14597 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Şəhər əhalisi:** | 1130293 | 119459 | 31928 | 951378 | 27528 |
| kişilər: | 583714 | 67671 | 13820 | 486835 | 15388 |
| qadınlar: | 546579 | 51788 | 18108 | 464543 | 12140 |
| **Kənd əhalisi:** | 1002732 | 27934 | 8628 | 960135 | 6035 |
| kişilər: | 517391 | 18207 | 3935 | 491671 | 3578 |
| qadınlar: | 485341 | 9727 | 4693 | 468464 | 2457 |
| **Şəki rayonu** | **39525** | **1583** | **879** | **36877** | **186** |
| kişilər: | 20368 | 1026 | 288 | 18945 | 109 |
| qadınlar: | 19157 | 557 | 591 | 17932 | 77 |
| **Şəhər əhalisi:** | 15614 | 912 | 534 | 14119 | 49 |
| kişilər: | 8031 | 572 | 160 | 7271 | 28 |
| qadınlar: | 7583 | 340 | 374 | 6848 | 21 |
| **Kənd əhalisi:** | 23911 | 671 | 345 | 22758 | 137 |
| kişilər: | 12337 | 454 | 128 | 11674 | 81 |
| qadınlar: | 11574 | 217 | 217 | 11084 | 56 |
| **Balakən rayonu** | **20476** | **439** | **239** | **19719** | **79** |
| kişilər: | 10363 | 261 | 56 | 10005 | 41 |
| qadınlar: | 10113 | 178 | 183 | 9714 | 38 |
| **Şəhər əhalisi:** | 2477 | 129 | 56 | 2272 | 20 |
| kişilər: | 1239 | 68 | 15 | 1145 | 11 |
| qadınlar: | 1238 | 61 | 41 | 1127 | 9 |
| **Kənd əhalisi:** | 17999 | 310 | 183 | 17447 | 59 |
| kişilər: | 9124 | 193 | 41 | 8860 | 30 |
| qadınlar: | 8875 | 117 | 142 | 8587 | 29 |
| **Qax rayonu** | **12797** | **879** | **354** | **11306** | **258** |
| kişilər: | 6478 | 532 | 129 | 5675 | 142 |
| qadınlar: | 6319 | 347 | 225 | 5631 | 116 |
| **Şəhər əhalisi:** | 3025 | 218 | 111 | 2503 | 193 |
| kişilər: | 1516 | 131 | 38 | 1247 | 100 |
| qadınlar: | 1509 | 87 | 73 | 1256 | 93 |
| **Kənd əhalisi:** | 9772 | 661 | 243 | 8803 | 65 |
| kişilər: | 4962 | 401 | 91 | 4428 | 42 |
| qadınlar: | 4810 | 260 | 152 | 4375 | 23 |
| **Qəbələ rayonu** | **20841** | **713** | **169** | **19881** | **78** |
| kişilər: | 10700 | 479 | 85 | 10089 | 47 |
| qadınlar: | 10141 | 234 | 84 | 9792 | 31 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Şəhər əhalisi:** | 2799 | 166 | 33 | 2585 | 15 |
| kişilər: | 1424 | 98 | 15 | 1305 | 6 |
| qadınlar: | 1375 | 68 | 18 | 1280 | 9 |
| **Kənd əhalisi:** | 18042 | 547 | 136 | 17296 | 63 |
| kişilər: | 9276 | 381 | 70 | 8784 | 41 |
| qadınlar: | 8766 | 166 | 66 | 8512 | 22 |
| **Oğuz rayonu** | **9452** | **299** | **83** | **9041** | **29** |
| kişilər: | 4907 | 179 | 29 | 4681 | 18 |
| qadınlar: | 4545 | 120 | 54 | 4360 | 11 |
| **Şəhər əhalisi:** | 1822 | 98 | 27 | 1694 | 3 |
| kişilər: | 938 | 50 | 8 | 877 | 3 |
| qadınlar: | 884 | 48 | 19 | 817 | 0 |
| **Kənd əhalisi:** | 7630 | 201 | 56 | 7347 | 26 |
| kişilər: | 3969 | 129 | 21 | 3804 | 15 |
| qadınlar: | 3661 | 72 | 35 | 3543 | 11 |
| **Zaqatala rayonu** | **26518** | **1024** | **290** | **25069** | **135** |
| kişilər: | 13243 | 561 | 98 | 12509 | 75 |
| qadınlar: | 13275 | 463 | 192 | 12560 | 60 |
| **Şəhər əhalisi:** | 6878 | 449 | 132 | 6239 | 58 |
| kişilər: | 3447 | 237 | 53 | 3123 | 34 |
| qadınlar: | 3431 | 212 | 79 | 3116 | 24 |
| **Kənd əhalisi:** | 19640 | 575 | 158 | 18830 | 77 |
| kişilər: | 9796 | 324 | 45 | 9386 | 41 |
| qadınlar: | 9844 | 251 | 113 | 9444 | 36 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il, Bakı, “Səda” nəşriyyatı, 2000, II. 2 hissə, 620 s. s.15-36.

1999-cu ildə Şəki rayonunda qeydə alınan 139.334 nəfərin 56.926 nəfəri (40,9 %) şəhər əhalisi, 82.408 nəfəri (59,1 %) isə kənd əhalisi olmuşdur. Rayon üzrə əhalinin 67.906 nəfərini kişilər (48,7 %), 71.428 nəfərini (51,3 %) isə qadınlar təşkil etmişdir. Şəhərdə yaşayan əhalinin 27.170 nəfəri kişi, 29.756 nəfəri qadın olmuşdur ki, burada yaşayan qadınların sayı kişilərdən 2.586 nəfər çox olmuşdur. Kənddə də qadınların sayı az fərqlə, cəmi 936 nəfər kişi əhalidən çox olmuşdur.

**Cədvəl 2**

**Şəki rayon əhalisinin təhsil üzrə bölgüsü və yerləşməsi (1999-cu il, 6 yaş və yuxarı)**

| Ərazi | Cəmi | O cümlədən | | | | | | | | | 10 və yuxarı yaşlı savadı olmayanlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **Təhsili olanlar** | | | | | | | **Təhsili olmayanlar** | | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayan lar | |
| **Azərbaycan Respublikası** | 7068562 | 573574 | 44022 | 680987 | 2811666 | 920753 | 192189 | 903238 | 814099 | 128034 | 65654 |
| **Şəki rayonu:** | 139334 | 6506 | 392 | 13134 | 55362 | 23363 | 4005 | 18142 | 15551 | 2879 | 1782 |
| Kişilər | 67906 | 4153 | 208 | 6562 | 26264 | 10352 | 3107 | 8458 | 7793 | 1009 | 422 |
| Qadınlar | 71428 | 2353 | 184 | 6572 | 29098 | 13011 | 898 | 9684 | 7758 | 1870 | 1360 |
| **Şəhər əhalisi:** | 56926 | 3720 | 246 | 7016 | 23435 | 7649 | 1253 | 6878 | 5731 | 998 | 559 |
| Kişilər | 27170 | 2081 | 111 | 2882 | 11080 | 3563 | 954 | 3291 | 2846 | 382 | 142 |
| Qadınlar | 29756 | 1639 | 135 | 4134 | 12375 | 4086 | 299 | 3587 | 2885 | 616 | 417 |
| **Kənd əhalisi:** | 82408 | 2786 | 146 | 6118 | 31927 | 15714 | 2752 | 11264 | 9820 | 1881 | 1223 |
| Kişilər | 40736 | 2072 | 97 | 3680 | 15204 | 6789 | 2153 | 5167 | 4947 | 627 | 280 |
| Qadınlar | 41672 | 714 | 49 | 2438 | 16723 | 8925 | 599 | 6097 | 4873 | 1254 | 943 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il, Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.17, 35

Şəki rayonu üzrə qeydə alınan 6.506 nəfər ali təhsillinin 3.720 (57,2 %) nəfəri şəhər əhalisinin, 2.786 (42,8 %) nəfəri isə kənd əhalisinin payına düşmüşdür. 6.506 nəfər ali təhsillidən 4.153 nəfəri kişi (63,8 %), 2.353 (36,2 %) nəfəri isə qadın olmuşdur. Bu rayonda ailələrin oğlan uşaqlarının təhsilinə daha çox diqqət yetirmələri ilə bağlı idi. Qızlar çox vaxt tam orta təhsil aldıqdan sonra davam etdirmək şansı əldə edə bilmirdilər, ən yaxşı halda isə rayonda fəaliyyət göstərən Tibb və Pedaqoji texnikumda orta ixtisas təhsili alırdılar. 1999-cu il siyahıyaalmasına əsasən, rayonda orta ixtisas təhsilli qadınların sayı 6.572, kişilərin sayı isə 6.562 nəfər olmuşdur. Orta ixtisas təhsilli qadınların 4.134 nəfəri şəhər, 2.438 nəfəri isə kənd sakini olmuşdur. Kişilər arasında isə orta ixtisas təhsillilərin 2.882 nəfəri şəhərdə, 3.680 nəfəri kənddə yaşamışdır. Kənddə yaşayan orta ixtisas təhsillilərin böyük çoxluğu rayonda fəaliyyət göstərən və aqrotexniki qaydaları öyrənmələrinə imkan verən Kənd Təsərrüfatı Texnikumunun

məzunları idi. Peşə təhsillilərin sayına görə də kənd əhali şəhər əhalisini üstələyirdi. Şəhərdə 1.253 nəfər, kənddə isə 2.752 nəfər peşə təhsili almış vardı ki, onlardan da 2.153 nəfəri kişi, 599 nəfəri qadın olmuşdur.

**Cədvəl 3**

**Daimi əhalinin yaş qrupları üzrə təhsil səviyyəsi**
**(ümumi əhali, 1999-cu il)**

| Yaşı | | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | Cəmi | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanla |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | 139334 | 6506 | 392 | 13134 | 55362 | 23363 | 4005 | 18142 | 15551 | 2879 |
| **6 - 9 yaş** | 14244 | | | | | | | | 13147 | 1097 |
| **10 – 14 yaş** | 17001 | | | | | 1885 | | 13798 | 1317 | 1 |
| **15 – 19 yaş** | 14509 | | | 240 | 5931 | 8073 | 82 | 170 | 3 | 10 |
| **20 – 24 yaş** | 12278 | 476 | 73 | 1050 | 8836 | 1415 | 348 | 58 | 4 | 18 |
| **25 – 29 yaş** | 12020 | 700 | 48 | 1572 | 7808 | 1231 | 581 | 53 | 9 | 18 |
| **30 – 34 yaş** | 13834 | 909 | 42 | 2225 | 8232 | 1518 | 803 | 66 | 9 | 30 |
| **35 – 39 yaş** | 14633 | 1106 | 52 | 2486 | 8298 | 1560 | 964 | 115 | 18 | 34 |
| **40-44 yaş** | 10936 | 1120 | 56 | 1985 | 5729 | 1332 | 542 | 133 | 19 | 20 |
| **45-49 yaş** | 6512 | 810 | 28 | 1257 | 3066 | 952 | 225 | 134 | 15 | 25 |
| **50-54 yaş** | 3308 | 402 | 14 | 564 | 1378 | 616 | 99 | 175 | 24 | 36 |
| **55-59 yaş** | 3760 | 262 | 13 | 485 | 1524 | 882 | 97 | 362 | 68 | 67 |
| **60-64 yaş** | 6041 | 301 | 19 | 586 | 1979 | 1558 | 121 | 940 | 230 | 307 |
| **65-69 yaş** | 5151 | 223 | 20 | 334 | 1474 | 1301 | 95 | 1068 | 286 | 350 |
| **70-74 yaş** | 3039 | 137 | 16 | 225 | 737 | 716 | 34 | 654 | 207 | 313 |
| **75-79 yaş** | 1182 | 42 | 11 | 98 | 243 | 211 | 8 | 248 | 106 | 215 |
| **80-84 yaş** | 449 | 11 | | 18 | 81 | 59 | 5 | 95 | 38 | 142 |
| **85-89 yaş** | 281 | 4 | | 7 | 33 | 35 | | 48 | 32 | 122 |
| **90-94 yaş** | 96 | | | 1 | 9 | 16 | | 16 | 9 | 45 |
| **95-99 yaş** | 44 | 3 | | 1 | 3 | 1 | | 9 | 5 | 22 |
| **100 yaş və yuxarı** | 16 | | | | 1 | 2 | 1 | | 5 | 7 |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 125090 | 6506 | 392 | 13134 | 55362 | 23363 | 4005 | 18142 | 2404 | 1782 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il, Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.622

Siyahıyaalma materiallarından göründüyü kimi, rayon üzrə əhalinin 18.142 nəfəri yalnız ibtidai təhsil almışdı. Onlardan 6.878 nəfəri (37,9 %) şəhər, 11.264 nəfəri (62,1 %) kənd sakini olmuşdur. Ancaq ibtidai təhsil alan şəhər və kənd əhalisi arasında qadınlar çoxluq təşkil etmişlər: şəhərdə 3.291 nəfər kişi, 3.587 nəfər qadın, kənddə 5.167 nəfər kişi, 6.097 nəfər

qadın. Beləliklə, 18.142 nəfər ibtidai təhsillidən 9.684 nəfəri (53, 4 %) qadın, 8.458 nəfəri (46,6 %) isə kişi olmuşdur.

Rayon üzrə qeydə alınan 18.430 nəfər təhsili olmayanlar kimi qeydə alınanlar arasında da kənd əhalisi və qadınlar üstünlük təşkil edirdilər. Şəhərdə bu kateqoriyadan olan əhalinin sayı cəmi 6.729 nəfər, kənddə isə 11.701 nəfər olmuşdur. Göründüyü kimi təhsili olmayanların 36,5 %-i şəhər əhalisinin, 63,5 %-i kənd əhalisinin payına düşmüşdür. 18.430 nəfərdən 9.628 nəfəri (52,2 %) qadın, 9.355 nəfəri (50,8 %) kişi olmuşdur.

Beləliklə, təhsili olmayanların şəhər və kənd üzrə yerləşməsində ciddi fərqlər qeydə alınsa da, qadın və kişi əhali arasında bu fərq cəmi 1,4 % təşkil etmişdir.

**Cədvəl 4**

**Şəki rayonunun daimi kişi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (kişilər, 1999-cu il)**

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **67906** | **4153** | **208** | **6562** | **26264** | **10352** | **3107** | **8458** | **7793** | **1009** |
| **6 - 9 yaş** | 7398 | | | | | | | | 6811 | 587 |
| **10 – 14 yaş** | 8671 | | | | | 945 | | 7058 | 667 | 1 |
| **15 – 19 yaş** | 7286 | | | 66 | 2951 | 4114 | 60 | 90 | | 5 |
| **20 – 24 yaş** | 6120 | 251 | 43 | 309 | 4567 | 651 | 262 | 24 | 2 | |
| **25 – 29 yaş** | 5761 | 379 | 21 | 701 | 3646 | 542 | 436 | 24 | 5 | 7 |
| **30 – 34 yaş** | 6632 | 553 | 19 | 1067 | 3743 | 615 | 590 | 30 | 1 | 14 |
| **35 – 39 yaş** | 7026 | 680 | 32 | 1213 | 3689 | 597 | 759 | 42 | 1 | 13 |
| **40-44 yaş** | 5458 | 760 | 28 | 1066 | 2656 | 471 | 423 | 39 | 6 | 9 |
| **45-49 yaş** | 3198 | 557 | 18 | 710 | 1385 | 293 | 197 | 30 | 3 | 5 |
| **50-54 yaş** | 1566 | 284 | 6 | 330 | 637 | 184 | 89 | 26 | 1 | 9 |
| **55-59 yaş** | 1696 | 192 | 4 | 295 | 736 | 284 | 78 | 79 | 16 | 12 |
| **60-64 yaş** | 2790 | 228 | 12 | 403 | 984 | 644 | 105 | 276 | 70 | 68 |
| **65-69 yaş** | 2474 | 148 | 9 | 222 | 779 | 622 | 82 | 408 | 101 | 103 |
| **70-74 yaş** | 1230 | 79 | 5 | 124 | 340 | 289 | 21 | 230 | 62 | 80 |
| **75-79 yaş** | 381 | 29 | 11 | 44 | 103 | 71 | 3 | 63 | 20 | 37 |
| **80-84 yaş** | 107 | 7 | | 6 | 29 | 22 | 2 | 16 | 5 | 20 |
| **85-89 yaş** | 79 | 4 | | 5 | 15 | 3 | | 17 | 13 | 22 |
| **90-94 yaş** | 20 | | | | 3 | 5 | | 4 | 5 | 3 |
| **95-99 yaş** | 10 | 2 | | 1 | 1 | | | 2 | 1 | 3 |
| **100 yaş və yuxarı** | 3 | | | | | | | | 3 | |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 60508 | 4153 | 208 | 6562 | 28264 | 10352 | 3107 | 8458 | 982 | 422 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.623

Cədvəlin son qrafasında 10 və yuxarı yaşlı savadı olmayanlar kimi qeydə alınan 1.782 nəfərin 559 nəfəri (31,4 %) şəhər, 1.223 nəfəri (68,6 %) isə kənd sakini olmuşdur. Bu qrupdan olan kişilərin sayı 422 nəfər (23,7 %), qadınların sayı isə 1.360 (76,3 %) olmuşdur.

Daimi əhalinin yaş qrupları üzrə təhsil səviyyəsinə gəldikdə isə qeyd etməliyik ki, ali təhsillilər arasında üstünlük 1.120 nəfərlə 40-44 yaşlılarda, ondan sonra isə 1.106 nəfərlə 35-39 yaşlılarda olmuşdur. Beləliklə, 1999-cu ildə 2 yaş qrupu - 1955-1959 və 1960 -1964-cü illərdə və ya sovet dövründə doğulmuş əhali arasında ali təhsillilərin sayı 2.226 nəfər və ya rayonda qeydə alınan bütün ali təhsillilərin 34,2 %-i olmuşdur. Ondan sonra gələn 20-24, 25-29, 30-39 yaş qrupları arasında ali təhsillilərin sayı isə cəmi 2.085 nəfər olmuşdur ki, bu da yuxarıda qeyd etdiyimiz iki yaş qrupundakı ali təhsillilərin sayından 141 nəfər azdır. Bu 3 yaş qrupundan olan əhalinin ali təhsil almaq dövrü SSRİ-nin dağılması ilə başlayan siyasi, iqtisadi böhran, kişi əhalinin ailələrini dolandırmaq məqsədilə qazanc dalınca ölkəni tərk etməsi, Qarabag müharibəsinin ən ağır vaxtlarına təsadüf edən dövrdür. Bu yaş qruplarından olan 163 nəfərin öz alı təhsilini yarımçıq qoymağa vadar edən səbəblər arasında yuxarıda göstərdiyimiz 3 əsas səbəbin daha üstün rol oynadığını qeyd edə bilərik.

**Cədvəl 5**

**Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (qadınlar, 1999-cu il)**

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **71428** | **2353** | **184** | **6572** | **29098** | **13011** | **898** | **9684** | **7758** | **1870** |
| **6 - 9 yaş** | 6846 | | | | | | | | 6336 | 510 |
| **10 – 14 yaş** | 8330 | | | | | 940 | | 6740 | 650 | |
| **15 – 19 yaş** | 7223 | | | 174 | 2980 | 3959 | 22 | 80 | 3 | 5 |
| **20 – 24 yaş** | 6158 | 225 | 30 | 741 | 4269 | 764 | 86 | 34 | 2 | 7 |
| **25 – 29 yaş** | 6259 | 321 | 27 | 871 | 4162 | 689 | 145 | 29 | 4 | 11 |
| **30 – 34 yaş** | 7202 | 356 | 23 | 1158 | 4489 | 903 | 213 | 36 | 8 | 16 |
| **35 – 39 yaş** | 7607 | 426 | 20 | 1273 | 4609 | 963 | 205 | 73 | 17 | 21 |
| **40-44 yaş** | 5478 | 360 | 28 | 919 | 3073 | 861 | 119 | 94 | 13 | 11 |
| **45-49 yaş** | 3314 | 253 | 10 | 547 | 1681 | 659 | 28 | 104 | 12 | 20 |
| **50-54 yaş** | 1742 | 118 | 8 | 234 | 741 | 432 | 10 | 149 | 23 | 27 |
| **55-59 yaş** | 2064 | 70 | 9 | 190 | 788 | 598 | 19 | 283 | 52 | 55 |
| **60-64 yaş** | 3251 | 73 | 7 | 183 | 995 | 914 | 16 | 664 | 160 | 239 |
| **65-69 yaş** | 2677 | 75 | 11 | 112 | 695 | 679 | 13 | 660 | 185 | 247 |
| **70-74 yaş** | 1809 | 58 | 11 | 101 | 397 | 427 | 13 | 424 | 145 | 233 |
| **75-79 yaş** | 801 | 13 | | 54 | 140 | 140 | 5 | 185 | 86 | 178 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **80-84 yaş** | 342 | 4 | | 12 | 52 | 37 | 3 | 79 | 33 | 122 |
| **85-89 yaş** | 202 | | | 2 | 18 | 32 | | 31 | 19 | 100 |
| **90-94 yaş** | 76 | | | 1 | 6 | 11 | | 12 | 4 | 42 |
| **95-99 yaş** | 34 | 1 | | | 2 | 1 | | 7 | 4 | 19 |
| **100 yaş və yuxarı** | 13 | | | | 1 | 2 | 1 | | 2 | 7 |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 64582 | 2353 | 184 | 6572 | 29098 | 13011 | 898 | 9684 | 1422 | 1360 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.624

Bütün yaş qrupları üzrə savadı olmayanlar ən çox 6-9 yaş qrupunda qeydə alınmışdır. Şəki rayonu üzrə savadı olmayan qrupunda qeydə alınan 2.879 nəfərdən 1.097 nəfəri 6-9 yaş qrupuna aiddir.

Cədvəl 4-12-də şəhər, kənd, qadın və kişi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi verilmişdir.

**Cədvəl 6**

**Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (şəhər əhalisi, 1999-cu il)**

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **56926** | **3720** | **246** | **7016** | **23435** | **7649** | **1253** | **6878** | **5731** | **998** |
| **6 - 9 yaş** | 5333 | | | | | | | | 4894 | 439 |
| **10 – 14 yaş** | 6642 | | | | | 776 | | 5384 | 481 | 1 |
| **15 – 19 yaş** | 5586 | | | 152 | 2386 | 2904 | 52 | 85 | | 7 |
| **20 – 24 yaş** | 4584 | 211 | 35 | 595 | 3216 | 362 | 147 | 13 | 2 | 3 |
| **25 – 29 yaş** | 4380 | 338 | 29 | 778 | 2734 | 268 | 214 | 16 | 2 | 1 |
| **30 – 34 yaş** | 5383 | 475 | 25 | 1040 | 3253 | 337 | 231 | 16 | | 6 |
| **35 – 39 yaş** | 6291 | 616 | 35 | 1287 | 3671 | 337 | 267 | 24 | 2 | 12 |
| **40-44 yaş** | 5096 | 684 | 40 | 1108 | 2705 | 373 | 141 | 34 | 6 | 5 |
| **45-49 yaş** | 3253 | 507 | 20 | 725 | 1589 | 293 | 66 | 41 | 5 | 7 |
| **50-54 yaş** | 1638 | 268 | 9 | 336 | 732 | 184 | 30 | 62 | 3 | 14 |
| **55-59 yaş** | 1761 | 172 | 10 | 279 | 790 | 314 | 29 | 127 | 21 | 19 |
| **60-64 yaş** | 2460 | 179 | 13 | 297 | 967 | 555 | 32 | 284 | 65 | 68 |
| **65-69 yaş** | 2217 | 138 | 11 | 182 | 776 | 508 | 24 | 370 | 97 | 111 |
| **70-74 yaş** | 1455 | 95 | 13 | 155 | 422 | 287 | 15 | 262 | 80 | 126 |
| **75-79 yaş** | 518 | 26 | 6 | 65 | 134 | 73 | 2 | 95 | 44 | 73 |
| **80-84 yaş** | 190 | 6 | | 13 | 40 | 24 | 3 | 40 | 17 | 47 |
| **85-89 yaş** | 105 | 2 | | 3 | 13 | 11 | | 19 | 10 | 47 |
| **90-94 yaş** | 25 | | | 1 | 6 | 3 | | 5 | 1 | 9 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **95-99 yaş** | 9 | 3 | | | 1 | | | 1 | 1 | 3 |
| **100 yaş və yuxarı** | | | | | | | | | | |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 51593 | 3720 | 246 | 7016 | 23435 | 7649 | 1253 | 6878 | 837 | 559 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.625

**Cədvəl 7**

**Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (şəhər əhalisi, kişilər, 1999-cu il)**

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | Ibtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **27170** | **2081** | **111** | **2882** | **11060** | **3563** | **954** | **3291** | **2846** | **382** |
| **6 - 9 yaş** | 2741 | | | | | | | | 2501 | 240 |
| **10 – 14 yaş** | 3450 | | | | | 403 | | 2797 | 249 | 1 |
| **15 – 19 yaş** | 2806 | | | 35 | 1205 | 1470 | 40 | 53 | | 3 |
| **20 – 24 yaş** | 2167 | 98 | 20 | 171 | 1576 | 186 | 107 | 5 | 1 | 3 |
| **25 – 29 yaş** | 2005 | 137 | 9 | 296 | 1236 | 146 | 171 | 8 | 1 | 1 |
| **30 – 34 yaş** | 2489 | 254 | 9 | 399 | 1489 | 153 | 172 | 12 | | 1 |
| **35 – 39 yaş** | 2949 | 314 | 19 | 490 | 1712 | 180 | 220 | 7 | | 7 |
| **40-44 yaş** | 2517 | 425 | 15 | 492 | 1321 | 149 | 102 | 9 | 3 | 1 |
| **45-49 yaş** | 1578 | 314 | 12 | 346 | 724 | 113 | 54 | 11 | 2 | 2 |
| **50-54 yaş** | 814 | 169 | 3 | 165 | 358 | 77 | 23 | 14 | 1 | 4 |
| **55-59 yaş** | 763 | 111 | 3 | 127 | 364 | 105 | 17 | 28 | 4 | 4 |
| **60-64 yaş** | 1079 | 116 | 8 | 166 | 434 | 211 | 24 | 89 | 15 | 16 |
| **65-69 yaş** | 992 | 76 | 2 | 98 | 378 | 227 | 16 | 134 | 28 | 33 |
| **70-74 yaş** | 572 | 47 | 5 | 72 | 181 | 108 | 7 | 87 | 26 | 39 |
| **75-79 yaş** | 162 | 14 | 6 | 21 | 54 | 24 | | 23 | 9 | 11 |
| **80-84 yaş** | 45 | 2 | | 3 | 17 | 8 | 1 | 5 | 3 | 6 |
| **85-89 yaş** | 33 | 2 | | 1 | 9 | 1 | | 8 | 3 | 9 |
| **90-94 yaş** | 5 | | | | 2 | 2 | | | | 1 |
| **95-99 yaş** | 3 | 2 | | | | | | 1 | | |
| **100 yaş və yuxarı** | | | | | | | | | | |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 24429 | 2081 | 111 | 2882 | 11060 | 3563 | 954 | 3291 | 345 | 142 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.626

**Cədvəl 8**

## Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (şəhər əhalisi, qadınlar, 1999-cu il))

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **29756** | **1639** | **135** | **4134** | **12375** | **4086** | **299** | **3587** | **2885** | **616** |
| **6 - 9 yaş** | 2592 | | | | | | | | 2393 | 199 |
| **10 – 14 yaş** | 3192 | | | | | 373 | | 2587 | 232 | |
| **15 – 19 yaş** | 2780 | | | 117 | 1181 | 1434 | 12 | 32 | | 4 |
| **20 – 24 yaş** | 2417 | 113 | 15 | 424 | 1640 | 176 | 40 | 8 | 1 | |
| **25 – 29 yaş** | 2375 | 201 | 20 | 482 | 1498 | 122 | 43 | 8 | 1 | |
| **30 – 34 yaş** | 2894 | 221 | 16 | 641 | 1764 | 184 | 59 | 4 | | 5 |
| **35 – 39 yaş** | 3342 | 302 | 16 | 797 | 1959 | 197 | 47 | 17 | 2 | 5 |
| **40-44 yaş** | 2579 | 259 | 25 | 616 | 1354 | 224 | 39 | 25 | 3 | 4 |
| **45-49 yaş** | 1675 | 193 | 8 | 379 | 865 | 180 | 12 | 30 | 3 | 5 |
| **50-54 yaş** | 824 | 99 | 6 | 171 | 374 | 107 | 7 | 48 | 2 | 10 |
| **55-59 yaş** | 998 | 61 | 7 | 152 | 426 | 209 | 12 | 99 | 17 | 15 |
| **60-64 yaş** | 1381 | 63 | 5 | 131 | 533 | 344 | 8 | 195 | 50 | 52 |
| **65-69 yaş** | 1225 | 62 | 9 | 84 | 398 | 281 | 8 | 236 | 69 | 78 |
| **70-74 yaş** | 883 | 48 | 8 | 83 | 241 | 179 | 8 | 175 | 54 | 87 |
| **75-79 yaş** | 356 | 12 | | 44 | 80 | 49 | 2 | 72 | 35 | 62 |
| **80-84 yaş** | 145 | 4 | | 10 | 23 | 16 | 2 | 35 | 14 | 41 |
| **85-89 yaş** | 72 | | | 2 | 4 | 10 | | 11 | 7 | 38 |
| **90-94 yaş** | 20 | | | 1 | 4 | 1 | | 5 | 1 | 8 |
| **95-99 yaş** | 6 | 1 | | | 1 | | | | 1 | 3 |
| **100 yaş və yuxarı** | | | | | | | | | | |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 27164 | 1639 | 135 | 4134 | 12375 | 4086 | 299 | 3587 | 492 | 417 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.627

**Cədvəl 9**

## Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (kənd əhalisi, 1999-cu il)

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | Ibtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayan lar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **82408** | **2786** | **146** | **6118** | **31927** | **15714** | **2752** | **11264** | **9820** | **188<br>1** |
| **6 - 9 yaş** | 8911 | | | | | | | | 8253 | 658 |
| **10 – 14 yaş** | 10359 | | | | | 1109 | | 8414 | 836 | |
| **15 – 19 yaş** | 8923 | | | 88 | 3545 | 5169 | 30 | 85 | 3 | 3 |
| **20 – 24 yaş** | 7694 | 265 | 38 | 456 | 5620 | 1053 | 201 | 45 | 2 | 15 |
| **25 – 29 yaş** | 7640 | 362 | 19 | 794 | 5074 | 963 | 367 | 37 | 1 | 17 |
| **30 – 34 yaş** | 8451 | 434 | 17 | 1185 | 4979 | 1181 | 572 | 50 | 9 | 24 |
| **35 – 39 yaş** | 8342 | 490 | 17 | 1199 | 4627 | 1183 | 697 | 91 | 16 | 22 |
| **40-44 yaş** | 5840 | 436 | 16 | 877 | 3024 | 959 | 401 | 99 | 13 | 15 |
| **45-49 yaş** | 3259 | 303 | 8 | 532 | 1477 | 659 | 159 | 93 | 10 | 18 |
| **50-54 yaş** | 1670 | 134 | 5 | 288 | 646 | 432 | 69 | 113 | 21 | 22 |
| **55-59 yaş** | 1999 | 90 | 3 | 206 | 734 | 568 | 68 | 235 | 47 | 48 |
| **60-64 yaş** | 3581 | 122 | 6 | 289 | 1012 | 1003 | 89 | 656 | 165 | 239 |
| **65-69 yaş** | 2934 | 85 | 9 | 152 | 698 | 793 | 71 | 698 | 189 | 239 |
| **70-74 yaş** | 1584 | 42 | 3 | 70 | 315 | 429 | 19 | 392 | 127 | 187 |
| **75-79 yaş** | 664 | 16 | 5 | 33 | 109 | 138 | 6 | 153 | 62 | 142 |
| **80-84 yaş** | 259 | 5 | | 5 | 41 | 35 | 2 | 55 | 21 | 95 |
| **85-89 yaş** | 176 | 2 | | 4 | 20 | 24 | | 29 | 22 | 75 |
| **90-94 yaş** | 71 | | | | 3 | 13 | | 11 | 8 | 36 |
| **95-99 yaş** | 35 | | | 1 | 2 | 1 | | 8 | 4 | 19 |
| **100 yaş və yuxarı** | 16 | | | | 1 | 2 | 1 | | 5 | 7 |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 73497 | 2786 | 146 | 6118 | 31927 | 15714 | 2752 | 11264 | 1567 | 122<br>3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.628

**Cədvəl 10**

## Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (kənd əhalisi, kişilər, 1999-cu il)

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **40736** | **2072** | **97** | **3680** | **15204** | **6789** | **2153** | **5167** | **4947** | **627** |
| **6 - 9 yaş** | 4657 | | | | | | | | 4310 | 347 |
| **10 – 14 yaş** | 5221 | | | | | 542 | | 4261 | 418 | |
| **15 – 19 yaş** | 4480 | | | 31 | 1746 | 2644 | 20 | 37 | | 2 |
| **20 – 24 yaş** | 3953 | 153 | 23 | 138 | 2991 | 465 | 155 | 19 | 1 | 8 |
| **25 – 29 yaş** | 3756 | 242 | 12 | 405 | 2410 | 396 | 265 | 16 | 4 | 6 |
| **30 – 34 yaş** | 4143 | 299 | 10 | 668 | 2254 | 462 | 418 | 18 | 1 | 13 |
| **35 – 39 yaş** | 4077 | 366 | 13 | 723 | 1977 | 417 | 539 | 35 | 1 | 6 |
| **40-44 yaş** | 2941 | 335 | 13 | 574 | 1335 | 322 | 321 | 30 | 3 | 8 |
| **45-49 yaş** | 1620 | 243 | 6 | 364 | 661 | 180 | 143 | 19 | 1 | 3 |
| **50-54 yaş** | 752 | 115 | 3 | 165 | 279 | 107 | 66 | 12 | | 5 |
| **55-59 yaş** | 933 | 81 | 1 | 168 | 372 | 179 | 61 | 51 | 12 | 8 |
| **60-64 yaş** | 1711 | 112 | 4 | 237 | 550 | 433 | 81 | 187 | 55 | 52 |
| **65-69 yaş** | 1482 | 72 | 7 | 124 | 401 | 395 | 66 | 274 | 73 | 70 |
| **70-74 yaş** | 658 | 32 | | 52 | 159 | 181 | 14 | 143 | 36 | 41 |
| **75-79 yaş** | 219 | 15 | 5 | 23 | 49 | 47 | 3 | 40 | 11 | 26 |
| **80-84 yaş** | 62 | 5 | | 3 | 12 | 14 | 1 | 11 | 2 | 14 |
| **85-89 yaş** | 46 | 2 | | 4 | 6 | 2 | | 9 | 10 | 13 |
| **90-94 yaş** | 15 | | | | 1 | 3 | | 4 | 5 | 2 |
| **95-99 yaş** | 7 | | | 1 | 1 | | | 1 | 1 | 3 |
| **100 yaş və yuxarı** | 3 | | | | | | | | 3 | |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 36079 | 2072 | 97 | 3680 | 15204 | 6789 | 2153 | 5167 | 637 | 280 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.629

**Cədvəl 11**

## Şəki rayonunun daimi əhalisinin yaş qrupları üzrə təhsil səviyyəsi (kənd əhalisi, qadınlar, 1999-cu il)

| Yaşı | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Natamam orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| **Şəki rayonu Yaşı 6 və yuxarı olan bütün əhali o cümlədən:** | **41672** | **714** | **49** | **2438** | **16723** | **8925** | **599** | **6097** | **4873** | **1254** |
| **6 - 9 yaş** | 4254 | | | | | | | | 3943 | 311 |
| **10 – 14 yaş** | 5138 | | | | | 567 | | 4153 | 418 | |
| **15 – 19 yaş** | 4443 | | | 57 | 1799 | 2525 | 10 | 48 | 3 | 1 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **20 – 24 yaş** | 3741 | 112 | 15 | 317 | 2629 | 588 | 46 | 26 | 1 | 7 |
| **25 – 29 yaş** | 3884 | 120 | 7 | 389 | 2664 | 567 | 102 | 21 | 3 | 11 |
| **30 – 34 yaş** | 4308 | 135 | 7 | 517 | 2725 | 719 | 154 | 32 | 8 | 11 |
| **35 – 39 yaş** | 4265 | 124 | 4 | 476 | 2650 | 766 | 158 | 56 | 15 | 16 |
| **40-44 yaş** | 2899 | 101 | 3 | 303 | 1689 | 637 | 80 | 69 | 10 | 7 |
| **45-49 yaş** | 1639 | 60 | 2 | 168 | 816 | 479 | 16 | 74 | 9 | 15 |
| **50-54 yaş** | 918 | 19 | 2 | 63 | 367 | 325 | 3 | 101 | 21 | 17 |
| **55-59 yaş** | 1066 | 9 | 2 | 38 | 362 | 389 | 7 | 184 | 35 | 40 |
| **60-64 yaş** | 1870 | 10 | 2 | 52 | 462 | 570 | 8 | 469 | 110 | 187 |
| **65-69 yaş** | 1452 | 13 | 2 | 28 | 297 | 398 | 5 | 424 | 116 | 169 |
| **70-74 yaş** | 926 | 10 | 3 | 18 | 156 | 248 | 5 | 249 | 91 | 146 |
| **75-79 yaş** | 445 | 1 | | 10 | 60 | 91 | 3 | 113 | 51 | 116 |
| **80-84 yaş** | 197 | | | 2 | 29 | 21 | 1 | 44 | 19 | 81 |
| **85-89 yaş** | 130 | | | | 14 | 22 | | 20 | 12 | 62 |
| **90-94 yaş** | 56 | | | | 2 | 10 | | 7 | 3 | 34 |
| **95-99 yaş** | 28 | | | | 1 | 1 | | 7 | 3 | 16 |
| **100 yaş və yuxarı** | 13 | | | | 1 | 2 | 1 | | 2 | 7 |
| **Əhalinin ümumi sayından: 10 yaş və yuxarı** | 37418 | 714 | 49 | 2438 | 16723 | 8925 | 599 | 6097 | 930 | 943 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s., s.630

2009-cu il siyahıyaalmasına əsasən həmin ildə rayonda yaşayan əhalinin ümumi sayı 145.754 nəfər olmuşdur ki, bu da 1999-cu il siyahıyaalmasından sonra keçən 10 il ərzində əhalinin sayının 6.420 nəfər artdığını göstərir. Bundan 71.592 nəfəri (49,1 %) kişi, 74.162 nəfəri (50,9 %) qadın əhalinin payına düşür. Şəhər və kənd, qadın və kişi əhalinin nisbətində ciddi dəyişikliklər olmamışdır. Rayon əhalisinin 9.933 nəfəri (6,8%) ali təhsilli,1321 nəfəri natamam ali təhsilli (0,9%), 15.366 nəfəri (10,5%) orta ixtisas təhsilli, 70.819 nəfər (48,6% ) orta ümumi təhsilli, 22.847 nəfəri (15,7%) əsas ümumi təhsilli, 4.867 nəfəri(3,3%) peşə təhsilli, 18.702 nəfər (12,8%) ibtidai ümumi təhsilli idi. Rayon əhalisindən 146 nəfər (0,1%) təhsili olmayan kimi qeydə alınmış, 1.753 nəfər (1,2 %) isə təhsilini göstərməmişdir (bax, cədvəl 12).

Qeyd edək ki, 1999-cu illə müqayisədə ali təhsillilərin sayı 3.427 nəfər artaraq, 6.506 nəfərdən 9.933 nəfərə yüksəlmişdir. Ondan 5.818 nəfəri (58,6 %) şəhər əhalisinin, 4.115 (41,4%) nəfəri kənd əhalisinin payına düşmüşdür. Bu 1999-cu illə müqayisədə ali təhsillilərin sayının şəhər əhalisinin xeyrinə 1,4 % artdığını göstərir.

2009-cu ildə qeydə alınan ali təhsillilərin 6.409 nəfəri (64,5%) kişi, 3.524 (35,5%) nəfəri qadın olmuşdur. 1999-cu illə müqayisədə ali təhsilli kişilərin sayı qadınların xeyrinə 0,7 % azalmışdır.

2009-ci il siyahıyaalmasında rayon əhalisindən cəmi 146 nəfər təhsili olmayan kimi qeydə alınmışdır. Halbuki, 1999-cu ildə bu rəqəm 18.430 nəfər olmuşdur. Bu azalma necə baş vermişdir, 18.284 nəfər təhsil almışdır

ya daimi yaşayış yerlərini tərk etmişlər – kimi sualların cavabını təəssüf ki, siyahıyaalma materiallarından aydınlaşdırmaq mümkün deyil. Eyni zamanda təhsilini göstərməyənlər cərgəsində yer alan 1.753 nəfər haqqında da tam fikir söyləmək mümkün deyildir. Onlar təhsil səviyyələrini göstərməyi unutmuşlar ya təhsilləri olmadıqları üçün qeyd etməmişlər kimi sualları aydınlaşdırmaq imkanımız yoxdur.

Digər təhsil səviyyələrindəki əhalinin də sayı 2009-cu illə müqayisədə artmışdır.

**Cədvəl 12**

**2009-cu ildə Şəki rayonu əhalisinin təhsil səviyyəsi (10 və yuxarı yaşlılar)**

| Ərazi | Cəmi | o cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Orta ümumi təhsilli | Əsas ümumi təhsilli | Peşə təhsilli | Ibtidai ümumi təhsilli | Təhsili olmayanlar | Təhsilini göstərməyənlər |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **Azərbaycan Respublikası** | **7592721** | **831234** | **107308** | **577309** | **3885560** | **911378** | **269442** | **921993** | **17002** | **71495** |
| Kişilər | 3704701 | 477226 | 56613 | 243254 | 1853910 | 411056 | 191078 | 446719 | 5269 | 19576 |
| Qadınlar | 3888020 | 354008 | 50695 | 334055 | 2031650 | 500322 | 78364 | 475274 | 11733 | 51919 |
| Şəhər əhalisi | 4078067 | 648556 | 87725 | 397435 | 1897601 | 409701 | 176088 | 423651 | 9810 | 27500 |
| Kişilər | 1977554 | 358103 | 45383 | 154892 | 887360 | 191249 | 117380 | 212515 | 3131 | 7541 |
| Qadınlar | 2100513 | 290453 | 42342 | 242543 | 1010241 | 218452 | 58708 | 211136 | 6679 | 19959 |
| Kənd əhalisi | 3514654 | 182678 | 19583 | 179874 | 1987959 | 501677 | 93354 | 498342 | 7192 | 43995 |
| Kişilər | 1727147 | 119123 | 11203 | 88362 | 966550 | 219807 | 73698 | 234204 | 2138 | 12035 |
| Qadınlar | 1787507 | 63555 | 8353 | 91512 | 1021409 | 281870 | 19656 | 264138 | 5054 | 31960 |
| **Şəki rayonu** | **145754** | **9933** | **1321** | **15366** | **70819** | **22847** | **4867** | **18702** | **146** | **1753** |
| Kişilər | 71592 | 6409 | 765 | 6227 | 34742 | 10274 | 3738 | 8891 | 54 | 492 |
| Qadınlar | 74162 | 3524 | 556 | 9139 | 36077 | 12573 | 1129 | 9811 | 92 | 1261 |
| Şəhər əhalisi | 57213 | 5818 | 764 | 8722 | 26986 | 6299 | 1891 | 6145 | 71 | 517 |
| Kişilər | 27315 | 3437 | 405 | 2889 | 13071 | 2970 | 1413 | 2943 | 31 | 156 |
| Qadınlar | 29898 | 2381 | 359 | 5833 | 13915 | 3329 | 478 | 3202 | 40 | 361 |
| Kənd əhalisi | 88541 | 4115 | 557 | 6644 | 43833 | 16548 | 2976 | 12557 | 75 | 1236 |
| Kişilər | 44277 | 2972 | 360 | 3338 | 21671 | 7304 | 2325 | 5948 | 23 | 336 |
| Qadınlar | 44264 | 1143 | 197 | 3306 | 22162 | 9244 | 651 | 6609 | 52 | 900 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il, Cild 2, s.11,36, 671-679

2009-cu ildə qeydə alınan 9.933 ali təhsillinin 1.649 nəfəri 25-29, 1.231 nəfəri 20-24 yaş, 1.165 nəfəri 30-34 yaş qrupunda idi. 1999-cu il siyahıyaalmasından keçən 10 il ərzində rayonun daimi əhalisinin yaş qrupuna görə təhsil səviyyəsində fərqlər yaranmişdi. Yuxarıda da qeyd etdiyimiz kimi, 1999-cu ildə ən çox ali təhsilli 40-44 yaş qrupu arasında (1.120 nəfər) qeydə alınmışdısa, 2009-cu ildə 25-29 yaş qrupu ali təhsillilərin sayına görə ilk sırada idi. Bu da rayon üzrə qeydə alınan 9.933 nəfər ali təhsillinin 16,6%-ni təşkil edirdi. İkinci sırada 1.231 nəfər (12,4%) ali təhsillinin olduğu 20-24 yaş qrupu, üçüncü sırada isə 1.165 nəfərlə (11,7%) 30-34 yaş qrupu gəlir. Beləliklə, bu 3 yaş qrupuna aid olan ali

savadlılar rayonun bütün yaş qrupları üzrə olan ali təhsillilərinin 40,7 %-ni təşkil etmişdir. Maraqlıdır ki, 2009-cu ildə rayon üzrə qeydə alınan 70.819 nəfər orta ümumi təhsillinin də böyük çoxluğu 20-24 (10.657 nəfər – 15,04%), 25-29 (8.512 nəfər – 12 %) və 45-49 (8.106 – 11,4%) yaş qrupları arasında qeydə alınmışdır.

2009-cu il siyahıyaalmasına görə, 15-19, 20-24 yaş qrupları arasında əvvəlki yaş qrupları ilə müqayisədə ancaq ibtidai ümumi təhsillilərin də sayı artmışdı. Əgər 30-34 yaş qrupunda onların sayı 76 idisə, 25-29 yaş qrupunda artaraq 95, 20-24 yaş qrupunda 115,15-19 yaş qrupunda isə 146 nəfər olmuşdur.

Orta ixtisas təhsillilər isə daha çox 45-49 yaş qrupları (2.324 nəfər), 40-44 (2.110 nəfər) və 25-29 (1.888 nəfər) yaş qrupları arasında qeydə alınmışdır (bax, cədvəl 13).

Kişi əhali arasında orta ümumi təhsillilər digər yaş qrupları ilə müqayisədə ən çox 20-24 (5.638 nəfər) və 25-29 (4.477 nəfər) yaş qrupları arasında idi. 15-19 yaş qrupları arasında onların sayı 3466 nəfər olmuşdur. Eyni vəziyyət qadın əhali qrupunda da müşayət olunur. 20-24 yaş qrupunda olan qadınlardan 5.019 nəfəri yalnız orta ümumi təhsil almışdır. 25-29 yaşlarında olan qadınlar arasında orta təhsillilərin sayı isə 4.035 nəfər olmuşdur.

**Cədvəl 13**

**Daimi əhalinin yaş qruplarına görə təhsil səviyyəsi (10 və yuxarı yaşlılar) (Şəki rayonu, ümumi əhali, 2009-cu il)**

| Yaş qrupları | Cəmi | O cümlədən | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Natamam ali təhsilli | Orta ixtisas təhsilli | Orta ümumi təhsilli | əsas ümumi təhsilli | Peşə təhsilli | Ibtidai ümumi təhsilli | Oxuyub yazmağı bacaranlar | Savadı olmayanlar |
| Şəki rayonu üzrə-cəmi O cümlədən | **145754** | **9933** | **1321** | **15366** | **70819** | **22847** | **4867** | **18702** | **146** | **1753** |
| 10-14 yaş | 14359 | 0 | 0 | 0 | 0 | 53 | 0 | 14289 | 0 | 17 |
| 15-19 | 17725 | 0 | 218 | 163 | 6751 | 10287 | 95 | 146 | 5 | 60 |
| 20-24 | 16781 | 1231 | 985 | 1729 | 10657 | 1626 | 380 | 115 | 7 | 51 |
| 25-29 | 14048 | 1649 | 62 | 1888 | 8512 | 1411 | 381 | 95 | 5 | 45 |
| 30-34 | 12019 | 1165 | 19 | 1377 | 7731 | 1229 | 383 | 76 | 1 | 38 |
| 35-39 | 11828 | 775 | 6 | 1550 | 7673 | 1113 | 592 | 81 | 1 | 37 |
| 40-44 | 13494 | 991 | 7 | 2110 | 8074 | 1273 | 864 | 98 | 8 | 69 |
| 45-49 | 14127 | 1165 | 11 | 2324 | 8106 | 1394 | 918 | 150 | 6 | 53 |
| 50-54 | 10540 | 1140 | 3 | 1715 | 5703 | 1121 | 630 | 167 | 3 | 58 |
| 55-59 | 6205 | 813 | 3 | 1092 | 2925 | 795 | 276 | 245 | 4 | 52 |
| 60-64 | 3043 | 377 | 0 | 475 | 1278 | 508 | 114 | 248 | 5 | 38 |
| 65-69 | 2825 | 212 | 3 | 306 | 1089 | 513 | 77 | 489 | 14 | 122 |
| 70-74 | 4197 | 217 | 2 | 363 | 1268 | 764 | 95 | 1067 | 28 | 393 |
| 75-79 | 2859 | 124 | 0 | 172 | 725 | 518 | 48 | 881 | 33 | 358 |
| 80-84 | 1267 | 57 | 1 | 69 | 264 | 197 | 12 | 420 | 19 | 228 |
| 85-89 | 334 | 16 | 1 | 32 | 47 | 38 | 2 | 107 | 5 | 86 |
| 90-94 | 64 | 0 | 0 | 1 | 16 | 7 | 0 | 18 | 1 | 21 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 95-99 | 23 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 3 | 1 | 18 |
| 100 yaş və yuxarı | 16 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 7 | 0 | 9 |

**Mənbə**: Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il. II Cild, Bakı, 2010, 772 s. Səh.671-679

İndi isə rayonda yaşayan əhalinin milli tərkibinə görə təhsil səviyyəsinə diqqət yetirək. 1999-cu ildə Şəki rayonu üzrə 6 yaşdan yuxarı əhalinin millətlər üzrə təhsil səviyyəsini araşdıranda məlum olur ki, 131.787 nəfər azərbaycanlıdan 2.629 nəfəri (onlardan 927 nəfəri kişi,1.702 nəfəri qadın), 6.603 nəfər ləzgidən 231 nəfəri (onlardan 76 nəfəri kişi,155 nəfəri qadın), 121 nəfər ukraynalıdan 2 nəfəri (onlardan 1 nəfəri kişi,1 nəfəri qadın), 228 nəfər rusdan 6 nəfəri (onlardan 1 nəfəri kişi,5 nəfəri qadın), 54 nəfər tatardan 1 nəfər (1 nəfər qadın), 43 nəfər kürddən 4 nəfəri (onlardan 2 nəfər kişi, 2 nəfər qadın), 7 nəfər ermənidən 1 nəfər (1 nəfər qadın) savadı olmayanlardır. Ümumilikdə, başqa millətlər üzrə savadı olmayanların sayı azlıq təşkil edir [4, s.293-295].

1999-cu il statistikasını 2009-cu il materialları ilə müqayisə etdikdə nəticələrin demək olar ki, eyni qaldığını görürük. Rayon əhalisinin sayına görə ilk sırada dayanan 139.220 nəfər azərbaycanlıdan 141 nəfəri, 6.101 nəfər ləzgidən 5 nəfəri təhsili olmayanlardır, 120 nəfər rusun hamısı təhsillidir. Başqa millətlərdən avar 14 nəfər, erməni 2 nəfər, kürd 21 nəfər, saxur 1 nəfər, tatar 10 nəfər, türk 21 nəfər, udin 2 nəfər, ukraynalı 6 nəfər olmasına baxmayaraq onların da təhsilli olması qeyd edilir [5, s.285-289].

Qeyd edək ki,1999-cu il siyahıyaalma materiallarında Şəki rayonu üzrə əhalinin milli tərkibi və təhsil səviyyəsinin göstəriciləri 6 və yuxarı yaşda olan bütün əhali göstərilirdisə, 2009-cu il siyahıyaalma materiallarında bu statistika 10 və yuxarı yaşlı əhali üçün göstərilmişdir.

Beləliklə, 1999-2009-cu il siyahıyaalma materialları əsasında Respublikamızın Şəki rayonunda təhsil səviyyəsini izlədik və baş verən kəmiyyət dəyişikliklərini qeyd etdik. Əhalinin təhsil səviyyəsindəki kəmiyyət dəyişiklikləri çüzi xarakter daşısa da bütün respublikada olduğu kimi Şəki rayonunda da təhsilin keyfiyyət səviyyəsinin aşağı enməsi özünü aydın göstərir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il. Azərbaycan Respublikasınn Şəki-Zaqatala coğrafi-iqtisadi rayonu əhalisinin təhsil üzrə bölgüsü və yerləşməsi (6 yaş və yuxarı), Bakı, "Səda" nəşriyyatı, 2000, II. 1 hissə, 745 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il, Bakı, "Səda" nəşriyyatı, 2000, II. 2 hissə, 620 s.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il,Bakı, “9 saylı kiçik müəssisə” nəşriyyatı, 2010, II Cild , 772 s.
**4.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il,Bakı, “Səda” nəşriyyatı, 2001, IV hissə, 582 s.,
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il,Bakı, “9 saylı kiçik müəssisə” nəşriyyatı, 2010, XX Cild , 686 s.

# GÜRCÜSTAN AZƏRBAYCANLILARI: DÜNƏN VƏ BU GÜN

**Mirzəyeva Nəsibə Eldar qızı**
**Tarix fakültəsi, bakalavr, IV kurs**
**nasiba_mirzayeva@mail.ru**

*Azərbaycanlılar Qafqazın ən qədim xalqıdır. Bu xalqın silinməz tarixi, adət-ənənəsi, dili mövcuddur. Bu gün tarixi torpaqları parçalanmış vəziyyətdə olan etnik azərbaycanlılar Qafqaz regionunun Gürcüstan, Rusiya Federasiyası, İran kimi ölkələrində də parçalanmış vəziyyətdə yaşayırlar.*

*Öz tarixi torpaqlarında yaşayan Gürcüstan azərbaycanlıları da uzun bir tarixi yol keçmiş və öz varlıqları uğrunda ciddi mübarizə aparmışlar. Gürcüstan müstəqillik qazandıqdan sonra yeni siyasi-iqtisadi-mədəni mühitə adaptasiya olmaq məcburiyyətində qalan soydaşlarımızın yaşadıqları çətinliklər ara-sıra mətbuat orqanlarında işıqlandırılır. Lakin problemlərin səbəblərinə, orada yaşayan soydaşlarımızın bu gün üz-üzə qaldığı problemlərə təəssüf ki, lazımı diqqət yetirilmir.*

*Bu problemlərin miqyasının genişlənərək daha təhlükəli şəkil alana qədər həllinin vacib olduğunu düşünərək, bu araşdırmamızı onlara həsr etmişik.*

***Açar sözlər**: Gürcüstan, Gürcüstan azərbaycanlıları, Borçalı , etnik millət.*

***Georgia and Azerbaijan: in the past and today***

*Azerbaijanis are the ancient inhabitants of the Caucasus. This nation has a rich history, traditions and language. Today, the ethnic Azerbaijanis, whose historical lands were divided, live in Georgia, Russia, and Iran.*

*Azerbaijanis of Georgia, liveing in the own historical land, passed long history and fought hard for their existence. After independence of Georgia in the process to adapt to the new political, economic and cultural environment our compatriots faced with difficulties and their problems highlighted in the press from time to time. But unfortunately, the causes of the problems, the problems, which faced by our compatriots are not considered necessary. Before expanding the scale of these problems until the picture is even more dangerous and considering the importance of their resolution, this research has been devoted to them.*

***Key words**: Georgia, azerbaijanis in Georgia, Borchali, ethnic nation*

**Gürcüstan azərbaycanlılarının tarixinə qısa baxış.** Gürcüstanda yaşayan azərbaycanlıların etnik tərkibini qarapapaqlar, qıpçaqlar, saklar, göyərlər kimi türk tayfaları təşkil edir. Hələ eramızdan əvvəl Gürcüstanın cənub və cənub-şərqində türk tayfaları yaşamışdır. Gürcüstan azərbaycanlılarının tarixi haqqında ərəb və fars mənbələrində yetərincə məlumat vardır. Gürcü yazılı mənbələrindən "Kartlis Tsxovreba" və "Moktsevani Kartlisani" əsərlərində bu ərazidəki türk tayfalarından bəhs olunur. X əsrdə

türk tayfalarının bu ərazidəki izlərinə rast gəlinib. 1121-ci ildə Didqori döyüşü barədə məlumat verən mənbələr həm də buradakı türk tayfaları haqqında bəhs edən mənbələrdəndir. XV-XVI əsrlərdə Gürcüstana etnik azərbaycanlıların hakimiyyətə dayaq məqsədilə köçü müşahidə olunub. XVII əsrin ilk yarısında I Şah Abbas tərəfindən Kartli və Kaxetiya çarlığı ərazisinə azərbaycanlılar köçürülüb [15,s.6]. 1604-cü ildən bu ərazidə XVIII əsrə kimi Borçalı xanlığı mövcud olub. 1879-cu ildə Tiflisdə azərbaycan dilində “Tatar xəbərləri” adlı qəzet nəşr olunmağa başladı [16]. İ.Stalinin hakimiyyəti dövründə etnik prinsiplərə əsaslanan bir sıra deportasiyalar həyata keçirilmişdi. Məhz bu dövrdə Tsalkin, Borçalı və Qarayazıda 3.240 nəfər azərbaycanlının yerləşdirilməsi məlumdur [14]. Gürcüstan müstəqillik qazandıqdan sonra Z.Qamsaxurdiyanin hakimiyyəti ilə azərbaycanlılar arasında münasibətlər pisləşdi. Sovet dönəmində Dmanisi (Başkeçid) və Bolnisi rayonlarının əhalisinin 50%-dən artığını azərbaycanlılar təşkil edirdi. Qamsaxurdiyanın hakimiyyəti dövründə onların hamısı zorakılıqla öz evlərindən çıxarılmışdı ki, Bolnisidə didərgin düşənlərin sayı 800 ailə idi [15, s.14]. 1980-ci ilin sonunda yüksək vəzifə tutan azərbaycanlılar öz yerlərindən qovulmuşdular. 1989-cu ildə gürcülərlə azərbaycanlılar arasında toqquşma baş vermişdi, buna səbəb azərbaycanlıların mərkəzi Rustavi olmaqla Marneuli, Bolnisi, Dmanisi rayonlarının birləşdirilməsi ilə Borçalıya muxtariyyətin verilməsi məsələsi idi. 90-cı illərdə Qamsaxurdiyanın millətçi siyasətindən qorxuya düşən azərbaycanlılar miqrasiya etməli oldular və Azərbaycan dilində olan 32 kəndin, çay və dağın adı dəyişdirilərək gürcü dilinə çevrilir [9]. Həmin vaxtda azərbaycanlılara qarşı təqiblər də həyata keçirilirdi. Azərbaycanlıların sıx yaşadığı Borçalı ərazisinə Qərbi Gürcüstandan svanlar yerləşdirilmiş və silahlandırılmışdı, nəticədə çoxsaylı münaqişələr yaranmış, azərbaycanlıların çoxu qətlə yetirilmiş digərləri isə köçürülmüşlər.

**Gürcüstanda yaşayan azərbaycanlıların bu günkü vəziyyəti haqqında.** Gürcüstan azərbaycanlıları Gürcüstan hüdudlarında qalmış öz tarixi torpaqlarında yaşayan xalqdır. Tarixən onların bu ərazilərdə məskən salması uzun bir yol keçməsinə baxmayaraq, müasir dövrdə soydaşlarımızla əlaqələrin qurulması məqsədilə dövlət komitələri yaradılmış, bununla bağlı müvafiq qanunlar qəbul edilmişdir. Lakin mövcud vəziyyət və aparılan statistik təhlillər göstərir ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz yurdlarını kütləvi şəkildə tərk edirlər [3]. Əslində, bunun bir sıra başlıca səbəbləri vardır. İlk növbədə buradakı azərbaycanlıların çıxarılması üçün hökümət orqanlarının həyata keçirdiyi təzyiq formaları buna misal ola bilər. Bu məqsədlə, Bolnisi rayonunun mərkəzində 100-dən artıq evin partladılması, yandırılması və talan edilməsini göstərə bilərik. Təbii olaraq

əhalinin sayının gündən-günə azalması artım faktoru ilə deyil, köçmələrlə əlaqədardır. Statistik məlumatlara görə, təkcə 1989-1993-cü illərdə, yəni Gürcüstanda "Gürcüstan gürcülərindir" ideyasının hakim olduğu dövrdə 100-dən artıq azərbaycanlı ailəsi qovulmuşdur [14]. Bu gün soydaşlarımızın problemləri təhsil, kənd təsərrüfatı, sosial təminat, səhiyyə, məişət sahələrini əhatə edir. Buradakı azərbaycanlıların təhsil problemi daha ciddidir. Gürcüstan azərbaycanlılarının bu gün üz-üzə qaldıqları problemləri aşağıdakı kimi sıralamaq olar:

1) *Təhsil problemi*. Burada əsas məsələ Azərbaycan dili ilə bağlıdır. 70 illik Sovet dönəmində buradakı azərbaycanlılar təhsillərini ana dilində almalarına baxmayaraq, SSRİ dağıldıqdan sonra mövcud strukturun dağılması, Azərbaycan dilində məktəblərin bağlanması və kadr çatışmazlığı vəziyyətin gərginləşməsinə səbəb oldu və bu problem 20 ildən artıq bir dövr keçməsinə baxmayaraq hələ də öz həllini tapmayıb [5].

2) *Torpaq məsələsi*. Gürcüstanda keçirilmiş torpaq islahatı soydaşlarımıza zərərsiz ötüşməmişdir. Hakimiyyət dəyişikliyindən sonra torpaq sahələri qanunvericiliyə müvafiq olaraq əhaliyə yenidən satılaraq, özəlləşdirilməli idi. Lakin tam əksinə olaraq, torpaqlar hərraca çıxarılıb gürcülərə satılmışdı. Nəticədə yüz hektarlarla sahələrə sahib olan azərbaycanlılar torpaqsız qaldı və bu problem hələ də qalmaqda davam edir.

3) *İşsizlik problemi*. Son iki il ərzində əksər azərbaycanlıların məskunlaşdığı Marneuli rayonunda 10-a yaxın fabrik və zavodun bağlanması, iş yerlərinin kütləvi ixtisarı işsizlik probleminə yol açmışdır.

4) *Vətəndaşlıq statusu*. Məlumata görə, 1998-ci ilin oktyabrına qədər Azərbaycana gəlmiş əhaliyə Azərbaycan Respublikasının vətəndaşı statusu verilirdisə, bu tarixdən sonra gələn əhalinin qeydiyyata düşmə məsələsi açıqlanmır, qaçqın statusu ilə bağlı edilmiş müraciətlər isə cavabsız qalır.

5) *Sosial problem*. Gürcüstan azərbaycanlılarının tibbi yardım alma imkanları, hərbi xidmət məsələsi də qənaətbəxş hesab oluna bilməz. Hər şeydən əvvəl kəndlərdə tibbi məntəqələrin yoxluğu məsələni ciddiləşdirir. Orduda azərbaycanlı əsgərlərin gürcü dilini bilməməsi, silah və hərbi sursatlarla bağlı verilən təlimatların başa düşülməsində ciddi maneələr yaradır, buna görə də əsgərlər yalnız təsərrüfat işlərinə cəlb edilirlər.

6) *Dil məsələsi*. Burada yeni bir problem - Gürcü dilinin öyrənilməməsi məsələsi önə çıxır. Düşünürəm ki, sadaladığım faktorlar içərisində xüsusilə vurğulanması vacib olan da məhz budur. Bu gün Gürcüstanda yaşayan soydaşlarımızın bu dili öyrənməməsi öz hüquqlarının müdafiəsində, hakimiyyətdə təmsil olunmalarında, öz şikayətlərini bildirməkdə, müəyyən qurumlara müraciətdə, təhsil, tibb, sahələrində xüsusilə maneə yaradır. Əgər Sovet dövründə azərbaycanlılar öz ana dilində

təhsil ala bilirdilərsə, bu gün mövcud şərait bunu göstərmir, əksinə gürcü dilinin öyrənilməsinin vacibliyini dəfələrlə təsdiqləyir və təsdiqləməkdədir. Oktyabr seçkiləri bir daha bu mövzunu əyani şəkildə sübut etdi. Fikrimizcə, hələ uzun müddət yaddaşlardan silinməyəcək tarixi dərs oldu. Belə bir müqayisə aparmaq istərdik. Bu gün siyasi məkanda azərbaycanlılar elə bir ciddi nailiyyət əldə etməsələr də, buradakı ermənilər nəinki gürcü dilini mükəmməl öyrənir, hətta qeyri-enerji sektorunda biznes qurur, parlamentdə təmsil olunur və hal-hazırda 50-yə yaxın fəaliyyət göstərən erməni təşkilatına malikdirlər [4]. Bütün bunlardan nəticə çıxarmaq gələcək üçün mühümdür. Gürcüstanın esk-prezidenti M.Saakaşvilinin (2004-2013-cü illər) Gürcüstanda yaşayan milli azlıqlar üçün “1+4” layihəsi effektsiz qalmamışdır. Bu layihə əsasında Gürcüstanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrin sayı artmaqda davam edir. Ümid edək ki, gələcəkdə bu artım soydaşlarımızın hər sahədə təmsil olunmasını şərtləndirəcək və töhfəsini verəcəkdir.

Ermənilər Gürcüstanda yaşayan milli azlıqlar içində say baxımından II yerdədirlər. Gürcüstanda 2014-cü ildə siyahıyaalınmaya görə, 168,1 min erməni (4,5%) vardır. Lakin gürcü soyadlarını alan erməniləri nəzərə almış olsaq, faiz nisbəti ilə onlar çoxluq təşkil etmiş olacaq.

Azərbaycan türklərindən fərqli olaraq, ermənilərin Gürcüstanın ictimai-siyasi həyatında fəal rol oynamasına səbəb onların dövlət dilini mükəmməl bilmələridir. Ermənilər Gürcüstan iqtisadiyyatının qeyri-enerji sektorunda fəaliyyət göstərirlər. Bundan başqa bir çox sahələrdə təmsil olunan ermənilər məharətlə azərbaycanlıların yaratdığı boşluğu doldurmağa çalışırlar. Gürcüstanda ermənilərin təmsil olunduğu sahələrdən bəzilərinin adını çəkmək istərdim. Məsələn, Avropa brendlərinin rəsmi distribyuturu olan “Monte Napoleone” şirkəti, ziynət əşyaları sahəsində erməni kapitalı ilə fəaliyyət göstərən “Chronograph” şirkəti, A.Abramyana məxsus “Aray Tomorrow” şəbəkəsi, Gürcüstanda göbələyə olan tələbatın 60%-ni ödəməyə malik olan “Белая Шапка” istilikxana təsərrüfatı, “Hytex Plastic” (plastik tələbatının 70%-ni ödəyir) və bir çoxlarının adını çəkmək olar [1]. Bundan başqa erməni təsirini artıran 50-yə yaxın təşkilatın adını çəkmək olar ki, onların rolu danılmazdır: Erməni Apostol Kilsəsinin Gürcüstan Yeparxiyası; Erməni Apostol Kilsəsinin Gürcüstan Yeparxiyası yanında "Ayartun" mədəniyyət və maarifləndirmə Mərkəzi; Tiflis Erməni Teatrı; "Vrastan" qəzeti; Axaltsixe Gənclər Mərkəzi; Tiflis Erməniləri Assambleyası; Gürcüstan Ermənilərinin Milli Konqresi; Erməni-Gürcü iş adamları Birliyi; Gürcüstan Erməniləri İttifaqı; Tiflis Erməniləri İttifaqı; Gürcüstan Erməniləri İcması; Acara Erməniləri İcması; Samtsxe-Cavaxk Erməni İctimai Təşkilatları Şurası [4]. Bu təşkilatlar zaman-zaman müxtəlif

aksiyalar təşkil edir, türklər əleyhinə "Genosid günü", Şuşanın alınmasını bayram kimi qeyd edir, müxtəlif bəyanatlarla çıxış edirlər ki, buna misal olaraq Cavaxetiyaya status verilmə məsələsini göstərə bilərik. Təbii olaraq bunlara qarşı parlamentdə təmsil olunan azərbaycanlı deputatlar bəyanatla çıxış etmişlər [7]. Gürcüstanda yaşayan ermənilər mediadan, xüsusilə Gürcüstan informasiya mərkəzlərində çalışan erməni jurnalistlərindən də alət kimi istifadə edirlər. Bu il aprel döyüşlərində həmin jurnalistlərin dəstək məqsədli yazıları əyani sübut ola bilər. Oktyabrın 8-də keçirilən seçkilərdə də ermənilərin fəallığı diqqəti cəlb etdi. Əsasən də Cavaxetiyada seçki fəallığı 50%-dən artıq olmuşdu. Axalkalaki dairəsindən 63,42% səs çoxluğu ilə "Gürcü arzusu" partiyasının namizədi Genzel Mikoyan qalib gəlmişdi. 2016-2020-ci illərdə fəaliyyət göstərəcək parlamentdə 3 hakim partiya nümayəndəsi-Genzel Mikoyan, Samvel Manukyan, Ruslan Poqosyan təmsil olunacaq [10].

Bu gün Azərbaycanın sahib olduğu enerji resursları böyük layihələr əsasında Gürcüstan vasitəsilə Avropaya çatdırılır. Hazırda azərbaycanlı iş adamlarının çoxsaylı sərmayələri ilə hər iki tərəfin iqtisadi əlaqələri inkişaf edir. 2007-ci ildən bəri Gürcüstanda Azərbaycanın böyük neft şirkəti olan SOCAR fəaliyyət göstərməkdədir və vergi ödəyicisi kimi qonşu ölkədə əhəmiyyətli yerlərdən birini tutur. Gürcüstanda 300-ə yaxın Azərbaycan şirkəti fəaliyyətdədir. Qonşu Gürcüstanda azərbaycanlıların təmsil olunduqları cəmiyyət və təşkilatlar vardır ki, bunlara misal olaraq, Acarıstan Gürcü-Azərbaycan Xeyriyyə cəmiyyətini, Azərbaycanlıların Tbilisi Mədəniyyət Mərkəzini, "Birlik" Ümumgürcüstan azəri türklərinin cəmiyyətini, "Dayaq" Assosiyasiyasını, Gürcüstan Azərbaycanlı Tələbələr İttifaqını, Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyini, "Varlıq" mədəniyyət mərkəzini, Gürcüstan Azərbaycanlılarının Milli Assambleyasını, "Tolerans" İnsan Hüquqları Müdafiəsi İctimai Birliyini göstərə bilərik. Bu il seçkilər göstərdi ki, 30-a yaxın azərbaycanlı partiyalarda öz namizədliyini irəli sürmüşdür. Təhsil sahəsində də irəliləyişlər əldə olunub. Əgər 2003-cü ildə Gürcüstanın ali təhsil məktəblərində 54 tələbə təhsil alırdısa, 2013-cü ildə bu rəqəm 1000-dən artıqdır. 2016-cı il seçkilərindən sonra hal-hazırda olan məlumata görə, Gürcüstan Parlamentində 4 azərbaycanlı namizəd təmsil olunur. Onlardan Mahir Dərziyev parlamentin "Diaspora və Qafqaz məsələləri ilə bağlı komitə"nin üzvü, Savalan Mirzəyev "İnsan haqlarının Müdafiəsi və Mülki İnteqrasiya Komitəsi"nin üzvü, Ruslan Hacıyev isə "Təhsil, elm və mədəniyyət komitəsi"nin üzvü seçilmişdir.

**Gürcüstanda son seçkilər və real nəticələr.** 2016-cı il oktyabrın 8-də Gürcüstanda Parlament seçkiləri keçirildi. Seçkilərin necə keçirilməsindən və nəticələrindən asılı olmayaraq onu qeyd edə bilərəm ki, məhz bu il

Gürcüstan azərbaycanlılarının bəlkə də hələ uzun müddət yaddaşlarda qala biləcək seçimi oldu. Onların tarixində tarixi bir başlanğıc üçün səhifə açılmış oldu. İlk dəfə olaraq azərbaycanlılar hakim partiyaya hamılıqla səs verməkdən çəkindiklərini nümayiş etdirdilər. Soydaşlarımız həm iqtidar, həm də müxalifət partiyalarında təmsil olunurdular. Azərbaycanlıların səsini qazanmaq naminə hətta ən millətçi partiya namizədləri açıq şəkildə mübarizəyə qalxmış və məcburi olsa belə azərbaycanlı nümayəndələrdən təmsilçi seçməyə razı olmuşdular. Maraqlı məqam isə ondadır ki, müşahidələr nəticəsində azərbaycanlıların gürcülərlə müqayisədə daha çox vətənpərvərlik nümayiş etdirmələri idi. Bu cür hərəkət bərabər hüquq istəyən soydaşlarımızın demokratiya uğrunda mübarizəsinin təcəssümü idi. Seçkilərdən sonra saxtalaşdırma prosesi ilə əlaqədar çıxışlar da yadda qalan hadisələrdən biridir. Hətta Qızılhacılı kəndində baş tutan bu cür çıxışlardan sonra soydaşlarımızdan 6 nəfəri gecə ikən həbs olunmuşdu [2].

Bu il proporsional siyahı üzrə Marneuli rayonundan "Gürcü arzusu" partiyasının azərbaycanlı namizədi Ruslan Hacıyev, "Vahid Milli Hərəkat" partiyasından Əhməd İmamquliyev, Qardabani rayonundan Savalan Mirzəyev, Bolnisidən Samirə İsmayılova təmsil olunurdular. Nəticələrə əsasən, azərbaycanlı namizədlərdən Ruslan Hacıyev (56,13% səs çoxluğu ilə), Savalan Mirzəyev (50,02%), Mahir Dərziyev (50,02%) və Azər Süleymanov parlamentə daxil oldular.[10] Onlardan yalnız Azər Süleymanov Vahid Milli Hərəkat partiyasının üzvüdür. Əhməd İmamquliyev 25,9% səslə rəqibi Tamaz Naverianiyə məğlub olaraq parlamentə seçilə bilmədi. Gənclər arasında xüsusi dəstəklənən Samirə İsmayılova da bu il parlamentdə iştirak edə bilməyəcək. Samirə İsmayılova seçkilərin ilk mərhələsində +50%-lik həddi keçə bilmədiyindən, digər namizədlər üçün təşkil olunan II mərhələdə iştirak hüququ almadı.

Bu günkü azərbaycanlıların hakimiyyətdə təmsil olunmaları göründüyü kimi müəyyən səbəblər ucbatından məhdudlaşır və ya məhdudlaşdırılır. Tarixi bir müqayisə aparmaq istərdik. Əgər eks-prezident M.Saakaşvilinin dönəmində azərbaycanlılar içərisində prezident müşaviri, nazir müavini, parlament ekspertləri vardısa, bu gün isə nəinki azdırlar, hətta yox dərəcəsindədirlər. Təbii ki, bu məhdudlaşmanı daha da gücləndirən dil amilini də yaddan çıxarmaq olmaz. Gələcəkdə gənclər arasında savadlılığın artırılması, siyasi hadisələrə qatılmaq kimi amillər Gürcüstanda yaşayan azərbaycanlıların bir millət kimi öz hüquq və azadlıqlarının müdafiə edilməsi, onların da azad şəkildə təmsil olunmasına yol aça bilər. Bunun üçün daim çalışmaq lazımdır. Çünki müasir dövr silah müharibəsi, güc nümayişi dövranı deyil, burada yalnız ağıl, bilik qalib gələ bilər.

**Nəticə.** Beləliklə, soydaşlarımızın ümumi problemlərini araşdırarkən

belə nəticəyə gəlirik ki, tarixi torpaqlarında yaşayan azərbaycanlıların vəziyyəti yetəri qədər qənaətbəxş deyildir.

**Ədəbiyyat siyahısı:**


1. Azər Nuriyev. Ermənilər İvanişviliyə qarşı // http://kaspi.az/az/ermeniler-ivanisviliye-qarsi/
2. Asif Ozan. Gürcü hakimiyyəti azərbaycanlılara təzyiqlər etdirir// http://olaylar.az/news/diaspora/27777
3. Elşad Paşasoy. Gürcüstanda 27 azərbaycanlı kəndi köçürülmək təhlükəsi ilə üz-üzə// http://musavat.com/news/reportaj/Gurcustanda-27-azerbaycanli-kendi-kocurulmek-tehlukesi-ile-uz-uze_196866.html
4. Ermənilər Gürcüstanı necə "fəth" ediblər?//http://son.az/az/news /29250/ ermeniler-gurcustani-nece-feth-edibler
5. Əli Babayev. Gürcüstanda azərbaycanlıların ən böyük problemi təhsillə bağlıdır // http://www.azadliq.org/a/404851.html
6. Əfqan Muxtarlı. "Hakimiyyətlər dəyişir, azərbaycanlılara münasibət dəyişmir". // https://www.meydan.tv/az/site/politics/12481/
7. Gürcüstanda erməni namizədlə azərbaycanlı namizəd əlbəyaxa oldular//http://az.baku.ws/hot_news/17143-gurcustanda-ermni-namizdl-azrbaycanl-namizd-lbyaxa-oldular-davanin-vdeosu.html
8. Gürcüstan türklərindən tarixi addım// http://www.marasgundem.com/gurcistan-turklerinden-tarihi-adim-101416h.htm
9. Gürcüstan azərbaycanlılarının qorxulu statistikası// http://azerbaijanfoundation.az/miqnews/747-g252rc252stan.html
10. Gürcüstanın yeni parlamentində 4 azərbaycanlı, 3 erməni deputat//http://www.azadliq.org/a/urcustan-parlament/28044222.html
11. İradə Cəlil. Biz buranın tarixi sakinləriyik// http://modern.az/az/news/43299/#gsc.tab=0
12. Mənsur. Azərbaycanlıların Gürcüstanda seçki siyasəti // http://www.cebhe.info/az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n-g%C3%BCrc%C3%BCstanda-se%C3%A7ki-siyas%C9%99ti__27274/
13. Şurəddin Məmmədli. Gürcüstan azərbaycanlıları. Tbilisi, 2006
14. Очерки истории Грузии. http://www. nukri.org/index. php?name= Cmods Download&file=index&req=viewdownload&cid=11&min=10&orderbydateD& show10
15. Депортация народов // http://scepsis.net/library/id_1237.html
16. Халаддин Ибрагимли. Азербайджанцы Грузии (историко-этнографический и социально-политический комментарий), Тибилиси, 2008, 140 с.
17. საქართველოს ისტორია// http://saunje.ge/index.php?id=109&lang=ru

# AZƏRBAYCAN I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ (1914-1918-Cİ İLLƏR)

**Mustafayeva Lamiyə Nizami qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**Mustafayeva.lamiye@yahoo.com**

*Məqalədə Azərbaycanın I Dünya müharibəsi illərindəki fəaliyyətindən, müharibə illərindəki vəziyyətindən və Azərbaycan ziyalılarının fəaliyyəti barədə məlumat verilir.*

***Açar sözlər:*** *Fevral inqilabı, Şıxlinski, ordu, Azərbaycan, I Dünya müharibəsi*

***Azerbaijan during the world war I ( 1914-1918)***

*This article dedicated to the World War I with the focus on the activities of Azerbaijanis. The people of Azerbaijan were struggling to create new institutions in this period and they created it. The people of Azerbaijan have participated very dynamically in the period of revolution and after that they have won success.*

***Key words:*** *February revolution, Shikhlinski, Azerbaijan, army, Azerbaijan ,first world war.*

**Giriş.** Bildiyimiz kimi "Üçlər İttifaqı" və "Antanta" dünyanı bölüşdürmək uğrunda bir mübarizəyə başladılar. Onların bu arzusu aralarındakı mübarizəni daha da genişləndirdi və nəticə olaraq da dünya müharibəsinə gətirib çıxartdı. Həmin hərbi bloklara daxil olmuş dövlətlərdən hər birinin işğalçılıq planında sözsüzki Azərbaycan və onun nefti də mühüm yer tuturdu. Ölkəmizdə neft sənayesində hakim mövqe tutmaq uğrunda mübarizədə bir çox inhisarçılar mübarizə aparırdılar, lakin bunlar arasında alman və ingilis inhisarları xüsusilə fərqlənirdilər. Təbii ki, müharibədə döyüşən blokların hər birinin öz məqsədləri var idi. Müharibə xeyli ölkələri əhatə etmiş və qlobal xarakter almağa başlamışdı. Yaranan ziddiyyətlər, həll olunmaz mürəkkəb məsələlər 38 ölkəni müharibəyə cəlb etdi və müharibə dünya müharibəsinə çevrildi.

**Müharibə edən dövlətlərin Azərbaycan planı.** Bakı neft sənayesində İngilis, alman və fransız kapitalları hökmranlıq uğrunda mübarizəyə başladılar və bu da ilk dövrlərdə Rusiya neft ticarətində almanların güclənməsinə gətirib çıxardı. Bunun nəticəsi olaraq Azərbaycanın neft istehsalında əsas mövqelər rəqiblərin əlinə keçdi və alman kapitalı sıxışdırılırdı. Neft istehsalı uğrunda mübarizədə itirilmiş mövqelərini geri qaytarmaq cəhdləri ilə bərabər, almanlar Skandinaviyadan İran körfəzinədək çox böyük əraziləri əhatə edəcək olan "ümumalman reyxi" yaradılması proqramını hazırlayır-

dılar. Rudolf Martin - Almanyanın hökumət məmuru hələ müharibədən əvvəl, 1907-ci ildə nəşr etdirdiyi "Berlin-Bağdad" adlı kitabında müharibənin məqsədlərindən birinin Bakı və bütün Qafqazı əhatə edəcək "Tiflis canişinliyi" yaradılması olduğunu qeyd edir.

Cənubi Azərbaycanda Almaniya təsirini gücləndirmək üçün, Rusiyanı burada zəiflətməyə çalışırdı. O bu bölgənin strateji əhəmiyyətini nəzərə alaraq, adı-sanı olan yerli dairələrlə sıx əlaqələr qurmağa çalışırdı.

Müharibə dövründə İranın bitərəfliyi hər birimizə məlumdur. Osmanlı Qafqaz cəbhəsindəki döyüşlər baş verən bir vaxtda rusların diqqətini Qafqaz cəbhəsindən yayındırmaq üçün Cənubi Azərbaycan ərazisinə öz qoşunlari ilə daxil olur, bununla da İranın bitərəfliyi pozulur. Almaniya və Osmanlının məqsədi İranda ingilis və rusların təsirini puça çıxararaq onun ərazisindən Cənubi Qafqaza soxulmaq idi. Belə ki onlar ilk növbədə Bakını tutmaq arzusunda idlər.

Qafqaz cəbhəsində müharibə çox ağır şəraitdə davam edirdi. Çoxlu sayda itkilər var idi, buna əsas səbəb olaraq isə sərt iqlim şəraiti, nəqliyyatın yarıtmaz vəziyyəti və silah çatışmazlığı ilə bərabər bir çox zabit və generalların səriştəsizliyini göstərmək olar. Cənubi Qafqaz əvvəlcə hərbi əməliyyatlar meydanı idi, lakin sonradan cəbhəyanı bölgəyə çevrildi və bu da gözəl ərazinin siyasi və iqtisadi vəziyyətinə xeyli zərər vururdu. Mərkəzi Rusiya ilə əlaqələr də pozulmuşdu, nəticədə isə diyarın zəruri ərzaqla təchizatı çətin vəziyyətdə idi. Gündən-günə neftin qiyməti aşağı düşürdü. Əgər buna səbəb axtarsaq görərik ki, bu dövrdə Qara dəniz limanlarının bağlanması və neft ixracının dayandırılması bu hadisələrin əsasını təşkil edir.

**Müxtəlif təbəqələrin müharibəyə münasibəti.** Birinci Dünya müharibəsinin başlanması Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində çoxlu ziddiyyətlərə səbəb oldu. Cəmiyyətin yuxarı sosial təbəqələri müharibədə Rusiyanı müdafiə edirdilər. Bunu isə burjua nümayəndələri və publisistlərinin çıxışlarında, eyni zamanda rəsmi sənəd və bəyanatlarda görmək mümkün idi.

Müharibə nəticəsində müstəqillik əldə olunacağına ümid bəsləyən M.Ə.Rəsulzadə "Açıq söz" qəzetinin ilk sayında yazırdı ki, bu müharibə əzilmiş ölkələrin müstəqilliyini möhkəmləndirə biləcək bir sülhlə bitməlidir, bunun əksi olarsa həmin sülh uzun sürməyəcək. “Ancaq dövlətçilik uğrunda öz mübarizəsində birləşmiş xalqlar istiqlaliyyət qazanacaqlar, çünki ancaq onlar birlik və dəyanətdən doğan ideallarına və özlərinə inama malik ola bilərlər”. Lakin bununla bərabər, o Rusiya hökumətinin müharibədəki xəttini tamamilə müdafiə edirdi. Bu isə vətənpərvərlik istiqamətində öz ifadəsini tapırdı. M.Ə.Rəsulzadə elə həmin məqaləsində yazırdı: "Bütün vətəndaşlarla birgə biz də hər şeydən əvvəl Rusiyaya uğurlar və qələbə diləməliyik" (1,səh.137).

Məlum olduğu kimi, Rusiyada yaşayan müsəlman türkləri orduya çağırılmırdılar. Çar hökuməti isə Azərbaycan türklərinin cəbhələrdə Osmanlılara qarşı vuruşmayacağından əmin idi və silahın özünə çevriləcəyindən ehtiyyat edərək müharibə dövründə onları orduya çağırmırdı. Azərbaycandan rus ordusuna xidmətə yalnız ali müsəlman silkinə aid olanlar qəbul olunurdu.

I dünya müharibəsi dövründə rus ordusunda 200 nəfərdən artıq azərbaycanlı zabit iştirak etmişdir. Müharibə dövründə bir çox azərbaycanlı orden və medallarla təltif olunmuşdular. Onlardan “Müqəddəs Georgi” ordeni alan azərbaycanlılar bunlar idi:

1) İlk azərbaycanlı təyyarəçi- Fərrux ağa Qayıbov
2) Nijqorod draqun alayının rotmistri-Teymur Novruzov
3) Polkovnik- Qalib ağa Vəkilov

1914-cü il Lodz əməliyyatında 21-ci piyada diviziyasının komandiri general Səməd bəy Mehmandarov alman generalı Makenzinin hərbi qüvvəsini darmadağın edir və rus ordusunu mühasirədən çıxardır. Həmin göstərdiyi şücaətə görə Mehmandarovun vəzifəsi böyüdüldü və II Qafqaz ordusuna korpus komandanı təyin edildi.

Müharibəyə başlayan kimi Əliağa Şıxlinskiyə çarın əmri ilə Peterburqun toplarla müdafiəsi tapşırılmışdı. Ə.Şıxlinski artilleriyanın ən yaxşı bilicisi olduğuna görə “Artilleriya Allahı” adlandırılırdı. Müharibənin gedişində o, Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında isə 10-cu komandanın rəisi təyin edildi. Əliağa Şıxlinski Rusyanın ali ordenləri ilə yanaşı, Fransanın da ali rütbəli sərkərdələri üçün nəzərdə tutulan ordenlərlə də təltif olunmuşdur.

Müharibədə Cənub-Qərb cəbhəsində ikinci süvari divizyanın komandanı olan Hüseyn xan Naxçıvanski alman cəbhəsinin yarılmasında xüsusilə fərqlənirdi.

Ölümündən sonra “Müqəddəs Georgi” ordeni ilə təltif olunan ilk hərbi təyyarəçimiz Fərrux ağa Qayıbov 1916-cı ildə Vilnüs səmasında qanlı hava döyüşü zamanı düşmənin 4 təyyarəsini vurmuş, lakin özü ekipajı ilə birlikdə 23 yaşında həlak olmuşdur.

I dünya müharibəsi illərində azərbaycanlılardan təşkil olunmuş əlahiddə “Tatar süvari alayı” çar generalları tərəfindən “Vəhşi divizya” adlandırılırdı. Bu alay isə sonralar Azərbaycan milli ordusunun təşkilində böyük rol oynadı.

**Müharibənin iqtisadiyyata təsiri.** Azərbaycan iqtisadiyyatının əsasını neft sənayesi təşkil edirdi, lakin bu sənaye müharibə dövründə durğunluğa uğradı və bir müddət sonra həmin durğunluq getdikcə dərinləşdi. Müharibə şəraitini nəzərə alaraq deyə bilərik ki, duru yanacağa tələbat oduqca çox idi, ancaq neft hasilatı sənaye və hərbi idarələr üçün tələbatı ödəyə bilmirdi. Təsərrüfat dağınıqlığı sənayenin digər sahələrində də özünü göstərirdi.

Müharibə başlayan kimi bir çox zavodlar xüsusilə də misəritmə zavodları hərbi sifarişlər yerinə yetirməyə başladılar və onların fəhlələrinə möhlət verilmişdi, çünki həmin qeyri-müsəlman fəhlələr orduya çağırılmırdılar.

Müharibə illərində ölkədə kənd təsərrüfatı və digər sahələrdə də böhran baş verirdi. Ərzaq qıtlığına və son dərəcə bahalığa görə ölkəni aclıq bürümüşdü, hətta Bakı ərazisində iri qoşun hissələri yerləşdirilirdi və bu da əhalinin vəziyyətini daha da ağırlaşdırırdı.

**Azərbaycan Fevral inqilabından sonrakı dövrdə.** Rusiyada 1917-ci il Fevral inqilabı nəticəsində çarizm devrildi. Müvəqqəti hökumət yerlərdə əvvəlki hakimiyyət orqanlarını ləğv edərək öz hakimiyyətini yaratmağa başladı. Çarizmin devrilməsindən istifadə edərək Azərbaycanda gizli fəaliyyət göstərən partiyalar artıq açıq fəaliyyət göstərirdilər. 1917-ci ildə Bakı sovetinə seçkilər keçirildi və bu seçkilər zamanı xalqın milli mənafeyinə zidd olan Sovetlər yarandı. Bura isə əsasən menşevik, daşnak, eser və bolşeviklər aid idi. 1917-ci il fevralın 27-də Peterburqda baş verən ümumi-siyasi tətil üsyana çevrildi. Fevralın 28-də isə inqilab qələbə çaldı və ikihakimiyyətlilik yarandı. Bunlar: Müvəqqəti hökumət və Fəhlə Deputatları Soveti idi.

Bu dövrdə Azərbaycanda müsəlman milli şuraları da yaradılırdı. İnqilabın qələbəsindən sonra bütün siyasi partiyalar, həmçinin Müsavat partiyası açıq iş şəraitinə başladı. Həmin vaxt N.Yusifbəyli, H.Ağayev, Ş.Rüstəmbəyli və başqalarının təşəbbüsü ilə Türk Ədəmi Mərkəziyyət Federalistlər Partiyası təşkil olundu. Bu partiya Rusyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini istəyirdi.

**Nəticə.** Fevral inqilabından sonra Azərbaycanda milli-azadlıq hərəkatında mühüm olan yeni bir mərhələ başlandı:

1) Həmin dövrdə milli hərəkat daha kütləvi bir xarakter daşıyırdı.
2) Əvvəlki hərəkatlardan fərqli olaraq, bu hərəkata ziyalılar rəhbərlik edirdi.
3) Həmin bu hərəkatda əhalinin bütün təbəqələri milli dövlətçilik ətrafında birləşirdi.

1917-ci il mayın 1-də Ümumrusya müsəlmanlarının Moskvada qurultayı keçirildi. Qurultayın gündəliyini maarif, milli-məhəlli muxtariyyət, siyasi təşkilatların açılması kimi məsələlər təşkil edirdi. Qurultayda Tatar burjuaziyasının nümayəndələri türk-müsəlman xalqlara yalnız mədəni muxtariyyət verilməsini irəli sürmüşdü, ancaq qurultayın sonunda səsvermə nəticəsi ilə milli-məhəlli muxtariyyət verilməsi qəbul olundu.

1917-ci ildə Azərbaycanda milli-azadlıq uğurunda mübarizə 3 istiqamətdə gedirdi.

1) Müvəqqəti hökumətin əsarət altında olan xalqlar haqqında yeritdiyi

müstəmləkəçilik siyasəti:

2) "Vahid və Bölünməz" imperiya ideyasını təbliğ edən Sovetlərə qarşı

3) Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın qarşısının alınması.

1917-ci ildə Petroqradda bolşevik çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi. Oktyabrın 25-26-da II Sovetlər qurultayı keçirildi və bununla da sovet diktaturasının əsası qoyuldu (1,səh.137).

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi. VII cilddə, V cild. Bakı, 2001, 584 səh.
2. Altay Goyushov. 1914-1918. İnternational Encyclopedia of the First Warld War. Universty Berlin, Berlin, 2016
3. Firuz Kazemzadeh. The struggle for Transcaucasia (1917-1921) New York, Oxford, 1951, 230 p.
4. T.Ə.Əzizov. Azərbaycan XX əsrin əvvəllərində (ümumi tarixi icmal), Bakı, 1997, 256 s.
5. Swietochowski Tadeusz: National Consciousness and political orientations in Azerbaijan, 1905-1920, New York, 1985 Cambridge Universty Press
6. Reynolds Michael A: Shattering empires: the clas and collapse of the Ottoman and Russian epmires, 1908-1918, Neü York, Cambridge Universty Press, 2011.

# 1918-Cİ İL MART QIRĞINLARININ TARİXŞÜNASLIĞI

**Novruzova Xəyalə Ceyhun qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**mussinanov9700@gmail.com**

*XX əsrin müxtəlif zaman kəsiyində Mart hadisələri ilə bağlı qələmə alınmış əsərlərdə mövcud vəziyyətin qabardılması, Zaqafqaziyada və Çar Rusiyasında baş verən siyasi hadisələrin ön plana çəkilməsi və bu baxımdan da mart qırğınlarına lazımi dəyər verilməyərək onu "vətəndaş müharibəsi", "qonşuluq münaqişəsi" və başqa cür adlandırılması hadisələrin real səbəbini gizlətməyə xidmət etmişdir. Lakin bir çox milli yazarlar hadisələrə obyektiv yanaşaraq, fakt və sənədlərə dayanaraq Sovet dövrü müəlliflərinə cavab olaraq monoqrafiyalarda bu fikrin əsassız olduğunu ortaya çıxarmışlar. Məqsədimiz tariximizin acılı səhifələrindən olan Mart qırğınlarının kökündə duran məqsədyönlü siyasəti ortaya çıxarmaq və hadisələri olduğu kimi çatdırmaqla şübhəsiz təbliğ olunmasını təmin etməkdən ibarətdir.*

***Açar sözlər**: Fövqəladə Təhqiqat Komissiyası, Şaumyan, Bakı, soyqırım, tarixşünaslıq*

***The historiography of the March 1918 massacre***

*In the different period of the 20th in the works devoted to the March massacre lighting of the issue and mainstreaming the political events of the Caucasus and Russia, in this respect underestimating the March massacre, named it "civil war", "neighborhood dispute" and others served to conceal the true causes. But many national writers standing objectively pulled out the events, based on the facts and documents in their monographs in response to the authors of the Soviet period. Our goal is to uncover a painful page of history, the March massacre and the events underlying the policy, moreover to depict the real picture and to desiminate the real facts.*

***Key words:** Extraordinary İnvestigation Commission, Shaumyan, Baku, genocide, historiography*

1917-ci ildə Fevral inqilabı nəticəsində Rusiyada çar hakimiyyətinin devrilməsi, oktyabr ayında bolşevik çevrilişi hadisələrindən sonra imperiyanın dağılmasından daşnaklar böyük məharətlə istifadə etdilər. Belə ki, başda Şaumyan olmaqla, Fevral burjua inqilabından sonra Qafqaz cəbhəsindən qayıdan rus əsgərlərini öz tərəflərinə çəkən ermənilər 1917-1918-ci illərdə türk-müsəlman əhalisinə qarşı kütləvi insan qırğını, zorakılıq soyqırımı həyata keçirdilər ki, bu da heç də təsadüfi hadisə olmamışdır. Sovet tarixşünaslığında bu qırğınlar nə qədər təhrif olunmuş şəkildə ifadə edilərək verilsə də, 1918-ci il iyulun 15-də Ələkbər bəy Xasməmmədovun

sədrliyi ilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyası, o cümlədən "Azərbaycan" qəzetinin 1919-cu il 31 mart sayındakı "Mart hadiseyi-ələmiyyəsinin müxtəsər tarixçəsi" məqalələr toplusu, AXC dövründə dərc edilmiş rəsmi sənədlər və s. materiallar bu hadisənin "Daşnaksütyun" partiyasının "Böyük Ermənistan" yaratmaq planını reallaşdırmaq yolunda atılan bir addım olub, soyqırımı siyasətindən başqa bir şey olmamasını sübut edir. Bu qırğınları törətməkdə başlıca məqsəd Bakıda hakimiyyəti ələ almaq və "siyasi rəqib" olan "Müsavat"ı zərərsizləşdirmək idi. Hadisələrin gedişində ermənilərin bolşeviklər tərəfindən vuruşması qırğını daha da şiddətləndirdi, çünki qırğından bir neçə gün əvvəl Erməni Milli Şurası rəsmən şəhərdə müsəlmanlarla bolşeviklər arasında toqquşma baş verdiyi təqdirdə ermənilərin bitərəf qalacağını elan etmişdi və məhz bu səbəbdən də daha sonrakı hadisələr milli qırğın zəminində inkişaf etməyə başladı. Mənbələr içərisində Təhqiqat Komissiyasının 1920-ci ilin aprelinə qədər topladığı materiallar və şahid ifadələri daşnak və bolşeviklərin cinayətlərini ifşa edən sanballı tarixi sənədlərdir ki, məhz bu sənədlərə istinadən AXC hökuməti 1919-cu və 1920-ci illərdə martın 31-ni Ümummilli matəm günü kimi qeyd etmişdir. Eyni zamanda M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun, Adil xan Ziyadxanlının əsərləri də bu hadisələrin araşdırılıb öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Belə ki, tarixçi A.İsgəndərovun "1918-ci il Mart qırğınının tarixşünaslığı" əsərində M.Ə.Rəsulzadənin mart qırğını şəhidlərinin ildönümünə yazdığı "Unudulmaz faciə" məqaləsindən: "Bu gün tarixin qeyd edə biləcəyi "aşura", "Varfolomey gecəsi" kibi xainə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi"- sətirləri xatırlanaraq müəllifin təəssüf hissini əks etdirir [1,s.10]. Həmçinin əsərdə Əlimərdan bəy Topçubaşovun qırğınlar barədə qeydlərinə yer verilib. O, «Evelina» gəmisinin müsadirəsi haqqında belə deyir: "«Evelina» gəmisinin müsadirəsi, sadəcə, bəhanə idi. Çünki bolşeviklər bu qırğına çoxdan hazırlaşırdılar. Döyüşlərin ilk günündə bolşeviklər müsəlman əhalini soymağa və qırmağa başladılar" [1,s.12]. Daha sonra Ə.Topçubaşov Bakıda öldürülən əhalinin sayının 6 mindən yuxarı olduğunu göstərmişdir. Sonralar Təhqiqat materiallarından da məlum olur ki, 1918-ci il martın 18-22-si arası təkcə Bakıda müsəlman məhəllələrində 6 mindən yuxarı adam öldürülmüş, yüzlərlə ev dağıdılıb, yandırılıb və talan olunmuşdur [4,s.96]. Qeyd etmək lazımdır ki, faciəli mart günlərində erməni daşnakları azərbaycanlıların böyük mədəniyyət ocaqlarını da tarixdən silməyi borc bilmiş, nəhəng "İsmailiyyə"ni, o cümlədən məktəbləri, məscidləri, "Kaspi" mətbəəsini, xəstəxanaları dağıdıb, yandırır, uşaqdan tutmuş qocaya qədər hamını güllələyirdilər. Kimsəyə rəhm edilmirdi. Öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq küçələrdə qundaqları ilə vurub qaçmağa məcbur

edirdilər [3,s.304]. Tariximizin 1917-1920-ci illərini tədqiq edən tarixçi-arxivşünas A.Paşayev "Açılmamış səhifələrin izi ilə" adlı fundamental monoqrafiyasında bir çox arxiv sənədləri ilə işləyərək, o cümlədən, Fövqəladə Təhqiqat Komissiyası materiallarını dərindən araşdırmış, nəticədə sözügedən hadisələrlə bağlı həqiqətləri ortaya çıxarmışdır. Müəllif əsərdə Şaumyanın əsl məqsədinin izahıyla bağlı elə onun öz məktubunun məzmunundan nəticəyə gəlmişdir - Şaumyan 1918-ci il aprel ayının 13-də Moskvaya - Xalq Komissarları Sovetinə yazdığı məktubunda azərbaycanlılara qarşı törədilmiş bu vəhşiliklərə haqq qazandıraraq: "Milli hissələrin (daşnak) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir. Lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik" [4, s.243]. Məktubdan bir daha aydın olur ki, Mart hadisələri planlı həyata keçirilməklə, yanaşı, həmçinin daşnakların qırğında iştirakına qəsdən yol verilmişdir. Mart qırğını ilə bağlı ilk tədqiqat işlərindən sayılan AXC-nın fəaliyyəti dövründə tərtib edilmiş "Qafqazın Azərbaycan Respublikası" adlı kitabdır. Kitabın V hissəsindəki bir fikir diqqəti cəlb edir. Belə ki, burada qeyd olunur ki, Qərb cəbhəsindən qayıtmış və Zaqafqaziya dəmir yollarının işləməməsi üzündən Bakıda qalmış 7 minə qədər erməni əsgəri sözügedən hadisələr zamanı bölgədə olmuşlar [1, s.41]. Bu, sovet tarixşünaslığındakı Qırmızı Ordu sıralarında vuruşan erməni-daşnaklarının sayı barədəki yazını (4 minə yaxın olduğu göstərilmişdir) aydın şəkildə ifşa edir [2, s.57]. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində ermənilərin Lənkəranda törətdikləri qırğınlar diqqətdən kənarda qalmamışdır. Bu haqda Türk qoşunlarının Bakını almasından az əvvəl Lənkərana 2 min nəfərlik erməni dəstəsinin gəlişi, onların məscidlərə soxularaq dini ayinlərin yerinə yetirilməsinə mane olmaqla yanaşı, camaatı qarət etməsi qeyd olunur [4,s.227]. Şamaxı qəzasının müsəlman kəndlərinin talan edilməsi haqqında toplanılan materiallarda şəhərin bütün müsəlmanlar yaşayan hissəsinin yandırılması, yanğının hər şeyi məhv etməsi, bir dənə də olsun salamat ev qalmaması göstərilir. Qeyd edək ki, hesablamalara, əsasən, qırğın zamanı 13 məhəllə məscidi və böyük "Cümə" məscidinin yandırılması, həmçinin 72 kəndin büsbütün yandırılması və bu zaman ermənilərlə birgə molokanların hərəkət etməsi təsbit edilmişdir [1,s.44].

Tarixçi-alim A.İsgəndərovun "1918-ci il Mart qırğınının tarixşünaslığı" adlı əsərinin II fəslində "Türk-müsəlman soyqırımı 20-30-cu illər sovet tarixşünaslığında" adlı ilk paraqrafında verilmiş Rəşid bəy İsmayılovun "Azərbaycan tarixi" kitabı olduqca əhəmiyyətlidir. Hadisələrin şahidi olmuş müəllif qırğının 2-ci günü daşnakların "Biz bolşevik, sosialist bilmərik, müsəlmansan kifayətdir"-deyərək, hətta müsəlman sosialistlərini də qırmasını qeyd etmişdir [1, s.78]. N.Nərimanovun "Biz Qafqaza hansı şüarla gedirik?" adlı məqaləsi

də bu qəbildən olub hadisələrin məğzini görməyə imkan verir. Xarici tarixşünaslıq əsərlərindən Y.Ratqauzer adlı müəllifin fikirlərinə nəzər salsaq, onun da hadisələrə birmənalı yanaşmadığının şahidi olarıq. Müəllifin fikrincə, 1917-ci ilin axırlarında "Müsavat" Azərbaycanın ayrı-ayrı qəzalarında müsəlman milli alaylarının yaradılmasına başlanmış, "Daşnaksütyun" partiyası və sağ eserlər bu təhlükəni aradan qaldırmaq üçün Bakı Sovetinin hərbi qüvvələrinin köməyindən istifadə etməyi təkid etmişlər. Bu fikri davam edərək müəllif Sovet rəhbərliyinin "Müsavat"a qarşı mübarizəyə başlayarkən Bakıda yerləşən daşnak qüvvələrindən istifadə edəcəyini planlaşdırmamasını səsləndirir. Lakin qeyd etmək yerinə düşər ki, dövrün digər əcnəbi tədqiqatçısı Dubner bu fikrin tam əleyhinə olaraq, Bakı Kommunasının özünü qorumaq üçün şəhərdə olan bütün silahlı qüvvələrlə əvvəlcədən razılığa gəlməsini qeyd edir [2, s.50]. Lakin Pçalen və 50-ci illərin tədqiqatçısı Y.A.Tokarjevski də qırğınların günahkarı kimi "Müsavat"ın fəaliyyətini hesab edirdilər. Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallardan birində həmin günlərin şahidi Məmməd Hüseyn Axundov xatırlayır: "Ermənilər azərbaycanlıları qıra-qıra Göyçaya çatmışdılar. Onlar hamilə qadınlara da acımamış, onların qarnını yarıb uşağı nizəyə keçirib, divara mıxlayır, camaatı məscidə doldurub yandırır, qız və gəlinlərin kürəyinə qaynar samovar bağlayır və başqa insanlıqdan kənar vəhşiliklər edirdilər" [1,s.159]. Materiallarda Ələbbas Müznibin şahidi olduğu hadisələr haqqında dedikləri: "Bu müharibədə müsəlmanlar yalnız tüfəng və tapançalar ilə müsəlləh olduqları halda, rus və ermənilərin nizami əsgərləri top, güclü pulemyot, əl bombası və vintovka ilə silahlanmışdılar. Şaumyan isə Sarıtsinə teleqram vuraraq üstəlik döyüş təyyarələri göndərilməsini xahiş edirdi" [3, s.171]. Mart hadisələri ilə bağlı əhəmiyyətli əsərlərdən biri də son illərin nəşri olan (2008) Tarixçi-alim Xəqani Məmmədov və Nuru Məmmədov tərəfindən işlənilib hazırlanmış "Erməni iddiaları və azərbaycanlıların soyqırımı"adlı əsəridir. Əsərdə ermənilərin tarixən ərazilərimizə necə və kimlərin əliylə yerləşdirilməsindən başlayaraq, sonrakı hadisələr şərh olunaraq verilmiş, mart soyqırımının əsas təşkilatçısı S.Şaumyanın fikirləri səsləndirilərək onun məqsədini pərdələməsi və yalnız Moskvaya göndərilən məktublarında bunu aydınca görmək olduğunu təsbitləmişdir. Belə ki, əsərdə S.Şaumyanın özünün də az öncə qeyd etdiyimiz müəlliflər kimi mart hadisələrinə siyasi qiymət verərkən bu hadisələrin "vətəndaş müharibəsi" kimi səciyyələndirməsi, aprelin 13-də Moskvaya göndərdiyi hesabatında "hər iki tərəfdən qətlə yetirilənlərin sayının üç mindən artıq" olduğunu göstərməsi qeyd olunur [5,s.154]. Ermənilər özləri bu hadisələri bolşeviklərlə müsəlmanlar arasında hakimiyyət uğrunda mübarizə kimi qələmə verirdi və erməni yepiskopu Baqrat iddia edirdi ki, guya qanlı mart günlərində cəmi min nəfər: 300 erməni və rus, 700 müsəlman öldürülmüşdür [5,s.178]. Mart hadisələrinin

əsl xarakteri, bəzi erməni xadimləri tərəfindən, xüsusilə də Bakı Kommunasının gələcək üzvü, həmin günlər Həştərxanda olan Saak Ter-Qabrielyan tərəfindən də təsdiq edilirdi. Mart hadisələri ilə əlaqədar olaraq Bakını tərk etmiş və Həştərxana gəlmiş rus vətəndaşlarının söhbətlərini eşidən Saak Ter-Qabrielyan 28 aprel 1918-ci il tarixində Stepan Şaumyana yazırdı: “İndi kütləvi surətdə Bakıdan gələn rusların, sosial vəziyyətindən asılı olmayaraq, heç birindən eşitməzsən ki, Bakıda sovet mübarizəsi gedir. Hamı bir səslə deyir: “Bakıda erməni-tatar qırğını gedir və bu qırğın ermənilər tərəfindən qəsdən törədilmişdir” [6,s.62]. Qeyd etmək lazımdır ki, problemlə bağlı sənədləri özündə ehtiva edən əsər müəllifi Solmaz Rüstəmova-Tohidi “Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə” adlı monoqrafiyasında Mart hadisələri ilə bağlı aparılan son araşdırmaların nəticəsini belə yazır: ”Son illər Fövqəladə Təhqiqat Komissiyasının sənədləri araşdırıldıqdan sonra müəyyən edilmişdir ki, 1918-ci il qırğınları nəticəsində 5 ay ərzində əvvəllər qeyd olunduğu kimi 30 min deyil, 50 mindən artıq günahsız insanın–azərbaycanlıların zorakılıqla öldürülməsinə, ölkənin müsəlman əhalisinə məxsus olan yüzlərlə yaşayış məntəqələrinin, minlərlə sosial, mülki, ticarət, mədəniyyət obyektlərinin, memarlıq abidələrinin və i.a. məhv edilməsinə gətirib çıxaran dəhşətli terror hadisələrinin əsl miqyası və xarakteri haqqında həm Azərbaycan, həm də dünya ictimaiyyətinin məlumatlandırılması işində son dərəcə mühümlüyü və aktuallığından irəli gəlirdi” [6,s.68]. Deyilənlərə nəticə olaraq bir daha qeyd etməyi borc bilirəm ki, Mart hadisələrinin baş vermə səbəbi kimi və öldürülən insanların günahını uzun müddət “Müsavat” partiyasının üzərinə ataraq, bu qırğınları Bakıda sovet hakimiyyətinin dayaqlarını möhkəmlədən hadisə kimi təqdim edilmişdir. Lakin 80-cı illərin I yarısından sonra nəşr olunan yeni əsərlər Mart qırğınlarının bolşevik partiyasının planına uyğun olaraq həyata keçirilməsini faktoloji məlumatlarla ortaya çıxarır. Bundan başqa Mart qırğınının sovet hökuməti üçün gərəkli olmasını A.İsgəndərov “Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı” əsərində Şaumyanın öz fikrini- “Mart hadisələrinə qədər Bakıda sovet hakimiyyəti havadan aslı idi” verməklə təsdiqləyir [3,s.301]. Eyni zamanda Şaumyan, “Müsavat”ın inqilabın II illərində bütün Zaqafqaziyada ən güclü partiyaya çevrilməsini qeyd edərək onun aradan qaldırılmasını vacib sayır, digər tərəfdən bölgədə milli azadlıq hərəkatının güclənməsinin, xalqların muxtariyyət hüququ tələb etməsinin vəziyyəti gərginləşdirdiyini dərk edirdi. Belə bir vəziyyətdə Rusiyanın mövqeyi ortada idi: o, imperiya torpaqlarını yenidən öz hakimiyyəti altında birləşdirmək-işğal etmək niyyətini həyata keçirmək üçün çalışır və bu yolda hər cür vasitəyə əl atırdı. Belə ki, o, bu yolda yalnız ermənilərə Türkiyə ərazisində muxtariyyət verilməsini təsdiq edən dekret vermişdi [3,s.307]. Bu dekret bilavasitə Bakı Soveti və “Daşnaksütyun”

ittifaqını möhkəmləndirdi və bunu yenə Şaumyanın "Qızıl Ordudakı boşluğu daşnak dəstələri doldura bilər" fikrindən aydınca sezmək mümkündür.

Beləliklə, sənəd və yazışmaları dərindən təhlil edərkən Mart qırğınlarının baş vermə səbəbi, bu qırğınları törətməkdə kimlərin hansı məqsəd güdməsi, qırğınların bilavasitə iştirakçısı və fəalları olmuş daşnakların mənafeləri və onların xalqımıza qarşı əsrlər boyu səngiməyən qisas hissini müəyyən etməklə, yanaşı, bu problemin araşdırılmasının zəruri olduğu faktını ortaya qoyur. Deyilənlər bir daha Mart qırğınlarının təkcə Şaumyan və Bakı sovetinin deyil, ümumilikdə xalqlara öz müqəddəratını təyin etmə hüququ "verən" bolşevik hökümətinin ucbatından baş vermәsini təsdiqləyir. Bu danılmaz faktı unutmamalı, problemlə bağlı daha dərindən araşdırmalar apararaq, gələcək nəsillərə əsl həqiqətləri ötürməliyik. Dahi bəstəkar Üzeyir Hacıbəylinin dediyi kimi "Bu gün vəzifəmiz o günləri yaddan çıxarmamaq, hər an hər cür təcavüzə hazır olmaqdır. Borcumuz bu vətəni hər cür hücumlardan qorumaq və məmləkətimizi şərəflə yaşatmaqdan ibarətdir" [3, s.308].

**Ədəbiyyat siyahısı:**


1. Anar İsgəndərov. 1918-ci il Mart qırğınının tarixşünaslığı. Bakı, "Mütərcim" nəşriyyatı, 1997, 184s.
2. Anar İsgəndərli. Azərbaycan həqiqətləri- 1917-1920. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 210s.
3. Anar İsgəndərov.Azərbaycanda türk müsəlman soyqırımı probleminin tarixşünslığı-1918-1920.Bakı, "Adiloğlu" nəşriyyat, 2006, 396s.
4. Ataxan Paşayev. Açılmamış səhifələrin iziylə. Bakı, "Azərbaycan" nəşriyyatı, 2001, 536 s.
5. Xəqani Məmmədov, Nuru Məmmədov. Erməni iddiaları və azərbaycanlıların soyqırımı. Bakı,"Ülvi-Həyat" nəşriyyatı, 2008, 320 s.
6. Solmaz Rüstəmova-Tohidi. Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə. Bakı, 2013, 456s.

# RUSİYANIN ŞƏRQ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİNİN TƏTBİQİNİN XÜSUSİYYƏTLƏRİ

**Şirvanova Təranə Əmirağa qızı**
**Tarix fakültəsi, dissertant**
**teraneshirvanova@gmail.com**

*1914-cü ildə başlamış I Dünya müharibəsini Osmanlıya qarşı planlarını gerçəkləşdirmək üçün fürsət kimi qiymətləndirən ermənilər və onların rus himayədarları geniş fəaliyyətə keçdilər. Güclü Almaniya ilə gözlənilən müharibədə Rusiyanın canlı qüvvəsinə böyük ehtiyac duyan İngiltərə və Fransa onu öz tərəflərinə çəkmək məqsədilə, Rusiyanın Osmanlıya qarşı olan işğalçı planlarını təqdir edir və şirnikləndirirdilər. 1914-cü ildə Peterburqda səfərdə olan Fransa Prezidenti A.Puankare bildirmişdi ki, fransız hökuməti Rusiyanın İstanbulu tutmasına etiraz etməyəcək. Avqust ayının sonunda isə İngiltərə Xarici İşlər Naziri Rusiya nümayəndəsi ilə söhbətində Osmanlının taleyinin artıq həll olunduğuna eyham vurmuşdu. Bunun ardınca, müharibənin gedişində Rusiya, İngiltərə və Fransa hökumətləri arasında Osmanlının bölünməsi haqqında Sazonov–Paleoloq və Sayks–Piko gizli sazişləri imzalandı. İstanbul, boğazlar və Şərqi Anadolu ilə birlikdə ən böyük hissə Rusiyanın payına düşürdü. Özünün işğalçı məqsədlərini təmin etmək üçün Rusiyanın hakim dairələri XVIII əsrdən başlayaraq Osmanlı imperiyası ərazisində yaşayan xristian xalqlardan, xüsusilə də ermənilərdən, onları "müsəlman zülmündən" xilas edəcəyinə vədlər verərək, istifadə etməyə çalışırdı. Bununla əlaqədar olaraq, 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi zamanı erməni millətçiləri Rusiyanın himayəsi altında "Ararat çarlığı"nın yaradılması layihəsini hazırlamış və çar hökumətinə təqdim etmişdilər. Layihə imperatriça II Yekaterina tərəfindən bəyənilmiş, 200 nüsxədə çap olunmuş və yayılmışdı. Erməniləri Osmanlı əleyhinə qaldırmaq üçün Rusiya onları təşkilatlandırır və silahlandırırdı. Erməni komitəçilərinin fikrincə, dünya müharibəsi "erməni məsələsi"nin həlli vasitəsi, erməni kapitalının isə "günəş altında yer alması" imkanı olmalı idi.*

*Antanta ermənilərdən iki cür istifadə etməyi düşünürdü: Osmanlıda yaşayan ermənilərə "azadlıq", hətta muxtariyyət vəd etməklə onların Osmanlı hökumətinə qarşı çıxışlarına nail olmaq; Kilikiyanı və 7 vilayəti onlara verəcəyini bildirərək azğınlaşmış ermənilərdən cəza dəstələri, kəşfiyyat və avanqard hissələri təşkil etmək. Komitəçilər gizli yollarla dünyanın müxtəlif yerlərindən Osmanlı ermənilərinə silah gətirirdilər. Beləliklə, I Dünya müharibəsi illərində Rusiya ilə Osmanlı arasındakı yolayrıcında məskunlaşmış ermənilər birinci üçün böyük siyasi əhəmiyyət kəsb etmişdilər.*

***Açar sözlər:*** *erməni məsələsi, Osmanlı erməniləri, Rusiyanın Şərq siyasəti*

***Features of the application of the Armenian factor in Russia's eastern policy***

*Having regarded the First World War, which started in 1914, Armenians and their Russian backers have begun to take action, as a suitable moment for aggressive intentions against Ottoman. In order to bring Russia to its side, Britain and France,*

*are experiencing an acute need for its living allowances in the coming war with a strong Germany, welcomed and encouraged aggressive aspirations of Russia against Ottoman. On a visit to St. Petersburg in July 1914, French President Poincare assured that the French government would not object to the fact that Russia seized Istanbul. And in the end of August, Britain's Foreign Minister in an interview with a representative of the Russian hinted that the fate of Ottoman has been resolved. Later, during the war have been concluded secret agreements Sazonov - Paleologue and the Sykes-Picot on Turkish section between the governments of Russia, Great Britain and France. The largest part, together with the Istanbul and Eastern Anatolia had to go to Russia. To ensure their predatory ambitions Russian government circles since the 18 th century have tried to use as a tool residing in the nation with the Christian beliefs in the first place - the Armenians, promising relief from the alleged "Muslim captivity." In this regard, during the Russian-Ottoman war of 1768-1774 years of the Armenian nationalists under the protection of Russia prepared and submitted to the tsarist government project to create "the Ararat kingdom" . The project was approved by the Russian Empress Catherine II, printed and distributed 200 copies. In order to adjust the Armenians against Ottoman, Russia organized and armed them. According to the Armenian committee members World War way of solving the "Armenian issue" was to appear, the opportunity for the Armenian capital "to take place under the sun." Allies planned to use the Armenians in two ways: promised to Armenians living in Ottoman, "freedom" and even "autonomy", to achieve their performances against the Ottoman Government; promises of Cilicia and 7 of organized groups of crazed Armenians executioners, avant-garde and intelligence. Secret paths supplied committee members from various parts of the world the Ottoman Armenians weapons. Thus, during the First World War, the Armenians entrenched at the crossroads between Russia and Ottoman, becoming a major political value for the first.*

***Key words** : Armenian issue, Ottoman armenians, Russian Eastern policy*

**Giriş.** Rusiyanın Şərq siyasətinin bəlli tarixi və sosial-siyasi kökləri vardır. Orta əsrlərdən başlayaraq isti dəniz sularına və boğazlara yiyələnmək və Hind okeanına çıxmaq üçün Rusiya hökmdarları strateji planlar hazırlamışlar. Ancaq Rusiyanın xarici siyasətinin ana xəttinə “Şərq məsələsi” XVIII əsrin ikinci yarısından etibarən rəsmən daxil edildi və beynəlxalq münasibətlər sisteminə bir problem kimi əlavə olundu. Beləliklə, XVIII əsrin sonlarından etibarən “Şərq məsələsi” rəsmi ideoloji və diplomatik bir problemə çevrildi. “Şərq məsələsi”ni əsasən Rusiya, İngiltərə, Fransa və Avstriya dövlətləri yaratmışdılar, lakin başlıca maraqlı olan ölkələr Rusiya və İngiltərə idi. Beynəlxalq münasibətlər müstəvisində “Şərq məsələsi” nin avantürist mahiyyətində az sonra “erməni məsələsi” də uyduruldu ki, bunun da əsas mahiyyəti Osmanlı dövlətini daxildən parçalamaq, onun torpaqlarını ələ keçirmək siyasəti idi. Bu işdə əsas vasitə ermənilər idi. Tarixən dövləti olmayan və əsasən Osmanlı imperiyası və İran ərazisində

toplum halında yaşayan bu xalq tezliklə böyük dövlətlərin əlində geosiyasi alətə çevrildi.

**Müxtəlif tarixi mərhələlərdə Rusiyanın Şərq siyasətində erməni amilinin tətbiqinin xüsusiyyətləri.** XVIII əsrdən etibarən getdikcə güclənən Rusiyanın imperiya və müstəmləkəçilik siyasəti onun bir sıra dövlətlər və xalqlarla münasibətləri məsələsini də ortaya çıxardı. Zaman-zaman Şərqə doğru genişlənən və uzaqgedən geostrateji maraqlar güdən çarlıq Rusiyası sərhədlərinə çıxdığı dövlətlərə və onların təbəələri olan müxtəlif etnoslara dair siyasətini formalaşdırmağa başladı. Onun "Şərq siyasəti"nin reallaşdırılması Osmanlı imperiyası və İranla toqquşmasını qaçılmaz edirdi. Bu yolda ilk addımlardan biri Qafqazın tamamilə işğalı idi. Rusiya "Şərq məsələsi"nin həllində "erməni amili"ni nəzərdən keçirdi. Bununla əlaqədar olaraq da ermənilərdən istifadə xətti seçildi və müxtəlif planlar hazırlandı. Bu məqsədlə ermənilərin seçilməsi təsadüfi deyildi. Şərq xristianları olan ermənilər özəlliklə Osmanlı imperiyası və İran ərazisində yaşayırdılar. Tarixən dövlətçiliyi olmayan bu xalqın dövlət yaratmaq xəyallarını süsləyərək və şirnikləndirici vədlər verərək ondan öz geosiyasi məqsədləri üçün istifadə etmək mümkün idi. Öz növbəsində ermənilər də Rusiyanın imperiya siyasətindən özlərinin məqsədlərini gerçəkləşdirmək üçün faydalanmağa çalışırdılar. Onların başlıca hədəfi isə "erməni dövlətçiliyini bərpa etmək" idi.

Rusiya imperiyası-ermənilər münasibətlərini və çarlığın onların dövlətçiliyi məsələsinə baxışını təhlil edərkən burada iki mərhələni bir-birindən ayırmaq, fərqləndirmək lazımdır. Çünki yalnız bu cür elmi yanaşma, tədqiqat üsulu ilə məsələlərin əsl mahiyyətini açıqlamaq mümkündür. Həmin iki mərhələ isə belə səciyyələndirilə, ifadə oluna bilər:

1. Çarlığın Cənubi Qafqazın istilasınadək olan dövrdəki baxış və planları.
2. Türkmənçay müqaviləsinin bağlanmasından 1917-ci il fevral inqilabına qədər müddətdəki mövqe və yanaşmalar.

Öncə çox vacib bir cəhəti qeyd etmək lazımdır. Rusiyanın bu iki mərhələdə ermənilərlə (onların "dövlətçiliyi" ilə) bağlı güddüyü məqsədlər, hazırladığı planlar və layihələr bir-birlərindən köklü, prinsipial, konseptual olaraq kəskin fərqlənirlər.

Yəni ki, çarlıq Cənubi Qafqazın istilasınadək bu regionda Rusiyanın protektoratlığında olan bufer dövlətciklərin yaradılması - İran və Osmanlı ilə sərhədlərində baryerlər qurulmasında çox maraqlı olmuş, bunlara da çalışmışdı. Belə bir siyasət isə, bəzi erməni müəlliflərinin də yazdığı kimi, "erməni xalqının milli maraqlarına cavab verirdi" [6, s.222]. Ancaq Güney Qafqazın işğalından sonra bu ərazilərdə ermənilərə ayrıca dövlət qurulmasından əsla söhbət belə gedə bilməzdi. Çar I Nikolayın 1828-ci il 21 mart fərmanı ilə Azərbaycanın Naxçıvan və İrəvan xanlıqları ərazisində

yaradılmış "Erməni vilayəti"ni müstəqil dövlət qurumu kimi səciyyələndirən baxışlar yanlışdır. O, sadəcə Rusiya imperiyasının bir ərazi-inzibati bölgü vahidi idi və sadəcə ermənilərdən gələcəkdə də istifadə edə bilmək üçün bir sakitləşdirici manevr rolu oynayırdı. Təsadüfi deyil ki, bu inzibati vahid 12 ildən sonra ləğv edildi. Sadəcə olaraq, Rusiyanın maraqları Qafqazda-Osmanlı və Qacarlar İranı sərhəddə ermənilərin sayının artırılmasını, burada rus meylli ermənilərin kompakt halda yerləşdirilməsini tələb edirdi. Məhz bu səbəbdən, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrində ermənilərin sərbəst şəkildə Qacarlar İranından və Osmanlı imperiyasından artıq Rusiya işğalında olan Qafqaza, daha dəqiq desək, Qarabağ, Naxçıvan, İrəvan xanlıqları ərazisinə köçmələrinə imkan verən xüsusi maddələr yer almışdı. I Nikolay hətta 1836-cı ildə Kiçik Asiyanın xristian erməni əhalisinə təsir gücünü artırmaq məqsədilə Eçmiədzin patriarxına yüksək ali səlahiyyətlər verərək onu bütün ermənilərin (Osmanlı və İran daxil olmaqla) ali dini başçısı elan etmişdi [3, s.37]. Bununla, Rusiya hökuməti eyni zamanda Türkiyədəki ermənilərin də rəğbətini qazanmağı və onların simasında Kiçik Asiyada özünə dayaq yaratmağı düşünürdü. Burada əsas vurğu olunan məqam ermənilərin öz kilsələrinə bağlılığından istifadə edilməsi idi. Dövlətsiz xalqlarda hər zaman dinin siyasi mərkəz rolunu oynadığını nəzərə alaraq Rusiya geosiyasi məqsədlərinin həyata keçirilməsində erməni milli kilsəsi ilə əməkdaşlıq etməyi düşünürdü. "Erməni məsələsi"nə Osmanlı imperiyasını daxildən, "iç güclər"in köməyilə çökdürmək, parçalamaq və nəticədə, Rusiyanı tarixi niyyətlərinin gerçəkləşdirilməsinə aparan əsas yollardan biri kimi yanaşılırdı. Rusiya Aralıq dənizinə Cənub–Şərqi Anadolu vasitəsilə çıxmağa üstünlük verirdi. I Nikolay İngiltərəyə rəsmi səfəri zamanı (1844) "xəstə adam" (Osmanlı imperiyası) haqqında məsələni müzakirə edərək, "ölüm yatağında" olan Osmanlı dövlətinin gələcəkdə bölüşdürülməsinə xüsusi yer ayırmış və onu diqqət mərkəzində saxlamışdır. Hətta Avstriya rəsmiləri ilə görüşündəki (1853) tarixi söhbətində I Nikolay bildirmişdi ki, "Türkiyə dağılarsa, Kostantinopolu (İstanbul) heç kimə verməyəcəyəm", "İngiltərə yaxın gələcəkdə Konstantinopolda yerləşmək istərsə, mən buna imkan verməyəcəyəm" [15, s. 145]. Tarixi faktlar sübut edir ki, Rusiya "yunan məsələsi" məzmununda, "erməni məsələsi"ndən də öz xeyrinə istifadə etmək istərkən Qərb dövlətlərini də bu işə cəlb etməsinə baxmayaraq, onların heç birinə Osmanlı dövlətindən pay verməyi düşünmürdü. Çünki özünü "güclü adam" adlandıran Rusiyanın iştəhası o qədər böyük idi ki, nəinki Türkiyənin bəzi vilayətləri hesabına "Türkiyə Ermənistanı" yaratmaq, hətta bütövlükdə Osmanlı dövlətinə sahib olmağa çalışırdı. Rusiyanın xarici siyasət tarixində "Menşikov missiyası" (1853) dediklərimizə sübutdur. Beynəlxalq diplomatiya tarixində ən kobud diplomatik akt

kimi xarakterizə olunan “Menşikovun İstanbul missiyası” ultimatum formasında Osmanlı sultanına təqdim olundu. Burada göstərilirdi ki, Türkiyə danışıqsız olaraq Rusiyanın protektoratlığına keçsin; Osmanlı imperiyasının bütün pravoslav xristianlarına rus çarının himayə hüququ tanınsın.

Rusiya hələ Aleksey Mixayloviçin çarlığı dövründən ermənilərə xüsusi maraq göstərmiş və onlardan istifadənin yollarını, vasitələrini, formalarını aramışdı. Bu maraq və istifadə isə XVIII əsrdən etibarən Rusiya-ermənilər (xüsusilə də kilsə xadimləri) işbirliyi səviyyəsinə yüksəldi. Cənubi Qafqazın istilasına qədərki dövrdə Rusiya yaxın xarici ölkələrdə yaşayan ermənilərlə bağlı bir sıra plan-layihələr hazırladı, onlardan yararlanmaq məqsədilə müxtəlif tədbirlər gördü. Onlardan ən başlıcalarını burada qısaca təhlil etmək yerində olardı.

Öncə belə bir vacib məsələni diqqətə çatdırmaq lazımdır ki, çarlığın ermənilərdən istifadə sahəsindəki fəaliyyəti I Pyotrun hakimiyyəti zamanından daha məqsədyönlü, sistemli, planlı səciyyə daşımağa başladı. Məhz ilk dəfə bu Rusiya imperatoru ermənilərə siyasi nöqteyi-nəzərdən baxmış, bu xalqın taleyində Rusiyanın oynayacağı rolu uzaqgörənliklə müəyyənləşdirmişdi [14,s.714]. Onun gördüyü tədbirlərdən bəzilərini burada bir daha xatırlatmağı lazım bilirik:

1. Qarabağ ermənisi İsrael Orinin 1678-1711-ci illər arasında Avropaya (Rusiya daxil) missiyası ilə əlaqədar olaraq verdiyi tapşırıqlar. Rusiyanın ilk imperatoru İ.Oriyə “erməni işi”ni öz üzərinə götürdüyünü və İsveçlə müharibəni qurtaran kimi bu məsələ ilə ciddi məşğul olacağını bildirmişdi [2, s.39].

2. Öz elçiləri Volınskini və Qarabağ əsilli İvan Karapeti Azərbaycana göndərərək ermənilər barədə məlumatlar toplatdırdı. O, sonuncunu əmin etmişdi ki, erməniləri "öz himayəsinə qəbul etməyə və dinsizlərin zülmündən qurtarmağa" hazırdır; ancaq öncə Xəzər sahillərində möhkəmlənməyi məqsədəuyğun sayır [6, s.80].

3. Ermənilərin Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşmasına ilkin təşəbbüslər etdi. Bunu onun 1704-cü il 10 noyabr tarixli fərmanı da yetərincə təsdiqləyir. Fərmanda yazılırdı ki, "Azərbaycanın işğal olunmuş ərazilərinə ermənilərin köçürülüb gətirilməsi üçün yer ayrılsın... ermənilərə mehribanlıq göstərmək, mühafizələrini yaxşı təşkil etmək, boşalmış evləri, münbit torpaqları onlara vermək lazımdır. Şübhələndiyiniz müsəlmanları dərhal bu yerlərdən çıxarmalı və orada xristianlar yerləşdirilməlidir... erməniləri hər vasitə ilə bu ərazilərə dəvət etməyə çalışın, müsəlmanların sayını isə mümkün qədər azaldın. Lakin bunu elə edin ki, onlar heç nə başa düşməsinlər" [13, s.56]. Fərmandakı başlıca müddəalar az sonra Rusiya imperiyası Xarici İşlər nazirliyinin 1725-ci il 11 fevral tarixli qərarı və I Yekaterinanın 1726-cı il fevralın 22-də verdiyi fərmanla bir daha

rəsmiləşdirildi. I Pyotrun bu kimi tədbirlərinin siyahısını xeyli uzatmaq olar. Amma, bizcə, burada olduqca vacib bir məsələyə, yəni rus çarının ermənipərəstliyinə dair erməni dəyərləndirmələrindəki ümumi mövqe ilə uzlaşmayan yanaşmaya diqqət yetirmək daha da məqsədəuyğundur. Çox maraqlıdır ki, bəzi yüksək rütbəli qriqorian din xadimləri imperatorun bir sıra hərəkətlərini ermənilərin aldadılmaları, "vədlərin öyüdlərlə əvəzlənməsi" kimi qiymətləndirmişlər. Belə hərəkətlərə bunları misal göstərmək olar:

a) imperatorun erməniləri himayəyə almaqdan öncə Xəzər sahillərində möhkəmlənmək istəməsi;

b) Rusiya ilə Osmanlı dövləti arasındakı 1724-cü il İstanbul müqaviləsinə əsasən İrəvan, Naxçıvan, Qarabağ və s. bölgələrin sultanın idarəçiliyində qalması ilə razılaşması;

c) Azərbaycan ərazisində bir erməni dövləti yaratmayaraq yalnız, ermənilərin Rusiyanın tutduğu ərazilərdə yerləşdirilmələri ilə kifayətlənməsi və s.

Bütün bunları isə, İ.Musayevin tədqiqatlarında özünə yer alan belə bir elmi qənaətlə əsaslandırmaq olar: I Pyotrun "Böyük Rusiya" siyasəti erməni din xadimlərinin - İsraili fironlardan yəhudilər üçün xilas edən Musa peyğəmbər kimi – "Ermənistan"ı müsəlmanlardan qurtarmağa dair niyyətlərini arxa plana keçirmişdi [2, s.40].

Rusiya hökmdarları sırasında erməniyönümlü siyasəti ilə seçilənlərin ən öndə gedənlərindən biri də II Yekaterina hesab olunur. O da imperiya siyasətindən çıxış edərək ermənipərəst mövqe tutmuşdu. Və bunu da təsdiqləyən çoxlu tarixi faktlar mövcuddur. Onlardan bəzilərini burada qısaca nəzərdən keçirmək yaxşı olardı.

II Yekaterina "Ararat krallığı"nın yaradılmasına dair bir erməni ideyası-layihəsini hərtərəfli dəstəkləmişdi. Müəllifi Eçmiədzin katolikosu H.Arğutyan olan bu layihə "Rusiya ilə islam qonşuları (Osmanlı və İran) arasında bir xristian divarı olacaq Ararat krallığının yaradılması"nı nəzərdə tuturdu [16, s.432].

Layihənin Rusiya hökmdarı tərəfindən təqdir olunması məşhur "Peterburq müzakirələri" ilə nəticələndi. Müzakirələrin sonunda isə "müstəqil Ermənistan" ilə çarlıq arasında iki müqavilə bağlandı və II Yekaterinanın ermənilərə müraciətini özündə əks etdirən bəyannamə elan olundu [5, s.751]. Müzakirələrin əsas qayəsi və məqsədini Cənubi Qafqazda Rusiyanın idarəçiliyi (qraf. Q.Potyomkinin başçılığı ilə) altında bir Ermənistanın yaradılması təşkil edirdi. Bəyanatda isə "Rusiyanın himayəsi altında erməni çarlığının bərpasına razılıq" ifadə olunurdu.

Dövrün daha bir rus qaynağı da Rusiyanın (II Yekaterinanın) ermənipərəst mövqeyini, yəni Qarabağda onlara bir dövlət yaratmaq niyyətini yaxşı açıqlayır. Qraf Q.Potyomkinin çariçaya ünvanladığı 1783-cü il 19 may

tarixli sənəddən bəlli olur ki, Qafqaz işləri üzrə baş komandan II Yekaterinanın istəyinə və dinə müvafiq olaraq Asiyada (Qarabağda) erməni-xristian dövləti qurmalı idi [13, s.57]. I Aleksandrın bir sıra tədbirləri (Çarın 1802-ci il 21 dekabr tarixli fərmanında onun əcdadlarının erməni xalqına hədiyyə etdikləri hüquq və üstünlüklərin tam gücündə olduğu bir daha təsbit edilirdi [10, s.27] ) və onun, habelə I Nikolayın İran və Osmanlı ilə apardıqları uğurlu işğalçı müharibələr erməniləri xeyli ümidləndirdi. Bu müharibələri "Ararat ölkəsinin və erməni millətinin qurtuluş savaşı, saatı" kimi dəyərləndirən qriqorian kilsə xadimləri [4, s.95] daha da fəallaşdılar.

Qraf İ.Qudoviçə ünvanlanan 1808-ci il 3 dekabr tarixli çar reskriptində də ermənilərin himayə olunduğuna işarə edilirdi [9, s.99]. İmperatorun 1813-cü ilin sentyabrında ermənilərə ünvanladığı müraciətdə onların çarlığa sədaqəti vurğulanır və davamlı himayə olunacaqları bildirilirdi [2, s.49].

Məlum Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələri ilə Rusiyanın erməni dövlətçiliyinə dair mövqe və siyasətinin bir mərhələsini yekunlaşdırmaq olar. Həmin müqavilələrin tekstoloji təhlili bu cür qənaətlərə gəlinməsinə əsas verir:

1. Bu və digər müqavilələrlə Cənubi Qafqazın (Şimali Azərbaycanın) da imperiyaya qatılmasının hüquqi bazasını əldə edən çarlıq Cənubi Qafqazda "erməni dövlətçiliyinin bərpası" məsələsinə yenidən baxmalı oldu.
2. İmperiyada erməni dövlətinin qurulmasının mümkünsüzlüyü xətti əsas götürüldü.

Və bu zamandan etibarən Rusiyanın "erməni məsələsi" ilə bağlı fəaliyyəti tamamilə Osmanlı imperiyasının ərazisinə daşındı. Artıq ermənilərə vəd olunan dövlətin Osmanlı imperiyasının ərazisində yaradılması nəzərdə tutulurdu. Əslində, məqsədi zəifləmiş Osmanlıdan torpaq qoparmaq, xüsusilə də Qara dəniz boğazlarını, İstanbulu ələ keçirmək olan Rusiya bu fəaliyyətini "Müsəlman Türkiyənin zülmündən xristianların azad olunması uğrunda mübarizə" devizi ilə pərdələyirdi. Erməniləri sultan hökumətinə qarşı qaldırmaq üçün Rusiya onlar arasında təbliğat aparır və silahlandırırdı. Balkan müharibələri zamanı (1912-1914) Rusiya Türkiyədə Ərzurum, Van, Bitlis, Diyarbəkir, Harput, Sivas vilayətlərindən ibarət "Qərbi Ermənistan" adlandırılacaq erməni muxtar vilayətinin yaradılması ideyası ilə çıxış etdi. Bu vilayətin hakimi Türkiyə hökumətinin Avropa dövlətlərinin razılığı ilə təyin edəcəyi xristian general-qubernator olmalı idi. Lakin bu planı Avropa dövlətləri dəstəkləmədilər [12, s. 259]. 1914-cü ildə başlamış I dünya müharibəsini Türkiyəyə qarşı planlarını gerçəkləşdirmək üçün fürsət kimi qiymətləndirən ermənilər və onların rus himayədarları geniş fəaliyyətə keçdilər. Güclü Almaniya ilə gözlənilən müharibədə Rusiyanın canlı qüvvəsinə böyük ehtiyac duyan İngiltərə v Fransa onu öz tərəflərinə çəkmək məqsədilə, Rusiyanın Türkiyəyə

qarşı olan işğalçı planlarını təqdir edir və şirnikləndirirdilər. 1914-cü ildə Peterburqda səfərdə olan Fransa prezidenti A.Puankare bildirmişdi ki, fransız hökuməti Rusiyanın İstanbulu tutmasına etiraz etməyəcək. Avqust ayının sonunda isə İngiltərə Xarici İşlər Naziri Rusiya nümayəndəsi ilə söhbətində Türkiyənin taleyinin artıq həll olunduğuna eyham vurmuşdu. Bunun ardınca, müharibənin gedişində Rusiya, İngiltərə və Fransa hökumətləri arasında Türkiyənin bölünməsi haqqında Sazonov–Paleoloq və Sayks– Piko gizli sazişləri imzalandı. İstanbul, boğazlar və Şərqi Anadolu ilə birlikdə ən böyük hissə Rusiyanın payına düşürdü [15, s. 141-142]. I dünya müharibəsi dövrünə aid diplomatik yazışmalarda da çar hökumətinin Osmanlı və Rusiya ermənilərinin niyyətləri ilə bağlı tutduğu mövqeyə dair çoxlu şərhlərə rast gəlinir. Belə sənədlər sırasında isə Böyük Britaniyanın Rusiyadakı səfiri J.Byukenenin S.Sazonova 1916-cı il 11 mart, İngiltərənin fövqəladə təmsilçisi M.Sayksın J.Byukenenə 1916-cı il 12 mart tarixli məktubları, S.Sazonovun 1916-cı ildə çar II Nikolaya məlumatı və s. mühüm önəmə malikdir [6, s.631-633]. Bu sənədlərdə məşhur Sayks-Piko müqaviləsinin gerçəkləşdirilməsinə dair məsələlərə toxunulmuş, o cümlədən də Şərqi Anadolu ermənilərinin idarəçiliyinə aid plan və layihələr nəzərdən keçirilmişdi.

Qeyd olunan yazışmalarda bizim tədqiqat obyektimizlə əlaqədar məqamlar da mövcuddur. Belə ki, M.Sayksın J.Byukenenə yazısında türk tabeçiliyi (suverenliyi) altında bir erməni hökuməti qurmağın ikinci bir Bolqarıstan meydana gətirmək demək olması vurğulanır. Əsaslı sayılmayan həmin plan həm də "bu Ermənistan Qafqazda münaqişə etməyə başlayacaq..." mülahizəsi ilə qəbul olunmamışdı. "Hazırlanmış Ermənistanı tamamilə Rusiyaya təslim etmək..." layihəsi isə Qafqazda, xüsusilə də Cənub-Qərbi Azərbaycanda erməni siyasi qüvvələrinin (daşnaklar və s.) güclənməsi ehtimalından məqbul sayılmamışdı.

Dönəmin baş rus diplomatı və Osmanlıda "erməni muxtariyyəti" layihəsinin müəllifi S.Sazonovun Qafqazın o dövrki canişini, böyük knyaz (çarın əmisi) Nikolay Nikolayeviçlə yazışmalarına da burada qısaca diqqət yetirmək lazımdır. Birincinin ikinciyə ünvanladığı 1916-cı il 27 iyun tarixli məktubda Şərqi Anadolu (Osmanlı) ermənilərinin idarəçiliyinə dair iki baxış və onların reallaşmasının Rusiya (Qafqaz, o cümlədən də Cənub-Qərbi Azərbaycan) ermənilərinin idarəçiliyi ilə bağlı məsələlərə təsiri, çarlığın bu sahədəki maraqları (qazana və itirə biləcəkləri) təhlil edilirdi [6, s.634-636; 36, s.58-59].

Canişinin 1916-cı il 16 iyul tarixli, 21083 saylı cavab məktubundakı [6, s.636-637] bir məqam da diqqətçəkicidir. Həmin məqam da belə bir qənaətimizi təsdiqləyir ki, çarlıq Rusiya xaricində, yəni yenicə tutulan Osmanlı vilayətlərində (Ərzurum, Van, Bitlis və s.) də erməni dövlətinin qurulmasında əsla maraqlı görünmürdü. Canişin bu məktubda yazırdı ki, "bugünkü Rusiyanın

hüdudları daxilində bir erməni məsələsi, mənim inamıma görə, qətiyyən mövcud olmayıb, belə bir problemin düşünülməsinə belə gərək yoxdur; ...Rusiyanın himayəsi altında bir müstəqil Ermənistanın təşkili məsələsinə təmas etmək doğru deyildir".

Bizcə, belə bir hal və məqam da çox maraqlıdır. Belə ki, çarlığın siyasi-hərbi elitasının «imperiya hüdudlarında erməni dövləti ola bilməz» kimi baxış-mövqeyi haykların Rusiyanı Böyük Hərbdə hərtərəfli dəstəkləməsi şəraitində (fonunda) baş verirdi. Tarixdən yaxşı bəllidir ki, ermənilər Birinci Dünya müharibəsində özlərini «Antanta»nın müttəfiqi sayaraq onun üzvlərinə, xüsusilə də Rusiyaya müxtəlif yönlü xidmətlər göstərmişlər. Erməni komitəçilərinin fikrincə, başlanmış dünya müharibəsi "erməni məsələsi"nin həlli üçün vasitə, erməni kapitalının "günəş altında yer alması" üçün imkan olmalı idi. Belə ki, Rusiya və Türkiyə arasındakı yolayrıcında məskunlaşmış ermənilər, Milyukovun dediyi kimi, Antanta üçün böyük siyasi əhəmiyyət kəsb etməyə başlamışdı [8, s.436]. Onlar özlərini qürurla "Antantanın kiçik müttəfiqi" adlandırırdılar və beşinci kolon rolunu mənimsəmişdilər.

Antanta ermənilərdən iki cür istifadə etməyi düşünürdü: Türkiyədə yaşayan ermənilərə "azadlıq", hətta muxtariyyət vəd etməklə onların Osmanlı hökumətinə qarşı çıxışlarına nail olmaq; Kilikiyanı və 7 vilayəti onlara verəcəyini bildirərək azğınlaşmış ermənilərdən cəza dəstələri, kəşfiyyat və avanqard hissələri təşkil etmək. Komitəçilər gizli yollarla dünyanın müxtəlif yerlərindən Türkiyə ermənilərinə silah gətirirdilər. Məqsəd rus ordusunun hücumlarından istifadə edərək bölgənin türk əhalisini qırmaq, öz torpaqlarını tərk etməyə məcbur etmək, bununla da gələcək erməni dövləti üçün ərazi əldə etmək idi. Lakin tarixi mənbələrdən məlum olur ki, Rusiya sadəcə öz məqsədlərinə çatmaq üçün erməni kartından istifadə edirdi və əldə edəcəyi ərazidə bir "Ermənistan" qurmaq niyyəti yox idi. Bəzi erməni müəlliflərinin də etiraf etdiyi kimi "Rusiyaya ermənilərsiz Ermənistan lazım idi" [7]. "Bizə ikinci bir Bolqarıstan lazım deyil" (Bolqarıstanın Osmanlı imperiyasının tərkibindən Rusiyanın fəal yardımı ilə çıxaraq müstəqillik qazanmasından sonra Rusiyanın himayəsini qəbul etməməsi nəzərdə tutulur) kimi bəyanatları səsləndirməklə əslində, Rusiya rəsmiləri bu fikri təsdiqləyirdilər [11, s.9]. Ermənilər böyük dövlətlər tərəfindən aparılan oyunda gah irəli, gah geri çəkilən piyadalar idi. İnsani düşüncələr, xristianların müdafiəsi kimi bəyanatlar yalnız bəhanələr idi.

Bütün bu qeyd edilənlər bir daha təsdiqləyir ki, Cənubi Qafqazın işğalından sonra Rusiya regionda, o cümlədən də Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ mahallarında ayrıca bir erməni dövləti qurulmasında əsla maraqlı olmamışdır. Hətta imperiya daxilində muxtar quruma belə

imkan verilməmişdi. Buna yönəlik erməni düşüncəsi və tədbirləri də qətiyyən qəbul edilməmişdi. Amma imperiya hüdudlarında erməniləri üstün tutma, onları himayə siyasəti yürüdülmüşdü. Bütün bunlara görə də, burada, H.Verdiyevanın bir fikrinə qoşulmaq lazım gəlir: "Erməni məsələsi" Rusiyanın, müsəlman Şərqinin tutulması və oradakı müstəmləkə siyasətinə hesablanan, strateji fəaliyyətində ara mərhələsi idi [9, s.116].

Rusiyada baş verən 1917-ci il fevral və oktyabr inqilablarından sonra “erməni məsələsi”nin inkişafında yeni mərhələ başlandı. 1917-ci il oktyabr ayında Tiflisdə Erməni Milli Konqresi toplandı və bütün erməni xalqı adından bəyan etdi ki, müharibə zamanı rus ordusunun tutduğu “Qərbi Ermənistan” ərazisi Rusiyada qalmalıdır. Qərbi Ermənistan yaradılması ideyasını V.Lenin də dəstəklədi. Onun 1917-ci il oktyabrın 28-də imzaladığı dekretdə Sovet Rusiyası “Qərbi Ermənistan” xalqının tam öz müqəddəratını təyin etmə hüququnu bəyan edirdi [1, s.17-18]. Bununla o, əslində erməni dövlətçiliyinə aid fəaliyyətlərin başlıca ağırlıq mərkəzinin Şərqi Anadoluya keçirilməsinə üstünlük vermişdi. 1918-ci ilin may ayında elan olunmuş Ermənistan Respublikasının nə ərazisi, nə də paytaxtı yox idi. Onun ərazisi Azərbaycanın tarixi torpaqları hesabına təmin olundu, 400 min əhali ilə İrəvan və Eçmiədzin mahallarından ibarət Ermənistan Respublikası yaradıldı. 1920-ci ildə Ermənistanın sovetləşməsindən sonra Zəngəzurun da onun tərkibinə verilməsi Sovet Rusiyasının öz xələfi Rusiya imperiyası kimi erməniyönümlü siyasətinin kobud təzahürü idi. 1921-ci il Rusiya-Türkiyə müqaviləsi Ədirnə müqaviləsini ləğv edərək Ermənistanın Türkiyə Cumhuriyyəti ilə bu günkü yeni sərhədlərini müəyyən etdi. Bu zamandan etibarən erməni xalqının Qafqazda dövlətçilik tarixi başlayır. Türkiyədə Qərbi Ermənistan yaradılması ideyasının mifik olduğunu nəzərə alan Sovet hökuməti “erməni məsələsini” Azərbaycan torpaqlarında “Şərqi Ermənistan” yaratmaqla həll etdi.

**Nəticə.** “Şərq məsələsi” “orta əsrlərin yeganə əsl hərbi monarxiyası olan Osmanlı imperiyası”na (K. Marks) qarşı çevrilmişdi. Kobud şəkildə Türkiyənin daxili işlərinə qarışmaqla bu problemi ərsəyə gətirən dövlətlər onun həlli üçün çeşidli vasitələr və planlar işləyib hazırlamışdılar. “Şərq məsələsi”ndən gözlədiklərinin gerçəkləşdirilməsi üçün zaman-zaman diplomatik yollar axtarılmış, müxtəlif taktiki vasitələr seçilmiş, nəzəriyyələr uydurulmuşdur. Bu baxımdan Rusiya və Qərb dövlətləri öz mənafelərinə uyğun “Kipr problemi”ni, “erməni məsələsi”ni gündəmə gətirmişlər. “Erməni məsələsi” xüsusilə şişirdilərək süni şəkildə beynəlxalq problemə çevrilmişdir. “Erməni məsələsi”nə müxtəlif prizmadan yanaşan böyük dövlətlər vaxtaşırı ondan faydalanmağa çalışmışlar. Əslində, bu gün də bu siyasət davam edir. Müxtəlif ölkələrin parlamentlərində vaxtaşırı uydurma “erməni genosidi”nin

müzakirəyə çıxarılması geosiyasi maraqların dəyişmədiyini, və əsrlər öncəki siyasətin yenə də davam etdirildiyini bir daha sübut edir.

**Ədəbiyyat siyahısı:**

1. A.Balayev.Azərbaycan Demokratik Respublikası.Bakı, 1991.s.17-18
2. Musayev İ.M. Böyük dövlətlər və "erməni məsələsi" (XIX əsr), I hissə, 2-ci nəşri, Bakı, İqtisad Universiteti nəşriyyatı, 2003, 238 s.
3. Arslan A. Eçmiyazin Ermeni Katogigosluğunun Osmanlı Devletinde ve Rus Kontrolündeki Statüsü. - "Kafkasya Araştırmaları", Cilt II, İstanbul, 1996
4. Gürün K.O. Ermeni Dosyası, Bilgi Yayınevi, İstanbul, 1988, 415 s.
5. Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, İstanbul, Belge Yayınları, 2.baskı, 1987, 798 s
6. Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. Москва, Наука, 1978, 311 с.
7. АПДУДПАР: Ф.276, оп.8, д.429, л.135.
8. Большая Советская Энциклопедия. М., 1926, т. 3.
9. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв). Баку: Алтай, 1999, 298 с.
10.Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с. Балкан. Эссе. Баку, Элм, 2003, 168 с.
11. Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, 15 с
12. История армянского народа. Ереван, 1980, 437 с.
13. Карабах вчера, сегодня и завтра. Вторая часть. Баку: 2009, 260 с.
14.Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.3, вып. 1, С.-Петербург, 1886, 740 с.
15.Раздел Турции по секретным документам министерства иностранных дел. Москва, 1924,с. 141-142
16. Sonyel Salahi. Minorities And The Destuction of the Ottoman Empire, Ankara, 1993, 197 p.

# İRANIN MÜASİR TARİX DƏRSLİKLƏRİNDƏ TÜRKLƏR (2012-2016)

**Ümid Niayeş**
**Azməktəb layihəsinin rəhbəri, Trend informasiya agentliyində İran üzrə ekspert**
**umidniayesh@gmail.com**

*İran dünyanın ən böyük azərbaycanlı cəmiyyətinin vətəni, həm də türk cəmiyyəti baxımından dünyada üçüncü ölkədir. Ancaq ölkənin əsas etnik qrupu olan türklərin tarixi və kimliyi tarix dərsliklərində öz əksini tapmır, obyektivlikdən uzaq, qərəzli və çox məhdud məlumat verilir. Dərsliklərdə ölkəni əsrlərlə idarə edən türk dövlətlərindən bəhs edərkən mümkün olduqca onların soykökü, tarixi keçmişi haqqında bəhs edilmir, idarəçilik fəaliyyətlərinə yer verilmir, bunun müqabilində dövlətlərin fars mənşəli vəzirlərinin idarəetmə rolu daha qabarıq göstərilir. Eləcə də İran türklərinin əslində ari mənşəli olduğu təlqin edilir. Məqalədə 2012-2016 illərində orta məktəb tarix dərslikləri əsasında türk tarixinin necə təqdim olunduğu və bu yanaşmanın arxasındakı ideoloji səbəblər araşdırılır.*
***Açar sözlər:*** *İran türkləri, İran tarixçiliyi, İran azərbaycanlıları, tarix dərslikləri*

***Turks in Iran`s history textbooks (2012-2016)***

*Iran is the homeland for the world's biggest Azerbaijani population and the third country in the world in terms of Turkic speaking people as well. However, despite the fact that Turkic speaking people make the country's largest ethnic group, their historic background is not reflected in the history textbooks of the schools. When talking about the Turkic dynasties that ruled the country for centuries, the textbooks provide as less information as possible about their ethnic roots and historic backgrounds as well as their activities. The article studies view towards Turkic history in the country's history textbooks in a period from 2012 to 2016 as well as the ideological backgrounds behind the present approach regarding the issue.*
***Keywords:*** *Iran historiography, Iran Azerbaijan, Iran Turkic history, History textbooks Iran*

**Tarix dərsliklərinin arxasındakı ideoloji zəmin.** Modern təhsil sistemi İranda yarandığı gündən etibarən hökumətin ideologiyasını cəmiyyətdə yaymağa xidmət etmiş, xüsusilə dərsliklərdən bu sahədə əsas təsiredici vasitə kimi istifadə edilmişdir.

Son yüz ildə İranın rəsmi tarixşünaslığı irqçi zəmin və arxaik nasionalizmə söykənən təməl üzərində qurulmuş, tarix elmi hökumətin millət və kimlik yaratma planına xidmət göstərən vasitəyə çevrilmişdir.

Pəhləvi (1925-1979) dövrü ziyalılarına görə, İranın milli birliyinin əsasını

vahid irqə mənsubluq, din birliyi və minillikləri əhatə edən ümumi şanlı tarix təşkil edirdi [5, s.30]. Onlar arxaizm yönümlü milliyyətçiliyi cəmiyyətə aşılayaraq, ideallaşdırdıqları antik İran dövrünü - "hansı ki, ərəb, türk və monqol yürüşləri nəticəsində məhv edilmişdi" - yenidən bərpa etmək arzusundaydılar. Tarix və onun tədrisi məhz bu baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. İranın ilk tarix dərsliklərinin müəlliflərindən olan Məhəmməd Əli Foruğinin fikrincə, İranın milli birliyini təmin edən bu ortaq keçmişi canlı tutmaq yalnız və yalnız tarixin tədrisi ilə mümkün idi [7, s.230-232; 4, s.752-754].

Beləliklə, Rza şah dövründə (1925-1941) İran tarixində ilk olaraq milliyyətçilik çalarları olan rəsmi, dövlət tarixçiliyi yaradıldı. Hökumət müxtəlif yollarla, xüsusilə də təhsil sistemi vasitəsi ilə bu rəsmi tarixçiliyi cəmiyyətdə təbliğ edir, öz legitimliyini möhkəmləndirməyə çalışırdı [16, s. 223].

1978-1979-cu illər İran İslam inqilabından sonra İranın yeni dövlətinin ideoloji əsasında ümmətçilik və islamı beynəlmiləlçilik dayansa da, islami kimlik milli kimliyin önünə keçsə də*, ümumilikdə Pəhləvi dövrünün etnik qruplara qarşı münasibəti yenə də davam etdi. Etnik fərqliliyə milli zənginlik kimi deyil, milli təhlükəsizlik problemi kimi yanaşıldı. Bu yanaşmanı həmin dövrün tarix dərsliklərində də görmək mümkündür.

**İran İslam Respublikasının tarix dərsliklərində türklər (2012-2016).** Dərsliklərdə türklər İranın şimal-şərqində yaşamış, köçəri həyat sürən və heyvandarlıqla məşğul olan qəbilələr kimi təqdim olunurlar [13, s. 102]. Onların tarixi, mədəniyyəti, abidələri, yazı və dilləri haqqında heç bir məlumat verilmir, ilk tarixləri haqda dəqiq məlumat olmadığı qeyd olunur [1, s. 144].

Türklərin islamdan sonra tədricən İrana gəldikləri, Samani şahlarının onlardan bir çoxundan qul kimi (Qulam) tikinti və hərbi işlərdə istifadə etdikləri, bu kölə-qulların bəzilərini daha sonra müsəlmanlaşdıqları və bacarıqları sayəsində ordu komandanlığına qədər yüksəldikləri yazılır [6, s. 102].

İranda türk sülalələri dövrü təkcə Qəznəvilər, Səlcuqlular və Xarəzmşahlarla məhdudlaşdırılır. İran tarixinin bu dövrü türk hökumətləri dövrü adlandırılaraq, yalnız 500 illik bir dövrlə məhdudlaşdırılır və Səfəvi, Avşar kimi digər türk sülalələr bura daxil edilmir [6, s. 102; 1, s. 144; 13, s. 102].

Bəzi kitablarda isə türklərdən söz gedərkən "qul" sözü yerinə "əsir" sözündən istifadə edilir. Məsələn, 2012-2013-cü təhsil ili üçün hazırlanmış 7-ci sinif tarix dərsliyində əsirlikdən ordu komandanlığına qədər yüksəlmiş "türk irqli" sərkərdələrin Samani vəzirlərin işlərinə qarışdıqları, şahların

---

* İran İslam inqilabının rəhbəri və İslam Respublikasının banisi Ruhullah Xomeyni millətçiliyin islama və Allah əmrlərinə qarşı olduğunu müdafiə edir, İran xalqının millətçilik deyil, islamı istədiyini deyirdi [13, s. 334]. Onun fikrincə, İran xalqını iranlı kimlikdən daha çox islami kimlik birləşdirirdi [14, s. 508].

bunların əllərində oyuncaq olduqları, bunun nəticəsində yaranan ciddi problemlərin isə Samani dövlətinin yıxılmasına səbəb olduğu yazılır [2, s. 37].

"Türk qulamları" Abbasilər dövlətinin dağılmasında da günahkar göstərilir, onların xəlifənin üzərində və saraydakı nüfuzlarının dövlətin zəifliyə uğramasında təsirli olduğu qeyd edilir [1, s. 130].

Türk şahlarının idarəçilikdən anlamadıqları və bu səbəbdən də iranlı vəzirlərdən yardım aldıqları təlqin edilir, onların uğurları iranlı vəzirlərlə əlaqələndirilir. Məsələn, 2012-2013-cü tədris ilinin 10-cu sinif tarix dərsliyində "Toğrul iranlıların idarəçilik qabiliyyətlərindən faydalanaraq, qəbilə liderliyindən böyük ərazisi olan güclü bir dövlətin hökmdarlığına yüksəldi" - deyə yazılır [1, s. 148]. Və yaxud 5-ci sinif tarix dərsliyində türk sülalələrin ölkəni idarə etmək üçün "zəkalı iranlı" vəzirlərdən yardım aldıqları iddia edilir və kitabın "sinifdə dialoq" bölməsi üçün "*nə üçün türk hökumətlərin ölkəni idarə etməkdə iranlı vəzirlərdən yardım aldıqları*" mövzu kimi qeyd edilir, "*iranlıların türk hökumətləri dövründə idarəetmədəki rolu nədir?*" sualı verilir [6, s. 103-104].

Həmçinin, 2016-2017-ci təhsil ili üçün hazırlanan 5-ci sinif dərsliyində köçəri qəbilələrdən olan türksoylu hökmdarların ölkə rəhbərliyindən bir o qədər də anlamadıqları, buna görə də "ağıllı və müdrik" iranlı vəzirlər seçdikləri vurğulanır [13, s. 103].

Monqollar və Teymurilər dövründə də iranlı vəzirlərin rolu şişirdilir, monqolların İran mədəniyyəti təsiri ilə bir çox "çirkin adətlərindən" və keçmiş "vəhşiliklərindən" uzaqlaşdığı, onların iranlı müdrik vəzirlərinin İran xalqına böyük xidmətlər göstərdiyi qeyd edilir [2, s. 55].[**]

Hülakü xanın iranlıların düşüncə və təcrübələrindən istifadə edərək, yaratdığı hökumətin monqol xüsusiyyətindən daha çox iranlı xüsusiyyətləri daşıdığı göstərilir və iranlı dövlət adamlarının monqolların dağıdıcı və sərt xarakterini neytrallaşdırdıqları iddia edilir [1, s. 158].

Eləcə də, Teymurun oğlu Şahruxun İranda yaşayıb İran mədəniyyətindən təsirləndiyi üçün atasının əksinə, təhlükəsizliyi və sülhü təmin etməyə, elmi və mədəniyyəti yaymağa daha çox səy göstərdiyi, buna görə də onun hökuməti dövründə Teymurilər dövlətinin türk-monqol əyanları və qəbilələrinə bağlılığının azaldığı, iranlı dövlət adamlarının hakimiyyətdəki rolunun artdığı göstərilir [1, s. 163].

Başqa bir maraqlı məsələ də türk sülalələrinin qələbələrinin İranın qələbəsi kimi göstərilməsidir. Məsələn, Malazgird müharibəsinin nəticələrindən bəhs edərkən Anadoluda İslamın və fars dilinin yayılması yazılır,

---

[**] Xatırlatmaq lazımdır ki, İranın sosial mühəndisliyində adətən türk və monqol terminləri eyni tutulur.

ancaq türkləşmədən söz edilmir [1, s. 148].

Eyni şəkildə Fərabi, İbn Sina, Əl-Biruni kimi mənşəcə türk olan və ya soykökləri haqqında dəqiq elmi sübutu olmayan Orta Asiyanın alimləri iranlı olaraq təqdim edilir [2, s. 61].

Pəhləvi dövründə olduğu kimi, tarixçilər Səfəvilərin soykökü haqqında səssiz qalmağı üstün tuturlar. Şiəliyə milli çalar verilir, osmanlı türkləri və özbəklərin İranda şiəliyin dövlət dini olmasındandan narahat olduqları, bu səbəbdən Səfəvilərlə müharibələrə girdikləri yazılır [6, s. 110]. Çaldıran müharibəsində osmanlıların top və tüfəngləri olduğu üçün iranlıların rəşadətlərinin nəticəsiz qaldığı qeyd edilir, osmanlıların türk olduğu vurğulanarkən, Səfəvi ordusu iranlı əsgərlər adlandırılır, onların türk soykökündən söhbət açılmır [6, s. 110]. Səfəvi sözü türk sözünün müqabilində istifadə olunur ("İranın qərbində Səfəvilər türk hökumətinin yerini aldılar") [1, s. 164].

**İran Azərbaycanı üçün nəzərdə tutulmuş dərsliklərdə türk tarixi və kimliyi.** İran Təhsil Nazirliyinin 1980-ci ilə aid sənədlərinin birində İrandakı etnik müxtəlifliyin və yerli fərqliliklərin ən yaxşı şəkildə dərsliklərdə əks etdirilməsi təklif edilir və yerli-etnik ənənələrin qorunmasının əhəmiyyəti vurğulanır [17, s. 99]. "Əyalətlər coğrafiyası" ("Coğrafiya-ye ostanha") adlı yeni dərslik kitabının bu tələb qarşısında hazırlandığı güman edilir. 10-cu sinif dərs proqramına daxil edilən bu kitab daha sonra "Əyalət bilgisi" ("Ostanşenasi") dərsliyi ilə əvəz edilib. İranın türk bölgələri olan Şərqi və Qərbi Azərbaycan, Ərdəbil, Zəncan əyalətlərinə aid "Əyalət bilgisi" dərsliklərində yerli ənənələr və mədəniyyət məhdud ölçüdə əks etdirilir, lakin türklərin tarixi və dili məsələsində hakim ideologiyanın müəyyən etdiyi sərhədlərdən kənara çıxılmır.

Şərqi Azərbaycan əyalətinin orta məktəblərinin 2016-2017-ci dərs ili üçün nəzərdə tutulmuş "Əyalət bilgisi" kitabının tarix fəslində Səlcuqlular dövründən etibarən, türklərin Azərbaycana gəlməsi yazılır. Türk dövlətləri dövründə azərbaycanlıların türk dilində danışdıqları, ancaq rəsmi dövlət dilinin həmişə farsca olduğu qeyd olunur, o günlə bu gün arasında əlaqə yaradaraq hazırkı mövcud durumun əslində tarixi keçmişi olduğu ima edilir. Bu ğun də azərbaycanlıların danışıq dilinin "tarixi və sosioloji" səbəblərdən türkcə olmasına baxmayaraq, idari, təhsil və yazı dilinin farsca olduğu vurğulanır [9, s. 62].

Bölgənin ümumi dili olan Azərbaycan türkcəsinin tarixi haqqında heç bir məlumat verilmədiyi halda, İran mənşəli "qədim Azəri" dilinin türkcədən öncəki dil olduğu iddia edilir, onun nüfuz dairəsi və tarixi dönəmləri ətraflı izah edilir, bu gün hansı kəndlərdə və bölgələrdə qorunub saxlanıldığı göstərilir. Bu gün belə qədim Azəri dilinin bir çox termininin xalqın dilində qorunub saxlanıldığı iddia edilir [9, s. 61-62].

Qədim Azərbaycan tarixi haqda yazarkən ari irqi ifadəsi dəfələrlə işlədilir, ari irqli midialıların dövləti, ari irqindən olan köçəri midialılar kimi ifadələrə yer verilir [9, s. 78].

İslamdan qabaqkı dövr Azərbaycan tarixindən bəhs edərkən etnik mənsubiyyətə, az da olsa mədəniyyət tarixinə toxunulur, ancaq islamdan sonra yaranan türkmənşəli Səlcuqlular, Atabəylər, Monqol, Ağqoyunlu, Qaraqoyunlu dövlətləri haqqında çox qısa məlumat verilir [9, s. 78-85].

Kitabda yerli ədəbiyyat, ənənələr, şifahi xalq ədəbiyyatı, oyunlar və aşıq musiqisinə bir neçə səhifə ayrılıb, ancaq yenə də bu ənənələrin tarixi konteksti və mənşəyi, digər türk dilli xalqlardakı bənzərləri haqqında heç bir məlumat yoxdur [9, s. 65-72].

Kitabın sonuncu fəsli Şərqi Azərbaycan əyalətinin 20 illik inkişaf planına ayrılıbdır. Bu bölümdə təhsillə bağlı inkişaf planında islam, İslam inqilabı və İslam Respublikası əsasında milli kimlik və birliyin gücləndirilməsi, İran tarixi, İran-İslam tarix, mədəniyyət və incəsənəti haqqında yetərincə məlumatlandırılma və fars dilinə xüsusi diqqət yetirilməsi yer almışdır [9, s. 134].

Bu kitabdakı ümumi quruluşu digər əyalətlər üçün hazırlanan dərsliklərdə də görürük. Qərbi Azərbaycan əyaləti üçün tərtib edilən dərslikdə səlcuqlular liderliyindəki oğuzların öncə kiçik qruplarla, sonra böyük sayda Azərbaycanı "ələ keçirdikləri", nəticə olaraq "iranlı əhali"nin, Qafqaz və ətrafında yaşayanların "Ğoz" türkləri (Oğuz türkləri) hökumətini qəbul etdikləri yazılır [10, s. 73].

Ərdəbil üçün yazılan dərslikdə isə türklər və onların mədəniyyətinə, əsasən yad xalq kimi münasibət göstərilir. Məsələn, Səlcuqlularla bağlı belə bir cümlə görürük: "Səlcuqlu türklərinin İrana gəlmələri ilə bizim məntəqəmiz də onların kontrolu altına keçdi və türklərin mədəniyyəti xalqın arasında yayılmağa başladı" [11, s. 77].

Zəncan əyaləti üçün nəzərdə tutulan dərslikdə türklərin tarixi keçmişi, mədəniyyəti haqqında məlumat verilməsə də, digər ostanların dərslikləri ilə müqayisədə daha yumuşaq, neytral və obyektiv münasibəti görmək mümkündür. Vilayətin Qacar dövləti dövründə burada yaşayan 5 türk tayfaya görə (avşar, muqəddəm, usanlu, bayat və xudabəndəlu) Xəmsə adlandığı yazılır [12, s. 62]. Səlcuqlular dövründə türkcənin buraya köçən türk tayfaların əhalinin əksəriyyətini təşkil etməsi ilə bərabər yayıldığı qeyd edilir [12, s. 68]. Hətta 1944-1945-ci ildə baş verən hadisələrlə (Azərbaycan Milli Hökumətinin qurulması) bağlı tərəfsiz məlumatı görmək mümkündür [12, s. 70].

Belə təsəvvür etmək olar ki, ostanlar üçün yazılan dərsliklərdə tarixi-etnik məsələlərin təqdim edilməsində bölgədəki milli hissin oyanıq olub-olmaması, həmçinin əyalətin Azərbaycan Respublikası ilə həmsərhədliyi

diqqətə alınmışdır.

**Azərbaycan Respublikası haqqında.** 2012-2013-cü tədris ilində 5-ci sinif üçün nəzərdə tutulan sosial bilgilər dərsliyində Azərbaycan Respublikası cəmiyyətinin böyük hissəsinin müsəlman və türkdilli olduqları məlumatı verilir [6, s. 35], bu ölkənin keçmişdə İran ərazisi olduğu və Fətəli şah Qacar dövründə Türkmənçay və Gülüstan müqavilələri ilə Rusiyaya verildiyi qeyd edilir [6, s. 37]. Ancaq kitabın növbəti illərdəki çapında bu iddia çıxarılmış, ölkə haqqında obyektiv informasiyaya yer verilmişdir [13, s.58-59].

Ancaq 2016-2017-ci tədris ili üçün nəzərdə tutulan tarix dərsliklərinin birində (11-ci sinif) Arazın şimalındakı ərazinin tarixi adının Azərbaycan deyil, Arran olduğu və həmin ərazinin ən qədim dövrlərdən İran torpaqları olduğu iddia edilir. Musavat hökümətinin Osmanlı türklərinin israrı ilə tarixi təhrif edərək “Arran” sözünü Azərbaycanla əvəz etməsi və bu ad dəyişmənin arxasında İran Azərbaycanına qarşı ərazi iddiasının dayandığı fikri irəli sürülür [3, s. 127].

**Son söz.** İran min il boyunca türk-Azərbaycan mənşəli dövlətlər tərəfindən yönəldilmiş bir ölkə olsa da və bu gün də dünyada ən böyük azərbaycanlı cəmiyyəti İranda yaşasa da (təxminlərə görə, ölkə əhalisinin 40 faizini türkdillilər, o cümlədən azərbaycanlılar təşkil edir) İranın tarix dərsliklərində bu xalqın tarixi keçmişi haqqında çox məhdud və zaman-zaman obyektivlikdən uzaq, qərəzli məlumat verilir, onların mümkün qədər milli özünüdərk etmələrinin qarşısını almağa cəhd göstərilir.

İran tarixi fars etnik ünsürünün varlığı ilə məhdudlaşdırır, türkləri və digər etnik qrupları bu ünsürün bünövrəsində yaradılmağa çalışılan vahid millətə inteqrasiya etmək məqsədi güdür. Azərbaycan türklərinin etnik kimliyi və tarixi keçmişi çeşidli yollarla inkar edilir, azərbaycanlıların tarixi baxımdan İrandilli olduqları, son əsrlərdə türkləşdiyi, bu türkləşmənin kimlik, nəsil və irq dəyişməsi deyil, sadəcə monqol-türk və osmanlıların basqınları nəticəsində baş verən bəsit bir dil dəyişikliyi olduğu irəli sürülür.

Azərbaycan türklərinə qarşı bu münasibətin təməlində həm də onların Azərbaycan Respublikası və Türkiyə ilə həmsərhəd bölgələrdə yaşaması, bu ölkələrin əhalisi ilə eyni tarixi keçmiş və soydan gəlmələri, eyni dildə danışmaları və bunun ölkənin ərazi bütövlüyü üçün təhlükə yarada biləcəyi təsəvvürləri dayanır.

Ancaq bunu da inkar etmək olmaz ki, son yüz ildə İranda ənənə forması almış bu düşüncədə son zamanlarda, xüsusilə də Prezident Həsən Ruhanının hakimiyyətə gəlişindən sonra (2013) müəyyən dəyişiklikləri görmək mümkündür. Buna misal olaraq, 2016-cı ildə Təbriz Universitetində Azərbaycan dili və ədəbiyyatı fənninin açılması, yenə həmin ildə İran Məclisində "Türk Bölgələri Fraksiyasının" yaradılması, məktəblərdə Azərbaycan Türkcəsinin

fənn kimi keçirilməsi mövzusunun gündəmə gəlməsini göstərmək olar.

Ruhani hökumətinin nəzəriyyəçilərindən və hazırda Mədəniyyət naziri olan Salehi Əmirinin fikrincə, Azərbaycan türklərinin dil, ədəbiyyat və siyasi düşüncələrinin türk xalqları üçün ilhamverici təsir qüvvəsindən yararlanmaq lazımdır. O, İran Azərbaycanını ölkənin türk dünyasında nüfuzunun təminatçısı kimi görür və İranın bu faktordan istifadə edərək Orta Asiya və Qafqazda siyası rolunu artıra biləcəyinə inanır [8, s. 228].

Digər tərəfdən, unutmamaq lazımdır ki, qloballaşma və informasiya əsrində, İran türkləri artıq tarixi yalnız rəsmi kanallardan öyrənmir. Müxtəlif mənbələrdən, o cümlədən Azərbaycan Respublikası və Türkiyənin tarix mənbələrindən faydalanaraq, rəsmi tarixçiliyə paralel öz milli tarixçiliklərini yaratmaq sahəsində fəaliyyətlərini gücləndirmişlər. Təbii ki, informasiyanın sərbəst axını erasında İranın rəsmi tarixçiliyinin də özünü bu yeni şəraitə uyğunlaşdırmaqdan, ciddi reformlar etməkdən başqa çarəsinin olmaması qaçınılmazdı.

**Ədəbiyyat siyahısı:**


1. Cəvadian, M. Tarix-e İran və cəhan(1), sal-e dovvom-e amuzeş-e motəvəssete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2012, 208 s.
2. Cəvadian, M. Tarix-e sal-e dovvom-e dovre-ye rahnəmayi təhsili, Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2012, 69 s.
3. Əhmədi H. Tarix-e İran və cəhan(2), sal-e sevvom-e amuzeş-e motəvəssete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2016, 256 s.
4. Foruği, M. Məqam-e ərcmənd-e Ferdovsi. Ərməğan, № 154(1934), Tehran, 820 s.
5. Hamedi Z. Məbani-ye İdeoloji-ye hakemiyyət və təsir-e an bər motun və məvvad-e dərsi dər əsr-e Pəhləvi-ye əvvəl. Tehran, Nəşr-e Tarix-e İran, 2016, 360 s.
6. Xəlilifər H. Təlimat-e ectemayi, pəncom-e dəbestan, Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2012, 176 s.
7. Rəhmanian D. Dər pey-e khodagahi-ye tarikhi-ye İranian. Mehrname, № 18(2011), Tehran. 288 s.
8. Saləhi Əmiri R. Ensecam-e melli və tənəvvo-e fərhəngi. Tehran, Mərkəz-e Təhqiqat-e Stratejik, 2009, 423 s.
9. Sazmane pəjuheş və bərnamerizi-ye amuzeşi, Ostanşenasi-ye Azərbaycan-e Şərqi, paye-ye dəhom, dore-ye dovvom-e motəvəsete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2016, 136 s.
10. Sazmane pəjuheş və bərnamerizi-ye amuzeşi, Ostanşenasi-ye Azərbaycan-e Qərbi, paye-ye dəhom, dore-ye dovvom-e motəvəsete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2016, 128 s.
11. Sazmane pəjuheş və bərnamerizi-ye amuzeşi, Ostanşenasi-ye Ərdəbil, paye-ye dəhom, dore-ye dovvom-e motəvəsete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2016, 130 s.
12. Sazmane pəjuheş və bərnamerizi-ye amuzeşi, Ostanşenasi-ye Zəncan, paye-ye dəhom, dore-ye dovvom-e motəvəsete. Tehran, Vezarət-e Amuzeş və Pərvəreş,

2016, 123 s.
13. Sazman-e pəjuheş və bərnamerizi-ye amuzeşi. Motaleat-e ectemayi, pəncom-e dəbestan, Tehran, Vezarət-e Amuzeş və Pərvəreş, 2016, 134 s.
14. Səhife-ye Emam Xomeyni. XII Cild. http://farsi.rouhollah.ir/library/sahifeh?volume=12&page=334. Müraciət tarixi: 14.10.2016.
15. Səhife-ye Emam Xomeyni. IV Cild. http://farsi.rouhollah.ir/library/sahifeh?volume=4&page=508. Müraciət tarixi: 14.10.2016.
16. Tərəfdari Ə. Tarixhnegari-ye nasyonalisti-ye moaser-e İran və payegozari-ye oham-e tarixi-ye moqəddəs. Sure-ye Əndişe, № 50-51(2011), Tehran, 248 s.
17. Yavəri N. Əqvam və qomiyyət dər ketabha-ye dərsi.Goftogu, № 3(1993), Tehran, 202 s.

# II BÖLMƏ. DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA ELMİ-NƏZƏRİ BAXIŞ

## DÜNYA AZƏRBAYCANLILARI ANLAYIŞININ YARANMASI VƏ BU MÖVZUDA TƏDQİQATLAR

**Babaxani Nərgiz Pərviz qızı**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**babaxaninergiz@gmail.com**

*1991-ci ildən etibarən hər il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunur. Bu tarixin hər il qeyd olunmasının xüsusi önəmi və tarixi əhəmiyyəti var. Bu tarixi önəmin əsasında Dünya Azərbaycanlıları anlayışı durur. Bu anlayış uzun tarixi proseslərin nəticəsi olaraq meydana gəlmişdir. Araşdırmada bu anlayışın necə yarandığı və hansı tarixi proseslərin nəticəsi olduğu, tarixi Azərbaycan əraziləri və əhalisi haqqında olan elmi tədqiqatlar göstərilir.*

***Açar sözlər**: dünya azərbaycanlıları, həmrəylik günü, diaspora, Türkmənçay müqaviləsi, mühacirət*

***The creation of the concept of world azerbaijanis and researches on this subject***

*The 31^th^ of December has been celebrated as the Solidarity Day of World Azerbaijanies since 1991. There is special importance and historical significance of annual celebration of this day. On the ground of this importance stays the notion of World Azerbaijanies. This notion has been formed as a result of the long historical processes. This investigation explores the circumstances and historical processes for the emergence of this concept, academic researches about historical territories of Azerbaijan and her people.*

***Key words:** World Azerbaijanis, solidarity day, diaspora, Turkmanchay treaty, emigration*

Tarixi Azərbaycan torpaqlarının parçalanması və azərbaycanlıların biri-birindən ayrı düşməsi Dünya azərbaycanlıları anlayışının meydana gəlməsi ilə nəticələndi. Araşdırmada bu anlayışın necə yarandığını, hansı tarixi prosеslərin olduğunu və bu haqda olan elmi tədqiqatlar göstərilir.

**Azərbaycanlıların parçalanmasının tarixi prosesləri**. XIX əsrin əvvəllərində Azərbaycan uğrunda Rusiya imperiyası ilə Qacarlar İranı arasında mübarizə başladı. Müharibənin nəticəsi olaraq, 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi imzalandı. Bu müqavilə ilə tarixi Azərbaycan torpaqları çar Rusiyası və Qacarlar İranı arasında bölüşdürüldü. Torpaqların

bölüşdürülməsi ilə azərbaycanlı əhali də iki hissəyə bölündü və iki ayrı dövlətin hakimiyyəti altına düşdü. Kərim Şükürov "Türkmənçay-1828" adlı əsərində göstərir ki, "Müqavilənin XIV maddəsi ilə öz təlqininə görə yurddaşına zərərli təsir göstərə bilən əqidəsizlər və fərarilərə ... sərhəd yaxınlığında məskunlaşmağa icazə verilməmişdir. Digər sakinlərə gəldikdə, onlardan bir dövlətdən digərinə keçmiş və ya bundan sonra keçəcəklər, hakimiyyəti altında olduğu hökümətin icazə verdiyi hər yerdə məskən sala və ya yaşaya bilər..." (21, s.83). Müqavilənin mətnindən göründüyü kimi, hakimiyyət sərhəd ərazilərdə yaşamaq üçün icazə verməli idi. XIV maddə ilə sərhəddi sərbəst keçmək azadlığı verilsə də, bu hər iki tərəfi narahat edirdi. Kərim Şükürov həmin tədqiqatında danışıqların davam etdirildiyini göstərir: "...Bu danışıqlar nəticəsində 1844-cü ildə Rusiya ilə İran arasında konvensiya bağlanmışdı. Konvensiyaya görə, hər iki dövlətin təbəələri bundan sonra, bir dövlətdən o birinə pasportsuz və rəislərinin formal icazəsi olmadan keçə bilməzdi; əgər pasportsuz keçmə halı baş versəydi, onda həmin şəxs ən yaxın sərhəd rəisliyinə və ya öz dövlətinin konsuluna qaytarılmalı idi." (21, s.85). Beləliklə, ərazilərin parçalanması ilə azərbaycanlıların iki hissəyə ayrılmasının əsası qoyuldu. Bundan sonra Şimali və Cənubi Azərbaycan anlayışları istifadə edilməyə başlanıldı. Rusiya imperiyasına qarşı mübarizə aparan xanlar və rejimlə razılaşmayan əhalinin bir hissəsi mühacirət etməyə məcbur olurdular. Bununla da, XIX əsrin I yarısında azərbaycanlıların xaricə mühacirətinin əsası qoyulur.

1917-1918-ci illərdə bütün tarixi Azərbaycan torpaqlarında baş verən siyasi hadisələr-Cənubi və Şimali Azərbaycanda milli dövlətçiliyin bərpası və onların hər ikisinin süquta uğradılması nəticəsində azərbaycanlıların mühacirətinin yeni mərhələsi başlanılır. Bu dövrdə azərbaycanlılar Türkiyəyə və Avropaya mühacirət etməyə məcbur oldular. Azərbaycanda Sovet imperiyasının yeritdiyi repressiya siyasəti nəticəsində isə azərbaycanlılar 1920, 1930, 1940-cı illərdə SSRİ regionunda yerləşən müxtəlif respublikalara sürgün edildilər. Azərbaycanlılar daha çox Mərkəzi Asiya respublikalarına deportasiya edilmişdilər (3; 4; 5).

Azərbaycan siyasi mühacirətinin ilk dəstələrinə Ə.B.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Hacıbəyov, F.B.Düdənginski rəhbərlik etmişdilər. Onlar mühacirət həyatının ağırlıqlarına baxmayaraq, müstəqil Azərbaycan ideyaları uğrunda mübarizə aparmış, Azərbaycan haqqında müxtəlif əsərlər yazmışdılar. C.Həsənli "Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov" adlı əsərində qeyd edir ki, "... Əlimərdan bəy milli mühacirət hərəkatında gedən bütün prosesləri izləməyə, müxtəlif mühacir qruplarının nəşr etdiyi mətbuat orqanları ilə tanış olmağa çalışırdı." (9, s.551). Milli mühacirətin görkəmli nümayəndəsi M.Ə.Rəsulzadə də mühacirət həyatının

çətinliklərinə baxmayaraq, istər Türkiyədə, istərsə də Avropa ölkələrində müstəqil Azərbaycan uğrunda siyasi mücadilə aparmışdır. Nəsiman Yaqublu "Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə" adlı əsərində qeyd edir: "M.Ə.Rəsulzadənin milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri birləşdirib toplamağı oldu... İstanbulda bu işi M.Ə.Rəsulzadə öz üzərinə götürmüşdü. O, Milli Mərkəz təşkil edib, müsavatçı olmayan siyasətçiləri də bir təşkilat halında birləşdirdi... M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti, keyfiyyəti-təşəkkülü, şimdiki vəziyyəti" əsərini yazıb çap etdirdi." (23,s.81).

Azərbaycan mühacirətinin iki əsas mərkəzi olan Paris və İstanbulda mühacirlər müxtəlif qəzet, jurnal, cəmiyyətlər, dərnəklər vasitəsilə azərbaycanlıların səsini dünyaya çatdırmaq istəyirdilər. Qeyd etmək lazımdır ki, mühacirət Azərbaycan daxilindəki mübarizəni daim qüvvətləndirən bir qaynaq olmuşdur. Buna görə də, bolşeviklər mühacirəti dağıtmağa, xaricdəki azərbaycanlıların milli hərəkatına hər vəchlə mane olmağa çalışmışlar. Milli mühacirətin nümayəndələri ilə yanaşı, II dünya müharibəsi illərində Almaniyada yaranmış Azərbaycan legionları Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışdılar. Azərbaycandan olan mayor Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin, Məcid Qarasalinin, Abbas bəy Atamalıbəyovun, Fuad Əmircan və başqalarının Almaniya höküməti orqanları ilə təmas qurması, Azərbaycan legionlarının təşkil edilməsinə və Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınmasına nail olmuşdur. 1943-cü ildə Berlində keçirilən Milli Azərbaycan Qurultayı mühüm əhəmiyyətli tarixi hadisə olmuşdur. Azərbaycan legionerlərinin üzvlərinin XX əsrin 50-60-cı illərindəki müxtəlif ölkələrdə olan fəaliyyətləri Azərbaycan diasporunu formalaşdırmışdır (3;9;22;23).

**Müstəqil Azərbaycan respublikasının Dünya azərbaycanlılarının mərkəzinə çevrilməsi.** XX əsrin sonundan etibarən Sovet imperiyası siyasi böhran keçirtməyə başladı. Sovet rəhbərləri imperiyanın dağılmasının qarşısını almaq məqsədilə milli münaqişə ocaqlarından istifadə edərək, DQMV-nin ermənilərə verilməsi məsələsini yenidən ortaya atdılar. Eyni zamanda, Ermənistan SSR-dən azərbaycanlıların deportasiya edilməsinə başlanıldı. Azərbaycan torpaqları yenidən parçalanmaq təhlükəsi qarşısında idi. Bu təhlükə qarşısında əhali ayağa qalxdı, xalq meydanlara axışdı və vətənin bütövlüyü üçün birləşdi. Bu hadisələr Azərbaycanda milli hərəkatın, milli oyanışın başlanmasına təkan verdi. Xalq Cənubi Azərbaycanda yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələri, gediş-gəlişi bərpa etmək tələbi ilə rəhbər orqanlara müraciət etdi. Eyni zamanda, Naxçıvan MSSR-də əhali sərhəd dəstəsinin komandirindən dekabrın 31-dək insanların müəyyən qaydalarla keçməsinə razılıq istədilər, lakin razılıq ala bilmədilər.

Buna görə də, dekabrın 31-də Araz çayı boyu Sovet-İran sərhəddindən çıxışlar başlandı. O tayda və bu tayda sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. Yanvarın 15-də Cəlilabad rayonunda sərhəd qurğuları dağıdıldı. “Sərhəd hərəkatı” sadəcə bir vahid xalqın ədalətsizliyə qarşı etirazı deyildi, dünya azərbaycanlılarının milli birliyini və siyasi həmrəyliyini nümayiş etdirdi (3,s.208-210; 10; 15; 17).

Azərbaycan Respublikasının Prezidenti (1993-2003) Heydər Əliyev Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə 1997-ci il 24 dekabr tarixli təbrik müraciətində azərbaycanlılar üçün həmrəyliyin vacibliyini açıqlayır: “*1980-ci illərin axırında, Sovetlər İttifaqı zəifləməyə başladığı zaman bizim Azərbaycanda yaşayan azərbaycanlılar öz soydaşları, bacı-qardaşları ilə əlaqə qurmağa daha da çox cəhdlər göstərmişlər. Məhz bu istək, bu arzu, bu cəhdlər 1989-cu ilin sonunda gənc azərbaycanlıları İranda, Türkiyədə yaşayan azərbaycanlılardan bizi ayıran, Sovetlər İttifaqının sərhəd qoşunlarının yaratdığı mühəndis istehkamlarını, tikanlı simləri vurub dağıtmağa, qırmağa məcbur etmişdir. Bu, o vaxt - 1989-cu ilin dekabrında tarixi bir hadisə olmuşdur. O günlər Arazın o tayında da, bu tayında da azərbaycanlılar bir-birinə qovuşmağa, birləşməyə çalışmışlar. Bu arzular, bu istəklər yerinə yetmiş və bu gün biz böyük xoşbəxtlik hissi ilə deyə bilərik ki, başqa ölkələrdə yaşayan soydaşlarımızla, qohum-əqrəbalarımızla azad, sərbəst əlaqə yaratmaq imkanına malikik.* ” (6).

1989-cu ilin dekabrında Naxçıvanda sərhəd dirəklərinin sökülməsi və milli həmrəylik nümayişi 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü kimi elan edildi (3,s.208-210; 15; 17).

1991-ci il 18 oktyabrda müstəqil Azərbaycan Respublikasının qurulması ilə “Dünya azərbaycanlıları” anlayışının təşəkkülü dövrü başladı.

Azərbaycan Respublikası bərpa edildikdən sonra dünya azərbaycanlılarının təşkilatlanması, diaspora fəaliyyəti əsas diqqət mərkəzində olan məsələyə çevrildi. Hələ XX əsrin 50-60-cı illərində əsası qoyulan diaspora fəaliyyəti sürətləndi, genişləndi və dünya azərbaycanlıları ilə bağlı dövlət sistemli iş apardı: Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununun qəbulu (11), “Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi”nin təsis edilməsi və s.. Xaricdə yaşayan azərbaycanlılarla bağlı fəaliyyət əsasında isə diasporanın işi durur. Bunu üçün də əsasən ideoloji işə diqqət yetirmək vacib idi. Bütün bu işləri həyata keçirmək məqsədilə I Qurultayın keçirilməsi Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur (7).

**Elmi tədqiqatlar.** Azərbaycan Respublikasının qurulması və Dünya

azərbaycanlıları ilə əlaqələrin genişləndirilməsi, təşkilatlanma fəaliyyətinin inkişafı bu məsələlərə elmi marağı artırdı. XIX əsrdən etibarən mövcud olan ərazi, əhali, sərhəd məsələləri, çarizmin köçürmə siyasəti, deportasiya, mühacirət tarixi, mühacir həyatı yaşamış ayrı-ayrı şəxslərin fəaliyyəti araşdırılmağa başlanıldı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tarixi Azərbaycan ərazilərində baş vermiş soyqırımlar, deportasiya və köçürülmələrin öyrənilməsi prinsipial əhəmiyyət kəsb edirdi. Bu səbəbdən də tədqiqatların mərkəzləşdirilmiş halda aparılması üçün elmi müəssisənin olması vacibdir. Respublikada ilk belə mərkəz 1994-cü ildə BDU-nun Tarix fakültəsində yaradılıb. "Dünya azərbaycanlıları: tarix və müasirlik" toplusunun III buraxılışında bu barədə yazılır: "Azərbaycanın tarixi demoqrafiyasının sistemli şəkildə tədqiqinin vacibliyinə xüsusi diqqət yetirən əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun (həmin dövrdə Tarix fakültəsinin dekanı) təşəbbüsü ilə 1994-cü ilin dekabrın 12-dən "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi tədqiqat laboratoriyası yenidən fəliyyətini davam etdirməyə başladı" (5,səh. 6).

"Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyasında XIX-XX əsrlərdə tarixi Azərbaycan ərazilərində əhalinin yerləşməsi, say dinamikası, miqrasiyası və digər əhali problemləri öz həllini tapmışdır. Araşdırmalar zamanı əsas diqqət Azərbaycanın şimal, şimal-qərb və qərb ərazilərinin əhalisinin və sərhədlərinin öyrənilməsinə yönəldilmişdir: "Deportasiya problemi (tarixi-demoqrafik tədqiqat)" (A.Ə.Paşayev), "XIX əsrin I yarısında Şimali Azərbaycanın əhalisi" (H.Y.Verdiyeva), "Şimal-Qərbi Azərbaycan tarixi-demoqrafik tədqiqat "(XIX əsrin əvvəlləri-70-ci illəri)" (Z.Ə.Cavadova), "Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)" (S.Ə.İbişov), "Naxçıvan bölgəsinin tarixi (1828-1920-ci illər)" (İ.F.Kazımov), "XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini amillər" (A.A.Abbasova), "XIX əsrin II yarısı-XX əsrin əvvəllərində azərbaycanlıların sahibkarlıq fəaliyyəti" (S.S.Xəlilova), "Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)" (N.Ə.Quliyev), "Rusiya Federasiyasında Azərbaycan diasporu (tarixi-demoqrafik tədqiqat)" (G.T.Novruzova), "Car-Balakən camaatlığı XVII əsrin sonları -XIX əsrin 30-cu illərində (tarixi-demoqrafik tədqiqat)" (A.Ə.Məmmədova), "Dərbənd əhalisi XX-XIX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat)" (A.A.Hacıyev) (5, səh. 6-8; 16).

Bu tədqiqatlarla yanaşı aşağıdakı tədqiqatları da qeyd edə bilərik:

*ərazi-sərhəd məsələlərinə dair*: "1917-ci ilin oktyabrından 1918-ci ilin mayınadək Cənubi Qafqazda ərazi dəyişiklikləri" (S.O.Mustafayeva), "İlisu Sultanlığı: ərazisi və etnik tarixi" (E.M.Lətifova), "Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin ma-

terialları əsasında, 1917-1930-cu illərin əvvəlləri)" (Ş.F.Rəhmanzadə) və s.

*əhali, diaspora, mühacirət mövzuları:* "Borçalı azərbaycanlılarının soykökü" (K.Məmmədov); "Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə", "Azərbaycan Legionerləri" (N.Yaqublu), "Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov" (C.Həsənli), "Azərbaycan Diasporu: böyük yolun başlanğıcı" (N.İbrahimov), "Azərbaycan diasporu" (V.Arzumanlı), "Avropa Azərbaycanlılarının milli həmrəylik hərəkatında iştirakı" (XX əsrin sonu-XXI əsrin əvvəli)" (G. Novruzova), "Dünya Azərbaycanlılarının Həmrəyliyi (XX əsrin sonu XXI əsrin əvvəlləri)" (S.A.Həziyeva), "Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər)" (M.Məmmədov), "Mərkəzi Asiya Respublikalarında Azərbaycan diasporu"(R.Cəfərova) və b. (1; 4; 5; 9; 10; 12; 13; 14; 15; 18; 19; 22; 23).

Bu tədqiqatlarla yanaşı, qeyd etmək vacibdir ki, çox təəssüf ki, "Dünya azərbaycanlıları" mövzusunda yeganə tədqiqat işi prof.K.K.Şükürovun "Dünya azərbaycanlılarının öyrənilməsi: struktur yanaşma" adlı məqaləsidir. Bu əsərində K.K.Şükürov anlayışı belə izah edir: "İlk olaraq "Dünya azərbaycanlıları"nın elmi anlayışı müəyyənləşdirilməlidir... Dünya azərbaycanlıları=Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar + xaricdə yaşayan azərbaycanlılar." (20).

**Yekun.** Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar müstəqil Azərbaycanın ətrafında sıx birləşib, milli həmrəylik, milli birlik nümayiş etdirib vahid məqsəd, milli maraqlar yönümlü fəaliyyət göstərirlər. Dünyada yaşayan azərbaycanlıların sayı Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların sayından xeyli çoxdur. Azərbaycan Respublikası dünyada yaşayan azərbaycanlıların qürur və güvən mənbəyinə çevrilərək, onların milli hisslərini və gələcəyə ümidlərini artırır.

Beləliklə, baş verən tarixi proseslərə və bu mövzuda aparılan elmi tədqiqatlara nəzər saldıqda deyə bilərik ki, dünya azərbaycanlıları Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar və dünyada yaşayan azərbaycanlıların cəmidir. Bu anlayış çox böyük tarixi əhəmiyyətə malikdir və onun tədqiqinə ciddi ehtiyac var. Bu tarixi əhəmiyyətli məsələnin araşdırılması isə tədqiqatçıların öhdəsinə düşür. Həmçinin digər ölkələrdə yaşayan azərbaycanlıların tədqiqat işlərinin Azərbaycan ictimaiyyətinə çatdırılması da vacibdir.

**Ədəbiyyat siyahısı:**

1. Arzumanlı Vaqif. Azərbaycan diasporu. Bakı, 2001, 800 s.
2. Azərbaycan tarixi. 7 cilddə. VII cild, Bakı, "Elm" nəşriyyatı, 2007, 608 s.
3. Azərbaycan Diasporuna Dövlət qayğısı. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. III kitab. Bakı, 2009.

4. Cəfərova Rəisə. Mərkəzi Asiya Respublikalarında Azərbaycan Diasporu: təşəkkülü və fəaliyyəti tarixi. Tarix üzrə fəlsəfə doktoru ... avtof. Bakı, 2015. 28 s.
5. Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu.I-IV buraxılışlar. Bakı, 2003-2009.
6. Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə Respublika sarayında keçirilmiş təntənəli toplantıda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - 27 dekabr 1997-ci il //http://lib.aliyev-heritage.org/az/6727284.html
7. Dünya azərbaycanlılarının I qurultayı //http://diaspora.gov.az/index.php?options= content&id=423; http://files.preslib.az/site/diaspora/gl2.pdf
8. Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı. Bakı şəhəri, 23 may 2001-ci il. № 724 // http://e-qanun.az/framework/3015
9. Həsənli Cəmil. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, 2013, 588 s.
10. Həziyeva Səbinə. Dünya Azərbaycanlılarının Həmrəyliyi. Tarix üzrə fəlsəfə doktoru ... avtof. Naxçıvan, 2010,25 s.
11. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2002-ci il № 413-IIQ // http://mfa.gov.az/files/file/31.pdf
12. İbrahimov Nazim. Azərbaycan Diasporu: böyük yolun başlanğıcı. Bakı, 2006, 208 s.
13. Lətifova Elvira. Şimal-Qərbi Azərbaycan: İlisu sultanlığı (rus dilində). Bakı, 1999
14. Məmmədov Kərəm. Borçalı azərbaycanlılarının soykökü. // "Dünya azərbaycanlıları: tarix və müasirlik". Elmi-nəzəri toplu. Bakı, 2009.
15. Məmmədov Məmməd. Naxçıvan Muxtar Respublikasında İctimai-siyasi Proseslər. Tarix üzrə fəlsəfə doktoru ... avtof. Naxçıvan, 2005,24s.
16. Məmmədova Arzu. Car-Balakən camaatlığı XVII əsrin sonu- XIX əsrin əvvəllərində. Bakı, UniPrint, 2009,256 s.
17. Milli azadlıq və demokratik hərəkatlar // http://www.azerbaijans.com/content_405_az.html
18. Novruzova Günay. Avropa azərbaycanlılarının milli həmrəylik hərəkatında iştirakı. Tarix üzrə fəlsəfə doktoru ... avtof. Bakı,2012,29s.
19. Rəhmanzadə Şamil. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı, "Aspoliqraf", 2008, 376 s.
20. Şükürov Kərim. Dünya Azərbaycanlılarının öyrənilməsi: Struktur Yanaşma. "Dünya Azərbaycanlıları: tarix və müasirlik". Elmi-nəzəri toplu. I buraxılış. Bakı, 2003.
21. Şükürov Kərim.Türkmənçay-1828: Tarixi xronika. Bakı, 2006, 188 s.
22. Yaqublu Nəsiman. Azərbaycan legionerləri. Bakı, Çıraq, 2005, 336 s.
23. Yaqublu Nəsiman. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə.Bakı, 2001, 154 s.

# AZƏRBAYCAN XALQININ TƏŞƏKKÜLÜ PROSESİNƏ ELMİ-NƏZƏRİ BAXIŞ

**Bayramova Günay Vahid qızı**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**Gunkam10@gmail.com**

*Hər bir xalqın təşəkkülü məsələsi həmin xalqın tarixinin həm ən mühüm, həm də mürəkkəb məsələlərindən biridir. Azərbaycan xalqının təşəkkülünə nəzər saldıqda ayrı-ayrı konsepsiyalar nəzərə çarpır. Bu nəzəriyyələrin bəziləri sadəcə qonşu dövlətlərin siyasi oyunlarının bir hissəsindən ibarətdir. Azərbaycanın bir bölgə kimi öyrənilməsi prosesinə ilk olaraq SSRİ işğalı dönəmində başlanılmışdır ki, bu da bu nəzəriyyələrin sadəcə yerli xalqın tarixinin unutdurulması səyindən ibarət olduğunu göstərir.*

***Açar sözlər:*** *etnogenez, təşəkkül, etnik birliklər, konsepsiyalar, tədqiqatlar*

***Scientific and theoretical review to the Azerbauijan people formation process***

*The formation of each nation is one of the important and complicated parts of its history. Separate concepts attract our attention while taking a look at the formation of Azerbaijani nation. Some of these theories contain a part of the political games of the neighbouring countries. Azerbaijan was firstly studied as a region in the period of the Soviet occupation. This study showed that these theories only made efforts causeing to forget the history of local people.*

***Key words:*** *ethnogenesis, formation, ethnic unities, conception, research*

Hər bir xalqın təşəkkülü uzun və arasıkəsilməz etnik prosesin nəticəsi olaraq ortaya çıxır. Müəyyən bir ərazi daxilində mənsubiyyyətcə, həmçinin də dilcə qohum olan etnosların qaynayıb-qarışması prosesi etnogenez adlanır. Bu zaman ərzində onların adlarında da müəyyən qədər dəyişikliklər özünü büruzə verir, ortaq adət-ənənələr yaranır.

Etnogenez prosesini tədqiq etmək üçün istər yerli, istərsə də xarici yazılı mənbələrə, həmçinin arxeoloji və etnoqrafik materiallara istinad olunur. Lakin nəzərə alsaq ki, bu proseslə bağlı yerli mənbələr azlıq təşkil edir, bu səbəbdən tədqiqatçılar ciddi maneələrlə üzləşirlər.

Belə ki, bu zamana qədər azərbaycanlıların etnogenez məsələsi haqqında qəti, yekdil fikir söylənilə bilməmişdir ki, bunun da əsas səbəbi ayrı-ayrı tədqiqatçıların əsərlərindəki fərqli mülahizələri olmuşdur. "Türk mənşəli azərbaycanlıların etnik mənşəyi probleminin həllində Azərbaycan tarixşünaslığında çox böyük ədalətsizlik, tarixi həqiqətə biganəlik mövcuddur. Bəzi rus, erməni, gürcü tarixçilərinin saxta fikirlərini olduğu kimi qəbul edərək tarixşünaslığımıza daxil etmiş yüksək adlı-sanlı tarixçilərimiz Azərbaycanda türk mənşəli etnosların

qədim tarixini heçə endirmiş və türklərin buraya orta əsrlərdə gəlmə olmasını sübut etməyə doğru yönəldilmiş konsepsiya yaratmışlar" (1, səh. 38).

Hər bir xalqın etnogenezi həmin xalqın ərazi, dövlətçilik, mədəni varisliyinin - tarixinin müəyyənləşdirilməsi üçün əsas xüsusiyyətə malikdir. Etnogenezi məlum olmayan xalqın istər mədəni, istərsə də siyasi tarixi haqqında söz söyləmək qeyri-mümkündür. Xalqın mənşəyi ilə bağlı Sovet tarixşünaslığındakı konsepsiyalar təəssüf ki, indiki dövrdə də müəyyən qədər aktuallığını saxlayır. Göründüyü kimi azərbaycanlıların qədim və orta əsr tarixi Qərbi Avropa, rus, gürcü, erməni və fars tarixçiləri tərəfindən təhrif olunmuş şəkildə verilmişdir. Təsadüfi deyildir ki, "Viktor Şnirlerman ingilis və rus dillərində nəşr edilərək bütün dünyada yayılmış məşhur əsərində Azərbaycan tarixini "yaxşı bəzədilərək beyinlərə yeridilən mif" adlandırır" (4).

Ümumiyyətlə, bugunə kimi nəşr olunan bir çox ensiklopedik əsərlərdə Azərbaycan xalqı qarışıq və müəmmalı etnik tərkibə malik etnos kimi təqdim olunur. Hətta 1750-ci ildən dövrü olaraq nəşr olunan məşhur Britannik ensiklopediyasında Azərbaycan adlı məqalədə konkret olaraq Azərbaycan türkləri qarışıq etnik tərkibə malik hibrid xalq kimi göstərilmişdir.

Xüsusən də ermənilərin Azərbaycana qarşı mədəni və ərazi iddialarının əsasında da Azərbaycan türklərinin etnogenezi haqqında qəbul olunmuş konsepsiya durur. Göründüyü kimi, bu konsepsiya siyasi xarakter daşıyır.

İlk olaraq Azərbaycan tarixinin bir bölgə kimi öyrənilməsinə Sovet Rusiyasının işğalı dönəmində başlanılmışdır. Bildiyimiz kimi, Sovet tarixşünaslığında bu məsələ təhrif edilərək olduqca yanlış konsepsiyalar irəli sürülmüşdür. Bu konsepsiyalardan ilkinə görə bugünkü Azərbaycan xalqı XI əsrə kimi Araz çayından yuxarı qafqazdilli, Araz çayından aşağı irandilli (farsdilli) xalq idi. Sonralar buraya bir qrup türk tayfası gəlmiş və XI-XIII əsrlərdə yerli əhalinin dilini dəyişdirmişdir. Bu konsepsiyaya əsasən, “azərbaycanlılar yerli avtoxton Qafqaz-hürri dilli xalqlardan ibarətdir” (6). Belə ki, guya Aran, Alban adları ilə tanınan Arazdan yuxarı ərazilərin əhalisi əvvəlcə qafqazdilli imiş, sonra isə türkləşib. Arazdan cənubda yaşayan əhali isə irandilli olmuş və səlcuqların XI əsrdə buraya gəlişindən sonra bu irandillli tayfalar türkləşmişlər. Bu konsepsiyanı təkzib edərkən ilk olaraq hələ e.ə yaranmış qədim Albaniya dövlətindəki sülalə və şəxs adlarına nəzər salsaq (Aran, Ərbak, Urnayr və b.) onların qədim türk dilində olduğunu görərik. Mərkəzləşmiş vahid bir dövləti idarə edən ilk sülalə -Aranilər sülaləsi (aran-qədim türk dilində ərən sözündən götürülmüş, mənası cəsur, igid deməkdir) olmuşdur. Arazdan cənubda yaşayan etnosların irandilli olması haqqında fikir isə belə formalaşmışdır ki, guya bu ərazidəki etnoslar naməlum (qarışıqdilli) tayfalardan ibarət olmuşlar, sonra irandilli tayfaların təsiri ilə farslaşmışlar. Daha sonra səlcuqların gəlişi ilə isə türkləşmə prosesi

baş vermişdir. İlk olaraq deyək ki, bir xalqın dilini 2 dəfə dəyişməsi (xüsusilə eyni dil ailəsindən belə olmayan fars və türk dillərinin bir-birini əvəz etməsi) çox nadir prosesdir. Əgər səlcuqların XI əsrdə buraya gəlişindən sonra farslaşmış etnoslar türkləşdisə bu prosesin özünün də gerçəkləşməsi üçün əsrlər lazımdır. Nəzərə alaq ki, səlcuqlar buraya gəlməzdən çox-çox əvvəl burada türk sülalələrinin hakin olduğu vahid dövlətlər yaradılmışdı (Sacilər, Salarilər).

Digər bir konsepsiya Ural-Altay nəzəriyyəsidir ki, bu nəzəriyyəyə əsasən, türk tayfaları Azərbaycana Orta Asiya və Altaydan gəlmişdir. Lakin digər konsepsiyadan fərqli olaraq bu konsepsiyada gəlmələrin XI əsrdə deyil, daha tez gəldikləri müdafiə olunur. Nəzəriyyəyə əsasən, Azərbaycan xalqı aborigen (yerli) xalq deyil, sonradan buraya gələrək məskunlaşmış türk etnoslarından ibarətdir. Belə ki, "türk etnosunun ana yurdu Altaydan Azərbaycana kimi uzanır" (6). Ural-Altay nəzəriyyəsi Sovet tarixşünaslığının uydurduğu (Avropa dövlətlərinin də mənafeyinə uyğun gəldiyi üçün təsdiqlədiyi) xalqın keçmişini unutdurmaq çabasından başqa bir şey deyildir. Bu konsepsiya türk xalqlarının deportasiyasında daha çox nəzərə çarpdı (məsələn, ahıska türklərini Mərkəzi Asiyaya köçürərkən onların buradan gəldiklərini bəhanə edirdilər). SSRİ daima türklərin Mərkəzi Asiya və Monqolustan ərazilərindən buraya gəlmə olduqlarını təbliğ edirdi. Bu nəzəriyyənin puçluğunu göstərən ilk faktor mədəniyyətdir. Təsadüfi deyildir ki, Qobustan qayaları üzərindəki rəsmlərlə Mərkəzi Asiyadan tapılmış şəkilli işarələr eynilik təşkil edir. Xüsusilə Ural-Altay nəzəriyyəsi təkzib edilərkən digər tərəfdən də Ön Asiya nəzəriyyəsi təbliğ edilir. Çünki bu nəzəriyəyə əsasən, Azərbaycan ən qədim çağlardan Azərbaycan türklərinin ana yurdudur. Buradan gedən türklərdən bəzi boylar sonradan yenə Azərbaycana qayıtmış, yerli tayfalarla qayıdan türk boylarının qaynayıb-qarışması (konsolidasiya) nəticəsində Azərbaycan xalqı yaranmışdır. Yuxarıda sadaladığımız digər iki konsepsiyaya nisbətən bu nəzəriyyə daha cəlbedicidir. Belə ki, azərbaycanlıların qafqazdilli (dağıstandilli) və farsdilli olması və sonradan dönüb türkdilli olması fikri istənilən şəkildə qəbuledilməzdir. Bu fərziyyələrdən ilkinə görə arazdan şimalda yaşayan albanlar guya ləzgidilli, digər bir fərziyyəyə görə çeçen-inquşların ümumi dili olan Nax-Dağıstan dilli tayfalar olmuşlar. Belə ki, azərbaycanlıların qafqazdilli (dağıstandilli) və farsdilli olması və sonradan dönüb türkdilli olması fikri istənilən şəkildə qəbuledilməzdir. Belə ki, əgər yerli əhali XI əsrdə səlcuqların gəlişilə türkləşdisə nə üçün Azərbaycanın şimalında yaşayan ləzgilər, yaxud cənubdakı farsdilli talışlar bu prosesə qoşulmayaraq öz dilini saxladı? Bundan başqa bilirik ki, xalqın təşəkkülü prosesi qısa bir zaman kəsiyində baş verən hadisə deyil. Bunun üçün əsrlər lazımdır. XI əsrdə səlcuqların

buraya gəlişilə birdən-birə xalq formalaşa bilməzdi. Həmçinin, Azərbaycan xalqının dili, musiqisi, folkloru, mifologiyası, etnoqrafiyası şimaldakı dırnaqarası dilini mənimsədiyi Qafqazdilli xalqlarla deyil, Arazdan cənubdakı türkləşmiş azərbaycanlılarla eyni olması bu fikrin yanlışlığını sübut edir. Türk etnosunu yerli xalq saymayan "gəlmə türklər" konsepsiyası Azərbaycan tarixşunaslığında dərin kök salmışdır. Yuxarıda qeyd etdiyimiz Altay nəzəriyyəsinə əsasən isə türklərin ana yurdunun Altay olması fikridir. "Xarici tədqiqatçıların fikrinə görə türklər erkən orta əsrlərdə Orta Asiyaya, Şərqi Avropaya və Yaxın Şərqə gəlmə maldar köçərilərdir, mədəniyyətdən kənar barbarlardır" (1, səh. 25).

Azərbaycanın etnik tarixi xalqının formalaşması tarixindən qədimdir. Azərbaycanda ilk sosial-siyasi birliklərin e.ə V minillikdə formalaşdığını güman edirik, lakin onların etnik mənsubiyyəti barədə tam fikir söyləmək mümkün deyil. "Adları bizə məlum olan ən qədim tayfalar isə kutilər, lullubilər və hurrilərdir ki, mənbələr onlar barəsində e.ə III minilliyin ortalarından başlayaraq söhbət açırlar. Həmin tayfalar əsasən, Azərbaycanın cənubunda məskunlaşmışdılar" (3, səh. 9).

Tarixi Azərbaycan ərazisində hələ e.ə III minillikdən lullubi, kuti, su, turukki və b. tayfalar yaşamışlar. Bu tayfalar daha sonra vahid dövlətin – Mannanın tərkibinə daxil olmuşlar. Beləcə bir xalqın təşəkkülü üçün əsas sayılan ərazi birliyi artıq yaranmış olur və xalqın təşəkkülü prosesi bu dövrdən başlayır. Bildiyimiz kimi tarixi Azərbaycan ərazisinə bir neçə dəfə türk axınları baş vermişdir. Bunlardan ilki kimmer, skif, sakların axını olmuşdur ki, bu da e.ə VII əsrində baş vermişdir. Bu türkdilli ernosların əraziyə axını bu prosesə təkan verdi. Elə təkcə bu axını vurğulamaqla XI əsrə səlcuqların gəlişindən sonra yerli əhalinin dilinin dəyişdirilərək türkləşməsi fikrini təkzib etmək olar. Nəzərə alaq ki, Albaniyanın türk tayfalarının kimmerlər və saklarla konsolidasiyası nəticəsində alban xalqı yaranmışdı. Hətta bu xalqın V-VII əsrdə yazısı da türkcə idi. "Alban adını daşıyan etnos tarixi qaynaqlar üzrə Transqafqaza saka tayfalarının içində gəlmişlər" (5, səh.170).

Azərbaycan türklərinin gəlmə olması haqqında nəzəriyəyə qarşı çıxan Ziya Bünyadov yazır ki, "türkləri Azərbaycana kənardan gəlmiş bir komponent hesab etmək səhvdir, çünki onda yerli böyük və yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur" (7, səh. 171).

Azərbaycan xalqının təşəkkül tarixinin digər bir mərhələsini hun-qıpçaq türklərinin Azərbaycanda məskunlaşması təşkil edir. Azərbaycan tarixşünaslığında etnogenez problemindən bəhs edilərkən bu prosesdə qıpçaq tayfalarının iştirakı məsələsinə də toxunulmuşdur. Təsadüfi deyildir ki, azərbaycanlıların ən qədim folklor nümunəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanı qıpçaqların Azərbaycanla bağlılığını göstərən ən əski qaynaqdır.

"Azərbaycanda məskunlaşmış qıpçaq toplumlarını araşdırarkən qarqar etnonimi diqqəti cəlb edir ki, V.V.Bartold tərəfindən XVI əsrə aid edilən Axzikəndinin "Məcmu ət-təvarix"əsərində"qarqar qıpçaqlar"nın adı çəkilir." (2, səh. 124) "Strabona görə qarqarlarla amazonkalar yanaşı yaşamışlar" (2, səh.129). Qıpçaqların Azərbaycana axınları 3 mərhələdə baş vermişdir. İlk mərhələdə skif-sak tayfalarının, ikinci mərhələdəki axın isə hun tayfa birliyi ilə bağlı olmuşdur. Son axınlar isə XI-XII əsrlərdə olmuşdur. Qıpçaqlar Azərbaycan xalqının etnogenezi prosesinin ilkin mərhələlərində əhəmiyyətli rol oynamış, Azərbaycanın etno-mədəni sisteminə öz təsirini göstərmişdiir.

Görkəmli tarixçilərimizdən S.S.Əliyarlının redaktəsi ilə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında eramızın IV-V əsrlərinə kimi Azərbaycanda hunlar, bulqarlar, buntürklər, albanlar, sakalar və başqaları kimi onlarla türk söyköklü toplumlar yaşamaqda idi. Demək olar ki, onların hamısı həm Güney Azərbaycan, həm də Quzey Azərbaycan torpaqlarıda yerləşmişdilər.

Azərbaycan xalqının formalaşması prosesi haqqında hələ də bir-biri ilə uzlaşmayan fikirlər mövcuddur. İ.Əliyev, Y.Cəfərov və b. tədqiqatçılar XI-XII əsrlərdə türkdilli tayfaların axınından sonra xalqın təşəkkülü prosesinin başa çatdığı fikrini müdafiə edir. Digər bir tədqiqatçımız Z.Bünyadov isə oğuz və qıpçaqların buraya axını ilə onların yerli türkdilli əhali ilə qaynayıb-qarışması nəticəsində xalqın təşəkkülü prosesinin başa çatdığını söyləyir.

**Nəticə.** Bildiyimiz kimi, hər hansı xalqın təşəkkülü prosesinin başa çatması üçün bir neçə zəruri şərtlər vardır ki, bunlara vahid dil, ərazi, mədəniyyət birliyi, həmçinin məhəlli-iqtisadi əlaqələrin ümumiliyi aiddir. Ayrı-ayrı dövrlərdə Azərbaycan ərazisi müxtəlif dövlətlərin, sülalərin hakimiyyəti altına düşmüş, sərhədlər tez-tez dəyişilmişdir. Bununla belə coğrafi əlverişli mövqedə - şərqlə qərbi bir-birinə bağlayan əsas yolların və Xəzər dənizi hövzəsində yerləşən ərazimizə müxtəlif vaxt kəsiklərində türkdilli etnosların axınları baş vermişdir. Onlar aborigen (yerli) türkdilli etnoslarla qaynayıb qarışaraq xalqın təşəkülü prosesinin başlanmasına şərait yaratdılar. Ayrı-ayrı dövrlərdə Azərbaycan ərazisi müxtəlif dövlətlərin, sülalərin hakimiyyəti altına düşmüş, sərhədlər tez-tez dəyişilmişdir. Lakin bu proseslər nəinki yerli xalqın dilinin dəyişilməsilə nəticələnmədi, hətta IX-X əsrlərdən sonra xalqın təşəkkülü prosesi daha da sürətləndi. Belə ki, XI əsrdə səlcuqların, XII əsrdə qıpçaqların buraya axını ilə onların yerli türkdilli etnik birliklərlə konsolidasiyası nəticəsində Azərbaycan xalqının təşəkkülü prosesi tam başa çatmış olur. Şübhəsiz ki, bu prosesdən sonra Azərbaycan ərazisində bu gün də olduğu kimi sayca çoxluqda olan yerli türk əhali ilə yanaşı, az saylı fars və qafqazdilli xalqlar da yaşayırdılar. Nəzəriyyələrə gəldikdə isə, bu uydurma nəzəriyyələr Sovet Rusiyasının türk xalqlarına duyduğu "sevginin" bariz nümunəsindən başqa bir şey deyildir.

**Ədəbiyyat siyahısı:**


1. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərnəşr,1994, 248 s.
2. Əliyeva L.A. Azərbayvan xalqının etnogenezində qıpçaqların yeri. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2015, 228 s.
3. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı, Pedaqogika, 2005, 256 s.
4. İbrahim S. Azərbaycanlıların etnogenezi haqqında. //Millikimlik.az
5. Əliyarlı S. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci ilə qədər). Bakı, Çıraq 2009, 872 s.
6. Mahmudova Y. Qaraqoyunlu Azərbaycan etnogenezi, kimlik şüuru və tarixi konsepsiyalar haqqında mülahizələr. //Millikimlik.az
7. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı , Elm, 1984, 268 s.

# CƏLİLABADDA MİLLİ AZADLIQ HƏRƏKATI VƏ SSRİ-İRAN İSLAM RESPUBLİKASI SƏRHƏD DİRƏKLƏRİNİN DAĞIDILMASI

**Əzimov Orxan Rasim oğlu**
**Tarix fakültəsi, magistrant, II kurs**
**orxan.azimov.92@mail.ru**

*Məqalədə informatorlardan alınmış məlumatlar və dövrün mətbuatında yer almış məqalələr əsasında 1989-cu ilin dekabr, 1990-cı ilin yanvar aylarında Cəlilabad rayonunda baş verən azadlıq hərəkatı araşdırılır. Bu məlumatlar həmin dövrdə Sovet hökumətinin ermənipərəst siyasətinə qarşı Azərbaycanda baş verən milli azadlıq hərəkatında Cəlilabad əhalisinin iştirakını və sərhəd hərəkatı ilə mübarizənin ən yüksək zirvəsinə çatmasını təsdiq edir. Baş verən proseslər Azərbaycanın 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpası ilə nəticələndi. Eyni zamanda, dünya azərbaycanlılarının həmrəylik günü təsis edildi.*

***Açar sözlər:*** *Cəlilabad, Naxçıvan, İran, sərhəd, həmrəylik, azadlıq mübarizəsi, xalq hərəkatı*

### *National freedom movement in Jalilabad and destruction of the USSR-Islamic republic of Iran border posts*

*The freedom movement, which had occured in December 1989 and January 1990, in the district of Jalilabad, is investigated on the base of the information obtained from an informants and the press reports of the time. This information confirms that the national freedom movement against pro-Armenian policy of the Soviet government in Azerbaijan, which people of Jalilabad were attended and the highest peak of the struggle was reached with border movement. The processes taking place in Azerbaijan on October 18, 1991, resulted by the restoration of the state independence. At the same time, the World Azerbaijanis Solidarity Day was established.*

***Keywords:*** *Jalilabad, Nakhchivan, Iran,border, solidarity, freedom struggle, national movement*

**Giriş.** XX əsrin 80-ci illərində SSRİ-də iqtisadiyyat və siyasi institutlar böhran vəziyyətində idi. Digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatında böhranlı vəziyyət yaranmış, kommunist ideologiyasına inam azalmışdı. 1985-ci ildə Sov.İKP MK-nın baş katibi seçilən Mixail Qorbaçov siyasi və iqisadi vəziyyəti dirçəltmək üçün sürətləndirmə konsepsiyası, yenidənqurma və aşkarlıq siyasəti yürütməyə başladı. Lakin bütün bunlar böhranı daha da dərinləşdirdi. İttifaq dövlətlərində milli münaqişələr baş qaldırdı. Qazaxıstan, Gürcüstan, Azərbaycan və digər yerlərdə siyasi müstəvidə baş verən hadisələr

SSRİ-də vəziyyəti kritik hala gətirdi. Bu vəziyyətdən istifadə edən, tarixi düşmənimiz olan ermənilər ilk olaraq Ermənistan ərazisindəki azərbaycanlıları öz tarixi torpaqlarından deportasiya etməyə başladılar. Sonra isə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürərək DQMV-ni Ermənistana birləşdirmək üçün qurduqları planlarını həyata keçirməyə başladılar. Həmin dövrdə baş verən bu hadisələr Azərbaycanda milli azadlıq mübarizəsinin formalaşmasına və ümumxalq hərəkatının yaranmasına gətirib çıxardı. Ölkə ərazisində mitinq və etiraz aksiyaları başlandı. Belə nümayişlərin ən çox keçirildiyi əsas rayonlardan biri Ermənistanla sərhəddən uzaq və Bakıdakı azadlıq mübarizəsi ilə sıx bağlı olan Cəlilabad rayonu idi. Rayon əhalisi ziyalıların və ağsaqqalların ətrafında birləşib ölkə rəhbərliyini zəif siyasət yürütməkdə günahlandıraraq mitinq, tətil, yürüş kimi etiraz aksiyaları keçirirdilər.

**İctimai-siyasi gərginliyin yaranması.** Rayon əhalisi arasında siyasi fəallığın artmasının əsas səbəblərindən biri də əhalinin iqtisadi vəziyyətinin çətin olması idi. Sovet dövründə Cəlilabadda üzümçülük sahəsi yüksək inkişaf etmişdi. Rayonun əkin sahələrinin əksəriyyətində üzüm bağları salınmışdı. Rayonda yığılan üzüm ölkə ərazisindəki şərab zavodlarını üzümlə təmin edirdi. SSRİ-də alkoqolizmə qarşı mübarizə haqqında qərardan sonra üzüm sahələri baxımsız qaldı və düşünülmüş şəkildə məhv edildi [7]. Bu da rayon iqtisadiyyatına ağır zərbə vurdu. İqtisadi çətinliklər sosial və dərin siyasi problemlərin yaranmasına gətirib çıxarmışdı. Hadisələrin canlı şahidlərindən olmuş Aslan Ağayevin dediklərinə görə, 1989-cu ilin dekabrında Cəlilabad əhalisinin ayağa qalxmasında siyasi səbəblərlə yanaşı, sosial səbəblər də mühüm yer tuturdu. Həmin sosial narazılıqlara misal olaraq əmək haqqlarının və təqaüdlərin aylardır verilməməsi, dövlət idarələrində rüşvətxorluq və qohumbazlığın olmasını göstərmək olar [5]. Sosial-iqtisadı problemlərin kəskinləşməsi əhali arasında narazılığın pik həddə çatmasına səbəb olmuşdu.

**Milli azadlıq hərəkatının başlaması.** Dekabrın 8-dən Cəlilabadda fasiləsiz mitinqlər və tətillər başladı [1, s.208]. Dekabrın 12-də "21 Azər" hərəkatının ildönümü münasibətiylə İranla (Cənubi Azərbaycan) sərhəd bölgələrində həmrəylik tonqalları qalandı. Bu hadisə iki yerə parçalanmış xalqın şüurunda təzyiqlərə baxmayaraq qardaşlıq bağlarının silinməməsinin göstəricisi idi. Dekabrın 20-dən İran İslam Respublikasına gedən "Sovavtotrans" avtomobillərinin yolu kəsilmiş və qatar yolları tutulmuşdu [4, s.18].

Cəlilabadlıların apardığı mücadiləyə dəstək olmaq üçün Xəlil Rza Ulutürk rayona gəlmişdi. O və rayonun ağsaqqallarından sayılan yerli şair Abbasağa Azərtürk söylədikləri şer və nitqləri ilə rayon əhalisinə mənəvi dəstək verərək mübarizəyə ruhlandırırdılar.

Hadisələrin fəal iştirakçılarından biri İmanqulu Şəkərəliyev 1989-cu

ilin dekabrında Cəlilabadda əhalinin ayağa qalxmasının əsas səbəbinin Ermənistandan azərbaycanlıların deportasiya edilməsi və Qarabağdakı vətəndaşlarımızın ermənilər tərəfindən incidilməsi olduğunu bildirir. Onun dediklərinə görə, həmin dövrdə ölkə rəhbərliyinin Qarabağda baş verənlərə etinasızlığı xalqı hiddətləndirmişdi [6].

Dekabrın son günlərində qışın soyuğuna baxmayaraq rayon meydanına yığılmış əhali oturaq aksiyaları davam etdirir. Rayon Kommunist Partiyasının Birinci katibi Xeyrulla Əliyev mitinq iştirakçılarına qarşı qəti tədbir görmək üçün dekabrın 27-də rayona avtomat, tapança və dəyənəklərlə silahlanmış yüzlərlə milis işçisi gətirtdi. Rayonda sabitliyi bərpa etmək adı altında "əməliyyat planı" hazırlandı. Dekabrın 28-dən 29-na keçən gecə əməliyyat başlandı. Mitinqlər dağıdıldı və ələ keçənlər tutuldu. Sonra qabaqcadan hazırlanmış siyahı üzrə milis maşınlarında avtomatlarla silahlanmış dəstələr gecə saat 2-3 radələrində evlərə soxularaq prokuror sanksiyası olmadan adamları tutub DİN-in Cəlilabad rayon üzrə Milis şöbəsinə apardılar. Əməliyyat gecə saat 5-də başa çatdı. Sonra səsgücləndiricilər vasitəsilə rayon əhalisinə piketlərin dağıdıldığı və mitinq fəallarının tutulduğu elan edildi [6;8]. Səhər saatlarında rayon əhalisi DİN-in Cəlilabad rayon Milis şöbəsinin qabağına toplaşaraq tutulanların azad olunmasını tələb etdilər. Etirazçıların geri çəkilmədiyini görən milis işçiləri onların üzərinə silah çəkdi. Bundan hiddətlənən rayon əhalisi milis işçilərini və şöbə daşa basaraq onların üzərinə hücum etdi. Rayon əhalisinin qəzəbindən qorxuya düşən milis işçiləri silahı yerə ataraq geri çəkilmək məcburiyyətində qaldılar. Əhali Milis bölməsinin binasına daxil olaraq axşam saxlanılan şəxsləri azad etdi. Cəlilabadlıların göstərdiyi bu mübariz hərəkət bununla bitmədi. Onlar rayonun Kommunist partiyasının binasına girərək I katib X.Əliyevi Cəlilabaddan qovdular. Öz içlərindən seçdikləri məsul şəxslərə rayon rəhbərliyini etibar etdilər. Bununla da, Cəlilabadda xalq hakimiyyətə gəldi. Bu hadisə o dövr üçün böyük bir hadisə idi. Türkiyənin məşhur qəzetlərindən olan "Cumhuriyyət" qəzeti baş vermiş bu hadisə haqqında 1 yanvar 1990-cı il nəşrində "Xalq Kommunist Partiyası binasını işğal etdi" başlığı altında məlumat vermişdi [3]. Cəlilabadda baş verənlər itkisiz ötüşməmişdi. Milis işçilərinin açdığı atəş nəticəsində rayon sakini Miryusif Əbilov güllə yarası almış, sonra isə xəstəxanada vəfat etmişdi [4, s.24]. Ümumilikdə götürdükdə Cəlilabaddakı hadisələr Azərbaycanda baş verən qanlı tarixi günlərin məhz ilki oldu.

**Sərhədlərin açılması.** Cəlilabadda baş verən hadisələrlə eyni tarixlərdə - 1989-cu ilin dekabrın 31-də Naxçıvanda İranla sərhəd olan 137 km-lik bir ərazidə SSRİ-İran İslam Respublikası sərhəd telləri qırılmışdı. Hər iki tərəfdən sahildə toplaşmış adamlar Araz çayını keçib görüşmüşdülər. 1990-

cı il yanvarın 7-də SSRİ-Türkiyə Respublikası sərhəddində də həyəcanlar başlamışdı [1, s. 208] . Bununla yanaşı, 1990-ci il yanvarın ilk günlərindən həm Ermənistanla sərhəd rayonlarda, həm də Bakı, Gəncə, Bərdə, Cəlilabad və digər rayonlarda gərginlik artırdı [9]. Respublika əhalisi SSRİ və respublika rəhbərliyinin Ermənistanın Azərbaycana qarşı siyasətindən narazı olduğunu açıq bildirirdi. Və buna qarşı tədbir görmək məqsədilə 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman verdi. Bu fərmana əsasən DQMV-nin, Azərbaycan SSR-in ona bitişik rayonlarının, Ermənistan SSR Gorus rayonunun ərazisində, habelə Azərbaycan SSR ərazisində SSRİ-nin dövlət sərhədi boyunca sərhədyanı zonada fövqəladə vəziyyət elan edildi [10].

15 yanvar 1990-cı il qərarı xalqın etirazına səbəb oldu və bu etiraz Cəlilabadda SSRİ-İran İslam Respublikası sərhəd dirəklərinin sökməsi ilə nəticələndi.

"Müvəqqəti Xalq Hakimiyyəti" dövründə - yanvarın 18-də rayon əhalisi Dələli, Ləkin, Əsədli, Burovar kəndləri istiqamətində SSRİ-İran İslam Respublikası sərhədinin 50 km-lik ərazisində sərhəd tellərini qırdı [6]. Bu hadisə Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmalı bir hadisə idi. Naxçıvan və Cəlilabad ərazilərində SSRİ-İran İslam Respublikası sərhəd dirəklərinin dağıdılması nəticəsində Azərbaycan xalqı sərhədin digər tərəfindəki qardaşları ilə qovuşmuş, həmrəylik nümayiş etdirmişdilər. Bu hadisələrin canlı şahidi olmuş İmanqulu Şəkərəliyev deyir ki, "Mən ömrümdə insanların gözündə belə bir sevinc görməmişdim. Heç o hadisədən sonra da görmədim. Sərhədin digər tərəfindəki qardaşlarımızla görüşəndə sevincdən gözlərimiz yaşarmışdı. Sərhədləri qırıb Cənubi Azərbaycandakı qardaşlarımızla görüşəndən sonra, onlar da bizə qoşularaq maşınlara minib rayon meydanına gəldilər. Onlar da tribunada Cəlilabad əhalisinin qarşısında çıxışlar etdilər. Cənublu qardaşlar arasında İsmayıl Məhəbbəti adlı şəxs şair Məhəmmədhüseyn Şəhriyarın məşhur şeirindən bu bəndi oxudu.

**Övladların nə vaxtadək tərki-vətən olacaqdır?**
**Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!**
**Bəsdir fəraq odlarından kül ələndi başımıza,**
**Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!** " [6]

Yanvarın 21-də isə şəhərin "Əli meydanı"nda Bakıda "20 Yanvar" hadisələri zamanı azadlıq uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmək məqsədilə matəm mitinqi keçirildi. Matəm mitinqində cənubdan gəlmiş qardaşlarımız da iştirak edirdilər [4, s.50].

Tahir Babayev SSRİ-İran İslam Respublikası sərhədinin Cəlilabad hissəsindəki 50 km-lik sərhəd tellərinin qırılması ilə əlaqədar yazdığı "Açılan yolların şərqisi" adlı məqaləsində qeyd edir ki, "illərlə gözdağı olan tikanlı məftillər və sərhəd dirəkləri insan selinin ayaqları altında qalır. 162 illik ayrılıq tilsimi qırılır. Bu hadisələrdən sonra xalqımız mərkəz qarşısında tələblər irəli sürür.

1. Qanı bir, dili bir olan iki qardaş arasındakı tikanlı məftillər ləğv edilsin.
2. Zorla yadlaşdırılan vahid milli psixologiyanın doğmalaşdırılması üçün Güney Azərbaycan ilə Quzey Azərbaycan arasında iqtisadi, siyasi, mədəni əlaqələr yaradılsın.
3. İki qardaş arasında gediş-gəliş qanun çərçivəsində həll edilsin.
4. Süni şəkildə yaradılmış "Dağlıq Qarabağ problemi" yox, Qarabağ məsələsi birdəfəlik həll edilsin və respublikanın suverenliyinə qara səhifələr yazmağa səy göstərən "xaç barmaqlar" kökündən kəsilsin" [4, s.52].

Hadisələrin belə cərəyan etdiyi bir vaxtda sovet hakimiyyəti Cəlilabaddakı "qiyamı" yatırtmaq üçün tədbirlər görməyə başladı. Yanvarın 30-da rayona hərbçilər daxil oldular. Sərhəd və meydan hərəkatlarında fəal iştirak edənləri həbs etdilər. "Müvəqqəti Xalq Hakimiyyəti"nin fəaliyyətinə son qoydular.

1990-cı il yanvarın 30-dan rəsmi fəaliyyətə başlayan Cəlilabad rayon hərbi komendantı V.Orlov tələb etdi ki, "İran İslam Respublikası vətəndaşları 2 fevral saat 22:00-dək SSRİ ərazisini tərk etməlidir. Əks təqdirdə onlar və onları evində saxlayan vətəndaşlar barəsində beynəlxalq hüquq qaydalarına uyğun olaraq tədbir görüləcəkdir" [4, s.71].

Zaqafqaziya sərhəd hərbi dairəsinin komendantlığı Azərbaycan SSR sərhədyanı rayonlarının əhalisinə müraciət edərək bildirirdi: "Dövlət sərhədinin kütləvi surətdə pozulması ona gətirib çıxarmışdır ki, Azərbaycan SSR-də çoxlu İran vətəndaşı vardır. Onların geri qaytarılması üçün iki buraxılış məntəqəsi yaradılmışdır. Yerli əhalinin arzularını nəzərə alaraq daimi keçid postları açmaq üçün SSRİ və İran İslam Respublikası arasında yüksək səviyyədə danışıqlar olmuşdur" [2].

**Nəticə.** 1989-cu ilin dekabr və 1990-cı ilin yanvar aylarında Cəlilabadda baş verən hadisələr mahiyyət etibarilə ümumrespublika milli azadlıq hərəkatının tərkib hissəsi olduğundan Azərbaycan xalq hərəkatına qarşı tətbiq edilən repressiya və 20 Yanvar faciəsi yaranmış vəziyyətə təsirsiz ötüşmədi. "Müvəqqəti Xalq Hakimiyyəti"nin fəaliyyəti dayandırıldı və Cəlilabad hadisələrinin fəal iştirakçıları həbs edildi. Bütün bunlara baxmayaraq, Cəlilabadda sovet hakimiyyətinin mövcud olduğu 70 illik bir dövrdə tarixdə ilk dəfə olaraq Kommunist Partiyasının hakimiyyətinə son verilmişdi və hakimiyyət xalqın nəzarətinə keçmişdi. Rayonda 31 dekabr 1989-cu ildən 31 yanvar 1990-cı ilə kimi "Müvəqqəti Xalq Hakimiyyəti" fəaliyyət

göstərmişdi. Həmin müddətdə rayonda heç bir oğurluq və digər cinayət hadisələri olmamışdı.

Yanvar ayında istər Naxçıvanda, istərsə də Cəlilabadda baş verən sərhəd hadisələri respublikanın paytaxtındakı siyasi gərginliklə bağlı idi. Bu hadisələr yaxın dövrdə baş verdiyi üçün bu gün də rayon sakinlərinin yaddaşında qalmaqdadır. Baş verən hadisələr bir daha təsdiq etdi ki, tarixin müxtəlif dövrlərində Azərbaycan xalqı ümumi düşmənə qarşı birləşib, həmrəylik nümayiş etdirə bilir. Məhz bu səbəbdən 1989-cu ildə Naxçıvan Muxtar Respublikası və Cəlilabad rayonunda başlamış hərəkat milli birlik və həmrəylik tarixində mühüm mərhələ oldu.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi 7 cilddə VII cild, Bakı, "Elm" nəşriyyatı, 2007, 608 s.
2. Azərbaycan SSR sərhədyanı rayonların əhalisinə müraciət. // Zaqafqaziya sərhəd hərbi dairəsinin komandanlığı. // Yeni Gün qəzeti, Cəlilabad, 1990, 13 fevral.
3. Halk Komunist Parti binasını işgal etti. // Cumhuriyyət qəzeti, Türkiyə, 1990, 1 yanvar.
4. Hüseynov (Alarlı) B. Cəlilabad hadisələri. Bakı, "Adiloğlu" nəşriyyatı, 2008, 218 s.
5. İnformator. Ağayev Aslan Davud oğlu. Cəlilabad, 20.03.1940
6. İnformator. Şəkərəliyev İmanqulu Dövlət oğlu. Cəlilabad, 01.11.1950
7. James von Geldern. Anti-alcohol campaign. // http://www. soviethistory.msu.edu Müraciət tarixi : 12.11.2016
8. Nağıyev N. Cəlilabad faciəsi: bir ildən sonra baxış. //Azadlıq qəzeti, Bakı, 1990, 27 dekabr.
9. Respublikada vəziyyət haqqında // Kommunist qəzeti, No 13, Bakı, 1990, 16 yanvar
10. SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərmanı // Kommunist qəzeti, No 14, Bakı, 1990, 17 yanvar

# AZƏRBAYCAN TARİXİ KİTABLARI VƏ ONLARDA AZƏRBAYCAN XALQININ YARANIŞI VƏ ETNOGENEZİS MƏSƏLƏSİ

**Hacıyeva Elmira Əli qızı**
**Tarix fakültəsi, bakalavr, IV kurs**
**e.hacisoy@mail.ru**

*Azərbaycan xalqının yaranması və etnogenezis məsələsi müasir tarix elminin əsas tədqiqat obyektidir. Azərbaycan tarixi kitablarında bu məsələyə olan münasibət və onun araşdırılması yazıldığı dövrdən asılı olaraq fərqli olmuşdur. Ümumən "Azərbaycan tarixi" adlı kitablar XX əsrin 20-ci illərindən yazılmağa başlanmışdır. Sovet imperiyası dövründə yazılmış bu kitablarda Azərbaycan xalqının yaranması və etnogenezis məsələsi haqqında qəsdən məlumat verilməmişdir. Müstəqillik dövründə nəşr olunan eyniadlı kitabların bir çoxunda isə bu məsələ öz əksini tapmışdır.*
***Açar sözlər:*** *Azərbaycan tarixi, Azərbaycan xalqı, etnogenezis.*

***The books on history of Azerbaijan and issue of formation and etnogenesis of Azerbaijanis***

*The issue of the formation and ethnogenesis of Azerbaijanis are the main subjects of modern historical researches. Books on the history of Azerbaijan contain distinguished attitude and way of study depending on the period of publication. Generally, books, with the title "History of Azerbaijan" were written starting 1920s. During the Soviet Empire concerning books purposely didn't contain the issue formation and ethnogenesis of Azerbaijanis. This problem is reflected in some books, published after independence.*
***Key words:*** *History of Azerbaijan, Azerbaijani people, Ethnogenesis.*

Azərbaycan tarixşünaslığının əsası Abbasqulu ağa Bakıxanovun 1841-ci ildə yazdığı "Gülüstani-İrəm" əsərilə qoyulmuşdur. Əsər fars dilində yazılaraq əsas etibarilə, müqəddimə, beş fəsil və nəticədən ibarətdir. Burada Azərbaycan xalqının, xüsusilə Şirvan və Dağıstanda yaşayan tayfa və xalqların tarixi qədim dövrlərdən başlayaraq 1813-cü il Gülüstan müqaviləsinə qədər təsvir olunmuşdur. A.Bakıxanov Azərbaycan tarixinə aid olan materialları toplamış, onları müəyyən bir sistemə salmış və təsviri yolla bu əsərdə yazmışdır. "Gülüstani-İrəm" əsərinə qədər Azərbaycan tarixinə aid yazılmış ümumi tarix əsərinə təsadüf edilmir. Əsər bu sahədə ilkdir. Azərbaycan tarixinin ümumi tarixşünaslığın əvəzedilməzi olsa da, "Azərbaycan tarixi" adlı və daha uzunmüddətli dövrü əhatə edən kitabların yazılması XX əsrin 20-ci illərindən başlanmışdır. İlk belə əsər 1921-ci ildə Məhəmməd Həsən Vəliyev (Baharlı) tərəfindən yazılmışdır. Onun bu kitabı rus dilində Bakıda nəşr olunmuşdur.

Kitab "Azərbaycan tarixi" adlansa da içərisindəki yazılar Azərbaycanın iqtisadi coğrafiyasına daha cox uyğundur. Burada etnogenezis və Azərbaycan xalqının yaranması adlı xüsusi paraqraf olmasa da Etnoqrafik oçerk başlıqlı yazıda qədim Azərbaycan ərazisində yaşamış, daha sonradan buraya gəlmiş tayfaların adları çəkilir və haqqında məlumat verilir. Mütləq şəkildə qeyd etmək lazımdır ki, bu kitab yazılan dövrdə Sovet imperiyasının müstəmləkəçilik siyasətinə əsasən Sovet adamının yaradılması qarşıya məqsəd qoyulmuş və Azərbaycan xalqının öz soykökünü tanımamasına çalışılmışdır. Müəllif Azərbaycan ərazisində ibtidai insan məskunlaşması haqqında heç bir məlumatın olmadığını, ilk dəfə burada insan yaşayışı haqqında müəyyən məlumatları müqəddəs kitab və rəvayətlərdə verildiyini bildirir. İstinad etmək lazım olan tarixi məlumatlar kimi isə b.e 1200-ci ilə aid olan Assuriya mixi yazıları göstərilir. Burada Azərbaycan ərazisində 3 ölkə-İllipi, Xarxar və Xəzər ölkələri sakinləri və tayfa tərkibi haqqında bir söz demədən göstərilmişdir [7,s.20]. Kitabda yəhudilərin Azərbaycan ərazisinə gəlişinə geniş yer ayrıldığı halda Azərbaycan xalqının formalaşmasının başlanğıcına səbəb olan ərəblərin gəlişi, İslamın yayılmasının xalqımız üçün əhəmiyyəti, eyni zamanda XI əsrdə buraya axın etmiş Səlcuqlar haqda məlumat demək olar ki, yoxdur. Ərəblərin gəlişi ilə vahid dinin yaranması, Azərbaycan türklərinin eyni dindən olan soydaşları ilə qarışması məsələsi deyil, ərəblərin hakimiyyəti dövründə baş verən üsyanları yatıra bilmədiyi təqdirdə türklərin çağırıldığını, bununla əlaqədar kəngərlilər, cavanşirlər, xalaclar, səlcuqlar, monqol xalqlarından isə monqol və cığatayların gəldiyi göstərilir [7,s.38]. Ümumən, qeyd etməliyik ki, din məsələsi kitabda və Azərbaycan xalqının etnogenezisində oynadığı rol düzgün dəyərləndirilməmişdir. Azərbaycan ərazisində yaşayan ermənilər yerli və gəlmə kimi bölünmüşdür [7,s.27]. Diofizitliyi qəbul etmiş albanlar yerli ermənilər kimi göstərilmişdir. Çox güman ki, bütün bunlar həmin dövr üçün Azərbaycan tarixinin dərindən araşdırılmaması, Məhəmməd Həsən Vəliyevin ixtisasca tarixçi olmayıb hadisələri düzgün qiymətləndirməməsi və kitabın SSRİ dövründə yazılması ilə əlaqədar Azərbaycan xalqının formalaşması məsələsinə toxunula bilinməmişdir.

1920-ci illərdə ümumi Azərbaycan tarixi yazılması sahəsində bir neçə cəhd olmuşdur. Bunlardan biri də elmi-publisistik və tarixi kitab olan Cahangir Zeynaloğlunun 1924-cü ildə işıq üzü görən Müxtəsər Azərbaycan tarixi kitabıdır. Zeynaloğlunun Azərbaycan istiqlaliyyəti tarixini başlıca prinsip kimi götürdüyü bu əsərdə Azərbaycanın ta qədim dövrdə başlamış 1920-ci ilə qədər olan tarixi əks olunmuşdur. Baharlının kitabı ilə eyni dövrdə yazılmış bu kitabda Azərbaycan adının yaranması, türklərin Azərbaycanda məskunlaşması, azəri türkləri kimi başlıqların açıqca verilməsi, Azərbaycan xalqının formalaşması, etnogenezisi məsələsi ilə bağlı

məlumatların verilməsi çox güman ki, kitabın İstanbulda nəşr olunması ilə əlaqədardır. Azərbaycan adının bir versiyaya əsasən Həzrəti Nuhun adlarından biri olan Azərbazın adına uyğun olaraq yaranması, digər versiyaya əsasən və Tarixi-Təbəridə qeyd olunmuşdur ki, pəhləvi lisasında atəşə "azər" deyilirdi və atəşin ən böyüyü burada olduğundan əcəmlər bura Azərbaycan demişdilər [8,s.8-9]. Kitabda qədim zamanlarda buradan midiyalıların yaşadığını, onların türk olduğu qeyd olunmuşdur. Azərbaycan xalqının Azərbaycan türklərindən ibarət olduğunu, Azərbaycan türklərinin isə buraya müxtəlif dövrlərdə gəlmiş türklərin nəsilləri olduğunu və onların çoxluğu hesabına azlıq təşkil edən tat, talış, ləzgi sonradan gəlmiş kürd və ərəbləri assimilə etdiyi qeyd olunmuşdur [8,s.12]. Burada da Məhəmməd Həsən Vəliyevdə olduğu kimi, ərəb işğalı və səlcuqların Azərbaycan işğalının nəticələri dəyərləndirilməmişdir. 50-60-cı illərdə bizim elmimizdə Azərbaycanın ən qədim əhalisinin kutilərin, lullubilərin, hurrilərin və b. Tayfalarının etrogenezisi ilə bağlı problemlərə canlı maraq göstərilmiş, madalıların etnik mənşəyi, Albaniyanın etnik mənzərəsi tədqiq olunmuşdur. Bu işdə 1964-cü ildə Elmlər Akademiyasının Tarix İnstitutunda fəaliyyətə başlamış Azərbaycan xalqının formalaşması və mənşəyi üzrə keçirilən seminar mühüm rol oynamışdır. 1958-1961-1964-cü illərdə nəşr olunan 3 cildli elmi əsər olan Azərbaycan tarixi kitabının I cildində əvvəlki kitablardan fərqli olaraq kuti və lullubilər haqqında məlumat verilmişdir. Əvvəlki dövrdə nəşr olunan kitablardan həcmcə çox olan bu kitabda Azərbaycan ərazisində yaranmış dövlətlər, ərəb işğalları, səlcuqlar haqqında daha geniş məlumat verilmişdir. Xilafətin tərkibinə qatıldıqdan sonra Azərbaycan ərazisində vahid dinin, dilin, mədəniyyətin yaranması məsələsi qeyd olunmuşdur. Səlcuq işğalını isə buraya türklərin kütləvi axını ilə nəticələnməsini, həmçinin səlcuqilərin Azərbaycanın böyük bir hissəsini işğal etməsini xalqın dinində bəzi dəyişikliklərə səbəb olduğu göstərilmişdir [2,s.157]. Səlcuqlara qarşı aparılan mübarizənin Azərbaycanda köhnə dövlətlərin güclənməsi və yeni dövlətlərin meydana çıxması ilə nəticələndirilmişdir. Burada Azərbaycan xalqının yaranması və etnogenezis məsələsi işıqlandırılmamışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan tarixi üzrə dərsliklərin yenidən yazılması davam etdirildi. 1993-cü ildə nəşr olunan müəllifi İqrar Əliyevin Azərbaycan tarixi kitabında Azərbaycan xalqının yaranması və etnogenezisə aid ayrıca paraqraf olmasa da (baxmayaraq ki, o etnogenezis məsələlərinə dair konsepsiyanın müəllifi idi) Azərbaycan qədim dövrdə adlı bölmədə eyniadlı mətndə ərazimizdə mövcud olmuş tayfa ittifaqlarının, tayfaların adları çəkilib onlar haqda məlumat verilmişdi. Kuti, lullubi, huri, kaşşu, kassit etnosunun yaşadığı ərazi, dilləri, onların xalqımızın etnogenezisində oynadığı rol qeyd olunmuşdur. Həmçinin müəllif qeyd etmişdir ki,

antropoloji baxımdan azərbaycanlıların müxtəlifliyi çox əsrlik etnik proseslərin inikasıdır [5, s.38].

Tunc dövründə Azərbaycan vilayətlərində məskunlaşmış tayfaların və tayfa birliklərinin əksəriyyəti əvvəllərdə burada mövcud olmuş həmin antropoloji elementdən törəmişdir. Kitabda həmin tiplərdən birinin ("Qafqazion" adlanan tip) olduğunu və əsasən Mərkəzi Qafqazda mövcud olduğu göstərilərək bildirilir ki, bu tip Qafqazda yerlidir və o hələ son paleolit dövründə Baş Qafqaz sıra dağlarında məskunlaşmış etnik qruplardan törəmişdir. Qafqaz Albaniyası əhalisini arasında bu tip geniş yayılmışdı. Azərbaycanlıların etnogenezisində iştirak etmiş ikinci antropoloji tipi isə "Aralıq dənizi tipi"kimi qeyd olunmuşdur. Eyni zamanda İqrar Əliyevin müəllifliyi ilə yazılan bu kitabda ərəblər Azərbaycanı işğal edənə kimi Azərbaycanın qədimdən türklər ölkəsi olması, lakin, əsasən həm şimalın, həm də cənubun aran yerlərində məskunlaşmış xəzərlər, qıpcaqlar, sabirlər və başqa türkdilli əhali ilə yanaşı burada Qafqazdilli albanlar, udinlər, xınalıqlar, ləzgilər, irandilli talışlar, tatlar və kürdlərin yaşadığı bildirilir. Ərəb köçürmələri türk komponentinin üstünlüyünü müəyyən dərəcədə zəifləsə də, sonradan ərəblərin türklər tərəfindən assimilə olunduğu qeyd olunmuşdur [5, s.135]. Xüsusi vurğulanmasa da azərbaycanlıların ümumi müsəlman məfhumu ilə birləşdiyi ifadəsi vardır.

1993-cü ildə müəllifi Mahmud İsmayıl olan daha bir Azərbaycan tarixi adlı kitab nəşr olundu. Əvvəlki eyni adlı kitablardan fərqli olaraq müəllif Azərbaycan xalqının soykökünün və təşəkkül tapmasının öyrənilməsini tarix elmimizin qarşısında duran ən mühüm problemlərdən biri hesab edərək, məsələni elmi, tərbiyəvi, həmçinin siyası əhəmiyyəti nəzərə alaraq I bölmə III fəsil paraqraf 5-i Azərbaycan xalqının təşəkkülü adlandırmışdır. Bu başlıqlı mətndə Azərbaycan xalqının formalaşması ilə əlaqədar konsepsiyalar, tədqiqatçıların fikirləri, burada yaşamış etnosların dil məsələsi, onların adlarını əks etdirən hidronim, toponimlərin araşdırılması öz əksini tapmışdır. İran tarixçilərinin XI əsrə qədər Azərbaycan və Azərbaycan xalqının olmayıb, daha sonra Səlcuqlar tərəfindən əhalinin türkləşməsi konsepsiyası məsələsinə səhv olduğunu sübut etmişdir [6, s.74-75]. Və qeyd etmişdir ki, Səlcuqlar bura gəldikləri zaman qohum dil mühiti ilə rastlaşdılar və sayca az, mədəni inkişafca yerlilərdən qat-qat aşağı səviyyədə olduqları üçün yerli əhalinin tərkibində assimilə olunub, etnik proseslərin gedişində iştirak etmişdilər.

Daha sonrakı dövrdə yazılan Azərbaycan tarixi adlı kitabın müəllifi Süleyman Əliyarlıdır və burada ən qədim dövrlərdən 1870-ci ilə kimi Azərbaycan tarixində baş verən hadisələr göstərilmişdir. Kitabın VII bölməsi etnogenezis adlandırılaraq yaranış problemi, yaranışı alt qatları adı altında bu məsələ araşdırılmışdır. Əliyarlı bildirmişdir ki, indiyədək bu məsələyə səthi baxılmasının, səhv konsepsiyalarının doğru kimi çatdırılmasının səbəbi

Sovet imperiyasının müstəmləkəçilik siyasəti ilə bağlıdır. Və bu dövrdə Azərbaycan türklərinin kökünü sadəcə dəri rənginə əsasən müəyyən edib, Hind-Əfqan kökü ilə əlaqələndirən Y.P.Alekseyevin və Ə.S.Sumbatzadənin fikirlərinin tamamilə yanlış olduğu qeyd olunmuşdur. Müəllif qeyd etmişdir ki, [4, s.157] Azərbaycanda yaşayanların "al üzlü, bəyaz dərili" olması haqqında Yaqut-Əl-Həməri yazısının ilkin qaynağı iranlılar ilə deyil, birbaşa türklər ilə bağlıdır.

1997-ci il sentyabrın 24-də Elmlər Akademiyasının Rəyasət heyəti geniş ictimaiyətin tarixi biliklərə yiyələnməsi üçün çoxcildli "Azərbaycan tarixi"nin hazırlanıb nəşr edilməsi qərarına gəlmişdir. VII cilddən ibarət olan bu nəşrin I cildindən Azərbaycan tarixinin ən qədim zamanlardan başlayaraq eramızın III əsrinin I rübü ilə başa çatan böyük bir dövrü əksini tapmışdır. I cildin VII fəslində etnogenezis məsələsi tam sistemli şəkildə verilməsə də burada e.ə II minilliyin sonu I minilliyin başlanğıcında Azərbaycan ərazisində əhalinin tərkibi haqqında məlumat verilmişdir. Həmçinin II cild VII fəsil p.3-də Azərbaycanda dini proseslər və onların yerli əhali üçün nəticələrindən danışılmışdır. Baxmayaraq bu çoxcilddi kitab müstəqillik dövründə nəşr edilib burada da Azərbaycan xalqının formalaşması və etnogenezis məsələsi işıqlandırılmamışdır.

Azərbaycan tarixi adlı ən son kitab BDU-nun Azərbaycan tarixi kafedrası əməkdaşları tərəfindən yazılmış kitabdır. Dərslikdə tariximizin ən qədim çağlarından XXI əsrin ilk onilliklərinə qədərki dövrünün ən mühüm problemləri fəsildə cəmlənmişdir. E.ə III-II minilliklərdə Azərbaycanın cənubunda və şimalında olan ilkin tayfa birlikləri haqqında məlumat verilmişdir. II fəsil paraqraf 7-də Azərbaycan xalqının yaranması başlığı altında Türklər Cənubi Qafqazın ən qədim sakinləridir, Xalqımızın yaranışında iştirak etmiş türk boyları, Xalqımızın etno-tarixi yaddaşı, Azərbaycan türk dili kimi yarımbaşlıqlar verilmişdir. Arxeologiya, antropologiya və digər elm sahələrində çalışan alimlərin araşdırmalarına istinad edərək Azərbaycan türklərinin Cənubi Qafqazın ən qədim və köklü əhalisi olmasının təsdiq olunması bildirilir [1, s.51].

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi. Dərsik. (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2014,380s.
2. Azərbaycan tarixi 3 cildlik , I c. Bakı ,1961, 448 s.
3. Azərbaycan tarixi 7 cildlik , I, II c. Bakı, 1997, 560 s, 608 s.
4. Əliyarlı Süleyman.Azərbaycan tarixi . Bakı ,2009 , 861 s.
5. Əliyev İqrar.Azərbaycan tarixi . Bakı ,1993 ,107 səh.
6. İsmayılov Mahmud.Azərbaycan tarixi. Bakı, 1993 , 263 s.
7. Vəliyev Məhəmməd Həsən/Baharlı.Azərbaycan tarixi, Bakı, 1921 , 192 s.
8. Zeynaloğlu Cahangir.Müxtəsər Azərbaycan tarixi . İstanbul ,1923 , 144 s.

# DÜNYA AZƏRBAYCANLILARININ TƏŞKİLATLANMASI HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Hüseynova Leyla Əhliman qızı**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu**
**"Əliyevşünaslıq" şöbəsində aparıcı elmi işçi**
**L_Huseyinova@mail.ru**

*Məqalədə dünya azərbaycanlılarının təşkilatlanmasında dövlət xadimi Heydər Əliyevin rolundan bəhs olunub. Bu istiqamətdə görülən işlər Azərbaycan tarixi məsələlərinin tərkib hissəsi kimi təhlil edilib. Avropaya inteqrasiya etməklə yanaşı milli-mənəvi dəyərləri qorumağın vacibliyini vurğulayan Heydər Əliyevin fəaliyyətində məhz Azərbaycan tarixi məsələlərinin əsas yer tutması məqalədə izah olunub.*

***Açar sözlər:*** *Azərbaycan tarixi məsələləri, daxili siyasi sabitlik, tarix konsepsiyası, milli ideologiya, diaspora*

***The organization of the World Azerbaijanis as part of the historical problems of Azerbaijan of Heydar Aliyev***

*The article dedicated to the role of national leader Heydar Aliyev in the organization of the World Azerbaijanis. The works done in this direction have been analyzed as part of the historical issues. In addition to the national and spiritual values of European integration, stressing the importance of protecting the activity of Heydar Aliyev, the Azerbaijani historical issues explained in the article was the main place.*

***Key words:*** *History of Azerbaijan, internal political stability, the concept of history, national ideology, the diaspora*

1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. XX əsrin 80-ci illərinin sonundan başlayan milli hərəkat öz əməli nəticəsini verdi. Azərbaycan müstəqilliyini bərpa etdi, yenidən müstəqil oldu. Lakin qonşu Ermənistanın və Dağlıq Qarabağın ermənilərinin separatçı, terrorçu əməlləri respublikanın müstəqilliyini və ərazi bütövlüyünü təhlükə altında saxlayırdı. Eyni zamanda respublika daxilində gedən hakimiyyət uğrunda mübarizə də müstəqil dövlət quruculuğunu ləngidir, mövcud olan ağır siyasi-ictimai vəziyyəti cilovlamağa mane olurdu. Belə bir dövrdə yeni ideologiyanın formalaşması prosesi gedirdi. İctimaiyyət arasında dövlətçilik tarixinə, milli tarixə maraq artmışdı. Türkçülük, demokratiya, milli-mənəvi dəyərlər, suverenlik və bu kimi məfkurələrin müstəqillik prinsipləri milli ideologiyanın əsasına çevrilirdi. İctimai-siyasi elmlər, eləcə də tarix elmi yenidən aktuallaşmışdı.

Ölkə mətbuatında tarixi keçmişimizi, dövlətçilik tariximizi əks etdirən

məqalələr çıxmağa başladı. Milli tarixə yeni yanaşma çap olunan kitablarda və məqalələrdə emosional şəkildə üzə çıxırdı. Bəzən ideallaşdırma və şişirtmələrə yol verilən, elmi yanaşmadan uzaq publisistik yazılar meydana çıxırdı. Bu təbii hal hesab olunmalıdır. Çünki belə xarakterli yazılar 70 il öz tarixindən, milli-mənəvi dəyərlərindən uzaq qalmış xalqı oyatmaq, onu öz soy-kökünə yenidən bağlamaq istəyindən yaranırdı.

XX əsrdə iki dəfə müstəqillik əldə etmiş Azərbaycanın tarixində ictimai-siyasi hadisələr təkrarlanırdı. Bir tərəfdən dövlət quruculuğu məsələləri, digər tərəfdən qonşu Ermənistanın ərazi iddiaları olduğu halda, daxildə də qarşıdurmaların baş verməsi Azərbaycanı parçalanma və süqut təhlükəsi qarşısında qoymuşdur.

XX əsrin birinci rübündə müsəlman Şərqində ilk demokratik respublika yaratmış Azərbaycan xalqının üçrəngli bayrağının yenidən dalğalanması ilk dəfə Naxçıvan Muxtar Respublikasında baş verdi. Heydər Əliyev Naxçıvan Ali Sovetinin sədri seçildiyi gündən Azərbaycan tarixi məsələlərini həyata keçirməyə başladı.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə 12-ci çağırış Naxçıvan MR Ali Sovetinin 1-ci Sessiyası öz işinə başlamışdır. Naxçıvan MSSR Ali Sovetinin Birinci Sessiyası Heydər Əliyevin sədrliyi ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MSSR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar qəbul etmişdir [8]. Məhz həmin gündən dövlət rəmzi olaraq ilk dəfə Naxçıvanda Azərbaycanın üçrəngli bayrağı qəbul edildi.

Növbəti tarixi əhəmiyyətli məsələ tarixi günlərin və bayramların qeyd olunması məsələsi idi. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında tarixi qərarını verir [8].

Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Daxili ictimai-siyasi proseslərin ağırlığı, Azərbaycan-Ermənistan müharibəsinin şiddətlənməsi ilə ölkə xaos içində idi. Xalqın təkidi ilə ikinci dəfə respublikaya rəhbərlik edən Heydər Əliyev dövlət quruculuğu məsələlərini həyata keçirməyə başladı. Ermənistanla gedən müharibəyə dünya ictimaiyyətinin diqqətini cəlb etmək və müvəqqəti atəşkəsə nail olmaq təxirəsalınmaz tədbirlərlə həyata keçirildi.

Daxili siyasi sabitlik əldə edildikdən sonra respublikanın elmi-ictimai həyatında canlanma baş verdi. Müstəqil Azərbaycan Respublikasının ziyalıları, elmi cəmiyyəti Heydər Əliyev tərəfindən ümumi mənafe üçün səfərbər edildi. İctimai-siyasi elmlər içərisində tarix elminin vacibliyi Ulu öndər tərəfindən xüsusilə diqqətə alındı. XX əsrin 70-ci illərində əsası qoyulmuş milli şüurun formalaşdırılması, gənclərin vətənpərvərlik tərbiyəsi,

milli-mənəvi dəyərlərin təbliği 90-cı illərdə daha da genişləndirildi.

Hakimiyyətə qayıdış böyük siyasi xadimi təkcə siyasi məsələlərin həlli qarşısında deyil, eləcə də elmi-ictimai problemlərin həlli qarşısında qoymuşdu. Dövlət quruculuğunun ağır illərində ölkənin qabaqcıl elm xadimləri ilə, alimləri ilə, gəncləri ilə görüşmək, onları ictimai-elmi tədbirlərə cəlb etmək təxirəsalınmaz iş olaraq həyata keçirildi. Elmlər Akademiyasında ziyalılarla (21 sentyabr 1993), respublikanın Ali Sovetində gənclərin nümayəndələri ilə (22 sentyabr 1993), Elmlər Akademiyası rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə (31 yanvar 1997) keçirilən görüşlər məhz bu qəbildən olan tədbirlərdəndir.

Məhz 90-cı illərdə təhsil sahəsində dünya təhsil sisteminə inteqrasiyanı hədəf alan yeni islahatlara başlanıldı. Bakı Dövlət Universitetinin Tarix fakültəsində yeni kafedralar açıldı. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda "Azərbaycan Xalq Cümhuriyyəti tarixi", "Qarabağ tarixi", "Azərbaycan diasporu" və s. şöbələr açıldı.

1994-cü ildə “Azərbaycan tarixi xəritələri” atlası [1] çap olundu. Bu atlasda Azərbaycanın qədim dövlətlərinin əraziləri verilmişdir ki, bu da tarix problemləri içərisində ən aktual məsələlərdəndir. Azərbaycanın qədim dövlətlərinin əraziləri, sərhədləri təhrif olunduqca ermənilər tərəfindən ərazi iddialarına imkan yaranmış, saxta xəritələr tərtib olunmuşdu.

Ölkə gənclərinin vətənpərvərlik tərbiyəsinin tariximizin tədris və təbliğindən asılı olduğunu hesab edən Ümummilli lider 1996-cı il fevralın 2-də Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda demişdir: “Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik. Azərbaycanlılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək, azərbaycanlılıq hissiyyatını özündə cəm etmək deməkdir. İndi müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycanlılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar.” [2].

Göründüyü kimi, Heydər Əliyev gəncləri tarixi keçmişimizlə fəxr etməklə yanaşı, dünya azərbaycanlılarının gücündən əzəli düşmənlərə qarşı ideoloji mübarizədə istifadə etməyə çağırmışdır. Forumda tarixi əhəmiyyətli çıxışı zamanı Heydər Əliyev Azərbaycan tarixinin müxtəlif problemlərini təhlil etməklə gəncləri müstəqil Azərbaycanın dövlət quruculuğunda fəal iştirak etməyə səsləmişdir. Eyniməqsədli çıxışı ilə Ümummilli lider 1999-cu

il martın 4-də Respublika Gənclərinin II Forumunda da vətənpərvərlik tərbiyəsi məsələlərini qabartmışdır. Azərbaycan xalqının gələcək inkişafında gənclərin rolunu yuksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hələ 1994-cü ildə 26 iyul Fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaratmaqla ölkə gənclərini təşkilatlandırmaq üçün ən önəmli addımı atmışdır.

Ermənistanla müharibə şəraiti, beynəlxalq miqyasda ideoloji mübarizə respublikada və xaricdə səmərəli elmi-ictimai işlər aparılmasını vacib edirdi. Ölkə tarixçilərinə bir çox tarixi məsələlərin araşdırılması işi tapşırıldı. Azərbaycanlıların soy-kökünü, Qarabağın, Naxçıvanın tarixini özündə əks etdirən tədqiqat əsərlərinin yazılmasını, beynəlxalq konfranslar təşkil edib tariximizi təbliğ etməyi vacib sayan Heydər Əliyev öz tərəfindən təxirəsalınmaz işləri həll etməklə ölkə tarixçilərinə köməyini əsirgəmirdi.

1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin qeyd olunması haqqında Fərman imzalanması atılmış mütərəqqi addımlardan oldu. Belə ki, yubiley tədbirlərinə hazırlıq planlarının hazırlanması və yubileyin beynəlxalq miqyasda qeyd olunması Azərbaycan xalqının qədim tarixinin, milli mədəniyyətinin təbliğinə xidmət etdi. Dünya dövlətlərinin elmi ictimaiyyətinin Cənubi Qafqaz tarixinə, həmçinin Azərbaycan tarixinə marağı artdı. Yubiley tədbirlərinin ardınca elmi konfranslar keçirilir, ayrı-ayrı tarixi mövzular həm Şərq, həm də Qərb alimləri tərəfindən müzakirə edilməyə başlandı.

Eyni elmi-ictimai fəallıq respublikanın daxilində də davam edirdi. 1998-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzalayan Ümummilli lider tarixin haqsızlığına son qoydu. Şərqdə ilk müstəqil demokratik respublika qurmuş Azərbaycan xalqının şanlı tarixinə hörmət və ehtiram dövlət səviyyəsində bəyan edildi. Bunun ardınca Heydər Əliyev elə həmin il martın 26-da Azərbaycanlıların Soyqırımı haqqında Fərman imzaladı. Fərmanda hər il mart ayının 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması qeyd olunmuşdur. Növbəti tarixi haqsızlığa, ədalətsizliyə, ayrı-seçkiliyə son qoyuldu. Erməni təcavüzkarlığının davam etdiyi XX əsrin sonlarında tarixi yaddaş təzələndi və tarixi cinayət öz huquqi qiymətini aldı.

1998-ci ildən başlanan hazırlıq işləri 2000-ci ilin aprel ayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq səviyyədə təntənə ilə qeyd olunması ilə nəticələndi. Bu hadisə Azərbaycan tarixi məsələlərinin ən önəmli halqası hesab olunur. Belə ki, dastanın yubiley tədbirlərinin təntənəli şəkildə qeyd olunması Heydər Əliyevin irsində tarix məsələlərinin həyata keçirilməsinin ən pik nöqtəsi sayıla bilər. Xüsusi proqram şəklində həyata keçirilən bu tarixi hadisə azərbaycanlıların Qafqazda yerli xalq olaraq

varlığının dünyaya bəyanı idi. Ulu öndərin irsində Azərbaycan tarixi məsələləri içərisində mühüm yer tutan "Kitabi-Dədə Qorqud" dastanının təntənəli yubiley tədbirlərini ümumən dünyaya səpələnmiş azərbaycanlıları bir hədəfə səfərbər etmək üçün çağırış da hesab etmək olar.

2000-ci il 29 dekabr tarixində Heydər Əliyev 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına və dünya azərbaycanlılarına müraciət ünvanladı. Ulu öndərin tarixi əhəmiyyət kəsb edən bu çıxışı bütün dünya azərbaycanlılarını birliyə çağırırdı. Azərbaycan xalqının çox qədim və zəngin mədəni irsə malik olduğunu vurğulayan Heydər Əliyev XXI əsrdə də yeni nailiyyətlər gözlədiyini bəyan etmişdir: "İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar" [3].

Bu müraciət Azərbaycan tarixinin çoxdan ehtiyac duyulan konsepsiyası kimi qiymətləndirilir. Heydər Əliyev qədim dövrlərdən XX əsrin sonuna qədər Azərbaycan tarixinin şərhini verərək Azərbaycan xalqının keçmişi ilə gələcək perspektivləri arasında əlaqəni peşəkarlıqla təhlil etmişdir. Növbəti ildə atılan addımlar sübut etdi ki, məhz Heydər Əliyev məlum müraciətini edən zaman artıq gələcək planlar hazırlanmışdır.

Dövlət quruculuğu ilə yanaşı Azərbaycan xalqının vahidliyinin qorunması, dünya azərbaycanlılarının ümumi düşmənə qarşı təşkilatlanması məsələsi də Ulu öndərin həll edilməsi vacib bilinən tarixi məsələlərindən biri olmuşdur.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci il mayın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmişdir.

2001-ci il noyabrın 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur. Birinci qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702

nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur [6].

Prezident İlham Əliyev də Ulu öndərin uzaq gələcəyə köklənmiş siyasətini uğurla davam etdirir. Dövlət başçısının 8 fevral 2006-cı il tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayı keçirildi. Bu mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım oldu. "Heydər Əliyevin xalqımızın birliyi ideyası dünya azərbaycanlılarının təşkilatlanmasına və diaspor işinin başlanmasına təkan verdi. 1991-ci il dekabrın 16-da Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında dünya azərbaycanlılarının birlik ideyasını dövlət siyasəti səviyyəsinə qaldırdı. O vaxtdan başlayaraq dünya azərbaycanlılarının birlik ideyası gündəmə gəlib. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunmağa başlayıb. 2001-ci ildə dünya azərbaycanlılarının ilk tarixi qurultayı keçirilib" [7]. cümlələri ilə nitqini başlayan cənab İlham Əliyev bütün sahələrdə Ümummilli lider Heydər Əliyevin ideya və ənənələrinə sadiq olaraq uğurlu davamçılıq siyasətinin aparıldığını qeyd edərək məhz onun özülü əsasında uğurlu inkişafın davam etdirildiyini vurğulamısdır.

Dünya azərbaycanlılarının I qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım, gələcəyə istiqamətlənmiş önəmli tədbirlərdən idi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi. Məhz bunu nəzərdə tutaraq Ümummilli lider Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayındакı nitqində demişdir: "Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir–ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimliyasiya prosesi də var. İnsanlar–mən azərbaycanlılar haqqında danışıram–gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyni əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada

yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq-öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir” [6].

Göründüyü kimi, Ulu öndər Dünya azərbaycanlılarını milli mənsubiyyətə, tarixi köklərə əsaslanan azərbaycançılıq ideologiyasına səslərkən ümumbəşəri dəyərlərə inteqrasiya etməyi də vacib saymışdır.

Qurultaydan bir neçə ay sonra, Azərbaycan Respublikasının Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, 2002-ci il dekabrın 27-də isə “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. [4].

Azərbaycanın müasir tarixinin təxminən 40 illik dövrü xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti ilə bilavasitə bağlıdır. 1970-ci illərdə-1980-ci illərin əvvəllərində o, SSRİ-nin geridə qalmış və perspektivsiz respublikalarından biri olan Azərbaycanı sürətli inkişaf yoluna çıxartdı. 1993-cü ildə müstəqil Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra isə ölkəni parçalanıb məhv olmaq, vətəndaş müharibəsi təhlükəsindən, anarxiya və hərc-mərclikdən xilas etdi. Hesab edirik ki, Fransanın "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin Heydər Əliyevə həsr etdiyi məqaləsindən bir parçanı burada xatırlatmaq yerinə düşərdi: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır" [5,s.67].

Heydər Əliyev təkcə dövlətin idarə edilməsi və siyasətlə məşğul olmurdu. Azərbaycanın ictimai, elmi-mədəni həyatı, bu sahələrin inkişafı məsələləri daim onun diqqət mərkəzində idi. Bu baxımdan onun ölkəmizin, xalqımızın tarixi ilə bağlı məsələlərə münasibəti xüsusilə seçilirdi.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, Kartoqrafiya fabriki, 2007, 55 s
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitqi. Bakı şəhəri, 2 fevral 1996-cı il / Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 5-ci kitab. Çıxışlar, nitqlər,

bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı, Azərnəşr,1997, 500 s.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı şəhəri, 29 dekabr 2000-ci il / Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı, Azərnəşr, 2010, 512 s.
4. Diasporla İş üzrə Dövlət Komitəsinin portalı.//www.diaspora.gov.az
5. Dünyanı heyran qoyan insan. Bakı, Azərnəşr, 2004, 376 s.
6. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı şəhəri, 9-10 noyabr 2001-ci il //Prezident Kitabxanası www.preslib.az
7. Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Bakı şəhəri, 16 mart 2006 //Prezident kitabxanasının portalı -www.preslib.az
8. Naxçıvan Muxtar Respublikası: 1969-1999. Naxçıvan, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, 1999, 216 s.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

**Nuriyev Sədulla Kənan oğlu**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**Nuriyev_31@mail.ru**

*Məqalədə Azərbaycanın görkəmli şəxsiyyəti Məhəmməd Əmin Rəsulzadənin müxtəlif illərdə yazdığı əsərlərdə Azərbaycan tarixi ilə bağlı məsələlər araşdırılmışdır. Azərbaycan tarixinin bir çox problemlərinə toxunan müəllif əsərlərində tariximizin qaranlıq səhifələrinə işıq salmağa çalışmışdır.*

***Açar sözlər:*** *Azərbaycan tarixi, Məhəmməd Əmin Rəsulzadə, Nizami, Səfəvi*

***History of Azerbaijan in the works of Mammad Amin Rasulzadeh***

*This article explores some issues of Azerbaijani history, which reflected in the works of Mahammad Amin Rasulzadeh, a great Azerbaijani statesman and political writer. The author tried to shed light on the dark pages of our history in his works referring to the many problems of Azerbaijani history.*

***Key words:*** *History of Azerbaijan, Mahammad Amin Rasulzadeh, Nizami Ganjavi, Safavids*

Azərbaycan Cümhuriyyətinin yaradıcılarından və Azərbaycan mühacirətinin liderlərindən biri olan Məhəmməd Əmin Rəsulzadə 1884-cü ilin 31 yanvarında Bakının Novxanı kəndində doğulmuşdur. Ömrünü Azərbaycanın istiqlalına, Azərbaycan türklərinin dirçəlişinə sərf edən M.Ə.Rəsulzadə müxtəlif vaxtlarda bir sıra elmi və publisistik əsərlər ərsəyə gətirmişdir. Öz əsərlərində müxtəlif məsələlərə toxunmuş bu böyük türk, eyni zamanda tarixi məsələləri də unutmamışdır.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadə kifayət qədər mütaliə etmiş bir şəxs olub, yaşadığı çətin dövrdə mümkün olan bir çox mənbələri, əsərləri oxumuşdur. Fars dilini gözəl bilməsi bu işdə ona çox kömək olmuşdu [11,38,44]. Təbii ki, M.Ə.Rəsulzadənin dövründə yerli mənbələr demək olar ki, yox səviyyəsində olduğu üçün onun istifadə etdiyi mənbələr əsasən Osmanlı, Rusiya və Avropa mənbələridir. Bundan əlavə yaşadığı dövrdə istər Avropada, istərsə də Şərqdə yazılmış bir çox tarixşünaslıq əsərləri ilə də tanış olmuşdur. Qeyd etmək lazımdır ki, vaxt tapanda M.Ə.Rəsulzadə Azərbaycan tarixi ilə bağlı arxiv materialları ilə də işləmişdir [11,37]. Məhz buna görədir ki, təhlil etdiyi hər bir məsələ barəsində həm Qərb, həm də Şərq ədəbiyyatlarından sitatlar gətirmişdir. M.Ə.Rəsulzadənin əsərlərində Azərbaycan Qacar dövləti haqqında olan məlumatlar da diqqət çəkicidir.

Azərbaycan dövlətində Əfşar sülaləsinin devrilməsindən sonra hakimiyyətə gəlmiş Azərbaycan türklərindən olan Qacar sülaləsi 1925-ci ilə qədər hakimiyyətdə olmuşdur [1,170,307]. Qacar sülaləsi zamanında Azərbaycan dövlətində lazımı islahatlar aparılmadığından dövlət zaman keçdikcə zəifləyirdi, eyni zamanda demokratik qüvvələr sıxışdırılır, monarxiya istibdadı artırdı. Müxtəlif millətlərdən təşkil edilən İranın Azərbaycana məxsus olduğunu vurğulayan M.Ə.Rəsulzadə regionda Azərbaycan türklərinin 1000 illik hakimiyyətini qeyd edir [10,68; 14,19]. Bəzən səhv olaraq şovinizm kimi qəbul edilən milliyyətçilik anlayışının, o cümlədən türk milliyyətçiliyinin nə olduğunu M.Ə.Rəsulzadə irsini araşdırmaqla bilmək mümkündür. Azərbaycan türklərinin böyük milliyyətçisi türklükdən yazsa da, nə farsların, nə də ərəblərin, o cümlədən digər xalqların tarixlərinə kölgə salmamış, onları obyektiv şəkildə öz əsərlərində qeyd etmişdir [14,54]. Bununla belə M.Ə.Rəsulzadə fars və türk millətinin etnopsixologiyasına da toxunmuş və maraqlı məlumatlar vermişdir. Azərbaycanlı türkün Şirazlı farsdan daha yurdsevər, daha dayanıqlı olduğunu yazan M.Ə.Rəsulzadə fikrinin təsdiqi üçün tarixi proseslərə müraciət etmişdi [14, 22-23]. Qacar sülaləsinin türk sülaləsi olmasını, Təbrizdə vəliəhd olarkən ətraflarında Azərbaycan türklərini birləşdirmələrini şərh etdikdən sonra Qacar şahlarının yarıtmazlığını da dəqiqlikdə əsərlərində ortaya qoymuşdu [14,66,84]. Diqqəti çəkən məqamlardan biri də M.Ə.Rəsulzadənin Qacar məmləkətində baş qaldırmış demoktratik hərəkata yardım etməsi, Heydər xan Bombaçı ilə birlikdə olmasıdır [10,24; 11,17].

Azərbaycan-türk tarixini şumerlərdən başlayaraq yaşadığı dövrə qədər qələmə alan M.Ə.Rəsulzadə maraqlı fikirlər ortaya qoymuşdur. M.Ə.Rəsulzadə haqlı olaraq şumerlərin turanlı, yəni türk olduğunu yazır [12,47]. Şumerlərin türk olması bir çox şərqşünas alimlər tərəfindən söylənilmişdir [18,41]. Midiya dövlətinə toxunan M.Ə.Rəsulzadənin bu məsələ haqqında fikirləri qarışıq olmuşdur. Belə ki, o, midiyalıların etnik mənşə baxımından hansı etnosa məxsus olmasını konkret söyləməmiş, bəzi əsərlərində midiyalıların olmasına şübhə ilə yanaşmışdır [13,28]. Bununla belə midiyalıların türk olması haqqında mövcud ehtimalları da qələmə almışdır [12,47;13,29]. Xüsusən "Əsrimizin Səyavuşu" adlı əsərində bir neçə dəfə "Turan Midiyası", "Medyada arilər yerli deyil, gəlmələr idi" fikirlərini ortaya qoyması, Azərbaycanı əski Midiyanın varisi kimi göstərməsi M.Ə.Rəsulzadənin hansı qənaətdə olmasını göstərir [10,27;13,29]. "Turanlı Tomrisin" Keyxosrovun başını kəsməsi faktı da M.Ə.Rəsulzadənin diqqətindən yayınmamışdır [13, 29]. Böyük mütəfəkkir Azərbaycan Cümhuriyyətinin yarandığı ərazi haqqında məlumat verərkən buranın əski Albaniya olduğunu qeyd etmiş, bu dövlətin Roma imperiyasına qarşı igidliklə direniş göstərməsini qürurla

qeyd etmişdir [12,46;13,34]. Maraqlıdır ki, Şumer, Midiya, Albaniya kimi qədim türk dövlətlərindən məlumat verən M.Ə.Rəsulzadə Atropatena haqqında cəmi bir cümlə ilə kifayətlənmiş, Azərbaycan adının yaranmasını da Atropatenaya bağlamışdır [12,46-47]. Bu məqamda azərbaycanlıların türk, yoxsa fars olması məsələsinə toxunulmuşdur. Mühacirətdə olduğu zamanda – 1925-ci ildə Azərbaycan Qacar sülaləsini devirib, regionda 1000 illik türk hakimiyyətinə son qoyan Pəhləvilər hakimiyyətə gəlmişdi. Pəhləvilərin anti-türk siyasəti zamanında, sonradan özünün də etiraf etdiyi kimi, sifarişli məqalələr yazan Əhməd Kəsrəvi Azərbaycan türklərinin, xüsusən Quzey Azərbaycanda yaşayan türklərin etnik mənşəyi barədə müxtəlif qeyri-elmi fikirlər ortaya gətirmişdi. M.Ə.Rəsulzadə də mühacirətdə yazdığı əsərlərində bu məsələyə toxunmuş və haqlı olaraq qəti şəkildə azərbaycanlıların türk olduğunu yazmışdır [13,50].

Bakını türk dünyasının mühüm mərkəzlərindən biri hesab edən M.Ə.Rəsulzadə bu şəhərin tarixinə dair də yazılar yazmışdır. Burada diqqət çəkən məqam Bakı isminin izahının verildiyi hissədir. Bu ismin izahını vermək üçün ədib Yaqut Həməvi, İbn Əl-Əsir kimi ərəb səyyahlarının əsərlərinə müraciət etmiş, eyni zamanda ərəb, fars və türk dillərində bu ismin izahını verməyə çalışmışdır [10,30-34]. Bakının tarixinə toxunmuş ikən burada yerləşən Qız qalası və hal-hazırda su altında qalan Bayıl qalası haqqında bəzi qeydlər aparmışdır. Qız qalasının hansı mədəniyyətə və xalqa məxsus olmasına şübhə ilə yanaşan müəllif bu qalanın Venesiya-İtalyan üslubunda tikildiyini yazır [10,33]. Təbii ki, M.Ə.Rəsulzadənin də əsərlərində bir sıra səhvlər mövcuddur. Bu səhvlərdən biri də Qız qalası ilə bağlı məlumatlardır. Ədibin Qız qalasının kimə məxsus olması məsələsinə şübhə ilə yanaşmasına səbəb isə onun türklərin buraya Səlcuqlar zamanında gəlməsini qəbul etməsi ilə bağlıdır. Milli konsepsiya əsasında Azərbaycan tarixşünaslığı problemlərini işləmək üçün lazımi imkanlar olmadığından ədiblərimiz Avropa, Rusiya, o cümlədən ərəb, fars və Osmanlı mənbələri ilə kifayətlənməli olmuşlar. Avropamərkəzçiliyin gücləndiyi bir dövrdə isə anti-türk siyasəti yeridilir və türklərin guya Ön Asiyaya gəlmə olduğuna dair bir sıra elmi əsərlər yazılırdı. Yerli mənbələrin olmaması üzündən M.Ə.Rəsulzadə də məcburiyyətdən Avropa mənbələri ilə kifayətlənməli olmuşdur. Əslində isə Azərbaycan qədimdən türk etnosunun məskəni olmuşdur. Məsələ burasındadır ki, Azərbaycana XII əsrdə Oğuz türklərinin bir hissəsi yenidən qayıtmışdır. XII əsr Səlcuq axınlarından öncə regionda oğuz və qıpçaq türkləri yaşayırdı ki, Səlcuq axınlarından sonra regionda oğuzların üstünlüyü artmışdı. Diqqət etsək Nizami Gəncəvi "İskəndərnamə" əsərində qıpçaq elini, qıpçaq gözəllərini tərifləmişdir [9,380]. E.ə 500-cü ildə Karyandlı Skulaks oğuzlardan Apşaros Potamos – Afşar və Kanıkos –

Kayı boyu haqqında məlumat vermişdir [1,53]. Oğuzlarla bərabər burada Qıpçaq türkləri də yaşayırdı. Həsən padşah Bayandurlunun (1453-1478) əmri ilə yazılmış “Kitabi Diyarbəkriyyə” adlı əsərdə Oğuz xandan öncə Azərbaycanda Qıpçaq xanın yaşaması və burada dəfn olunması qeyd edilir [15,20]. İslamaqədərki ərəb ədəbiyyatında, o cümlədən Aşa və Nabiağa kimi şairlərin şeirlərində türklərdən bol-bol bəhs edilir. Übeyd ibn Şəriyyə əl-Cürhuminin "Xəbərlər" əsərində (Vll əsr) yazılır ki, xəlifə I Müaviyə (661-680) Azərbaycanın işğalı çağında ordu komandanından Azərbaycan barədə nə bildiyini soruşmuş, o da "Azərbaycan ən qədimdən türklərin ölkəsidir və orada türklər yaşayır" - deyə cavab vermişdir. Eyni fikir 1126-cı ildə qələmə alınmış, müəllifi bilinməyən başqa bir tarixi əsərdə də təkrarlanır: "Azərbaycan ən qədimdən türklərin əlində olan bir ölkədir" [15,20].

Azərbaycan tarixi ilə yazılarında M.Ə.Rəsulzadə Babək məsələsinə də toxunmuşdur. Böyük mütəfəkkir hələ Stalin ilə birlikdə Moskvaya səfər edərkən Dərbənd yaxınlığındakı tədbirdə bu tarixi problemlə qarşılaşmışdı. O zaman “Vostok” jurnalın müdiri Mixayloviç Dərbənd divarlarının cənub-dan gələn təhlükəyə qarşı tikildiyinə dair məqalə ilə çıxış etmişdi. Bu tədbirdə iştirak edən Stalin isə M.Ə.Rəsulzadənin fikirlərini müdafiə etmişdi [13,25]. M.Ə.Rəsulzadə mühacirətdə yazdığı Çağdaş Azərbaycan tarixi əsərində Babəkin islamiyyətin düşməni olduğunu qeyd edir [13,94]. Babək haqqında yalnız ərəb mənbələrindən məlumat alması M.Ə.Rəsulzadənin Babəkə qarşı soyuq münasibət göstərməsinə səbəb olmuşdur. SSRİ zamanında Azərbaycan tarixinə vurulan yaralardan biri də Babək məsələsi ilə bağlıdır. Babək məsləsinə toxunan Rəsulzadə XIX əsrdə “babəki” sözünün dindarlar arasında dini ehkamlara laqeyd yanaşan biri kimi anlaşıldığını yazır [13,101]. XX əsrdə demokratik hərəkatın əsas fiqurlarından biri olan Şeyx Məhəmməd Xiyabani çıxışlarında özünün Babək nəslindən olmasını bildirirdi[1,249]. Bəndəli Cövzi “Min tarix əl-hərəkat əl-fikriyyə fi-İslam” adlı əsərində Babəkilərin İslama qarşı deyil, sadəcə azadlıq uğrunda mübarizə aparmalarını yazır [2,144]. İstəxri isə qeyd edir: “Xürrəmilərin yaşadıqları dağlıq hissədə isə çox çətin, keçilməz dağlar vardır. Babək oralı idi. Kəndlərində məscid var, onlar Quran oxuyurlar” [2,253].

M.Ə.Rəsulzadənin Azərbaycan-Türk dünyasının görkəmli şairi Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə yazdığı monoqrafiyası diqqətdən yayınmamalıdır. Nizami mövzusuna diqqətlə yanaşan ədib Nizamini türk şairi kimi görmüş və bunu isbat etmək üçün dil problemini də şərh etmişdir. Avropada uzun müddət bütün xristian dövlətlərinin latınca yazmasını göstərən mütəfəkkir Şərqdə də ərəb, daha sonra isə fars dilinin istifadə edilməsinin bir problem olmadığını qeyd edir [9,24-25]. Dil məsələsinə gəlincə A.Meyenin 1911-ci ildə söylədiyi fikrinə diqqət yetirmək lazımdır: "Dil tarixi şəraitdən

asılıdır və onun fiziki anlayış olan irqdən heç bir asılılığı yoxdur" [16,4]. Eyni zamanda Avropada fransız olmayanların belə fransızca yazmasını göstərib, şərqdə də fransız dilinin əvəzinə fars dilindən istifadə edildiyini göstərir [9,35]. Fikrini qüvvətləndirmək üçün Y.Bertelsdən də sitat gətirir. M.Ə.Rəsulzadə N.Gəncəvinin qəti şəkildə türk olduğunu bütün əsər boyu qeyd edir. Fikirlərini isbat etmək üçün çoxsaylı Şərq, o cümlədən Qərb mənbələrindən, həmçinin tarixşünaslıq əsərlərindən sitatlar gətirmişdir. Eyni zamanda, XII əsrdə Gəncənin etnik vəziyyəti haqqında məlumat verən İbn Əzrəq buranı türkmən şəhəri adlandırmış, Nəsəvi isə Arran və Muğanda “türklərin qarışqa kimi çox olduqlarını” qeyd etmişdir [9,47]. Nizaminin əsərlərini ciddi araşdırdıqdan sonra ədibin gəldiyi qənaət maraqlıdır: “gözəl ilə böyüyə türk, gözəllik ilə böyüklüyə türklük, gözəl və böyük sözə türkcə, gözəllik və böyüklük diyarına Türküstan” deyən şair heç zaman fars təəssübkeşi ola bilməz [9,58]. Türkcə şeirlər yazması və türklük ideyalarını rəğbətlə ifadə edən Mir Əlişir Nəvai belə öz ideyalarının qaynaq mənbəyini Nizaminin əsərlərindən aldığını göstərir [9,117]. Məhəmməd peyğəmbərin məktubunu cırdığı üçün Xosrov Pərvizin adını quduz qoymuş, Firdovsidən fərqli olaraq Daranı məğlub edən İskəndərin fars qanlı yox, rum qanlı olduğunu yazmış, eyni zamanda İskəndərə qələbəni qanın yox, ağılın qazandırdığını yazmış, zərdüştlüyü pisləmiş, peyğəmbərin vəsfini verərkən onun türk olduğunu bildirmiş, ədalətli dövləti türk nizamı kimi təsəvvür etmiş Nizami Gəncəvi təbii ki, qeyri-türk ola bilməzdi [4,53;9,323-325; 12,52]. Nizami Gəncəviyə böyük rəğbət bəsləyən M.Ə.Rəsulzadə SSRİ dövründə ona heykəl qoyulmasını müsbət qarşılamış, lakin Nizaminin əsərlərindən yabancı ideyaların yayılmasında istifadə edildiyi üçün rus rejimini pisləmişdir [13,82,94]. M.Ə.Rəsulzadə Nizaminin İskəndərnaməsi haqqında çox önəmli bir məsələyə də toxunmuşdur. Nizami Gəncəvinin iki hissədən – “Şərəfnamə” və “İqbalnamə” adlı bölümlərdən ibarət olan İskəndərnamə əsəri haqqında fikirlərinin müxtəlif olması ədibin bu məsələyə ciddi yanaşmasına səbəb olmuşdur. Belə ki, bəzi alimlərin qeyd etdiyinə görə bu iki bölüm ayrı-ayrı padşahlara həsr edilmişdir. Nizami “Xəmsə”sinin XIV əsr nüsxəsini tədqiq edən mütəfəkkir burada əsərin yalnız Atabəy Nüsrətəddin Əbu Bəkrə ithaf olunduğunu qeyd etmiş, V.Dəstgirdi və başqalarının fikirlərinin səhv olduğunu isbat etmişdi [9,90-91]. 1199-cu ildə tamamlanmış bir əsərin 1193-cü ildə vəfat etmiş şəxsə ithaf edilməsi və ya 1209-cu ildə vəfat etmiş şairin 1211-ci ildə taxta çıxmış hökmdara poema ithaf etməsi həqiqətdən uzaqdır [9,91]. Nizami “İskəndərnamə” poemasını özünün də yüksək qiymət verdiyi və bəyəndiyi Atabəy Nüsrətəddin Əbu Bəkrə ithaf etmişdir.

Mənakıbnamələrdə, Səfəvi və Osmanlı dövrü mənbələrində dəfələrlə türk olması göstərilən Çingiz xan, Hülaki xan və digərlərini M.Ə.Rəsulzadə

də türk etnosunun nümayəndəsi kimi qəbul etmişdir [9,37,40]. Mütəfəkkir Çingiz xanı Turan hökmdarı adlandırmışdır [13,50].

M.Ə.Rəsulzadənin türk tarixinin mühüm şəxsiyyətlərindən olan Şah İsmayıl Səfəvi və Nadir şah haqqında olan fikirləri maraqlıdır. Geniş şəkildə Osmanlı və Avropa mənbələrindən istifadə edən M.Ə.Rəsulzadənin Səfəvi sülaləsinə münasibətdə müəyyən qədər soyuq olması başa düşüləndir. Hakimiyyətə gəldikləri dövrdən Osmanlı dövlətinin Azərbaycan, o cümlədən Qafqaz və digər ərazilərlə bağlı iqtisadi və siyasi planlarına ciddi əngəl olan Səfəvi sülaləsi Osmanlı mənbələrində mənfi planda təsvir edilmişdir. Bununla belə, ədibin Şah İsmayıl Xətaiyə olan rəğbəti də diqqətdən yayınmamalıdır. Şah İsmayılı bir türk şairi kimi təsvir etməsi çox önəmlidir [13,29]. Xalis bir türk kimi qəbul etdiyi Şah İsmayılın türkcə şeirlər yazması, Osmanlılardan fərqli olaraq dövlət işlərində türk dilindən istifadə etməsini, aldığı qüvvətin türk tayfaları olmasını qeyd edən M.Ə.Rəsulzadə Şah İsmayılın sarayını Azərbaycan türk ədəbiyyatının yaradıcı bir ocağı və akademiyası hesab edirdi [12,53]. M.Ə.Rəsulzadə Şah İsmayıl zamanında mədəniyyətə göstərilən qayğıdan, Sultan Səlimin farsca məktubuna türkcə cavab verməsindən rəğbətlə bəhs edir [9,37; 12,51]. Müasir günümüzə kimi türk tarixini təhrif edənlər hələ də Şah İsmayıl başda olmaqla Səfəvi sülaləsinin etnik mənşəyi mövzusunda müxtəlif qarışıqlıqlar yaradırlar. Bəzilərinə görə Səfəvi sülaləsi kürd, bəzilərinə görə ərəb, bir çoxlarına görə isə türkdür. Səfəvilərin uzaq əcdadları haqqında yeganə məlumat mənbəyi olan Təvəkkül ibn Bəzzazın Səfəvilərin "Səfvət əs-Səfa" adlı əsəri məlum məsələdir ki, müxtəlif zamanlarda dəyişikliklərə uğramışdır [7,23]. Əhməd Kəsrəvi bu əsərdən istifadə edərək əsərdə keçən "əl-Səncani" kəlməsini "əl-Səncari" kimi dəyişdirməsi, Z.V.Toğanın isə bu fikri qəbul edib müdafiə etməsinin heç bir elmi əsası yoxdur [7,24]. Z.V.Toğan eyni zamanda ərəb mənşəli Rəvvadiləri kürdləşdirmişdir [7,25]. "Səfvət əs-Səfa"da Firuzşahın Səncan adlı yerdən gəlməsi göstərilir. XIII əsr ərəb coğrafiyaçısı Yaqub Həməvi Səncan adlı şəhərin Mərv yaxınlığında yerləşdiyini göstərir [7,24]. Səfəvilərin kürd mənşəli olmasını iddia edənlər daha da irəli gedərək bu sülalənin hakimiyyəti zamanında Şah İsmayıl və Şah Təhmasib tərəfindən özlərinin kürd olmasını gizlətmək naminə hər cür addım atıldığı fikri irəli sürülmüşdür. 3 milyon kv.km ərazini əhatə edən imperiyanı idarə bir sülalə kimin və nəyin qorxusundan öz mənşələrini gizlətməlidir?! Ə.Kəsrəvi, Z.V.Toğan bu sualın cavabını verməkdən çəkinmişlər. Çox təəssüf ki, Farüq Sümer və digər Türkiyə tarixçiləri də Səfəviləri kürd mənşəli hesab edir, eyni zamanda 21 cildlik türk tarixi haqqında olan geniş həcmli ensiklopediyada da Səfəvi sülaləsinin kürd mənşəli olması göstərilir [7,26;17,882]. Səfəvi sülaləsinin kürd mənşəli olmasını iddia edənlər Şeyx Səfiəddinin ulu babalarının "əl-kürdi əl Səncani" ləqəbini daşımalarını əsas gətirirlər. "Səfvət əs-Səfa"nın 1491 və 1508-ci il nüsxələri

üzərində aparılan təhlillər nəticəsində bu ləqəbin XV sonunda əsərə əlavə edildiyi sübut edilmişdir [7,28]. Məlum məsələdir ki, orta əsrlərdə hakimiyyətin qanuni olmasını təmin etmək məqsədilə hakim sülalələr özlərinin mənşəyini ya şah nəslinə, ya da peyğəmbər nəslinə bağlayırdılar. Səfəvi sülaləsi hakimiyyətdə olduğu müddətdə bütün rəsmi sənədlərdə özlərinin peyğəmbər nəslindən gəldiklərini isbat etməyə çalışmışlar. Son dövr tədqiqatlar bu iddiaların sadəcə siyasi məqsədlər naminə həyata keçirildiyini isbat etmişdir [7,22,29]. Səfəvi sülaləsinin türk mənşəli olması haqqında iddialar daha qüvvətlidir. Türk tarixini saxtalaşdıranlar nədənsə "Səfvət əs-Səfa"da Şeyx Səfiyə müraciət edilərkən istifadə edilən "cavan türk", "ey türkün piri" ünvanlarını görmək istəməmişlər. Şiraz üləmaları, o cümlədən Əmir Abdulla Şeyx Səfiyə müraciət edərkən ona "Ey gənc türk..." demişdi [2,45]. Gilanlı Şeyx Zahid Şeyx Səfini "cavan türk" adlandırmışdı [2,45]. Şeyx Səfi təkkə camaatına müraciət edərkən özünü "türkzadə", yəni türk oğlu adlandırır. Şeyx Səfinin "Qara Məcmuə" adlı əsərində yer alan türkcə şeirləri də diqqətdən yayınmamalıdır [2,45]. Digər türk böyükləri kimi Şeyx Səfinin öz süfrəsini yağmalatdırması da türk adəti idi [5,22]. V.V.Bartold, İ.P.Petruşevski, V.F.Minorski kimi görkəmli şərqşünaslar, Jan-Pol Ru, Jan-Lui Bake-Qramon, Anton Jozef Dierl və digər tarixçilər qəti şəkildə Səfəvi sülaləsinin türk mənşəli olması faktını isbat etmişlər [7,31-33]. Əgər Şah İsmayıl kürd nəslindən gəlmişdisə nəyə görə qədim türk inancının bəzi rituallarını hakimiyyəti dövründə icra etmişdi?! Mərv döyüşündən sonra Şibək xanın kəllə sümüyündən qədəh düzəltdirib, bu qədəhdə şərab içməsi qədim türk inancından qaynaqlanan bir adət idi [6,161]. İnsan ruhunun qanda və sümükdə olduğunu düşünən qədim türklər, düşmənin kəllə sümüyünə sahib olmaqla onun ruhuna sahib olacaqlarını düşünürdülər [6,160]. Səfəvi şahlarının miniatürlərdə boz atlı, atının quyruğu düyünlü təsvir edilməsi də türk simvolikasından və inancından doğan bir əlamət idi [6,209;17,855]. Yuxularında hakimiyyət simvollarını görmələri haqqında rəvayətlər Səfəvi mənbələrində də yer alıb ki, bu da türk inancından doğan bir əlamətdir [5,13,16]. Kiaksar Ninevanı tutmağa gedərkən ordusunda qadınlar apardığı kimi, Şah İsmayıl da Çaldıran düzündə döyüşə 6000 Azərbaycan türk qızını aparmışdı [18,68]. Bu əsnada Osmanlı dövlətində qadınlardan təşkil edilmiş Baciyani-Rum təşkilatı da diqqətdən yayınmamalıdır. Bayraqlarında günəş və aslan təsvirini əks etdirmək, döyüşdən öncə ovla məşğul olmaq, aslan, pələng, ayı ovlamaq, təqvim illərində 12 heyvanlı türk təqvimindən istifadə etmək, hökmdar taxtını tut ağacından hazırlamaq türklərə məxsus adətlərdir ki, Səfəvi sülaləsinin nümayəndələri hakimiyyətləri zamanı bu adətləri icra etmişlər [6,222,265].

Türk dünyasının son fatehi Nadir şahın dini islahatlarını, mollaları sıxışdırmasını, dövləti yenidən birləşdirib, qüvvətləndirməsini M.Ə.Rəsulzadə rəğbətlə təsvir etmişdir. Xüsusən türk dünyasında dini ayrı-seçkiliyin aradan

götürülməsi naminə atdığı addımlara və Rusiyanı Qafqazdan qova bildiyinə görə Nadir şaha xüsusi rəğbət bəsləmişdir [12,57; 14,55].

M.Ə.Rəsulzadə çətin həyat yaşasa da, mühacirətdə olduğu illərdə belə çarəsizlik göstərməmiş Azərbaycanın tarixi həqiqətlərini dünaya çatdırmaq naminə müxtəlif dillərdə məqalələr yazmışdır. Bütöv Azərbaycana gedən yolda M.Ə.Rəsulzadə, N.Yusifbəyli, N.Şeyxzamanlı, F.Xoyski və s. şəxsiyyətlərimiz Azərbaycan gəncliyi üçün ən yaxşı örnəkdir. M.Ə.Rəsulzadə irsini öyrənmək, bu ideyaları yaşatmaq, tariximizə sahiblənmək hər bir Azərbaycan gəncinin vəzifəsidir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan tarixi. Mehman Abdullayevin redaktəsi ilə. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 s.
2. Bayramlı C. Babək və Hürrəmilik (yalanlar və gerçəklər). Bakı: Elm və Təhsil, 2014, 440 s.
3. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk Qızılbaş əyanlarının rolu. Bakı: "Avropa", 2015, 348 s.
4. Əliyarlı S. Məhəmməd Əmin Rəsulzadə və tarix. // Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar: M.Ə.Rəsulzadənin 120 illiyinə həsr edilmiş elmi konfransın materialları, 28 yanvar 2014-cü il. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2014, s. 46-60.
5. Gündüz T. Son Kızılbaş Şah İsmail. İstanbul: Yeditepe yayınevi, 2014, 175 s.
6. Nəcəf Ə.N. İnanc Yaddaşı (köklər və tarixlər). Bakı: "Qanun Nəşriyyatı", 2014, 352 s.
7. Nəcəfli T. Səfəvi-Osmanlı münasibətləri. Bakı: "Turxan NPB", 2014, 516 s.
8. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
9. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Təknur, 2011, 520 s.
10. Rəsulzadə M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). Bakı: Qanun, 2013, 160 s.
11. Rəsulzadə M.Ə. Bir türk milliyətçisinin Stalinlə ixtilal xatirələri. Bakı: Qanun, 2010, 132 s.
12. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s.
13. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.
14. Rəsulzadə M.Ə. İran türkləri. Bakı: Təknur, 2013, 100 s.
15. Tuncay B. Azərbaycan İmperatorluğu. Azərbaycanın dövlətçilik tarixinə yeni konseptual yanaşma. Bakı: 2012, 327 s.
16. Tuncay B. Azərbaycan türklərinin islamaqədərki dili və ədəbiyyati (şifahi və yazili ədəbi nümunələr əsasında), Bakı, Elm və təhsil, 2015, 288 s.
17. Türkler. Orta çağ. 21-ciltte, 6-cı cilt. Ankara, Yeni Türkiye Yayınları, 2002, 1654 s.
18. Zehtabi. M.T. İran türklerinin eski tarihi. İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2010, 272 s.

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ YARANMASI

**Yusifli Aytəkin Çingiz qızı**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**yusifliaytekin@gmail.com**

***Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.***

***Heydər Əliyev***

*Məqalədə müstəqil Azərbaycan dövlətinin əsas ideyası olan, bizi həmrəyliyə səsləyən Azərbaycançılıq ideologiyasını mahiyyəti, yaranması və tarixi inkişaf dövrü,Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ideologiyanın əhəmiyyəti, Heydər Əliyevin bu ideologiyanın inkişafında rolu, Dünya Azərbaycanlılarının I qurultayı və Heydər Əliyevin qurultaya münasibəti ,günümüzdə də prezidentimiz İlham Əliyevin göstərdiyi qayğı öz əksini tapmışdır.*

***Açar sözlər**: Azərbaycançılıq ideologiyası, milli ideologiya, milli birlik, Dünya azərbaycanlılarının qurultayları, həmrəylik*

***Formation of Azerbaijanism ideology***

*The notion of Azerbaijani ideology that calls us to solidarity being core idea of independent Azerbaijan and its foundation and historical period of development, also its importance as a national ideology during Azerbaijan Democratic Republic explored in the article. Moreover, Haydar Aliyev`s role in development of this ideology, first conference of World Azerbaijanis and Haydar Aliyev`s attitude to this conference, and president Ilham Aliyev`s care in ourdays were represented in the article.*

***Keywords**: Azerbaijani ideology, conferences of World Azerbaijanis, national ideology, national solidarity*

**Giriş. Azərbaycançılıq ideologiyasının mahiyyəti.** "Azərbaycançılıq" - vahid və bölünməz vətən, birlik, həmrəylik və tolerantlığı özündə birləşdirir. Bu ideologiya Azərbaycanı sevmək, onun uğrunda çalışmaq və təəssübünü çəkmək, həqiqətlərini yaymaq, qüdrətli dövlət olması naminə çalışmaq, öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq deməkdir. Akademik Ramiz Mehdiyev "Azərbaycançılıq- milli ideologyyanın kamil nümunəsi" əsərində qeyd edir ki, azərbaycançılıq xalqımızın

çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir (6, səh.81). Bu, ilk növbədə, real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Azərbaycançılıq milli-mənəvi varlığının ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq milli dövlət ideologiyası kimi Konstitusiya əsaslarına söykənən, insanlarda vətəndaşlıq, vətənpərvərlik, loyallıq və vətəndaş məsuliyyətini formalaşdıran, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir.

Məlumdur ki, ideologiya cəmiyyətdə milli birliyi,ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini təsdiqləmək üçün yaradılır. O, xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən təfəkkür sistemini əhatə edir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır**.** Azərbaycançılıq məfkurəsi xalqımızın, dövlətimizin birliyinə, vəhdətinə, mədəniyyətimizin, tariximizin yaşamasına, yayılmasına, təbliğ edilməsinə böyük təkan verir. Əslində azərbaycançılıq məfhumu bütün dəyərlərimizi özündə ehtiva edir. Məlumdur ki, azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən bir milli ideologiyadır və hər birimiz bu ideologiyaya xidmət etməliyik. Milli, dini, irqi ayrıseçkiliyə qarşı olan azərbaycançılıq ideologiyası böyük tarixi mərhələlərdən keçərək günümüzə qədər gəlib çatıb. Azərbaycançılıq deyəndə bu yalnız kiçik bir arealı əhatə etmir, o bütün dünya azərbaycanlılarını ətrafına toplayır. Azərbaycançılıq ideologyyası ilə bağlı çoxsaylı məqalə və əsərlərin müəllifi olan Nizaməddin Şəmsizadə "Azərbaycançılıq ideologiyası" əsərində yazır ki, "Azərbaycançılıq coğrafi anlayış deyil, o daha çox siyasi anlayışdır" (4, səh.6). Bu fikirdən belə nəticə çıxara bilərik ki, azərbaycançılıq tək Azərbaycanda yaşayan xalqların həmrəyliyi ilə məhdudlaşmır. Azərbaycandan kənarda yaşayan soydaşlarımız və hətta milliyyətindən asılı olmayaraq, Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. İdeologiya

olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir. Azərbaycançılıq müstəqil və bənzərsiz Azərbaycanı sivilizasiyalı dövlətlər sırasına çıxaracaq bir yoldur.

**Azərbaycançılıq ideologiyasının formalaşması, tarixi inkişaf dövrü.** Azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi. Görkəmli şərqşünas M.Mahmudov "Xətib Təbrizi" monoqrafiyasında X.Təbrizinin dilindən yazır: "İki il idi ki, onun (yəni böyük filosof Əbu-l-Əla əl –Məərrinin) yanında idim və ölkəmin adamlarından heç kimi görməmişdim, qəflətən Təbrizli qonşularımdan bir nəfər namaz qılmaq üçün məscidə daxil oldu. Mən onu görüb tanıdım və sevincimdən halım dəyişdi. Əbu-l-Əla mənə dedi: "Sənə nə olmuşdur? " Mən ona cavab verdim ki, ölkəmin adamlarından iki il idi heç kəsi görmürdüm, indi bir qonşumu gördüm. Dedi: "Dur onunla danış"… Mən durdum və onunla Azərbaycan dilində çoxlu danışdım və istədiklərimin hamısı haqqında ondan soruşdum. Mən qayıdıb onun (Əbu-l-Əlanın) yanında oturduqda məndən soruşdu: "Bu hansı dildir?" Dedim: "Bu Azərbaycan əhalisinin dilidir". Dedi: "Mən bu dili bilmirəm və başa düşmürəm, lakin sizin danışdıqlarınızın hamısını əzbərlədim. Sonra o, qonşumla mənim danışdıqlarımızın hamısını artırıb əksiltmədən olduğu kimi təkrar etdi. Mən onun başa düşmədiyi bir şeyi necə əzbərlədiyinə son dərəcə təəccüb etdim" (5, səh.72). Qeyd etdiyimiz bu hadisə XI əsrdə baş vermişdir. Əgər Azərbaycan dili hələ o vaxtdan məhşur və kamil idisə, deməli dilimizin işlənmə tarixi XI əsrdən daha əvvəllərə təsadüf edir. Hansı ki, bu da birbaşa azərbaycançılıq ideologiyasının yaranma tarixindən xəbər verən amillərdən biri kimi qəbul oluna bilər.Azərbaycançılıq ideyasını onun ilkin təzahürlərinin əks olunduğu "Kitabi-Dədə Qorqud" boylarından başlayaraq, Şah İsmayılın yaradıcılığından ana xətt kimi keçən, XIX əsrin sonu - XX əsrin əvvəllərində fəaliyyət göstərmiş milli maarifçilərin yaradıcılığına qədər davam edən uzun bir tarix çərçivəsində ictimai fikir

tarixi üzərində izləmək mümkündür. XIX əsrin ikinci yarısında güclənən bu proses ictimai-siyasi fikir tarixində Mirzə Fətəli Axundzadəni, Seyid Əzim Şirvanini, Qasım bəy Zakiri, Həsən bəy Zərdabini, Əli bəy Hüseynzadəni, Əhməd bəy Ağaoğlunu, Cəlil Məmmədquluzadəni və nəhayət, mollanəsrəddinçiləri meydana gətirdi. Azərbaycançılıq ideyasının bütöv şəkildə təqdim edilməsini biz Cəlil Məmmədquluzadənin 27 noyabr 1917-ci ildə "Molla Nəsrəddin" jurnalının 24-cü sayında dərc olunmuş "Azərbaycan" məqaləsində görə bilərik. Məqalədə Azərbaycan, onun ərazisi, dili bitkin şəkildə ifadə edilmişdir. Azərbaycançılıq ideologiyası Şərqdə ilk müstəqil Cümhuriyyətin yaradıcılarından biri olan Məhəmməd Əmin Rəsulzadə tərəfindən Azərbaycan qayəsi şəklində siyasət meydanına gətirildi. O, milli istiqlal dövrünü Müsavat dövrü kimi deyil, Azərbaycan qayəsi dövrü kimi adlandıraraq, İranda çıxan "İrani-nou"qəzetində yazdığı məqalələrinin birində ətraflı şəkildə əsaslandırmışdır.1914-cü il sentyabrın 16-da şair, yazıçı və jurnalist Əlabbas Müznibin (1882-1938) redaktorluğu ilə ayda iki dəfə nəşr edilən ədəbi-ictimai, iqtisadi, tarixi və siyasi jurnal olan "Diriliyin" birinci nömrəsi çapdan çıxdı. M.Ə.Rəsulzadənin "Dirilik nədir?" adlı baş məqaləsi jurnalın ideya istiqamətini müəyyənləşdirirdi və xalqımızı milli oyanışa çağırırdı. O, bu jurnalda çap etdirdiyi "Milli dirilik" başlığı altındakı baş məqalələrdə "Azərbaycan qayəsi"ni yayırdı (2, səh.6). Azərbaycançılıq ideologiyasının ilk siyasi hadisəsi isə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması oldu. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışında M.Ə.Rəsulzadə demişdir: "Biz o zaman ki, bizim üçün ən yaxşı məsələni – "Azərbaycan muxariyyəti"ni müdafiə edirdik, biz onda sağ və sol tərəfdən amansız tənqidə məruz qalmışdıq. Sağdan bizə deyirdilər ki, azərbaycanlılıq şüarı ilə siz müsəlmanları parçalayırsınız, türkçülük bayrağı qaldırmaqla – Allah yıxsın – siz İslamın əsasını sarsıdırsınız. Soldan isə bizi məzəmmət edirdilər ki, Azərbaycan muxtariyyətini tələb edərək biz vahid demokratik cəbhəni yarırıq. "Müsavat" partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır. Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir… Bir dəfə yüksələn bayraq bir daha enməz!"(3, səh.56).

M.Ə.Rəsulzadənin sözlərilə desək, xanlıqlar halında çarlığın hakimiyyəti altına düşən Azərbaycan Birinci Dünya müharibəsi nəticəsində çökən Rusiya imperatorluğunun zülmü altından siyasi bir bütün, bir millət, bir dövlət olaraq qalxdı… 23 aylıq ömür sürməsinə, yenidən rus işğalına məruz qalmasına baxmayaraq, Cümhuriyyətimiz tarixə və dünya siyasi xəritəsinə əbədi olaraq "Azərbaycan" adını yazdı, "azərbaycançılıq şüarı"nı sonrakı nəsillərə ötürdü. Cümhuriyyətin ideyaları bütün dünyanı dolaşdı,

dünya azərbaycanlılarını birləşdirən əvəzsiz dəyərlərə çevrildi. Bu gün də belədir. Bunu yaşadanlar isə, başda M.Ə.Rəsulzadə olmaqla, sovet işğalı nəticəsində dünyaya səpələnən fədakar mühacirlərimiz oldu.

Azərbaycançılıq ideologiyası türkçülük, islamçılıq və müasirlik kimi üç üzvi tərkib hissədən ibarətdir. Hər hansı milli ideologiya o zaman kamil hesab oluna bilər ki, xalqın ruhundan, mentalitetindən,"tərcümeyi-hal"ından irəli gəlsin. Azərbaycançılıq ideologiyası bu baxımdan, həqiqətən, müasir dünyanın ən mükəmməl ideologiyalarından biridir. Lakin Azərbaycançılığın birinci tərkib hissəsi olan türkçülük 30-cu illərin ortalarından etibarən qadağan olundu və qadağaların miqyası o həddə çatdı ki, Azərbaycan xalqının birbaşa tarixi mənşəyinə müdaxilə edildi; israrla "sübuta"çalışdılar ki, Azərbaycan xalqı türk yox, İran mənşəlidir, sadəcə olaraq, orta əsrlərdə Azərbaycana gələn köçəri türklərin dilini qəbul etmişdir.Böyük bir xalqın etnik tarixinin saxtalaşdırılması prosesi həm sovet, həm də İran Azərbaycanında eyni formada aparılırdı. Belə ki, siyasi rejimlər həm xalqı öz etnik- mədəni,tarixi kökündən məhrum etmək, həm də Azərbaycan ziyalılarını (siyasi elitanı) aradan götürmək üçün idarə edilməsi asan olan kütlələr formalaşdırmağa daha çox üstünlük verirdilər. Azərbaycançılığın ikinci tərkib hissəsi olan İslam dininə münasibət bundan da acınacaqlı idi. Sovetlər hər bir xalqın əsas mənəvi göstəricilərindən biri olan dini hakimiyyətə gəldikləri ilk gündən qadağan etdilər. Müasirlik məsələsinə gəldikdə isə burada da böyük siyasi-ideoloji məhdudiyyət qoyuldu. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından keçən 80 ili xarakterizə edərək, bir çox mərhələləri nəzərə çatdırmaqla Azərbaycançılıq ideologiyasının davamlı olduğunu qeyd edirdi: Birinci-1918-1920-ci illər, AXC-nin fəaliyyəti; ikinci-1920-1922-ci illər, Azərbaycan SSR-nin hakimiyyəti; üçüncü-1922-1991-ci illər, Azərbaycanın totalitar rejim, kommunist ideologiyası şəraiti və Azərbaycan SSR-nin Sovetlər İttifaqında başqa müttəfiq respublikalarla birgə fəaliyyəti; dördüncü-1991-ci ilin dekabrından başlayaraq Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən dövr.

**Heydər Əliyev və Azərbaycançılıq ideologiyası.** 1991-ci ildə Azərbaycan yenidən müstəqlliyini əldə etdikdən sonra azərbaycançılıq ideologiyası Ermənistanın işğalçılıq siyasətinə qarşı burada yaşayan bütün xalqları öz ətrafında birləşdirən möhkəm sipərə çevrildi. Siyasi mütəfəkkir kimi Heydər Əliyevin ümummilli lider mövqeyinə yüksəlməsi ilə "Türkləşmək, islamlaşmaq, müasirləşmək!" ideyası əsasında formalaşan azərbaycançılıq ideologiyasının tarixində yeni dövr başladı. Ümummilli lider Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonar Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, onun siyasi və iqtisadi

əsaslarını yaratmaqla yanaşı, Azərbaycan cəmiyyətinin inkişafının ideya təməli olan azərbaycançılığı dövlət ideologiyasına çevirdi. Azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) azərbaycançılığı dövlətçiliyə tətbiq etdi və bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Azərbaycançılıq ideologiyasının fəlsəfi təlim kimi sistemə salınması və müstəqil Azərbaycan dövlətçiliyinə tətbiqi Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyevin ən böyük xidmətlərindən biri ölkədə azərbaycançılıq ideologiyasının yaranmasını və möhkəmlənməsini, onu bütün dünyada yaşayan 60 milyon azərbaycanlının milli ideyasına, ümummilli ideologiyasına çevirməsi oldu.

Görkəmli dövlət xadimi Heydər Əliyevin yeni tarixi dövrdə apardığı müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında məhz azərbaycançılıq ideologiyası dayanırdı. O, daim vurğulayırdı ki, azərbaycançılıq ideology-yası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Heydər Əliyev dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. Azərbaycançılıq ideyalarının yayılması və bütün dünyada yaşayan azərbaycanlıların birləşdirici bir amalına çevrilməsi yolunda milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 9-10 noyabr 2001-ci ildə Bakı şəhərində keçirilmiş Dünya azərbaycanlılarının I qurultayının xüsusi rolu olmuşdur. Bu qurultayda Azərbaycan Respublikası vətəndaşlarını və dünyanın 36 ölkəsində yaşayan azərbaycanlıları təmsil edən, azərbaycanlıların milli elitasını təşkil edən 1105 nümayəndə və 906 qonaq iki gün azərbaycançılığın bütün aspektlərini müzakirə etmiş, dünya azərbaycanlılarının birliyinin nəzəri və praktiki məsələlərini təhlil etmişlər.

Dünya azərbaycanlılarının I qurultayı bütün Dünya azərbaycanlılarının ana vətəni Azərbaycana, ana dilinə, milli mənsubiyyət hissinə bağlılığını əyani şəkildə sübut etməklə yanaşı, eyni zamanda, onların milli şüurunun, özünüdərkinin güclənməsində mühüm rol oynadı. Xaricdə yaşayan

soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması və azərbaycançılıq ideyalarının onların düşüncələrinə hakim kəsilməsi işində bu qurultayın rolu, sözün həqiqi mənasında, tarixi idi.

Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirdi. Milli həmrəyliyin möhkəmlənməsi üçün azərbay-cançılılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Güclü Azərbaycan diasporu müstəqil Azərbaycanın dayağıdır. 2001-ci ilin 10 noyabrında Bakıda Dünya azər-baycanlılarının I qurultayında Ümummilli Lider Heydər Əliyev geniş nit-qində Azərbaycan dövlətinin əsas ideyasından danışarkən qeyd edirdi ki: “Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin də vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır” (7, səh.128).

**Nəticə. Azərbaycançılıq ideologiyası günümüzdə.** Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Bu gün Heydər Əliyev ideyalarının, onun siyasətinin əzmkar davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Prezident İlham Əliyev xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərə xüsusi diqqət ayırır, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində xaricdəki soydaşlarımızı daha fəal olmağa çağırır. Azərbaycançılıq ideologiyasının xaricdə yaşayan soydaşlarımızın mənəvi-siyasi birliyinin əsas istinad nöqtəsinə çevrilməsi istiqamətində məqsədyönlü iş aparır. Bu baxımdan, dövlət başçısının sərəncamı əsasında 2006-cı il martın 16-da və 2011-ci il iyulun 5-də Dünya azərbaycanlılarının II və III qurultayının keçirilməsini xüsusi vurğulamaq lazımdır. Qurultaylar xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmlənməsi, eləcə də dünya azərbaycanlıları arasında birlik və həmrəyliyin təmin edilməsində irəliyə doğru böyük bir addım oldu. II və III qurultaylarda İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçildi. Keçirilmiş qurultaylar ortaq tarixi keçmişə malik olan xalqların həmrəyliyinin təşkil edilməsində, xaricdəki həm-vətənlərimizin milli birlik ideyası ətrafında birləşməsində, onların daha

mütəşəkkil təşkilatlanmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatının qarşısının alınması prosesində yeni mərhələyə qədəm qoyulmasında böyük rol oynadı.

Günümüzdə də Müstəqil Azərbaycanın ümummili ideologiyasına çevrilən azərbaycançılıq həm də dünyanın müxtəlif bölgələrinə səpələnən soydaşlarımızı öz ətrafında birləşdirən önəmli faktora çevrilib. Bir sözlə azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan bütün xalqları öz ətrafında birləşdirərək güclü və qüdrətli demokratik dövlət quruculuğuna öz töhfəsini verməkdədir. Azərbaycanlıların dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən Azərbaycançılıq ideologiyası xalqda özünəinamı gücləndirir. Ürəkdən inanırıq ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət müstəqil Azərbaycanın yaxın perspektivdə inkişaf etmiş ölkəyə çevrilməsi ilə nəticələnəcək, hər bir azərbaycanlı Vətənimizin uğurları ilə qürur duyacaqdır.

**Ədəbiyyat siyahısı:**

1.Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Müraciəti. Bakı, "Azərbaycan" qəzeti, 28 dekabr 1996

2.M.Ə.Rəsulzadə “Dirilik nədir?”. Bakı,Yenisey Bilik Evi, 2014, s.125

3.M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Bakı,Gənclik, 1991, s.111

4.Nizaməddin Şəmsizadə. Azərbaycançılıq. Bakı, «Nurlar» NPM, 2006, s.192

5.Nizaməddin Şəmsizadə. Azərbaycançılıq Dünya azərbaycanlılarının milli ideologiyasıdır. “Xalq qəzeti”, 10 aprel 2006

6.Ramiz Mehdiyev. Azərbaycançılıq - milli ideologiyanın kamil nümunəsi. “Azərbaycan“ , 9 noyabr, 2007 (Tam mətinli elektron materiallar məcmuəsi.)

7.Səlahəddin Xəlilov. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Azərbaycan diasporu.Tammətinli elektron materiallar məcmuəsi. Bakı, 2005, s.767

## III BÖLMƏ. AZƏRBAYCAN MÜHACIRƏTİNİN TARİXİNDƏN

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN AXC-ABŞ MÜNASIBƏTLƏRİNİN QURULMASINDA XİDMƏTLƏRİ

**Abbasova-Quliyeva Aytən Zabil qızı**
**Tarix fakültəsi, dissertant**
**aytan.abbasova-quliyeva@mail.ru**

*Məqalədə Azərbaycan mühacirətinin görkəmli şəxsiyyətlərindən biri, ömrünün çox hissəsini Azərbaycan məfkurəsi və azadlıq hərəkatı yolunda sərf etmiş Əlimərdan bəy Topçubaşovun Paris sülh konfransı çərçivəsində müstəqil Azərbaycanın beynəlxalq sistemdə tanıdılması, Amerika Birləşmiş Ştatlarının Azərbaycan Xalq Cümhuriyyəti ilə qarşılıqlı münasibətlərinin qurulması, Amerikada Azərbaycan xalqının maraqlarını müdafiə edə biləcək nümayəndəliyin yaradılması istiqamətində fəaliyyəti əks olunmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Amerika Birləşmiş Ştatları, Əlimərdan bəy Topçubaşov, Paris sülh konfransı, diaspora, mühacirət*

***The activity of the prominent representative of the Azerbaijan emigration, Alimardan bey Topchubashov in the creation of the ADR-USA bilateral relations***

*The article clarifies the role of Alimardan bey Topchubashov-prominent statesman of the Azerbaijan emigration, who expended a great part of his life on the way of Azerbaijan ideology and independence movement in the Versailles Peace Conference, his activity for the recognition of independent Azerbaijan in international arena, his impact on the ground of the creation of delegation, which would be able to represent the interests of Azerbaijan nation in the United States, as well as the creation of bilateral relations between the Azerbaijan Democratic Republic and the United States of America.*

***Key words:*** *Azerbaijan Democratic Republic, the United States of America, Alimardan bey Topchubashov, Versailles peace conference, Diaspora, emigration*

Azərbaycan tarixinin şanlı səhifələrindən biri, müsəlman Şərqində ilk müstəqil, demokratik respublikanın əsasının qoyulması ilə yaddaşlara həkk olunan 1918-1920-ci illər həm də xarici və daxili siyasətdə, beynəlxalq münasibətlər sistemində müvəffəq fəaliyyətləri ilə seçilən görkəmli şəxsiyyətləri ilə məşhurdur. Bu cür siyasi xadimlərdən biri də 70 illik ömür yolunun 50 ilini Azərbaycanın müstəqilliyinin əsasının qoyulmasına, daxili və xarici siyasətinin formalaşdırılmasına, onun beynəlxalq aləmdə tanınmasına həsr etmiş Əlimərdan bəy Topçubaşovdur. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri olmuş Ə.Topçubaşovun siyasi fəaliyyətinin əsas dövrü vətəndən kənarda keçmişdir. Müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, onun Paris sülh konfransında təmsil olun-

ması, xarici dövlətlərlə, xüsusilə Amerika Birləşmiş Ştatları ilə diplomatik əlaqələrin qurulması məhz Əlimərdan bəy Topçubaşovun əvəzolumaz xidmətləri ilə əlaqədar olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycanın maraqlarını təmsil edəcək nümayəndəliklərin və diasporaların yaradılması və onların fövqəldövlətlərin siyasi arenasında yeni yaranmış müstəqil dövləti təmsil etməsi cəhdləri də məhz Ə.Topçubaşova məxsusdur. Əlimərdan bəyin Paris sülh konfransı əsnasında fəaliyyətinin bu baxımdan araşdırılması daha çox aktuallıq kəsb edir.

Qeyd etmək lazımdır ki, hələ 1918-ci ilin noyabrında Azərbaycan höküməti müttəfiq dövlətlərin Ənzəlidəki komandanı general V.Tomsonla görüş zamanı sülh konfransında iştirak edəcəklərinə dair təminat almış, daha sonra Böyük Britaniya hökümətinin rəsmisi C.Miln Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransına dəvət olunduğunu bildirmişdi. Beləliklə, F.Xoyskinin rəhbərlik etdiyi üçüncü hökümət 1918-ci il, dekabrın 28-də Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini təsdiq etmişdi. Nümayəndə heyətinə rəhbərlik Əlimərdan bəy Topçubaşova tapşırılmış və sədr müavini Məmməd Həsən Hacınski təyin olunmuşdu. Bundan əlavə, nümayəndə heyətinə Əhməd bəy Ağaoğlu, Əkbərağa Şeyxülislamov, Mir Yaqub Mehtiyev, Ceyhun bəy Hacıbəyli və Məmməd Məhərrəmov da daxil edilmişdi [4,səh.154].

Beləliklə, 1919-cu il yanvarın 20-də Azərbaycan nümayəndə heyəti İstanbula çatmış, bu dövr ərzində Ə.Topçubaşov burada böyük işlər görmüş və hətta 11 yanvar tarixində Osmanlı sultanı tərəfindən qəbul edilmişdi. Hələ yanvarın 6-da Əlimərdan bəy Birləşmiş Ştatların diplomatik nümayəndəsi Heyklə görüşmüş və ondan V.Vilsonun "14 maddə"sinin Azərbaycana da şamil edilməsinə köməklik göstərməsini xahiş etmişdi [5,səh.97-100].

Azərbaycan Xalq Cümhuriyyəti və onun Parisdə olan nümayəndələri ABŞ-la iqtisadi və siyasi əlaqələr yaradılmasına, xüsusilə Birləşmiş Ştatlar tərəfindən tanınmağa böyük səy göstərirdilər. Bu marağın əsasən iki səbəbi var idi. Birincisi ondan ibarət idi ki, ənənəvi Avropa dövlətləri ilə yanaşı Birinci dünya müharibəsindən sonra ABŞ iqtisadi cəhətdən çox qüvvətlənmiş və əslində dünya siyasətini müəyyən edən dövlətlərdən birinə çevrilmişdi. Müharibədən sonrakı ilk illərdə Birləşmiş Ştatlar dünyanın əsas bankiri rolunu oynayırdı; ABŞ dövlət katibi Robert Lnsinqin dili ilə desək, Amerika dünyanı iqtisadi cəhətdən idarə edirdi və siyasi cəhətdən də idarə etməyə hazırlaşırdı [2,səh.405]. Bundan əlavə, ABŞ Prezidenti Vudro Vilson da yeni yaranmış dövlətlərin müdafiəçisi, kiçik xalqların dostu kimi tanınırdı.

Qafqazda bu yeni, "qəflətən" yaranmış respublikalar haqqında Birləşmiş Ştatlar siyasi dairələrinin və ictimaiyyətinin məlumatı olmadığından Əlimərdan bəy Azərbaycan və Gürcüstanı bu ölkədə təbliğ etməyi, onları siyasi cəhətdən tanıtmağı öz üzərinə almış ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü,

vəkil Valter Çandler vasitəsilə 26 sentyabr tarixində Prezident V.Vilsona məktub və materiallar göndərmişdi. Məktubda 1919-cu il, may ayının 28-də - istiqlaliyyətin elan edilməsinin birinci ildönümü günü Azərbaycan nümayəndələrinin Vilson tərəfindən qəbul edildiyi prezidentə xatırladılır və bu görüşün onlar üçün unudulmaz hadisə olduğu qeyd olunurdu.O yazırdı ki, "biz sizin simanızda xalqları, xüsusən sizin prinsipləriniz əsasında milli və siyasi cəhətdən öz müqəddəratını təyin etmiş kiçik xalqları sülhə, azadlığa və birgəyaşayışa çağıran müasir Apostolu görürük. Yeni həyata qədəm qoyan Azərbaycan xalqının nümayəndəsi kimi biz ümidvarıq ki, xalqımız böyük Amerika və sizin tərəfinizdən də müstəqilliyini və azadlığını qorumaq kimi müqəddəs işdə kömək və yardım alacaqdır." [1,səh.405]. V.Vilsonun Azərbaycan haqqında məlumatının azlığını nəzərə alaraq Əlimərdan bəy məktuba Azərbaycanın müstəqilliyi haqqında memorandumu, sərhədlər qeyd olunan xəritəni, milli-etnik tərkib haqqında memorandumu və bir sıra başqa sənədləri də təqdim etmişdi.

Əlimərdan bəyin fikrincə, Birləşmiş Ştatlarla əlaqələri genişləndirməyi zəruri edən digər bir səbəb ermənilərlə bağlı idi; Birinci dünya müharibəsi başa çatan kimi ermənilər ABŞ-da "Müstəqil Ermənistanın Amerika Komitəsi"ni yaratmışdılar və bu komitə təkcə Ermənistanın müstəqilliyini tanıtmaq uğrunda deyil, eyni zamanda Azərbaycanı və Gürcüstanı Amerika siyasi dairələri, Amerika ictimaiyyətinin gözündən salmaq istiqamətində iş aparırdı. Bu baxımdan Baltik ölkələri, Azərbaycan və Gürcüstan nümayəndələri onlar haqqında düzgün fikrin formalaşması üçün vəkil qismində V.Çandlerlə müqavilə bağlamışdılar. 1919-cu ilin sentyabrında Ə.Topçubaşovun rəhbərliyi ilə imzalanmış həmin müqaviləyə əsasən Amerika vətəndaşı Valter M.Çandler Azərbaycan nümayəndə heyətinin tərkibinə təbliğat məsələləri ilə bağlı hüquq məsləhətçisi kimi qəbul edilirdi və üç ay müddətinə Azərbaycan Respublikasının mənafeyini və müstəqilliyini müdafiə etməyə təminat verirdi. Bu xidmətin müqabilində 5 min Amerika dolları həcmində zəhmət haqqı verilməli idi. İmzalanan ikinci müqavilədə isə qeyd olunurdu ki, ABŞ Azərbaycanın müstəqilliyini de-fakto tanıdığı təqdirdə Çandlerə 50 min Amerika dolları həcmində əmək haqqı verilməli, Birləşmiş Ştatlar Azərbaycanı müstəqil dövlət kimi tanımaqdan imtina edərdisə, ona heç bir təzminat verilməyəcəkdi.

V.Çandler Amerikaya yola düşdükdən sonra Əlimərdan bəy Vaşinqtona yola düşmək ərəfəsində olan Henri Morqentau ilə görüşüb, onun Çandlerə köməklik göstərməsini xahiş etmişdi. Morqentau isə öz növbəsində buna razılıq verərək məsləhət görmüşdü ki, ABŞ-da Azərbaycanın öz nümayəndiliyi olsa, daha yaxşı olar. O, həmçinin qeyd etmişdi ki, "Biz bütün kiçik xalqların dostuyuq. Mən sizin memorandumla tanış oldum və gördüm ki, Azərbaycan varlı ölkədir və özü sərbəst yaşaya bilər. Siz Amerikada yaxşı qəbul edilərsiniz və həm də ola bilsin ki, sizin sərvətinizə layiq kapital tapıla bilər" [2,səh.408].

Sonuncu məsələ Azərbaycan nümayəndələrinin diqqətindən yayınmamışdı və Amerika ilə iqtisadi əlaqələr yaratmaq üçün ABŞ işgüzar dairələrinin nümayəndəsi Maks Rabinov Azərbaycan nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçisi təyin olunmuşdu və onunla müqavilə bağlanmışdı. Rabinov Azərbaycandan dünya qiymətlərinə uyğun neft alınmasını, ABŞ maliyyə orqanları tərəfindən Azərbaycana kredit buraxılmasını, həmçinin Azərbaycan üçün Amerika manufaktura mallarının alınmasını təşkil etməli idi. Onu da qeyd etmək lazımdır ki, "Standart Oyl kompani of Nyu-York" neft şirkətinin rəhbəri P.İ.Tomas məhz M.Rabinov və Ə.Topçubaşovun vasitəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti yollar naziri Xudadat bəy Məlikaslanovla 1919-cu il, iyulun 12-də saziş imzalamışdı. Sazişə əsasən, "1920-ci ilin yanvar ayının 31-nə qədər Standart Oyl kompaniyasına tonu 34 dollardan 6 milyon pud kerosin verilməli idi ki, Azərbaycan da bunun müqabilində rəsmi Vaşinqtondan pudu 2,5 dollara 40 min ton taxıl almışdı" [3,səh.354-355]. Hətta Birləşmiş Ştatlarda qarşıya çıxa biləcək hüquqi, siyasi və iqtisadi xarakterli məsələləri aydınlaşdırmaq üçün Azərbaycan nümayəndə heyətinin üzvü M.Məhərrəmovun ABŞ-a ezam edilməsi məsələsi də gündəliyə salınmışdı.

Ə.Topçubaşovun ABŞ rəsmiləri ilə həyata keçirdiyi hərtərəfli fəaliyyətin ən mühüm nəticələrindən biri isə M.Rabinov tərəfindən Amerika-Qafqaz Kommersiya Palatasının təşkil edilməsi olmuşdu ki, bu palata Azərbaycanla ticari-iqtisadi münasibətlərin inkişafında təkan rolunu oynamışdı.

Əlimərdan bəy bütün bunlarla yanaşı, Fransada fəaliyyət göstərən Birləşmiş Ştatlar rəsmilər ilə də görüşlər keçirərək Azərbaycana olan münasibəti, Qafqazda cərəyan edən prosesləri və digər bu kimi məsələləri aydınlığa qovuşdurmağa cəhdlər edirdi. Belə ki, bu cür görüşlərdən biri ABŞ Nümayəndələr Palatasının üzvü H.Buklerlə təşkil edilmişdi və sonuncu görüş əsnasında Qafqazda baş verən hadisələri dinlədikdən sonra ermənilərlə bağlı eşitdiklərinin onun üçün yenilik olduğunu bildirmişdi: "Biz sizin qonşularınızı bir az tanıdıq və onları heç də mələk saymırıq" [2,səh.410].

Qeyd olunan dövrdə erməni təbliğatı Birləşmiş Ştatlarda geniş vüsət almışdı və burada fəaliyyət göstərən "Müstəqil Ermənistanın Amerika Komitəsi"nin sədri Ceyms Cerard "əzabkeş ermənilərin", "xristian məbədlərin" xilas edilməli olduğunu hər cür vasitələrlə amerikalılara təlqin edirdi. Bu barədə Ermənistanın adı çəkilən komitəsinin təşkil etdiyi ziyafətə dəvət olunan V.Çandler də Əlimərdan bəyə noyabrın 1-də yazdığı hesabat xarakterli məktubunda qeyd etmişdi. Çandler yazırdı ki, ermənilər ABŞ siyasi dairələrində türklər, kürdlər və tatarların əleyhinə istifadə etmək məqsədilə silah almağa çalışır və sözügedən xalqları Birləşmiş Ştatlarda nüfuzdan salmağa çalışırlar. Çandler də Morqentau kimi fikirləşir və vurğulayırdı ki, "Azərbaycanın və Gürcüstanın müstəqilliyi uğrunda mübarizə aparmaq üçün bax belə komitələr və bu cür müraciətlərin

olması zəruridir” [3, səh.410-414].

ABŞ-ın keçmiş Rusiya imperiyasında yeni yaranmış dövlətlərə, o cümlədən Azərbaycana münasibətinin səciyyəvi cəhətləri V.Çandlerin 10 noyabr tarixində Əlimərdan bəyə göndərdiyi məktubda əks olunmuşdu. Belə ki, Çandler Birləşmiş Ştatların Kolçak, Denikin və Yudeniç hökümətlərinin aqibətinin nə ilə qurtaracağını gözlədiyini, bununla belə, Azərbaycan da daxil olmaqla keçmiş Rusiya xalqlarına ABŞ tərəfindən prezident layihəsi üzrə yardım göstəriləcəyinin mümkünlüyünü bildirmişdi.

Ümumilikdə, Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransı çərçivəsində fəaliyyəti olduqca məhsuldar olmuş və konfransla bağlı qarşıya qoyulan mühüm vəzifələrin öhdəsindən gələ bilmişdi; belə ki, 1920-ci il 11 yanvar tarixində Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi Paris sülh konfransı tərəfindən de-fakto tanınmış, Azərbaycan nümayəndə heyəti tam heyətlə sülh konfransının 19 yanvar tarixli Ali Məclisində iştirak etmiş və hüquqi olaraq Azərbaycan beynəlxalq münasibətlər sisteminə daxil olmuşdu.

Beləliklə, Ə.Topçubaşovun Fransada, Paris sülh konfransı çərçivəsində və ABŞ rəsmiləri ilə münasibətdə fəaliyyətinin təhlili bir daha sübut edir ki, bu görkəmli şəxsiyyət müstəqil Azərbaycanın beynəlxalq arenada sərbəst xarici siyasət yürütməsi, onun de-fakto tanıdılması və Birləşmiş Ştatlarda Azərbaycan nümayəndəliyinin – diasporasının əsasının qoyulması, iki ölkə arasında qarşılıqlı münasibətlərin qurulması istiqamətində əvəzolunmaz addımlar atmış, AXC-nin süqutundan sonra vətənə qayıda bilməməklə mühacirətin, Azərbaycanın müstəqilliyi və tanıdılması istiqamətində məqsədyönlü fəaliyyətin əsasını qoyanlardan olmuşdur. Bununla belə, mühacirət illərində də Ə.Topçubaşov ömrünün sonunadək Azərbaycan məfkurəsi yolunda canı və qanı ilə mübarizə apararaq gələcək nəsil üçün örnək diplomat rolunu oynamışdır.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.İki cilddə. II cild.Bakı, “Lider nəşriyyat”, 2005, 472 s.

2.Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, “Azərbaycan Diplomatiya Akademiyası”, 2013,588 s.

3.А.М.б.Топчибащов. Избранное: В 4-х томах. Составитель Гасан Гасанов. Т.3, Баку,2015, 608 стр.

4.Гасанлы Дж. Азербайджан на перекрестке эпох: Первая попытка интеграции в свободный мир (1917-1920). // Кавказ и глобализация. Том 3, выпуск 4, 2009, стр. 140-161.

5.Дипломатические беседы А.А.Топчибащова в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку, «Эргюн», 1994, 160 с.

# AZƏRBAYCANLILARIN II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ÖN VƏ ARXA CƏBHƏDƏKİ FƏALİYYƏTİ

**Cəlilov Elman Kamal oğlu**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**elmancelilov@mail.ru**

*Məqalədə azərbaycanlıların II Dünya müharibəsi illərində ön və arxa cəbhədəki fəaliyyəti və cəsarəti barədə məlumat verilir. Faşizm üzərində qələbə xalqın qanı və külli miqdarda maddi sərvətlərinin itirilməsi,böyük məhrumiyyətlər hesabına əldə edilmişdir. Ön cəbhədə azərbaycanlılardan ibarət yaradılan diviziyalar döyüşürdü. Arxa cəbhədə isə Bakı nefti müharibəni duru yanacaqla təmin edirdi. II Dünya müharibəsində həlak olan 57 milyon insandan 27 milyonu Sovet vətəndaşları olmuşdur. Həlak olan azərbaycanlıların sayı 300 mindən çox idi.*

***Açar sözlər:*** *Azərbaycan, II Dünya müharibəsi, Bakı nefti, diviziyalar, milli qəhrəmanlar*

**_Activity of Azerbaijanis in the fronts and the rear of the World War II_**

*The article descripts courageous activity of Azerbaijani people during the World War II in the fronts and the rear. Victory over fascism was gained by great difficulties and loss of natural sources of the nation. Divisions of Azerbaijanis fought on the front lines. Baku oil was obtained from the liquid fuel in war on the home front. During the World War II, 57 million people were murdered and of them 27 million were soviet citizens. The loss number of Azerbaijanis was 300.000.*

**Key words**: Azerbaijan, Second World War, Baku petrol, divisions, national Heroes

**Giriş.** Azərbaycan II Dünya müharibəsində böyük dövlətlərin strateji planlarında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə-İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi hazırlanmışdı. Nasist rəhbərlərindən biri olan Rozenberqin hazırladığı "Qafqazın idarə olunması planı”na əsasən Azərbaycanda Qafqaz reyx Komissarlığına tabe olan xüsusi komissarlıq idarə üsulu yaradılmalı idi. Hitlerin "Edelveys” adlanan Qafqaza hücum planında Bakının tutulmasının dəqiq vaxtı da göstərilmişdi. ABŞ və Böyük Britaniyanın da xüsusi planı var idi. "Vilvet” adlanan bu planda Azərbaycanı öz nüfuz dairələrinə çevirmək göstərilirdi. Həmçinin, SSRİ-nin də azərbaycanlıları Mərkəzi Asiyaya və Qazaxıstana köçürmək planı var idi. 1939-cu il sentyabrın 1-də başlanan II Dünya müharibəsi iki imperialist ittifaq arasında aparılsa da, Sovet İttifaqına da ciddi təhlükə yarandı. İlk gündən alman qoşunlarının SSRİ sərhədlərinə yaxınlaşması ölkənin qərb istiqamətində mövqe-

yini möhkəmlətməyi tələb etdi. Xüsusilə, 1920-ci ildə Polşanın işğal etdiyi Qərbi Belorusiya və Qərbi Ukrayna torpaqlarını yenidən öz tərkibinə qatdı. Bununla, qərb sərhədləri bir qədər möhkəmləndirildi.

A.Hitler 1940-cı ilin iyulunda SSRİ-yə qarşı müharibənin qaçılmaz olması və müddəti barədə demişdi: "Rusiya gərək məhv edilsin! Müddəti – 1941-ci ilin yazı!" Bundan sonra "Barbarossa" adlanan yeni planda müəyyən düzəlişlər aparıldı. Hitler 17 iyun 1941-ci ildə SSRİ-yə qarşı iyunun 22-də müharibəyə başlamaq əmrini verdi. İyunun 22-də faşist Almaniyası Sovet İttifaqına hücum etdi. Bununla da, Vətən müharibəsi başlandı. SSRİ-nin müharibəyə girməsi ilə II Dünya müharibəsinin gedişində yeni mərhələ başlandı. Müharibə Sovet xalqları tərəfindən xilaskar, ədalətli, Vətən müharibəsinə çevrildi [6].

**Azərbaycanlılar ön cəbhədə**. Müharibə ümumxalq xarakteri daşıyırdı. Sovet İttifaqının bütün xalqları, o cümlədən Azərbaycan xalqı Vətən uğrunda müharibəyə başladı. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək fəal iştirak etdi. Ön cəbhədə azərbaycanlılardan ibarət diviziyaların, arxa cəbhədə isə SSRİ-ni duru yanacaqla təmin edən Bakı neftinin müharibədə xüsusi rolu vardır. Müharibənin başlanması ilə əlaqədar baş komandan İ.Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən, azərbaycanlılardan ibarət 77-ci dağatıcı diviziyası, 223, 396, 402 və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44, 45 və 46-cı orduların tərkibinə daxil edildilər. Müxtəlif cəbhələrdə faşist qoşunlarına qarşı döyüşlərdə göstərdikləri rəşadətə görə 416-cı diviziya «Taqanroq diviziyası» adlanırdı. Döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya «Temryuk diviziyası», 271-ci diviziya «Qarlov diviziyası», 77-ci diviziya «Simferopol diviziyası» və 223-cü diviziya «Belqrad diviziyası» adını qazanmışdı.

Azərbaycanlılardan ibarət 416, 402, 396, 223, 227, 271, 77 və digər milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmiş, Berlinin tutulmasında xüsusi fəallıq göstərmişdir. Polşa və Çexoslovakiyanın faşistlərdən azad edilməsi uğrundakı döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə, Ziya Bünyadov və digər 50-ə yaxın azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Nəticədə Azərbaycan SSR-dən ön cəbhəyə 640 min nəfər, o cümlədən 10 min qadın çağırılmışdı. Onlardan 300 mini döyüşlərdə həlak olmuşdur. Hərbi hissələr üçün 15 min tibb bacısı, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. 128 nəfər azərbaycanlıya Sovet İttifaqı Qəhrəmanı adı (14-ü ölümündən sonra) verilmişdir. Həzi Aslanov bu ada 2 dəfə layiq görülmüşdür. Leytenant İsrafil Məmmədov isə bu adı alan ilk azərbaycanlı kimi tarixə düşmüşdür. Azərbaycanın 77-ci milli atıcı diviziyası müharibəyə 1941-ci ilin dekabrında 51-ci ordunun tərkibində Kerç-Feodosiya desant əməliyyatı ilə başladı.

Diviziya Kerç, Taman, Novorossiysk, Mazdok, Mineralni vodı uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhramanlığa görə Suvorov ordeni ilə təltif edilmişdi. Sevastopolun azad edilməsi uğrunda Sapunqaradan başlanan döyüşlər 10 gün davam etdi, qələbə bayrağını 1943-cü ilin 7 mayında serjant Əbuləziz Qurbanov sancdı. Simferopol şəhəri düşməndən azad edildikdən sonra döyüşlərdə ən fəal iştirak edən 77-ci diviziyaya "Simferopol diviziyası" fəxri adı verildi. Bütövlükdə Krımın azad edilməsinə görə diviziyanın 3.140 əsgər və zabiti orden və medallara layiq görüldülər. Həmin əməliyyatlarda 77-ci milli diviziyanın rabitə batalyonunun komandiri kapitan İsmayıl İbrahimov xüsusilə fərqləndi. 77-ci diviziya 1944-cü ilin iyulundan başlayaraq Pribaltikada və Rusiyada gedən döyüşlərdə fəal iştirak etdiyinə görə, onun yüzlərlə əsgər və zabiti orden və medallarla təltif edildi, 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Ümumilikdə, 77-ci Simferopol dağ-atıcı Azərbaycan milli diviziyası döyüş əməliyyatlarına Krımdan başlamış və 11000 kilometrə yaxın məsafəni qət edərək, müharibəni Berlində qurtarmışdı [7, s. 303-304].

1942-ci ilin fevralından 1943-cü ilin iyununa qədər Heybət Heybətov 223-cü diviziyanın komandiri olmuşdu. Onun komandanlığı altında diviziya Mozdokdan Millerova şəhərinə qədər döyüş yolu keçmişdi. Heybət Heybətov müharibə illərində general rütbəsi almış Həzi Aslanov və Yaqub Quliyev ilə yanaşı üçüncü azərbaycanlı general idi. Müharibə illərində həmin diviziyada komandan olmuş 6 nəfərin arasında general Heybət Heybətovun 17 ay komandirlik fəaliyyəti daha zəngindir. Diviziyanın bütün alayları: 1037-ci alay Suvorov ordeninə, 1039-cu alay Kutuzov ordeninə, 1041-ci alay Suvorov və Kutuzov ordenlərinə, 818-ci alay Boqdan Xmelintski ordeninə layiq görülmüşdü. Diviziyanın döyüşçülərindən 2 nəfərinə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Tərkibi 90% azərbaycanlılardan ibarət olan 402-ci milli atıcı diviziya 44-cü ordu tərkibində Şimali Qafqazda Terek çayının sağ sahilində Qroznı-Mozdok istiqamətində ağır döyüşlərdə iştirak etmiş və bu döyüşlərdə fərqlənmişdi. Həmin döyüşlərdə 833-cü alayın komandiri mayor Akim Abbasov və 840-cı alayın döyüşçüləri qəhrəmanlıq nümunələri göstərmişdilər.

1944-ci ilin əvvəlində 402-ci milli diviziyanın sıravi heyətinin 75%-i, komanda heyətinin 50%-i azərbaycanlılardan ibarət idi. Komanda heyətinin milli tərkibini gücləndirmək məqsədilə diviziyaya respublikadan azərbaycanlı hazırlıqlı və təcrübəli komandirlər heyəti göndərildi. Diviziyada siyasi tərbiyə işlərinə respublikadan 300 nəfərdən çox partiya işçisi göndərilmişdi. Görkəmli yaradıcı ziyalılardan Üzeyir Hacıbəyov, Səməd Vurğun, Rəsul Rza, Bülbül, Niyazi Hacıbəyov, Mustafa Topçubaşov, Heydər Hüseynov və digərləri dəfələrlə həmin diviziyada olmuşlar.

416-cı milli atıcı diviziyanın tərkibinin, xüsusi ilə də komanda heyətinin 92%-i azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya

Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, "Taqanroq diviziyası" adına layiq görüldü. 1943-cü ilin iyulundan sonra diviziyaya general mayor Heybət Heybətov komandanlıq etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi. Diviziyanın 1368-ci atıcı alayı Qırmızı Bayraq ordeni, 1054-cü topçu alayı Suvorov ordeni, 444-cü əlahiddə topçu diviziyası Boqdan Xmelnitski ordeni, 348-ci əlahiddə sanitar batalyonu Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Diviziya Qafqazdan Berlinə kimi 2500 km müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5.474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14.396 nəfər əsgər və komandiri SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi. 416-cı diviziyanın 1945-ci ildəki döyüş fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Diviziya 1945-ci il fevralın 3-də Oder çayını keçərək Kyustrin şəhərinin alınmasında iştirak etmişdir. Berlin üzərinə həlledici hücuma başlayan diviziyanın 1373-cü alayı Berlinin müdafiə xəttini yararaq, aprelin 21-də şəhərin kənarına daxil oldu. Mayın 3-də marşal Georqi Jukov başda olmaqla birinci Belorussiya cəbhəsinin hərbi şurasının üzvləri, 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarının şahidi olmuş, onun xidmətlərinə yüksək qiymət vermişdilər. Diviziyada xidmət etmiş zabit və əsgərlərdən 5 nəfərinə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. Diviziyanın özü Qırmızı Bayraq və II dərəcəli Suvorov ordeni ilə təltif edilmişdir, onun qələbələri şərəfinə Taqonroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində xatirə ansamblı yaradılmışdır, Taqonroqda, Kiyevdə, Nikolayev və Odessa şəhərlərində və Moskvada diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilmişdir [1].

**Azərbaycanlılar arxa cəbhədə**. Arxa cəbhədə isə Bakı nefti SSRİ-ni duru yanacaqla təmin edirdi.1939-cu ildə neft hasilatı təqribən 805 min ton təşkil edirdi. Genişmiqyaslı müharibə aparmaq üçün bu həcm kifayət etmirdi. Faşist Almaniyasının 1939-1940-cı illərdə 5,5 milyon ton neft verən Rumıniya mədənlərinə sahib olması Hitlerin ambisiyalarını qane etmirdi. 1939-cu ildə hücum etməmək haqqında pakt imzalandıqdan sonra faşist Almaniyası Bakının neft ehtiyatlarına böyük maraq göstərməyə başladı. Ural-Volqaboyu, Orta Asiya və Qazaxıstanda neft hasilatı elə də əhəmiyyətli rol oynamırdı. Qafqaza hücumunda faşist Almaniyasının əsas məqsədi Bakının neft və qazla zəngin rayonlarını ələ keçirmək idi. Hitlerçilər Bakını işğal edəcəklərinə əmin idilər. Hətta Almaniyanın “Ost-Öl” və “Karpaten-Öl” firmaları ilə Qafqazdakı neft yataqlarının 99 illik istismarı üçün

eksklüziv saziş imzalamışdılar. Neftin ixracı üçün borular da hazırlanmışdı. Sonralar bu borular SSRİ tərəfindən zəbt edildi və istifadəyə verildi. General-leytenant Nidenfurun rəhbərliyi ilə xüsusi iqtisadi komissiya yaradılmış, neft çıxarılan sahələrin bombalanması qadağan edilmişdi. Amma faşistlərin Bakı nefti ilə bağlı planları iflasa uğradı [3].

Məşhur kimyaçı-alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə Bakıda yüksək oktanlı benzin istehsal edilməsinə başlanmışdır və SSRİ üzrə bütün təyyarə benzininin 85-90%-i Bakıdan göndərilirdi. Müharibə dövründə Bakı SSRİ-nin əsas cəbhəxanalarından birinə çevrilmişdir. Bakıda ümumilikdə 130 növ silah və sürsat istehsal olunurdu. Azərbaycanlılar müharibə fonduna 15,5 kq. qızıl, 952,5 kq. gümüş, 295 milyon manat pul təhvil vermiş və cəbhəyə 135 vaqon isti paltar göndərmişdilər [7, səh. 300-301].

Azərbaycan müharibə dövründə SSRİ-də əsas neft məhsulları tədarükçüsü olmuşdur. Həmin dövrdə SSRİ-də istehsal olunan neftin 80%-i, neft ixracının 75%-i Azərbaycanın payına düşürdü. Bakı və Şimali Qafqaz SSRİ iqtisadiyyatının əsas neft tədarükçüsü idi. 1941-ci ildə Bakıda rekord həcmdə – 23,5 milyon ton neft çıxarılmışdır. Neft emalı planı 122,8%, benzin istehsalı planı isə 118% yerinə yetirilmişdi. Amma 1942-ci ildə hasilat azalmağa başladı. 1942-ci ilin iyulunda alman qoşunları Stalinqrada çatdıqları üçün Volqada gəmi nəqliyyatı dayandırıldı. Bakıdan cəbhəyə neft və neft məhsulları daşınan əsas dəmir yolları almanlar tərəfindən ələ keçirilmişdi. Alman-faşist qoşunları Qafqazın astanasında idi. Bakı işğal təhlükəsi qarşısında qalmışdı. Buna baxmayaraq köhnə quyular bərpa olunaraq istismara buraxılır və cəbhənin neftlə təchizatı davam etdirilirdi. Stalinqrada neft məhsullarını göndərmək üçün başqa yol tapmaq lazım gəlirdi. Dünya praktikasında ilk dəfə neftlə doldurulmuş dəmiryol sisternləri yedəyə alınaraq dənizlə Bakıdan Krasnovodska yola salındı. Buradan isə Orta Asiya və Qazaxıstan ərazisindən dəmir yolu ilə Stalinqrad cəbhəsinə çatdırıldı. 1942-ci ilin payızında müharibənin gedişi tamamilə Bakı neftindən asılı vəziyyətə düşmüşdü. Bakı üçün də çətin zamanlar idi. Naviqasiya müddəti başa çatanadək nəzərdə tutulmuş 6 milyon ton neft əvəzinə cəmi 1,6 milyon ton göndərilmişdi. Bütün ölkə üçün mürəkkəb olan belə bir zamanda Bakı riskli qərar qəbul edir. Bakı neftçilərinin köçürülməsi başlanır. 10 mindən çox neftçi ailəsi ilə birlikdə gəmilərlə Krasnovodska, oradan da dəmir yolu ilə məskunlaşmamış rayonlara – Başqırdıstana, Kuybışev və Perm vilayətlərinə yola salınır. Burada onlar Bakıdan gətirdikləri avadanlıqların köməyi ilə neft hasil etməyə başlayırlar. Bu yerlərə “ikinci Bakı” adı verilir. Müharibənin ən çətin dövrlərində Bakı neftçiləri həqiqətən də əsl qəhrəmanlıq göstərmişlər. Bakı özünün ən yaxşı neftçi kadrlarından məhrum olur, onların yerini qadınlar tuturdu. 1942-ci ildə neft sənayesində 25 min qadın işləyirdi ki, bu da bütün işçilərin 33%-ni təşkil edirdi. 1944-cü ildə bu rəqəm 60%-ə çatmışdı. Bakıdakı arxa cəbhə briqadaları gecə-gündüz

çalışır, fasiləsiz olaraq Stalinqrada yanacaq göndərirdilər. 1943-cü ilin fevralında Stalinqrad cəbhəsinin qoşunları hücuma keçərək almanlara ağır zərbələr endirdilər. Bu, müharibənin gedişində əsl dönüş anı oldu. Hücum neft nəqlinin bərpasına yol açdı. 1945-ci il aprelin 28-də Sovet İttifaqı marşalı Fyodor Tolbuxin "Azərbaycan xalqına eşq olsun!" sərlövhəli məqaləsində yazırdı: "Qızıl ordu bir çox qələbələrinə, hücuma keçən hissələrin vaxtında keyfiyyətli yanacaqla təmin olunmasına görə Azərbaycan xalqına və cəsur Bakı neftçilərinə borcludur. Stalinqrad yaxınlığındakı, Don və Donbasdakı, Dnepr və Dnestr sahillərindəki, Belqraddakı, Budapeşt və Vyana yaxınlığındakı döyüşçülərimiz Azərbaycan neftçilərini minnətdarlıqla xatırlayır, cəsur Bakı neftçilərini alqışlayırlar" [3].

1941-ci ildə Bakı ət kombinatında ordu üçün yeyinti konsentratı hazırlayan xüsusi sex fəaliyyət göstərirdi. 1941-ci ildə ət kombinatında, süd zavodlarında tibbi preparatlar hazırlayan xüsusi sexlər yaradılmışdı. Müharibə illərində respublikanın müəssisələri 1419 min ədəd şinel, 4227 min dəst yay geyimi, 3097 min alt paltarı, 1417 min patron çantası, 1468 min dəst trikotaj istehsal etmişdir [2, səh. 20-21].

**Nəticə.** Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edildi. Müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız faşizmə qarşı vuruşmaq üçün könüllü surətdə cəbhəyə getməkdən ötrü hərbi komissarlıqlara müraciət edirdi. 1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı. Onlardan 30 min nəfərdən çoxu qadınlar idi. 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakıda «Katyuşa» raketi, «Şpakin pulemyotu» istehsal edilir, «YAK - 3» qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və onun hissələri hazırlanırdı [4].

1941-1945-ci illərdə Azərbaycanda Sovet Ordusu sıralarına 640 min nəfərədək səfərbər edilib cəbhəyə göndərildi. Onlar da sabiq SSRİ məkanında yaşayan digər xalqların nümayəndələri ilə çiyin-çiyinə faşizmə qarşı savaşda iştirak etdilər.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycanlılardan ibarət diviziyalar.// http://beyaz.az/library/search.php?
2. Azərbaycan tarixi. VII cilddə,VII cild (1941-2002-ci illər). Bakı, "Elm" 2008, 608 s.
3. Arxa cəbhədə isə Baki nefti. //http://www.socarplus.az/az/article/453/1941-45-ci-illerde-baki-neftinin-muharibede-rolu
4.Azərbaycan İkinci Dünya müharibəsi illərində. //http://portal.azertag.az/node/1775
5. Emil Şelemanov. Xalq qəzeti, 2009,14 may,s.10
6. İbrahim Artuç. İkinci Dünya Savaşı, 2 cilt. Kastaş Yayınları. // http://www.kitapyurdu.com/kitap/ikinci-dunya-savasi-2-cilt-takim/30931.html
7.Mehman Abdullayev. Azərbaycan tarixi. Bakı, 2014, 407 s.

# CEYHUN HACIBƏYLİ AZƏRBAYCAN MÜHACİRƏTİNİN NÜMAYƏNDƏSİ KİMİ

**Əsgərli Aysel Şiralı qızı**
**Tarix fakültəsi, bakalavr, IV kurs**
**aysel.esgerli.1995@gmail.com**

*Azərbaycanın müstəqilliyinin bərpasının və dünya azərbaycanlılarının həmrəylik gününün təsis olunmasının 25 illik yubileyində müxtəlif səbəblərdən dünyanın müxtəlif ölkələrində yaşayan və Azərbaycanın tanıdılması, müstəqilliyinin bərpası istiqamətində fəaliyyət göstərən insanları yad etmək vacibdir. Onlardan biri də Azərbaycan ədəbiyyatının və incəsənətinin inkişafında, yüksək səviyyədə təbliğində müstəsna xidmətləri olan Ceyhun bəy Hacıbəylidir. Məqalədə Ceyhun Hacıbəylinin həyatı, Paris sülh konfransındakı fəaliyyəti və mühacirət həyatı təsvir edilir. C.Hacıbəyli Azərbaycanda və mühacirətdə yaşadığı dövrdə Azərbaycan jurnalistikasının inkişafına səy göstərmiş, incəsənət və ədəbiyyat nümunələri yaratmış, Azərbaycanın yüksək səviyyədə təbliğinə çalışmışdır. O, müxtəlif dillərdən Azərbaycan dilinə tərcümələrlə kifayətlənməmiş, Azərbaycana aid materialları Arvopa dillərinə tərcümə etmiş və çap etdirmişdir.*

***Açar sözlər:*** *Ceyhun Hacıbəyli, Azərbaycan Xalq Cümhuriyyəti, Fransa, Paris, Versal sülh konfransı, mühacirət, Topçubaşov*

**Jeyhun Hajibeyli as the representer of Azerbaijan immigration**

*In the 25th anniversary of the restoration of independent Azerbaijan and on establishment day of worldwide Azerbaijanis' solidarity it is important to remember the people who lived in variety range of countries due to different reasons and who are working on the campaigns to raise the awareness about independence of Azerbaijan. One of them is Jeyhun Hajibeyli who has contributed to not only the improvement of Azerbaijan's literature, history and art but also has exceptional service in the acknowledgment and promotion. Life of Jeyhun Hajibeyli, his role and performance in Paris Peace Conference, as well as his life in exile are described in the article. J. Hajibeyli contributed the development of journalism, when he lived Azerbaijan as well as in exile. Furthermore he created samples of art and literature. He translated lots of works from foreign languages to Azerbaijani. Beside this he is also author of translation documents from Azerbaijani to foreign languages.*

***Key words:*** *Jeyhun Hajibeyli, Azerbaijan Democratic Republic, France, Paris, Versailles peace conference, emigration, Topchubashov*

**Giriş.** Hazırda dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların mühacirətinin əsas səbəbi Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı prosesinin yaratdığı problemlər olmuşdur. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süqutu XX əsrin 20-30-cu illərində xaricə güclü

mühacir axını ilə nəticələndi. Mühacirət həyatı yaşayan ziyalıların əksəriyyəti xaricdə Azərbaycanın işğalına qarşı mübarizə aparmış, müstəqilliyin bərpası və onun tanıdılması istiqamətində fəaliyyət göstərmişlər.

Azərbaycanın müstəqilliyinin bərpasının və dünya azərbaycanlılarının həmrəylik gününün təsis olunmasının 25 illik yubileyində bu insanları yad etmək vacibdir. Onlardan biri də AXC-nin Paris sülh konfransına göndərdiyi nümayəndə heyətinin üzvü Ceyhun bəy Hacıbəylidir. Azərbaycan ədəbiyyatının, incəsənətinin, publisistikasının, tarixinin inkişafında, yüksək səviyyədə təbliğində müstəsna xidmətləri olan Ceyhun bəy Hacıbəylinin (1891, 3 fevral, Şuşa- 1962, 22 oktyabr, Paris, Sen-Kulu) 2016-cı ildə anadan olmasının 125 illik yubileyidir.

**Paris sülh konfransında Azərbaycan nümayəndəsi.** Ceyhun Hacıbəylinin Parisə gedən həyat yolu Şuşadan başlayır: İlk təhsilini Şuşada almış, Bakıda rus-tatar məktəbində davam etdirmişdir. Həyatına aid məlumatlarda Ceyhun bəyin Peterburq Universitetinin Hüquq fakültəsinə qəbul olunduğu, bir il sonra Fransaya getdiyi və Sarbonna Universitetində siyasi biliklər fakültəsində təhsilini davam etdirdiyi göstərilir. Ceyhun bəy burada jurnalistlik fəaliyyəti ilə məşğul olur. Onun Parisdən göndərdiyi məqalələr "Baku", "Kaspi" qəzetlərində dərc edilir (2). Ceyhun bəyin irsini tədqiq edən Aslan Kənan yazır ki, onun Üzeyir bəyə yazdığı məktubundan Parisdə musiqi təhsili almağa getdiyi, lakin imkanı çatmadığından geri qayıtdığı məlum olur. Bu səbəbdən də, Bakıda ədəbiyyat və tarix sahəsində tədqiqatlara üstünlük verir, elmi məqalələr yazır və tərcümələr edir, redaktorluqla məşğul olur. Daha çox Azərbaycan klassiklərinin və müasirlərinin yaradıcılığı və qonşu türk xalqlarının nümayəndələrinin yaradıcılığına müraciət edirdi (2; 3, s.403-404). Azərbaycan müsəlman ictimai təşkilatlarının eyni adlı rəsmi çap orqanının redaktoru olub. Bu səbəbdən də, 1918-ci ildə AXC qurulduqdan sonra hökumət yeni yaradılan “Azərbaycan” qəzetinə rəhbərliyi Ceyhun bəy Hacıbəyliyə həvalə edir. İlk 4 nömrəsi Gəncədə çap olunan qəzet oktyabrın 3-dən fəaliyyətini Bakıda davam etdirir və 1919-cu ilin yanvarın 16-na kimi - Ceyhun bəy Paris sülh konfransına gedəcək nümayəndə heyətinə daxil edildiyi tarixə qədər onun müdiri olur (3, c.1.s. 146-148).

Məlumdur ki, Birinci dünya müharibəsi (1914-1918) başa çatdıqdan sonra qalib dövlətlər sonrakı dünyanın əsas məsələlərini həll etmək üçün Parisdə sülh konfransı təşkil edirlər. Yeni yaranan AXC hökuməti də müstəqil dövlət kimi tanınması məqsədilə Paris sülh konfransında iştirak etməyə qərar verir. Sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibi aşağıdakı kimi təşkil edilir:

sədr - AXC Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov
müavini - Məmməd Həsən Hacınski

üzvləri - Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov

məsləhətçilər – Ceyhun bəy Hacıbəyli, Mir Yaqub Mehdiyev, Məhəmməd Məhərrəmov (3, c.2, s. 282-287).

AXC hökuməti Paris sülh konfransına gedəcək nümayəndə heyətinə Avropa dillərini sərbəst bildiyi üçün C.Hacıbəylini də daxil etmişdir. Ceyhun bəy bu hadisə ilə əlaqədar öz fikrini belə ifadə edirdi: *"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifətilə ifadəyə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü. Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədigimiz yoldakı həlli hüsn-ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməgi və möhtərəm oxucularımıza kəmali-sidq və səmimiyyət ilə xudahafiz deməgi özümə fərz bildim."* (3, c.1, s. 404; c.2, s. 287)

C.Hacıbəyli 1919-cu il yanvarın 6-da Paris sülh konfransı üzrə "müşavir" təyin olunur, ona şəhadətnamə verilir. Nümayəndə heyətinin bütün üzvlərinə, o cümlədən C.Hacıbəyliyə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "General" mandatı təqdim olunur.

Beləliklə, Paris sülh konfransına getmək üçün nümayəndə heyəti yanvarın 20-də İstanbula yola düşdü. Burada Fransa hökumətindən icazə almağa üç aydan artıq vaxt itirirlər. Nəhayət, aprelin 22-də ingilislərin köməyilə Parisə yola düşdülər və may ayında artıq şəhərə çatdılar.

Tarixçi Cəmil Həsənli bir neçə tədqiqatında AXC nümayəndələrinin Paris sülh konfransında fəaliyyəti barədə məlumat verir (5; 6). Bu məlumatlardan məlum olur ki, mayın 28-də Azərbaycan nümayəndəliyi ABŞ prezidenti Vudro Vilsonla görüşərək Azərbaycana və ABŞ-Azərbaycan münasibətlərinə dair öz təklif və tələblərini bildiriblər. Nümayəndə heyəti bütün görüşlərində AXC-nin əsas məqsədini reallaşdırmağa - Azərbaycanın müstəqilliyini tanıtdırmağa və bu yolda Qərb dövlətlərinin himayəsini əldə etməyə çalışırdılar. Bundan başqa, danışıqlarda Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul olunması, ABŞ-Azərbaycan münasibətlərində diplomatik və iqtisadi əlaqələrin bərpa edilməsi öz əksini tapırdı (5, 320-511; 6).

Azərbaycan nümayəndə heyəti Parisdə olan zaman təbliğat işində ən əhəmiyyətli addımlarından biri "Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri" adlı kitabın çap edilməsi idi. Kitabda Azərbaycanın tarixi haqqında da məlumatlar yer alırdı.

Bununla yanaşı, konfrans günlərində C.Hacıbəyli "İlk müsəlman respublikası Azərbaycan" adlı kitabını, Bakı, Şamaxı, Kürdəmir və Xaçmazda daşnaksütun qoşun hissələrinin türk-müsəlmanlara qarşı soyqırımları barədə məqalələrini fransız dilində nəşr etdirir (3, c.1, s.404). Bu əsərlər vasitəsilə Avropa ictimaiyyətini Azərbaycandakı real vəziyyətlə tanış edir.

Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin qarşılaşdığı çətinlik ermənilərlə olan münasibət idi. Çətinliyin yaranmasının əsas səbəbi isə onların əsassız torpaq iddiaları idi. Sevinc Seyidova "Ermeni terör örgütü Taşnaksütyun'un 1918-1920 Yillarinda Güney Kafkasya ve yukarı Karabağ'da yaptığı katliamlar" adlı məqaləsində bu məsələləri geniş açıqlayır (9, s.489-491).

Hətta bu haqda amerika tarixçisi Firuz Kazımzadə yazırdı ki, Ermənistan, "nəinki Anadolunun altı vilayətini, eyni zamanda Kilikiyanı da tələb edirdi. Onlar hətta İran Azərbaycanının bir hissəsini tələb edirdilər. Halbuki İran müharibədə iştirak etməmişdi. Onların əsassız iddialarını Paris, London və xüsusilə Vaşinqton müdafiə edirdi." (6, s.382-387).

Azərbaycan nümayəndə heyəti V.Vilsonla görüş zamanı ən əsas Azərbaycan Cümhuriyyətinin tanınması məsələsini önə sürərkən, ABŞ prezidenti dünyanın kiçik dövlətlərə bölünməsinin əleyhinə olduqlarını bildirir, bunun əvəzinə Qafqaz konfederasiyasının yaradılmasına fikir yönləndirməyi məsləhət görürdü. Bununla əlaqədar Əlimərdan bəy Topçubaşov gürcü, erməni və dağlı nümayəndə heyətlərinin başçılarına məktub göndərərək Paris sülh konfransının tərkibində Qafqaz məsələləri ilə məşğul olan xüsusi komissiya yaradılmasının lazım olduğunu bildirdi. Avqustun 4-də keçirilən müzakirədə erməni nümayəndə heyətinin başçısından başqa hamı iştirak etdi. Müzakirədə gürcü və dağlılar Əlimərdan bəyin təklifləri ilə razılaşır, erməni nümayəndə heyətinə isə düşünmələri üçün vaxt verilirdi. Bu məsələyə ermənilərin münasibətini bilmək üçün Əlimərdan bəy, gürcü və dağlı nümayəndə heyətlərinin başçıları erməni nümayəndə heyəti ilə avqustun 13-ü müşavirə keçirdilər. Müşavirədə erməni nümayəndələri bu məsələni həll etmək üçün ilk öncə öz mənafelərinə uyğun 3 məsələni aydınlaşdırmağın zəruriliyini bildirdilər. Birincisi - Böyük Ermənistana münasibət, ikincisi - sərhəd və ərazi məsələlərinə münasibət, üçüncüsü - ingilis qoşunlarının Qafqazdan çıxarılmamasına münasibət idi. Bu məsələlərin aydınlaşdırılması ilə bağlı avqustun 14-ü Əlimərdan bəyin sədrliyi ilə Azərbaycan və Gürcüstan nümayəndələrinin iclası keçirildi. Müzakirə zamanı Ceyhun bəy Hacıbəyli çıxışında bildirdi ki, "bütün nöqteyi-nəzərlərdən, istər ədalət baxımından və istərsə də təyini-müqəddərat baxımından "Birləşmış Ermənistanı"ı tanımaq haqqında ermənilərin təklifi rəd edilməlidir." Bunun ardınca dərhal avqustun 15-də Azərbaycan nümayəndəliyinin binasında, Əlimərdan bəyin sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikası

nümayəndəliyi ilə iclas keçirildi. Müzakirələr ilk olaraq əvvəldə qeyd etdiyimiz 3 məsələnin dəqiqləşdirilməsinə yönəldi. Lakin hər kəsin təəccübünə səbəb olaraq, erməni nümayəndəliyi təcili ingilis qoşunlarının Qafqazda qalması məsələsinin konfransa bildirilməsinin müzakirə edilməsini istədi, digər iki məsələni isə müzakirə obyekti kimi irəli sürmədiklərini bildirdilər. Nəhayət, avqustun 28-də ingilis qoşunlarının Qafqazda qalması haqqında olan müraciət məktubu sülh konfransına təqdim edildi (5; 6, s. 384-387).

Konfrans 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarınadək fasilələrlə davam etdi. Nümayəndə heyətinin böyük dövlətlərlə apardıqları danışıqlar nəticəsində Qafqaz məsələlərinə dair qərar qəbul edilir. Paris sülh konfransının 1920-ci il 11 yanvar tarixli qərarı ilə Azərbaycanın müstəqilliyi de-fakto tanındı (3, c.2, s.237, 285-286). Nümayəndə heyəti qarşısına qoyduğu məqsədə əsasən nail olmuşdu. Əlavə edək ki, bu qərar Azərbaycanda – Bakıda və Gəncədə təntənəli şəkildə bayram edildi, hərbi parad keçirildi.

Həmin dövrdə Parisdə yaradılan Franko-Qafqaz komitəsinin işinə C.Hacıbəyli, M.Məhərrəmov, M.Mehdiyev də daxil edilirlər. Onlar komitə vasitəsilə AXC-nin Fransa tərəfindən tanınması üçün iş aparırdılar (6, s.390).

**Mühacirət həyatı.** AXC süqut etdikdən sonra Paris sülh konfransındakı nümayəndə heyəti fəaliyyətlərini davam etdirməyə çalışırdılar. Onlar dövrün tələblərinə və yaranan şəraitə görə Fransada qalmağa məcbur olurlar. Bir müddət sonra Ceyhun bəyin ailəsi də onun yanına gəlir. İşsizlik, Azərbaycana qayıda bilməməsi bu ailəyə ciddi çətinliklər yaradırdı. Mühacirət həyatının bütün çətinliklərinə baxmayaraq, Ceyhun bəy yaradıcılıqla məşğul olurdu (1; 2).

C.Hacıbəylinin siyasi fəaliyyəti ilə yanaşı, Azərbaycan mədəniyyətinin, incəsətinin, ədəbiyyatının, tarixinin təbliği istiqamətində fəaliyyətinə də nəzər salmaq vacibdir. Qardaşı Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşalarında İbn Səlam və Nofəl rollarında çıxış etmiş və Parisdə təhsil aldığı illərdə bu əsər haqqında orada məqalələr nəşr etdirmişdir. “Arşın mal alan” musiqili komediyasını fransız dilinə tərcümə etmiş, əsərin orada tamaşaya qoyulmasına nail olmuşdu. Parisdə nəşr olunan müxtəlif qəzet və jurnallarda Azərbaycan teatrı, ədəbi mühiti, Hüseyn Cavid, Cəfər Cabbarlı, Abbasqulu ağa Bakıxanov, Azərbaycanın tarixi, iqtisadiyyatı, mətbuatı və digər mövzularda müntəzəm olaraq məqalələr və kitablar dərc etdirirdi (3, c.1.403-404; 5).

Bu fəaliyyəti ilə yanaşı, mühacirətdə yaşayan azərbaycanlıların ilk təşkilatlarından olan “Azərbaycan Milli Birlik Məclisi”nin idarə heyətinin üzvü və onun Münxendə çap olunan jurnalının redaktoru idi.

Akademik Bəkir Nəbiyev Ceyhun bəyin əsərlərinin bu gün də öz aktuallığını saxlamaqda olduğunu bildirir: "Onun «Qarabağ dialekti və

folkloru» monoqrafiyası Yaxın Şərqi, Azərbaycanı, onun ayrılmaz parçası olan Qarabağın adət və ənənələrini, dilimizi öyrənmək istəyən avropalılar üçün zəngin bir xəzinədir. Burada xalq ədəbiyyatımız və dialektlərimizlə əlaqədar elə səciyyəvi, ümumiləşdirilmiş məlumatlar təqdim olunur ki, həmin məlumatlar o vaxtadək nəinki Fransada və Rusiyada, hətta Azərbaycanın özündə də bu cür sistemli şəkildə nəşr edilməmişdi" (8).

**Yekun.** Araşdırmanın sonunda belə qənaətə gəlmək olur ki, C.Hacıbəyli həyatının həm Azərbaycanda olduğu illərində, həm də mühacirət dövründə Azərbaycanın yüksək səviyyədə təbliğinə, mühacirətdə yaşayan azərbaycanlılara aid təşkilatların yaradılmasına, qəzet və jurnalların çap etdirilməsinə çalışmış, Azərbaycan jurnalistikasının inkişafına səy göstərmiş, incəsənət və ədəbiyyat nümunələri yaratmışdır. O, müxtəlif dillərdən Azərbaycan dilinə tərcümələrlə kifayətlənməmiş, Azərbaycana aid materialları Avropa dillərinə tərcümə etmiş və çap etdirmişdir. Bu məqsədlə, onun xidmətlərindən biri kimi Avropada Azərbaycan Mühacirət Mətbuatına verdiyi dəstəyi göstərmək olar. Bununla da, özü mühacir həyatının çətinliklərini yaşasa da, məqsədinə nail olmuş, Azərbaycanı Avropada tanıtmışdır.

**Ədəbiyyat siyahısı:**


1. “Əbədi ezamiyyət” sənədli filmi // https://www.youtube.com/watch?v=U-H1HQV3qt0
2. Aslan Kənan. Ceyhun bəy Hacıbəyli //http://anl.az/down/meqale/ azerbaycan /2012/fevral/235723.htm
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 cilddə. Bakı, Lider nəşriyyatı, 2004, 2005
4. Hacıbəyli Ceyhun bəy Əbdülhüseyn oğlu. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı : Şərq-Qərb, 2007. s.78-79.
5. Hasanli J. Foreign Policy of the Republic of Azerbaijan: The Difficult Road to Western.London, 2016.
6. Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, “Azərbaycan Diplomatiya Akademiyası”, 2013,588 səh
7. Qaraca Bəxtiyar. Durun gedək evimizə...: Bir millətin namusu / Bəxtiyar Qaraca // Azərbaycan, 2015, 29 sentyabr, № 210, s. 11
8. Nəbiyev Bəkir. Azərbaycanın ədəbiyyatı elmi mühacirətdə // http://www.ayk.gov.tr/wp-content/uploads/2015/01/pdf
9. Seyidova S. Ermeni terör örgütü Taşnaksütyun’un 1918-1920 Yillarinda Güney Kafkasya ve yukari Karabağ’da yaptiği katliamlar // http://www.turkishstudies.net/Makaleler/1315668642_27SeyidovaSevin%C3%A7-trh-485-494.pdf
10. Tahirli Abid. İstiqlal mücahidinin ədəbi irsi: Ceyhun Hacıbəyli .Azərbaycan, 3 fevral, 2016, № 24, s. 7

# AZƏRBAYCAN LEGİONU II DÜNYA MÜHARİBƏSİNDƏ

**Kərimova Ayan Polad qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**Ayan_kerimova@yahoo.com**

*Məqalədə II Dünya müharibəsi dövründə yaradılan Azərbaycan legionu haqqında məlumat verilmişdir. Burada legionun fəaliyyəti, eləcə də bizim mühacirlərimizin fəaliyyəti, onların dəstəyi və s. kimi məlumatlar öz əksini tapmışdır. Mənbələr göstərir ki, Azərbaycan legionu Azərbaycanın müstəqillik əldə etməsi üçün Almaniyanın tərəfində Sovet ordusuna qarşı vuruşmuşdur.*

***Açar sözlər:*** *Fətəlibəyli-Düdənginski, milli legion, Rəsulzadə, mühacirlər, Almaniya, mətbuat*

***Azerbaijani Legion in the world war II***

*This article provides information about Azerbaijani legion, which was created during the World War II. Its activity, also about activity of our immigrants, their support and etc. were under focus of this paper. Sources show that Azerbaijani legion fought against the Soviet army at the German side for gaining independence of Azerbaijan.*

***Key words:*** *Fatalibayli-Dudanginski, national legion, Rasulzade, immigrants, Germany, press*

**Giriş.** XX əsrin əvvəllərində azərbaycanlıların çoxu xarici ölkələrə mühacirət etmiş və müharibənin əvvəlində Almaniyanın uğurlarını nəzərə alaraq, Sovetin qalib gələcəyinə ümid edirdi. Vətənimizin işğalı, ruslaşdırma siyasəti, Sovet ittifaqında mövcud rejimə qarşı xalqımızın etirazları kəskinləşmişdi. Buna görə də, onlar Azərbaycanın milli istiqlal qazanacağına ümid bəsləyərək Almaniyanın tərəfindən çıxış edirdilər.

Legionun yaradılmasının təşəbbüskarları. 1941-ci ildə Əbdürrəhman Fətəlibəyli-Düdənginski (1908-1954) almanlara əsir düşmüşdür. O, Böyük Vətən müharibəsi illərində azərbaycanlılardan ibarət Münhen legionunun başçısı, ABŞ-ın “Azadlıq” radiosunun Azərbaycan redaksiyasının baş redaktoru, C.Hacıbəyli ilə birlikdə “Azərbaycan” jurnalının baş redaktoru olmuşdur. Fətəlibəyli-Düdənginski SSRİ DTK-nın casusu tərəfindən qətlə yetirilmişdir. O, azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq təşəbbüsü ilə Hitlerə müraciət etmiş və Hitlerçilər tərəfindən rəğbətlə qarşılanmışdır.

1941-ci ildə Məhəmməd Əmin Rəsulzadə Almaniyaya dəvət olunmuşdur. Burada 12 maddədən ibarət memorandum qəbul edilmişdir. Memorandumda Azərbaycanlıların alman hərbi düşərgələrindən azad olunması, mülki işlərdə işlədilməsi, Milli Azərbaycan ordusunun yaradılması, Azərbaycanlı

ordu komandirlərinin təyini, alman qoşunları Azərbaycanı tutanda ilk milli ordunun Azərbaycana daxil olması təminatı və s. qeyd olunmuşdur.

**Hitlerin planları.** 1941-ci ilin dekabrın 22-də Hitlerin sərəncamı ilə Qafqaz müsəlmanlarından ibarət xüsusi dəstə yaradılmışdır. Buraya Qafqaz müsəlmanları, eləcə də azərbaycanlılar daxil idi. Azərbaycan legionerlərinin sayı təxminən 70.000 nəfərə çatırdı. Azərbaycan legionunun yaradılmasında siyasi mühacirlərimizin də əvəzsiz rolu olmuşdur. Legion latınca "legio, lego" toplamaq, yığmaq, əsgəri birləşmə deməkdir. Türk dilini bilən alman zabitləri azərbaycanlılara təlim keçirir və onları Bavariyaya da göndərirdilər. 1942-ci ilin yayında Mozdok, Kazbek və Elbrusda mühüm strateji yüksəkliklərin tutulmasında Azərbaycanlılar fəal iştirak etmişlər. Yalnız Sovet ordusunun əks-hücumu nəticəsində ağır itki verən legion geri çəkilmiş və Krımda müdafiə döyüşlərini davam etdirmişdir.

Hitler başa düşürdü ki, yerli xalqların dəstəyi olmadan müharibədə qalib gəlmək mümkün olmayacaq və buna görə də 1943-cü ildə Almaniyada Milli Azərbaycan Komitəsi və Azad türk diviziyası (Azərbaycan legionu da bura daxil idi.) yaradılmışdır. Almaniyanın Azərbaycana müstəqillik vermək fikri yox idi. Çünki Şimali və Cənubi Azərbaycan Hitlerin planlaşdırdığı "Böyük Türküstan" dövlətinin əyaləti olmalı idi. Məhəmməd Əmin Rəsulzadə bunu anladıqdan sonra öz çıxışlarında ifşa etmişdir. O, antifaşist çıxışlarına görə Almaniyadan getmək məcburiyyətində olmuşdur. Buna baxmayaraq, bəzi mühacirətdəki azərbaycanlılar Almaniyaya güvənməyə davam edir və əməkdaşlıq edirdilər.

1943-cü ilin noyabrın 6-da Berlində Azərbaycanlıların milli qurultayı keçirilmişdir. Həmin ildə mühacir Azərbaycan parlamenti və hökuməti yaradılmış və Almaniya tərəfindən tanınmışdır. Bu parlament 1944-cü ilin qışınadək öz fəaliyyətini davam etdirmişdir.

**Legionun mətbuat fəaliyyəti.** Legionerlər Almaniya tərəfindən maliyyələşdirilən "Azərbaycan", "Hücum" və s. kimi qəzetlər, bir sıra jurnal və



Şəkil: Azərbaycan legionunun hərbi başçısı, 1953-1954 illərdə "Azadlıq" radiosunun baş redaktoru Əbdürrəhman bəy Fətəlibəyli Düdənginski ("Abo")



AZƏRBAJÇAN

№ 46 (74) | Azərbajçan legıonunun həftəlık qəzetəsı | 14. Nojabr 1943

Biz jalnьz və jalnьz istiqlalьmьz ycyn hərb edirik. Bizi bu myqəddəs məfkurədən vaz keciraçək hec bir başəri qyvvət joqdur

DER STAATSMINISTER
UND CHEF DER PRÄSIDIALKANZLEI
DES FÜHRERS UND REICHSKANZLERS

BERLIN W8,
Votestraße 1
den 7. 11. 1943.

Der Staatsminister
und Chef der Präsidialkanzlei des
Führers und Reichskanzlers

Berlin W8
Vosstr. 1
7. XI. 43

Məhtərəm Baj major

Legionerlər və Azərbajçan vətənsevərləri adından gəndərdijiniz

dərgilər də çap etmişlər (1, səh.128). Sonradan “Mixaylo” kimi məşhurlaşan Mehdi Hüseynzadə də legioner olmuş və “Qürbətzadə” təxəllüsü ilə mətbuat orqanlarında çıxış etmişdir. Azərbaycan legionu gördüyümüz kimi, sakit, hərəkətsiz dayanmırdı, daim nəsə etməyə çalışırdı.

Azərbaycan legionu Fransanın cənubunda almanlarla birlikdə düşmənə qarşı döyüşdə məğlub olmuş və İtaliyanın cənubuna çəkilmişdir. Müharibə başa çatdıqdan sonra legionun hissələri bitərəf ölkələrin ərazisinə köçürülməyə başlamış və tezliklə tamamilə ləğv olunmuşdur. Legionun hissələrinin çoxu Türkiyədə məskunlaşmışdır. Vətənə qayıdanlar isə uzunmüddət təqiblərə məruz qalmışdır.

**Nəticə.** Azərbaycanlılar Sovet imperiyasının ordu hissələrində incidilirdilər, onların vəziyyətləri dözülməz dərəcədə idi. Hətta Stalinin yürütdüyü səhv siyasət nəticəsində döyüşqabağı əsgərlərimiz güllələnir, qaçmaq cəhdi göstərənlər edam olunur, onlara ölüm hökmü verilir, əsir düşmüş əsgərlər isə vətən xaini adlandırılırdılar. Rus ordu hissələrində təlimlər rus dilində keçirildiyi üçün azərbaycanlıların çoxu başa düşmürdü və buna görə də, onları günahkarlandırırdılar. Stalinin haqsızlığı o həddə çatmışdı ki, həlak olanları belə o, cinayətkar adlandırırdı. Bütün bu səbəblərə görə, azərbaycanlılar kütləvi şəkildə Almaniyanın tərəfinə keçmiş və Sovet imperiyasına qarşı döyüşmüşlər. Fikrimcə, Azərbaycan legionunun yaradılması labüd idi. Bu yolda bizim əsgərlərə yardım edənləri unutmamalıyıq.

**Ədəbiyyat siyahısı:**

1.Nəsiman Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005. 227 s., s.67-135
2. Azərbaycan tarixi. 7 cilddə. 7-ci cild. Bakı, Elm,2008. 570 s., s.32-42
3. İ.Z.İsmayılov. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı,2000. 128 s., s.98-101
4. Azərbaycan tarixi. XIX-XXI əsrin əvvəlləri. Bakı,2010. 545 s., s.325-359
5. Tofiq Nəcəfli, Bilal Dədəyev. Azərbaycan tarixi. Bakı,2013. 252 s., s.181-183
6. Ramin Qurbanov. Türk xalqları tarixi. Bakı, 2011. 216 s., s.155-164

# AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI VƏ ALMAS İLDIRIM

**Qasımova Mərziyə İbrahim qızı**
**Filologiya fakültəsi, magistrant, II kurs**
**merziyeibrahim@gmail.com**

*Məqalədə Azərbaycan mühacirət ədəbiyyatı, onun mərhələləri haqqında məlumat verilir. Bu ədəbiyyatın görkəmli nümayəndəsi şair Almas İldırımdan bəhs olunur, ədibin həyatı, yaradıcılığı nəzərdən keçirilir.*

***Açar sözlər:*** *mühacirət, mühacirət ədəbiyyatı, Azərbaycan, Almas İldırım, şair, sürgün.*

***Azerbaijan Emigration Literature and Almas Ildirim***

*The Azerbaijan emigration literature and its stages were under focus of this paper. It deals with one of the prominent representative of this literature, poet Almas Ildirim and includes writer's life and creative activity.*

***Key words:*** *emigration, emigration literature, Azerbaijan, Almas Ildirim, poet, exile.*

**Giriş.** Tarixin müəyyən inkişaf mərhələsində ictimai-siyasi həyatın, insanlar və dövlətlər arasındakı münasibətlərin, hərbi ideoloji münaqişələrin məhsulu kimi ortaya çıxan mühacirət ümumbəşəri bir problemdir. Mühacirət (latınca "emiqro"- köçürəm, çıxıram)- daimi və ya müvəqqəti yaşamaq üçün digər ölkəyə könüllü, yaxud məcburi köçmək deməkdir. Belə insanlar isə **mühacir** adlanır. Mühacirətin tarixi uzaq keçmişdən başlamışdır. Qədim imperiyaların, sonra isə Sasanilərin, Ərəb xilafətinin və digər dövlətlərin Azərbaycanda işğalçı siyasəti mühacirətə səbəb olmuşdur. Lakin müasir anlamda mühacirət dedikdə Azərbaycan torpaqlarının Rusiya imperiyası və Qacarlar İranı arasında bölüşdürülməsilə (1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri) bağlı olmuşdur [3, s.216]. Çar Rusiyasının müstəmləkəçilik siyasəti, ermənilərin azərbaycanlılara qarşı soyqırımları Şimali Azərbaycandan, hakim dairələrinin sosial-siyasi zülmündən narazılıq isə Cənubi Azərbaycandan əhalinin zaman-zaman mühacirətinə səbəb olmuşdur. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranan mühacirət Azərbaycan mühacirət tarixində yeni bir səhifə açmışıdır. Cümhuriyyətin qurucularının əksəriyyəti, yeni qurulmuş sovet hakimiyyətinin ideya düşmənləri, keçmiş sahibkarların əksəriyyəti ölkəni tərk edərək mühacirətə getmişdir. İlk dəfə olaraq, Azərbaycan mühacirəti siyasi cəhətdən təşkilatlanmış (Siyasi mühacirət), ədəbi-bədii məktəb (Mühacirət ədəbiyyatı), dövri mətbuat (Mühacirət mətbuatı) yaratmışdır. Bu dövr

mühacirət nümayəndələri Azərbaycanda baş verən hadisələrə münasibətini bildirməyə, vəziyyətin dəyişdirilməsinə təsir göstərməyə çalışmışlar.

Azərbaycan mühacirət ədəbiyyatı vətənimizdə yaranan ədəbiyyat qədər qədim, çoxşaxəli və zəngindir. Belə ki, böyük filoloq alim Xətib Təbrizi indiki İraqa mühacirət etmiş, ömrünün sonunadək Bağdadda yaşayıb-yaratmışdır. XII yüzilin görkəmli Azərbaycan filosofu, şairi və nasiri Şihabəddin Sührəverdi bir çox qürbət elləri gəzib dolaşmış, ömrünün son illərini Hələbdə yaşamışdır. İmadəddin Nəsiminin də faciəli ömrü Hələbdə bitmişdir. Deməli, Azərbaycan ədəbiyyatında qürbət poeziyasının min ildən artıq yaşı vardır. Taleyin hökmü ilə Vətəndən uzaqlarda yaşamağa məcbur olan onlarla sənətkarların əsərlərində qəribliyin, Vətənsizliyin acıları, ağrıları və göynərtisi əks olunmuşdur.

XX-XXI əsrlərdə Azərbaycanın bir sıra qələm sahibləri müxtəlif səbəblər üzündən vətəndən kənarda yaşamalarına baxmayaraq, Azərbaycan ədəbiyyatını inkişaf etdirmişlər. XX əsr Azərbaycan mühacirət ədəbiyyatı bir neçə mühüm inkişaf mərhələsindən keçmişdir. Bunlar aşağıdakılardır:

1. 1909-1920-ci illər;
2. 1920-1941-ci illər;
3. 1941-1991-ci illər;
4. 1991-ci ildən indiyədək.

Mühacirətin birinci dalğası hələ XX əsrin əvvəllərində, Birinci rus inqilabının (1905-1907) məğlubiyyəti ilə əlaqədər azadfikirliliyin təqib olunması nəticəsində başlamışdır. XX əsrdə mühacirətin daha böyük və kütləvi xarakter daşıyan ikinci mərhələsi Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) süqutu ilə başlamışdır. Bu mərhələ janr baxımından da rəngarəngdir. Onun əsas nümayəndələri poeziya, nəsr, ədəbi tənqid, ədəbiyyatşünaslıq, publisistika ilə məşğul olmuşlar. Üçüncü mərhələ İkinci dünya savaşı, əsas etibarilə, 1941-45-ci illər müharibəsi nəticəsində mühacir ömrü yaşamağa məcbur olan siyasi-intellektual potensialı əhatə edir. Bu mühacir nəsli artıq yarım əsrə yaxın bir dövrdə formalaşmış olan mühacirət ədəbiyyatının özülü və sütünları üzərində yüksəlmiş, onun ideya məfkurəsini mənimsəmiş, ənənələrini davam etdirmişdir. Bu mərhələdə memuar janrı xüsusilə inkişaf etmişdir. Mühacirət ədəbiyyatının son mərhələsi Güney Azərbaycanda İslam rejiminin formalaşması ilə əlaqədar başlamışdır. Bu illərdə mühacirətin yaranmasını şərtləndirən əsas amil, bir tərəfdən, Vətənimizin güneyində yaşayan soydaşlarımzın milli hüquqlarının tapdanması ilə bağlıdırsa, digər tərəfdən, Quzeydə milli azadlıq hərəkatının güclənməsi, itirilmiş dövlətçiliyin bərpa olunması (Azərbaycan Respublikasının yaranması), azad, demokratik dünya ilə əlaqə və rabitə ehtiyaclarının reallaşmasıdır. Mühacirətin son mərhələsi mətbuatın kütləvi inkişafı ilə də bağlıdır. Əgər

əvvəlki illərdə Azərbaycan mühacirət mətbuatı əsas etibarilə Türkiyə və Avropa ölkələrini əhatə edirdisə, hazırda Amerika Birləşmiş Ştatlarından tutmuş Yaponiyaya qədər dünyanın bir çox ölkələrində mühacirət ədəbiyyatı nəşr olunmaqdadır. Mühacirətin çağdaş mərhələsi janr baxımından da zəngindir. Mövcud ədəbi nümunələr içərisində poeziya, nəsr, dramaturgiya, tənqid, ədəbiyyatşünaslıqla bağlı əsərlərə rast gəlinir.

**Almas İldırım.** İldırım Əbdülməhəmməd oğlu Almaszadə Azərbaycanın istiqlal şairlərindən biridir. Azərbaycan ədəbiyyatı tarixinə Almas İldırım adı ilə daxil olan şairin əsl adı Əbdülhəsəndir. Lakin uşaqlıqdan onu babasının adı ilə- Almas adı ilə çağırmışlar. Şeirlərini Almas İldırım adı ilə dərc etdirdiyindən bu adla tanınmış, məşhurlaşmışdır. O, 1907-ci il martın 25-də Bakının Qala kəndində anadan olmuşdur. 1925-ci ildə “İttihad” məktəbini bitirən on səkkiz yaşlı Almas təhsilini Abdulla Şaiqin nümunə məktəbində davam etdirməyə başlayır. Bu məktəbdə dərs deyən A.Şaiq, S.Hüseyn, Q.Əfəndiyev (Qantəmir) kimi görkəmli ziyalılarla ünsiyyət, gənc Almasın intellektual inkişafında, bədii yaradıcılıq istedadının parlamasında önəmli rol oynayır.Ağır təbiətli, təvazökar Almas müəllimlərindən S.Hüseyn və A.Şaiqlə daha çox ünsiyyətdə olardı. Təbii ki, A.İldırımın məktəb müəllimlərindən bu iki tanınmış yazıçı ilə daha çox ünsiyyətdə olması özünün də ədəbi fəaliyyətə başlaması ilə əlaqədar idi. A.Şaiqin nümunə məktəbində oxuduğu illərdə A.İldırım H.Cavid, Ə.Cavad, C.Cabbarlı kimi görkəmli ədiblərlə də tanış olur, onların əsərlərini mütaliə edir. Ədib 1926-cı ildə bünövrəsi qoyulan “Qızıl qələmlər ittifaqı”nda fəaliyyətini davam etdirir. Azərbaycanda sovet rejimi qurulduqdan sonra şairin ailəsi sovet totalitar rejimi tərəfindən həyata keçirilən cəza tədbirlərinin hədəfinə çevrilir. Şeirlərinin məzmununa, bəzilərinin Türkiyədə çap olunmasına, eyni zamanda, varlı tacir oğlu olduğuna görə o, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərq ədəbiyyatı fakültəsindən xaric edilmişdir. Əslində isə, Almasın atası Əbdülməhəmməd kişi Çəmbərəkənddə xırda alış-verişlə məşğul olurdu ki, bundan da əldə olunan qazanc onun ailəsinin ən zəruri ehtiyaclarını zorla ödəyirdi. 1928-ci ildə şair şeirlərində ifadə olunan millətçi ismarıclara görə Dağıstana sürgün edilir, sürgünə səbəb olan şeiri isə Türkiyədə “Həyat” jurnalında nəşr olunur. Sürgündə olarkən “Dağlardan xatirələr”, “Günah kimdədir?” və s. kimi şeirlərini yazır. 1930-cu ildə Bakıya qayıdıb “Dağlar səslənirkən” şeirlər məcmuəsini nəşr etdirir. Lakin kitab senzuradan keçməyib şairin Azərbaycan Yazıçılar Birliyindən qovulmasına səbəb olur. Bu dəfə şair Türkmənistana sürgün edilir. Burada bir müddət məktəb direktoru vəzifəsində çalışır. Onun haqqında totalitar rejim bu qərara gəlir: “A.İldırım ideologiyamız üçün zərərli bir insandır”. Türkmənistanda qalmaq onun üçün təhlükəli idi. 1933-

cü ildə ailəsi ilə birlikdə İrana gedir. Sərhəd gözətçilərinin və gömrük məmurlarının gözünə görünməmək üçün ən çətin yollarla sıldırım qayalar ötüb məşəqqətlə İran torpağına çatırlar. A.İldırım dərhal həbs olunur. İşgəncələrlə keçən 25 gün nəhayət sona yetir, şair azadlığa qovuşur. Lakin bu işgəncələr şairin səhhətində dərin izlər qoyur, ədib sağalmaz böyrək xəstəliyinə mübtəla olur. İranda sənətkar ürəyincə iş tapa bilmir, acınacaqlı, yoxsul həyat keçirir. İrandan Türkiyəyə gedir, 1934-cü ildə Türkiyə vətəndaşlığına qəbul edilir. Burada kargüzarlıqla, katibliklə məşğul olur, ibtidai məktəbdə dərs deyir. Burada yaradıcılığını davam etdirən şair 1954-cü il yanvarın 14-də, bazar ertəsi günü mühacir şair böyrək xəstəliyindən vəfat edir, gözlərini əbədi olaraq yumur. Bu barədə Türkiyədə çap edilən bir neçə qəzetdə o cümlədən "Azərbaycan" dərgisində bir səhifə məlumat verilmişdir. Qeyd edək ki, Bakının Şüvəlan kəndində Almas İldırımın adını daşıyan küçə vardır.

Almas İldırım "cığırdaş" yazarlardan sayılırdı. Cığırdaş yazar, kommunist görüşünə görə, sovet rejiminə prinsip etibarilə müxalif olmayıb onunla ədəbi sahədə işbirliyi yapmağa amadə bulunan qələm sahibi deməkdir. Akademik Bəkir Nəbiyevin belə bir mülahizəsi ilə biz də tam razıyıq ki, "20 yaşı təzə tamam olan bir gənc istedadın C.Məmmədquluzadə, H.Cavid, A.Şaiq kimi "qocaman", "köhnə" sənətkarlarla birlikdə "cığırdaş" kateqoriyasına salınması bir tərəfdən onun ictimai mənşəyi ilə ("tacir oğlu") əlaqədar idisə, o biri tərəfdən A.İldırımın İstanbulda çap olunmuş şeirlərinin hələ də unudulmaması ilə bağlı idi". Burada izahat üçün qeyd edək ki, 1926-cı ildə İstanbulda çıxan "Həyat" dərgisində A.İldırımın "A dağlar", "Sevdiyim" və s. şeirləri çap olunmuşdur. Gənc şairin "cığırdaşlar"lar siyahısına salınmasının digər bir səbəbi isə müxtəlif ədəbi-mədəni tədbirlərdə, yığıncaqlarda dövrün, cəmiyyətdəki hakim ideologiyanın tələblərinə uyğun gəlməyən çıxışlar etməsi idi.

Bütövlükdə Almas İldırımın poeziyası aşağıdakı şəkildə səciyyələndirilə bilər:

1. Vətəndə yazılan şeirlər;
2. Sürgün şeirləri;
3. Qürbət şeirləri.

A.İldırımın həyatı əziyyət və məşəqqətli olmuş, buna baxmayaraq, onun doğma Azərbaycana məhəbbəti sönməmiş və o, ana Vətəninin istiqbalına, müstəqilliyinə dərin bir ümid bəsləmişdir. Ədibin sürgün həyatı yaşaması onun yaradıcılığının məzmununa ciddi təsir göstərmiş, mövzularının hüdudlarını genişləndirmiş, ictimai baxışlarında əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Lakin bir məsələyə diqqət yetirmək lazımdır ki, Almas İldırımın vətəndə, sürgündə və qürbətdə yazdığı şeirlərinin arasında görünməz bir həlqə, ruhi-mənəvi bağlılıq duyulmaqdadır [6]. Vətən

həsrəti, qəribliyin hüznü onun demək olar ki, bütün əsərlərinin aparıcı ahəngini təşkil edir. "Əsir Azərbaycanım" şeirində şair ürək ağrısı ilə yazır:

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə "laylay balam" çağıran,
Azərbaycan, mənim baxtsız anam oy!
Neçə bir il həsrətinlə yanam oy?! [2. s, 115].

Bütövlükdə Almas İldırım poeziyasının mayasının iztirab, kədər və dərddən yoğrulduğu aşkar duyulmaqdadır. Bu, bir yandan mühacirliyin, Vətənə əl yetməzliyinin doğurduğu hiss, qarşı tərəfdən isə məmləkətin əsir, kölə həyatının gətirmiş olduğu acı, çəkilməz kədər duyğusudur.

Türkiyədəki həyatında istiqlalçı şair olaraq tanınmış Almas İldırımın bu dövr yaradıcılığı mühacir poeziyasının parlaq nümunələrindəndir: "Boğulmayan bir səs" (1936), "Azərbaycan mahnıları" (1938), "Bayatılar" (1943, 1947), "Seçilmiş şeirləri" (nəşri 1953), "İgidlərə səsləniş" (nəşri 1990) kitabları, "Qara dastan", "Bir gün gələcək", "Sürgün" və s. poemaları [2. s, 118].

Şairin həyatına həsr olunmuş film 1991-ci ildə ekranlaşdırılmış, rejissoru isə Zaur Məhərrəmovdur. Filmdə vətənindən didərgin salınmış Azərbaycan şairi Almas İldırımın ömür və sənət yolundan danışılır. Şair Türkiyədə yaşayıb yaratsa da, bütün şeirləri Azərbaycanla, onun əsrarəngiz təbiəti ilə bağlıdır. Xüsusi vurğulamaq istərdik ki, zərif və qüdrətli poeziya sahibi Almas İldırımın 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir [5].

Ötən yüzilin son onilliyindən başlayaraq Almas İldırımın şeirləri Azərbaycanda nəşr edilməkdədir. Bunların içərsində tanınmış jurnalist Hacı Hacıyevin nəşrə hazırladığı "Azərbaycanın didərgin salınmış övladı Almas İldırım şeirlərilə" (Bakı, 1990) və ədəbiyyatşünas Maarif Teymurun tərtibatında işıq üzü görən "Qara dastan" (Bakı, 1994) kitablarını göstərmək olar. Lakin bütün araşdırmalar şairin bədii yaradıcılığını bütünlüklə əhatə etmir; şairin ədəbi irsinin küll halında toplanaraq nəşr olunmasına, haqqında ciddi, sistemli tədqiqatlar aparılmasına ehtiyac duyulmaqdadır.

**Nəticə.** Azərbaycanın dahi oğul və qızları, ədibləri, alimləri, şair və yazıçıları müxtəlif səbəblər üzündən vətəndən didərgin, ayrı düşsələr də, yaradıcılıqla məşğul olmuşlar. Beləliklə, Azərbaycanın zəngin, çoxşaxəli, rəngarəng mühacirət ədəbiyyatı meydana gəlmişdir. Vətəndən ayrı düşən belə ziyalılar öz hisslərini, həyəcanlarını, fikirlərini, arzu və istəklərini ağ kağıza yazmış, belə əsərlərin hər sətrindən vətən həsrəti duyulur. Azərbaycan mühacirət poeziyasının qüdrətli simalarından biri, adı və əsərləri qəm, həsrət və ayrılıq simvolu kimi mənalanan Almas İldırım özünəməxsus, bənzərsiz poetik fərdiyyəti, üslub tərzi ilə diqqəti çəkməkdədir. Vətəni Almas İldırım kimi incə, zərif, eyni zamanda qüdrətli, mübariz ruhlu

misralarla vəsf etmiş ikinci şair xatırlamaq mümkün deyil. Qürbətdə Azərbaycan yanğısını yaşadan şairin həyatı, yaradıcılığı, Vətənə bəslədiyi saf məhəbbət bütün Azərbaycan gənclərinə örnəkdir.

**Ədəbiyyat siyahısı:**


1. Almas İldırım. //http //Almas% C4%B0ld%C4%B1r%C4%B1m
2. Almas İldırım. Seçilmiş əsərləri. Bakı, Öndər Nəşriyyat, 2004, 160 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. I cild. Bakı, Lider Nəşriyyat, 2004, 440 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. II cild. Bakı, Lider Nəşriyyat, 2005, 472 s.
5. Azərbaycan, mənim taxtım, tacım oy. Şərq qəzeti. //www.sherg.az/2011/11/29/read=43898
6. Vaqif Sultanlı. Almas İldırım. //https://vaqifsultanli.wordpress.com/2012/06/)4/almas-ildirim/

# AZƏRBAYCAN II DÜNYA MÜHARIBƏSİ İLLƏRİNDƏ - ƏBDÜRRƏHMAN BƏY FƏTƏLİBƏYLİ-DÜDƏNGİNSKİ

**Məmmədli Minə Tofiq qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**mammadli.mine@gmail.com**

*Bu məqalədə Azərbaycan mühacirətindən xüsusilə ictimai fikrin formalaşmasında mühüm rol oynayan Əbdürrəhim Fətəlibəyli Düdənginskinin fəaliyyətindən bəhs olunur. Mühacirətin yaranma səbəbləri, təşkili, formalaşması və bunların öyrənilməsi əsas problemlərdən biridir. Azərbaycandan xaricdə yaşayan mühacirlər, eləcə də onlardan biri olan Əbdürrəhim Fətəlibəyli Düdənginski öz ölkəsi üçün vacib işlər görmüşlər.*

***Açar sözlər:*** *Mühacirət, Azərbaycan, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski*

***Azerbaijan in the World War II and Abdurrahman Fatalibeyli-Dudanginsky***

*This article deals with Azerbaijan immigration – especially, Abdurrahman Fatalibeyli-Dudanginsky's activity, which was important influence to the formation of public thoughts. This article also researches the reasons, arrangement, formulation of immigration and their learning is one if the main problems. The immigrants, who living outside of Azerbaijan andAbdurrahman Fatalibeyli-Dudanginskywas one of them, have done important activities for their country.*

***Key words:*** *İmmigration, Azerbaijan, Abdurrahman Fatalibeyli-Dudanginsky*

**Giriş.** Almaniya ilə müharibəyə səfərbər olmuş azərbaycanlı zabit və döyüşçülərin bir hissəsi Vətənimizi istila etmiş bolşevik Rusiyasına nifrət etdiklərindən qəsdən əsir düşüb, alman əsgərləri ilə birlikdə Sovet rejiminə qarşı mübarizə aparmaq və Azərbaycanın istiqlaliyyətini bu yolla bərpa etmək niyyətində idilər. Bolşeviklər istilasından sonra vətəndən kənarda-mühacirətdə yaşamağa məcbur olan siyasi mühacirlərin bir hissəsi müharibə dövründə azərbaycanlı hərbi əsirlərin milli legionların yaradılması və ən əsası Hitler Almaniyasının Azərbaycanın müstəqilliyini tanıması istiqamətində fəaliyyətə başlamışdılar. Müharibədə azərbaycanlı hərbi əsirlərdən ibarət olub, Almaniyanın tərəfində vuruşacaq Milli legionların yaradılmasında vətənpərvər zabit Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin xüsusi rolu olmuşdur. 1940-cı ildə Moskva Hərbi Akademiyasını bitirərək sovet ordusunda mayor rütbəsinədək yüksəlmiş Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski Baltik sahilləri uğrunda aparılan döyüşlərin birində almanlara əsir düşmüşdü. O, 1941-ci ilin noyabrında Hitlerə məktub yazaraq Azərbaycan legionlarının yaradılmasının zəruriliyi fikrini bildirmişdi. Ə.Fətəlibəyli-Düdənginski onun və digər azərbaycanlıların Hitler Almaniyası ilə

nəyə görə əməkdaşlıq yolu tutduğunu belə izah edirdi: "Biz atalarımızın ənənələrini tapdalayıb, xalqımızı kölə halına salan, Hitler ilə Polşanı bölən, Baltik ölkələrinin müstəqilliyini əlindən alan, Finlandiyanı darmadağın edən böyük Rusiya uğrunda savaşa bilməzdik. Ona görə də almanların tərəfinə keçərək bolşevizmin kölə etdiyi digər xalqlarla birlikdə Vətən azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qoşulmuşuq." Ə. Fətəlibəyli-Düdənginski bolşevizmə qarşı mübarizə məqsədilə ABŞ-ın yaratdığı "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının başçısı kimi fəaliyyətə başlamış, Vətənini və Azərbaycanın istiqlalını canından artıq sevən bu parlaq şəxsiyyət 1954-cü ildə Sovet ordusu tərəfində xaincəsinə öldürülmüşdü (1,s.305-306).

Müharibənin başlanması, ilk vaxtlarda alman-faşist ordularının müvəffəqiyyətləri ilə əlaqədar azərbaycanlı döyüşçülərin bir hissəsində yeni bir düşüncə tərzi yaratdı və onlar itirilmiş müstəqilliyi bərpa etmək uğrunda mübarizəyə başlayaraq sanki bolşevik Rusiyasından və İosif Stalindən intiqam almaq istəyirdilər. Mühacirlər əsir düşmüş azərbaycanlıların içərisində ayrıca milli legionların yaradılması və ən mühümü isə Almaniyanın Azərbaycanın müstəqilliyini tanıması istiqamətində intensiv iş aparırdılar. Alman tədqiqatçısı P.Münhen yazırdı ki, 1941-ci ilin noyabrın 1-nə qədər 2 milyondan artıq sabiq Qırmızı Ordu döyüşçüsü əsir düşmüşdü. Şərq Nazirliyinin rəhbəri H. Rozenbeq əsir düşənlərin 3,6 milyon olduğunu göstərirdi. Ə. Fətəlibəyli-Düdənginskinin məlumatlarına görə, əsir düşənlərin 150 min nəfərdən çoxu azərbaycanlı və digər Qafqaz xalqlarından idi (2,s.354-355).

**Azərbaycan mühacirətinin nümayəndəsi Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski.** Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski 1908-ci ildə Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olmuşdur. Gənc yaşlarında hərbi xidmətə gedən Ə.Fətəlibəyli-Düdənginski Rusiya imperiyası ordusunda, Azərbaycan diviziyasında xidmət etmiş və Moskvada Hərbi Akademiyada təhsil almışdır. O, 1940-cı ildə sovet qoşunları Baltikyanı əraziləri işğal edərkən döyüşlərin birində əsir düşərək alman ordusu tərəfinə keçir, Almaniyada həbs düşərgəsində olarkən Azərbaycan legionun təşkilində və milli Azərbaycan Qurultayının keçirilməsində fəallıq göstərir, çoxlu sayda əsirləri ölümdən qurtarır. 1940-1950-cı illərdə Almaniyada bolşevizmə qarşı bir tərəfdən ictimai-siyasi fəaliyyətlə məşğul olan Ə.Fətəlibəyli-Düdənginski digər tərəfdən isə ideoloji-fəlsəfi savaş aparmış və Azərbaycan türkçülüyü ideyası yaratmağa çalışmışdır. Bu məqsədlə II Dünya müharibəsi illərində (1939-1945) yaranmış Azərbaycan Milli Birlik Məclisinin rəhbəri vəzifəsinə seçilən Ə. Fətəlibəyli-Düdənginski özü sonralar yazırdı ki, həmin dövrdə bu təşkilat təsadüfən yaranmamışdı. "Milli Birliyin" yaranmasının başlıca səbəbi Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra ən çox təcavüzə uğraması, yəni milli mənsubiyyəti, milli dili və tarixi tamamilə saxtalaşdırılmış yeganə millət olması idi.

Ə. Fətəlibəyli-Düdənginski öz yazılarında SSRİ-nin digər Sovet xalqları ilə müqayisədə Azərbaycan əhalisinə qarşı dini, etnik və siyasi ayrı-seçkiliyin qoyulduğu haqqında da ətraflı məlumat verir (4.s.246-249).

H.Rozenberqin istəyinə rəğmən 3 nəfərdən ibarət təşkil olunan Azərbaycan "İrtibat Heyətinə" mayor Əbdürrəhman Fətəlibəyli-Düdənginski, "Qafqaz" qrupunun fəalı Fuad Əmircan və 1920-ci ildə Azərbaycan Parlamenti tərəfindən Paris sülh konfransına göndərilən Abbas bəy Atamalıbəyov daxil edildilər. Ə.Fətəlibəyli-Düdənginski böyük enerji ilə azərbaycanlıların hüquqlarını müdafiə edir, almanlarla o qədər də asan olmayan iş birliyi yaradır, mürəkkəb tarixi şəraitdə Azərbaycanın müstəqilliyinin tanınmasına çalışırdı. Bu məqsədlə 1943-cü ilin noyabrında Berlində 300 nəfər soydaşlarımızın iştirak etdiyi qurultay oldu. Qurultayda H. Rozenberq də iştirak edirdi. Burada hələ Azərbaycanın müstəqilliyini tanımayan Almaniyanın siyasəti tənqid edildi. Qurultayda Ə. Fətəlibəyli-Düdənginskinin məruzəsi üzrə 5 bənddən ibarət qərar qəbul edildi. Ə. Fətəlibəyli-Düdənginskinin çıxışı belə idi: "Yeni Azərbaycanda daxili münaqişələrə, sinfi müharibələrə yer ola bilməz. Biz yol verə bilmərik ki, Yeni Azərbaycanda köhnə hadisələrin hesabı aparılsın. Hər bir inciklik unudulmalıdır. Biz xalqımızın gücünü bu cür dağıdıcı işə sərf edə bilmərik. Xalqın bütün enerjisi yaradıcı, mədəni işə istiqamətləndiriləcək. Tam sərbəstlik yaratmaq və işləmək imkanı bolşeviklərin dövründə kim olmasına baxmayaraq hər bir azərbaycanlıya veriləcək. Yeni Azərbaycanda bir-biri ilə müharibə aparan siniflər ola bilməz. Vahid, zəhmətkeş Azərbaycan xalqı olacaq. Biz Azərbaycanda yaşayan digər millətlərin zəhmətkeşlərinə qonaqpərvər münasibət bəsləyəcəyik, təki onlarda bizimlə çalışmaq həvəsi olsun." (7.s.47).

Qurultayda qəbul edilən qərarların böyük əhəmiyyəti oldu. A.Hitlerin müsəlmanlara inamı artdı. 1943-cü ilin payızında Berlində mühacir Azərbaycan parlamenti və Azərbaycan Hökuməti yaradıldı. Hökumətin başında Ə.Fətəlibəyli-Düdənginski dururdu. Almaniya hökuməti "Mühacir Azərbaycan hökuməti"ni tanıdı. Bu hökumət 1944-cü ilin qışınadək fəaliyyət göstərmişdi (2,s.358).

Müharibə qurtardıqdan sonra azərbaycanlı legionçular dünyanın müxtəlif ölkələrinə səpələndilər. Almaniyanın məğlubiyyətindən sonra Azərbaycan Milli Hökumətinin prezidenti Ə.Fətəlibəyli-Düdənginskinin ağır mühacirət dövrü başlayır (2,s.259). O, İtaliyada, Misirdə olur, daha sonra Türkiyəyə gedir (5,s.86). Onu "Bolşevizmə qarşı mübarizə" məqsədilə ABŞ ideoloji təbliğat vasitəsi olan "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının redaktoru vəzifəsində işləmiş və Sovet hökuməti əleyhinə olan verilişlər hazırlamışdır. O, eyni zamanda Münhendə ABŞ dövlətinin dəstəyi ilə Azərbaycan və rus dillərində "Azərbaycan" jurnalını nəşr etdirir. 1952-ci ildə Münhendə "Azərbaycan" jurnalının ilk sayının nəşri mühacirləri çox sevindirmişdi. Həmçinin, Ə. Fətəlibəyli-Düdənginski Parisə - Ceyhun bəy Hacıbəyliyə göndərdiyi məktublarda "Azərbaycan" jurnalı-

nın nəşri ilə bağlı çətinliklərin olduğunu qeyd edirdi. Göstərirdi ki, maddi imkanlara görə jurnalın 2-ci sayını nəşr etdirmək çətinləşib. O bütün bunlara rəğmən mövcud imkansızlıqlara baxmayaraq jurnalın növbəti sayını nəşr etdirməyi planlayırdı (3.s.4-5).

Ə.Fətəlibəyli-Düdənginski "Azərbaycan" jurnalında çap edilmiş məqalələri öz məna dərinliyi və əhatəliliyi ilə seçilir. O, adı çəkilən jurnalda çap olunan məqalələrinin birində kommunizm haqqında fikirlərini şərh edir. Onun fikrincə kommunizmin ilk növbədə çoxsaylı proletariatı olan, yüksək inkişaf etmiş kapitalist sistemli ölkədə qələbə çalması doğru çıxmadı. O, qeyd edir ki, kommunizm ölkənin yüksək inkişaf etmiş sənayesi və mədəniyyətinin olmasından və yaxud əksinə, aqrar, köhnə istehsal üsullu olmasından asılı olmayaraq xalqın milli dəyərlərini itirdiyi bir ölkədə qələbə çala bilər.

**Nəticə.** II Dünya müharibəsindən sonra da Ə. Fətəlibəyli-Düdənginski ətrafında yaranan qruplaşma əski mühacirlərlə o qədər də xoşagələn münasibətdə deyildi. Ancaq belə vəziyyətin yaranmasında əsas amil bu dəfə sovetlərin apardığı təbliğatla dünyagörüşlərində müəyyən dəyişmələr müşahidə olunan yeni mühacirətin 21 apreldən sonra vətəni tərk edənlərlə çətin dil tapması idi. Mühacirəti sarsıtmaq üçün sovet dövlətinin seçdiyi metodlardan biri də terror idi. Mövcud çətinliklərə, məhrumiyyətlərə, terror və təzyiqlərə baxmayaraq Azərbaycan mühacirəti milli istiqlal məsələsinə axıradək sadiq qaldı. Hətta, II Dünya müharibəsi illərində də mühacirlərimiz alman rəsmi dairələrinin Azərbaycanın müstəqilliyini tanımasına çalışırdı.

Azərbaycan mühacirləri çox gözəl bilirdilər ki, xaricdə nə iş görülsə də, Azərbaycan problemi Azərbaycanın özündə başlamış, özündə də sona çatacaqdır. Lakin mühacirlərin təmənnasız xidmətindən, gərgin zəhmətindən çox şey asılı idi. Millətin bu istiqlalına nə vaxt qovuşacağından asılı olmayaraq mühacirlər vətən qarşısında övlad, vətəndaş borcunu vermək haqqında fikirləşirdilər.

İndi Azərbaycan mühacirlərimizin arzuladıqları kimi müstəqildir və regionun ən güclü dövlətinə çevrilmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) / M.Q. Abdullayevin elmi redaktorluğu ilə. Bakı. Bakı Universiteti nəşriyyatı, 2014, 380 s.
2. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. 2-ci hissə (19-20-ci əsin əvvəli). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2010. 545 s.
3. Azərbaycan jurnalı. Ankara, 1955.
4. İbrahimli X. Azərbaycan mühacirəti tarixi .Bakı, ADPU nəş., 2012, 358 s.
5. Yaqublu N. Azərbaycan mühacirət irsi. Bakı, "Elm və təhsil", 2011, 232 s.
6. Yaqublu N. Azərbaycan legionerləri. Bakı, "Çıraq", 2005, 336 s.
7. Yaqublu N. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı, "Abşeron Nəşr", 2009, 262 s.

# II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ALMANİYA SİYASİ DAİRƏLƏRİNİN "AZƏRBAYCAN PLANINDA" SİYASİ MÜHACİRLƏR VƏ LEGİONERLƏR

**Məmmədova Kəmalə İbadəddin qızı**
**Tarix fakültəsi, dissertant**
**kamala-71@mail.ru**

*Məqalədə II dünya müharibəsi dövründə nasist Almaniyasının Azərbaycanla bağlı planlarında həm siyasi mühacirlərin, həm də legionların fəaliyyətinə müxtəlif aspektdə müraciət edilmiş və onların mahiyyətinə aydınlıq gətirilmişdir.* ***Eyni*** *zamanda yeni sənədlər əsasında mühacirət mətbuatına diqqət çəkilməklə bu problemin istiqlal mübarizəsi ilə bağlı olduğu açıqlanmışdır.*

***Açar sözlər:*** *siyasi mühacirlər, legioner, Rozenberq, istiqlql mübarizəsi, Qızıl Ordu*

***Political emigrants and legionaries in the "Azerbaijani plan" of the German political circles during the World War II***

*There was a clear information about plans of the Nazi Germany according to Azerbaijan exactly about the politicial operations and acts of legions in different aspects in the article. Meanwhile there was information given about the attention payed to this theme due to new documents linked with the fight for freedom.*

***Key words****:politicial operations, legioner, Rozenberg, a fight for freedom Red Army.*

Azərbaycan mühacirəti ilə bağlı müxtəlif araşdırmalar mövcud olsa da, bu tədqiqatlarda mühacirətin yaranması, formalaşması, siyasi mühacirlərin həyatı və fəaliyyəti, mühacirət mətbuatımız, onun yaradıcıları haqqında elmi nəticələr əldə edilsə də, hər cür ideoloji təsirdən uzaq olmuş, faktları obyektiv işıqlandırmış və problemləri doğru olaraq ictimai fikrə təqdim edən mühacirətin və mühacirət irsimizin müxtəlif tarixi dövrləri hələ də tədqiqatçıların diqqət mərkəzində duran aktual mövzulardandır.

Azərbaycan mühacirəti problemi II dünya müharibəsi dövründəki milli istiqlal mübarizəsi ilə də sıx əlaqəli olduğundan tədqiqatın hələ də öyrənilməmiş səhifələri qalmaqdadır. Bu baxımdan, müasir dövrdə mühacirət tariximizin və mühacirət irsimizın daha dərindən tədqiqi üçün Türkiyədə, Almaniyada, Polşada nəşr edilən qəzet və jurnallar, məqalələr, kitablar, aparılan elmi araşdırmalar toplanılaraq Azərbaycana gətirilməli, azərbaycanlı mühacirlərin ayrı-ayrı ölkələrdəki fəaliyyətləri araşdırılmalı və eyni zamanda, onların zaman-zaman Azərbaycan diasporunu formalaşdırmaq cəhdləri öyrənilməlidir.

II dünya müharibəsi dövründən bizi müəyyən zaman kəsiyi ayırsa da, nəsillər təzələnsə də bu müharibə ayrı-ayrı xalqlarla yanaşı, Azərbaycan xalqına da elə böyük fiziki və mənəvi zərbələr vurub ki, tarixin qaranlıq səhifələrinə işıq salaraq həmin dövrə yenidən qayıtmağa, həmin hadisələri yenidən araşdıqmağa ehtiyac vardır. Bu baxımdan məqalədə biz II Dünya müharibəsi dövründə Almaniya siyasi dairələrinin Qafqaz, eyni zamanda Azərbaycanla bağlı planları, Almaniyada Azərbaycan siyasi mühacirlərinin və legionların yaşadığı mühit, onların fəaliyyəti, mübarizə üsulları və s. məsələlər haqqında qısaca da olsa bəhs edəcək, problemə bu günün reallıqları prizmasından nəzər salaraq, müasir baxış mövqeyindən onları işıqlandırmağa və tədqiq etməyə çalışacağıq.

Tədqiqatçı Məmməd Cəfərlinin də qeyd etdiyi kimi, "bizim belə bir vacib və ağrılı mövzuya müraciətimiz bir tərəfdən Azərbaycan xalqının faşizm caynağında əzilən, məhrumiyyətlərə düçar olan, hətta əsir düşdükdə belə siyasi mühacirlərlə birləşərək Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparanların bir hissəsinin ruhu qarşısındakı mənəvi-əxlaqi, vətəndaşlıq borcundan irəli gəlirsə, digər tərəfdən tariximizin az və bitərəfli, eləcə də təhriflərlə, “satqın”, “vətən xaini” yarlıqları ilə öyrənilən, sosialist tayfi (görüntü - K.M.) altında gizlədilən həqiqətlərin üzə çıxarılıb xalqa çatdırılmasına xidmət edir" (1, s.4). Eyni zamanda, bu dövrün tarixinin ideoloji təsirlərdən uzaq, obyektiv tədqiq edilməsi hər bir tədqiqatçının öz xalqı qarşısında həm də mənəvi borcudur.

Məlum olduğu kimi, 1920-ci ildə Azərbaycanın işğalından sonra xaricə güclü axın etmiş milli mühacirət iki əsas qrupa: siyasi və qeyri-siyasi mühacirlərə bölünürdü.

1941-ci ildə alman-sovet müharibəsinin başlanması mühacir təşkilatlarının fəaliyyətini canlandırmaqla yanaşı, Azərbaycan siyasi mühacirətini fəaliyyət istiqamətlərini dəyişmə zəruriyyəti ilə üzləşdirdi. Mühacirlərin müharibə dövründəki fəaliyyəti iki qismə ayrılırdı: “1.Əsir düşmüş azərbaycanlıların xilas edilməsi, ayrıca döyüş legionlarının təşkili; 2. Almaniyanın Azərbaycanın müstəqilliyini tanıması istiqamətində iş” (2, s.176).

Bəzi məlumatlara görə, müharibənin başlanğıcından 1941-ci ilin 1 noyabr tarixinədək alman düşərgələrində iki milyondan çox sabiq Qızıl Ordu mənsubu toplanmışdı. Hətta Alfred Rozenberq məlumatında bu sayın 3,6 milyon olduğunu söyləyirdi. Həmin əsirlər içərisindən könüllü almanlar tərəfə keçən azərbaycanlıların sayları ilə bağlı məlumatı biz Ə.F.Düdənginskinin Biçeroxova açıq məktubundan əldə edirik: “Almaniya tərəfə keçən azəri türklərinin (Azərbaycan türkləri - K.M.) sayı 150 min, bütün türklərin və başqa qafqazlıların sayı isə milyona çatırdı”(3).

Əslində, “müharibənin ilk aylarında əsirlərlə bağlı yaranan problem

haradan qaynaqlanırdı" sualına cavab tapmaq o qədər də çətin deyil. SSRİ-nin müharibəyə hazırlıqsız yaxalanması, müharibənin ilk illərində sovet ordusunda vəziyyətin dözülməz dərəcədə ağırlığı, Stalinin cinayət xarakterli nöqsanları, müharibə ərəfəsində ölkədəki daxili ictimai-siyasi vəziyyət və s., eyni zamanda bütün bunlar azmış kimi ölkə başçısının 270 saylı 16 avqust 1941-ci il tarixli əmri sovet əsgərlərinin bir hissəsinin düşmən tərəfə keçməsinə səbəb olmuşdu. 270 saylı əmrdə deyilirdi: "Əgər Qızıl Ordu hissəsi müqavimət təşkil etmək əvəzinə, əsir düşürsə, onu bütün yer və havadakı vasitələrlə məhv etmək lazımdır"(4, s.5).

II Dünya müharibəsinin ilk dövrlərindən faşist Almaniyasının hərbi-siyasi və strateji planlarında Qafqaz və onun zəngin neft ehtiyatları müstəsna əhəmiyyətə malik olduğu üçün Rozenbergin təşəbbüsü ilə 1941-ci ilin aprelində Almaniya protektoratlığı altında Qafqazın geosiyası konsepsiyası işlənib hazırlanmışdı. Təsadüfi deyildi ki, 1941-ci il iyunun 11-də Almaniya Baş qərargahının hazırladığı 32 saylı direktivə görə Üçüncü Reyxin Yaxın Şərqə gedən yolu məhz, Qafqazdan keçməli və Qafqaz regionu işğal edildikdən sonra alman orduları buradan Yaxın Şərqə hərəkət etməli idilər. Ona görə də Almaniyanın hərbi, siyasi, diplomatik və kəşfiyyat idarələri Qafqazın işğalına böyük əhəmiyyət verir və bu məqsədlə Qafqaz mühacirlərindən istifadə etməyi nəzərdə tuturdular (5, s.269) .

1941-ci il iyulun 17-də Alfred Rozenberqin rəhbərliyi ilə işğal olunmuş şərq vilayətləri üzrə yaradılan Şərq Nazirliyi Rusiyanın idarə olunması və inzibati bölgüsü ilə bağlı qeyri-rus xalqların müstəqilliyini müdafiə etdiyi ücün bu nazirliyin nəzdində hərbi əsirlərin işi üzrə komissiya yaradıldı. Nasional-sosialist xadimləri və bir sıra yüksək rütbəli hərbi dairələr bu təşəbbüsə qarşı ciddi müqavimət göstərirsələr də, lakin bütün əngəllərə rəğmən "legionlar, alman ordusuyla irtibat halındakı Şərq Nazirliyinin 1941-ci ilin avqustundan etibarən sovet əsirlərini millətlərinə görə ayırıb, düşərgələrə yerləşdirmək tapşırığını verdiyi hərb əsiri komissiyalarının böyük köməyi ilə meydana gəlmişdilər" (6, s.53).

Legionerlərin hərbi və siyasi hazırlığı ümumi andiçmə və milli bayrağın təqdim edilməsi ilə yekunlaşırdı. Legionerlər faşizmi müdafiə etmirdilər, onların böyük əksəriyyəti faşizmə və bolşevizmə eyni dərəcədə nifrət hissi ilə yaşayırdılar. Onların əksəriyyətini vətənin müstəqilliyi uğrunda və bolşevizmə qarşı mübarizə ideyası birləşdirirdi. Lakin bu bir həqiqətdir ki, onlar faşizmlə bolşevizmin əzən, məhv edən qatarlarının tırtılları arasında qalmışdılar.

Legionerlərin ideoloji cəhətdən hazırlığında aparıcı rolu əsasən keçmiş mühacirlər oynayırdı. Şərq işğal vilayətləri üzrə nazirliyin nümayəndəsi professor Gerhard fon Mende, SS briqadenfürer Simmerman və digərləri bu məqsədlə mühacirlərlə əlaqələr qururdular. Bir sıra mühacirlərin

“Almaniyanın Sovetlərin türk xalqlarına müstəqillik vermək niyyəti yoxdur” fikri ilə Berlindən bədbin qayıtması Üçüncü Reyxin bəzi dairələrini narahat etməyə başlamışdı. Sovet ərazilərini işğal etdikdən sonra Rusiya və Ukraynadan fərqli olaraq Almaniya Qafqaz və Orta Asiyada yerli nüfuzlu şəxslərdən istifadə etməyi planlaşdırırdı. Bu məqsədlə onlar Almaniyanın "Yeni Avropa" planında Türkiyəyə böyük önəm verir və orada yerləşən Qafqaz və Orta Asiya mühacir qruplarının fəallaşdırılmasını zəruri hesab edirdilər. Alman rəsmilərinin fikrincə, Almaniya Qafqazı tutduqdan sonra burada yerli adamlardan ibarət hökumət yaradılmasını mümkün sayır, əslində isə hakimiyyətin alman müşavirlər tərəfindən idarə olunmasını nəzərdə tuturdu (5, s.276). 1941-ci ilin payızında Türkiyədə yaşayan Azərbaycan mühacirləri də sovet-alman müharibəsinin başlanması və Almaniyanın qazandığı hərbi uğurların təsiri altında xeyli fəallaşmışdılar (5, s.273).

Ankaradakı Almaniya səfiri fon Papenin etibarlı bir mənbənin məlumatlarına əsasən 1941-ci il avqustun 5-də İmperiya Xarici İşlər Nazirliyi üçün hazırladığı "Pantürkist hərəkat" adlı geniş məruzəsinin mərkəzində Azərbaycan məsələsi dayanırdı. 1941-ci il noyabrın 24-də Ankaradakı Almaniya səfiri fon Papen Türkiyədəki Azərbaycan mühacirləri rəhbərliyinin Qafqazın azad olunması və gələcək siyasi inkişafı haqqında geniş məruzəsini Berlinə, Xarici İşlər Nazirliyinə göndərdi (5, s.286). Məruzədə qeyd olunurdu ki, "bizim suverenliyimizin tanınması, biz, Azərbaycan muxtariyyətçilərinə görə, almanlarla əməkdaşlığımızın mühüm şərtidir. Müstəqil Qafqaz, qaliblərin hüququna görə, əlbəttə ki, Almaniya nüfuz dairəsində olmalıdır, lakin Qafqazı Almaniyanın müstəmləkəsi formasında təsəvvür etmək Qafqaz xalqlarının bütün milli arzularının məhv olması deməkdir. Bu halda yeni aga peyda olacaq, yəni bir düşməni başqa düşmən əvəz edəcək, hətta ikincisi müqayisəyəgəlməz dərəcədə yaxşı və mədəni olsa da, ağa hər necə olursa olsun ağadır. Azadlıqsevər Qafqaz xalqları bütün öz tarixləri boyu nökər olmayıblar və azadlıqları uğrunda mübarizə aparıblar. Biz əminik ki, Almaniya bizim müstəqilliyimizi tanıyacaq və biz bu məruzə əsasında onunla əməkdaşlıq etməyə hazırıq" (5, s.288).

Burada bir məqama da diqqət çəkmək yerinə düşərdi. Azərbaycanın müstəqilliyinin bərpası ideyası mühacirət üzvlərini toplum halında birləşdirsə də, “əski” və “gənc” mühacirlər arasında müharibənin ilk illərində yaranmış fikir ayrılıqları müharibədən sonra da davam edir və aşağıdakı amillərdən doğurdu:

Alman rəhbərliyi tərəfindən 1941-ci ilin sonlarında Berlinə dəvət alan M.Ə.Rəsulzadəyə azərbaycanlı mühacirlər və hərbi əsirlər arasında “Azərbaycanın bolşevizmdən xilası” şüarı ilə “Milli Komitə” yaratmaq təklif edilir və M.Ə.Rəsulzadə Almaniya Xarici İşlər Nazirliyi qarşısında

Almaniyanın Azərbaycanın müstəqilliyini rəsmi surətdə tanıması və müharibə Almaniyanın xeyrinə qurtararsa və ölkəsinin müstəqilliyinin təminatçısı kimi çıxış edəcəyini elan etdikdən sonra “Milli Komitə”nin fəaliyyətə başlayacağını bəyan edir. Lakin nazirlik bu müraciəti cavabsız qoyduğu üçün M.Ə.Rəsulzadə tərəfindən formalaşdırılan Komitə faktiki olaraq fəaliyyət göstərmir.

Yaranmış vəziyyətlə əlaqədar olaraq “fəaliyyətsiz” Milli Komitəyə qarşı çıxan gənc mühacirlər və 1942-ci ildə Berlin müəssisələrində işləyən keçmiş hərbi əsirlər “Gənc azərbaycanlı millətçilər qrupu” təşkilatı yaradır və bu təşkilat dərhal, qeyd-şərtsiz bolşevizmə qarşı mübarizədə “almanlarla əməkdaşlıq şüarı” ilə çıxış edir. M.Ə.Rəsulzadə bir neçə dəfə Almaniyadakı azərbaycanlı icmalarının iştirakı ilə müşavirə keçirməyə cəhd göstərsə də, buna nail ola bilmir. Onun opponentləri bəyan edirlər ki, hər şeydən əvvəl faşist düşərgələrində məhv olan minlərlə azərbaycanlı hərbi əsiri xilas etmək lazımdır. Belə fikir ayrılığı nəticəsində 1943-cü ilin ortalarına qədər Almaniyadakı azərbaycanlı icmasına rəhbərlik edəcək milli orqanı yaratmaq mümkün olmur (1,s.11).

Göründüyü kimi, birinci tərəfi müstəqil Azərbaycan ideyası daha çox düşündürdüyü halda, ikinci tərəfi ilk növbədə, hərbi əsirlərin taleyi maraqlandırırdı.

Yeri gəlmişkən qeyd edək ki, azərbaycanlı hərbi əsirlərlə təmas quran M.Ə.Rəsulzadə Almaniya dövlətinin II dünya müharibəsində müstəqil Azərbaycan ideyası ilə bağlı yeritdiyi siyasəti tənqid etməkdən çəkinmir və bununla bağlı yazırdı: “1942 və 1943-cü illərdə Almaniyanın xarici işlər nazirliyinin dəvəti ilə digər Qafqazlı siyasi emiqrantlarla birlikdə Berlinə getdiyim zaman biri mənfi, digəri müsbət iki şeyə şahid oldum. Hitler Almaniyasının mövqeyi bütün mili məsələlərdə olduğu kimi Qafqazya məsələlərinə olan münasibətdə də mənfi idi. Berlindən milli mübarizəmizin əsaslarını gözləmək əbəsdi. “Ali irq”in nəzəriyyəçiləri ilə Polşadakı, Ukraynadakı və işğal olunan başqa məmləkətlərdəki alman praktikləri ən kiçik ümidə belə yer vermirdilər. Üzərimizə düşən yeganə vəzifə milli haqlarımızı tanımayan bir hökumətlə birgə fəaliyyətin baş tutmayacağını təsdiq edərək meydandan çıxmaqdı. Elə də etdik. Lakin bu sırada fürsət taparaq Almaniyadakı azərbaycanlı hərbi əsirlər ilə təmasda olmağa çalışdıq və buna qismən müvəffəq olduq. Bu təmasları Azərbaycandakı real vəziyyəti və yeni nəslin hansı əhvali-ruhiyyədə olduğunu öyrənmək üçün istifadə etdik. Bir az əvvəl bəhs etdiyimiz Berlin ziyafətinin müsbət hadisəsi budur” (7, s.103).

Daha xoşagəlməz hallardan biri də müharibədən sonra yeni yaranan mühacirət dalğasını cəlb etmək üçün onları süni surətdə “əski” və “yeni” mühacirlər adı ilə bölmək təşəbbüsləri idi (2, s. 195). Bununla əlaqədar olaraq P.Mühlenin Rəsulzadə ilə bağlı söylədiyi “Rəsulzadənin hərb əsiri

həmşəhriləriylə yapdığı görüşmələrdə iki ayrı dünya karşılaşıyordu. Lejyonerlər tərəfindən etimasızlıqla qarşılanıb Azərbaycanda xanların və böyük torpaq sahiblərinin hakimiyyətini yenidən təsis etmək istəməklə itham olunurdu. Sürəkli olaraq kəndisini “reaksiyoner” imajına qarşı savunmaq məcburiyyətində kalıyordu. Digər tərəfdən o da kəndisini Ruslaşmış, “proletarlaşmış” və yurdunun milli ənənələrindən uzaq yetişmiş bulduğu həmşəhrilərini yabançı hissediyordu” (6, s.110) fikrinin yanlış olduğuna diqqət çəkərək, bildirmək istərdik ki, əksinə M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi “nəsillər arasındakı mənəvi əlaqə qırılmamışdı. Əski nəslə mənsub milli mühacirətin şüurlu qismi tərəfindən təmsil olunan siyasi proqramın milli həmrəylik, ictimai ədalət və siyasi istiqlaldan bəhs edən üç əsası yeni nəslin ictimai və siyasi şüurunu müəyyən edirdi. Yeni mühacirətin siyasi düşüncəli qismi siyasi etiqadımızın yuxarıdakı “üçlü” ümdəsini böyük bir sevinc və vicdan rahatlığı ilə xəbər alırdı” (7, s.110).

M.Ə.Rəsulzadə Almaniyanı tərk etdikdən sonra 1943-cü il mayın sonunda Berlinin “Viktoriya” pansiyonunda Azərbaycan Respublikasının sabiq Ədliyyə Naziri X.Xasməmmədin sədrliyi ilə keçirilən görüşdə mühacirətin tanınmış köhnə və yeni xadimləri iştirak edirdilər. Almanlar bayraq üzərindəki aypara və ulduzu qadağan etmişdilər. Görüşdə “Nə etmək” sualı qoyulmuşdu. Fikir mübadilələrindən sonra qərara alındı: nasional-sosailistlər tərəfindən hansı şərtlər qoyulur-qoyulsun, onların bizə qarşı hansı münasibətləri olursa-olsun həmvətənlərimizi taleyin uğursuzluğuna buraxmağa bizim heç bir mənəvi haqqımız yoxdur. Onların qanı boş yerə deyil, azadlıq və müstəqillik yolunda axmışdı.

1943-cü il noyabrın 6-dan 8-dək, bəzi ədəbiyyatlarda 11-nə kimi Almaniyanın Berlin şəhərində “Kayzerhof” mehmanxanasında Ə.F.Düdənginskinin təşəbbüsü ilə azərbaycanlı legionerlərinin Milli Azərbaycan Qurultayı keçirildi. Düdənginski Almaniyadakı müxtəlif azərbaycanlı qurumların nümayəndələri ilə danışıqlardan sonra, həmin qrupların birləşdirilib vahid orqan yaradılması ideyasını Vermaxt gərargahında irəli sürür və bu fikir qəbul edilir. Qeyd edək ki, həmin vaxt Almaniyada Milli Azərbaycan Komitəsi, Gənc Azərbaycanın Millətçilər Qrupu və digər qruplar vardı. SSRİ-yə və bolşevizmə qarşı yönələcək bu birləşmədən Almaniya dövləti də öz maraqlarına uyğun faydalanmaq istəyirdi. Bu məqsədlə də Almaniya hökuməti Azərbaycan Milli Qurultayının keçirilməsinə şərait yaratdı (8, s.162).

Forumda 162-ci diviziyanın 314-cü piyada polku istisna olmaqla azərbaycanlıların xidmət etdiyi bütün hərbi hissələrdən 300 nümayəndə iştirak edirdi.

*“Azad və müstəqil Azərbaycan”* devizi altında keçirilən qurultayın deputatları alman dövləti qarşısında Azərbaycanın müstəqilliyinin tanınması,

bütün azərbaycanlı hərbi hissələrin bir milli-azadlıq ordusunda birləşməsi, xəstə və yaralılar üçün xüsusi tibb məntəqələrinin yaradılması, azərbaycanlı əsgərlər üçün istirahət evlərinin acılması, azərbaycanlı əsgərlərin alman əsgərləri ilə geyim, fərqlənmə nişanı, təchizat, ödəmə və s. bağlı bərabər tutulması, bütün azərbaycanlıların hərbi əsirlikdən azad olmaları, onların işləmək üçün, ya da könüllülük əsasında legiona daxil olması və s. tələblərini irəli sürdülər (4, s.12-13).

Milli Azərbaycan Qurultayının qəbul etdiyi 5 maddədən ibarət qərarın 4-cü maddəsində qeyd edilirdi ki, dünyanı sarsıdan bu ikinci Cahan müharibəsi nəticəsində milli müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız vardır. Bunun isə ilk şərti əzəli və əbədi düşmənimizin məhvindən ibarətdir. Bunun üçün də milli mənafeyimiz bizi bu gün bolşevizmə qarşı qəti döyüş aparan və tarix boyu türk xalqlarının dostu olan Almaniyaya bağlamışdır (8, s.180).

Milli Azərbaycan Qurultayı azərbaycanlılarda böyük ruh yüksəkliyi yaratdı. Onların qurultayda keçirdiyi təəssüratlar legionerlərin nəşr etdirdiyi "Azərbaycan" qəzetində də işıqlandırıldı. Yeri gəlmişkən qeyd edək ki, bu qəzet 1942-ci ilin may-iyun aylarından Berlində Şərq Nazirliyinin xüsusi himayədarlığı ilə nəşr edilməyə başlamışdı. Qəzetdə milli istiqlalımız, milli tariximiz, adət və ənənəmiz, ədəbiyyatımız, folklorumuzla bağlı çoxlu yazılar çap edilirdi (8, s.187). Azərbaycan legionerlərinin fəallığı ilə çap edilən və yayımlanan "Azərbaycan" qəzeti ilə yanaşı, "Hücum" qəzeti və "Milli Birlik" dərgisi də Vermaxt tərəfindən maliyyələşdirilirdi.

1945-ci il martın 17-də alman rəsmi dairələri tərəfindən Azərbaycan rəsmi tanınsa da, bu artıq gecikmiş qərar idi. Almaniyanın məglubiyyətinin qaçılmaz olduğu vaxtda, Şərq cəbhəsində vuruşan təhlükəli vəziyyətlə üzləşən legionerlərin müharibənin sonlarına yaxın sovet ordu hissələrinin əlinə keçməməsi üçün Ə.Fətəlibəylinin təşəbbüsü ilə birliklərin əvvəlcə cənub və qərb cəbhələrinə, bir müddətdən sonra isə o dövrdə daha sakit bölgə olan İtaliyaya köcürülməsinə başlanıldı. Tezliklə Münhendə də M.Ə.Rəsulzadənin başçılığı altında qurulan "Azərbaycan Demokratik Birliyi" adlı cəmiyyət azərbaycanlı əsirlərlə bağlı ciddi fəaliyyətə başladı.

Beləliklə də, Ikinci dünya müharibəsi bitdikdən sonra vətənə dönməkdən imtina edən əsirlər dünyanın müxtəlif ölkələrində-əsasən də Avropa dövlətlərində və ABŞ-da məskunlaşmaqla gələcək Azərbaycan diasporunun geniş əhatə dairəsinin yaranmasına şərait yaratdılar.

**Nəticə**. II Dünya müharibəsi dövründə Üçüncü Reyxin Yaxın Şərqə gedən yolu məhz Qafqazdan keçdiyi, nasist Almaniyasının hərbi-siyasi və strateji planlarında Qafqaz, o cümlədən Azərbaycan və onun zəngin neft ehtiyatları müstəsna əhəmiyyət kəsb etdiyi uçun alman siyasi dairələrinin "Azərbaycan planı"nda siyasi mühacirlərdən istifadə etmək nəzərdə tutulurdu.

Eyni zamanda, bu dövrdə Azərbaycan mühacirlərinin, o cümlədən legionerlərinin fəaliyyətinin təhlili göstərir ki, onlar arasındakı bəzi fikir ayrılıqları bir cəbhədə birləşmələrinə mane olsa da, eyni zamanda onlar:

- Kommunist ideologiyasının əsaslarını kəskin tənqid edən məqalələr nəşr etdirərək, kommunizmə qarşı ideoloji mübarizə aparmış;
- Almaniyada müxtəlif mətbuat orqanlarını yaradıb tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi təbliğ etmiş;
- mühacirət liderləri SSRİ-nin müstəmləkəçilik siyasətini qəbul etməyən dövlətlərlə əlaqələr yaradaraq müstəqilliyin bərpası uğrunda mübarizədə onların dəstəyindən istifadəyə çalışmış;
- müxtəlif səviyyəli konfrans və toplantılarda iştirak edərək Azərbaycanın müstəqilliyi məsələsini SSRİ-nin daxili işi səviyyəsindən beynəlxalq səviyyəyə qaldırmağa səy göstərməklə, Azərbaycanın Rusiya tərəfindən işğalı faktını dünyanın böyük dövlətlərinə qəbul etdirmək uğrunda mübarizə aparmışlar.

Beləliklə, II dünya müharibəsi illərində və sonrakı dövrlərdə müstəqillik uğrunda mübarizədə dönməzlik göstərən Azərbaycan mühacirəti xalqın milli ruhunun və mübarizə əzminin qorunub saxlanılmasına müsbət təsir göstərmişdir.

Biz də inanırıq ki, illər öncə Azərbaycan istiqlalını əldə bayraq tutan M.Ə.Rəsulzadənin yeni nəslə xitabən söylədiyi "əldə edilmiş milli istiqlalı yenidən qazanma əvvəlki kimi, yeni nəslin də idealıdır: lakin bir şərtlə: yenidən qurulacaq Azərbaycanda əski ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəylik və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcək" (7, s.110) fikri örnək götürülərsə, müstəqlliyini təkrar əldə etmiş vətən övladlarımızın gələcəkdə yeni mühacirət dalğası yaranmayacaqdır.

**Ədəbiyyat siyahısı:**

1. Məmməd Cəfərli. Azərbaycanlılar Almaniyada (İkinci Cahan Savaşı illərində). Bakı, 2000,52s
2. Xaləddin İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991), Bakı,1996, 308 s.
3. Fətəlibəyli Ə. General L. Biçeraxova açıq məktub. "Sabah" qəzeti, 15-30.05.1992; 12-30.06.1992
4. Рамиз Абуталыбов. Свои среди чужих, чужие среди своих. Москва, 2007 , 40 с.
5. Cəmil Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945). Bakı, 2015, 540 s.
6. Patrik von zur Mühlen. Camalıhaç ile Kızılyıldız Arasında (İkinci Dünya Savaşında Sovet Doğu Halklarının Milliyetciliyi). Mavi Yayınlar, 1984, 264 s.
7. Məmməd Əmin Rəsulzadə. Çagdaş Azərbaycan tarixi. Bakı, 1990, 112 s.
8. Nəsiman Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2002, 341 s.

# AZƏRBAYCANIN MÜHACİRƏTDƏKİ İCTİMAİ XADİMİ-ƏHMƏD BƏY AĞAOĞLU

**Musayeva Sübhanə Şahin qızı**
**Tarix fakültəsi, bakalavr, IV kurs**
**musayevasubhane@gmail.com**

Məqalədə XIX-XX əsrin ictimai-siyasi xadimi olan Əhməd bəy Ağaoğlunun həyatına, Azərbaycan xalqının Qərb dünyasının mütərəqqi xüsusiyyətlərinə uyğunlaşması və tərəqqisi üçün gördüyü işlərə, eləcə də ictimai-siyasi baxışları olan Qərbçilik, türkçülük, islamçılıq ideyalarına nəzər yetirilmişdir
**Açar sözlər:** Mühacirət, Azərbaycan, Əhməd bəy Ağaoğlu

***The public figure of Azerbaijan in exile Ahmed Bey Aghaoghlu***

*In the article it has been paid attention to the life of Ahmad bey Aghaoghlu who was a public and political figure of the XIX-XX century, his activity for being adapted to progressive feature of the west word and progress of the Azerbaijan people as well as his ideas on social and political views westernism, turkism, Islamism.*
**Key words:** Immigration, Azerbaijan, Ahmad bey Aghaoghlu

**Giriş.** XIX-XX əsr Azərbaycanda o cümlədən türk dünyasında yeni fikir və cərəyanların formalaşdığı bir dövrdür. Belə fikir və cərəyanların formalaşmasında böyük rol oynamış şəxsiyyətlərdən biri də Əhməd bəy Ağaoğludur. O, Azərbaycan ictimai fikrinə qərbçilik, türkçülük, islamçılıq şüarları ilə ifadə olunan dünyagörüşü gətirmişdir.

O, hər zaman Şərq və Qərb mədəniyyətini müqayisə etmiş, Qərb mədəniyyətini daha təkmil hesab etmişdir. XIX-XX əsr Avropa xalqlarının inkişaf etdiyi, lakin Şərq xalqlarının geridə qaldığı bir dövrdür. Əhməd bəy Ağaoğlu Şərq xalqlarının gerilikdən çıxarmağın yeganə yolunu Qərb mədəniyyətini öyrənməkdə,onun mütərəqqi prinsiplərini bütövlükdə öz həyat tərzlərinə daxil etmələrində, maariflənmələrində görürdü.Məhz bu fikir onun Türk millətçiliyinin öndər düşüncəli şəxsiyyətlərindən biri kimi formalaşmasına təsir göstərmişdir.

Əhməd bəy Ağaoğlu dünyada, o cümlədən Çar Rusiyasında baş verən siyasi proseslərdən daima öz xalqının xeyirinə istifadə edirdi. Məsələn, 1905-ci ildə Rusiyada inqilablar baş verdikdə öz xalqını bu inqilablara cəlb edərək, çar zülmündən qurtulmağa və azad olmağa çalışırdı. O, bununla birgə azərbaycanlıları siyasi cəhətdən təşkılatlandırmaq, həmçinin ermənilərin və daşnakların azərbaycanlılara qarşı törətdiyi qırğınların qarşısını almaq və silahlı mübarizə aparmaq üçün "Difai" adlı hərbi-siyasi təşkilat yaratmışdır.

1908-ci ildə Osmanlı imperiyasına mühacirət edərək orada fəaliyyət göstərmiş, lakin öz doğma vətəni olan Azərbaycan ilə əlaqələrini kəsməmişdir.Osmanlı imperiyasının Azərbaycan ilə bağlı apardığı dövlət siyasətində fəal iştirak edərək həmvətənləri ilə daim əlaqə yaratmış, onların problemlərini həll etməyə və onların maraqlarını müdafiəyə etməyə çalışmışdır. Türkiyədə mühacirətdə olduğu müddətdə türkçülük hərəkatının genişlənərək siyasi bir cərəyan kimi formalaşmasına köməklik göstərmişdir. Əhməd bəy Ağaoğlu Türkiyədə türkçülüyü təbliğ edən müxtəlif dərnək və ocaqların yaradılmasında da fəal iştirak etmiş, türk toplumlarını "millət" anlayışı ətrafında birləşdirməyə çalışmış, tükləri düşdükləri böhranlı vəziyyətdən xilas edən yeganə qüvvənin "türkçülük" olduğunu bildirmişdir.

Suçsuz yerə sürgün edilən Əhməd bəy Ağaoğlu sürgündən qayıtdıqdan sonra Osmanlı imperiyasına dönərək Atatürkün yaxın silahdaşlarından birinə çevrilmiş və milli mücadilə hərəkatına qoşulmuşdur. Onun həyata keçirdiyi Qərb yönümlü tədbirlərdə fəal iştirak etmişdir.

**1.Əhməd bəy Ağaoğlunun həyatı.** 1869-cu ildə Şuşada əsilzadə ailəsində dünyaya göz açmışdır. Atası Qarabağlı İbrahim bəyin oğlu Mirzə Həsən, anası Tazə xanım idi. O, ibtidai təhsilini Şuşada almış, on sinifli Rus gimnaziyasında oxumuşdur. Rus gimnaziyada ona iki müəlliminin – Şinoyevskinin, Palekarpın böyük təsiri olmuşdur. Əhməd bəy Ağaoğlu inqilab haqqında məlumatları bu müəllimləri vasitəsilə almış, Qərb ideologiyası ilə tanışlığı da məhz bu məktəbdən başlamışdır. O, 1887-ci Tiflisə getmiş, ordakı dostlarının təkidilə ilə "Narodnik" cəmiyyətinin gizli toplantılarında iştirak etmiş, bu toplantılar onun düşüncəsində dərin izlər buraxmışdır [6,s.15]. Daha sonra təhsilini davam etdirmək üçün Peterburqa yollanmış, orada Ə.B.Topçubaşovla, Ə.B.Hüseynzadə ilə tanış olmuşdur. Bu tanışlıq onun dünyagörüşünə təsirsiz ötüşməmişdir. O, ali təhsil almaq üçün 1888-ci ildə yanvarın 8-də Parisə gəlmişdir. Bunu qeyd edim ki, Azərbaycan türklərindən Avropaya təhsil almağa gələn ilk gənc Əhməd bəy Ağaoğlu olmuşdur. Özü Parisdə yaşadığı günləri "həyatının imtahan çağları" adlandırmışdır. Nəhayət altı aya fransız dilini öyrənmiş, Sorbonna Universitetinin Tarix və Filologiya bölməsində, Hüquq fakültəsində təhsil almışdır. Əhməd bəy Ağaoğlu burada Avropa həyatını öyrənib, Şərq həyatı ilə müqayisə etmiş və bundan nəticələr çıxarmağa çalışmış, Fransada Qərbi, həmçinin Şərqi bir daha kəşf etmişdir. 1889-cu ildə Fransa inqilabının ildönümü münasibəti ilə açılan sərgidə Şərq şahı və Qərb başçıları iştirak etmişdir ki, burada O, Qərb başçılarının demokratıyanın, Şərq başçısının despotizmin nümayəndəsi olduğunun bir daha şahidi olmuşdur [5,s.11]. Bu təsadüf onun düşüncələrinə güclü təsir göstərmişdir. Elə bu səbəbdən 1890-cı ildə Parisdə ilk publisistik fəaliyyətinə başlamış, "La nouvelle revue", "Revue Blö" qəzetlərində Şərq xalqlarının həyatından bəhs edən məqalələr nəşr etdirmişdir. Əhməd bəy Ağaoğlu Qərbin

liberal görüşləri ilə burada tanış olmuşdur: fərd azadlığı, demokratiya mövhumlarını dərk etmiş, sonrakı yazılarında bu mövzulara toxunmuşdur.

Əhməd bəy Ağaoğlu Fransada təhsilini başa çatdırdıqdan sonra 1894-cu ilin mayında Şuşaya dönərək həmyerlilərini birləşdirməyə, onların milli şüurunu hərəkətə gətirməyə çalışmış və həmyerliləri ona bu düşüncələrinə görə “Firəng Əhməd” ləqəbini vermişdilər [12,s.240].

**2.Əhməd bəy Ağaoğlunun mühacirətdən əvvəlki dövr fəaliyyəti.** Əhməd bəy Ağaoğlu Azərbaycan ziyalılarından ilk dəfə qadına bərabər hüquqların verilməsinə çağıran ziyalı idi. O, rus dilində çap olunan qəzetlərin türk dilində nəşr edilməsi uğrunda mübarizə aparmış (Şərqi-Rus və s), lakin istəyinə nail ola bilməmişdir. 1903-cü ildə rəqibləri arasından Bakı şəhər Dövlət Dumasına deputat seçilmişdir. Əhməd bəy Ağaoğlu digər millətlərin nümayəndələrinin idarəçiliyə cəlb edilməsini təhlükəli hal hesab etmiş, yerli xalqın nümayəndələrinin idarəçiliyə cəlb edilməsini vacib bilmişdir. Müsəlmanların məhdudlaşdırılmış hüquqları özlərinə qaytarmaq uğrunda mübarizə aparmışdır, çünki digər xalqın nümayəndələri yerli əhalinin psixologiyasını, əxlaqi dəyər və keyfiyyətləri barədə xəbərsiz idi. 1905-ci ildə Peterburqda “neft məsələləri üzrə” keçirilən müşavirədə Azərbaycan nümayəndələri kimi Ə.B.Topçubaşov, Ə.B.Ağayevdə iştirak etmişdir. O, müsəlman fəhlələrinin vəziyyətini hüquqi və iqtisadi aspektdə işıqlandırmışdır [3,s.74-75]. Qafqazda islahatlar keçirilməsi üçün Rusiya hökumətinə göndərilən lahiyəni hazırlayanlardan biri olmuşdur.

“Millətçilik” Əhməd bəy Ağaoğlu üçün çox mühüm əhəmiyyət kəsb edirdi. 1903-cü ildə “Bizim millətçilər” məqaləsində millətçilik anlayışına öz münasibətini bildirmiş, onu dindən sonra ikinci qəhrəmanlıq mənbəyi olmasını qeyd etmişdir [11,s.44]. O, 1905-ci ildə Əli bəy Hüseynzadə ilə birgə millətçilik dünyagörüşünün formalaşmasında mühüm rol oynayan “Həyat” qəzetini nəşr etdirirlər. 1906-cı ildə Türk xalqlarının hüquqlarını müdafiə etmək, onlara elm və mədəniyyət bəxş etmək üçün “İrşad” qəzetini nəşr etdirmişdir.

Əhməd bəy Ağaoğlu 1905-1907-ci illərdə Rusiya müsəlmanlarının Nijni-Novqorodda və Peterburqda keçirilən I-III qurultayının təşkilatçılarından biri olmuşdur, həmçinin 1905-1906-ci ildə erməni-müsəlman münaqişələri ilə bağlı Qafqaz canişini Vorontsov-Daşkovun yanına göndərilən doqquz nəfərlik Azərbaycan nümayəndə heyətinin fəal üzvlərindən biri olmuş, əsas ittihamçı kimi çıxış etmiş, Azərbaycan tərəfinin proqramını bəyan etmişdir: Bütün xalqlara hüquq bərabərliyinin verilməsini, milli qırğınların dayandırılmasını, Daşnaksütün partiyasının buraxılmasını, əks təqdirdə Azərbaycan ordusunun yaradılmasına icazə verilməsini tələb etmişdir. Qısaca o, türk-müsəlman xalqlarının müdafiəçisi idi, işğalçılara qarşı bu xalqların dil, din, etnik zəmində birləşməsinin, vahid mədəni, mənəvi, ideoloji və siyasi platformaya əsaslanmalarının tərəfdarı idi. Əhməd bəy Ağaoğlu erməni-daşnakları tərəfindən törədilən qırğın-

lara qarşı silahlı müqavimət aparmaq üçün "Difai" adlı hərbi-siyasi təşkilat yaratmış, milli sərvətlərimizi qorumaq uğrunda da mübarizə aparmışdır: xarici kapitalistlərin yerli bazarları ələ keçirməsinə qarşı çıxmış, üstünlüyü yerli kapitalistlərə vermişdir. Həmçinin o, neft yataqlarının "Nobel" və " Rotşild" inhisarlarına konsessiya verilməsinin qarşısını almaq üçün 1907-ci ildə bir neçə dəfə Peterburq getmiş Çar II Nikolay ilə görüşmüş və istəyinə nail olmuşdur [2, s.161].

**3.Əhməd bəy Ağaoğlunun mühacirət dövrü**. Çar Rusiyası dönəmində türkçülük, millətçilik və qərbçilik ideologiyasını yayanlar üçün mövcud siyasi şərait yox idi, ona görə də bir çox şəxslər kimi Əhməd bəy Ağaoğlu ölkəsini tərk etməyə, mühacirətdə yaşamağa məcbur oldu. O öz xatirələrində yazırdı: "Şiddətli təqib olunanlar arasında idim, mənim həm özümün, həm ailəmin təhlükəsizliyi üçün qorxu yaranmışdır, Qafqaz Canişini Varontsov-Daşkov necə olur olsun məni həbs etdirməyə, sürgünə göndərməyə qərar vermişdir, ona görə də 1908-ci ilin sonlarına doğru İstanbula gəldim" [9, s.24; 4, s.5]. Əhməd bəy Ağaoğlu burada "İttihad və "Tərrəqi" Partiyasına qoşulmuş, türkçülük ideologiyasını yaymaq uğrunda mübarizə aparmışdır. 1911-ci ildə Avropada milli dövlətlərin yaranması ilə bağlı olaraq, türk-müsəlmanlarında "türk milləti" şəklində birləşməsi haqqında nəzəriyyə irəli sürür. İstanbulda 1911-ci ildə "Türk yurdu" dərnəyinin, 1912-cı ilin martın 12-də "Türk ocağı"nın qurucularındadır, həmçinin türkçülük ideyalarını yaymaq, Azərbaycan türklərini maarifləndirmək üçün Osmanlı İmperiyasından Rusiyanın azərbaycanlılar yaşayan bölgəsinə müəllimlər göndərilməsi işini təşkil edən şəxslərdən biri idi. 1915-ci ildə "Rusiya müsəlman-türklərinin hüquqlarının müdafiəsi üzrə komitə"ni yaradanlardan biri olaraq, bu komitə vasitəsilə türk-müsəlmanların hüquqlarının bərpa edilməsini, dini muxtariyyət verilməsini dünyəvi məktəblərin yaradılmasına icazə verilməsini Çar Rusiyadan tələb etmişdir. 1915-ci ilin mayında "Xalqlar birliyi"nin III Konqresində iştirak etmək üçün Rusiya müsəlmanlarının nümayəndəsi kimi Lozannaya Ə.Hüseynzadə və Əhməd bəy Ağaoğlu gəlmişdir, konfransın qərarına görə türk xalqlarına müstəqil idarəetmə hüququ, hüquqi cəhətdən tanınma, beynəlxalq hüququn subyekti olmaq hüququ verilirdi [10, s.9]. 1918-ci ilin sentyabrında erməni-daşnak birləşmələrindən Bakını azad etmək üçün Azərbaycana gələn Qafqaz İslam ordusunun komandanı Nuru paşanın siyasi müşaviri olmuşdur. Bu dönəmdə Nuru paşa və Azərbaycan Milli Şurası arasında konflikt yaranan zaman bu konfliktin həll edilməsinə fəal yardım göstərmişdir [7,s.240].

Əhməd bəy Ağaoğlu Gəncədə olduğu bir müddətdə mətbu fəaliyyətini davam etdirmiş, "Türk sözü" qəzetinin cəmi iki nömrəsini çıxarmağa müvəffəq olmuşdur. Əhməd bəy Ağaoğlu AXC-nın suverenliyini və təhlükəsizliyini qorumaq üçün güclü ordunun yaradılmasını məsləhət görmüş,

beynəlxalq aləmdə tanınmaq üçün isə ilk olaraq yeni yaranmış dövləti özümüz tərəfindən tanınmalı olduğunu, daha sonra isə Avropaya siyasi missiya göndərməyin vacibliyini bildirmişdir. Mudros barışığından sonra Türk ordusu Azərbaycandan çıxmağa məcbur olsa da, Əhməd bəy Ağaoğlu bir müddət Azərbaycanda qalmışdır. Bu dövrlərdə o, Azərbaycanda siyasi fəaliyyətlə də məşğul olmuşdur. Azərbaycanda beynəlxalq siyasətlə bağlı yenidən ingilis generalı Tomsonla danışıqlar aparmaq üçün Ənzəliyə göndərilmişdir [1,s.104]. O, 1919-cu ildə Paris sülh konfransına gedən nümayəndə heyətinin tərkibində olmalı idi, lakin İstanbulda olarkən ingilislər tərəfindən tutulmuş, "Türk parlamentinin nümayəndəsi", "türk jurnalisti" kimi, "Tərcümani-Həqiqət" qəzetində "erməni soyqırımını" müdafiə edən şəxs kimi günahlandırılaraq Malta adasına sürgün edilmişdir (1915-ci ildə baş vermiş uydurma "soyqırım" nəzərdə tutulur.). O, sürgündən qayıtdıqdan sonra Osmanlı imperiyasına geri dönmüşdür. Sürgündən qayıdan Əhməd bəy Ağaoğlunun dünyagörüşündə ciddi dəyişikliklər baş verir, artıq o Qərb mədəniyyətini xalqın tərəqqisi üçün əsas vasitə hesab etmirdi. Osmanlı İmperiyasına gəldikdən sonra, Mətbuatın Baş Müdiri, Mustafa Anadolu agentliyini yaradıb, oranın ilk baş direktoru, Atatürkün ideyalarına xidmət edən "Hakimiyyəti-Milliyyənin" baş redaktoru olmuşdur, iki dönəm Türkiyə Böyük Millət Məclisinə (TBMM) (1923-1927;1927-1932) üzv seçilmişdir. Həmçinin TBMM-nin nizamnaməsini hazırlayanlardan biri olmuşdur. [8].

1930-cu ildə avqustun 8-də Sərbəst Cümhuriyyət Partiyası yaradılmış, İsmət İönü vasitəsilə o da bura daxil olmuşdur. Əhməd bəy Ağaoğlunun bu partiyaya qoşulmaqda əsas məqsədi məmləkətdə bir qədər hürriyyət havasını əsdirməsinə nail olmaqdan ibarət idi. İsmət İönü onu bu partiyaya cəlb edərək öz məqsədinə nail olmuşdur, onu Atatürkün gözündə alçaldaraq siyasi arenadan sıxışdıra bilmişdir. 1930-cu il noyabrın 14-də bu firqə dağıdıldı.

Əhməd bəy Ağaoğlu 1933-cu ildə son qəzeti olan "Axın"ı nəşr etdirdi, lakin hökumət nümayəndələri tərəfindən müxalifətin səsi kimi qiymətləndirildikdən sonra, Atatürk onun müxalifətdə olmasını söyləyərək tutduğu bütün vəzifələrdən kənarlaşdırdı.

Əhməd bəy Ağaoğluya nə tutduğu vəzifələrdən kənarlaşdırılması, nə qəzetinin bağlanması təsir etməmişdi, ona təsir edən səbəb ömrünün çox hissəsini türkçülüyə həsr etdiyi halda, bu ideallların həyata keçirilməsində kənarda seyirçi kimi qalması idi. O həyatının sonuna yaxın mənəvi cəhətdən böhrana qərq olmuşdur, 1939-cu il mayın 19-da İstanbulda dünyasını dəyişmişdir.

**Nəticə.** Əhməd bəy Ağaoğlunun timsalında XIX-XX əsr Azərbaycan ziyalılarının ictimai-siyasi baxışlarını öyrənirik. O, türkçülük ideoloqlarından biri olaraq, istər Azərbaycan, istər Osmanlı imperiyasındakı fəaliyyəti dövründə dünyanın müxtəlif yerlərindəki türkləri bir araya gətirərək bir millət

kimi formalaşmağa çağırmışdır. Türk-müsəlman xalqlarının geridə qalma səbəblərini aşkarlamış, onların səbəblərini araşdıraraq bu gerilikdən qurtulmağın yollarını axtarmışdır. Qurtuluşa gedən yolun mədəni və təhsilli inkişafdan keçdiyini görürdü. Başqa millətlərin inkişafda olduğunu, lakin öz xalqının inkişaf etmədiyini gördükdə "Oyanın, oyanın ey qəflət yuxusunda olanlar!" deyərək onları düşdüyü vəziyyətdən çıxarmağa çalışmışdır. Əhməd bəy Ağaoğlu Qərb-Şərq tezisini yaradaraq üstünlüyü Qərbə vermiş, onun daha demokratik qaydalara əsaslandığını söyləmişdir. Lakin sonrakı dövrlərdə o öz fikirində yanıldığını bildirmişdir. Tərəqqi etməyin əsasını Qərb yolunda görməsinin əsas səbəbini təhlil etmədən, götür-qoy etmədən qəbul etdiyini bildirmişdir. O Şərq və Qərb ictimai quruluşunun və idarəsinin despotik xarakterə malik olmasını, güclülərin gücsüzlər üzərində hökmran olmasını bildirmişdir.

Rusiyadakı müsəlman türklərinin vətəndaşlıq və siyasi hüquqları uğrunda mübarizə aparmış, məhrum edilmiş və yaxud birdəfəlik məhdudlaşdırılmış hüquqlarını özlərinə qaytarmaq uğrunda böyük səylər göstərmişdir. Qadın hüquqlarının müdafiəsi məsələsinə toxunaraq bildirmişdir ki, əgər bir millət "milli inkişafa" nail olmaq istəyirsə, qadının bütün hüquqları qorunmalıdır, qısaca öz sözü ilə desək, "Azad qadınsız inkişaf olmaz". Onun bu idealları Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra gərçəkləşmişdir.

Əhməd bəy Ağaoğlu Osmanlı İmperiyasında yaşayan zaman Osmanlı vətəndaşlığını qəbul etsə də, öz xalqını heç bir zaman unutmayaraq Osmanlı İmperiyasının Azərbaycanla bağlı keçirdiyi dövlət siyasətində Azərbaycanın maraqlarını müdafiə etmiş, həmçinin bu dövlət tərəfindən keçirilən konfrans və yığıncaqlarda Azərbaycan nümayəndəsi kimi iştirak etmişdir. Həmçinin Osmanlı imperiyasından azərbaycanlıların maariflənməsi üçün müəllimlər göndərilməsi işinin birbaşa təşkilatçısı olmuşdur.

O, dünyada yaşayan türkləri etnik, dil, din cəhətdən birləşdirərək onların həmrəy olmalarına çalışmış, bu yolla ümmət anlayışının millət anlayışına çevrilməsinə inanmışdır. O, azadlığa hürriyyətə qovuşmağın yolunu fikrin, sözün, amalın təmizliyində, tamahkar olmamaqda, sözünün və yaşayışının sadə olmasında görürdü. Türk xalqlarının birliyini təmin etmək üçün Avropa təcrübəsindən istifadə etməyi labüd bilmişdir.

Əhməd bəy Ağaoğlunun fəaliyyətində ən diqqət çəkən məqamlardan biri də onun yeniləşmə hərəkatı ilə bağlı olmasıdır. O, Fransa liberalizmilə tanış olmuş, bu ideyanı həm siyasi həyatda, həm iqtisadi həyatda dəstəkləmişdi. Sözün əsil mənasında Əhməd bəy Ağaoğlunu yeniləşmə hərəkatının lideri adlandırmaq olar. Fransız inqilabının "Qardaşlıq, Bərabərlik, Ədalət" kimi şüarlarını dəyişərək "Hürriyyət, Müsavat, Ədalət" ideyaları ilə əvəz etmiş və bu ideyaları öz devizinə çevirmişdir. İctimai-siyasi və insani dəyərlərin mövcud Azərbaycan cəmiyyəti üçün reallaşması üçün əlindən gələni

əsirgəməmişdir. Əhməd bəy Ağaoğlu millətlərin inkişaf yolunu onların federasiyada birləşməsində, öz müqəddəratını təyin etməsində görürdü. Həmçinin iştirak etdiyi konfrans və yığıncaqlarda Azərbaycan xalqının beynəlxalq hüququn bir üzvi kimi tanınmasına çalışmışdır.

Milli bayramlarımızın az olmamasını, dini bayramlarımızın demək olar ki, qeyd edilməməsini deməklə yeni nəsildə ortaq mənəviyyatın yaratmağın vacibliyini dilə gətirmişdir. Beləliklə, o, XX əsrin əvvəllərində respublikaçı, demokratçı mövqeyindən çıxış edərək, Osmanlı imperiyası və Azərbaycan üçün ən ideal dövlət formasını Respublika quruluşunda görmüşdür.

I dünya müharibəsi başlanan zaman Osmanlı imperiyasının düşdüyü vəziyyəti, imperialistlərin diplomatçı macəraçılığını xatırlamış, Azərbaycan-da da belə bir faciənin gözlənildiyini hiss edərək təcili tədbirlər görməyə çağırmışdır.

Beləliklə, onun dünyagörüşünün əsas üç istiqaməti olmuşdur, Qərb-çilik, türkçülük, islamçılıq fikirləri onun publisistik və elmi yaradıcılığında da özünəməxsus yer tapmışdır. Ömrünün çox hissəsini türkçülüyə həsr etmiş Əhməd bəy Ağaoğlu ömrünün sonuna doğru mənəvi sarsıntılar keçirmişdir. Bunun əsas səbəbi onun türkçü olmasının şübhə altına alınması, digər səbəbi isə türkçülük yolunda çəkdiyi əziyyətlərin inkar edilməsi idi.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c., Bakı: “Lider nəşriyyatı”, 2005, 472 s.

2.Azərbaycan tarixindən yüz şəxsiyyət, “Ayna mətbu evi”, Bakı, 2006, 265 s.

3.Səidə Əli qızı “XX əsrin əvvəllərində Əhməd bəy Ağayevin Bakı şəhərinin özünüidarəsində iştirakı”. Bakı Univeristetinin xəbərləri (humanitar elmlər seriyası), 2013, №3, s.72-78

4.Əhməd bəy Ağaoğlu. Üç mədəniyyət. Bakı, Mütərcim, 2006**,** 154 s.

5.Əziz Mirəhmədov. “Əhməd bəy Ağaoğlu”, Bakı, 2014 **,** 264 s.

6.Gülsərən Akalın. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu, Bakı, 2004, 164 s.

7.Hüseyn Baykara. Azərbaycan İstiqlal mübarizəsi tarixi. Bakı,1992, 276 s.

8. Əhməd bəy Ağayevin türkçülük məfkurəsi və “Sərbəst insanlar ölkəsi” haqqında düşüncələri.http://azerbaycanli.org/az/page797.html

9. Xaləddin İbrahimli. Azərbaycan mühacirət tarixi. Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2012 , 371 s.

10.Из истории азербайджанский змиграции. Москва, “Социально-политическая мысль”, 2011, 416 с.

11. Səidə Əli qızı. Əhməd bəy Ağaoğlunun milliyyətçilik baxışlarına dair.”Tarix və onun problemləri” jurnalı . Bakı, № 3, 2007

12.Vilayət Quliyev. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı, “Ozan”, 2000, 584 s.

# AZƏRBAYCAN MÜHACİRƏTİ: MİRZƏ BALA MƏMMƏDZADƏ

**Müzəffərli Xoşbəxt Çingiz qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**muzefferli .xosbext@mail.ru**

*Bu məqalədə Azərbaycan mühacirətindən, xüsusilə ictimai fikrin formalaşmasında mühüm rol oynayan Mirzə Bala Məmmədzadənin fəaliyyətindən bəhs olunur. Mühacirətin yaranma səbəbləri, təşkili, formalaşması və bunların öyrənilməsi əsas problemlərdən biridir. Azərbaycandan xaricdə yaşayan mühacirlər eləcə də onlardan biri olan Mirzə Bala Məmmədzadə öz ölkəsi üçün vacib işlər görmüşlər.*
***Açar sözlər:*** *mühacirət, Mirzə Bala Məmmədzadə, M.Ə.Rəsulzadə*

***Azerbaijan immigration –Mirza Bala Mammadzadeh***

*This article deals with Azerbaijan immigration-especially Mirza Bala Mammadzdeh’s activity, which was important influence to the formation of public thoughts. This article also researches the reasons, arrangement, formulation of immigration and their learning is one if the main problems. The immigrants, who living outside of Azerbaijan and Mirza Bala Mammadzadeh was one of them, have done important activities for their country.*
***Key words:*** *immigration, Mirza Bala Mammadzdeh, M.E.Rasulzade*

XX əsr dönəmində xüsusi yeri olan mühacirət tariximizin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu dövrün ziddiyyətli və mürəkkəb xarakterinin açılması baxımından xüsusi və həssas araşdırmaya ehtiyac vardır. Əslində məqsədimiz dövrün çətin bir şəraitində siyasi işləri ilə sözün əsl mənasında tarixin axarını dəyişməyinə səbəb olan insanların fəaliyyətini açıb aydınlaşdırmaq, onların tariximizdəki rolunu müəyyənləşdirmək və yeni nəsildə müəyyən və düzgün fikir yaratmaqdır. Əslində, müasir tarix elmimizdə hərtərəfli öyrənilməsi və öyrədilməsi aktual olan bu mövzunun araşdırılma dairəsi çox genişdir. Bu prosesin kökü tariximizin lap əvvəllərinə getsə də, sözün əsl mənasında tüğyan etdiyi XX əsr Azərbaycanın mühacirət tarixində həlledici mərhələ olmuş və demək olar ki, hərtərəfli təsirə malik olmuşdur. Müəyyən dövrlərdə Azərbaycanın da içinə daxil olduğu tarixi-siyasi proseslər yeni və məqsədli cərəyanların yaranmasına səbəb olmuşdur. Mühacirət adlı mühüm önəm kəsb edən prosesin araşdırılması, yeni baxışların və fikirlərin formalaşması, müxtəlif rakurslardan onlara baxış, zənnimizcə, zəruri hal olaraq inkişaf etdirilməlidir.

XX əsrdə baş vermiş məlum siyasi proseslərə görə, Azərbaycanın tanınmış siyasi-ictimai xadimləri Vətəndən kənarda öz amallarını yaşatmış

və fəaliyyətlərini açıq-gizli olmaqla davam etdirmişdilər. Əslində, onların vətənlərini tərk etməsi heç də qorxaqlıq və ya qaçmaq deyil, dövrün və şəraitin tələblərindən, ideoloji və siyasi təqiblərdən irəli gəlirdi. Onlar öz vətənlərinə sadiq qalaraq ona sahib çıxmış və susmayaraq səslərini ucaltmağa səy göstərmişdilər. Bu vəziyyət tariximizin müəyyən dövrlərdə də izlənilmişdir. Məsələn, bir az qədimə getsək, Nəsiminin, Xaqaninin və s. vətəndən kənar öz amallarını, məqsədlərini vətən, xalq uğrunda nəyin bahasına olursa olsun davam etdirdiklərini görürük. XX əsrdə siyasi-ideoloji maraqlardan irəli gələrək formalaşmış mühacirətimiz bir cərəyan olaraq inkişaf etmiş və parlaq simalarından Məhəmməd Əmin Rəsulzadənin, Mirzə Bala Məmmədzadənin, Əbdülvahab Yurdsevərin, Əlimərdan bəy Topçubaşovun, Yusif Vəzir Çəmənzəminlinin, Ceyhun Hacıbəyovun, Əhməd Cəfəroğlunun, Kərim Odərin, Hüseyn Baykaranın, Almas İldırımın və başqalarının adlarını çəkmək olar. Onlar əmin idilər ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə həm siyasi, həm də mədəni istiqamətlərdə aparılmalıdır. Adı xüsusilə qeyd edilməli mühacirət nümayəndəsi, M.Ə.Rəsulzadənin yaxın silahdaşı M.B.Məmmədzadə olmuşdur. Onun siyasi və bədii fəaliyyəti demək olar ki, nəinki bəhs olunan dövrün öyrənilməsinə, həmçinin bu gün də fərqli aspektlərdən qiymətləndirməsinə şərait yaradır. O, mühacirətin formalaşmasında M.Ə.Rəsulzadənin müstəsna rolunun danılmazlığını göstərərək, qeyd edir ki, onun gəlişinə kimi Azərbaycan mühacirət ədəbiyyatı xaotik vəziyyətdə idi (5, s.42). O, Türkiyədə və Avropanın digər bölgələrində yaşayan azərbaycanlıları bir amal ətrafında birləşdirməyə nail olmuşdu.

Dövrünün tanınmış jurnalist şairi, yazıçısı M. B. Məmmədzadə ötən əsrin əvvəllərində xalqımızın istiqlal uğrunda mübarizəsində ön sıralarda olmuş, bu yolda fədakarlığı ilə seçilmişdir. O, düşdüyü mübarizə yolunda sonadək əzmini itirməyib, doğma yurduna həsrət qalsa da, vətəndən uzaqlarda milli düşüncə naminə yazıb-yaradıb (2,s:15). M. B. Məmmədzadə 1898-ci il avqustun 13-də Bakının Zirə kəndində balıqçı ailəsində dünyaya göz açıb. Ailəsi sonradan şəhərin Çənbərəkənd adlanan məhəlləsində məskunlaşır.1907-1911-ci illərdə rus-tatar məktəbində oxuyur. Sonra isə görkəmli maarifçi Həbib bəy Mahmudbəyovun açdığı məktəbdə təsilini davam etdirərək, ərəb və fars dillərini mükəmməl öyrənir. İti zəkası, aydın nitqi və gözəl davranışı ilə tay-tuşlarından seçilən Mirzə Bala mətbuatda publisistik yazıları və şeirlər ilə çıxışlar edirdi. 1914-cu ildə Bakı Politexnik Texnikumunun inşaat və memarlıq şöbəsinə qəbul olsa da, atasının vəfatı ilə əlaqədar ailəyə kömək məqsədilə hər cür çətinliyə qatlaşır. Bütün bunlarla yanaşı, şəhərdə müxtəlif ictimai-mədəni təşkilatların keçirdiyi toplantılarda fəal iştirak edir. Həmin toplantıların birində görkəmli dramaturq Cəfər Cabbarlı ilə tanış olur və bu tanışlıq möhkəm məslək dostluğuna çevrilir.

M.B.Məmmədzadə 1918-ci ilin əvvəlində Tifisdə yaşayarkən "İki inqilab arasında" kitabını nəşr etdirir. 1918-ci ilin 7 dekabırından-Azərbaycan parlamentinin açılmasından sonra Cəfər Cabbarlı ilə birlikdə burada stenoqraf kimi fəaliyyət göstərir. İctimai-siyasi həyatda fəal iştirak etməklə yanaşı, dövri mətbuatda məqalələrlə çıxış edir. "Bakı uğrunda mübarizə" pyesi Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulur. M.B.Məmmədzadənin ən keşməkeşli həyatı isə 1920-ci il 28 aprel işğalından sonra başlayır. Əvvəlcə Azərbaycan Ali Xalq Təsərüffatı Şurasında tərcüməçilik, sonra Bakının müxtəlif məktəblərində müəllimlik edir. Bu ərəfələrdə Azərbaycan tarixinə dair silsilə məqalələr dərc etdirir. 1922-ci ildə isə "Azərbaycan türk mətbuatı'' kitabı işıq üzü görür. Bu dövrdə artıq ideoloji təqiblər, sovet təzyiq ocağı alovlanmağa başlayır və bolşeviklər milli düşüncə tərəfdarlarının izinə düşür və şüphələndikləri hər kəsi həbs edirlər.1923-cü ildə İstiqlal qəzetinin mətbəə işçiləri və redaksiya heyəti saxlanılır. Vəziyyəti belə görən M.B.Məmmədzadə 1924-cü ilin mayında Cənubi Azərbaycanın Ənzəli şəhərinə gedir. Sovet kəşfiyyatının onu təqib etməsindən xəbər tutan M. B. Məmmədzadə bir müddət Tehran, Təbriz, Sulduz şəhərlərində gizli fəaliyyət göstərir. Kəskin məqalələrlə Yeni Qafqasiya jurnalında çıxış edir və 1927-ci ildən İranı tərk edir, İstanbula gəlir. O, M.Ə.Rəsulzadənin ən yaxın silahdaşına çevrilərək "Azəri-Türk", "Odlu Yurd", "Azərbaycan yurd bilgisi" jurnallarında sovet siyasətini tənqid edən məqalələr dərc etdirir. İstanbul Universitetinin Hüquq fakültəsində təhsilini davam etdirən M. B. Məmmədzadə Azərbaycan mühacirlərinin nəşriyyat işinə rəhbərlik edir. Lakin siyasi durumun dəyişilməsi M.Ə.Rəsulzadə və onun silahdaşlarını, o cümlədən M.B.Məmmədzadəni ölkəni tərk etməsi tələbi ilə qarşılaşdırır. Uzun müddət Avropanın bir sıra ölkələrində mühacir olaraq yaşamasına baxmayaraq, öz siyasi amalına sadiq qalaraq mətbuatda məqalələr yazmaqla çıxışlar etmiş, eyni zamanda "Milli Azərbaycan hərəkatı, Milli Azərbaycan Müsavat Xalq Firqəsinin tarixi" adlı əsərini yazır. Əsər 1938-ci ildə Berlində "Qurtuluş" jurnalının mətbəəsində çap olunur. II Dünya müharibəsi başlananda o, Varşavanı tərk edərək İstanbula qayıdır. Burada Türk və islam ensiklopediyası redaksiyasında işə düzəlir. 1951-ci ildə onun "Azərbaycan tarixində türk Albaniyası" adlı əsəri işıq üzü görür.1954-cü ildə yenidən Almaniyaya qayıdan M.B.Məmmədzadə 1959-cu ilədək Münxendə ABŞ-ın yaratdığı SSRİ-ni öyrənmə institutunda Qafqaz bölməsinin müdiri vəzifəsində çalışır. Eyni zamanda, institut tərəfindən nəşr olunan "Azərbaycan dili" adlı siyasi jurnalın redaktoru olur. Bu institutda iki il elmi şuranın sədri, iki il də sədr müavini vəzifəsini icra edir. Seminarlar, konfranslar keçirərək kommunist ideologiyasının SSRİ məkanında törətdiyi cinayətlər haqqında dünya ictimaiyyətinə məlumat verir. Ömrü qürbətdə keçsə də,

milli təfəkkürün inkişaf etdirilməsi yolunda mübarizədən bir an ayrılmayan M.B.Məmmədzadə 1959-cu il martın 8-də İstanbulda dünyasını dəyişir.

XX əsrin əvvəllərində Azərbaycanda başlayan yeniləşmə və miliyyətçilik hərakatının canlı şahidi və hadisələrin iştirakçısı olan M.B.Məmmədzadə hələ "Rüşdiyyə" də oxuduğu dövrdə uşaqlıq yoldaşı Cəfər Cabbarlı ilə birlikdə milliyyətçi müəllim olan Mahmudbəyli Həbib bəyin təsiri ilə dövrün milliyyətçi cəbhəsində yer almış, dərsdən sonra Cəfər Cabbarlı ilə birlikdə tez-tez milliyyətçi dərnəklərin toplantılarında iştirak etmişdi. İlk siyasi fəaliyyətə Bakı Politexnik Texnikumunda oxuyarkən gizli "Məhəmmədiyyə" təşkilatında başlayan Mirzə Bala öz dostu Cəfər Cabbarlı ilə birgə o dövrdəki "İttifaqi-Mütəallim"in və "Qafqaz tələbələrinin Mərkəzi Komitəsi" adlı gənclik təşkilatlarının liderlərindən biri olmuşdur. İttifaqi-Mütəallim eyni adlı həftəlik çıxan qəzetində siyasi məqalələrlə çıxış etmiş, rusca və türkcə çap edilmiş Qafqaz Tələbələrinin Mərkəzi Komitəsinin orqanı olan "Gənclər sədası" qəzetinin baş yönətməni olmuşdur. Çar Rusiyasında baş verən siyasi hadisələr Azərbaycanda çar Rusiyasının istibdadına qarşı olan bütün siyasi qüvvələri hərəkətə gətirmişdir. M.B.Məmmədzadənin də içində bulunduğu bu dönəmdə siyasi aktivlik artmış, bir sıra siyasi və ictimai təşkilatlar xeyriyyə cəmiyyətləri ilə yanaşı yeni-yeni mətbuat orqanları yaradılmış, milli ziyalılar arasında bir həmrəylik yaranmış, bu iki mühüm aparıcı zümrənin yaxın əlaqəsindən də milliyyətçilik ideyası doğulmuş və bununla da qısa bir müddət ərzində siyasi hərəkata çevrilmişdi. Azərbaycan milli ziyalıları getdikcə Rusiya yönümlü cərəyanların təsirindən uzaqlaşaraq üzünü Türkiyə və qərb cərəyanlarına çevirmiş və bununla da Azərbaycanda siyasi yönün dəyişməsinə nail olmuşdular. Qərbyönümlü yeniləşmə və milliyyətçilik hərəkatının ön plana çıxması gənc Mirzə Balanın da fikirlərinin genişlənməsinə səbəb olmuşdur ki, bu işdə M.Ə.Rəsulzadənin və onun redaktorluğu ilə 2 avqust 1915-ci ildən Bakıda nəşr olunmağa başlayan "Açıq söz" qəzetinin böyük rolu olmuşdur. Türkləşmək, islamlaşmaq, müasirləşmək şüarı ilə nəşr olunan "Açıq söz" qəzetinin açıq sütunlarından olan, M.Ə.Rəsulzadənin tövsiyəsi ilə məqalələr yazan M. B. Məmmədzadə ilk yazılarını daha çox milli ideal, milli mədəniyyət, milli tarix, milli ədəbiyyat mövzularına həsr etmişdir.

Azərbaycan siyasi tarixində M.Ə.Rəsulzadə ilə M.B.Məmmədzadə kimi bir-birinə bu qədər dərindən bağlanan və bir-birini tamamlayan digər şəxsiyyətlərə demək olar ki, indiyədək rast gəlinməmişdir. M.Ə.Rəsulzadənin fikir və düşüncələrini Mirzə Bala qədər dərindən başa düşən, onu genişləndirən və yayan başqa bir şəxsiyyətə təsadüf edilmir. Heç təsadüfi deyildir ki, M.Ə.Rəsulzadənin vəfatından sonra məhz M.B.Məmmədzadə Azərbaycan Milli İstiqlal Hərəkatının və Müsavat partiyasının rəhbəri

seçilmişdi. Onların tanışlığı Bakıda XX əsrin ilk onilliyinə təsadüf edir. Hələ 1917-1918-ci illərdə gənclərdən ibarət dəstələrlə Bakı ətrafı kənd və qəsəbələrə neft mədənlərinə gedən Mirzə Bala, Sadiq Quluzadə, Piri Mürsəlzadə və Rza Zəki kimi yoldaşları ilə bərabər Rusiya yönümlü təşkilatlara, xüsusilə bolşevik və menşiviklərə qarşı təbliğat aparmış, nəticədə müsəlman fəhlələri də Müsavat partiyasına üzv olmuş, partiyanın işində fəal iştirak etməyə başlamış milli mübarizəyə qoşulmuşdur. Mirzə Bala 1918-ci ildə partiyanın gənclər cəmiyyətinin orqanı olan Gənclər Yurdu dərgisinin yönətim başqanı olmuşdu. O, "Açıq söz" qəzetinin 4 yanvar 1918-ci il tarixli sayında çap etdirdiyi "Azərbaycan çağırıyor" adlı yazısında Azərbaycan türk gəncliyini vətənin istiqlalı uğrunda mübarizəyə səsləyərək göstərirdi ki, "Ey gənc türklər, bu gün Kəbeyi-müqəddəsimiz olan Vətəninizi xilas ediniz. Bu gözəl ananız Azərbaycan zincirlərlə sarılmış uyuyor, onu qurtarınız! Əgər milli ədəbiyyat istiyorsanız yenə onu qurtarmalısınız! Əgər milli məktəblər istiyorsanız yenə onu qurtarmalısınız Sizləri bir insan olaraq Vətən yaşadır. Sizin diliniz, sizin irs və namusunuz yenə Vətən içində salamat ola bilər" (6, s.22-23). Son anadək öz idealına və amalına sadiq qalan Mirzə Bala bu fikirlər ilə yaşamışdır.

Ermənilərlə rus bolşeviklərini müsəlmanlara qarşı hücuma təşviq edən S.Şaumyanın başçılığı ilə 1918-ci il martın 30-dan aprelin 1-nə qədər Bakıda minlərlə günahsız insan öldürülmüş, onların evləri yandırılmış, mağazaları talan edilmiş, Azərbaycan memarlığının nadir incilərindən olan "İsmailiyyə" binası ermənilər tərəfindən yandırılmışdı. Müsəlmanlara qarşı təcavüz bununla bitməmiş, erməni-rus birləşmələri Azərbaycanın Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran və digər bölgələrində hücumlar edərək qırğınlar, yanğınlar, talanlar törətmiş, tarixdə analoqu olmayan cinayətlər, soyqırımlar həyata keçirmişlər. Azərbaycanda baş verən bu siyasi hadisələr dövründə M.B.Məmmədzadə üzvü olduğu Müsavat partiyasının tapşırığı ilə Zaqafqaziya Seyminin fəaliyyətində iştirak etmək üçün seymin mərkəzi olaraq seçilən Tiflis şəhərinə getmiş, ictimai-siyasi fəaliyyətini burda davam etdirmişdi. Mirzə Bala Gürcüstanda Qafqaz Federasiyasının qurulması məqsədi ilə yaradılan təbliğatçılar qrupunun üzvü kimi fəaliyyət göstərərək Qafqaz Federativ Cümhuriyyətinin yaradılmasına çalışmış, Qafqazda birliyin bərabərliyin qorunub saxlanması məqsədilə yaradılan Qafqaz Tələbələrinin Mərkəzi Komitəsinin rusca-türkcə yayınladığı aylıq Gənclər sədası dərgisinin önəmli yazarlarından biri olmuşdu. 1927-ci ildə M.Ə.Rəsulzadənin dəvəti ilə Güney Azərbaycandan İstanbula gələrək burada Milli Azərbaycan mühacir mətbuatını Milli Azərbaycan Mərkəzini yaratmışdır. Daha sonra M.Ə.Rəsulzadənin dəvəti ilə 1932-ci ildə Polşanın paytaxtı Varşavaya gəlmiş onunla birgə "Yeni Kafkasya" dərgisi nəşr etdirmişdi. Öz növbəsində bu dərgi

Azərbaycanda paralel gedən prosesslərə ya birbaşa ya da dolayısıyla əlaqəli olmuş və günümüzdə tutarlı mənbə kimi istifadə edilir. Həmçinin bu dərgidən savayı Mirzə Balanın Varşavadakı fəaliyyəti nisbətən durğunluq keçirsə də (nəzərə alsaq ki, bu dövrlər onun fəaliyyət dairəsi geniş olsa da, şəraitin və imkanların məhdudluğu istənilən kimi hərəkət etməyə imkan vermirdi), dərc edilən məqalələr Azərbaycandakı hadisələrin sıx məcrada inkişafı dövrünə təsadüf edirdi. Qeyd edək ki, M.B.Məmmədzadənin 1959-cu ildə vəfatından sonra Müsavat patiyasının başqanı Kərim Odər olmuşdur. O, əslində 1955-ci il martın 6-da Rəsulzadənin vəfatından sonra faktiki olaraq Müsavatı idarə edirdi, çünki M.B.Məmmədzadə Qərbi Almaniyadakı SSRİ-ni Öyrənmə İnstitutunda, eyni zamanda bu institutun "Dərgi" məcmuəsində çalışırdı.

Azərbaycanın siyasi, mədəni tarixində öz rolunu layiqincə yerinə yetirmiş M.B.Məmmədzadə tariximizin şanlı səhifələrindən birinə öz imzasını çəkmişdir. Onun istər siyasi, istər mədəni-bədii fəaliyyəti dövrün hadisələrinə nəzərə çarpacaq dərəcədə təsir etmişdir. M.B.Məmmədzadənin ermənilərlə bağlı fikir və mülahizələri, ermənilərin İran və digər ölkələrdəki fəaliyyətləri, erməni-fars, erməni-rus münasibətləri məzmun və mahiyyət baxımından dəyişmədiyindən müəllifin XX əsrin əvvəllərində apardığı elmi və siyasi təhlillər və şərhlər öz aktuallığını bu gün də qoruyub saxlamaqdadır. Həmin dövrlərdə ermənilərin apardığı siyasəti düzgün olaraq qiymətləndirən M.B.Məmmədzadə onların nəinki öz mənafeləri uğrunda azərbaycanlılara, həmçinin türk soyunu və adını daşıyan digər millətlərə də təhlükə törətməsini xüsusi olaraq vurğulayır.

Təklif edirik ki, onun fəaliyyəti daha geniş araşdırılsın, daha çox mənbə və qaynaqlar istifadəyə açıq olsun, nəinki tədrisdə geniş yer alsın həmçinin bütün informasiya vasitələrində təbliğ edilsin. Azərbaycan sərvətlərinin talanması, torpaqlarımızın zəbt olunması, xalqın müxtəlif yollarla susdurulması və bu vəziyyətə göz yumanları ciddi tənqid edən M.B.Məmmədzadə buna göz yumanları da eyni dərəcədə günahkar hesab etmişdir. Mirzə Bala Məmmədzadənin əqidəsi fikrimizcə bir ideologiyaya çevrilməli və hər dövr üçün fenomen olmalıdır.

**Ədəbiyyat siyahısı:**

1.ASE. 10 cildlik. 2-ci cild . Bakı,"Şərq-Qərb" nəşriyyatı,1977, 592 s.
2.Mədəniyyət qəzeti, 2015-ci il 9 sentyabr ,səh: 15
3.Türküstan qəzeti , 2012-ci il 9-15 sentyabr, səh: 14
4.Türküstan qəzəti , 2012-ci il oktyabr 21-28, səh :14
5.Xaləddin İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Azərbaycan Araşdırmalar Vəqfi, Bakı, Elm, 1996, 308 s.
6.Mirzə Bala Məmmədzadə. "Azərbaycan çağırıyor". "Açıq söz" qəzeti. 04.01.1918-ci il

# AZƏRBAYCANIN İCTİMAİ FİKRİNDƏ ƏLİ BƏY HÜSEYNZADƏ

**Üzeyirova Tünzalə Əbil qızı**
**Tarix fakultəsi, bakalavr, III kurs**
**meherrem.uzeyirov@mail.ru**

***Əli bəy Azərbaycanda yox, bütün türklük qövminin özünüdərkin, istiqlal düşüncəsinin təkcə rəssamı deyil, həm də memarıdır...Məhz bu mənada nəinki Məmməd Əmin və Nəriman Nərimanov üstəlik , Ziya Göyalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayır.***
**Y.Qarayev**

*Dünya azərbaycanlıları bu gün müstəqil Azərbaycan dövlətinin və üçrəngli bayrağın ətrafında birləşiblər. Bayrağın rəmzlərinin ideya müəllifi isə Əli bəy Hüseynzadədir. Türkmənçay müqaviləsindən sonra yaranmış siyasi vəziyyətdə vahid ideologiya məsələsinin vacibliyi şəraitində Ə.Hüseynzadənin milli kimlik məsələsinə aydınlıq gətirməsi, Türkiyədə mühacirətdə olduğu illərdə "Türk Dərnəyi", "Türk Yurdu" cəmiyyətlərindəki fəaliyyəti, həmçinin I Dünya müharibəsi illərində "Turan Heyəti" tərkibində Avropa ölkələrində türk-müsəlman xalqlarının hüquqlarının müdafiəsi yolunda atdığı addımlar təqdirə layiqdir. Əli bəy Hüseynzadə XX əsr Azərbaycan ictimai fikrində yeni mərhələdir. O, XX əsrin əvvəllərində təkcə Azərbaycanda deyil, bütün Turan elində ictimai fikrin vəziyyətinə aydınlıq gətirdi, bütün türk dünyasını həmrəyliyə, birliyə əsaslanan istiqlal yoluna xidmət etməyə yönəltdi.*

***Açar sözlər:*** *Milli ideologiya, Əli bəy Hüseynzadə, türkçülük, üçlü düstur, mühacirət, Turan Heyəti, türkoloji qurultay*

**Ali Bey Huseynzade in the public opinion of Azerbaijan**

*Today World Azerbaijanis have united around the state of Azerbaijan and its tricolor flag. The idea author of the symbols of the flag is Alibey Huseinzadeh. After Turkmenchay treaty Alibey Huseinzadeh clarified unified national identity related to the unified ideology. During his migration years in Turkey he engaged in Turkish circles "Turk Yurdu" and "Turk Darnayi". Moreover, during World War I he defended the rights of Turkic-Muslim nations in Europe during his activity in "Turan" stuff. Alibey Huseinzadeh is a new phase in the 20th century Azerbaijani public opinion. In the early 20th century, he clarified unified national identity not only in Azerbaijan but also in all Turan lands and called all turkish people to serve independence based on solidarity and unity .*

***Key words:*** *national ideology, Ali bey Huseynzade, turkism, triple formula , immigration, Turan Board, turkicology Congress*

**Giriş.** Milli ideologiya cəmiyyətin bütün təbəqələrinin maraqlarını müdafiə edən, milli həmrəylik və milli bütövlüyü təmin edən ümummilli

baxışlar sistemidir.İdeologiya hər bir müstəqil dövlətin özünü beynəlxalq aləmin tam hüquqlu üzvü kimi hiss edə bilməsi və dünyanın siyasi səhnəsində uzunömürlü olması, ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməsi funksiyasını yerinə yetirir. Milli ideologiya məsələsinin əsrlər boyu Azərbaycan üçün strateji önəm daşımasının səbəblərindən biri də Azərbaycanın tarixboyu burada yaşayan çoxsaylı xalqlar üçün ana vətən olmasıdır. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalından və Türkmənçay müqaviləsindən (1828-ci il 10 fevral) sonra ölkəmizin Araz çayı sərhəd olmaqla iki yerə parçalanması vahid milli ideologiya məsələsini tarixi zərurətə çevirdi. Məhz bu mənada Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan “Əkinçi” qəzeti o dövrdəki gənc nəslin yeni milli ideoloji əsaslar üzərində köklənməsində tarixi bir missiyanı yerinə yetirmiş oldu. Bu da öz növbəsində Azərbaycanda milli ruh üzərində köklənən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi xalqına xidmət edən, vətənin istiqlaliyyəti üçün çarpışan ziyalıların yetişməsində mühüm rol oynadı. Ümmətçilikdən millətçiliyə keçid dövrünü səciyyələndirdiyimiz zaman ilk yada düşən şəxslərdən biri şübhəsiz ki, Əli bəy Hüseynzadə olmalıdır. Səməd Ağamalıoğlu Əli bəyi “pərdə arxasındakı adam” adlandırır və bu təqdimat tamamilə doğrudur [3, s.4]. Bütün hallarda Əli bəyin pərdə arxasında olmasına baxmayaraq öndə baş verənlər və türk dünyasının XX yüzili Əli bəy Hüseynzadənin əsəridir.

**Əli bəy Hüseynzadə türkçülüyün banisi kimi.** Türkçülüyün yayılması və inkişafında tarixi xidmətləri olan Əli bəy Hüseynzadə 1864-cü il 24 fevral Salyan şəhərində doğulmuşdur. Erkən yaşlarında atasını itirdiyindən dövrünün sayılıb-seçilən axundlarından olan babası Əhməd Səlyani onu böyütmüşdür. O, 1875-ci ildə Tiflis gimnaziyasına daxil olmuş və burada rus və ərəb dillərinə yiyələnmişdi. Gimnaziya təhsilini başa vurandan sonra Əli bəy Sankt-Peterburq Universitetinin Riyaziyyat fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda Şərq ədəbiyyatına böyük marağı olduğu üçün universitetin Şərq fakültəsinə gedərək dövrünün tanınmış professorlarının mühazirələri ilə yaxından tanış olmuşdu. Bu illərdə inqilabi tələbə dərnəklərinin fəaliyyətinə rəğbət göstərmişdir. 1887-ci ildə baş qaldıran "xalqçılar" hərəkatı zamanı adi bir təsadüf nəticəsində kütləvi həbs dalğasından kənarda qalmışdır. Bu hadisədən sonra Peterburq mühitindən uzaqlaşaraq türk-müsəlman xalqlarının qibləgahı hesab etdiyi Türkiyəyə (İstanbul şəhərinə) üz tutmuşdur. İstanbul Darülfunun Tibb fakültəsində dermotoloq ixtisasına yiyələnən Ə.Hüseynzadə bu illərdə İbrahim Temo, İshaq Sükuti, Abdulla Cövdət kimi ziyalılarla tanış olur və əməkdaşlıq edir. 1889-cu ildə İstanbulda «İttihad və tərəqqi» partiyasının əsasını qoyanlardan biri də azərbaycanlı Əli bəy Hüseynzadə idi. Türkçülük ideyasının nəzəri

cəhətdən işlənib hazırlanmasında və əsaslandırılmasında “İttihad və tərəqqi” cəmiyyəti böyük rol oynamışdır. Qeyd etmək lazımdır ki, bu cəmiyyət nəzəri turançılığı reallaşdırmaq üçün müxtəlif türk dövlətlərində ortaq ünsiyyət dili yaradılması ideyasını yaymaq, həmçinin bir-birindən ayrı düşmüş müxtəlif türk xalqlarını vahid ideologiya ətrafında birləşdirmək üçün mühüm addımlar atmışdır. Əli bəy 1897-1900-cü illərdə baş verən Yunanıstan-Türkiyə müharibəsi dövründə Qırmızı Aypara Cəmiyyəti heyəti ilə birlikdə İtaliyaya gedir. O, İtaliyada (Tesaliyada) hərbi həkim vəzifəsində türk ordusunda xidmət etdikdən sonra geri qayıtmışdır. Bundan sonra İstanbul Darülfünunda əsgəri-tibb fakültəsində professor köməkçisi vəzifəsində xidmət etməyə başlamışdır. O, burada da gənc türklər hərəkatı ilə sıx əlaqə yaratdığı və “İttihad və tərəqqi” partiyasının əsasını qoyanlardan biri olduğu üçün Sultan II Əbdülhəmidin sərt siyasi rejimi tərəfindən təqib olunur. Təqiblərdən sonra 1903-cü ildə Bakıya gəlmək məcburiyyətində qalan Əli bəy ilk öncə “Kaspi” qəzeti ilə əməkdaşlığa başlamış, bir çox yazılarını dərc etdirmişdir. Ə.Hüseynzadə bu qəzetin səhifələrində “Gənc türkçülük nədir?” adlı yazısı ilə Türkiyə cəmiyyətində baş verən tənzimat hərəkatının qarşısına qoyduğu məsələləri şərh etməyə cəhd edir. Bütün həyatını “Turan” idealının gerçəkləşməsinə həsr edən Ə.Ağaoğlu ilə birlikdə 1905-ci ildə “Həyat” qəzetini, sonra isə “Füyuzat” dərgisini (1906) nəşr etdirməyə başlayan Ə.Hüseynzadə bu nəşrlərlə Bakını dünya türklərinin ideoloji mərkəzinə çevirir. Əli bəy qeyd edirdi ki, türklər tarix yaradan millətdir, amma tarixi yazanlar başqalarıdı. Türklərin tarixini həmişə avropalılar özlərinə sərf edən biçimdə yazıblar. “Həyat” qəzetinin əsas məqsədlərindən biri də türklərin gerçək kimliyini dünyaya bəyan etmək idi. “Türklər kimdir və kimlərdən ibarətdir” sualı ilk dəfə məhz Ə.Hüseynzadənin məqaləsi ilə dünyaya Bakıdan verildi. “Qəzetimin məsləki” adlı məqaləsində o inamla yazırdı: “O millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını öyrənir” [9,s.4]. Yüksək dairələrin təzyiqi ilə üzləşdiyindən “Həyat” qəzeti fəaliyyətini dayandırmalı olur.

H.Z.Tağıyevin maddi dəstəyi ilə 1906-cı ilin 1 noyabrında “Füyuzat” jurnalının nəşri ilə Əli bəy “Həyat” qəzetində başlamış olduğu türkçülük və turancılıq ideyalarını yeni dərgidə də davam etdirərək, türkçülüyün siyasi proqramı olan “türkləşmək, islamlaşmaq, avropalaşmaq” formulunu bitkin bir sistem halına saldı. Ə.Hüseynzadə bu dərgi ilə yeni bir məktəbin-füyuzatçılıq məktəbinin əsasını qoymuş oldu. Çoxşaxəli fəaliyyətinin təməlində turançılıq məfkurəsi duran Ə.Hüseynzadə türk xalqlarının milli birliyi, müstəqil dövlətçilik fikrini irəli sürmüş, qüvvətli ideoloji hərəkata çevrilməsini təmin etmişdir. Əli bəy türkçülüyü ortaya çıxaranda xalq öz milli kimliyini sorğulayırdı. Türkçülük bu sualın cavablardan biri idi və onu

gələcəkdə əvəz edəcək azərbaycançılıq ideologiyası da türkçülük əsasında formalaşacaqdı. Beləliklə, Əli bəy belə bir zamanda tarixi bir missiyanı yerinə yetirmiş oldu, Əli Abbas Müznib demişkən "millətinə milliyyətini anlatdı... Qafqazdakı türk balalarına həsəbnəsəbini öyrətdi". Türkləşmək, islamlaşmaq, müasirləşmək formulunun kimə aid olduğu ətrafındakı mübahisələr hələ də davam edir. Tədqiqatçıların bir hissəsi onun Cəmaləddin Əfqaniyə, bir hissəsi Yusuf Akçuraya, digər bir qismi Əli Süaviyə, başqa bir hissəsi isə Ziya Gökalpa məxsus olduğu fikrindədir. Lakin, diqqətlə nəzər yetirdiyimiz zaman bu adların mərkəzində bir fövqəlbəşərin durduğunu müşahidə edirik ki, o da türkçülüyün "pərdə arxasında qalmış" nümayəndəsi Ə.Hüseynzadədir. Əlbəttə ki, bu üçlü düstur bir anda ortaya çıxmamışdır. Hələ 1880-ci illərdə İsmayıl bəy Qaspıralının "İşdə, fikirdə, əməldə birlik" şüarı səsləndirildi. Həmin o ideyanı təkmilləşdirən bilavasitə Azərbaycanın, türk dünyasının ideoloji yol xəritəsini yaradan şəxslərdən biri də Əli bəy idi. Ümumilikdə, Mirzə Fətəli Axundzadənin avropalaşmaq, Seyid Cəmaləddin Əfqaninin islamlaşmaq görüşləri meydanda olsa da, məlum üçlü bütövlükdə Azərbaycanın, həmçinin Türkiyənin dövlət düşüncəsinin təməlinə məhz Ə.Hüseynzadənin fəlsəfi düşüncəsindən miras qalmışdır [4,s.18]. Üçlü düsturun bəzi araşdırmaçılar Ziya Göyalpa aid olduğunu yazsa da, nəzər saldığımız zaman görə bilərik ki, Əli bəy Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir" silsilə məqalələri 1905-1906-cı illərdə dərc edilibsə, Ziya Göyalpın türkçülük ilə bağlı ilk məqalələri Əli bəy ilə tanışlıqdan sonra 1911-ci ildən etibarən dərc edilib. Bilindiyi kimi, M.K.Atatürk Ziya Göyalpı mənəvi atası hesab edirdi və Ziya Göyalpın fikirlərinin aydınlanmasında əsas yeri tutan isə Əli bəy Hüseynzadə idi. Yusuf Akçura yazılarının birində göstərir ki, "Ziya Göyalpı Əli Bəy Hüseynzadənin şairanə turancılığı yaratdı"[10]. Bütövlükdə baxdığımız zaman görürük ki, "türkləşmək, islamlaşmaq, avropalaşmaq" ideyası 1907-1918-ci illərdə gənc nəslin milli ruhda köklənməsi üçün yeni üfüqlər açmış oldu. Azərbaycan türklərinin milli haqlarının aynası olan "Füyuzat" dərgisi Sultan II Əbülhəmidin təzyiqi ilə 1907-ci il noyabrın 1-də qapandı. Əli bəy Hüseynzadə "Füyuzat"ın bağlanmasından sonra "İrşad", "Tərəqqi", "Həqiqət" kimi qəzetlərdə öz amalı uğrunda yazılar dərc etdirirdi. 1903-cü ildən Bakıda fəaliyyət göstərən Əli bəy Hüseynzadənin yenidən 1910-cu ildə vətəni tərk edib Türkiyəyə mühacirət etməsinə səbəb mövcud mühitin onu boğması, amansız təqiblər və sərt rejim idi.

**Ə.Hüseynzadənin Türkiyədə ictimai-siyasi fəaliyyəti.** 1908-ci ildə "Gənc türklər" inqilabı nəticəsində Sultan II Əbdülhəmidin devrilməsindən sonra Rusiyadakı irticaçı rejimdən yayınan İ.Qaspıralı, Y.Akçura və başqa tanınmış türkçülər bu dövrdə mühacirət etmişdilər. Ümumiyyətlə, XIX əsrin əvvəllərində Azərbaycanın parçalanması və Rusiya tərəfindən istilası ilə

başlanan siyasi mühacirətin üç mərhələsi görünür. İkinci mərhələdə Azərbaycan mühacirləri türkçülük, millətçilik ideyalarının yaranması və təşəkkülündə mühüm rol oynamış, Rusiya irticasının qurbanına çevrilən türk xalqlarının milli müstəqilliyi məsələlərinin ideoloji əsasını hazırlayaraq bütün dünyaya çatdırmışdı. Bu mərhələnin yekunu kimi Azərbaycanın müstəqilliyi ideyası 1918-ci ildə gerçəkləşdi. Məhz bu dövrdə Azərbaycan mühacirətinin başında Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə dururdu.Türkiyəyə mühacirətə gedən türklərin yaratdıqları ilk təşkilat - "Türk dərnəyi"nin əsas qayəsi dünyanın müxtəlif guşələrində yaşayan türklər haqqında məlumat vermək, bütün türklərin başa düşəcəyi və istifadə edə biləcəyi ortaq dil məsələsinin həlli istiqamətində axtarışlar aparmaq idi.Bu dərnəyin yaradıcılarından biri də Əli bəy idi. Qurucularının Türkiyənin müxtəlif yerlərinə səpələnməsi nəticəsində fəaliyyətini davam etdirə bilməyən "Türk dərnəyi" türkçülük, eyni zamanda turançılıq məfkurəsinin də inkişafında xeyli yol qət etmişdi. 1911-ci ildə Ə.Hüseynzadə və Ə.Ağaoğlunun rəhbərliyi ilə eyni adlı məcmuədə dərc etdirən "Türk Yurdu" cəmiyyətinin əsası qoyuldu. "Türk Yurdu" dərgisinin əsas məqsəd və məramı haqqında məcmuənin bütün nömrələrinin ilk səhifəsində başlıqda qeyd edilmişdir: "Türklüyə xidmət etmək, türklərə fayda vermək" [7, s.87-89]. Türkçülük və turançılıq ideyaları ilə zəngin olan məqalələrə geniş yer verən bu dərgi 20 il fəaliyyət göstərmişdir. Qəzetin səhifələrində türk xalqlarının mənşəyinin doğru əsaslarda yazılmasını və təbliğini müdafiə edən yazılar dərc olunurdu. Bu cəmiyyət o cümlədən, xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olurdu. Jurnalın əsas məramı öz oxucularına bütün türk aləmini tanıtmaqdan ibarət idi.

I Dünya müharibəsi dövründə Yusuf Akçura tərəfindən yaradılan "Rusiya məhkumu müsəlman Türk-tatarlarının haqqını müdafiə komitəsi"nin ən fəal üzvlərindən biri də Əli bəy idi. Bəlkə də bu səbəbdən çox vaxt bu komitə "Akçura-Hüseynzadə" komitəsi adlandırılırdı. Komitə Qafqaz türklərinə istiqlaliyyət verilməsini tələb edirdi. Birinci dünya müharibəsi zamanı Rusiyanın istismarı altında yaşayan bütün türklər müharibənin sonluğunun onların həyatına necə təsir edəcəyini səbirsizliklə gözləyirdi. Müharibənin sonunda Rusiyanın parçalanması gözləndiyindən, 1915-1916-cı illərin əvvəllərində "İttihad və Tərəqqi" təşkilatının tapşırığı ilə Ə.Hüseynzadə, Y.Akçura və başqa ittihadçı yoldaşları ilə bərabər "Turan" adlanan kiçik nümayəndə heyətinin tərkibində Qərbi Avropanın bir neçə ölkəsinə gedib təbliğat işləri ilə məşğul olur. Budapeştdə alman dilində nəşr olunmuş "Rusiya müsəlmanlarının tələbləri" adlı kitabçada Rusiyanın tərkibində olan türk qövmlərinə müstəqillik verilməsi tələb olunmuşdu. Türk nümayəndələrindən ibarət olan bu heyət 1916-cı ilin yanvarında Berlində açılan "Türk qövmləri konqresi"ndə iştirak edərək türklərin hüquqlarının müdafiə edilməsi tələbi ilə

çıxış etmiş, onlara maddi və mənəvi yardım göstərilməsini xahiş etmişdir.

1918-ci ildə Ə.Hüseynzadə Ə.Ağaoğlu ilə birlikdə Azərbaycanda milli bir dövlət qurmaq məsələsini ziyalılarla, qabaqcıl fikir adamları ilə müzakirə etmək üçün vətənə yollanır. Əli bəy Hüseynzadə özü yazır ki, "türk ordusu tərəfindən federasyondan ayrılmış Azərbaycana, əvvəlcə Batumda Xəlil bəyin nəzinə, sonra Gəncədə Nuru paşanın nəzinə qədər Əhməd bəy Ağaoğlu ilə birlikdə getdik. Türk ordusu tərəfindən istiqlaliyyətini qazanmaqda olan Azərbaycanın münəvvərləri ilə birlikdə bu ölkənin cümhuriyyət halında təşkil və təsis olunması işlərində çalışdıq"[3,s.49]. Bu tarixi səfərindən geri döndüyü zaman "Hilali-Əhmər" qəzeti üçün "Azərbaycanda düşündüklərim" yazısını qələmə alan Ə.Hüseynzadə Azərbaycanla Türkiyənin mənəvi birliyini məfkurəvi baxımdan təmin etməyə çalışan mütəfəkkir bir ideoloq kimi çıxış edir. Əli bəy Azərbaycanda dövlət quruculuğuna yardım etmək, məsləhətlər vermək üçün göndərilmişdi. Adını çəkdiyimiz məqalədə o, yeni yaranacaq dövlətin adını üç şəkildə səsləndirirdi. Birincisi, Qafqaz Azərbaycanı, ikincisi, Azərbaycan Cümhuriyyəti, üçüncüsü, Qafqaz Türk Dövləti. Azərbaycanda Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya mənəvi dəyərləri Ə.Hüseynzadənin üçlü formulu və füyuzatçıların tarixi xidmətləri ilə bağlıdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində azərbaycançılıq ideologiyasının nəzəri əsaslarını verən Əli bəy "türkçülük, islamçılıq və müasirlik" üçlü görüşünü tam olaraq biçimləndirdi. Sonrakı mərhələdə də türkləşmək, müasirləşmək və islamlaşmaq formulu bütövlükdə azərbaycançılıq ideologiyasının tərkib hissəsinə çevrilərək milli birliyimizin qorunub saxlanmasında mühüm yer tutmağa başladı.

1920-ci il aprel istilasından sonra Əli bəy Hüseynzadə Azərbaycana 1926-cı ildə sonuncu dəfə I Türkoloji Qurultayda iştirak etmək üçün gəlmişdir. Qeyd edək ki, o bu illərdə Atatürkün təklifi ilə Türk Dil Qurumu ilə əməkdaşlıq edərək Türkiyədə aparılan dil çalışmalarında yaxından iştirak etmişdir. Türkiyədən Mehmet Fuat Köprülüzadə ilə Bakıya gələn Əli bəy qurultayda ortaq ədəbi dil, əlifba müzakirələrində iştirak edir. I Türkoloji Qurultayda fəxri rəyasət heyətinə seçilən Ə.Hüseynzadə "Qərbin iki dastanında türk" əsərinin nəşr olunması üçün təqdim edir. Qurultaydan sonra geriyə qayıdan Ə.Hüseynzadə 1940-cı ildə dünyasını dəyişmişdir.

**Yekun.** Nəticə etibarilə, milli məfkurə, vahid siyasi ideologiya məsələləri bir dövlətin var olması, müstəqilliyini təmin etməsi üçün əsas göstəricilərdəndir və Ə.Hüseynzadənin keçdiyi həyat yoluna, 30 illik mühacir kimi fəaliyyət dövrünə nəzər saldıqda görmək olur ki, o ilk dəfə türkçülük ideyasını irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləyib hazırlamaqla türkçülüyün, turancılığın, milli birliyin məfkurə hərəkatına çevrilməsinə yol

açmışdır. Əli bəy Hüseynzadəni XX əsr Azərbaycan ictimai fikir tarixində yeni bir mərhələ kimi qiymətləndirmək olar.O, XX əsrin əvvəllərində təkcə Azərbaycanda deyil, bütün türk dünyasında ictimai fikrin vəziyyətinə açıqlıq gətirdi, bütün türk dünyasını həmrəyliyə, birliyə əsaslanan istiqlal yoluna xidmət etməyə yönəltdi.

**Ədəbiyyat siyahısı:**

1.Ağamirzə Məmmədli. Əli bəy Hüseynzadə Turan. Salyan, "Qələbə", 1996
2.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, səh 437-439
3.Azər Turan. Əli bəy Hüseynzadə. Moskva, "SALAM press", 2008
4. Azər Turan. Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq, Kaspi,26-28 fevral 2011, 037 (2448),
5.Elçin Əfəndiyev. Fikrin karvanı, Bakı, "Yazıçı", 1984, səh 64-79
6.Əziz Mustafa. Azərbaycançılıq ideologiyası güclü və qüdrətli dövlət quruculuğuna aparır //http://millikimlik.az/article/a-13.html. Müraciət tarixi 22.11.2016
7.Xaləddin İbrahimli. "Azərbaycan siyasi mühacirəti", Bakı, "Elm və təhsil", 2012, 371 s.
8.İradə Sarıyeva. Əli bəy Hüseynzadənin azərbaycançılıq görüşləri //http://www.baki-xeber.com/layihe/37481.html . Müraciət tarixi: 22.11.2016
9.Türk dünyasının böyük ideoloqu(metodik vəsait), Bakı, səh 3-4, 11
10.Ozan Karabulak. Hüseyinzade Ali Bey: Türkçülüğü, Türkçülük tarihindeki yeri //https://irkbitig.wordpress.com/2013/10/14/huseyinzade-ali-bey-turkculugu-turkculuk-tarihindeki-yeri/

# ƏBDÜRRƏHMAN FƏTƏLİBƏYLİ-DÜDƏNGİNSKİNİN MÜHACİRƏT TARİXİNDƏ ROLU

**Zeynalova Gülər Kamil qızı**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**Guler.zeynalova95@mail.ru**

***Məğlub olub, təslim olmamaq - bu əsl qələbədir!***
**Marşal Pilsudski**

*Məqalədə Azərbaycanın mühacirət tarixinin öyrənilməsinin vacibliyindən, mühacirlərimizin siyasi fəaliyyətindən, Leninqrad hərbi dairəsinin qərargahında xidmət etmiş, 6-cı şöbənin rəisi olmuş, Sovet ordusunda bacarıqlı hərbi xidmətinə görə "Qızıl Ulduz" ordeni ilə təltif edilmiş, II Dünya müharibəsində Azərbaycan legionunun başçısı olmuş, ABŞ konqresinin maliyyələşdirdiyi "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının, eyni zamanda "Azərbaycan" jurnalının (C.Hacıbəyli ilə birlikdə) baş redaktoru olmuş, ABŞ-la, Qərb dövlətləri ilə ciddi əlaqələr qurub, Azərbaycanın müstəqilliyi uğrunda böyük mübarizə aparmış Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin fəaliyyətindən bəhs olunur.*

***Açar sözlər**: Azərbaycan mühacirəti, II Dünya müharibəsi, Almaniya, Əbdürrəhman Fətəlibəyli-Düdənginski, "Azadlıq" radiosu*

**The Azerbaijan emigration and Abdurrahman Fatalibayli-Dudanginski`s place in the history of emigration**

*This article deals with the importance learning the history of Azerbaijan emigration the polidical activity of our emigration, the activity of Abdurrahman Fatalibayli-Dudanginski who served in the military circle of Leningrad, was the chief of the 6$^{th}$ department, was ordered the "Golden Star" for the courageous military service in the Sovet Army, was the chief of the Azerbaijan legion during the 2$^{th}$ World War was the editor chief of the azerbaijan editorial office of broadcasting "Azadliq" financied by USA congress, simultaneous was the editor in chief of the magazine "Azerbaijan " (together with C.Hajibayli) having striot contacts with the USA, the West countries faught for the independence of Azerbaijan.*

***Key words**: Azerbaijan emigration, 2$^{th}$ World War, German, Abdurrahman Fatalibayli-Dudanginski, broadcasting "Azadliq"*

Sovet hakimiyyəti dağıldıqdan sonra milli müstəqilliyin gerçəkləşməsi öz növbəsində başlıca ideoloji-siyasi, mənəvi-psixoloji dəyərlərə, eləcə də elmin humanitar sahələrinə yeni bucaqdan baxışı zərurətə çevirdi və bunun əhəmiyyətli nəticələrindən biri kimi sovetlərə qarşı əks qütbdə dayanan mühacirət irsini, hadisələrə mühacir baxışını öyrənməyə təbii tələbat yaratdı.

Tarixi hadisələrə, çağdaş gerçəkliklərə mühacirlərimizin baxışı, bütövlükdə onların yaratdıqları irs, Azərbaycan tarixinin çeşidli problemləri ilə bağlı sovet tarixşünaslığının birtərəfliliyini, təhriflərini aradan qaldırmaq, qaranlıq mətləblərə aydınlıq gətirmək, saxtalaşdırılmış tariximizin həqiqətlərini üzə çıxarmaq, müqayisələr etmək, tarixi paralellər aparmaq üçün zəngin elmi, ideoloji-siyasi baza yaratmaqdır.

Azərbaycan siyasi mühacirəti 1920-ci ildən - 1930-cu illərə kimi, əsasən Türkiyədə, II dünya müharibəsi və ondan sonrakı dövrdə Qərbi Avropanın və Asiyanın başqa ölkələrində qərarlaşıb fəaliyyət göstərmək məcburiyyətində qalmışdı. Ancaq azərbaycanlı soydaşlarımız bəzi çətinliklərlə, məhrumiyyətlərlə üzləşsələr də, ictimai-siyasi, elmi və mədəni sahələrdə işlərini davam etdirirdilər. Mühacirətdə, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən azərbaycanlılar müxtəlif vasitələrlə Azərbaycandakı hadisələrə öz fikirlərini bildirirdilər. Məhəmməd Əmin Rəsulzadənin 1923-cü ildən Türkiyədə nəşr etdirdiyi jurnallar ("Yeni Qafqaziya", "Azəri Türk", "Odlu Yurd" və b.) İrandan Masallıya, oradan isə Bakıya gətirilir, əhali arasında yayılırdı [6, səh.19].

Azərbaycan mühacirlərinin ilk Assosiasiyası Fransada meydana gəlmişdi. Onun əsas nüvəsi Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan diplomatları: Əkbər Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Miryaqub Mehdiyev, Məmməd bəy Məhərrəmov və b. idi. Onlar 1919-cu ilin mayından 1920-ci ilin aprelinə kimi "Azərbaycan" bülleteninin on bir nömrəsini, üç kitab, Azərbaycanın ilk rəngli xəritəsini və onlarca məqalələr çap etdirmişdilər. Azərbaycan dövlətçiliyi və müstəqilliyinin keşiyində durmuş, 1967-ci ildə Türkiyədə vəfat etmiş Gəncəli Nağı Keykur (Şeyxzamanlı) xatirələrində yazırdı: "Mühacirət həyatının min bir məhrumiyyət və iztirabı içində səfalət və zərurətlərin pəncəsində inlərkən öz maddi imkanlarımız daxilində nəşr etdirdiyimiz qəzetlər, dərgilər, kitabçalar və kitablar sayəsində mübarizəmizi dimdik ayaqda tutduq." Qeyd edək ki, Azərbaycan legionerlərindən İsmayıl Əkbər, Əflan Muğan, Bəşir Əlizadə və digərləri də mühacirət mətbuatımızda müxtəlif yazılarla çıxış etmişlər. Azərbaycan mühacirlərinin siyasi fəaliyyətləri II Dünya müharibəsində də davam etmişdir. Bu dövrdə əski mühacirlərin müxtəlif Avropa ölkələrində çoxsaylı təşkilatları fəaliyyət göstərirdi. Həmin təşkilatların əksəriyyəti milli legionların yaradılması ideyasını dəstəkləyir və formalaşacaq bu silahlı qüvvələrin məhz Şərq cəbhəsində vuruşmasını istəyirdilər. Almaniya Xarici işlər naziri Sovetlər Birliyində türklərin çoxluğunun, eyni zamanda 1917-1921-ci illərdə müstəqil cümhuriyyət quran milli təmsilçilərin maraqlarının nəzərə alınmasının tərəfdarı idi. Xarici siyasət idarəsi bolşevizmi təkcə hərbi həmlələrlə deyil, milli münasibətlər zəminində də sarsıtacağı qənaətində idi və bu mülahizələrə önəm verərək əski mühacirlərlə onların qurduqları təşkilatlarla iş birliyinə can atırdı. Elə bu məqsədlə XİN səlahiyyətlisi Şülenburq Fransa, İsveç, Türkiyə, İtaliya və

Balkanlarda məskunlaşan tanınmış mühacirlərə Berlinə gəlmək üçün dəvətnamə göndərdi. 1942-ci ilin may ayında dəvət olunanlar gəlib Berlinin Adlon otelində yerləşdilər. Buna görə də Şülenburqun mühacirlərlə tarixi görüşləri "Adloniada" adlandırıldı. Gələn mühacirlər arasında məşhur adamlar çox idi. Bunlardan Quzey Qafqaz liderləri Əli Xan Qandəmir, Heydər Bammat, Səid Şamil, gürcü milli-demokratlarının lideri Spiridon Kedia, "Tetri Georgi" hərəkatının qurucusu Leo Kereselidze, şahzadə Datxo Vaçnadze, şahzadə İrakli Baqration, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadə, Xəlil Xasməmmədov, Fuad Əmircan və b. göstərmək olar. "Adloniada" görüşü XİN və Şərq Nazirliyi arasındakı gizli münaqişələri üzə çıxardı [6, səh. 96-129].

Bu dövrdə Almaniyada yüksək nüfuz sahibi olan Hilal Münşi (1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Avropaya təhsil almağa göndərdiyi tələbələrdən idi. 1934-1939-cu illərdə "Qurtuluş" dərgisini yayınlamışdı) M.Ə.Rəsulzadəni bir müddət Berlində ləngitməyə və onun alman rəsmiləri ilə görüşünü təşkil etməyə nail olmuşdu. 7 oktyabr 1942-ci ildə M.Ə.Rəsulzadə Krım tatar mühaciri Krımalla birgə alman ordusu rəhbərliyi, XİN və Şərq Nazirliyi ilə yenə uzun-uzadı danışıqlara başladı. Bu danışıqlarda dəyişməyən şərt Almaniya tərəfindən Azərbaycan müstəqilliyinin tanınması idi. Lakin danışıqların bir nəticə vermədiyini görən M.Ə.Rəsulzadə 1942-ci ilin sonlarına yaxın Berlini tərk edib Buxarestə gedir. Hitler "heine komite" (heç bir komitə istəmirəm) deyərək, milli cümhuriyyət liderlərinin yaratdıqları mühacir təşkilatları ilə işbirliyini məqbul saymırdı. 1941-ci ilin 22 dekabrında Hitler hərbi əsirlərdən ibarət müsəlman legionlarının yaradılması haqqında sərəncam verdi. Mətbuatda dərc edilən məlumatlarda deyilir ki, legionun ayrı-ayrı bölmələrinə mayor Əbülrəhman Fətəlibəyli, Beydulla Babayev, Hətəm Əlibəyov, Abbas bəy və digərləri başçılıq edirdilər. Azərbaycan Xalq Cumhuriyyətinin banisi, eyni zamanda Azərbaycanın görkəmli mühacirlərindən olan M.Ə.Rəsulzadə 1943-cü ildə Berlində "Azərbaycan" adlı qəzet nəşr etdirirdi və bu qəzetin nəşrində hərbi əsirlər də iştirak edirdilər. Hitler "milli legionlarla ordu qərargahı arasında rabitə vəzifəsini icra edən "Rabitə heyətləri" (Verbindunqstav) qurulmasını əmr etmişdi". Formalaşan "Rabitə heyətləri" nin əksəriyyəti öz tərkibinə görə yeni idi, yəni əski mühacirlərin yaratdıqları təşkilatlar deyildi. Üç nəfərdən təşkil olunan Azərbaycan "Rabitə Heyətinə" Leninqrad Hərbi Akademiyasının məzunu, mayor Ə.Fətəlibəyli-Düdənginski, Fuad Əmircan (Daryal) və 1920-ci ildə Azərbaycan Parlamenti tərəfindən Paris Sülh Konfransına göndərilən Abbas bəy Ataməlibəyov daxil edilmişlər. Üçlükdə Ə.Fətəlibəyli-Düdənginski alman ordusundakı legionçuları, A.Ataməlibəyov SD birliklərindəki legionçuları, F.Əmircan isə Şərq Nazirliyindəki Azərbaycan idarələrində çalışanları (radio, nəşriyyat, təbliğat və s.) təmsil edirdi. M.Ə.Rəsulzadə Berlini tərk etməmiş-

dən öncə Ə.Fətəlibəyli-Düdənginski ilə görüşüb, onun milli legionların formalaşdırılması sahəsindəki fəaliyyətini bəyəndiyini bildirmiş, eyni zamanda Azərbaycanın müstəqilliyi məsələsində hər hansı bir güzəştin söhbət mövzusu ola bilməyəcəyini vurğulamışdı. Almanlar məğlubiyyət aktını imzaladıqdan sonra milli legionların qalan taburları tərkisilah edilərək ayrı-ayrı ölkələrdəki əsir düşərgələrinə yerləşdirildi. Legionçular Sovet hökumətinə təslim edilmək üçün milliyyətlərinə görə qruplaşdırılırdı. Müharibənin qurtardığı ərəfədə Münhendə gizli yaşayan M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yeni təşkilat "Azərbaycan Demokrat Birliyi" yaradıldı. M.Kəngərlinin məlumatına görə: "bu birlik 3 mindən artıq azərbaycanlının əsirlikdən xilas olub Türkiyədə məskunlaşmasına kömək etdi. 500 nəfər isə Misir Kralının himayəsinə göndərildi" [3, səh. 170].

II Dünya müharibəsindən sonra Türkiyədə və Avropanın ayrı-ayrı ölkələrində yaşayan azərbaycanlı legionerlərin çoxu mətbu fəallıq göstərmiş, xalqımızın tarixi, ədəbiyyatı, tanınmış şəxsiyyətləri ilə bağlı məqalələr, əsərlər nəşr etdirmişlər. Bu mənada Azərbaycan legionerlərinin zəngin mətbu və ədəbi irsi ciddi olaraq öyrənilməlidir.

Azərbaycanın Almaniyada fəaliyyət göstərən mühacirləri içərisində Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin adını xüsusi qeyd etmək lazımdır. Əbdürrəhman Əli oğlu Fətəlibəyli (Abo Düdənginski) 1908-ci ilin iyun ayının 12-də Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olub. Ə.Fətəlibəylinin atası Əli bəy Fətəlibəyli Naxçıvanın Şərur rayonunun Düdəngə, Zeyvə kəndlərinin bəyi olaraq hörmətli, tanınmış şəxsiyyətlərdən biri olmuşdur. Ə.Fətəlibəyli gənc yaşlarında əsgər getmiş, 35 yaşında hərbi piyada məktəbini bitirmiş, Azərbaycan diviziyasında zabit olmuşdur. 1935-1936-cı illərdə Moskva Hərbi Akademiyasına oxumağa göndərilmişdir. 1937-ci ildə Bakıda məzuniyyətdə olarkən əmisi Əhməd bəyin məsləhəti ilə Leyli xanım Qazıyeva ilə evlənmişdir. Məzuniyyəti qurtardıqdan sonra həyat yoldaşını, qayınanasını özü ilə Leninqrada aparmış və onlar 1940-cı ilə qədər burada yaşamışlar. Ə.Fətəlibəyli olduqca bacarıqlı zabit idi. O, 1939-cu ildə Finlandiya müharibəsində iştirak etmiş, "Qırmızı Uiduz" ordeni ilə təltif olunmuşdu. O, bir müddət Leninqrad dairəsi qərargahında 6-cı şöbənin rəisi işləmişdir. 1940-cı ildə Sovet ordu hissələri Pribaltika respublikalarını işğal etdikdən sonra, Ə.Fətəlibəyli Riqada yerləşən hərbi qərargaha göndərilmiş, orada almanlar onu əsir tutmuşdu. Mühacirət illərində sovet rejiminə qarşı ideoloji mübarizə aparmış, "Hakimiyyətin texnologiyası", "Partokratiya", Stalin və Beriya haqqında kitablar müəllifi kimi tanınmış, əslən çeçen millətindən olan Əbdürrəhman Avtorxanov Ə.Fətəlibəylini belə dəyərləndirirdi: "1943-cü ilin ortalarında Berlində Vermaxtın Ali Baş Komandanlığının qəbulunda mən qafqazlı görünüşündə olan, sovet

hərbi əsiri forması geymiş və bütün xarici görünüşündən düşərgədən yenicə azad edilmiş insan təsiri bağışlayan bir zabitlə qarşılaşdım. Bu adam çox qaradinməz görünür və öz daxili qayğıları, fikirləri ilə məşğul idi ki, görəsən onu tale indi nə ilə üzləşdirəcək. Uzun tərəddüddən sonra ona yaxınlaşıb soruşdum: sən qafqazlı deyilsən? Gözlənilməyən sualdan həmin adam çaşdı və cavab əvəzinə mənə sual verdi: Bəs siz qafqazlısınızmı? Mən özümü təqdim etdim. O da özünü təqdim etdi: azərbaycanlı Abo Düdənginski, sovet ordusunun keçmiş mayoru. O vaxtdan bizim dostluğumuz başladı. İnanıram ki, ömründə bir dəfə Abo ilə qarşılaşan şəxs, bu qeyri-adi insanı heç zaman unuda bilməz. Onun müsbət şəxsi keyfiyyətləri, şahzadəliyi çətinliyə düşənə köməyə hazır olması hamını heyran edirdi".

Mayor Ə.Fətəlibəylinin Almaniyadakı fəaliyyətinin ən mühümü onun Milli Azərbaycan Qurultayını təşkil edib keçirməsi oldu. 1943-cü ilin noyabrın 6-11-də Berlində Azərbaycan "Milli Birlik" Məclisinin təşəbbüsü ilə çağırılan Azərbaycan Qurultayının böyük əhəmiyyəti oldu. Belə ki, digər xalqların mühacir və legionerləri arasında ilkin olaraq azərbaycanlılar öz qurultaylarını keçirtdilər. 1943-cü ilin noyabrın 6-da Almaniyanın Berlin şəhərindəki "Kayserof" mehmanxanasında Milli Azərbaycan Qurultayı keçirildi. Azərbaycan Milli Qurultayının keçirilməsində əsas təşəbbüskar Ə.Fətəlibəyli idi. Belə ki, o, Almaniyadakı müxtəlif azərbaycanlı qurumların nümayəndələrilə danışıqlardan sonra, həmin qrupların birləşdirilib vahid orqan yaradılması ideyasını Vermaxt qərargahında irəli sürür və bu fikir qəbul edilir. Qurultayın açılışında söz Ə.Fətəlibəyliyə verildi. O, dedi: "Biz çar valilərinə, bolşevik əsirlərinə dözmədiyimiz kimi, hər hansı bir millətin hakimiyyətinə də dözməyəcəyik. Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə onlar idarə edəcəkdir". Mayor Ə.Fətəlibəyli siyasi məzmunda maraqlı və əhatəli çıxış etdi. O, "Azərbaycan müstəqil olmalıdır" sözləri ilə nitqini qurtararkən hər tərəfdən alqışlar və "Yaşasın Azad Vətən!" sözləri yüksəldi. Azərbaycan Rabitə Heyətinin başına da Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski gətirilmişdi. Ə.Fətəlibəylinin fəallığı ilə "Azərbaycan Milli Birlik Məclisi" də formalaşırdı. Mayor Ə.Fətəlibəylinin və digər legionerlərin müharibədən sonrakı həyatı ağır keçdi. Ə.Fətəlibəyli ailəsi ilə birlikdə böyük çətinlikdən sonra ingilislərin əsarətindən qurtula bildi. Bir il İtaliyada, iki ilə qədər Misirdə qaldıqdan sonra Qərbi Almaniyaya getmiş, bir ara Türkiyəyə gəlib bir neçə ay qaldıqdan sonra təkrar Münhenə qayıtmış və orada yaşamışdır. Qeyd edək ki, İtaliyada ingilislərin nəzarətində olarkən mayor Fətəlibəyli İngiltərənin baş naziri Klement Etliyə məktub yazdı. Həmin məktubda o, böyük uzaqgörənliklə Sovet dövləti ilə Qərbin münasibətinin getdikcə pisləşəcəyini göstərmişdi. Əslində onun bu məktubu "Soyuq müharibə"nin başlanmasına bir işarə idi. Lakin bu məktub cavabsız qaldı. SSRİ-

yə qayıdan əsirləri və legionerləri ağır cəzalar gözləyirdi. İ.Stalinin 1941-ci ilin 16 avqustunda verdiyi 270 saylı əmrinə əsasən əsir düşmüş bütün sovet əsgərləri qiyabi olaraq güllələnməyə məhkum edilmişdilər. Təəssüflər ki, müttəfiq dövlətlər, o cümlədən, İngiltərə-Yalta müqaviləsində nəzərdə tutulmadığına baxmayaraq, keçmiş mühacirləri də sovetlərə təhvil verirdi.

II Dünya hərbindən sonra mühacir təşkilatların birləşib antisovet mübarizə aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Müharibədən sonra Azərbaycan legionerləri Türkiyədə M.Ə.Rəsulzadənin, Almaniyada isə Ə.Fətəlibəylinin rəhbərliyi altında olan müvafiq qurumlarda fəaliyyətə başladılar. Qərbi Almaniyada vəziyyət başqa idi. ABŞ dövləti 50-ci illərdə Sovet dövləti əleyhinə kəskin mübarizəyə başlamış və bu işdə oradakı mühacir və legionerlərin gücündən faydalanaraq onlara maddi dəstək də verirdi. Qeyd edək ki, həmin fəaliyyət rəsmiləşənə qədər Azərbaycan legionerləri böyük çətinliklərlə qarşılaşmışdılar. Belə ki, sonradan yaradılan “Amerikan Komitəsi”nin etibarını qazanmaq və müəyyən problemləri həll etmək o qədər də asan deyildi. Ə.Fətəlibəylinin bununla əlaqədar Münhendən Parisə C.Hacıbəyliyə ünvanladığı məktublarda maraqlı məlumatlar vardır. O, yazırdı: «***Mənim əzizim Ceyhun bəy, hələ ki, ciddi bir şey yoxdu. 4 ay müddətində danışıqlar apardım, planlar təqdim etdim. Lakin gözləməyi xahiş edirlər. İndi başqa xətlə işləyirəm, əgər bu da alınmasa və onlardan prinsipial razılıq almasam, onlarla əsas məsələlərdə əməkdaşlıq etməyəcəyəm. Burda elə adamlar var ki, kiçik xidmətlərinə görə bir şey ala bilirlər. İlk imkan yaranan kimi Türkiyəyə gedəcəyəm, ailəmdən ötrü, demək olar ki, bərk sarsılmışam***»[8, səh.18].

Eyni zamanda, Ə.Fətəlibəyli Ceyhun bəyə göndərdiyi məktublarda “Azərbaycan” jurnalının nəşri ilə bağlı çətinliklərin olduğunu qeyd edirdi. 1951-ci ildə Münhendə “Azərbaycan” jurnalının ilk sayının nəşri mühacirləri və legionerləri çox sevindirmişdi. 1950-ci ilin iyulun 4-də “Azad Avropa”, 1953-cü ilin martın 1-də isə “Azadlıq” radiostansiyaları Almaniya Federativ Respublikasında fəaliyyətə başladılar. “Azadlıq” radiosunun “Azərbaycan redaksiyası”na bir müddət (1953-1954-cü illər) Ə.Fətəlibəyli-Düdənginski, sonradan isə İsmayıl Əkbər və Əli Aranlı başçılıq etmişlər. “Azadlıq” radiosu fəaliyyətə başladığı ilk gündən Ə.Fətəlibəyli sovet hökuməti siyasəti əleyhinə olan verlişlər hazırlayırdı. Qeyd edək ki, mühacir və legionerlərin 50-ci illərdəki bu fəallığı Sovet dövlətini ciddi narahat etməyə başladı. Belə ki, Sovet dövləti həmin dövrdə kommunist ideologiyasına qarşı mübarizə aparanları sıradan çıxarmağa dəfələrlə cəhdlər göstərdi. Bu əməliyyatların həyata keçirilməsində böyük təcrübəsi olan, geniş şəbəkəli “KQB” əsas rol oynayırdı. Bu qurum 1917-ci ilin dekabrında yaradılmışdı. Məhz həmin təşkilatın fəallığı ilə 1954-cü ilin noyabrın 20-də “Azadlıq”

radiosunun "Azərbaycan" redaksiyasının baş redaktoru Ə.Fətəlibəyli-Düdənginski Münhenin "Alpenplate-6" meydanındakı bir mənzildə qətlə yetirildi. Mayor Ə.Fətəlibəyli-Düdənginskinin qətli ilə bağlı Almaniyada nəşr edilən "Abendzeytunq" və "Kuik" qəzetlərində geniş məlumatlar verildi. Törədilmiş qətlin səbəbi açıqlandıqda bütün Almaniya, eləcə də qərb ictimaiyyəti sifarişli bir ölümün baş verdiyini anladılar. Faciədən xəbər tutan İstanbuldakı azərbaycanlı mühacirlərin "Azəri Qardaşlar Yardımlaşma Dərnəyi"nin binasında toplantı keçirildi. Sonradan isə Nuru Osmaniyə məscidində Ə.Fətəlibəylinin ruhuna bütün azərbaycanlı və türkiyəli dostlarının iştirakı ilə dualar oxundu. Eyni zamanda Ə.Fətəlibəylinin ölümü ilə bağlı yaxın dostu Əziz Alpaut yazırdı: **«Daha gün kimi sevgi ilə dolu gözləri, gülər üzü gözümün önündə. Münhen təyyarə meydanında qarşılayırdı məni... Əbdürrəhmanın başlıca qayəsi, bütün düşüncəsi canından çox sevdiyi yurdu Azərbaycanın qurtuluşu idi»** [1, səh. 6].

Siyasi mühacirətin gücünü çox gözəl bilən V.İ.Lenin deyirdi: "Nə qədər ki, mühacirət var, o qədər də təhlükə var!" Nəticə etibarilə Azərbaycan mühacirəti, Sovet rejimini qorxuya salan bir qüvvəyə çevirməyi bacarmışdı. Azərbaycan mühacirləri çox gözəl bilirdilər ki, xaricdə nə iş görülsə də, Azərbaycan problemi Azərbaycanın özündə başlamış, özündə də sona çatacaqdır. Lakin mühacirlərin təmənnasız xidmətindən, gərgin zəhmətindən də çox şey asılı idi. Millətin bu istiqlalına nə vaxt qovuşacağından asılı olmayaraq mühacirlər vətən qarşısında övlad, vətəndaş borcunu vermək haqqında fikirləşirdilər. Mövcud çətinliklərə, məhrumiyyətlərə, terror və təzyiqlərə baxmayaraq, Azərbaycan mühacirəti milli istiqlal məsələsinə axıradək sadiq qaldı. Bu yolda Ə.Fətəlibəylinin xidmətləri əvəzolunmazdır. Azərbaycanın müstəqilliyi uğrunda 70 il mübarizə aparan mühacirlərimizin gördüyü işlər hədər getmədi və "Azərbaycan üçün, Azərbaycan uğrunda!" devizi altında hansı sahədə çalışmalarından asılı olmayaraq zəngin miras qoydular.

**Ədəbiyyat siyahısı:**

1. Alpaut Ə. Əbdürrəhman Fətəlibəyli. «Mücahid» jurnalı, İstanbul, 1961, səh. 6
2. Azərbaycan tarixi. VII cilddə, VI cild. Bakı, 2008, səh. 18
3. Xaləddin İbrahimli. Azərbaycan mühacirəti tarixi. Bakı, "ADPU" nəşriyyatı, 2012, 358 s.
4. İsmayılov İ.Z. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı, 2000, 192 s.
5. Şəlalə Həsənova. Mühacirət İrsimizin "Yurd Bilgisi". Bakı , 2014, 251 s.
6. Nəsiman Yaqublu. Azərbaycan Legionerləri. Bakı, "Çıraq" nəşriyyatı, 2005 , 336 s.
7. Nəsiman Yaqublu. Azərbaycan Mühacirət İrsi. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2011, 232 s.
8. Nəsiman Yaqublu. Əbdürrəhman Fətəlibəyli-Düdənginski . Bakı, "Abşeron nəşr", 2009, 262 s.

# IV BÖLMƏ. AZƏRBAYCAN DİASPORU VƏ ONUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

## AZƏRBAYCAN DİASPORU VƏ ONUN PAKİSTANDA FƏALİYYƏTİ

**Əhmədli Mütübə Şahlar qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**mutube@mail.ru**

*Məqalədə diaspor anlayışı, bu terminin izahı, formalaşması, inkişaf tarixi, diaspora ilə bağlı məsələlər şərh edilmişdir. Azərbaycan-Pakistan əlaqələrinin tarixi zəmində inkişaf mərhələləri, müstəqillik dövründə bu münasibətlərin inkişaf sahələri göstərilmişdir. Pakistandakı diasporumuzun, xüsusilə Heydər Əliyev Fondunun humanitar sahədə fəaliyyət istiqamətləri işıqlandırılmışdır.*

***Açar sözlər:*** *Azərbaycan , Pakistan, diaspora, Dağlıq Qarabağ*

***Azerbaijan diaspora and its activity in Pakistan***

*The paper deals with the concept of diaspora, the explanation of this term, the formation, development history, issues related to the diaspora. There were shown the stages of historical development of Azerbaijan-Pakistan relations, development of these relations in the years of our independence. There are highlighted the activities of our diaspora of Pakistan, particularly Heydar Aliyev Foundation in the humanitarian sphere.*

***Key words:*** *Azerbaijan, Pakistan, diaspora, Nagorno Garabakh*

Dünya azərbaycanlılarının müasir dövrümüzdəki fəaliyyəti, bu sahədə görülən işlər, xaricdə yaşayan həmvətənlərimizin yaşadığı ölkələrdə diaspor təşkilatları iki ölkə arasında həm iqtisadi, həm milli istiqamətdə əlaqələrin inkişafına gətirib çıxarır. Bu da öz növbəsində müxtəlif ölkələrdə yaşamasından asılı olmayaraq, eyni dilə, eyni dinə, eyni xalqa mənsub olan insanların vahid ideya ətrafında birləşməsinə, vahid dövlət siyasətinə xidmət edən işlərin həyata keçirilməsinə şərait yaradır. Diasporun əsas məqsədi mənsub olduqları dövlətin maraqlarını yaşadıqları ölkədə layiqincə bütün sahələrdə təbliğ etməkdir. Diaspor bu və ya digər dövlətlərin idarə etdiyi bir alətdir ki, güclü təsiredici qüvvəyə çevrilmiş bu silahın vasitəsilə dövlət özünə müsbət imic qazanmağa səy göstərir. Hər bir xalqın diasporu öz tarixi köklərinə söykənir. Belə ki, dünyada öz sayına, maliyyə və fəaliyyət imkanlarına, mütəşəkkilliyinə görə güclü diasporlar vardır. Bu diasporlar çox güclü təşkilatlara və yaşadıqları dövlətlərin siyasi həyatına nüfuz etməyə qadirdirlər. Sirr

deyil ki, dövlətlərin böyük əksəriyyəti beynəlxalq aləmdə diasporların gücündən istifadə edərək böyük uğurlar qazana bilirlər. Dünya diasporalarının mərkəzi kimi ABŞ-ı, B.Britaniyanı, Fransanı, Almaniyanı, Rusiyanı, Çini, Yaponiyanı və s. göstərmək olar.

Tarixi qədim dövrlərə gedib çıxan "diaspor" anlayışı termini yunan sözü olub, dağılma, səpələnmə və yayılma deməkdir. Daha dəqiq desək, onun hərfi mənası belədir. Bu sözün yaranma tarixi yunanların eramızdan əvvəl başladıqları işğal və köçürülmə dövrünə təsadüf edir. Diaspor dedikdə, bu və ya digər xalqın, etnik birliyinin müəyyən bir hissəsinin öz vətənlərindən kənarda yaşaması və onların mənsub olduğu xalqın, vətənin mənafeyi uğrunda fəaliyyəti nəzərdə tutulur. Azərbaycanda "diaspor" anlayışı haqqında ilkin təsəvvürlərin yaxın zamanlarda yaranmasına və bu məsələnin son dövrlərdə aktuallaşmasına baxmayaraq, qeyd etməliyik ki, həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlaşması prosesi hələ bir neçə il əvvəl başlamışdı. Digər xalqlarla müqayisədə azərbaycanlıların doğma torpağa daha çox bağlılığı üzündən Vətəni tərk edib qürbətdə yaşamaları onlar üçün mənəvi baxımdan ağır olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan şifahi xalq ədəbiyyatında, folklorunda "Vətən-qürbət" mövzusu mühüm yer tutmuşdur. Ən əsası da odur ki, azərbaycanlıların vətəni tərk etmə səbəbləri həmişə könüllülük prinsipinə əsaslanmamışdır. Bir çox hallarda həmvətənlərimiz vətəni tərk etməyə, başqa bir ölkədə yaşamağa, məskunlaşmağa məcbur olmuşlar. Bununla belə, zorla öz vətənlərindən ayrı salınsalar da, onların heç biri öz doğma yurdlarını unutmur, əksinə gizli və ya aşkar şəkildə öz fəaliyyətləri ilə vətənə hər cür köməklik göstərməyə çalışırdılar. Hətta "soyuq müharibə" illərində belə, xaricdə yaşayan həmyerlilərimiz gizli surətdə təşkilatlana bilmişdilər. Buna misal olaraq M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Türkiyədə fəaliyyət göstərmiş təşkilatı qeyd edə bilərik. Hazırki dönəmdə "Azərbaycan diasporu" dedikdə xarici ölkələrdə məskunlaşmış həmvətənlərimiz və onların fəaliyyəti nəzərdə tutulur.

Azərbaycan beynəlxalq-mədəni, tarixi ənənələrə bağlılığının qorunması diaspora quruculuğunun modern mərhələsinin ən mühüm məsələlərindən biridir və bu sahədə dövlət tərəfindən lazımi tədbirlər görülməkdədir. Müxtəlif ölkələrdə fəaliyyət göstərən təşkilat və birliklərin tək qurumda birləşdirilməsi Dünya azərbaycan türklərinin birliyinin əsas xüsusiyyətlərindən, atılan mühüm addımlarından biridir. Bu məqsədin həyata keçirilməsi üçün ayrı-ayrı bölgələrdə fəaliyyət göstərən təşkilat və birliklərin birləşdirilməsinə böyük önəm verilmişdir və bu strategiya bundan sonra da davam etdiriləcəkdir. Tarixi vətənlə əlaqələrin güclənməsi sadəcə mədəni, siyasi, psixoloji zəmində deyil, eyni zamanda iqtisadi baxımdan da özünü göstərməkdədir. Müasir dünya siyasətində diasporaların müstəsna rolu var

və onlar dövlətlərin xarici siyasətində mühüm yer tutur.

Azərbaycan diasporunun yaranmasında əsas etibarilə, üç müxtəlif dövlətin vətəndaşı sayılan azərbaycanlılar, yəni Müstəqil Azərbaycan Respublikasından, İranın tərkibində olan Cənubi Azərbaycan və Türkiyədən olan soydaşlarımız yaxından iştirak edirlər. Ölkəmiz müstəqillik qazandıqdan sonra xaricdə yaşayan həmvətənlərimizin diaspor halında fəaliyyət göstərməsi qarşısında geniş perspektivlər açıldı. Qeyd edək ki, hal-hazırda dünyada 50 milyondan artıq azərbaycanlı yaşayır. Onun böyük bir hissəsi İranda, Türkiyədə, Rusiyada, Ukraynada, Almaniyada, ABŞ-da, Fransada, Hindistanda, Pakistanda və digər ölkələrdə məskunlaşıblar. Dünyanın ayrı-ayrı dövlətlərində, müxtəlif vaxtlarda məskunlaşan bu həmvətənlərimizin bir diaspor halında birləşməsi, formalaşması prosesi yalnız dövlətimiz müstəqillik qazandıqdan sonra tədricən güclənməyə və artmağa başlamışdır. Baş verən qlobal hadisələr, Qarabağ münaqişəsi, əsassız torpaq iddiaları planının hərəkətə gətirilməsi, 1990-cı il yanvarın 20-də Bakıda, 1992-ci il fevralın 26-da Xocalıda törədilmiş qırğınlar, torpaqlarımızın 20%-nin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyon qardaş-bacılarımızın doğma yurdlarından didərgin düşməsi və s. xaricdəki həmvətənlərimizin ictimai fəallığının artmasına təkan verdi. Məhz bu miqyasda “sosial gücün” vahid hədəf ətrafında birləşdirilməsi və ölkənin maraqları naminə kompleks fəaliyyətin təmin edilməsi zəminində Ümummilli lider Heydər Əliyev 1991-ci il dekabrın 16-da Dünya azərbaycanlılarını vahid məqsəd ətrafında birləşdirmək məqsədində stimul rolunu oynayacaq hər il dekabrın 31-də “Dünya azərbaycanlılarının həmrəylik və milli birlik gününün keçirilməsi haqqında” qərar qəbul etdi. Bu mühüm tarixi qərar ilə xaricdə yaşayan soydaşlarımızın müstəqil dövlətçiliyimizin inkişafında, dövlət quruculuğu prosesində iştirakı təmin edilmiş oldu.

Hazırda azərbaycanlıların dünyanın 30-dan çox ölkəsində 150-dən artıq ictimai, milli, mədəni cəmiyyət və təşkilatları fəaliyyət göstərir [2]. Yuxarıda qeyd olunduğu kim, hazırda dünyanın bir çox ölkələrində Fransada, Almaniyada, Norveçdə, Böyük Britaniyada, Rusiyada, ABŞ-da, Hindistanda, o cümlədən Pakistanda Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir. Pakistanın bir müstəqil dövlət kimi dünyanın siyasi xəritəsində öz yerini tutması 1947-ci ilin 14 avqustunda baş vermişdir: 1971-ci ildə bölünərək Banqladeş və indiki Pakistana ayrılmışdır. 1973-cü ildə yeni bir konstitusiya qəbul edildi və Pakistan Federal İslam Respublikası adını aldı. Bildiyimiz kimi, Pakistanla Azərbaycan arasında hələ ilk dövrlərdən dostluq, qardaşlıq əlaqələri olmuşdur. Pakistan Respublikasının müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri olması, Dağlıq Qarabağ münaqişəsində tam dəstəyi, orada fəaliyyət göstərən diaspor təşkilatı və səfirliyimizin

nəzdində fəaliyyət göstərən mərkəzlərin fəaliyyəti nəticəsində Xocalı soyqırımını tanıyan dövlətlərdən olması buna əyani sübutdur. Azərbaycan-Pakistan münasibətlərində dostluğun əsasını qoyan 1988-1990 və 1993-1996-cı illərdə Pakistanın baş naziri olan Benazir Bhutto olmuşdur. O, daim Azərbaycanı sevib, ölkəmizin ədalətli mövqeyini dəstəkləyib. Məhz H. Əliyevin 1996-cı ildə Pakistana səfəri zamanı Bhutto ilə keçirilmiş görüşdən sonra ölkələrimiz arasında tarixən formalaşmış münasibətlərin daha da inkişaf etməsi üçün əlverişli zəmin yarandı. Bu gündə bu münasibətlər davam etdirilməkdədir. Heydər Əliyev fondunun Pakistanda həyata kecirdiyi tədbirlər də xüsusi əhəmiyyətə malikdir. 2005-ci ilin oktyabrında Pakistanın Müzəffərabad şəhərində baş vermiş güclü zəlzələ nəticəsində yararsız vəziyyətə düşmüş məktəb binası 2007-ci ildə Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yeni məktəb binası tikilmişdi. Qızlar üçün 650 yerlik bu məktəb Fondun Pakistanda həyata keçirdiyi ən böyük uğurlardan biridir [4]. Mehriban xanımın rəhbərliyi ilə 2012-ci ildə Pakistanın bütün əyalətlərində humanitar aksiyalar, o cümlədən təhsil və səhiyyə sahəsində mühüm işlər görülmüşdür: Fond Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və hepatit “B” virusuna qarşı peyvəndləşdirmə aparmış, Peşavar şəhərində "Akbar Care" Serebral Paraliç İnstitutunda, həmçinin Xeybər Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadınlar və uşaqlar xəstəxanasında imkansızlar üçün pulsuz müayinə təşkil etmiş, İslamabad şəhərinin "Kulsum İnternational" klinikasında açıq ürək əməliyyatlarını maliyyələşdirmiş, Həmzə Fonduna (Peşavar) müasir qanköçürmə avadanlığı və laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım avtomobili və 2000 ədəd qanköçürmə paketi hədiyyə etmiş, Xeybər Göz Fondunun yeni binasının inşası üçün maddi yardım göstərmiş, Pakistanın bütün əyalətlərində Ramazan ayında iftar süfrələri təşkil etmiş, Qurban bayramında Lakki Marvat bölgəsində və Pəncab əyalətində qurbanlıqlar kəsilərək əhalinin kasıb təbəqəsinə paylanılmışdır. Bütün bunları nəzərə alaraq Pakistanın nüfuzlu "Daily times" qəzeti və Qadın Könüllülər Təşkilatı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı "Humanizm simvolu–2012-ci ilin adamı" elan etmişdir. "Daily times" qəzetinin 22 tarixli nömrəsinin 2 səhifəsi də bu mövzuya həsr olunmuşdur. Buradakı məqalələrdə Mehriban xanımın humanist fəaliyyəti, o cümlədən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Pakistanda həyata keçirilən layihələrə dair geniş məqalələr çap olunmuşdur. Qeyd edək ki, böyük tirajla nəşr olunan nüfuzlu "Daily times" qəzeti Pakistanla yanaşı, eyni zamanda, Böyük Britaniyada və Birləşmiş Ərəb Əmirliklərində də yayımlanır [5].

2006-cı il statistik məlumatlarına əsasən, Pakistanda 650.000 azərbaycanlı yaşayır. Digər ölkələrdə olduğu kimi, Pakistanda yaşayan həmvətənlərimizin məhz həmin ölkələrdə diaspor təşkilatları fəaliyyət göstərir. “Pakistan-Azərbaycan Dostluq Cəmiyyəti” adlanan bu təşkilat 2003-cü ildə təsis edilib. Cəmiyyətin sədri-Xalid Mahmuddur [3,s.13-19]. Bundan əlavə, 2015-ci ilin iyununda Azərbaycan-Pakistan Gənclər Cəmiyyəti təsis olunub. Cəmiyyətin prezidenti Asif Nurdur. Pakistan Respublikasının Preston Universitetində bu cəmiyyətin nəzdində Gənclər Klubu fəaliyyətə başlayıb. Bu cəmiyyətin fəaliyyəti təkcə gənclər arasında deyil, xalqlar arasında, xüsusilə də, Pakistanda yaşayan həmvətənlərimizlə əlaqələrin inkişafına xidmət edir. Bütün bunlarla yanaşı, Azərbaycan gənclərinin də Pakistan haqqında kifayət qədər məlumatları vardır. Heç də təsadüfi deyil ki, hal-hazırda təhsil aldığım Bakı Dövlət Universitetində urdu dili, eyni zamanda Pakistan tarixi və ədəbiyyatı tədris olunur. Bu addımlar Azərbaycan-Pakistan münasibətlərinin müxtəlif mədəni sahələrdə əlaqələrinin müsbət istiqamətdə inkişafına yol açar.

Əgər dövlətimiz Pakistanla əlaqələrini möhkəmləndirsə, orda diaspor təşkilatını daha da gücləndirsə, dini ideologiya baxımından birlik təşkil etdiyimiz bir Respublikada mühüm tədbirlərin həyata kecirilməsi reallaşar. Hazırki dövrdə digər ölkələrlə müqayisə etdikdə görürük ki, Pakistandakı diaspor fəaliyyətimiz nisbətən zəifdir. Fikrimcə, bu əlaqələrin gücləndirilməsi azərbaycanlıların mövqeyini nəinki Pakistanda, bütün Cənubi Asiya regionunda möhkəmləndirmiş olacaq. Diaspor fəaliyyətlərinin gücləndirilməsi, dövlət tərəfindən dəstəklənməsinin nəticəsi olaraq, günümüzün ən qlobal problemi olan Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ problemini dünyaya tanıtmaq üçün daha geniş imkanlar açar, mənfur düşmənlərimizin xalqımızın başına gətirdiyi fəlakətlər dünyaya bəyan edilər

Ümummilli liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, “Dünya azərbaycanlılarının ancaq bir vətəni, müstəqil dövləti var, bu Azərbaycan Respublikasıdır. Biz hamımız da onun ətrafında birləşməliyik”.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan diasporu: Böyük yolun başlanğıcı. Bakı, 2006, 208 s.
2. Azərbaycan diasporu: Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2005, 189 s.
3. Zaur Əliyev. Dünya diasporaları. Bakı, 2005, 349 s.
4. Heyder-eliyev-fondunun-fealiyyeti-haqqında-meqale. // http://m. sia. az/az/news/social/353599-
5. Mehriban Əliyeva "Humanizm simvolu-2012-ci ilin adamı" elan edilib. // http://press24.az/

# AZƏRBAYCAN DİASPORUNUN FRANSADAKI FƏALİYYƏTİNƏ BAXIŞ

**Əhmədzadə Qızyetər Abdurrahman qızı**
**Tarix fakultəsi, bakalavr, II kurs**
**ehmedzadeyeter@gmail.com**

*Məqalədə diaspor anlayışının açıqlaması, formalaşması, tarixi inkişaf mərhələləri, diaspora ilə bağlı yeni terminlər izah edilmişdir. Azərbaycan-Fransa əlaqələrinin tarixi, müstəqillik dövründə bu münasibətlərin inkişaf sahələri və yolları göstərilmişdir. Eyni zamanda, Fransadakı diasporumuzun tarixi əlaqələri, formalaşması mərhələləri, ayrı-ayrı ziyalılarımızın rolu, mədəni sahədə diasporumuzun təşkilatlanması, cəmiyyətlər və onların fəaliyyət istiqamətləri şərh edilmişdir. Diasporanın xüsusiyyətləri, fəaliyyət göstərdiyi ölkələr haqqında danışılmışdır. Açılan təşkilatların əldə etdiyi uğurlar, məqsədləri, rəhbərləri haqqında məlumat verilmişdir. Azərbaycanın milli mədəniyyəti, soykökü barəsində yazılan əsərlər göstərilmişdir.*

***Açar sözlər**:Azərbaycan, Fransa, diaspora, milli məfkurə, mədəniyyət*

**Azerbaijani diaspora and its French activities**

*The paper deals with a description, formation, historical development stages, the new terms of the conception of diaspora. At the same time, there are shown Azerbaijan-France historical relations, areas and development ways of these relations in our independent years. There are discribed historical ties of our diaspora in France, the formation stages, our some intellectuals roles, diaspora's cultural organizations, communities and their activities. The paper deal with diaspora's features and the countries in which it operates. The achievements, goals and leaders of organization were considered in the article. There shown works about Azerbaijan national culture and origin.*

***Key words:** Azerbaijan, France, diaspora, national ideology, culture*

Dil, adət-ənənə, məişət, milli-mədəni irsi-ümumilikdə dövlətçilik meyarını özündə əks etdirən məhfumları dünyanın bir çox yerlərində təbliğ edən şəxslərin fəaliyyət kompozisiyasına–diaspor deyilir. Hərfi mənada isə xristianların müqəddəs kitabı hesab edilən İncilin yunan dilindən tərcüməsində diasözönü, speirein-səpələnmə, yayılma, dağılma mənasını ehtiva edir. Diasporun nə vaxt yaranması hələ də qədim zamanlardan dövlətlər arasında ticari əlaqələrin yaranması, belə mədəniyyətlərin qarşılıqlı inteqrasiyasına gətirib çıxarmışdır. Müəyyən mənada diasporun meydana gəlməsi üçün xalqın tarixi-milli Vətənin və milli ideologiyanın olması əsas şərtlərdəndir.

Tədqiqatçılara görə dünya diasporu üç əsas mərhələdən keçir:

1. Formalaşma və yaranma mərhələsində xalqların mədəni cəhətdən

nüfuzunun güclənməsi ilə milli dəyərlərinin ölkə sərhədlərindən kənarda fəaliyyətinə start götürmüş oldu.

2. Şəxsi diasporla inkişaf dövründə əsası qoyulmuş diasporun iyerarxiya şəklində bir növ yüksələn xətlə hərəkət etməsinə deyilir.

3. Transformasiya dövründə öz istiqamətlərini müəyyən etmiş diasporun ilk dövrlərdəki sadə quruluşunu dəyişib, bir qədər mürəkkəb məsələlər ətrafında birgə fəaliyyət marşrutunu yaratması kimi səciyyələndirmək olar.

Diaspor həm də insanlar arasında yeni əlaqələrin qurulması ilə nəticələnir. Diaspor anlayışına bir çox ölkələr mənfi sferadan yanaşsa da, bu istilahın müsbət cəhətləri də vardır. Məsələn, zəif, artıq məhvolma təhlükəsi altında olan mədəniyyətə malik xalqların, yüksək inkişaf strukturuna malik ölkələrdə fəaliyyəti, iki mədəniyyətin vahid şəkildə birləşərək yeni və sxolastik mədəniyyət əmələ gətirməklə nəticələnir. Bu hadisə “Bikulturallıq” adı ilə tanınır.

Kaliforniya Universitetinin professoru, sosioloq R.Brubeyker diaspor sahəsində yeni bir termin, məfhum yaratmış oldu. Həmin termin “kataklizm diasporu» adı ilə meydana çıxdı ki, bu anlayışın başqa bir mənası “Çevriliş diasporu” kimi səslənir. Böyük imperiyaların çökməsi ilə baş verən bu proses siyasi dönəm və beynəlxalq aləmin dəyişməsilə ortaya çıxır. Sovet ittifaqının dagılmasından sonra siyasi xətt çərçivəsində səmərəli fəaliyyətə başlayan Azərbaycan diasporu da kataklizm cəmiyyətinə aid edilə bilər. Hazırda isə dünyanın müxtəlif bölgələrində 300-ə qədər diaspor çərçivəsində birlik və təşkilat fəaliyyət göstərməkdədir. 1905-ci ildən başlayan siyasi mühacirət nəticəsində Azərbaycan diasporu öz sferasını müəyyən dərəcədə fərqli səmtə yönəltmiş və siyasi xarakterli təşkilatlar yaranmağa başlamışdır. 1923-cü ildə nəşr edilən “Yeni Qafqaziya” qəzetilə başlanan Azərbaycan diasporu şərəfli bir tarixi yol keçmişdir. Azərbaycan Xalq Cumhuriyyəti dağıldıqdan sonra milli dövlətçiliyimizin təbliğinə başlanmışdır. Bu qəzetin açılması sonrakı illərdə eyni ruhda qəzetlərin yaradılmasına stimul verdi.

1991-ci ildə müstəqillik bərpa edildikdən sonra diasporumuz yeni bir tarixi mərhələyə qədəm qoydu. Diasporanın inkişafına dair Ümummilli lider Heydər Əliyev demişdi: “Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsində mədəniyyət və elm sahəsində əlaqələrin rolu böyükdür”. 2001-ci il mayın 23-də “Dünya azərbaycanlılarının I qurultayı”nın keçirilməsi ilə əlaqədar 724 saylı sərəncam verildi. 2001-ci il 9-10 noyabr Bakı şəhərində qurultay keçirildi. Burada Dünya azərbaycanlılarının sistemli şəkildə fəaliyyəti, gələcəyə dair uğurlu addımların atılması və bir çox təşkilati məsələlər ortaya qoyuldu.

Azərbaycan diasporunun xaricdə fəaliyyət istiqamətləri, sosial vəziyyəti, problemləri haqqında məlumatları əldə etmək üçün 2002-ci il 5 iyulda

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) “Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin” yaradılması təşəbbüsünü irəli sürdü. Bu hadisə həm diasporumuzun təşkilatlanmasına, dövlət qayğısının artırılmasına, həm də xaricdəki həmvətənlərimizdə ruh yüksəkliyinə səbəb oldu.

Azərbaycan diasporu demək olar ki, bütün dünya dövlətlərində fəaliyyət göstərir, çünki həmin ölkələrdə çıxan qəzet, jurnallar, açılan təşkilatlar tez bir zamanda digər ölkələrə siraət etməsinə də kömək edirdi. 2006-cı il hesablamalarına əsasən, dünyanın hər yerində diaspor təşkilatları qurulmuşdur. Azərbaycan diasporunun təşəkkül tapdığı ölkələrə Türkiyə, Rusiya, Ukrayna, Almaniya, Böyük Britaniya, Fransa və başqa dövlətlər idi [1, s.32].

Bu ölkələr içərisində Azərbaycan diaspor liqasına mənfi münasibəti daim diqqətdə saxlayan erməni diasporunun ən çox təşkilatlandığı ölkə məhz Fransadır. Nəzərə almalıyıq ki, yarım milyondan çox erməni yaşayan Fransada tarixən formalaşmış siyasi və iqtisadi cəhətdən qüvvətli diasporları vardır. Onlar öz nümayəndələrinin fəaliyyətini Fransa hökumətinin bütün sferalarında təmin edir, öz ideyalarını geniş şəkildə yaya bilir və hətta “erməni soyqırımı”nn tanınmasına, abidələr ucaldılmasına nail ola bilmişlər. Son məlumatlar göstərmisdir ki, Fransada yaşayan azərbaycanlı həmvətənlərimizin sayı 70.000 nəfərdən ibarət olmuşdur [6, s.6].

Onu qeyd etməliyik ki, Fransa 1991-ci il müstəqillik qazandıqdan dörd ay sonra Azərbaycan dövlətçiliyini tanıdı və bu münasibətlə 1992-ci il 16 mart tarixində Fransanın Azərbaycanda səfirliyi açıldı. Bunun davamı olaraq 1994-cü il oktyabrın 20-də Fransada Azərbaycan səfirliyi fəaliyyətə başladı. Ümumi götürdükdə isə Fransa ilə Azərbaycan arasında ilk qarşılıqlı münasibətlər XIII əsrə gedib çıxır. Azərbaycana ilk səfər etmiş səyyah, diplomat və missioner, rahib Vilyam de Rubruk (1220-1293) olmuşdur. 1254-cü ildə Şamaxı şəhərinə gələrək bir müddət burada qalmış və öz səyahətnaməsində Azərbaycan haqqında qeydlər vermişdir. Azərbaycan haqqında ilk dolğun və geniş fikirlər məcmusunu fransız şərqşünası Jan Şardenin (1643-1713) məlumatlarında tapa bilərik. Tarixi siyasi maraqlara söykənən Fransa-Azərbaycan münasibətləri XX əsrdə xüsusi məcra ilə inkişafını davam etdirir. Azərbaycan Parlamentinin təhsil almaq məqsədi ilə xaricə ezam etdiyi 100 nəfər gəncdən 42-si Fransaya göndərilmişdir [1, s.17]. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə Azərbaycanın siyasi zəmində yaranan problemləri bir çox həmvətənlərimizin geri qayıtmamasına səbəb oldu. Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Əlimərdan bəy və oğlu Rəşid bəy Topçubaşovlarda çıxış etmiş və XX əsrin 20-ci illərində Fransa cəmiyyətində Azərbaycan milli məfkurəsinə olan maraq hisslərinin artmasında və diasporumuzun Fransada formalaşmasında mühüm

rol oynamışlar. Sona xanım Vəliyeva yazır: “Azərbaycançılıq ideyasını ilk dəfə rəsmi dövlət ideyası kimi çıxaran Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli olmuşlar. Siyasi həyatda baş verən bu yenilik ictimai fikir xadimləri tərəfindən də dəstəklənmişdi” [3; s. 704]. Azərbaycanın Fransadakı diasporunun bir neçə istiqamətdə fəaliyyətləri olmuşdur ki, onların hər birinin tədqiqi olduqca maraqlı faktları ortaya çıxardır. Siyasi, hərbi, iqtisadi, sosial və mədəni sahələrdə fəaliyyət göstərən diasporumuzun inkişafını 3 mərhələdə izləmək mümkündür:

I mərhələ: 1918-1930-cu illər, AXC-nin yaranması və süqutundan sonrakı fəaliyyət dövrü;

II mərhələ: 1980-1990-cı illər, milli müstəqilliyimizin yaranmasından əvvəl zəmin yaradılması və müstəqillik dövrü;

III mərhələ: XXI əsr dövrü, müasir dövrdə yaranan təşkilatlar və onların uğurları;

I mərhələdə Azərbaycan Xalq Cumhuriyyətinin dövründə diasporumuz rəsmi şəkildə ilk addımlarını atmış oldu. Azərbaycan nümayəndəliyinin 1919-cu ildə açılmış Paris sülh konfransı ərəfəsində Fransanın paytaxtında, dislokasiya nöqtəsində çap etdirdiyi kitablar böyük əhəmiyyət daşıyır. Əlimərdan bəy Topçubaşovun Parisdə böyük elm əhəmiyyətə malik arxivi qalmışdır. Həmin arxivi Azərbaycana gətirmək olduqca vacib məsələdir.

1936-cı il yanvarın 17-də M.Ə.Rəsulzadə Parisdə “Müasir Azərbaycan Ədəbiyyatı” mövzusunda maraqlı məruzə oxumuş və dinləyiciləri Azərbaycan ədəbiyyatı nümunələri ilə tanış etmişdir. Bu məruzə sonradan kitab şəklində işıq üzü görmüşdür.

1936-ci il 17-26 aprelində Parisdə müsəlman ölkələrinin iştrakı ilə qurultay keçirilmişdir. Qurultayda M.Ə.Rəsulzadə, Mustafa Vəkilli, Miryaqub Mirmehdiyev Azərbaycan suverenliyinin qoruyucusu kimi Azərbaycanın birliyi ideyasının ətrafında maraqlı fikirlər söyləmişdilər. Qərara alınmışdır ki, təşkilatın fəaliyyəti təhlükəsizlik naminə gizli saxlanılsın.

M.Ə.Rəsulzadənin fransız dilində yazdığı kitablar da vardır ki, 1930-cu ildə “La Azerbaidjan en lutte pour lindep”, 1936-cı ildə “Azerbaidjan” adlı əsərlərdə xalqımızın müstəqillik mübarizəsi, Azərbaycanın tarixi irsi, milli vətənpərvərlik ideyaları fransızdilli xalqlara çatdırılmışdı.

II mərhələdə Fransada soydaşlarımızın sayının artması və təşkilatçılığının uğurlu mövqeyi diaspor quruculuğunda mühüm rol oynadı. XX əsrin 80-ci illərində təşkilatımızın əsası qoyulmağa başladı. Bu təşkilatlardan biri də 1988-ci ildə açılan “Azərbaycan Mədəniyyət və Sivilizasiyasını yayan Mərkəz”dir ki, onun yaradılma səbəbi Qərbi Avropada Azərbaycan haqqında məlumatın az olması idi. Mərkəzin prezidenti professor İren Məlikoff, vitse-prezidenti Lui Bazen və Temuçin Hacıbəyli seçilmişdir.

Mərkəz 1989-cu ildə Əhməd Təbrizlinin "Dağlıq Qarabağın tarixi və ona aid sənədlər" kitabını Dağyeli nəşriyyatında fransız dilinə tərcümə edildi.

1999-cu ildə Fransanın Strasburq şəhərində Məmməd İsmayılovun rəhbərliyi ilə "Fransada Azərbaycan Tələbələr Assosiyasiyası" açıldı. Bu mərkəzin yaranmasında əsas məqsəd tarix boyunca vətənimizin başına gətirilən müsibətləri, xüsusilə də XX əsr boyu baş vermiş qan yaddaşı faktlarını aşkara çıxarmaqdan ibarətdir. Bu günümüzdə də həmin təşkilatın radio, televiziya, internet vasitəsilə baş vermiş hadisələri Fransa millətilə yanaşı, digər fransızdilli ərazilərdə yaymaq imkanı vardır.

III mərhələdə yaranmış təşkilatların sayı və inkişaf strukturu yeni görkəm alır. 2001-ci ildə "Təhsil və Tədqiqatların inkişafı üzrə Fransa-Azərbaycan Tələbə Assosiyasiyası" adlı mərkəz açıldı. Tahir Zeynalov tərəfindən Qrenobl şəhərində əsası qoyulan bu mərkəzin əsas məqsədi tələbələrimizin xaricdə təhsilinin hansı səviyyədə və necə olduğunu araşdırmaq və tarazlamaqdan ibarətdir.

2003-cü ildə Parisdə Azərbaycanlı tələbələr tərəfindən "Azərbaycan-Fransız Gənclik Assosiyasiyası" adlı təşkilatın əsası qoyulmuşdur. Bu mərkəzin rəhbəri Fransadakı ilk Azərbaycanlı tələbə Babək İsmayılov, daha sonra Mirvari Fətəliyeva, sonuncu isə Vüsalə Məmmədzadə olmuşdur. Məqsədi iki dövlət arasında müttəfiqlik qurmaq, milli mədəniyyətimizin bütün sahələrini, xüsusilə musiqimizi, incəsənətimizi, tariximizi təbliğ etmək, mədəni birlik ideyasını gerçəkləşdirməkdən ibarətdir.

2006-ci ildə Parisdə Qulam Abiyarın rəhbərliyi ilə "Araz" Fransa–Azərbaycan Mədəni Əlaqələr Assosiyasiyası açılmışdır. Bu mərkəzin məqsədi xeyriyyə xarakterli aksiyalar keçirmək, mədəni sivilizasiyamızı yaymaq, Dağlıq Qarabağ məsələsi ilə bağlı əhalini məlumatlandırmaqdan ibarətdir. Müxtəlif mədəni tədbirlərdə çıxış edən mərkəz məqsədlərinə uyğun olaraq qısa video-çarxlar, filmlər göstərirlər.

2005-ci il mayında Strasburqda "Azərbaycan Evi" təşkilatı yaradılmışdır ki, təşkilata Azərbaycan Kültür Cəmiyyəti, Azərbaycan Tələbələr Cəmiyyəti və Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti adlı üç cəmiyyət daxil idi. "Azərbaycan Evi" 2007-ci il fevralın 16-dan etibarən Strasburq şəhərində fəaliyyət göstərir. 2009-cu il dekabrında, şənbə günü "21 Azər Mərasimi" keçirilmiş və 64-cü ildönümü qeyd olunmuşdur. Azərbaycanın cənubunda baş vermiş azadlıq hərakatının xarakteri, hansı qüvvəyə qarşı və nə üçün baş verməsi, iştrakçıları, üsyan rəhbərləri haqqında məlumatlar verilmiş və geniş diskussiyalar aparılmışdır.

Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dünyadakı fəaliyyətini unutmamalıyıq. Son atılan addımlardan biri kimi 2014-cü ildən etibarən hər il Azərbaycanın tanınması

istiqamətində "Azərbaycan şəhərciyi" layihəsini göstərə bilərik. Fond bu layihə çərçivəsində Fransa hökumət nümayəndələrinin də qatıldığı böyük rezonans yaradan bu konsepsiya ilbəil genişləndirilir.

Azərbaycanın Fransadakı diasporunun fəaliyyət sahələri ilə əlaqədar bir sıra çətinliklərlə üzləşirlər. Əlbəttə, Azərbaycanın irəliləyişinə paxıllıq edən qüvvələr içərisində erməni lobbisi öz qərəzliliyi ilə seçilmişdir. Buna misal olaraq 2013-cü il fevralın 26-da Fransa Milli Assambleyasında Fransadakı erməni məsələləri Bürosunun təşkilatçılığı, Fransadakı erməni İcmasının nümayəndələri və Fransa Parlamentinin bir neçə deputatının iştrakı ilə "Sumqayit hadisələrinin 25-ci ildönumu" adlı tədbirdə iştrak edən Azərbaycan Diaspor nümayəndəsinin bugün həm də "Xocali Soyqrımının 21-ci ildönümü" olduğunu bildirməsi və dinləyicilərin nəzərinə çatdırması Fransa Parlament üzvü Fransua Roşeblounun təhriki ilə iştrakçıların Azərbaycan Diaspor rəhbərinə və azərbaycanlı tələbəyə hücum edib vəhşicəsinə döyülmələrinə gətirib çıxardı. Ən əsası da budur ki, heç bir deputat buna öz narazılığını bildirməməsi və qarşısını almağa çalışmamasıdır.

Onu da qeyd etmək istərdik ki, həmvətənlərimizə qarşı belə haqsızlıqların bir daha edilməməsi, müstəqil şəkildə tariximizin gerçəkliyindən danışaraq hər yerdə tanınması işini aktuallaşdırmalı və bunun üçün əvvəlcə ayağımızda buxova çevrilmiş düşmənlərimizdən xilas olmalıyıq. Nəticə etibarilə güclü kəşfiyyat sistemi yaradılmalı və onların siyasi strategiyalarını öyrənib, zəif nöqtələrini müəyyənləşdirmək lazımdır. Əlbəttə, onlara zərbəni qol gücü ilə deyil, etibarlı mənbələrə söykənən faktlarımızla və əsl tarixi məlumatlarla vermək daha həlledici və məqsədəuyğun olar. Sözümü görkəmli dövlət xadimi Heydər Əliyevin fikri ilə bitirmək istərdim: "Xalq, bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları arasında seçilir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, inkişaf edəcəkdir".

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Diasporu: Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2005, 256 s.
2.Azərbaycan diasporu: Böyük yolun başlanğıcı. Bakı, 2006, 208 s.
3. Azərbaycan diasporunun Fransada formalaşması ."Olaylar" qəzeti. 12 iyun 2014, N, 233-s. 11
4. Zaur Əliyev. Diaspor (İzahlı sözlük və məlumat kitabı). Bakı, Yurd, 2007, 376 s.
5. Second World Azerbaijani Congress - Topical - Visions of Azerbaijan .. www. azerbaijanis-congress.com
6. Maisondelazerbaidjan.fr: Association La Maison de L'Azerbaidjan. www.maisondelazerbaidjan.fr

# AZƏRBAYCAN DİASPORU VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏQİQƏTLƏRİ

**İbadullayeva Lalə İbadulla qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**lala.ibadullayeva@gmail.com**

*Məqalədə xaricdə yaşayan soydaşlarımızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərinin dünyaya çatdırılması, erməni separatçılarının Azərbaycan əhalisinə qarşı məkrli siyasəti, "Xocalıya ədalət, Qarabağa azadlıq" kampaniyası haqqında açıqlamalardan bəhs edilir.*
***Açar sözlər**: Azərbaycan diasporu, Dağlığ Qarabağ, Xocalı soyqırımı*

**Azerbaijani diaspora and the realities of Nagorno-Karabakh conflict**
*The article is about our compatrions' campaign of conveying the truth of Armenia-Azerbaijan, Nagorno Karabakh conflict to the world, Armenian seperatists' insidious politics againist Azerbaijan people, "Justice for Khojali, freedom for Karabakh".*
***Key words**: Azerbaijani diaspora, Nagorno Karabakh, Khojaly Massacre*

Azərbaycanlıların mühacirəti və diasporunun tarixi uzun müddət tarixdə az öyrənilən sahələrdən olub. Son zamanlar Azərbaycan tarixşünaslığında bu problem də aradan qaldırıldı. Son onillikdə nəşrlər və müdafiə olunmuş elmi tədqiqatları göstərmək olar ki, bunlar diasporologiya elminin Azərbaycanda formalaşmasını göstərir. Azərbaycan diasporologiyasının qarşısında təbii ki, bir sıra məsələlər dayanır və onlar aşağıdakılardır:
- diasporanın azərbaycanlıların yaşadıqları ölkələrdə əlaqələrinin möhkəmləndirilməsindəki rolu;
- Azərbaycan diasporunun tarixi Vətəni ilə əlaqələrinin gücləndirilməsi;
- ölkədən kənarda Azərbaycan lobbisinin siyasi və iqtisadi potensialının müəyyən edilməsi və s. problemləri öyrənmək və dünyaya Azərbaycanın reallıqlarının və həqiqətlərinin çatdırılması (1,s. 23).

Azərbaycan diasporunun təşkilatlanması üçün XX əsrin ortalarından müəyyən cəhdlər göstərilsə də, bu istək reallığa müstəqillik dönəmində qovuşur. Erməni diasporu və onun himayədarları birləşərək hər zaman antiazərbaycan fəaliyyətində böyük güc olmuşlar. Onların belə təşkilatlanması hələ o zamanlardan başlayıb bu dövrədək öz saxta tarixlərini dünyaya yaymağa can atıb. Lakin unutmaq olmaz ki, hələ müstəqil olmadığımız dönəmdə belə-1943-cü il 6 noyabr tarixində Berlində "Xaricdə yaşayan azərbaycanlıların birləşdirilməsi üçün Milli Azərbaycan Komitəsinin qurultayı" keçirildi. 1949-

cu ildə Türkiyədə "Azərbaycan Kültür Dərnəyi", 1956-cı ildə isə ABŞ-da Amerika Azərbaycan Cəmiyyətinin əsası qoyuldu.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinin bərpası nəticəsində Azərbaycan diasporunun dövlət tərəfindən təşkilatlanması gündəmə gəldi. Sovet dövründə Azərbaycandan kənarda yaşayan soydaşlarımızı birləşdirən ilk təşkilat Moskvada yaranmış "Ocaq" təşkilatıdır. "Ocaq" 1989-cu il 3 oktyabr tarixində qeydiyyatdan keçmişdir. Təşkilat vətənimiz üçün ağır bir dövrdə, yəni - Ermənistan ərazi iddiaları irəli sürən vaxtlarda yaranıb. Bu təşkilatın yaranmasında əsl məqsəd Azərbaycan xalqının milli irsinə yiyələnməsi, Rusiya vətəndaşlarını Azərbaycan Respublikasının nailiyyətləri ilə tanış etmək idi. Adı çəkilən təşkilatın rəhbəri ÜAK-ın vitse-prezidenti f.e.d., prof. Tofiq Davud oğlu Məlikovdur (1,s.29).

Qeyd etmək lazımdır ki, məhz bu dövrdə eyni adlı "Ocaq" cəmiyyətləri ABŞ-da və Pribaltika respublikalarında da yaranmışdır.

Bizim əsas məqsədimiz Azərbaycana qarşı olan ədalətsizlik, ərazilərimizin 20%-nin işğalı, yəni-Dağlıq Qarabağ və onun ətrafında yerləşən rayonlarda baş verən münaqişə nəticəsində məcburi köçkün probleminin yaranması, həmçinin Xocalı faciəsinin həqiqətlərini dünyaya çatdırmaqdır. Məhz bu məsələdə Azərbaycan diasporu təşkilatları bizə yardım məqsədi ilə əsaslı şəkildə birləşərək gündəmə gəlir və dünyanın müxtəlif ölkələrində yaşayan bütün azərbaycanlıları mütəşəkkil şəkildə birləşdirir.

Dünya azərbaycanlılarının I qurultayında Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması məsələləri üzrə komissiya yaradılmış və komissiyanın tərkibinə Avstriya, Almaniya, Rusiya, Gürcüstan və Ukraynadan gələn qurultay nümayəndələri daxil edilmişdi. Komissiyanın sədri Azərbaycan Respublikasının Milli Məclisi sədrinin müavini Ziyafət Əsgərov qurultayda çıxış edərək demişdir: "Dünya azərbaycanlılarının daha çox məlumatlandırılması, həmçinin onların dünya ictimaiyyəti arasında səmərəli təbliğat aparmaları və Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması işinə mühüm kömək məqsədilə Azərbaycanın son 200 il ərzində itirdiyi ərazilərə dair atlas, arxitektura abidələri, maddi-mənəvi abidələrimizə dair reyestr, erməni terrorunun xronologiyasına dair faktiki materialları əks etdirən məlumat kitabları, qaçqın və məcburi köçkünlərə qarşı törədilən vəhşilik və zorakılıq aktlarına dair foto-albomun hazırlanmasını Azərbaycan diasporunun vəzifə borcu olduğunu vurğulamışdır" (2,s.88-91).

Bu gün beynəlxalq aləmdə informasiya müharibəsi, psixoloji əməliyyatlar dəbdə olan anlayışlardan hesab edilir. Bəzi ekspertlərin fikrincə, Azərbaycanın Ermənistanla müharibədən məğlub çıxmasının əsas səbəblərindən biri ölkəmizin beynəlxalq informasiya məkanından düzgün istifadə etməməsidir. Buraya həmçinin müharibə dövründə baş verən bir sıra faciə-

lərin, Qarabağ sakinlərinin başlarına gətirilən dəhşətlərin cəmiyyətə çatdırılmasında mövcud çatışmazlıqlar da öz rolunu oynayıb. Hərbi əməliyyatların gedişində Azərbaycan tərəfindən baş verən itkilərin birbaşa olaraq ekranlara, qəzetlərin ön səhifələrinə çıxarılması ölkədə döyüş ruhunun azalmasına gətirib çıxaran amillərdən hesab edilir. Beynəlxalq təcrübə göstərir ki, münaqişə aparan tərəflərin EİV və KİV orqanlarının müharibənin işıqlandırılmasında tutduğu mövqe, onların hakimiyyətlə əlaqəli işləməsi hərbi əməliyyatların nəticələrini dəyişə bilər (3). Misal olaraq demək istərdik ki, 1990-cı il 20 Yanvar hadisəsi zamanı biz informasiya blokadasında yaşadığımız üçün səsimizi dünyaya çatdıra bilmirdik. Məhz bunun üçün də, indiki dönəmdə bizim informasiya müharibəsində iştirak etməyimiz zəruridir.

Azərbaycan tarixinin qanlı səhifəsi kimi yadda qalan Xocalıdakı hadisələr Azərbaycanda "Xocalı soyqırımı", "Xocalı faciəsi" kimi adlanır. Ermənistanda isə bu əməliyyat "Xocalı döyüşü", "Xocalı hadisəsi" terminləri ilə ifadə olunur. Dünya mətbuatı bu hadisəni “Xocalı qətliamı” (en. "Khojaly Massacre", fr. "Massacre de Khodjaly") terminilə adlandırır. O dönəmdə bir sıra xarici informasiya kütləläti də Xocalı soyqırımı ilə bağlı dünyaya məlumat çatdırırdı. Məsələn, “Krua l'Eveneman” jurnalı (Paris), 25 fevral 1992-ci il: “Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər”. “Sandi Tayms” qəzeti (London), 1 mart 1992-ci il: “Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər”. “Faynenşl Tayms” qəzeti (London), 9 mart 1992-ci il: “Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar. Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir” (4).

BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

Azərbaycan xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasının gücləndirilməsi məqsədilə 1997-ci ildə Dünya azərbaycanlıları Konqresi təsis edilərək, həmin il iyunun 27-29-da Dünya azərbaycanlıları Konqresinin Los-Ancelesdə ilk qurultayı keçirildi. Bu qurultayların hamısında xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad olunması üçün diaspor qurumlarının səylərinin birləşdirilməsi müzakirə olunan başlıca məsələlərdən idi. Qurultayların qəbul etdiyi qərarlarda da bu məsələlər öz əksini tapıb.

Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Pespublikası Ali Məclisinin sessiyası Milli həmrəylik və birlik gününü Əlaqələndirmə şurasının toplantısında qəbul olunan "Dünya azərbaycanlılarının həmrəylik xartiyası" ətrafında cəmləşməsi barədə müzakirələri davam etdirirdi. Əsasən beynəlxalq aləmdə erməni təbliğatına qarşı işin təşkili və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti ilə bağlı obyektiv məlumatların beynəlxalq ictimaiyyətə çatdırılması üçün diaspor qurumlarının qarşısında duran konkret fəaliyyət istiqamətləri müəyyənləşdirildi. Bu fəaliyyət istiqamətlərindən aşağıdakıları qeyd etmək mümkündür:

- Müxtəlif ölkələrdə təbliğat xarakterli tədbirlərin həyata keçirilməsi;
- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında faktların və sənədlərin beynəlxalq ictimaiyyətə çatdırılması;
- Dağlıq Qarabağ münaqişəsi haqqında materialların beynəlxalq təşkilatlara və xarici ölkə parlamentlərinə çatdırılması;
- Xarici kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri haqqında əsil həqiqətləri özündə əks etdirən materialların yayılması;
- Azərbaycana həsr olunmuş tədbirlərdə Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş məlumatların yayılması;
- Avropa və ABŞ-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı internet forumların təşkili;
- Əcnəbi müəlliflər tərəfindən Qarabağ münaqişəsi haqqında hazırlanmış tədqiqatların geniş yayılması;
- Xarici televiziya kanallarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri əks etdirən filmlərin nümayişi və s. (5).

Artıq hər il Azərbaycan diasporu mövcud olan ölkələrdə erməni lobbisinə qarşı olaraq Xocalı soyqırımı ilə bağlı müxtəlif yürüşlər, tədbirlər və s. keçirir. 2006-cı ildə Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədri Sahil Qasımov Xalq qəzetinə müsahibəsi zamanı qısa müddətdə fəaliyyəti belə işıqlandırmışdır: "Hələlik böyük uğurlardan danışmaq çox tezdir. Amma birgə fəaliyyətimiz nəticəsində qazandığımız bir nailiyyət Ana yurdumuz Azərbaycanda çox böyük ruh yüksəkliyi ilə qarşılandı. Belə ki, Hollandiyada hər il "İDFA" adlı sənədli filmlər festivalı keçirilir. Bu il həmin festivala erməni rejissoru Vardan Hovannisyanın Qarabağ həqiqətlərini saxtalaşdıran filmi təqdim edilmişdi. Film az qala mükafat almaq ərəfəsində idi. BAK-ın rəhbərliyinin festivalın təşkilatçıları ilə görüşündən və bu işə ciddi reaksiyasından sonra tarixi faktları saxtalaşdıran erməni filmi nominasiyadan çıxarıldı. Eyni zamanda, gələnilki festivalda Azərbaycan rejissorlarının iki sənədli filmi ilə iştirakı razılaşdırıldı" (6).

Başqa bir məqamı da qeyd etmək istərdik ki, 2005-ci ildə mətbu orqanımız olan "Azerbaijan Benelux News" qəzetinin bir sayı tamamilə Xocalı soyqırımına həsr edilərək, flomand və ingilis dillərində buraxılmışdı. Fevralın 26-da səhər saatlarında soydaşlarımız bu qəzetləri yaşadıqları şəhər və kəndlərdə hollandiyalıların və başqa millətlərin nümayəndələrinin poçt qutusuna atmışdılar. Hər bir ev sahibi səhər poçt qutusunu açarkən bu qəzeti görür və oradakı Xocalı faciəsinə həsr edilmiş materialları öz dilində oxuyurdu. Bəzi hollandiyalılar hətta ağlayaraq Xocalı faciəsinin qurbanlarını bizimlə birlikdə yad etmişdilər. Hətta, Ermənilər Dağlıq Qarabağda saxta referendum keçirdiyi zaman BAK bir neçə dildə həqiqətləri özündə əks etdirən bəyannamə hazırladı və həmin sənəd beynəlxalq təşkilatlara göndərildi.

Bu işdə bizə yardımcı olan digər əsas qüvvə də Heydər Əliyev fondudur. Haqqında bəhs etdiyimiz fond 2004-cü il 10 may tarixində yaradılmışdır. Yarandığı gündən bəri Azərbaycanın mədəniyyətini, tarixini və ən əsası Qarabağ həqiqətlərini dünyaya çatdırmaqla bağlı müxtəlif təbliğatlar ilə məşğuldur. Hazırladığı nəşrlər ilə xarici ölkələrdə olan diaspor təşkilatlarında da Azərbaycan Respublikasını tanıdır. Heydər Əliyev fondu qurulduğu gündən dövrümüzə qədər ötən müddət ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı ilə bağlı xarici ölkələrdə Azərbaycan birliklərini külli miqdarda sənədlərlə təmin etmişdir. Dövrümüzdə Qarabağ münaqişəsi ilə bağlı ən çox səs gətirən olay- "Xocalıya ədalət, Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") kampaniyasıdır. Bu kampaniya Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə təsis edildi. Hər il olduğu kimi Xocalı soyqırımının ildönümləri bu kampaniya vasitəsilə dünyaya çatdırılır. Xocalı soyqırımının 24-cü ildönümü ərəfəsində Heydər Əliyev Mərkəzində tədbir çərçivəsində sərgi keçirildi. Sərgidə Azərbaycanın tanınmış rəssamlarından, heykəltaraşlarından başqa bir sıra digər dövlətlərin nümayəndələri də çıxış etmişdi. Dövrün dünya şöhrətli fransalı heykəltəraş-rəssam, bu sərgidə azərbaycanlıların soyqırımına həsr olunmuş 70 əsərin müəllifi olan Renaud Vincent Baltzinger Xocalı soyqırımına həsr etdiyi "Bəyaz əsər" adlı kompozisiyası da təqdim olunmuşdu. O, qeyd edib ki, Xocalı faciəsini araşdırdıqdan sonra öz təəssürat və hisslərini nümayiş olunan əsərdə ifadə edib: "Mən Xocalıda qətlə yetirilən 613 qurbanı xatırlayıram. Bu gün soyqırımı qurbanlarının yad edilməsi ilə bağlı Azərbaycana gəlmişəm. Mən Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə yaratdım. Bu abidəni Azərbaycan xalqına həsr etmişəm" (7).

"Xocalıya ədalət" kampaniyası çərçivəsində Ukrayna Azərbaycanlıları Diasporu tərəfindən çəkilmiş "Cəhənnəmi görmüş pilot" sənədli filmi nümayiş olunub. Filmdə- Xocalı soyqırımının ilk şahidlərindən pilot Leonid

Kravets gördüyü dəhşətli hadisələri təsvir edirdi.

29 Fevral 2016-cı il “Radisson Royal Moskva” mehmanxanasında Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə tədbir keçirilib. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib ki, “Xocalı” sözü həddi-hüdudu olmayan ədalətsizliyin və vəhşiliyin timsalıdır. Azərbaycan xalqı məhz bu söz vasitəsilə müasir hüquqda bəşəriyyət əleyhinə cinayət kimi müəyyən edilən amansızlıqların ən qorxunc təzahürlərini yaşayır”(7).

Son illərdə Azərbaycan və Türkiyə diaspor qurumları arasında olan əməkdaşlıq əlaqəsi bizim xeyrimizə çalışır. Bu əlaqələrin nizamlanması üçün 2007-ci il martın 9-da Bakıda Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumu təşkil edildi. 2008-ci il martın 27-də isə Berlində Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurasının ilk iclası keçirildi. Bu təşkilatların öz səylərini birləşdirməsi erməni yalanlarının ifşası sahəsində keçirilən tədbirlərin vüsətinin genişlənməsinə, kəsərliliyinin artmasına müsbət təsir göstərdi. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində Azərbaycan diaspor qurumlarının özlərinin də fəallaşması Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin daha geniş ictimaiyyət tərəfindən qəbuluna yol açdı.

Nəticə olaraq demək olar ki, Azərbaycanın “Qarabağ konsepsiyası” yaradılmalıdır. Həmçinin demək istərdik ki, Erməni faşizminin Azərbaycana qarşı yaratdığı bu düşmənçilik və qəddarlıq bir gün mütləq öz cavabını tapacaqdır. Azərbaycan xalqı öz müstəqilliyini əldə etdiyi kimi bir gün qalan 20% torpaqlarına da qovuşacaq və şəhidlərimizin qanını yerdə qoymayacaqdır. Bu ümummilli savaşda Azərbaycan diasporu da öz layiqli yerini tutacaq.

**Ədəbiyyat siyahısı:**

1. XIX-XX əsrlərdə Azərbaycanda Miqrasiya Prosesləri. Dünya Azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri problemlər), IV buraxılış, Bakı, 2015, 210 s.
2. Dünya Azərbaycanlılarının I qurultayı. Azərbaycan nəşriyyatı, Bakı,2002,352 s.
3. Dördüncü sfera müharibəsi. // www.bak-org.eu/index.php?type=content&subid=&cid=26
4. Xocalı soyqırımına dair dünya mətbuatında çıxışlar //www.bakorg.eu/index.php?type=content&subid=&cid=4
5. Azərbaycan diasporunun fəaliyyətinə ümumi baxış. //http://diaspora.az/?p=3027
6. Azərbaycan diaspor təşkilatları Avropada qüvvələri birləşdirir. // http://www.bak-org.eu/index.php?type=content&subid=&cid=22
7. Heydər Əliyev mərkəzində “Xocalıya Ədalət” beynəlxalq kampaniyası çərçivəsində anım tədbiri keçirilib. // http://www.justiceforkhojaly.org/az/events

# DÜNYA AZƏRBAYCANLILARININ QURULTAYLARI

**İsmayılzadə Əfruz Sahib qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**ef.ismayilzade@gmail.com**

*Məqalədə Dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təşkili məqsədilə keçirilən qurultaylar, onların mahiyyəti əks olunmuşdur. Ümumilikdə dörd qurultay təşkil olunmuşdur.*

***Açar sözlər:*** *Dünya azərbaycanlıları, Diaspor, Həmrəylik, Nümayəndələr, Qərarlar*

***The Congresses of World Azerbaijanis***

*The article is devoted to the unity and solidarity of the world Azerbaijanis and to the organization of congresses and their essence reflected. Over all were organized 4 conferences.*

***Key words:*** *The world Azerbaijanis, Diaspora, Solidarity, Representatives, Resolutions*

**Giriş.** Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhvələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşlər. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayanlar vardır. Hazırda azərbaycanlılar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, MDB-nin digər ölkələrində, Avropada və s. iri Azərbaycan icmaları yaranmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə doğma yurdda yaşayan azərbaycanlıların başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə əlaqə yaratmaq səylərini nəzərə alaraq dekabrın 31-ni Dünya azərbaycanlılarının həmrəylik günü elan etdi və 2001-ci il mayın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayının 2001-ci il noyabrın 9-10 da keçirilməsi barədə sərəncam verir:

1) 2001-ci il noyabrın 9-10 da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirilsin.

2) Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın,

iş planı hazırlayıb təstiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

3) Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələlərin yerinə yetirilməsinə nəzarət etsin.

**I qurultay**. Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 10-cu ildönümünə təsadüf edir. Qurultayda qeyd edilir ki, Azərbaycan xalqı artıq başa çatmış XX əsrin əvvəlində öz zəngin dövlətçilik ənənələrini inkişaf etdirərək müsəlman şərqində ilk demokratik parlamentli respublika yaratmış, əsrin sonunda öz müstəqilliyini bərpa etmiş, XXI əsrə Avropa xalqları ailəsinin bərabərhüquqlu üzvü kimi qədəm qoymuşdur. Həmçinin, qurultay hesab edir ki, Azərbaycan Respublikasının demokratik inkişafına mane olan ən başlıca problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycanlıların ayrı-ayrı ölkələrə mühacirət tarixi XX əsrin əvvəllərində başlasa da Azərbaycan diasporunun formalaşması işi gecikmiş 1993-cü ildən sonrakı dövrə təsadüf etmişdir. Qurultay Azərbaycan Respublikasının diasporla bağlı xüsusi siyasət yeritməsini onun dünya səviyyəsinə qaldırılmasını dəstəkləyir. Qurultayda 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatlardan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bura ABŞ, Almaniya, Avstraliya, Avstriya, İsrail, İsveçrə, B.Britaniya, Fransa, Rusiya, Türkiyə, Gürcüstan, Qazaxıstan və başqa ölkələrdən nümayəndələr gəlmişdilər. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində yeni vəzifələri müəyyənləşdirən bu qurultay ümumilikdə Azərbaycanın inkişafında ən yeni tarixində əhəmiyyətli hadisəyə çevrilmişdir (1, səh.2-12).

Bu qurultay Azərbaycan diasporunu keyfiyyətcə yeni mərhələyə keçirdi. Qurultayda Azərbaycan diasporu-Azərbaycan Respublikası Əlaqələri, dünya azərbaycanlıları və onların həmrəyliyi, həmvətənlərimizin qüvvəsini və diqqətinin Azərbaycana yönəlməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi.

**II qurultay** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 8 fevral tarixli qərarı ilə 2006-cı il martın 16-da təşkil edilmişdi.

Qurultayda 44 ölkədən təqribən 600-dək nümayəndə dəvət alıb. Ali Məclisdə daha çox nümayəndə ilə Rusiya Federasiyası, Ukrayna, Gürcüstan, Türkiyə, Almaniya, Qazaxıstan, ABŞ, İsveç, Fransa, Özbəkistan təmsil olunmuşdur. Həmçinin 40-dan çox ölkədən Azərbaycana rəğbət bəsləyən tanınmış siyasətçilər, parlament və hökümət üzvlərindən ibarət 300-dək şəxs qonaq kimi dəvət edilmişdir. Ali tədbirdə əsas müzakirə olunan məsələlər: diaspora təşkilatlarının fəaliyyətinin koordinasiyasının təkmilləşdirilməsi, Azərbaycan həqiqətlərinin xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə bağlı tarixi faktların dünya ictimaiyyətinə çatdırılmasının yeni və daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları

ilə əlaqələrinin gücləndirilməsi ilə bağlı məsələlərdir. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin geniş və əhatəli nitqindən və Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət komitəsinin hesabatından sonra məlum olur ki, ötən dövrdə xaricdəki soydaşlarımızın təşkilatlanması və tarixi vətənləri olan Azərbaycanla əlaqələrini genişləndirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Dəvət almış qonaqlardan TBMM-in deputatı Ədalət və İnkişaf Partiyası sədrinin müavini Şaban Dişli, Qırğızıstanın Dövlət Katibi Dastan Sarıqulev, Almaniyanın keçmiş Dövlət Katibi Otto Hauzer öz yaddaqalan çıxışlarını etmişlər (3,səh.3-7).

**III qurultay.** Dünya azərbaycanlılarının III qurultayı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tədbirlər planı"na əsasən 2011-ci il iyul ayının 5-6-da Bakı şəhərində keçirilmişdir. Qurultayda 42 ölkədən 579 nümayəndə və 211 qonaq iştirak etmişdir. Ümumilikdə burada 13 ölkənin parlamentinin 29 deputatının iştirakı planlaşdırılmışdır. Bu qurultayda diasporla bağlı məsələlərə xüsusi diqqət yetirilib. Azərbaycan diasporunun əsas hədəflərindən biri kimi ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ münaqişəsi olduğu bildirilmişdir. Bu qurultayda həmçinin Dünya azərbaycanlıları Əlaqələndirmə Şurasının fəaliyyətini davam etdirmək, Şuranın tərkibində rəyasət heyətini ləğv etmək və İcra katibliyinin yaradılması qərara alınır. Əlaqələndirmə Şurası üzvlərinin sayı 107-dən 115-ə çatdırılmışdı (4, səh.2-3).

**IV qurultay.** Dünya azərbaycanlılarının IV qurultayı 2016-cı il 3-4 iyun tarixlərində Bakı şəhərində keçirilmişdir. Qurultayda 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Qonaqlar içərisində xarici ölkələrin Azərbaycana dost münasibəti ilə tanınan siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri dəvət olunmuşdur. Xarici qonaqlarla yanaşı Qurultayın işində Azərbaycanın müxtəlif dövlət və hakimiyyət strukturları, elm, təhsil və digər qurumların siyasi partiyaların təmsilçilərindən ibarət 300 nəfərlik nümayəndə heyəti də iştirak etmişdir. İştirakçılar qurultayın qətnaməsini, nümayəndələr adından Prezident İlham Əliyevə müraciəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciəti, qurultayın Ermənistanda yerləşən "Metsamor" AES-nin fəaliyyəti ilə bağlı BMT-nin Beynəlxalq Atom Enerjisi Agentliyinə, Aİ-na və dünya ictimaiyyətinə müraciətini yekdillə qəbul etmişlər. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi (təsdiq olunmuş) 109 nəfər olmaqla təsdiqlənmişdir (5).

**Nəticə.** Beləliklə, bu qurultaylar xaricdə yaşayan azərbaycanlıların

müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsini, Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin təmin olunmasını, həmçinin Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi və bir sıra məsələlərin də həlli yolunu tapdığı ən yüksək səviyyəli tədbir olmuşdur. Fikrimizcə, bu qurultaylar Azərbaycanın formalaşmaqda olan diasporunun müsbət yöndə inkişafına təkan verdi. Burada işlədilən ifadələr, söylənilən fikirlər xalqın fikirlərinə hoparaq onların güclü təşkilatlanmasına səbəb olmuşdur.

**Ədəbiyyat siyahısı** :

1.Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında "Azərbaycan Respublikasının Prezidentinin 23 may 2001-ci il tarixli 724 nömrəli Sərəncamı". səh.2-12

2. "Dünya azərbaycanlılarının qurultayının çağrılması haqqında". Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1992-ci il tarixli sərəncamı

3.Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında."Azərbaycan Respublikası Prezidentinin 2006-ci il 8 fevral tarixli sərəncamı", "Azərbaycan" qəzeti, 8 mart 2006-cı il, səh.3-7

4.Dünya azərbaycanlılarının III qurultayının keçirilməsi haqqında."Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli 1293 nömrəli sərəncamı", "525-ci qəzet".-2011.-2 iyul.-№117.- səh.2-3

5."Dünya azərbaycanlılarının IV qurultayının keçirilməsi haqqında". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il tarixli sərəncamı.

6. "Azərbaycan" qəzeti. 11 noyabr 2010, N 249,s.4.

# RUSİYADA AZƏRBAYCAN DİASPORU VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**Kərimova Nərgiz Tofik qızı**
**Tarix fakültəsi, magistrant, I kurs**
**k.va.nargiz@gmail.com**

*Məqalədə diasporun əsas cəhətlərinə diqqət çəkilərək Azərbaycan diasporunun başlıca vəzifələri açıqlanır. Bununla əlaqədar, Rusiyada Azərbaycan diaspor qurumları və onların fəaliyyət istiqamətləri, bu istiqamətlərdən biri kimi Qarabağ həqiqətlərinin təbliği və qarşıda duran məsələlər araşdırılır. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində KİV və İKT-nin təbliğat sahəsində oynadığı rol dəyərləndirilir.*
***Açar sözlər:*** *Azərbaycan diasporu, İKT və KİV, Qarabağ həqiqətlərinin təbliği*

***Azerbaijani Diaspora in Russia and its action lines***

*The main features of diaspora and the special duties are given in the article. For this, the diaspora of Azerbaijan which is situated in Russia and the directions of the diaspora such as the propaganda of Garabagh realities and the issues are researched. The role of the Mass Media and Information and Communication Technologies in the activities of the organizations of the Azerbaijani diaspora is considered.*
***Key words:*** *Azerbaijani diaspora, Information and Communication Technologies and Mass Media, the propaganda of Garabagh realities.*

**Giriş.** İlk olaraq Diaspor terminini izah edək: "xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması diaspor anlayışının meydana çıxması deməkdir" (3,s. 66). Qeyd etmək lazımdır ki, bir çox diasporlar geosiyasi amil olmaqla yanaşı dünyada gedən proseslərin fəal iştirakçılarıdır.

Güclü diaspor əslində özündə 2 cəhəti birləşdirir: 1.Milli kökünə bələd olub, milli varlığına və milli sərvətlərinə sahib olmaq; 2.Tarixi vətənlərini başqalarına tanıtmaqla onu xarici ölkələrdə təbliğ etdirmək.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi.

Bugünki tarixi prosesdə də Azərbaycan diaspor təşkilatlarının başlıca vəzifələri müxtəlif dövlətlərdə ölkəmizi təbliğ etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini dünya birliyinə çatdırmaq, Xocalı soyqırımını tanıtmaq, zəngin tarixi-mədəni irsimizi təbliğ etmək olmaqla yanaşı ayrı-ayrı ölkələrin cəmiyyətlərinə inteqrasiya etmək, seçkili orqanlarda təmsil olunmaqdır.

**Rusiyada Azərbaycan diasporu.** 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işinə də təsirsiz ötüşmədi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı. Yeni bir inkişaf yoluna qədəm qoyan Azərbaycan diasporu dünya ölkələrində Azərbaycanın tanınmasına böyük yollar açmış oldu (7, s.3).

Bu gün sayına və fəaliyyətinə görə Azərbaycan diasporunun güclü olduğu dövlətlərdən biri Rusiya Federasiyasıdır. Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və cəmiyyətlərini ətrafında birləşdirən iri qurumlar fəal işlə məşğul olur. Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan 13 mərkəz fəaliyyət göstərir və biz bunlardan bir neçəsinin fəaliyyəti haqqında qısaca da olsa məlumat verməyə çalışacağıq.

1989-cu ilin oktyabrın 3-də rəsmi qeydiyyatdan keçib, dekabrdan fəaliyyətə başlamış "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyəti Moskvada yaşayan azərbaycanlıların yaratdıqları ilk təşkilatlardandır. Cəmiyyət informasiya qıtlığına baxmayaraq, 1990-cı ilin yanvarında Bakıda baş verən faciəli hadisələr haqqında geniş təbliğat işi apararaq Moskva ictimaiyyəti arasında əsl həqiqətin yayılmasında mühüm rol oynamışdır. 1990-cı ilin aprel ayının 13-də Cəmiyyətin "Ziya" adlı müstəqil qəzetinin ilk nömrəsi ziyalıların köməyi ilə Gəncədə nəşr edilmişdir.

Rusiyada Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən böyük qurumlardan biri də Rusiya Azərbaycanlılarının Milli Mədəniyyət Muxtariyyəti (FNKA-AZERROS) birliyidir. 1999-cu ildən fəaliyyətə başlayan AZERROS həmin ilin 10 oktyabrında Rusiya Federasiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qurum Rusiya hökuməti və Dövlət Duması yanında ölkə prezidenti V.Putinin fərmanı ilə yaradılan Məsləhət Şurasının üzvüdür. Bununla Dövlət Dumasında daimi qaydada səs hüququ əldə edən AZERROS ekstremizm, cinayətkarlıq, milli münasibətlər və s. məsələlərin müzakirəsi zamanı öz əlavə və düzəlişlərini təklif etmək, yeni layihələr təqdim etmək hüququna malikdir.

Böyük və geniş imkanlara malik qurumlardan biri də Ümumrusiya Azərbaycanlıları Konqresidir (ÜAK). 2001-ci il martın 5-də Moskva şəhərində təsis olunub, 15 ildən artıq fəaliyyət göstərən təşkilat həftəlik qəzet və vebsayt təsis etməklə yanaşı, Azərbaycan dilini öyrənmək üçün xüsusi məktəb təşkil edib. Qurumun fəaliyyəti nəticəsində Rusiyada həmvətənlərimizin hüquqi mənafeyini müdafiə etmək üçün xüsusi mərkəz yaradılıb. ÜAK azərbaycanlıların Rusiya Federasiyasında ali təhsil almalarına da böyük köməklik göstərir.

Rusiya Federasiyasının Ədliyyə Nazirliyi iri Azərbaycan diaspor təşkilatlarını qeydə almışdır. Rusiya azərbaycanlılarının federal səviyyədə Ümumrusiya Azərbaycan Konqresini (ÜAK), Rusiya Azərbaycanlılarının Federativ Milli-Mədəni Muxtariyyəti (RAFMMM), Rusiya Azərbaycanlılarının həmyerli təşkilatlarını təsis etmişlər. Bu təşkilatlardan hər birinin öz regional şöbələri var. Məsələn, ÜAK Rusiya Federasiyasının 68 regionunda təmsil olunmuşdur (10).

Digər bir təşkilat 2009-cu il aprelin 18-də Moskva şəhərində təsis edilmiş Rusiya-Azərbaycan Gənclər Təşkilatıdır (AMOR). Azərbaycan həqiqətlərinin Rusiya və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi fəaliyyət göstərən təşkilatın məqsədi Azərbaycan mədəni irsinin, milli-mədəni dəyərlərinin qorunması, sosial, bədii, təhsil təşəbbüsləri, gənclərin dəstəklənməsi, inkişafının təbliği, Rusiya cəmiyyətinin mədəni həyatına inteqrasiyası, təhsilin inkişaf etdirilməsi, ailə və cəmiyyətin mənəvi, əxlaqi əsaslarını qorumaq, möhkəmləndirmək, dostluq, etimad və xalqlar arasında anlaşmanın təşviqidir (8).

Təşkilatlardan biri də 2011-ci il sentyabrın 24-də Sankt-Peterburqda təsis edilmiş Azərbaycan İcması İctimai Təşkilatıdır. Onun məqsədi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqları arasında dostluğu möhkəmləndirmək üçün hər iki ölkənin özünü azərbaycanlı hesab edən vətəndaşlarını könüllü sürətdə birləşdirməkdir. Təşkilatın fəalları dövlət əlaqələrinin, siyasi, iqtisadi və mədəni əlaqələrin hər vasitə ilə inkişafına, gənc azərbaycanlıların Rusiya cəmiyyətinə inteqrasiyasına kömək göstərir, Sankt-Peterburqun həyatının bütün sahələrində, o cümlədən, Dövlət Dumasına seçkilərdə iştirak edirlər.

**Qarabağ həqiqətlərinin təbliği.** Yaşadığımız informasiya dövründə təbliğatda köhnə metodlarla istənilən nəticəni əldə etmək olmur. Artıq böyük dövlətlər informasiyadan silah kimi istifadə edir. Elə buna görə də müasir dövrdə dünya dövlətləri rəqiblərinə, əsasən, informasiya müharibəsində qələbə çalmağa çalışırlar.

Ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq prosesləri, dövlət siyasətinin mahiyyətinin xalqa çatdırılması, cəmiyyətin aktual problemlərinin müzakirəsi, günün nəbzinə uyğun verilişlərin hazırlanması KİV üçün daim prioritet istiqamətlərindəndir. Eyni zamanda son dövrlərdə informasiya yükünün həddindən artıq çoxalması yeni-yeni ünsiyyət formalarının meydana gəlməsini sürətləndirir. Bu baxımdan diaspor işində müəyyən olunmuş strateji hədəflərə doğru əsasən KİV və İKT vasitələri ilə irəliləmək daha tez nəticə verdiyi üçün bu təbliğat vasitələri ilə Azərbaycan həqiqətlərini ortaya qoymaq prioritet məsələlərdəndir. Çünki, nəticə etibarilə, eyni məzmunlu informasiyanın böyük əraziyə yayılmasını həyata keçirən

müasir KİV-lər kütləvi şüur daşıyıcısı olan sosial qruplara, bütövlükdə cəmiyyətə təsir etmək imkanlarını artırırlar.

Bununla əlaqədar olaraq, Diasporla iş üzrə Dövlət Komitəsinin rəsmi məlumatına əsaslanaraq Rusiyada ümumi tirajı bir milyon nüsxədən çox olan qəzetin nəşr edilməsini qeyd edə bilərik (2,s.92). Həmçinin Rusiyada fəaliyyət göstərən "İnter-Azərbaycan" kanalı informasiya təbliğatçılıq işində daha çox aktivlik nümayiş etdirir ki, bu da informasiyaların qısa müddətdə dünyaya çatdırılmasında xüsusi rol oynayır.

Qarabağ həqiqətləri ilə bağlı sosial mediada davam edən kampaniyalardan ən aktivi "Xocalıya ədalət" kampaniyasıdır. "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasına Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (İKGF) Baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmişdir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılmasını, soyqırımına beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsini, həmçinin beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justiceforkhojaly.org internet saytı vasitəsilə aparılır. Kampaniyanın məqsədlərini dəstəkləyən fərdi şəxslər, vətəndaş cəmiyyəti təşkilatları, sosial strukturlar və aktivistlər kampaniyaya qoşula və onun fəaliyyətlərində iştirak edə bilərlər. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı tarixdə 120 mindən çox şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir. Sosial şəbəkələr, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər oxşar tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan digər səmərəli vasitələrdir [9]. Aktiv fəaliyyət göstərən saytda həmçinin Xocalı soyqırımı haqqında məlumat əldə etmək, soyqırımın təsvirini özündə ehtiva edən rəsm əsərlərini, filmləri və fotoları görmək mümkündür.

2015-ci ilin fevral ayı ərzində Azərbaycan diaspor təşkilatları tərəfindən Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı keçirilən 70-dən çox tədbirdə həmvətənlərimiz yaşadıqları ölkələrin dövlət və hökumət strukturlarını erməni təcavüzkarlarının törətdikləri cinayət barədə məlumatlandırmaq məqsədilə görüşlər keçirmiş, ictimai və siyasi xadimlərə müraciətlər və məktublar ünvanlamışlar.

Diasporla iş üzrə Dövlət Komitəsinin 2015-ci il hesabatına nəzər saldıqda məlum olur ki, hesabat dövründə dünyanın müxtəlif ölkələrində Azərbaycan diaspor təşkilatları tərəfindən 450-ə yaxın tədbir keçirilmiş, tədbirlərdən 150-si Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın, erməni diaspor və lobbi qruplarının anti-təbliğat kampaniyalarının qarşısının alınması məqsədinə xidmət etmişdir. Azərbaycan diaspor təşkilatları tərəfindən bu istiqamətdə müxtəlif formatlı tədbirlər keçirilmiş,

xarici ölkələrin Kütləvi İnformasiya Vasitələrində (KİV) ölkəmizlə bağlı mütəmadi olaraq məlumatlar yayımlanmışdır (1).

2015-ci il dekabrın 15-də Azərbaycanın Rusiyadakı diasporu Xocalı faciəsinin soyqırım kimi tanınması üçün Rusiya Dövlət Dumasının sədri Sergey Narışkinə müraciət etmişdir. Müraciətin müəllifləri Dövlət Dumasının sədrini Xocalıda törədilən kütləvi qətillərin soyqırım kimi tanımağa çağırmışdır (1).

**Nəticə.** Bu gün "dünya ağalığının üçüncü nəsil vasitəsi"nə çevrilən media dünya siyasətində dövlətin aparıcı mövqe tutmasını təmin edən başlıca faktordur. Bu mənada KİV-lərin dövlətin xarici siyasətində, beynəlxalq münasibətlər sistemində dövlətin maraqlarının və mövqeyinin müdafiə edilməsi işində, ölkənin müsbət imicinin formalaşdırılmasında rolu əhəmiyyətli dərəcədə böyükdür. Eyni zamanda, bu gün sosial şəbəkələr ən güclü və interaktiv təbliğat vasitəsidir. Bu baxımdan müasir dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün internet resurslarından və mediadan daha aktiv şəkildə istifadə etmək vacibdir. Azərbaycan diaspor təşkilatları da bu vasitələrlə Azərbaycan həqiqətlərinin dünyada təbliğini daha effektli şəkildə həyata keçirə bilər. Təbliğatda dil faktoru mühüm əhəmiyyətə malik olduğundan diaspora və ya diaspor nəzdində fəaliyyət göstərən qurumlara məxsus saytlar daha geniş oxucu kütləsinə xitab etmək üçün ən az 3 dildə - azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərməli, Azərbaycan əleyhinə xaricdə yayımlanan təxribatların qarşısını almaq üçün koordinasiyalı iş prinsipi qurulmalıdır.

Müasir dövrdə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporu təqdirəlayiq işlərə imza atsa da, lakin təəssüflə qeyd olunmalıdır ki, bu gün Azərbaycan diaspor təşkilatları arasında daha çox fərdiləşmə meyillərinin müşahidə olunması Azərbaycan diasporunun ümumi fəaliyyətinə mənfi təsir göstərir. Əslində isə Azərbaycan diaspor təşkilatları arasında azərbaycançılıq ideologiyası uğrunda birlik nümayiş etdirilməlidir. Diasporların vahid ideya ətrafında birləşmələri üçün isə müəyyən tədbirlər həyata keçirilməli, xüsusilə də, Qarabağ probleminin həlli bütün dünya azərbaycanlılarını birləşdirən bir ideologiya olmalıdır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 2015-ci ilin yekunlarına dair hesabatı. http://www.diaspora.gov.az
2. Əliyev Z. Azərbaycan diasporu müasir beynəlxalq münasibətlər sistemində. Bakı,2011,143 s.
3. Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı, 2007, 376 s.
4. Əliyev Z. Türkdilli xalqların diasporları. Bakı, 2009, 295 s.
5. Mehdiyev R. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan"

qəzeti, 2009, 2 oktyabr.
6. Vəlibəyov R. KİV-in və sosial şəbəkələrin kütləvi şüurun idarə edilməsində rolu.“Strateji Təhlil” jurnalı, say 7-8, 2014, 363s.
7. Heydər Əliyev və Azərbaycan diasporası. “Olaylar”qəzeti, 2014, 14 noyabr.
8. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin saytı// http://www.diaspora.gov.az
9. “Xocalıya ədalət” kampaniyasının saytı. //www.justiceforkhojaly.org
10. Novruzova G.T. Rusiya Federasiyasında Azərbaycan diasporu: tarixi-demoqrafiya problemləri (1989-2002-ci illər). Avtoreferat, Bakı, 2010, 29 s.

# AZƏRBAYCAN DİASPORUNUN ABŞ-DAKI FƏALİYYƏTİNƏ DAİR

**Nağıyeva Kamilə Nuru qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**kamile.nagiyeva@mail.ru**

*Məqalədə Azərbaycan diasporunun fəaliyyətindən və hansı məqsədə xidmət etdiyindən bəhs edilir. Azərbaycan diasporu hazırda gündəmdə olan prioritet mövzulardan biridir. Diyar-diyar dünyanın müxtəlif dövlətlərinə səpələnmiş Azərbaycan diasporunun təşəkkül tarixi ,inkişaf yolu ,formalaşması , müasir durumu və onların öyrənilməsi günümüzün ən vacib problemlərindən biri olaraq qalmaqdadır. Azərbaycandan xaricdə formalaşan bu təşkilatlar onun bayrağı altında birləşib və uğurlu işlərə imza atmışdılar. Azərbaycanın ilk diasporunun qurulduğu ölkələrdən biri ABŞ-dır.*

***Açar sözlər:*** *diaspora, Azərbaycan, ABŞ, təşkilatlar*

***The diospor of Azerbaijan and Its action in USA***

*In this article deals with the activity of Azerbaijan Diaspora in USA and about the goal which it serves for. Azerbaijan's Diospor is one of the topics which are priority on the agenda. The topics which have been touched are: the formation history of Azerbaijan's diaspora in USA, which spreaded to the districts of the world, improvement way its being formed, modern status, and the issues on the way of their researching. Unions has established in the cultural and political fields. The tasks which they accomplished in this Diaspora must be considered. The unions,which were formed in the foreign countries have talked and put signature to the documents under the Flag of Azerbaijan*

***Key words:*** *diaspora, Azerbaijan, the USA, organizations*

"Diaspor" termini ilk dəfə yəhudilərin e.ə.VI əsrin əvvəlində Babilistan padşahı II Navuxodonosor və sonra isə eranın I-III əsrlərində romalılar tərəfindən qovulub Fələstindən kənarda yaşamaları ilə əlaqədar işlənir. Diaspora xalqın zorla köçürülməsi, genosid təhlükəsi, iqtisadi və coğrafi amillərin təsiri nəticəsində yaranır [1, s.437].

Kaliforniya Universitetinin professor-sosioloqu R.Brubeyker diaspor sahəsinə yeni termin gətirdi. Bu, "Kataklizm diasporu", başqa sözlə "Çevriliş diasporu"dur. Həmin diaspor böyük imperiyaların çökməsi nəticəsində yaranır. R. Brubeyker kataklizm diasporunu adi diasporlardan fərqləndirir. Onun sözlərinə görə, kataklizm diasporu siyasi dönəmin və beynəlxalq aləmdə yaşanan siyasi proseslərin qəflətən dəyişməsi ilə ortaya çıxan əlverişli şəraitin məhsulu kimi tez bir zamanda yaranır. Kataklizm

diasporunun ən bariz nümunəsi Azərbaycan diasporudur [6].

Azərbaycanın ilk diasporunun qurulduğu ölkələrdən biri ABŞ-dır. II Dünya müharibəsindən sonra Birləşmiş Ştatlarda Azərbaycan diasporunun təşkilatlanma işi güclənməklə, siyasi fəallıq dövrü başlandı. Türkiyədən, Cənubdan və Şimaldan köçən azərbaycanlılar pərakəndə halda olsalar da, siyasi fəaliyyətə maraq göstərirdilər. İlk dəfə olaraq, 1947-ci ildə Türkiyədən ABŞ-a köçən soydaşlarımızın "Azərbaycan" cəmiyyətini yaratması mühum tarixi hadisə idi. Saleh bəy Şeyxzamanovun rəhbərliyi ilə fəaliyyətə başlayan "Azərbaycan" cəmiyyəti Nyu-York şəhərində yerləşirdi. "Zəbt olunmuş millətlər" adlı keçmiş milli respublikaların təşkilatlarının birləşdiyi birliyin üzvu olan "Azərbaycan" cəmiyyəti Amerika hökumətinin yardımı ilə fəaliyyət göstərirdi. Azərbaycanlıların hüquqlarını qoruyan ilk təşkilat 1951-ci il, fevralın 8-də yaradılan Amerika Komitəsi oldu. Sonradan isə onun adı dəyişdirilərək Amerikada Rusiya Xalqlarının Qurtuluş Komitəsi kimi tanınmağa başladı. II dünya müharibəsindən sonra mühacir təşkilatların birləşib antisovet mübarizəsi aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Digər tərəfdən müxtəlif ölkələri təmsil edən ayrı-ayrı mühacir təşkilatlarının mövcudluğu bəzi hallarda daxili çəkişmələrin meydana çıxmasına gətirib çıxarırdı [7]. 1952-ci ildə Ştarnberqdə və Münhendə Azərbaycan konfransı keçirildi. Bu konfransda "Amerika Komitəsi"nə müraciətlər qəbul edildi. ABŞ hökumətinin yardımı ilə "Azadlıq" radiosu fəaliyyətə başladı. "Azadlıq" radiosunun "Azərbaycan redaksiyası"na (1953-1954-cü illər) mayor Ə.Fətəlibəyli-Düdənginski başçılıq edirdi. Bu redaksiyada həmçinin Məcid Müsazadə (Qaraslanlı), Fərman Məmmədov, Kərim Aslanoğlu, İsmayıl Əkbər, Əli Aranlı və digər legionerlər çalışırdılar [2, s.10]. 1953-cü ilin martında Birləşmiş Ştatlar dövlətinin maliyyələşdirdiyi “Bolşevizmlə Mücadilə Koordinasiya Mərkəzi” tərəfindən istiqamətləndirilən “Qurtuluş”, sonradan isə “Azadlıq” radiosu ilk verilişlərinə başladı. Azərbaycanlıların həmrəyliyinin güclənməsində “Azərbaycan şöbəsi”nin fəaliyyətə başlaması mühüm rol oynadı. Soydaşlarımız öz haqq səslərini dünya birliyinə çatdırmaqla yanaşı, sovetlərdə işğal altında olan Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində işlərini fəallaşdırdılar. İlk dəfə olaraq, 1954-cü ildə Azərbaycan mühacirətinin tanınmış nümayəndəsi Zahid xan Xoyski 1984-cu ildə Amerikanın ali qanunverici orqanında cıxış etdi. Zahid xan Xoyski Konqresə Sovetlər Birliyinə daxil olan respublikalar haqqında məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan təmsilçisi kimi dəvət olunmuşdu. Zahid xan Azərbaycan müstəqilliyinin bərpası barədə cıxış etmiş və vətənimiz barədə ətraflı məlumat vermişdi [7].

1956-cı ildə ABŞ-ın Nyu-York şəhərində Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı ucaldılmışdı [2,s.10].

Azərbaycan Respublikası 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlıların Qərb ölkələrinə, xüsusən ABŞ-a miqrasiyası başlandı. Bu prosesin iştirakçıları ziyalılar, elm və mədəniyyət xadimləri, eyni zamanda, iş tapmaq ümidilə ABŞ-a üz tutanlar idi. Azərbaycanlıların miqrasiyası Birləşmiş Ştatlardakı diasporun fəaliyyətinə də öz təsirini göstərdi. Diasporumuz ilk növbədə Bakıda 1990-cı ildə ruslar tərəfindən həyata keçirilən Qanlı Yanvar hadisəsinə etiraz səslərini ucaltdı. Dağlıq Qarabağ ətrafında Ermənistanın təcavüzkarlıq siyasəti, BMT-nin 1992-ci ildə qəbul etdiyi qətnamələrə əməl edilməməsi və 1992-ci il 26 fevral əsrin faciəsi Xocalı soyqırımının baş verməsi Amerikada Azərbaycan diasporu tərəfindən ciddi etirazla qarşılandı. 2001-ci il 11 sentyabr hadisələri zamanı azərbaycanlıların amerikalılar ilə birgə olması diasporumuzun mövqeyini gücləndirdi. Bu proses indinin özündə də davam edir və konqresmenlər arasında Azərbaycanpərəst şəxslərin sayı artmağa başlayır. Artıq Amerika siyasi və rəsmi dairələrində Azərbaycan diasporunun dəstəklənməsi muşahidə olunur.

Birləşmiş Ştatlarda uğurla fəaliyyət göstərən təşkilatın sayı çoxdur. Diaspor təşkilatlarından biri də, rəsmi olaraq 1988-ci ilin yanvarından fəaliyyətə başlayan Los-Anceles şəhərində yaradılan "Azərbaycan Evi" təşkilatıdır. "Azərbaycan Evi"nin təxminən 5 minə yaxın üzvü var. Onun üzvləri əsasən həkim, mühəndis, tacir, müəllim, vəkil və başqa peşə sahibləridir.

Onların bir çoxu Cənubi Azərbaycandandır. Təşkilatda İrandan, Türkiyədən, Almaniyadan, Çindən, İtaliyadan, Küveytdən, Yunanıstandan da üzvlər var. İctimai təşkilat kimi fəaliyyət göstərən "Azərbaycan Evi" dilimizin, mədəniyyətimizin, tariximizin öyrənilməsinə böyük səy göstərir, vaxtaşırı Los-Ancelesdə "Azərbaycan mədəniyyəti" gecələri təşkil edir. "Azərbaycan Evi"nin təşəbbüsü ilə 1993-cü ilin yazından Los-Ancelesin Yueyels universitetində "Azərbaycan dili" fakültəsi açılır. "Azərbaycan Evi"nin prezidenti doktor Mahmud Zaregeyvanidir. Azərbaycan Mədəniyyət Mərkəzi 2010-cu ildən ABŞ-ın Nyu-York şəhərində fəaliyyət göstərir. Mərkəz Azərbaycanın iqtisadi, milli və mədəni irsinin təbliği istiqamətində bir çox işlər görür. Mərkəz tərəfindən 2010-cu ilin may ayında yaradılan www.azeiamerika.com şəbəkəsi aktiv fəaliyyət göstərir.

Bu layihənin məqsədi Kanada və ABŞ-da yaşayan azərbaycanlıların diaspor həyatının müxtəlif istiqamətləri, onların yaratdıqları saytlar haqqında məlumat vermək, onların ABŞ və Kanadaya inteqrasiyasına köməklik göstərmək, Azərbaycanın mədəniyyəti, incəsənəti, ədəbiyyatı, tarixi, dili, yaşayış tərzi, müasir siyasəti haqqında məlumatları Amerika və Kanada ictimaiyyətinə çatdırmaqdır. Hyuston Azərbaycanlıları Cəmiyyəti 2004-cü

ildə ABŞ-ın Hyuston şəhərində yaranıb və qeyri-kommersiya təşkilatı kimi fəaliyyət göstərir. Cəmiyyətin məqsədi ABŞ Azərbaycan arasında olan mədəniyyət və təhsil sahələrini genişləndirmək, bu istiqamətdə Azərbaycanı təmsil etməkdir. Cəmiyyətin ən uğurlu nailiyyətləri sırasında Milli rəqs qrupunun yaradılmasıdır. Milli rəqs qrupu hər il ənənəvi olaraq Hyuston Beynəlxalq Festivalında (İ-Fest) və Türk festivallarında Azərbaycanı təmsil edir. ABŞ-ın Texas ştatında fəaliyyət göstərən Hyuston Azərbaycanlıları Cəmiyyətinin üzvləri həmin ştatda keçirilən ənənəvi Beynəlxalq Fort Bend Festivalında iştirak ediblər. 5.000 tamaşaçının qatıldığı mərasimdə Azərbaycanın təqdimat mərasimi Rəşid Behbudovun "Azərbaycan" mahnısının sədaları altında başlanıb. Festivalda Azərbaycan sərgisinin təşkil olunmasında Azərbaycan-ABŞ Ticarət Palatası, Azərbaycanın Los Ancelesdəki baş konsulluğu, Azərbaycan Tələbələr Birliyi yaxından iştirak ediblər. 1976-cı ildə Bakı ilə Hyuston arasında imzalanan memorandum əsasında bu şəhərlər qardaşlaşıb.

Assosiasiyanın əsas məqsədi Azərbaycanı Hyustonda iqtisadi, mədəni və təhsil cəhətdən təmsil etməkdir. Əsas hədəf Amerika cəmiyyətini maarifləndirməkdən ibarətdir. Assosiasiya təkcə azərbaycanlılardan ibarət deyil, burada Amerikadan, Hindistandan da xeyli insanlar təmsil olunur. Assosiasiyanın maliyyə işləri üzrə direktoru Maud S. Bech əslən amerikalıdır. Assosiasiya, həmçinin San Fransiskoda, Vaşinqtonda, Mayamidə, Kanada Azərbaycan diaspor təşkilatları ilə sıx əlaqələr qurur. Hyuston-Bakı Qardaş Şəhərlər Assosiasiyasının prezidenti İradə Axundovadır. Ötən il ABŞ-ın Hyuston şəhərinin meri Ramazan ayı münasibətilə iftar süfrəsi açıb. Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının təşkilatçılığı ilə "Houston Grand Opera"nın səhnəsində tanınmış bəstəkar, xalq artisti, Azərbaycan bəstəkarlar ittifaqının sədri Firəngiz Əlizadənin "Adın Dənizdir" ("Your Name Means the Sea") operasının premyerası olub. Altı musiqiçinin səsləndirdiyi və dörd ifaçının oxuduğu 30 dəqiqəlik bu operada amerikalı gənc qız, rəssam Denise (Azərbaycan dilində "Dəniz" mənası verir) ilə azərbaycanlı gənc müğənni Seymur arasında olan məhəbbətdən, onların sevgisinin və sənətinin etnik və dini fərqlərin yaratdığı problemlərin öhdəsindən gələ bilmək iqtidarında olmasından bəhs olunur.

Bununla yanaşı, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan Mədəniyyət Mərkəzi təşkil edilib. Tədbirdə yerli və federal dairələrdən yüksək səviyyəli rəsmilər, diplomatik korpusun təmsilçiləri, Azərbaycandan gələn rəsmi nümayəndə heyəti və Hyuston şəhərində yaşayan soydaşlarımız iştirak ediblər. ABŞ-ın Texas ştatından olan konqresmen Şeyla Jekson Li Azərbaycan və ABŞ arasında müxtəlif sahələrdə aparılan

sıx əməkdaşlıqdan bəhs edərək vurğulayıb ki, Hyuston şəhərinin mərkəzində yeni açılan Azərbaycan Mədəniyyət Mərkəzi ölkələrimiz arasında körpü rolunu oynayacaq. Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyasının prezidenti Ellen Qoldberg qeyd edib ki, Hyuston şəhəri dünyanın 17 şəhəri ilə qardaşlaşıb. Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyası digərlərindən daha fəaldır. Onlar həmişə Azərbaycanın əlamətdar və tarixi günlərini qeyd etməklə yanaşı, həmçinin şəhərimizdə keçirilən müxtəlif festivalların işində də çox fəal iştirak edirlər [3,s.10].

Diaspora.az saytının vasitəçiliyi ilə Nyu-Yorkda diaspora fəaliyyəti ilə məşğul olan həmyerlimiz Minəvvər Vahabovadan buradaki işlərinin hansı yöndə olduğunu əks etdirən müsahibə götürülmüşdür. O, 2007-ci ildə ABŞ-ın Nyu-York ştatının Bruklin şəhərinə daimi yaşamaq üçün gəlmiş və bu vaxtdan diaspora fəaliyyətinə başlamışdır. Burada fəaliyyət göstərən diaspora təşkilatına qoşulmuşdur. Daha sonra 2013-cü ildə tələbatdan irəli gələrək Nyu-York Amerika-Azərbaycan Qadın Cəmiyyətini yaradır. Bu cəmiyyətin davamı və dəstəyi olaraq 2014-cü ildə Nyu York Azərbaycan Evi yaradılır. Bu iki təşkilatın yaradıcısı və rəhbəri olaraq Nyu-Yorkda və ətraf ştatlarda yaşayan azərbaycanlıların və Azərbaycandan olan digər xalqların nümayəndələrini bir araya gətirmək, onlara yardım etmək və hətta onların potensial imkanlarından diaspora fəaliyyətində istifadə etmək missiyasını üzərinə götürür. O, diasporanın inkişafında yanlız ABŞ-da deyil bütün dünyada olan Azərbaycan diasporunu əsas koordinasiya problem hesab edir. “Bizim hər yerdə pərakəndə fəaliyyət göstərdiyimizə görə Azərbaycan diasporu bir “çətir” altında birləşməlidir. Bütün dünyada olan diaspora liderləri sıx şəkildə bir-biri ilə əlaqə saxlamalı və informasiya mübadiləsi aparmalıdır” (5).

2013-cü ildə Türkdilli ölkələrin diaspora nümayəndələrinin forumunda və 2016-cı ilin iyununda Dünya azərbaycanlılarının IV qurultayında iştirak etmişdir. Bu görüşlərdə digər diaspora liderləri ilə fikir mübadiləsi etmiş, təcrübələrini bölüşmüşdür. Hazırda Nyu-York Azərbaycan Evi burada bir mədəniyyət mərkəzi rolunu oynayır. Eyni zamanda restoran kimi fəaliyyət göstərərək Azərbaycan mətbəxini Amerika ictimaiyyətinə çatdırır. Canlı milli musiqimiz gələn qonaqları valeh edir. İnteryerımızdə hər bir detal Azərbaycanımızı təmsil edir. Tez-tez müxtəlif səpkili tədbirlər həyata keçirilir.

Diaspor.az saytının daha bir maraqlı müsahibəsi Azərbaycan Nyu-York Assosiasiyasının vitse-prezidenti Zöhrə Şərifi ilə olmuşdur**.** O, 2000-ci ilin oktyabr ayında Əli Nəsibovun rəhbərliyi ilə Azərbaycan Nyu-York Assosiasiyası (ANA) İdarə Heyətinin üzvü seçilir. Tədricən ANA-nın sıraları genişlənir, Bruklin və Nyu-Yorkdan 1.500-dən çox üzv toplamaqla ən böyük Azərbaycan diaspor təşkilatından birinə çevrilir. ANA burada yaşayan azərbaycanlılara təhsil imkanları yarada bilən ilk təşkilat idi. O, bu təşkilatın üzvü

kimi bir çox uğurlu addımlar atmışdır. 20 Yanvar faciəsi, Xocalı soyqırımı qurbanlarının yad edilməsi, Azərbaycan xalqına qarşı erməni vəhşiliyinə etiraz olaraq aksiyaların keçirilməsi, Amerikada Azərbaycan bayrağının ucaldılması, Azərbaycanın Müstəqillik günü, Həmrəylik gününün qeyd olunması kimi tədbirlərin baş tutmasında yaxından iştirak etmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycan mədəniyyətinin təbliği istiqamətində də faydalı işlər görmüşdür. İnsanlar və gəlinciklər üçün Azərbaycan milli geyimlərindən ibarət böyük bir kolleksiyanın yaradılması ilə məşğul olub. Azərbaycanın ənənəvi geyim mədəniyyətinin zənginliyi və gözəlliyindən ilhamlanaraq eksklüziv milli geyim kolleksiyasını yaratmaq qərarına gəlir. Əcdadlarımızın əsrlər boyu üzərində daşıdığı və zamanla unudulan bu gözəl kostyumlar azərbaycanlıların geyim mədəniyyətinin, ümumilikdə Azərbaycan mədəniyyətinin çox əhəmiyyətli bir hissəsidir. O, bu kolleksiyanı Azərbaycanın BMT-dəki Daimi nümayəndəliyinin dəstəyi ilə 2012-ci ildə beynəlxalq geyim müsabiqəsində nümayiş etdirib. Çin səfirliyində keçirilən layihə BMT-nin Baş katibi Pan Gi Munun xanımı Kimon tərəfindən maliyyələşdirilmişdi və xanım özü də orada iştirak etmişdir. Azərbaycan milli geyimlərinin belə mötəbər sərgidə nümayişi bizim üçün böyük uğur idi və xanım Kimon onu bu işinə görə təltif edir. Həmin vaxt o, Azərbaycanın BMT-dəki nümayəndəliyinin təmsilçilərinə demişdi ki, mən 25 il öz vətənindən ayrı yaşayan, lakin doğma torpağının irsini qoruyan gənc xanım görməmişdim. 2008-ci ildə ANA Türk Amerikan Dərnəkləri Federasiyasına qoşuldu. O, burada Xarici məsələlərə dair vitse-prezident vəzifəsinə seçilir. Təşkilatın vitse-prezidenti kimi Türkiyədə terror hadisələrinə qarşı etiraz aksiyalarının, hər il baş tutan Türk Paradının, eləcə də bir sıra müzakirələrin təşkilində Federasiyanın prezident seçkilərində yaxından iştirak etmişdir. Türk Federasiyasının üzvü kimi o Amerikada Azərbaycanı təqdim etmək imkanına malikdir. Məsələn, Zöhrə Şərifi ABŞ-da Türkiyə telekanalına müsahibə verərkən Amerika vətəndaşlarına və Konqres üzvlərinə 1992-ci ildə ermənilərin Xocalıda günahsız insanları qətlə yetirməsini catdırmışdır.

"Vətən" Azərbaycan Amerika Mədəniyyət Mərkəzi 1988-ci ilin sentyabrında Nyu-York şəhərində yaradılmışdır. Hazırda Mərkəzin vitse-prezidenti yəhudi əsilli vəkil Ayra Kaplandır. Mərkəzin prezidenti kimi onun məqsədi ABŞ-da yaşayan azərbaycanlıları, yəhudi əsilli iranlıları təşkilata cəlb etməklə, üzvü olduğu "100 VİP" klubu ilə əməkdaşlıq etməklə Azərbaycan mədəniyyətinin Amerikada təbliği istiqamətində böyük işlər görmək və Konqresdə Xocalı qurbanlarının adından danışacaqlarını qeyd edir [4].

Mədəni sahədə yaradılan təşkilatlar Azərbaycan musiqisinin, milli rəqslərin, milli yeməklərin geniş miqyasda tanıdılmasına səbəb olmuşdur. Onlar həmçinin ABŞ universitetlərinin əksəriyyətində Azərbaycan dili

fakültəsi açmışdılar. ABŞ çox millətli ölkədir və bu təşkilatlar həmin millətlərlə birgə fəaliyyətə istiqamətlənmişlər. Azərbaycandan xaricdə formalaşan bu təşkilatlar onun bayrağı altında birləşmiş və uğurlu işlərə imza atmışdılar. Bu fəaliyyət Azərbaycanı xarici ölkələrdə tanıtsa da, "Qarabağ problemini" sadəcə qulaqlarda səsə çevirmişdir. Dünya ölkələrinin əksəriyyəti ermənilərin Azərbaycanda törətdiyi soyqırımları dəhşət içərisində qarşılamış, hətta bizə dəstək çıxmışlar. Səsimizi duyurmaqda diasporumuzun qolu-qanadı olmuşdur. Lazımı dayaq nöqtələri olan ölkələr müəyyən pərdə arxasında gizlənməklə dəstəkçiyə çevrilmişdilər. Buna yanlız fayda əldə etmək üzərində qurulmuş siyasət demək olar. Əldə etdiyim məlumatlar əsasında deyə bilərəm ki, güclü olmaq üçün diasporanın fəaliyyəti kifayət etmir. Lobbiçilik daha əhəmiyyətli rol oynayır. Bu gün erməni lobbisi daha güclüdür. Bu güc tarixi saxtalaşdırmaga təsir edir. Bu gün dünyanın bir çox ölkələrində fəaliyyət göstərən təşkilatlarımız artıq demək olar ki, lobbiçilik fəaliyyəti ilə məşğul olurlar. Qeyd edək ki, Azərbaycan lobbisinin yaradılmasına daha çox ABŞ-da ehtiyac duyulur. Çünki bu ölkədə erməni diasporu və lobbisinin fəaliyyəti bizə yaxşı tanışdır. 1992-ci ildə ABŞ Konqresində Azərbaycanın əleyhinə qəbul edilən Azadlığı müdafiə aktina "907-ci düzəliş" məhz erməni Konqresdəki erməni lobbisinin dəstəyi ilə qəbul edilib. Lakin bu sonrakı fəaliyyətlərimiz nəticəsində dayandırılmışdır. Ona görə də Konqresdə lobbimizin olması "907-ci düzəliş"in aradan götürülməsinə və Dağlıq Qarabağ, Xocalı soyqırımının tanıdılması və bir sıra məsələlərdə ölkəmizin xeyrinə qərarların qəbul olunmasına yardımçı olar və olacaq. Azərbaycan diaspor təşkilatlarının yaşadıqları ölkələrin siyasi və iqtisadi həyatına təsirinin gücləndirilməsi, soydaşlarımızın bu ölkələrdə vahid təşkilatlarının yaradılması, aparıcı ölkələrdə nüfuzlu Azərbaycan lobbisinin formalaşdırılması, dost icmalar və lobbilərlə səmərəli əməkdaşlıq qurulması Azərbaycan dövlətinin və xaricdə yaşayan soydaşlarımızın qarşısında duran mühüm vəzifələrdən olmalıdır. Bu addımlar yanlız canlı ünsiyyət vasitəsi ilə atılmalı deyil, həmçinin diaspor təşkilatlarımız virtual aləmdə də özünü lazımınca göstərməlidir. Diaspor təşkilatlarımız lobbiçilik istiqamətində informasiya müharibəsinə girişməlidir. Təşkilatlarımızın internet saytlarının Azərbaycan dilində yox, yaşadıqları ölkələrin dilində fəaliyyət göstərməsi lazımdır. O cümlədən xarici ölkələrdə parlament, bələdiyyə üzvlüyünə, yerli etimad orqanlarına azərbaycanlıların seçilməsi məsələsi də önəmlidir. Soydaşlarımız bu qurumlara seçilməsələr belə, ən azından namizəd kimi Azərbaycan haqqında müsbət fikirlərin yaranmasına xidmət göstərə bilərlər. Var olduğumuzu hər sahədə göstərmək diasporumuzun başlıca rolu olmalıdır. Bu işdə yanlız orta və yaşlı təbəqənin nümayəndələri iştirak etməsi, əsən dalğanı fırtınaya çevirməz. Bunun üçün onun rüşeymi olan gənclik

lazımdır. Xarici ölkələrdə gənclər diasporu yaradılmalı və onlara xəyal qurmağı deyil, qurulan xəyalların bir gün gərçəyə çevriləcəyini göstərmək lazımdır. Bunlar mənim şəxsi fikirlərim və gələcəyə idialarımdır. Biz tələbələrdə bir gün xaricdə Azərbaycanın səsi olacayıq.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Sovet Ensiklopediyası. Cild III, Bakı, 1979.
2. “Paralel”, 2015, 31 yanvar - 2 fevral, №18/1.s.10//files.preslib.az/site/diaspora/ gl18.pdf
3. Azərbaycan diasporunun ilk qurucuları. ”Paralel”. 2015.-5 dekabr.-№ 217,s.10.
4. ABŞ-dakı diaspor nümayəndəsi: “Konqresdə Qarabağın səsi olacağam”. http://diaspora.az/?p=5730
5. Azərbaycan diasporunun Amerikada formalaşma tarixi “Olaylar” qəzet. 2014, 27 may
6. Шукуров И. Дипломатия мира об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.). Баку: Азербайджан, 1997.
7. Azərbaycan diasporunun Amerikada formalaşma tarixi // http://olaylar.az/news/diaspora/81034

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYINA DAİR

**Rəsulov Elşən Salman oğlu**
**Tarix fakültəsi, bakalavr, III kurs**
**elsenresulov96@mail. ru**

***Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən Azərbaycanlıyam!***
***Heydər Əliyev***

*2016-cı ildə Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsinin 25 illik, Dünya azərbaycanlılarının həmrəylik günün təsisinin 25 illik, Dünya azərbaycanlılarının ilk qurultayının keçirilməsinin 15 illik yubileyidir.*

*1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etməklə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların əsas mərkəzinə çevrildi. Bu münasibətlə Azərbaycan Respublikasının müstəqilliyinin 10 illik yubileyi ərəfəsində keçirilən Dünya Azərbaycanlılarının ilk qurultayının araşdırılması aktuallıq kəsb edir. Məqalədə rəsmi sənədlər, dövrü mətbuat və məlumat-soraq materialları əsasında qurultay haqqında tam təsəvvür yaradılmış, qurultayın təşkili, müzakirə edilən mövzular və qəbul edilən qərarlar göstərilmişdir. Dünya azərbaycanlılarının I qurultayı dünya azərbaycanlılarının azərbaycançılıq ideyası ətrafında birləşməsinə, Azərbaycan dövlətinin sosial, iqtisadi, siyasi, mədəni cəhətdən dünyaya inteqrasiyasına və bu sahələrin inkişafına, milli-mədəni dəyərlərin dünyaya yayılmasına zəmin yaratdı.*

***Açar sözlər:*** *Dünya Azərbaycanlıları, qurultay, Heydər Əliyev, komissiyalar, Bakı, 2001, diaspora, mühacirət*

***On The First Congress of World Azerbaijanis***

*The year 2016 is the 25th anniversary of the restoration Azerbaijan Republis and proclamation of the day for the Solidarity of World Azerbaijanis, and the 15th anniversary of the I congress of World Azerbaijanis.*

*In 1991 Azerbaijan Republic restored its independence. In this way it turned the social center of the Azerbaijanis who lived in different countries. On this occasion the investigated of the first congress of World Azerbaijanis assumes urgency which was held during 10th anniversary of Azerbaijan Republic's independence. In this article has been shown official documents, perodicals and on the basis of reference materials has been created the full imagination of congress, arranging the congress, debated materials and adopted desicion. The first Congress of World Azerbaijanis around the idea of national unity of Azerbaijanis of the world, the state of social, economic, political and cultural point of view, the integration of the world and the development of these areas, paved the way for the distribution of national and cultural values.*

***Keys words:*** *World Azerbaijanis, congress, Haydar Aliyev, commissions,Baku, 2001, diaspora, immigration*

**Giriş.** XIX-XX əsrlərdə müxtəlif siyasi səbəblər nəticəsində azərbaycanlıların əksəriyyəti öz ana torpaqlarından didərgin düşmüş, mühacir həyatı yaşamışlar. Lakin vətəndən uzaqda olmalarına baxmayaraq ürəkləri vətən eşqi ilə döyünmüş və millətlərinin amalı üçün çalışmışlar. Təbii ki, Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılmasında, həmçinin Azərbaycanın bu günkü müstəqilliyində xaricdə yaşayan azərbaycanlıların mövqeyi və təşəbbüskarlıqları vurğulanmalıdır.

Uzun müddət ayrılıqdan sonra dünyanın müxtəlif yerlərində yaşayan həmvətənlərimizin özlərini Azərbaycanın bir parçası, dövlətinin vətəndaşı kimi hiss etməsi üçün Bakıda qurultayın çağırılması zəruri idi. Dünya azərbaycanlılarının qurultayının həyata keçirilməsinə ilk cəhd 1992-ci ildə olmuşdur. Azərbaycan Respublikasının sabiq Prezidenti Əbülfəz Elçibəyin 24 dekabr 1992-ci il 255 nömrəli sərəncamı ilə qurultayın təşkili məqsədilə Təşkilat komitəsi yaradılır. 1993-cü il yanvarın 30-da 293 nömrəli sərəncamla Təşkilat komitəsinin tərkibinə əlavələr edilir. Təşkilat komitəsinin sədri Prezident Əbülfəz Elçibəy, sədrin müavini Azərbaycan Respublikası Prezidentinin Millətlərarası münasibətlər üzrə müşaviri Hidayət Orucov idi. Qurultayla bağlı məsələlərin həlli Nazirlər kabinetinə tapşırılır (12). Lakin buna baxmayaraq qurultayı keçirmək mümkün olmur. Bunun əsas səbəbi həmin dövrdə respublikadakı siyasi-sosial gərginlik,ermənilərin azərbaycanlılara qarşı işğalçılıq siyasəti, Azərbaycan Xalq Cəhbəsinin səriştəsiz siyasəti, ölkəni idarə etməkdə çətinlikləri, Azərbaycan xalqının inamını itirməsi nəticəsində 1993-cü ilin iyununda hakimiyyətdən getməsi oldu (4).

1993-cü il oktyabrın 3-də Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə daxili və xarici siyasətində əsaslı dönüş yarandı, sabitlik və inkişaf dövrü başladı. Həmin tarixi proseslərdən uğurla çıxmış və problemlər aradan qaldırılmağa başlanır, qısa bir müddət ərzində iqtisadi, siyasi, mədəni və dövlət quruculuğu sahələrində ciddi nəticələr əldə edilir (4). Məhz bu dövrdə – 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyev (1993-2003) Dünya azərbaycanlılarının qurultayının keçirilməsi ideyasını gündəmə gətirir. Qurultayın həmin dövr üçün vacib olduğunu vurğulamaq istərdik. Çünki vətənlərindən ayrı düşmüş azərbaycanlıların bir araya yığışması həm Azərbaycan dövləti, həm Azərbaycan xalqı üçün əhəmiyyətli idi. Azərbaycan Respublikasının 2001-ci ildə dövlət müstəqilliyinin 10-cu ildönümü qeyd edildiyi zaman Dünya azərbaycanlılarının I qurultayı da təşkil edilir .

Azərbaycan Respublikası prezidentinin ictimai-siyasi məsələlər üzrə

köməkçisi Əli Həsənov ilk qurultayın təşkili haqqında KİV-nə müsahibəsində bildirirdi ki, "dövlətlərdən bəziləri düşünürdülər ki, azərbaycanlıların həmrəy olması Azərbaycan dövləti üçün böyük təhlükədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sübut etdi ki, İranda, Rusiyada, Orta Asiyada yaşayan azərbaycanlılar yaşadıqları dövlətlərdə yüksək vəzifəyə qalxdıqdan sonra Azərbaycanın adını yüksəldə, vətəninə dəstək verə bilər. Qərb ölkələri başqa xalqların dininə, dilinə, mədəniyyətinə dözüm göstərir, biz isə başqa xalqların dininə, dilinə, mədəniyyətinə ehtiramla yanaşırıq. Bizim fərqimiz budur. Bəşəriyyətdə birgəyaşayışın ən yaxşı forması da budur. Biz qurultay ilə dünyaya bu mesajı vermək istəyirik" (1).

**Dünya azərbaycanlılarının I qurultayının təşkili.** 2001-ci ildə dünya azərbaycanlıları tarixində ən mühüm hadisələrdən biri Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi oldu. Dünyanın müxtəlif ölkələrində yaşayan, vətən həsrətilə alışıb-yanan azərbaycanlılar bunu sevinclə qarşıladı. Onlar öz ata-baba yurdlarında–Azərbaycanda yığışacağı anı səbirsizliklə gözləyirdilər.

Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsində əsas məqsəd soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birliyini təşkil etmək, onların arasındakı əlaqələri inkişaf etdirmək, Azərbaycanın mədəniyyətini, dilini, tarixini digər ölkələrdə yaşayan azərbaycanlılar vasitəsi ilə təbliğ etmək idi.

Dünya azərbaycanlılarının I qurultayı Azərbaycan Respublikası prezidentinin 2001-ci il 23 may tarixli 724 nömrəli sərəncamına əsasən 2001-ci il 9-10 noyabrda Bakıda keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin başçılığı ilə Azərbaycanda qurultayın keçirilməsi üçün işçi qrupu yaradılmışdır (11). Qurultay ərəfəsində işçi qrupu xaricdə yaşayan soydaşlarımızla əlaqə yaratmış, onları qonaq kimi dəvət etmişdir.

Dünya azərbaycanlılarının I qurultayında 36 xarici dövlətdə yaşayan azərbaycanlıların cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə 403 (bəzi sənədlərdə 406) nümayəndə və 63 qonaq iştirak etmişdir. İştirakçılar Türkiyə, Rusiya, ABŞ, Fransa, Böyük Britaniya, Kanada, Almaniya, Gürcüstan, Rumıniya, Avstriya, İsveçrə, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və. b dövlətləri təmsil edirdilər. Gələn qonaqlarla yanaşı qurultayda müxtəlif dövlət qurumlardan nümayəndələr də iştirak etmişdi.

Qurultayda ən çox iştirakçı Rusiyadan gəlmişdi. İştirakçıların 95% ali təhsilli ziyalılar – 220 nəfəri akademik, elmlər doktoru, professor, 49 nəfəri təhsil işçisi, 29 nəfəri səhiyyə, 80 nəfəri yaradıcı şəxslər, ziyalılar, mədəniyyət, incəsənət xadimləri, 70 nəfəri yerli özünüidarəetmə orqanlarının nümayəndələri, 123 nəfəri gənclər və idman sahəsində çalışanlar, 54 nəfəri isə siyasi partiya və

ictimai təşkilatların nümayəndələri idi. Bu göstəricilər həm də Dünya azərbaycanlılarının I qurultayına olan marağın olduğunu göstərir (6).

Azərbaycan Respublikasının Prezidenti görkəmli dövlət xadimi Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayında çıxışında qurultayın əhəmiyyətini izah etmiş, birlik və həmrəyliyin qorunması üçün vəzifələri açıqlamışdı: *"Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan soydaşlarımız isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir... Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"* (8; 9; 10).

Göründüyü kimi, dünya azərbaycanlıları qurultaya öz nümayəndələrini göndərməklə və Azərbaycan Respublikası təşkilati işləri yüksək səviyyədə yerinə yetirməklə qurultayın uğurla həyata keçirilməsinə nail olunur.

**Qurultayda müzakirələr.** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından sonra digər dövlətdən gəlmiş nümayəndələr çıxış etdilər. Çıxışlarda Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinin çətinliklərindən, dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində görülən işlərdən və digər məsələlərdən danışdılar, qurultayın keçirilməsinin zəruriliyini və tarixi hadisə olduğunu vurğuladılar, belə bir təşəbbüsə görə Azərbaycan respublikasının prezidentinə öz təşəkkürlərini bildirdilər (7; 8).

Qurultayda çıxış edən nümayəndələr yaşadıqları ölkələrdə gördükləri işlərdən, Azərbaycanın inkişafına təkan verən addımlardan, Azərbaycanın dünya ictimaiyyətinə düzgün şəkildə çatdırılmasından danışmış, Dünya azərbaycanlılarının Azərbaycan dövlətinin atdığı uğurlu addımlarını hər zaman dəstəkləyəcəyini, bu işlərdə köməklərini əsirgəməyəcəklərini demişdilər.

Çıxış edənlərin ən çox toxunduqları məsələ Dağlıq Qarabağ münaqişəsi idi. Onlar bir daha Dağlıq Qarabağın Azərbaycanın tərkib hissi olduğunu vurğulamış, dünya ictimaiyyətini bu məsələyə laqeyd yanaşmamağa çağırmışlar. Həmçinin xaricdə yaşayan azərbaycanlıların yaşadıqları ölkənin siyasi həyatında yaxından iştirak etməsini, öz tarixlərini mədəniyyətlərini dünyaya çatdırmağa səy göstərilməli olduğunu bildirmişlər, Dünya azərbaycanlılarının I qurultayının keçirilməsini alqışlamış bunun azərbaycanlıların birliyinin mökəmlənməsində, diasporanın inkişafında böyük əhəmiyyət daşıdığını bir daha vurğulamışdılar.

Dünya azərbaycanlılarının I qurultayı bütün dünya ictimaiyyətinin diq-

qətində olmuş və bu hadisəni alqışlamışlar. Tədbirə sədrlik edən AMEA-nın prezidenti Mahmud Kərimov qurultay haqqında dünyanın müxtəlif ölkələrindən, siyasi partiyalardan, təşkilatlardan, tanınmış alimlərdən, ictimai-siyasi xadimlərdən təbrik teleqram və məktubların daxil olduğunu bildirmişdi (8).

Qurultayda 8 komissiya fəaliyyət göstərirdi: "İnsan hüquqları və Beynəlxalq əlaqələri", "Mədəniyyət", "Elm və Təhsil", "Ana dili və azərbaycanşünaslıq", "İqtisadi əlaqələr", "Gənclər və idman məsələləri", "Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması məsələsi", "Kütləvi informasiya vasitələri və İnformasiya mübadiləsi".

Komissiyalara Azərbaycan Respublikasının müfaviq struktur rəhbərləri sədrlik edirdi. Müzakirələr zamanı başlıca problemlərdən birinin xaricdə yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrinin zəif olduğu və bu istiqamətdə əməli addımların zəruriliyi, beynəlxalq təşkilatlarla, araşdırma mərkəzləri ilə müntəzəm informasiya mübadiləsinin aparılmasının vacibliyi; soydaşlarımızın yaşadığı ölkələrdə hökümətlərin mövqeylərinə təsir göstərmələrinin zəruriliyi; Azərbaycan mədəniyyət cəmiyyətlərinin xüsusi qrupunun yaradılması; xaricdə yaşayan soydaşlarımız üçün çap və elektron variantlarda yeni dərsliklərin hazırlanması, elmi konfransların keçirilməsi, informasiya mübadiləsinin genişləndirilməsi, Azərbaycan diasporu ilə əlaqələri tənzimləyən şuranın və onun jurnalının hazırlanması; Azərbaycan və dünya klassiklərinə, uşaq ədəbiyyatına, müasir yazıçılara aid kitab çapı, azərbaycanşunaslıq üzrə radio və televiziya vasitəsi ilə xarici ölkələrə dilimiz, mədəniyyətimiz, dünənimiz və bu günümüz haqqında məlumatların çatdırılması geniş müzakirə edilmiş, qərarlar verilmişdi. Kütləvi informasiya vasitələri və informasiya mübadiləsi komissiyasının sədri Nizami Xudiyev hazırda doğma Azərbaycan dilində 12 ölkədə televiziya və radio verlişlərinin efirə verildiyini bildirmiş, Azərbaycan prezidenti tərəfindən ABŞ-ın Los Anceles şəhərində Azərbaycan televiziyasının açılması üçün verilmiş sərəncama əsasən 7 saat efirə çıxacaq bu kanalın diasporumuzun tarixində böyük uğur olduğunu bildirmişdir (8; 13).

Sonda I qurultayın iştirakçılarının şərəfinə "Gülüstan" sarayında rəsmi qəbul təşkil olunur. Qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirir ki, *"Biz qətiyyətlə deyə bilərik ki, Qurultay qarşısına qoyulmuş vəzifəni yerinə yetirdi. Qurultay dünya azərbaycanlılarının həmrəyliyini və birliyini daha da inkişaf etdirmək üçün sənədlər qəbul etdi. Qurultayın ab-havası, nümayəndələrin əhval-ruhiyyəsi, onların qurultaydakı çıxışları, ayrı-ayrı komissiyalarda aparılan çox gərgin iş qurultayın uğurla başa çatmasına şərait yaratdı... Siz qurultaydan sonra yaşadığınız ölkələrə gedəcəksiniz xahiş edirəm bizim salamımızı, hörmət-ehtiramımızı və məhəbbətimizi bütün həmyerlilərimizə çatdırasınız ki, Azərbaycan bütün*

*imkanlardan istifadə edib həmyerliləri haqqında, həmvətənləri haqqında daim düşünür və bundan sonra da düşünəcəkdir”* (8; 10).

**Qurultayda qəbul edilən sənədlər.** Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov qurultayın qəbul edəcəyi sənədlərin layihələri barədə məlumat vermişdi. *“I qurultayın qətnaməsi”ində* Dünya azərbaycanlılarının Azərbaycan dövlətini tam dəstəkləməsi, Azərbaycan dövlətinə daxili və xarici təcavüzün qarşısının alınması hər bir azərbaycanlının müqəddəs işidir; Azərbaycanlıların məskunlaşdığı ərazidə diasporun yaranması və onun lobbiçilik fəaliyyətinə ehtiyac vardır; Azərbaycanın dilinə milli-əxlaqi dəyərlərinə hörmət, Vətənin şərəfini qorumaq hər bir azərbaycanlının müqəddəs vəzifəsidir; müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar beynəlxalq təşkilatlarda təmsil olunmağa, milli maraqları müdafiə etməyə səy göstərməlidir; Azərbaycanda ümumbəşəri dəyərlərə hörmətin qorunub saxlanılması; Dünya azərbaycanlılarının qurultayının hər üç ildən bir keçirilməsi kimi məsələlər qərara alınmışdı.

Qurultayın 3 ildən bir keçirilməsi qərarına baxmayaraq, 2006-cı il II qurultayın qətnaməsində hər 5 ildən bir keçirilməsi qərara alınmışdır. Qurultayda Dünya azərbaycanlılarının təşkilatlanması, hüquqlarının müdafiəsi, milli mənəvi dəyərlərin qorunması məqsədilə 102 nəfərdən ibarət Dünya azərbaycanlılarının I qurultayının Əlaqələndirmə şurası yaradılmış, 23 nəfərdən ibarət idarə heyəti, idarə heyətinin sədri və 4 müavini seçilmişdir. Qurultayın idarə heyətinin sədri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, sədr müavinləri Əli Həsənov (Azərbaycan), Tomris Azəri (ABŞ), Qulam Rza Təbrizi (Böyük Britaniya) və Məmməd Əliyev (Rusiya) idi (2; 8; 10). Əlavə edək ki, əlaqələndirilmə şurasının tərkibi hər qurultay keçiriləndə yenilənir.

Qurultayda qətnamə ilə bərabər *“Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin bütün dünya azərbaycanlılarına müraciəti”* qəbul olunmuşdur. Müraciətdə qurultay nümayəndələri müstəqil Azərbaycan dövlətinin dünya azərbaycanlılarının tarixi sərvəti, pənahı, məbədgahı olduğunu, hər bir azərbaycanlının arxasında müstəqil, güclü dövlət durduğunu, xalq, millət birlik nümayiş etdirəndə, həmrəy olanda güclü olduğunu bildirilirdi (9, s.211, 216).

*“Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciəti”ndə* bütün sülhsevər insanlara müraciət edərək Azərbaycan xalqının haqq işinin müdafiə olunmasını, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və ədalət prinsipi ilə həll olunmasını, həmçinin bu problemin əslində erməni diasporu və lobbisinin heç bir məntiqə uyğun

olmayan iddiası olduğunu bildirmişlər (9, s.217, 223).

*"I qurultay nümayəndələrinin Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevə müraciəti"ndə* isə qurultayın mahiyyəti vurğulanır, Azərbaycanın əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilir və bütün fəaliyyətlərində Azərbaycan dövlətinin müstəqilliyinin qorunması, azərbaycançılıq ideyalarının bərqərar olması istiqamətində səylərini səfərbər edəcəklərini bildirirdilər (9, s.224, 229).

*"Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş qanlı terror hadisəsi ilə bağlı Amerika xalqına müraciəti"ndə* qurultay nümayəndələri terror qurbanlarının xatirəsini dərin hüznlə yad edir, Amerika xalqına başsağlığı verdiklərini, heç bir terror aktının Amerikanın sülhsevər, ədalətli mövqeyini sındırmayacağını bildirirdilər (9, s.230, 232).

Bu 5 sənəd qurultay nümayəndələri tərəfindən hamılıqla qəbul olundu. Qəbul edilən bu sənədlər Azərbaycan dövləti və xaricdə yaşayan azərbaycanlıların vahid fəaliyyət planının hazırlanmasının xüsusilə vahid mövqedən çıxış etməsinin əsas bazası və göstəricisi idi. (7; 8; 9).

**Yekun.** Azərbaycan 2 hissəyə parçalandıqdan sonra vətənlərindən ayrı düşən azərbaycanlıların ilk dəfə bir araya gəlməsinə məhz bu qurultay əsas oldu. Ümumilikdə, bu qurultayı araşdırmağda məqsədimiz bu gün dünya azərbaycanlılarının tutduğu mövqeyinin, azərbaycanlıların müstəqil dövlətimiz ətrafında birliyinin əsasının məhz bu qurultayda qoyulmasını bir daha xatırlatmaqdır. Dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin əməldə həyata keçirilməsi məhz bu qurultaya aiddir. Qurultayın əhəmiyyətindən danışdıqda, deyə bilərik ki, qurultay soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsinə, onların yaşadıqları dövlətin həyatında düzgün addımlarına, Azərbaycan dövlətinin sosial, iqtisadi, siyasi, mədəni cəhətdən dünyaya inteqrasiyasına və bu sahələrin inkişafına, milli-mədəni dəyərlərin dünyaya yayılmasına zəmin yaratdı.

Qurultayın ən böyük uğurlarından biri də Azərbaycan diasporunun formalaşması və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, dövlətlə əlaqələrinin qurulması oldu. Belə ki, qurultaydan sonra 2002-ci ilin 5 iyulunda Azərbaycan Respublikasının prezidenti tərəfindən "Xaricdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman verilir (14). Bu fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil əlaqələrində mühüm tarixi sənəd idi.

Dünya azərbaycanlılarının I qurultayı 16 mart 2006-cı il Dünya azərbaycanlılarının II qurultayının keçirilməsini zəruri etdi və əsas baza oldu.

Həqiqətən də, Dünya azərbaycanlılarının I qurultayından sonra Azərbaycan dünyaya yeni bir pəncərə açdı. Azərbaycan dövləti, Azərbaycan

xalqı, Dünya azərbaycanlıları öz sözünü deməyə qadir olduqlarını bir daha sübut etdi. Bu alışan alov heç vaxt sönməz!

**Ədəbiyyat siyahısı:**


1. "Biz bir ara torpaqlarımızı azad edə bilərdik"// http://apa.az/daxili_siyaset/eli-hesenov-biz-bir-arya-torpaqlarimizi-azad-ede-bilerdik-imkan-vermediler.html
2. Azərbaycan Diasporu. Prezident kitabxanası. Bakı, 2005
3. Azərbaycan Diasporu: Böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006. 208 s.
4. Azərbaycan Respublikası: 1991-2001. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001. - 280 s. // http://shamakhy.cls.az/front/files/libraries/2471/books/642401402061574.pdf
5. Bayramlı Nardar. Dünya azərbaycanlıları Qarabağ münaqişəsini müzakirə etdilər. // Yeni Azərbaycan qəzeti. 10 noyabr 2001. N215.
6. Dünya azərbaycanlıları I qurultayım milli tariximizdə yeni bir mərhələnin əsasını qoydu. Bu müstəqil Azərbaycan həyatında tarixi hadisədir. //Yeni Azərbaycan qəzeti. 10 noyabr 2001, N 215.
7. Dünya Azərbaycanlılarının 2001-cı il noyabrın 9-10-da Bakı şəhərində keçirilmiş I qurultayının yekunları haqqında. I qurultayın Təşkilat komitəsi. // Azərbaycan qəzeti, 14 noyabr 2001, N260.
8. Dünya Azərbaycanlılarının I qurultayı //http://diaspora.gov.az /index.php?options= content&id=423; http://files.preslib.az/site/diaspora/gl2.pdf
9. Dünya Azərbaycanlılarının I qurultayı. Bakı, Azərbaycan, 2012.
10. Dünya azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 10 noyabr 2001// http://lib.aliyev-heritage.org/az/2428604.html
11. Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncami. Bakı şəhəri, 23 may 2001-ci il. № 724 // http://e-qanun.az/framework/3015
12. Dünya azərbaycanlılarının qurultayının çağrılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 24 dekabr 1992-ci il. № 255. // http://e-qanun.az/framework/8019
13. Xankişiyeva Nazirə. Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızla sıx əlaqə qurur. Dünya Azərbaycanlılarının I qurultayı başa çatdı. //Yeni Azərbaycan qəzeti. 14 noyabr 2001, N216.
14. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani. Bakı şəhəri, 5 iyul 2002-ci il. № 730 // http://e-qanun.az/framework/1153

# V BÖLMƏ. AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

## DAĞLIQ QARABAĞ PROBLEMİ VƏ BÖLGƏ ERMƏNİLƏRİNİN ETNİK KİMLİYİNƏ DAİR

**Allahverdiyeva Fəridə Məhəmmədəli qızı**
**Tarix fakültəsi, magistrant, II kurs**
**faridaallahverdiyeva@gmail.com**

*Qarabağ probleminin tarixi ermənilərin Qafqaza kütləvi şəkildə köçürüldüyü vaxtdan başlayır. Münaqişənin yeni, Azərbaycan torpaqlarının işğalı ilə nəticələnmiş sonuncu mərhələsi isə XX əsrin sonlarında SSRİ-nin dağılması prosesində meydana çıxmışdır. Ermənilər "millətlərin öz müqəddəratını təyinetmə hüququ"na əsaslanaraq "özlərinin tarixi torpaqlarında" dövlət yaratmaq haqqına sahib olduqlarını iddia edirlər. Məhz bu səbəbdən, Dağlıq Qarabağ ermənilərinin etnik kimliyi, onlarla hazırda bu ərazidə yaşayan ermənilər arasında bağlılıq məsələlərinə aydınlıq gətirməyi lazım hesab edirik. Belə ki, Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndirlər. Sonradan erməni kilsəsinin təsiri ilə qriqorianlaşaraq erməniləşmişlər. Bir hissəsi isə, XIX əsrin əvvəllərində Rusiya-Osmanlı və Rusiya-İran müharibələrindən sonra Osmanlı və Qacarlar İranından Rusiyaya köçüb gələn əhalidir.*

***Açar sözlər:*** *Dağlıq Qarabağ problemi, Qarabağ erməniləri, etnik kimlik, Alban kilsəsi, Qriqorian kilsəsi*

***Nagorno-Garabagh conflict and ethnic identity of Nagorno-Garabagh Armenians***

*The solution of the Nagorno Karabakh conflict draws the framework of Azerbaijan's integration into the world and also determines the general conditions of it's development. The history of conflict begins since the very beginning of Armenian immigration to the Karabakh. Part of the modern Armenians living in Nagorno Karabakh, are descendants of ancient Albanians who belonged to the Christian religion. This group during the historical process first forced to convert into the Gregorian church and then was progressively assimilated. Other part of the Nagorno Karabakh Armenians are descendants of the refugees from the Turkey and Qajarid Iran, who emigrated those country's as a result of Tsarist Russia's ethnic policies.*

***Key words:*** *Nagorno Karabakh conflict, Karabakh armenians, ethnic identity, Alban church, Gregorian church*

Qarabağ münaqişəsində atəşkəsin elan edilməsindən 22 il keçməsinə baxmayaraq, münaqişənin həlli istiqamətində ciddi bir irəliləyiş əldə olunmamışdır. Dağlıq Qarabağın ərazisi bu günə qədər, ermənilər və azərbaycanlılar arasında ağır rəqabətə səbəb olmaqdadır. XIX əsrin əvvəllərində

Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləkəçilik siyasətini həyata keçirməsi üçün hazırladıqları planlar, Qarabağ münaqişəsindəki proseslərin istiqamətlərini müəyyənləşdirdi.

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ keçirmək üçün Osmanlı dövləti və Qacarlar İranı ilə apardığı müharibələr nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. Qarabağ Rusiya imperiyasının tərkibinə keçdi. Rusiya, 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrinə əsasən, İran və Osmanlıdan bu ərazilərə 200 mindən artıq erməni köçürtdü. Bununla da, Cənubi Qafqazda müstəmləkəçilik siyasətini həyata keçirmək üçün özünə dayaq yaratmış oldu. Bu siyasətdən yararlanan ermənilər heç vaxt olmadıqları bir ərazidə erməni dövləti qurdular. Beləliklə, Azərbaycanın Qarabağ bölgəsi münaqişə ərazisinə çevrildi.

Ermənilərin Qarabağda möhkəmlənməsi üçün həyata keçirilən etnik təmizləmə siyasəti XX əsrin əvvəllərində geniş vüsət aldı. Ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə daha fəal çıxış etməyə və Azərbaycanın bir çox əraziləri ilə birlikdə Yuxarı (Dağlıq) Qarabağı da ermənilərin tarixi torpaqları kimi qələmə verməyə başladılar. 1920-ci il mayın 3-də XI Ordunun silahlı dəstələri Qarabağa soxuldular. Şuşa, Xankəndi və Qarabağın digər şəhər və kəndləri rus qoşunlarının, erməni dəstələrinin nəzarəti altına keçdi. Çarizmin yerində yaranmış Sovet Rusiyası, 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsinin köçürülməsini təmin etdi. Bunlardan 765 ailə Yuxarı Qarabağda yerləşdirildi. Onların məskunlaşması və yaşaması üçün hər cür şərait yaradıldı.

XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları yenidən baş qaldırdı. 1988-ci ildə erməni ideoloqlarının süni yaratdığı "Dağlıq Qarabağ problemi" Ermənistanın Azərbaycana hərbi təcavüzü üçün bəhanə oldu. Azərbaycanın Qarabağ bölgəsi Ermənistanın dövlət separatizmi meydanına çevrildi. 1991-ci ilin yayından başlayaraq, Dağlıq Qarabağ ərazisində müharibə açıq xarakter almağa başladı. SSRİ-nin dağılması artıq mütəşəkkil ordu formasında fəaliyyət göstərən erməni hərbi birləşmələrinin Dağlıq Qarabağ ərazisində geniş miqyaslı hərbi əməliyyatlara başlamasına təkan verdi. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki Ermənistan silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayın köməkliyi ilə Xocalı şəhərində azərbaycanlılara və Axısxa türklərinə qarşı soyqırım cinayətini həyata keçirdilər [2, s.95-97].

Ermənistan beynəlxalq hüquq normalarını heçə sayaraq suveren dövlətin ərazisini işğal etməklə, hər fürsətdə dövlətin ən yüksək rəsmi orqanları səviyyəsində işğalçılıq faktından heç zaman geri çəkilməyəcəyini ifadə edir. Rusiya tərəfindən Cənubi Qafqaza kütləvi şəkildə köçürülmüş

ermənilər Yuxarı Qarabağ ərazisində alban əsilli xristian əhalinin tarix və mədəniyyətinə yiyələnməyi münasib hesab edərək burada erməni dövlətçiliyinin bünövrəsini qoymağı planlaşdırdılar. XX əsrin əvvəllərində Qərbi Azərbaycan torpaqları hesabına Ermənistan Daşnaq hökuməti, sonra isə Ermənistan SSR yaradıldı.Yuxarı Qarabağın tarixi ənənələrini əldən buraxmaq istəməyən ermənilər burada geostrateji maraqları olan böyük dövlətlərin köməyi ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaratdılar.

1836-cı ildə alban kilsəsinin ləğv edilməsi ilə alban etnik kimliyi məhv edilmiş oldu. Bununla da, əsrlərdən bəri erməni kilsəsinin ideologiyası Qarabağda reallaşma mərhələsinə qədəm qoydu. Təbii olaraq belə bir sual ortaya çıxır: ermənilər Qarabağda hardandır? Hal-hazırda Qarabağda yaşayan ermənilər mənşə etibarı ilə üç qola ayrılır. Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin birinci qolunu XI-XII əsrlərdən erməniləşmə prosesinə məruz qalmış albanlar təşkil edir. Onlardan ikincisi farsdilli ermənilərdir, onlar Qarabağa İrandan köçürülmüşdülər.

Tarixdən məlumdur ki, çarizm başqa ölkələrdə tətbiq etdiyi işğalçılıq siyasətinə uyğun olaraq Şərqdə də, millətləri və xalqları qarşı-qarşıya qoyur, Azərbaycanı işğal etmək üçün ermənilərdən bir vasitə kimi istifadə edirdi. Qarabağ Azərbaycanın, o cümlədən İranın qapısı hesab edilir və burada ermənilərin üstünlüyünü yaratmağa çalışırdı. Bu siyasətə uyğun olaraq 1828-ci il Türkmənçay müqaviləsində ermənilərin Arazın şimalına köçürülməsinə dair ayrıca qeyd (15-ci bənd) salınmışdı. Ermənilər, İrandan Qarabağa köçürülərkən birinci növbədə artıq süqut etmiş Bərdə şəhərini dirçəltmək üçün onları əsasən burada yerləşdirmək planlaşdırılmışdı. Lakin, ermənilər həmişə dağ şəraitində yaşamış olduqlarından və Qarabağ düzünün yayına dözə bilmədiklərindən Bərdəni dirçəltmək siyasətindən əl çəkilir və ermənilər dağlıq zonalarda yerləşdirilir. XIX əsrin əvvəllərində, Qarabağın dağlıq hissəsində cəmi 2 farsdilli erməni kəndi qeydə alınmışdırsa, XIX əsrin 30-cu illərində bu qəbildən olan kəndlərin sayı 20-yə çatır.

Mənbələrin verdiyi məlumata görə, 1828-1830-cu illərdə ruslar Cənubi Qafqaza 40 min nəfər İran ermənisi köçürmüşdülər. Bu ermənilər, əsasən, Qarabağın dağlıq hissəsində və Göyçə gölü ətrafında, həmçinin Şirvanda yerləşdirilmişdir. N.N.Şavrov qeyd edir ki, 1828-ci ilin təkcə üç ayı ərzində Arazdan 8.249 erməni ailəsi keçirilərək, Qarabağda və Şirvanda yerləşdirilmişdi. Eyni zamanda V.L.Veliçko yazır ki, "gəlmə ermənilər yerli müsəlman əhalisinin şan-şöhrətini korlamaq siyasəti yeridirdilər ki, gələcəkdə onları qovub, torpaqlarına sahib ola bilsinlər"[7, s.76].

Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin üçüncü qolunu Osmanlıdan köçürülən ermənilər təşkil edir. Rusiya ilə Osmanlı arasında imzalanmış Ədirnə sülh müqaviləsinə 1828-1830-cu illər ərzində

Osmanlıdan 84 min erməni köçürülüb Yelizavetpol (Qarabağ da bura daxil idi), İrəvan, Tiflis quberniyasının Borçalı, Axalkala və Axaltsixis qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirilirdilər [4, s.34].

Ermənilərin Qarabağa gəlmə olduqlarını özlərinin yaratdığı maraqlı bir fakt da, təsdiqləyir. Belə ki, 1978-ci ildə Mardakert (Ağdərə) rayonunda Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağ torpağına ilk 200 erməni ailəsinin köçürülməsinin 150-ci ili münasibətilə abidə qoyulmuşdu. Sonralar, yəni 1988-ci ildə Azərbaycana qarşı təcavüzə başlarkən ermənilər abidənin ifadə etdiyi mənanı dərk etmiş və Qarabağı işğal etməyə yönəlik iddiaları ilə düz gəlmədiyindən abidəni məhv etmişdilər.

"Böyük Ermənistan"ın "böyük tarixi" proyektinin kökləri məhz erməni millətçilərinin erməni tarixi üzərində həyata keçirdiyi bəzi "düzəlişlərə" əsaslanmaqdadır. Ona görə də, bəzi tarixçilər belə hesab edir ki, öz tarixini bu qədər əfsanəvi dəyərlər əsasında yaradan başqa bir xalq hər halda yoxdur. Ermənistan adı, hüdudları qeyri-müəyyən olmaqla bərabər, Şərqi Anadolu və Qafqazın cənub-qərbini əhatə edən və daxili bütövlüyü olmayan coğrafi ad kimi tarixdə tez-tez işlənmişdir. Əslində, bu gün erməni adlandırdığımız xalq, özünü hayk (hay) və yaşadığı bölgəni də "Hayastan" (Yüksək ölkə) adlandırır.

Erməni mifologiyasına görə ermənilər, dünya daşqını zamanı gəmisi Ağrı dağında torpağa oturan Nuh peyğəmbərin nəvəsi Haydan törəmişlərdir [11, s.19-36]. Əfsanəvi mahiyyət daşıyan bu iddianın tarixi baxımdan heç bir əsası yoxdur. Birincisi, bu əfsanə bütün səmavi dinlərin ortaq dəyəridir. İkincisi, əgər əfsanə doğrudursa, o zaman bütün bəşəriyyətin Nuhun törəmələri olması lazımdır.

Ən qədim mənbələrdə hay adlı tayfaya aid heç bir məlumat yoxdur. Hay etnosunun kökləri haqqında erməni tarixçiləri də daxil olmaqla, tarixçilər arasında ortaq bir fikir birliyi yoxdur. İndi artıq tarixi baxımdan bilinən bir faktdır ki, erməni adlandırılan toplum (haylar) Ermənistanın yerli etnosu olmamış, buraya sonradan gəlmişdir. Hayların Ermənistanda nə zaman yerləşdiyi məlum deyildir, yalnız o məlumdur ki, bugünki mənada başa düşdüyümüz erməni milləti hay etnosu ilə qriqorianlıq kimliyinin bir-birinə qarışdırılmasından ortaya çıxmışdır. Dr. Yaşar Kalafat doğru olaraq göstərir ki, "bu bir irqin bir məzhəblə, bilmədən, təbii tarixi və sosial-mədəni prosesin nəticəsi olaraq eyniləşdirilməsi hadisəsi deyil. Ermənilər, Qriqorian inancına sahib olan bütün toplumları ermənilik adı altında sahiblənmə siyasəti yeritmişlər" [11, s.159].

XIX əsrin 2-ci yarısından etibarən, Qriqorian topluluğunun içində özünü hay adlandıran etnik qrup Qriqorian kilsəsini və məzhəbini tək başına özününküləşdirməyə başlamışdır. Ortaya atılan erməni iddialarından biri də, Alban

kilsəsinin Qriqorian kilsəsi kimi göstərilməyə çalışılmasıdır. Bununla da, tarixən Albaniyada xristianlığın yayıldığı bölgələr (həmin bölgədə yaşayan müəyyən əhali kütləsi) qriqorianlaşdırılmaqda, dolayısı ilə erməniləşdirilməkdədir.

Alban kilsəsi və Qarabağ arasındakı əlaqəni öyrənərkən istənilən halda, iki faktı nəzərə almaq vacibdir: əvvəla, xristian albanlar daha çox Qarabağda məskunlaşmışdılar və ərəb işğallarından sonra da, dini mənsubiyyətlərini qorumuşdular; ikincisi, rəsmi olaraq 1836-cı ildə Alban kilsəsi ləğv olunduqdan sonra Qarabağın xristian əhalisi güclü surətdə erməniləşdirmə prosesinə məruz qalmışdı.

Qarabağda qriqorianların təsirinə düşmək istəməyən albanların bir hissəsi islam dinini qəbul etdi, digər qismi isə alban kilsəsinə mənsubluğunu qorudu. Beləliklə, aydındır ki, nə Arsax (Dağlıq Qarabağ) və nə də əhalisi erməniləşdirilmiş albanlardan, hazırda isə, erməni sayılan digər vilayət və rayonlar (Qərbi Azərbaycan) heç bir zaman erməni mədəniyyəti mərkəzlərinə mənsub olmamışdır.

**Ədəbiyyat siyahısı:**

1.Caroline Cox, Nagorno Karabakh: forgotten people in a forgotten war, Contemporary Review. January,1997 , 6 s.
2.Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, 170 s.
3.Xəlilov X.D. Qarabağın etnik tarixindən. Azərbaycan SSR, EA, Xəbərlər,N3,1989,13 s.
4.Mahmudov.Y, Şükürov.K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı, 2005, 192 s.
5.Məmmədov.İ, Əsədov.S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). Bakı, "Azərbaycan", 1992, 544 s.
6.Priyev Abbas. Siyasi strategiya və Milli təhlükəsizlik problemi, Bakı, 2002, 98 s.
7.Göyüşov Rəşid. “Qarabağın keçmişinə səyahət”. Bakı, 1993, 83 s.
8.Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı, "Vətən", 1995, 57 s.
9.Sultanov Z. Qarabağ gündəliyi. Bakı, "Yazıçı", 1991, 489 s.
10.Süleyman Əliyarli. Azərbaycan Tarixi Üzrə Qaynaqlar, Bakı, Çıraq, 2007, 328 s.
11.Yaşar Kalafat, M.Niyazi Sezgin .”Ablanlar Tarihi ve Ermeni Kültür Stratejisi”, cild.1, Ermeni Sorunu Özel Sayısı, Nisan, 2002, 12 s.
12.Yaşar Kalafat. “Albanlardan Günümüze Azerbaycan Türk Halk Kültüründe Devamlılık” Geçmişte ve Günümüzde Ablanlar. 29 Nisan-3 Mayıs, Bakü, 1991, 166 s.

# AZƏRBAYCAN-NATO MÜNASİBƏTLƏRİNDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

**Əhmədova Həmidə Etibar qızı**
**Tarix fakültəsi, dissertant**
**t_hemide@live.com**

*Stabil enerji təhlükəsizliyi iqtisadi inkişafın əsasını təşkil edir. Bu baxımdan hər bir ölkə üçün enerji təhlükəsizliyinin təmin edilməsi mühüm əhəmiyyət daşıyır. NATO-nun enerji infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi əsas strateji hədəflərdən biri kimi seçilmişdir. Enerji təhlükəsizliyi yalnız Alyans ölkələrinin enerji tələbatının təminatını nəzərdə tutmur, həm də enerji resurslarının təhlükəsiz çatdırılmasını nəzərdə tutur.*

*Məqalə müstəqil Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığında enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuşdur. Enerji təhlükəsizliyi məsələləri müasir dövrümüzdə NATO siyasətinin prioritetinə, Azərbaycan isə bu sahədə Alyansın mühüm strateji tərəfdaşlarından birinə çevrilmişdir. Məqalədə bu sahədə keçirilən konfranslar, seminarlar və orada müzakirə olunan aktual məsələlər öz əksini tapmışdır.*

***Açar sözlər:*** *enerji, təhlükəsizlik, əməkdaşlıq, infrastruktura, NATO, Azərbaycan*

***The problems of energy security in the bilateral relations of Azerbaijan and NATO***

*Stable energy security is the basis of economic development. Therefore, energy security occupies a very important place for each country. NATO's energy infrastructure protection is considered as one of the essential strategic targets. Energy security means both providing Alliance countries with the amount of energy needed and the transportation of energy resources safely.*

*The article deals with the problems of energy security in Azerbaijan and NATO partnership. Energy security has become a key issue in NATO's policy and Azerbaijan has become an important strategic Alliance partner. This article refers to the current issues discussed in conferences and workkshops held on this problem.*

***Key words:*** *energy, security, cooperation, infrastructure, NATO, Azerbaijan*

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu-90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildikdən sonra Azərbaycana, onun zəngin yeraltı və yerüstü sərvətlərinə Amerika və Avropanın aparıcı dövlətlərinin marağı bir qədər də artdı (1, s.4). Xəzər

dənizi və bütövlükdə Xəzər hövzəsi rayonu Rusiya və İran kimi dövlətlərlə yanaşı, digər ölkələrin də maraq obyektinə çevrildi. Buna səbəb, ilk növbədə, bölgənin geosiyasi və iqtisadi əhəmiyyəti, Xəzərin zəngin karbohidrogen ehtiyatları və digər sərvətləri idi. İstər ABŞ-ın, Avropanın böyük dövlətlərinin, istərsə də Rusiyanın nəzərində Xəzər dənizinin sahilində yerləşən Azərbaycan Respublikası regionda əsas dövlət hesab olunurdu ki, bu da ilk növbədə, onun əhəmiyyətli geosiyasi vəziyyəti, zəngin neft və qaz ehtiyatlarına malik olması ilə bağlı idi.

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq təhlükəsizlik strukturları ilə əməkdaşlıq aparıcı xətt təşkil edirdi. Bu istiqamətdə NATO ilə əlaqələr xüsusilə qeyd olunmalıdır. Azərbaycan-NATO əlaqələri ölkəmizin Avratlantik strukturlara inteqrasiyasının mühüm tərkib hissələrindən biridir. Bu əməkdaşlıq Azərbaycanın, əsasən, 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulması ilə başladı (7, s.444). Bununla Azərbaycan NATO hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrlar hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək imkanları qazandı. Həmin vaxtdan başlayaraq, Azərbaycan-NATO əlaqələri yüksələn xətlə inkişaf edir və bu əməkdaşlıq həm də strateji məzmun kəsb etməklə, regionda Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən mühüm enerji layihələrinin təhlükəsizliyinin beynəlxalq səviyyədə həyata keçirilməsinə təminat yaradır. Enerji təhlükəsizliyi məsələləri müasir mərhələdə NATO siyasətinin prioritetinə, Azərbaycan isə bu sahədə Alyansın mühüm tərəfdaşlarından birinə çevrilir. NATO enerji təhlükəsizliyi ilə birbaşa məşğul olan təşkilat olmasa da, bu məsələ Azərbaycan-NATO məsləhətləşmələrinin bir hissəsidir.

Nəzər yetirsək, NATO-nun 1991-ci il və 1999-cu il strateji konsepsiyalarında enerji təhlükəsizliyi məsələsi "mühüm xammal təminatı kommunikasiyalarının təhlükəsizliyinin təmin edilməsi" müddəası formasında öz əksini tapmışdı (6,s.95). Lakin bu konsepsiyalarda enerji təhlükəsizliyi yalnız fiziki mühafizə kontekstində öz əksini tapmışdısa, NATO-nun 2006-cı il Riqa sammitində qəbul edilmiş qərarlardan sonra bu məsələ daha geniş strateji mahiyyət kəsb edərək, Avroatlantika regionunun təhlükəsizliyinin fundamental əsaslarından biri kimi elan edildi. NATO-nun enerji təhlükəsizliyinə yanaşmasında bu dəyişikliyin səbəbləri kimi aşağıdakıları göstərmək olar:

- 11 sentyabr 2001-ci il terror hadisəsindən sonra meydana gələn təhlükəsizlik mühitinin planetin enerji ehtiyatlarının çox hissəsinin cəmləndiyi Yaxın və Orta Şərq regionunda qeyri-sabitliklə xarakterizə olunması;
- "Əl-Qaidə" və digər terror təşkilatlarının enerji infrastrukturuna və boru kəmərlərinə hücumu barəsində müxtəlif vaxtlarda verdiyi bəyanatlar və həyata keçirilmiş bəzi aksiyaların enerji təhlükəsizliyi probleminə təsirinə

beynəlxalq təşkilatlar səviyyəsində baxılması;
- Rusiyanın 2006-cı ilin yanvarında Ukraynaya siyasi təzyiq məqsədilə təbii qaz ixracını dayandırması;
- "Sülh Naminə Tərəfdaşlıq", "Aralıq Dənizi Dialoqu" və "İstanbul Əməkdaşlıq Təşəbbüsü" çərçivəsində enerji istehsalçısı olan Azərbaycan, Qazaxıstan, Özbəkistan, Əlcəzair, Bəhreyn, Qətər, BƏƏ, Küveyt və başqa digər tərəfdaş ölkələr kimi, mütəmadi olaraq, enerji layihələrinin təhlükəsizliyinin təminatında NATO-nun praktiki iştirakı barədə müzakirələrin keçirilməsi təşəbbüsü ilə çıxış etmələri.

Riqa sammiti ərəfəsində Alyansa daxil olan ölkələrin də ictimai rəyinə baxsaq, enerji təhlükəsizliyinə yeni yanaşmanın zəruriliyi barədə rəyin formalaşdırılması və bu məsələnin ictimai elmi dairələrin müzakirəsinə çıxarılması məqsədilə bir sıra tədbirlər də həyata keçirildi. Həmin ərəfədə NATO Baş katibinin ofisində Siyasətin Planlaşdırılması direktoru vəzifəsində çalışan Cemi Şea tərəfindən Alyansın rəsmi orqanı olan "NATO Review" jurnalında dərc edilmiş məqalədə enerji təhlükəsizliyi sahəsində aşağıdakı 4 istiqamət üzrə NATO-nun fəaliyyətinin mümkünlüyünün nəzərdən keçirilməsi təklif olunurdu:
- enerji təhlükəsizliyi sahəsində situasiyanın daimi monitorinqi və qiymətləndirilməsi (NATO-nun kəşfiyyat və informasiya-kommunikasiya vasitələrindən istifadə etməklə);
- energetika infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasında üzv dövlətlərə dəstək verilməsi;
- dəniz daşınmalarını həyata keçirən nəqliyyat vasitələrinin terror və digər hücumlardan mühafizəsini təmin etmək məqsədilə dənizlərdə hərbi-patrul fəaliyyətinin həyata keçirilməsi;
- enerji daşıyıcıları hasil olunan regionlarda böhran və ya münaqişə situasiyaları zamanı, qaz və neft təchizatını təmin etmək məqsədilə hərbi əməliyyatların keçirilməsi (9).

Azərbaycan Respublikası enerji təhlükəsizliyi probleminin müasir anlamda Alyansın gündəliyinə daxil edilməsindən çox əvvəl, bu məsələnin NATO ilə ikitərəfli əməkdaşlıq çərçivəsində müzakirə edilməsi təşəbbüsü ilə çıxış etmişdir. NATO-nun tərəfdaşlıq proqramları çərçivəsində ölkəmizdə enerji təhlükəsizliyinə həsr edilmiş müxtəlif tədbirlər həyata keçirilmişdir ki, AATŞ-ın 2000-ci il iyulun 20-21-də enerji təhlükəsizliyinə həsr edilmiş "Qafqazda enerji təhlükəsizliyi" adlı konfransı və 2007-ci il iyulun 10-11-də Enerji İnfrastrukturunun təhlükəsizliyi üzrə seminarı bu qəbildən olan tədbirlərdəndir (7, s.462) . Keçirilən konfranslarda beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlar tərəfindən gözlənilən təhlükələr və onlara qarşı mübarizə yolları müzakirə edilərək, boru kəmərlərinin təhlükəsizliyinin

təmin edilməsinin vacibliyi, həmçinin, Xəzərin enerji ehtiyatlarının istismarı nəticəsində yarana biləcək ekoloji şərait və təhlükələrin aradan qaldırılması məsələlərinə dair danışıqlar olmuşdur.

2008-ci il 6-8 mart tarixində NATO Parlament Assambleyasının Bakıda keçirilən 68-ci "Rouz-Rout" seminarında da enerji təhlükəsizliyi məsələləri əsas müzakirə obyekti olmuşdur (4). Enerji təhlükəsizliyi NATO ilə "26+1" formulu üzrə mütəmadi keçirilən təhlükəsizlik dialoqlarında da müzakirə olunan məsələlərdən birini təşkil etmişdir.

NATO-nun enerji təhlükəsizliyi sahəsində siyasəti üç əsas komponentdən ibarətdir: infrastrukturun qorunması, enerji effektivliyinin artırılması və tərəfdaşlara yardım proqramlarının həyata keçirilməsi. Bu baxımdan enerji təhlükəsizliyi sahəsində NATO-nun Azərbaycana aşağıdakı istiqamətlərdə dəstəyini vurğulamaq olar:

- Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində müzakirələri nəzərdə tutan xüsusi NATO iclaslarının keçirilməsi;
- Azərbaycana enerji məsələləri üzrə NATO-nun xüsusi tərəfdaşı statusunun verilməsi;
- Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində NATO-nun dəstəyini nəzərdə tutan konseptual sənədin hazırlanması;
- Dənizdə (Xəzərdə), havada və quruda Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında NATO-nun mütəxəssis dəstəyinin, kadrların hazırlanması;
- Enerji təhlükəsizliyinin təmin olunmasında NATO mühafizə qüvvələrinin və avadanlıqlarının yardımı.

2009-cu il iyunun 10-da Bakıda NATO-nun müdafiə və təhlükəsizlik məsələləri üzrə nümayəndəsi Mikael Gualın sədrliyi ilə keçirilən Avratlantika Tərəfdaşlığı Şurasının "Enerji təhlükəsizliyi: təhdidlər və perspektivlər" mövzusunda seminarının əsas müzakirələri NATO-nun enerji təhlükəsizliyində rolunun artırılması və bununla bağlı tərəfdaş və üzv ölkələrin iştirakı ilə yeni Təhlükəsizlik Alyansının yaradılması olmuşdur (5). "Regionda risklər artdıqca həm Xəzər regionu, həm də Qara dəniz regionunda enerji təhlükəsizliyinin təminatı məsələsi də aktuallaşır" deyərək Mikael Gual çıxışı zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı yerindən də bəhs etmişdir (2).

Ümumiyyətlə, Xəzər hövzəsinin resursları Avropanın enerji təminatının diversifikasiya edilməsi baxımından mühüm əhəmiyyət daşıdığı üçün, Alyans rəsmiləri dəfələrlə təmsil etdikləri təşkilatın Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin enerji infrastrukturunun müdafiəsində, bu regiondan hasil olunan karbohidrogen resurslarının Avropa bazarlarına təhlükəsiz çatdırılmasında maraqlı olduğunu bəyan etmişlər. Həmçinin, bu

sahədə Azərbaycana hərtərəfli yardım göstərməyə hazır olduqlarını da bildirmişlər. Bu baxımdan, 2013-cü il noyabrın 21-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) və NATO-nun Enerji Təhlükəsizliyi Mərkəzinin birgə təşkilatçılığı ilə "Enerji təhlükəsizliyinə müştərək yanaşma: NATO və digər tərəflərin mövqeyi" mövzusunda keçirilən konfrans mühüm əhəmiyyət kəsb edir. NATO-nun Cənubi Qafqaz regionunun əlaqələndirici ofisinin rəhbəri Uilyam Lahu konfransda "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycanın Alyans ilə əməkdaşlığının əhəmiyyətini vurğulamış, ölkəmizin təşkilat üçün vacib tərəfdaş olduğunu bildirmişdir. Daha sonra, NATO-nun enerji təhlükəsizliyi məsələləri qrupunda enerji təhlükəsizliyi şöbəsinin rəhbəri Maykl Röhle "Enerji təhlükəsizliyi üzrə əməkdaşlıq: Cari vəziyyət və perspektivlər" mövzusunda çıxış edərək bildirmişdir ki, enerji təhlükəsizliyi yalnız Alyans ölkələrinin enerji tələbatının təminatını deyil, həm də enerji resurslarının təhlükəsiz çatdırılmasını nəzərdə tutur (3).

Enerji infrastrukturlarına hücumlar, dəniz quldurlarının aktivləşməsi böyük iqtisadi itkilərlə nəticələndiyindən bəzən enerji təhlükəsizliyi hərbi xarakter daşıyır. Təbii ki, burada siyasi və iqtisadi təsirlər də rol oynayır. Məsələn, Rusiya və Ukrayna arasında yaranan problem NATO ölkələrini təsir altında qoydu, Alyans problemin həll yolu kimi enerji marşrutlarının diversifikasiyasını, habelə milli və koordinasiya olunmuş şəkildə infrastrukturun mühafizəsini bu sahədə mühüm sayır. Bu kontekstdə Xəzərin enerji resurslarının Avropaya nəqli marşrutlarında infrastrukturların qorunması vacibdir. Lakin Azərbaycanda enerji infrastrukturuna müxtəlif tərəflərdən ciddi təhlükələr var. Əsas təhlükə Azərbaycan ərazilərini işğal edən Ermənistandan gəlir ki, erməni tərəfi də bununla bağlı dəfələrlə hədə-qorxu gələrək, Qərb istiqamətində Azərbaycanın enerji-nəqliyyat infrastrukturuna qarşı təxribatlara cəhd etmişdir. Odur ki, NATO enerji infrastrukturunun təhlükəsizliyinin təminatı və bu hədələri aradan qaldırmaq üçün Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində maraqlıdır.

Enerji təhlükəsizliyi sahəsində tərəflərin əməkdaşlığı ölkənin Avroatlantik inteqrasiyasının elementlərindən biridir və bu anlamda Azərbaycan NATO-nun 8 tərəfdaş ölkəsi sırasına daxil edilmişdir. NATO-nun Qafqaz üzrə məsul nümayəndəsi Uilyam Lahu bildirmişdir ki, Xəzər regionunda infrastrukturun təhlükəsizliyinin təminatı NATO üzvlərinin və tərəfdaşlarının marağındadır (8). Alyans çalışır ki, stabil enerji daşınmaları üçün enerji infrastrukturunun qorunmasında öz müttəfiqlərinə və tərəfdaşlarına yardım göstərsin. O, həmçinin, vurğulamışdır ki, NATO-nun ayrı-ayrı üzvlərinin Azərbaycanla əməkdaşlığı bu istiqamətdə və ikitərəfli əsaslarladır. Əsasən, ABŞ Azərbaycanla dəniz platformalarının təhlükələrdən qorunması

məsələsində əməkdaşlıq edir. Norveç, Rusiya və Şimali Afrika ilə yanaşı, Xəzər regionu da Avropa üçün mühüm enerji resursları mənbəyinə çevrilmişdir. Azərbaycan Türkiyə ilə Transanadolu sazişini imzalamaqla Avropaya qaz nəqli üzrə qaz-nəqliyyat infrastrukturunun yaradılmasında ilk addımı atmış, bu qazın Avropa bazarına Transadriatik boru kəməri və ya NabuccoWest ilə aparılması nəzərdə tutulmuşdur.

Nəticə olaraq deyə bilərik ki, dünya enerji siyasətində və beynəlxalq münasibətlər sistemində sürətlə dəyişən konyukturaya uyğun olaraq yeni prioritetlər, dövlətlərarası və beynəlxalq əlaqələrdə fərqli istiqamətlər meydana çıxmışdır ki, bu baxımdan, ölkəmizin bağladığı əsas beynəlxalq müqavilələr və ötən müddətdə aparılan uğurlu enerji siyasəti nəticəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da möhkəmlənmiş, respublikanın təhlükəsizliyinin və gələcək tərəqqisinin əlavə təminatları yaradılmış, Qərb dünyasının, eləcə də, NATO kimi beynəlxalq təşkilatın Azərbaycana olan etimadı artmış və nəhayət, Azərbaycan Ümumavropa təhlükəsizlik sisteminə daxil olaraq, xüsusilə də enerji sahəsində həlledici rol oynamağa başlamışdır.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2009, 67 s.
2. Azərbaycan Avropanın enerji təminatında vacib rol oynayır // http://www.sherg.az/pre.php?id=18181
3. Bakıda “Enerji təhlükəsizliyinə müştərək yanaşma: NATO və digər tərəflərin mövqeyi” mövzusunda konfrans keçirilmişdir // http://www.azerbaijan-news.az/ index.php?mod=3&id=31640
4. Bakıda NATO Parlament Assambleyasının 68-ci “Rouz-Rout” seminarı işə başlamışdır // Azərbaycan, 7 mart 2008
5. Enerji təhlükəsizliyi: təhdidlər və perspektivlər. Bakıda bu mövzuda keçirilən seminarda Azərbaycan-NATO əməkdaşlığı müzakirə olunub -10.06.2009 http://www.azerbaycanli.org/az/news-209.html
6. Əzimli Azər. NATO-nun enerji təhlükəsizliyi strategiyası: Azərbaycan vektoru // Dirçəliş - XXI əsr. №126-127 (avqust-sentyabr), 2008, 430 s.
7. Qasımlı M.C. Azərbaycan Respublikasının diplomatiya tarixi. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə, II hissə, Bakı, Mütərcim, 2015, 664 s.
8. NATO Azərbaycanın enerji infrastrukturunun qorunmasını vəd edir. Noyabr 22, 2012 //http://www.amerikaninsesi.org/a/nato_xezer/1551096.html
9. Jamia Shea. Energy Security: NATO’s potential role // NATO Review, №3 2006, p.15-16

# AZƏRBAYCAN TORPAQLARINA ERMƏNİLƏR TƏRƏFİNDƏN ƏRAZİ İDDİALARININ TARİXİNƏ DAİR

**Əsədzadə Ləman Eynulla qızı**
**Tarix fakültəsi, bakalavr, I kurs**
**lemanasadzadeh@mail.ru**

*Məqalədə ermənilər tərəfindən Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasının səbəb və nəticələri təhlil olunmuşdur. Burada xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti əks olunub.*
***Açar sözlər**: Azərbaycan, Qarabağ, Ermənistan, işğal*

***On the history of territorial claims of Armenians to Azerbaijan***

*This paper analyzes the reasons and result of raising territorial claims against Azerbaijan. Implementation ethnic cleansing and genocide policy against our nation were considered in the article.*
***Key words**: Azerbaijan, Karabakh, Armenian, occupation*

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən müxtəlif vaxtlarda məqsədyönlü şəkildə həyata keçirilən terror, etnik təmizləmə, soyqırımı siyasəti Azərbaycan tarixinin faciələrlə müşayiət olunan çox ağrılı dövrünü təşkil etmişdir.

Ermənilərin əsas siyasi məqsədi əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. XIX əsrin əvvəllərində başlayaraq Azərbaycanın Qarabağ bölgələrinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda ermənilərin köçürülməsi nəticəsində onların bu bölgədə süni surətdə çoxaldılması XX əsrin əvvəllərində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur. Lakin tariximizin səhifələrinə nəzər salsaq, ərazi iddialarının çox qədim köklərinin olduğunu görə bilərik.

Müasir dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair aparılan danışıqlar dünya birliyinin göstərdiyi səylər, eləcə də beynəlxalq təşkilatların bu istiqamətdə fəaliyyətinin öyrənilməsi çox mühüm və elmi-siyasi əhəmiyyət kəsb edir. Hal-hazırda Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin davam etməsi, eləcə də Azərbaycan torpaqlarının 20%-nin işğal altında olması bu məsələnin təhqiqat obyekti kimi seçilməsini zəruri etmişdir. XX əsrin 80-ci illərinin ikinci yarısında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü eləcə də, azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətinin təhlili qonşu dövlətlərin bu siyasətə olan

yanaşmaları, təcavüzkar dövlətin gətirdiyi sosial-iqtisadi səbəblərin öyrənilməsi və araşdırılması çox vacibdir.

Belə bir sual ortaya çıxır: nə üçün ermənilər məhz Dağlıq Qarabağa göz tikmişdilər? Bu sualın cavabı bu gün də mühüm əhəmiyyət kəsb edir. Qarabağ xanının vəziri olmuş Mirzə Camal Cavanşir (1773-1853) "Qarabağ tarixi" (1847) əsərində bu məsələdən bəhs edərkən yazır: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayı, şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndindən Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelzavetpol (indiki Gəncə) ilə Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" [1, səh.4]. Qarabağ Azərbaycanın şəfalı güşələrindən biri olmuşdur. Eləcə də iqtisadi baxımdan, coğrafi mövqeyi cəhətdən əlverişli strateji mövqeyə malik olan ərazidir. Hələ qədim dövrlərdə Qarabağ Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. X əsrdə Qarabağ Şəddadilərin, XI əsrdə Səlcuqların, XII əsrdə Eldəgizlər dövlətinin tərkibində olmuşdur. Bu dövlətlərin ərazilərinə daxil olan Qarabağ torpaqları tarixən mühüm mövqeyə malik olmuşdur. Qarabağın strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri, ilk növbədə ABŞ və Böyük Britaniya bu bölgəyə, Cənubi Qafqaza, xüsusilə də Azərbaycana, həmçinin Yaxın və Orta Şərqə təsir göstərməyin əlverişli vasitəsi kimi baxırdılar [5, səh.6]. Belə ərazilərə təkcə Qarabağı deyil, şimaldakı qonşularımız tərəfindən zəbt edilən Dəmir qapı Dərbəndi, mühüm ərazilərdən olan Qazax, Şəmşəddil, Borçalını və bir sıra cənub ərazilərini misal göstərə bilərik. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddialırını şərtləndirən amillərdən biri də sosial-iqtisadi amillər olmuşdur. İqtisadi cəhətdən zəif olan Ermənistana Qarabağ kimi səfalı ərazilər lazım idi. Məhz Ermənistanın Azərbaycanın zəngin sərvətləri, faydalı qazıntıları, mineral sularına ehtiyacı var. Bu da təcavüzün əsas iqtisadi səbəblərindən hesab edilə bilər.

Mühüm strateji əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin Dağlıq hissəsinə XIX əsrin I yarısından başlayaraq Qacarlar İranından və Osmanlıdan çoxlu sayda erməni əhalisi köçürülmüşdür. Çar Rusiyası onunla əlaqə saxlayan ermənilərdən öz gələcək işğalçılıq planlarının həyata keçirilməsi üçün bir vasitə kimi istifadə etmişdir. Bu dövrdə regionun zəngin təbii sərvətlərini ələ keçirməyə çalışan çar Rusiyası XVIII əsrin sonu XIX əsrin əvvəllərində Osmanlıya və İrana qarşı müharibə aparan "erməni amil"lərindən siyasi alət kimi istifadə etmişlər. Bu zaman ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuş, bu bölgəyə çarizm tərəfindən xüsusi diqqət yetirilmişdir.

Ayrı-ayrı dövrlərdə irəli sürülən ərazi iddialarının bir nəticə verə bilmədiyini görən ermənilər artıq XX əsrin əvvəllərində etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirməyə başladılar. Göründüyü kimi, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhalini amansızlıqla qətlə yetirmiş, şəhər və kəndləri yandırmışdılar.

1917-ci ilin "Kavkazski kalendar" məcmuəsinin yazdığına görə, Qarabağda 199 min azərbaycanlı (58,3%) və 142 min erməni (41,7%) yaşayırdı. 1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdı. Ermənilər Qarabağın Ermənistana aid olduğunu sübut etmək, azərbaycanlılara qarşı mənfi rəy yaratmağa çalışırdılar.

XIX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsindən köçürülmüş ermənilər sovet dövründə bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, lakin xalqımızın müqaviməti nəticəsində oz istəklərinə nail ola bilməmişdilər.

Hamımıza məlumdur ki, Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir. Onun həlli bütün regionun ictimai-siyasi inkişafında yeni mərhələnin əsasını qoya bilər. 2001-ci il aprelin 23-ü 27-si arasında Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyasında ilk dəfə olaraq ermənilərin azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız faciələrin, soyqırımın tanınmasına dair bəyənnaməsinin qəbul olunması tarixi əhəmiyyət kəsb edən bir sənəd oldu. Eyni zamanda, Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlıq hüququnu tanıdığını bəyan etdi [3, səh.4]. Amma bunlara baxmayaraq, münaqişənin mövcud olduğu müddətdə hələ də beynəlxalq təşkilatlar bu məsələyə lazımı diqqət yetirməmişdir. İndiyədək danışıqlar prosesi əsaslı nəticə verməmiş, bu isə Azərbaycan cəmiyyətində böyük narahatçılıq doğurmuşdur. Bu məsələlərin həllində qonşu dövlətlərin müxtəlif maraqları vardır. ABŞ bu günə qədər hər iki dövlət arasında manevrlər edir, bu siyasəti beynəlxalq təşkilatlar olan BMT, ATƏT, NATO vasitəsi ilə həyata keçirir. Hələ ABŞ konqresi 1992-ci ilin oktyabrında Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb, Azadlığı Müdafiə "aktı"na Azərbaycana dövlət səviyyəsində hər cür yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci düzəlişi qəbul edir. Lakin, görkəmli dövlət xadimi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin (1993-2003) fəaliyyəti sayəsində bu qadağa 10 il sonra dondurulur.

1988-1991-ci illərdə, yəni hadisələrin başlandığından SSRİ-nin süqutuna qədər olan dövrdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən Ermənistan

Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti aparmış, nəticədə dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır [2, səh.30]. 1991-ci ildə erməni silahlı birləşmələri və erməni separatçıları Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq "Dağlıq Qarabağ Respublikası"nın yarandığını və müstəqilliyini elan etdilər. Buna cavab olaraq, 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti Dağlıq Qarabağın Vilayəti statusunun ləğv etdi və "Dağlıq Qarabağ Respublikası"nı tanımadığını bildirdi. 1992-ci ildə isə erməni silahlı birləşmələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. Erməni cəlladları tərəfindən tarixdə misli görünməmiş vəhşilikləri törətdilər [4, səh.21].

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım bütün insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirmək lazımdır.

Dünya tarixində Xocalı soyqırımı yaddaşlarda heç silinməyən Xatın, Xirosima, Ruanda, Naqasaki kimi faciələrdən heç də geri qalmırdı. Adı çəkilən hadisələr müharibələr tarixində dinc əhaliyə qarşı soyqırım olaraq daxil olmuş və dünyada geniş əks-səda doğurmuşdur. Bütün dünyanın gözü qarşısında baş verən bu soyqırımın əsl mahiyyətini yalnız Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlamış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, 1998-ci ilin martında imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı günü qeyd edilmişdir.

Hamımız gözəl bilirik ki, Dağlıq Qarabağ problemi Azərbaycan xalqı üçün ümummilli məsələyə çevrilmişdir. Torpaqlarımızın işğaldan azad olunması üçün hər bir azərbaycanlının üzərinə böyük məsuliyyət düşür. Buna gör də bu münaqişənin mahiyyətini, onun ağır və faciəvi nəticələrini bilmək hər bir azərbaycan vətəndaşı üçün mühüm əhəmiyyət kəsb edir. Mən inanıram ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istənilən halda Azərbaycanın ərazi bütövlüyünü qorumaq çərçivəsində həll ediləcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. "Qarabağ: Suallar və faktlar", "Qismət", nəşriyyatı. Bakı, 2005, 156 s.
2."Qarabağ dünən, bu gün və sabah" 3-cü ümumrespublika elmi-ədəbi konfransın tezislər toplusu, Bakı, 2004, 296 s.
3. Əskər Abdullayev: Ermənistan Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar (monoqrafiya). Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 393 s.
4. Xəlilov A. Ə. Qarabağ: yaddaş . Bakı, MHS-poliqraf, 2010, 192 s.
5. Məmmədova H.İ. Azərbaycan Xalq Cumhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920). Bakı, 'Nağıl Evi' nəşriyyatı, 2006, 150 s.

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ: ERMƏNİ DİASPORUNUN BU İSTİQAMƏTDƏ FƏALİYYƏTİ

**Hüseynova Nigar Samir qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**nikka.huseynova@gmail.com**

*Düşünürəm ki, hər bir tarixçi bütün məsələlərdə hər zaman obyektiv olmalıdır. Məqalədə bacardığım qədər obyektiv olmağa çalışdım. Əlimdə olan beş səhifəyə bütün incəlikləri yerləşdirmək imkansız olduğundan bir çox məsələlər geniş əhatə olunmamışdır.*

*Məqalədə Dağlıq Qarabağ münaqişəsi haqda informasiya verilir. Münaqişəsinin necə başlanmasından, Qarabağın hər iki ölkə üçün olan əhəmiyyətindən qısaca bəhs olunur. Siyası hiylə nəticəsində ən çox zərər çəkənlərin sıravi insanlar olduğunun şahidi oluruq. Hadisələrin şahidlərindən alınmış müsahibələr də məqalədə yer alıb. Muharibə zamanı işğal olunmuş ərazilərin siyahısı verilir. Məqalədə erməni disasporasının fəaliyyətindən məlumat verilir. Burada qeyd olunur ki, münaqişə başlayandan bir qədər əvvəl də ermənilər xaricdə Qarabağı özününki kimi, Azərbaycanı aqressor tərəf kimi təqdim edib. Onlar diasporasının sayəsində Qərbdə öz mövqeyini qoruyub saxlamaqdadır. Məqalənin sonunda münaqişənin bu günə olan nəticələrindən bəhs olunur.*

***Açar sözləri:*** *Qarabağ, münaqişə, Azərbaycan, Ermənistan, diaspora, millətlərin öz müqəddəratını təyin etmə hüququ*

***Nagorno Garabagh Conflict: Armenian Diaspora's Activity In This Direction***

*I think that even a historian searches own history he or she have to try to be more objective. I tried to be objective as much as I can. Since I had only five pages I could not give more details and cover everything widely.*

*This article gives an information about Nagorno- Karabakh conflict. About how it started. I gave an information about importance of this region for both of the countries:Azerbaijan and Armenia. In the result of this political decoy especially suffered population. İn this article there is a list of interviews that were taken from the evidences. We can observe how Armenia started active actions abroad before the conflict and was presenting Karabakh as its own territory. We will also see active armenian diaspora in virtue of Armenia keeps its own place in the West.In the end of the article we can see results of this conflict for nowdays.*

***Key words:*** *Karabakh, conflict, Azerbaijan, Armenia, diaspora, the right of self-determination of nations*

1988-ci ildə Ermənistanda olduğu kimi, Azərbaycanda yalnız bir problem - Dağlıq Qarabağ problemi insanların qəzəbinə və küçələrə çıxmasına səbəb ola bilərdi. Dəfələrlə hər iki respublikaya ezam edilən Moskva rəsmisi

Vyaçeslav Mixaylov deyir: "Mən yüzlərlə insanla söhbət etdim. Lakin kompromis mövqeyində olan nə bir azərbaycanlıya, nə də erməniyə rast gəlmədim.Çobandan tutmuş akademikə kimi" (6, səh. 20).

Dağlıq Qarabağ münaqişəsinin hazırki mərhələsi Xankəndi (o zaman Stepanakert) və Ermənistanda 1987-ci ilin sonunda azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə nəticələnən hücumla başlandı. 1987-ci ildə ermənilər Dağlıq Qarabağın kolxoz və fabriklərini gəzir, Ermənistana birləşmək haqqında "referendum" adlandırdıqları sənəd üçün imza yığırdılar. İmzaların toplanması artıq başa çatmışdı, avqustda isə Ermənistanda və Qarabağda yığılmış 75 min imza ilə on cilddən ibarət olan ərizə Moskvaya göndərildi (4, səh. 1).

Bu referendum haqqında danışarkən erməni siyasi hərəkatının liderlərindən olan, milliyətçi Muradyan bir neçə dəfə "Qarabağın bütün əhalisi" ifadəsini işlətdi. Bəs bura azərbaycanlılar da daxil idimi? Görəsən onların fikrini öyrənməyə kimsə cəhd göstərmişdi? Bu sala Muradyan belə cavab vermişdir: "Bu insanların aqibəti bizi maraqlandırmır. Onlar onilliklər, hətta əsrlər boyu bizə qarşı yönəlmiş hakimiyyətin vasitəsi və zorakılıq aləti idilər. Nə o zaman onların aqibəti bizi maraqlandırmırdı, nə də indi". Bu fikirlərə əsaslanaraq Azərbaycan əhalisinin sorğudan kənar qaldığına bir daha əmin oluruq. Qonşunun mövqeyinə etinasızlıq sovet sisteminin sərt şaquli strukturun özəyində dururdu: Ermənistan və Azərbaycan birbaşa bir-birilə dialoq aparmaq əvəzinə əlaqəni Moskva vasitəsilə qururdular.

Referendumdan sonra bütün Ermənistanı çıxışlar bürüdü və xalq küçələrə çıxıb "Qarabağ" şüarı ilə mitinqlər keçirməyə başladı. Uzun illər Yerevanda yaşamış qarabağlı Zoya Şuqaryan deyirdi ki, bu hadisələri görəndə, gözlərinə inana bilmirdi. Əvvəlcə Ermənistanın paytaxt sakinlərinin əksəriyyəti Dağlıq Qarabağdakı vəziyyətdən xəbərdar deyildilər. Şuqaryan qeyd edirdi ki, "bütün bu illər ərzində mən Qarabağı hətta xəritədə tapa bilməyən insanlarla mübarizə aparırdım. Fevralın 21-də isə küçəyə çıxıb gördüm ki, bütün Ermənistan "Qara-bağ!" qışqırır.

1988-ci ilin fevralında Dağlıq Qarabağda baş verən fövqəladə hadisələr Azərbaycan üçün gözlənilməz oldu. Azərbaycan əhalisinin tərkibi Ermənistandan fəqli olaraq daha müxtəlif idi. 1988-ci ildə əhalisi yeddi milyondan artıq olan Azərbaycan qonşu respublikanın sayına görə ikiqat öndə olaraq, həmçinin çoxmillətli dövlət idi. Burada ruslar və ermənilər kimi milli azlıqlar, həmçinin azsaylı Qafqaz xalqları, talışlar, ləzgilər və b. yaşayırdılar.

Azərbaycanda ilk siyasi etiraz aksiyası 1988-ci ilin fevralın 19-da baş verdi. Bakıda bir qrup tələbə, fəhlə və ziyalı əllərində Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bildirən plakatlarla şəhərin yuxarı hissəsində yerləşən Elmlər Akademiyasından Ali Sovetin binasına tərəf yürüşlər etdilər. Bu çıxışları səbəb kimi götürərək bir neçə min azərbaycanlı Ermənistandan

qovuldu. Azərbaycanda ermənilərə qarşı narazılıqlar var idi (8, səh.3).

20 fevral 1988-il tarixində DQMV-nin Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri DQVM-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında qərar qəbul edilir. 22 fevral 1988-ci il tarixində Xankəndi-Ağdam şossesində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin yuxarıda qeyd olunan qərarına qarşı etiraz edən azərbaycanlı nümayişçilərə atəş açdılar (6, səh.30).

Münaqişənin hüquqi aspektləri Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün Ermənistan rəsmiləri tez-tez Dağlıq Qarabağın heç zaman müstəqil Azərbaycanın yurisdiksiyasında olmaması məsələsini qaldırırlar (7,səh.2). Bundan əlavə, rəsmi Yerevanın fikrincə, Dağlıq Qarabağın 1991-ci ildə SSRİ-nin parçalanması prosesində ayrılması və "Dağlıq Qarabağ Respublikası"nın yaradılması qanuni şəkildə baş vermişdir. 100.000 nəfər sakini olan Dağlıq Qarabağın özünü "müstəqil" elan etməsinin deyilməsi, əslində Ermənistanın münaqişədə deyil, yalnız marağı olan müşahidəçi qismində çıxış etdiyini təsdiqləyən siyasi hiylədir. Qarabağ parlamentinin yeni spikeri və vilayətin faktiki rəhbəri Artur Mkrtıçyan oldu.

Dağlıq Qarabağda müharibə heç vaxt rəsmən elan olunmayıb. Azərbaycan və Ermənistanın müstəqilliyinin 1992-ci ildə beynəlxalq səviyyədə tanınmasından sonra Qarabağ münaqişəsi yeni, dövlətlərarası səviyyəyə yüksəldi. Yeni dövlətlər formal olaraq əvvəlki sənədləri saxlamışdılar, buna əsasən Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanındı. Suveren dövlətin bir hissəsinə iddia etdiklərindən, ermənilərin beynəlxalq qınaqla rastlaşacaqları qaçılmaz idi (3, səh.22). Münaqişə getdikcə sərtləşirdi və tərəflər arasında qarşıdurma güclənirdi. Ermənilər Xankəndinin (o zaman Stepanakert-ermənilər toponimikada dəyişikliklər etmişdilər) hüdudlarından kənarda silahlı basqınlara başlayırlar. Onların hədəfi Xankəndindən 9 km. uzaqda yerləşən Xocalı idi (1991-ci il məlimatına görə əhalisi 6.300 nəfər). Amerikalı müxbir Tomas Qolts yazırdı ki, "Xocalıda telefonlar, ümumiyyətlə heç nə işləmirdi, nə işıq, nə istilik, nə də su xəttləri. Ətraf aləmlə yeganə əlaqə vertolyot vasitəsilə saxlanılırdı, hər bir reys təhlükəli idi. "Xocalıya sonuncu vertolyot reysi 1992-ci ilin fevralın 13-də təşkil edildi və həmin gün oradan ən azı 300 sakin çətinliklə çıxarıldı. Fevralın 26-da Xocalıda Sovet ordusunun 366-cı alayının köməyi ilə ermənilər soyqırım törətdi (2, səh. 20).

Münaqişənin gedişində Ermənistan silahlı qüvvələri tərəfindən etnik təmizləmə siyasəti həyata keçirilib (6, səh 28). Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 12 yaşayış məntəqəsindən onların zorla çıxarılması planı həyata keçirilib. Şuşa rayonu 1992-ci il mayın 8-də, Xocavənd rayonu oktyabrın 2-də, Laçın rayonu 1992-ci il mayın 18-də, Kəlbəcər rayonu 1993-cu il aprelin 2-də, Ağdam rayonu 1993-cü il iyulun 23-də, Cəbrayıl və Füzuli rayonları

1993-cu il avqustun 23-də, Qubadlı rayonu 1993-ci il avqustun 31-də, Zəngilan rayonu 1993-cü il oktyabrın 29-də işğal olundu (4, səh.1).

1994-cü ilin mayında tərəflər arasında atəşkəs haqqında razılaşma imzalansa da (Bişkek protokolu), münaqişə bölgəsinə beynəlxalq sülhməramlı qüvvələr yeridilmədi. Vasitəçilərin ən böyük nailliyyəti Ermənistan, Azərbaycan və Dağlıq Qarabağın hərbi rəhbərlərinə iyulun 26-da qeyri-müəyyən müddətdə bağladıqları atəşkəsin gözlənilməsi haqqında saziş oldu, həm də üç imzanın hamısı ilk dəfə olaraq eyni vərəqdə qoyuldu (6,səh.32). Rəsmi Yerevan nümayəndələri Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına “haqq qazandırmaq” məqsədilə, tez-tez Dağlıq Qarabağın heç bir zaman müstəqil Azərbaycanın tərkib hissəsi olmaması barədə tezislə çıxış edirlər.

Qarabağ məsələsi xaricdə də nüfuzlu ermənilərin köməyi ilə fəal şəkildə təbliğ edilirdi. ABŞ-dakı erməni diasporunun nümayəndələri qəzetlərdə verdikləri müsahibələrdə keçmiş partiya funksioneri Anatas Mikoyanın oğlu, tarixçi Sergey Mikoyan və yazıçı, jurnalist Zori Balayan Dağlıq Qarabağla Ermənistanın birləşməsi ideyalarını təbliğ edirdilər (7, səh.5).

Dağlıq Qarabağda erməni separatizmi 1988-ci ilin fevralında aktivləşsə də, separatizmin dəstəklənməsi və bu bölgənin Azərbaycanın tərkibindən çıxarılması istiqamətində dünya ermənilərinin, xüsusən də ABŞ və Fransadakı güclü erməni diasporunun fəaliyyəti ondan xeyli əvvəl başlamışdı. Həmin illərdə bir sıra qərb, habelə Yaxın Şərq ölkələrindəki erməni diasporu Dağlıq Qarabağda və Ermənistanda gizli fəaliyyət göstərən separatçı erməni təşkilatları “Krunk”, ”Qarabağ” komitəsi və “Miatsum”a təşkilatlarına maliyyə dəstəyini artırdılar (6, səh.12).

1987-ci ilin noyabrında Sov.İKP MK Baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Abel Aqanbekyan Parisin “İnterkontinental” mehmanxanasında bir qrup fransalı erməni ilə görüşüb, onlara problemlə bağlı öz nəzər nöqtəsini açıqlayır: “Mən çox istərdim ki, Qarabağ Ermənistana qayıtsın. Bir iqtisadçı kimi hesab edirəm ki, onların Ermənistanla olan əlaqələri Azərbaycanla olan əlaqələrindən daha sıxdır. Bununla əlaqədar mən öz təkliflərimi irəli sürmüşəm və ümid edirəm ki, bu fikirlər yenidənqurma və demokratiya ənənələrinə uyğun keçiriləcək. “Aqanbeqyanın fikirləri həmçinin Sovet İttifaqında yayılan fransız kommunistlərinin “Umanite” qəzetində dərc edildi. Azərbaycanlılar özlərinə qarşı aparılan erməni kampaniyası haqqda ilk dəfə məhz bu müsahibədən xəbər tutdular.

Həmçinin Aqanbekyanın Fransadakı çıxışı dərhal xaricdə nəşr edilən çoxsaylı erməni dilli qəzet və jurnalların, habelə radioların əsas mövzusuna çevrildi.

1987-ci ilin sonlarında ABŞ növbəti prezident seçkilərinə hazırlaşırdı və erməni lobbisi bu kampaniyadan istifadə edib Qarabağ məsələsini qaldırdı. Res-

publikaçıların Nyu Orlean şəhərindəki konqresində ermənilər “öz müqəddəratını təyin etmək istəyən sovet xalqları” ilə bağlı məsələnin gündəliyə daxil olmasını israr etdilər. Bu məsələ gündəliyə salındı və ermənilərin planlarına dəstək verən bəyanat qəbul edildi. 1988-ci ilin fevralında erməni separatizminin aktiv fazaya keçdiyi Dağlıq Qarabağın, Azərbaycanın tərkibindən ayrılıb Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndində başlayan aksiyaların azərbaycanlılara qarşı hücumlarla müşayət olunduğu, Ermənistandan azərbaycanlıların məcburi deportasiyasının başladığı bir vaxtda erməni diasporu Qərbdə bu hadisələri “ermənilərə qarşı zorakılıqlar” kimi təbliğ edirdilər.

Amerikalı ekspert Svante Kornellin Dağlıq Qarabağ münaqişəsi barədə 1999-cu ildə dərc edilən kitabında deyildiyi kimi, Qərbdəki erməni diasporu həmin dövrdə “Azərbaycanda ermənilərə qarşı hücumlara etiraz olaraq ”Yerevan şəhərinin küçələrinə 1 milyon insanın çıxdığı barədə xəbərləri KİV-lərdə yayırdı (6, səh.22).

1989-cu il iyulun 27-də “New York Times” qəzeti ABŞ, Kanada və Avropa ölkələrindən olan 133 insan haqları müdafiəçisinin adından dünya ictimaiyyətinə müraciət qəbul etdi. Erməni ictimai xadimlərinin imzaladığı müraciətdə Azərbaycan SSR ərazisində ermənilərə qarşı 1915-ci il “erməni soyqırımı” ilə müqayisə oluna biləcək zorakılıqların baş verdiyi iddia olunur, Azərbaycandan Ermənistanın blokadasına son qoyması tələb edilirdi. 1991-ci ildə Dağlıq Qarabağda ermənilər tərəfindən azərbaycanlılara qarşı kütləvi qətliamların genişləndiyi, kəndlərin yandırıldığı və regionun azərbaycanlı əhalisinin öz evlərindən kütləvi şəkildə qovulduğu bir vaxtda ABŞ Senatı Azərbaycanı pisləyən qətnamə qəbul etdi.

Erməni diasporu və lobbiçilər 1990-cı illərin əvvəllərində qərb ölkələrində Azərbaycanı təcavüzkar kimi təqdim etməklə uğur qazana bilmişdi, bu zaman Azərbaycan informasiya blokadasında idi. Erməni lobbisinin əsas vəzifələrindən biri də, Dağlıq Qarabağda azərbaycanlılara qarşı terror və silahlı hücumlarını maliyyələşdirmək olmuşdu.

1990-1994-cü illərdə təkcə Amerikada erməni diasporu Qarabağda gedən işğalçı müharibəni maliyyələşdirmək üçün on milyonlarla dollar vəsait toplayıb Ermənistana göndərmişdi. Bundan əlavə, “Daşnaksütyun” və Amerika Milli Komitəsi müharibə üçün muzdluların və könüllülərin Ermənistana və Azərbaycanın işğal olunmuş ərazilərinə çatdırılması, habelə erməni ordusu və silahlı birləşmələri üçün silah və sursat alınması və regiona çatdırılması ilə də məşğul olurdu.

1992-ci ildə Ermənistan tərəfindən Azərbaycan ərazilərinə qarşı genişmiqyaslı hücumların edildiyi bir vaxtda ABŞ Senatının Azadlığı Müdafiə Aktına 907-ci düzəliş edərək Azərbaycana yardımları qadağan etməsi də məhz erməni lobbisinin səylərinin nəticəsi idi.

Gördüyümüz kimi, erməni diasporasının aktiv fəaliyyəti nəticəsində Ermənistan sudan quru çıxa bilir. Çox istərdim ki, bizim diasporamız ermənilərin təbliğ etdiyi informasiyanın üzə çıxarılması istiqamətində fəaliyyətini daha da artırsın və bu fəaliyyəti daha uğurlu olsun.

Hazırda iki ölkə arasında sərhədlər bağlıdır. Azərbaycan və Ermənistan arasında əməkdaşlıq yoxdur. Azərbaycanın Xarici İşlər naziri olmuş Vilayət Quliyevin dediyi kimi, "Təcavüzkarla işğal altında olan dövlət arasında hansı əməkdaşlıqdan söz gedə bilər?"

Milli Məclisin deputatı İlham Əliyev 2001-ci il mayın 17-də Avropa Şurasının Miqrasiya, qaçqınlar və demoqrafiya komitəsi tərəfindən Bakıda təşkil olunmuş "Cənubi Qafqazda qaçqınlar və məcburi köçkünlər" problemi üzrə konfransda jurnalistlərin suallarına cavab verərək bildirir ki, "Hesab edirəm ki, Ermənistan Azərbaycana qarşı terror siyasətini dövlət səviyyəsində həyata keçirir. Bunu başqa cür adlandırmaq olmaz". Onun sözlərinə görə, məhz həmin siyasətin nəticəsidir ki, Azərbaycan ərazisinin 20%-i işğal olunmuş, bizim insan tələfatlarımız minlərlə, on minlərlə insana bərabər olmuş, ölkədə milyondan artıq qaçqın yaşayır. Bunun haqqında hazırda bütün dünya bilir. Və 8-10 il bundan əvvəl Azərbaycanın Avropada və bütün dünyadakı mövqeyi güclü deyildisə, o zamanlar erməni lobbisinin cəhdləri sayəsində dünya ictimaiyyəti doğru məlumatlandırılmırdısa, hazırda vəziyyət tamamilə dəyişmişdir. İndi hər kəs başa düşür ki, Ermənistan Azərbaycana qarşı işğalçı və təcavüzkar siyasəti həyata keçirir." (5, səh.78).

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində 1992-1994-cü illərdə Dağlıq Qarabağ və ətraf rayonlardan yarım milyona yaxın azərbaycanlı yurd-yuvasından didərgin düşmüşdür. Ermənilərin törətdiyi vəhşiliyə heç bir ad vermək olmaz. Ermənilərin iddia etdiyi 1915-ci ilin aprelində baş vermiş "soyqırım" belə buna səbəb ola bilməzdi. Bu hadisənin soyqırım olub-olmaması məsələsindən başqa, Osmanlı İmperiyasında baş vermiş hadisənin Azərbaycana aid edilməsi çox məntiqsizdir, xüsusən də Azərbaycanın heç vaxt Osmanlının tərkib hissəsi olmadığı nəzərə alınarsa.

**Ədəbiyyat siyahısı:**

1.Армянская диаспора от США до Эфиопии"Радио свобода". 24 апреля 2015
2.Goltz."Azerbaijan Diary"1998.page-119
3.Human Rights Watch."Bloodshed in Caucasus"page. 22
4.İşğal olunmuş ərazilər. // www.refugees-ids.commitee.gov.az
5.Azərbaycan Respublikasının İşlər İdarəsinin Prezident Kitabxanası.s.78
6.Tomas de Waal.Black Garden: Armenia and Azerbaijan Through peace and War.United Kingdom.2004
7."Роль армянского лобби в Карабахском конфликте". // Garabagh.net
8.Baku stand for settling Nagorno-Karabakh conflict on basis of international law.tass.com/world/915186

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN-ÇEXİYA ƏLAQƏLƏRİ

**İsmayılova Aygün Vilayət qızı**
**Tarix fakültəsi, magistrant, I kurs**
**aygunismayilova13@gmail.com**

*Azərbaycan və Çexiya arasında tarixən mövcud olan münasibətlər müstəqilliyimizin bərpasından sonra daha da inkişaf etmişdir. Məqalədə müstəqillik illərində Azərbaycan-Çexiya əlaqələrindən bəhs olunur. Son 25 ildə hər iki ölkə arasında istər siyasi, istərsə də iqtisadi və mədəni sahədə olan əlaqələrin inkişafına və bu sahələri əhatə edən əməkdaşlıq tədbirlərinə nəzər yetirilmişdir.*
***Açar sözlər :*** *Azərbaycan, Çexiya, əlaqələr, əməkdaşlıq.*

***The bilateral relations of Azerbaijan and Czech Republic in the years of independence***

*The historically existing relations between the Czech Republic and Azerbaijan after the restoration of independence of Azerbaijan further developed. In the article in the years of independence the relations between Azerbaijan and the Czech Republic are dealt. In the last 25 years, both political and economic, and cultural spheres and development of relations between the two countries in this area covering the event focused on cooperation.*
***Key words****: Azerbaijan, The Czech Republic, ties, cooperation.*

**Giriş**. Azərbaycan-Çexiya münasibətlərinin daha dərin tarixçəsi və ənənələri mövcuddur. Azərbaycan ilə Çexiya arasındakı münasibətlər istər bu ölkələrin sosialist sisteminə daxil olduğu dövrdə, istərsə də müasir mərhələdə ənənəvi dostluq xarakteri daşıyır. Ölkəmiz müstəqillik qazandıqdan sonra iki dövlət arasında əlaqələrin bütün sahələrdə inkişafı üçün daha real imkanlar yaranmışdır. Belə ki, son 25 ilə nəzər saldıqda iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdiyini görmək olar. Çexiya Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 8-də tanımışdır.

**Siyasi əlaqələr.** İki ölkə arasında mədəni, iqtisadi əlaqələr mövcud olsa da, siyasi əlaqələr, diplomatik münasibətlər müstəqillik illərində-1993-cü il yanvarın 29-da qurulmuşdur. Bunun ardınca 1996-cı il fevralın 27-də Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Çexiya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün 2002-ci il noyabrın 21-də Praqaya getmişdir.

Burada onu Çexiya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli əməkdaşı Boqomil Harmşmid səmimiyyətlə qarşılamış, görüş zamanı iki ölkə arasındakı əlaqələrin əhəmiyyəti və istiqamətləri barədə müzakirələr aparılmışdır. Əvvəllər iki ölkə arasındakı diplomatik əlaqələr Çexiyanın Gürcüstandakı səfirliyi vasitəsilə həyata keçirilirdi. Lakin daha sonra hər iki ölkədə müvafiq olaraq səfirliklər açıldı. Bununla bağlı Azərbaycan Respublikasının Milli Məclisində 2005-ci il 11 mart tarixində Azərbaycanın Çexiyada səfirliyinin təsis olunmasına dair qanun qəbul edilmişdir. Nəticədə Prezident İlham Əliyevin 2007-ci il 22 fevral tarixli, 1982 nömrəli Sərəncamı ilə Tahir Tofiq oğlu Tağızadə Azərbaycan Respublikasının Çexiya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir [4]. Azərbaycan Respublikasının Çexiya Respublikasındakı səfirliyinin açılış mərasimi 2007-ci il avqustun 15-də baş tutmuşdur. Çexiya Respublikasının Azərbaycandakı səfirliyi 2009-cu il dekabrın 1-də təsis edilmişdir.

İki ölkə arasında siyasi sahədə əməkdaşlıq məqsədilə dövlət başçıları, həmçinin hökumət nümayəndələri arasında bir sıra görüşlər keçirilir, siyasi məsləhətləşmələr aparılırdı. Son 25 ilə nəzər saldıqda bunu müşahidə etmək mümkündür. 29 noyabr 2007-ci ildə ATƏT-in Nazirlər Şurasının 15-ci iclası zamanı Xarici işlər naziri Elmar Məmmədyarov Çexiyalı həmkarı K.Şvartsenberq ilə görüşmüşdür. Görüşdə GUAM ölkələrinin Xarici İşlər Nazirləri təşkilatının Çexiya Respublikası ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyi bildirilmiş və həmin tərəf GUAM-ın keçiriləcək sammitinə dəvət edilmişdir. 2008-ci martın 2-4-də Çexiya Parlamentinin Deputatlar palatasının Xarici əlaqələr komitəsinin sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda olmuşdur. Nümayəndə heyəti səfər zamanı XİN-i Elmar Məmmədyarov, Müdafiə Naziri S.Əbiyev, Milli Məclisin sədr müavini Z.Əsgərov ilə görüşlər keçirmişdir. 26 yanvar 2009-cu ildə Budapeştdə "Cənub Dəhlizi" enerji sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çexiyanın Baş naziri Mirek Topolaneklə görüşmüşdür. 6-9 may 2009-cu ildə Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı" və Enerji sammitlərində iştirak etmək üçün Çexiyaya işgüzar səfər etmişdir. 21-25 noyabr 2009-cu ildə Xarici İşlər nazir müavini Xələf Xələfov Çexiya XİN-də siyasi məsləhətləşmələr keçirmək məqsədi ilə həmin ölkəyə səfər etmişdir. Səfər zamanı Xələf Xələfov Çexiya XİN-nin müavini və Nazirliyin Baş katibi M.Sedlaçek ilə görüşmüşdür [2]. Növbəti il, yəni, 15-17 fevral 2010-cu ildə Milli Məclisin sədr müavini B.Muradova və deputat R.Aslanova Çexiyaya işgüzar səfər etmiş, Çexiya Parlamentinin Senatı və Nümayəndələr Palatasının sədrləri ilə görüşmüşdülər. Keçirilən görüşlərdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin əhəmiyyəti vurğulanmışdır. 2010-cu ilin 13-14 mayında Çexiya XİN-i

Y.Kohout ölkəmizdə səfərdə olmuş, ölkə başçısı və hökumət nümayəndələri ilə görüşlər keçirmişdir.

Parlamentlərarası əlaqələr növbəti illərdə daha da inkişaf etmişdir. Belə ki, Azərbaycan Respublikasının Milli Məclisində 2011-ci il aprelin 8-də Valeh Əsgərovun rəhbərlik etdiyi Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır. Belə qrup həmçinin Çexiya parlamentində də təsis edilmişdir. 2011-ci il 19 iyul tarixində Çexiya Parlamentinin aşağı palatası olan Deputatlar Palatasında (Yan Hamaçekin rəhbəri olduğu), Çexiya Respublikası Parlamentinin yuxarı palatası olan Senatda isə 2012-ci il 24 may tarixində Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılmışdır. Qeyd edək ki, Y. Hamaçekin iki ölkə arasında siyasi əlaqələrin inkişafında böyük xidmətləri olmuşdur. Belə ki, 2013-cü ilin fevralında Çexiya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr komitəsində Xocalı soyqırımını və bu qanlı faciəni törədən Ermənistan tərəfini pisləyən qərar qəbul edilmişdir ki, bu qərarın qəbul edilməsində cənab Hamaçekin xüsusi rolu olmuşdur. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 2012-ci il tarixli sərəncamı ilə cənab Yan Hamaçeki "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif etmişdir. Onu da qeyd etmək lazımdır ki, Avropa İttifaqına üzv ölkələr arasında ilk dəfə olaraq Xocalı soyqırımı məhz dost Çexiya Parlamentində tanınmışdır [6].

**İqtisadi əlaqələr.** Azərbaycan və Çexiya müstəqilliyimizin bərpasından sonra iqtisadi, mədəni və digər sahələrdə də əməkdaşlıq etmişdir. İqtisadi sahədə olan əlaqələrimiz daha geniş səciyyə daşıyır. 2005-ci il iyunun 15-də Çexiyanın İxrac Bankı ilə Bakı-Rostov avtomobil yolunun yenidən qurulması üçün 110 milyon dollar məbləğində uzunmüddətli kreditin alınmasına dair saziş imzalanmışdır. 24 noyabr 2005-ci ildə iki ölkə arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya imzalanmışdır. Konvensiyanın imzalanması məqsədilə Çexiyanın Maliyyə naziri Bohuslav Sobotkanın dəvəti ilə Vergilər naziri Fazil Məmmədovun başçılığı ilə nümayəndə heyəti Praqada səfərdə olmuşdur [2]. 2007-ci il 11-12 sentyabrda Çexiya Respublikası Maliyyə nazirliyinin Mərkəzi Maliyyə və Vergi Direktorluğunun Baş Direktoru Yan Knijek Azərbaycan Respublikasına səfər etmişdir. Səfər zamanı Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair saziş imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2440 saylı, 16 oktyabr 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çexiya Respub-

likasının Ətraf Mühit Nazirliyi arasında Ətraf mühitin mühafizəsi sahəsində Əməkdaşlığa dair Memorandum imzalanmışdır ki, bu memorandum imzalandığı tarixdən, 25 sentyabr 2008-ci ildən qüvvəyə minmişdir [3].

23-25 iyul 2009-cu ildə Çexiyanın Maliyyə naziri E.Yanota Azərbaycana səfər etmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Baş nazir Artur Rasizadə, Maliyyə naziri Samir Şərifov ilə görüşmüşdür. Görüş zamanı maliyyə sahəsində əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

1-2 oktyabr 2009-cu ildə Çexiyanın Müdafiə naziri M.Bartakın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Baş nazir A.Rasizadə, Müdafiə naziri S.Əbiyev və Müdafiə Sənayesi naziri Y.Camalov ilə görüşlər keçirmişdir. Bu görüşlərin yekunu olaraq müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 559 saylı, 30 oktyabr 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir [2].

5 fevral 2010-cu ildə Çexiya Respublikasının "Komerçni banka, a.ş." Bankı (Borcverən), Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (Borcalan) və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Zamin) arasında "Heydər Əliyev adına Beynəlxalq Hava Limanı-Mərdəkan dairəsi-Bilgəh" avtomobil yolunun 6-8 cərgəli hərəkət üçün yenidən qurulması, yol qovşaqlarının, piyada keçidlərinin tikintisi və digər yol işlərinin maliyyələşdirilməsinə dair Çərçivə Kredit Sazişi imzalanmışdır. Daha sonra isə 14 may 2010-cu ildə Havaəlaqəsi haqqında Saziş imzalanmışdır. Buna müvafiq olaraq da 24-25 iyun 2010-cu ildə AZAL QSC-nın vitse-prezidenti E.Hacıyevin başçılıq etdiyi nümayəndə heyəti Çexiyada səfərdə olmuş, bir sıra görüşlər keçirmişdir. Danışıqların yekunu olaraq 15 iyul tarixindən həftədə 1 dəfə Bakı-Praqa-Bakı reysinin fəaliyyətə başlaması haqqında razılıq əldə edilmişdir. Qeyd etdiyim bu faktlarla yanaşı, neft sektoru sahəsində əməkdaşlıq mövcuddur. Təsadüfi deyil ki, Azərbaycan neftinin boru kəməri ilə Çexiyanın neft emalı müəssisəsinə çatdırılır. Azərbaycan-Çexiya arasındakı iqtisadi əlaqələrin inkişafı özünü ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasında və 2014-cü ildə 2 milyard ABŞ dollarına çatmasında bariz şəkildə nümayiş etdirir [3].

**Mədəni əlaqələr**. Azərbaycan və Çexiya arasında mədəniyyət və təhsil sahəsində olan əlaqələr müstəqillik illərində daha da inkişaf etmişdir. Təsadüfi deyil ki, 2006-cı il sentyabrın 22-də Praqada fəaliyyət göstərən "Azər-Çex cəmiyyəti" Cəmiyyəti tərəfindən Çexiya Respublikasının paytaxtında Azərbaycan Mədəniyyət gecəsi təşkil olunmuşdur. Tədbir Azərbaycan Respublikasının Avstriyadakı səfirliyinin və Xaricdə yaşayan həmvətənlərlə iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilmişdir.

Eləcə də, 9 sentyabr 2007-ci ildə Praqanın "Şəhər kitabxanası"nın böyük zalında "Azərbaycan gecəsi" keçirilmişdir. Tədbir Azərbaycanın Çexiyadakı Səfirliyinin dəstəyi ilə "Azər-Çex cəmiyyəti" tərəfindən təşkil olunmuşdur. Bundan başqa, 20-29 iyul 2007-ci ildə Çexiyanın Uherske Hradişte şəhərində 33-cü Yay Film məktəbi keçirilmiş, tədbirdə Qafqaz filmi günləri çərçivəsində "Şərikli Çörək", "Özgə həyat", "Nəsimi", "Ailə", "Xram Vozduxa", "Üç qız", "Neft" və s. filmlər nümayiş etdirilmişdir. 2007-ci ilin 20-21 noyabr tarixində Çexiyanın Brno şəhərinin Masarik universitetində Azərbaycan dilinin tədrisi və Bakı Slavyan Universiteti ilə əməkdaşlıq imkanlarının araşdırılması məqsədi ilə Səfir T.Tağızadə Brno şəhərinə səfər etmişdir. Nəticədə, 22 sentyabr 2008-ci ildə Çexiyanın Brno şəhərində yerləşən Masarik universitetində "Azərbaycan və Xəzər araşdırmaları Mərkəzi"nin açılışı baş tutmuşdur. Qeyd edək ki, Masarik universitetində Azərbaycanla bağlı guşə yaradılmış, Xocalı soyqırımı adlı tədbirlər keçirilmişdir. Eyni zamanda həmin universitetin alimlərinin Tərtərə səfəri təşkil olunmuşdur [8]. Bundan əlavə həmin alimlər Naxçıvanda keçirilən elmi konfransda da iştirak etmişlər. Xocalı soyqırımı və 20 Yanvar ilə bağlı tədbirlər mütəmadi olaraq diaspora tərəfindən təşkil edilir. Belə tədbirlərdən biri də 2009-cu ildə erməni fotoqrafı Qarik Avanesyanın tariximizi təhrif etməyə yönəlmiş "Qədim ölkə-Artsax" adlı sərgisinin qarşısı alınmışdır [9]. Eləcə də Çexiyada Xocalı soyqırımı Lidiça hadisələrinə bərabər tutulur. Bildiyimiz kimi, II Dünya müharibəsi zamanı, yəni, 1942-ci ilin 9 iyununda Hitler SS rəhbəri Himmlerin müavini olan Reynhard Heydrixin intiqamını almaq üçün 5.000 nəfər çexiyalını qətlə yetirmiş və Lidiçe kəndini məhv etmişdir. Buna səbəb Çexoslovakiyanın idarəsini tapşırdığı R. Heydrixə burada sui-qəsd təşkil edilməsi olmuşdur.

2009-cu il 23 sentyabr tarixində Bakıda keçirilmiş "Şərq-Qərb" beynəlxalq film festivalında çex rejissoru, "Oskar" mükafatçısı Y.Sverak iştirak etmişdir. Tədbirdə Çexiyanın Moraviya folklor musiqi ansamblı çıxış etmişdir. Həmin il oktyabrın 30-da Azərbaycan Respublikası hökuməti və Çexiya Respublikası hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bu saziş Azərbaycan Respublikası Prezidentinin 15 mart 2010-cu il tarixli 797 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir [4]. Təhsil sahəsində daha bir addım növbəti ildə atılmışdır. Belə ki, "Çexiyanın ümumi ali təhsil ocaqlarında xarici tələbələr üçün təqaüd yerlərinin açılması haqqında" Çexiya Respublikası hökumətinin 27 iyun 2011-ci il tarixli 712 nömrəli qərarına əsasən ölkəmiz üçün energetika, nəqliyyat, kənd təsərrüfatı, iqtisadiyyat və ya tibbi təhsil proqramında bakalavr, magistr elmi dərəcəsinin alınması üçün 1 yer açılmışdır. Təhsil sahəsində görülən işlər bu gün də davam etməkdədir. Belə

ki, 2011-ci ildən bəri Çexiya səfirliyində 416 viza rəsmiləşdirildiyi barədə məlumat vardır. Eləcə də, çexiyalı tələbələr də "Erasmus" proqramı və Beynəlxalq Vişegrad Fondu vasitəsilə Azərbaycanda təhsil alırlar [7].

2012-ci il 5 aprel tarixində iki ölkə arasında mədəni sahəni əhatə edən bir neçə saziş imzalanmışdır. Bunlar Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çexiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş, Milli Azərbaycan Tarixi Muzeyi və Çexiya Respublikasının Milli Muzeyi arasında Anlaşma Memorandumu, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və Çexiya Respublikasının Milli Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum idi. Bundan başqa, Çexiya Prezidentinin ofisi və Azərbaycanın Çexiyadakı səfirliyinin dəstəyi, "BMW" və "Prague Leaders Magazine" şirkətlərinin sponsorluğu ilə 2012-ci il 30 may tarixində Praqa Qalasında azərbaycanlı cazmen Şahin Növrəslinin kvartet konserti də keçirilmişdir [2]. Avropa Film Festivalı çərçivəsində Bakıda 2016-cı il 11 noyabrda Andrea Sedlackovanın "Fair Play" (Düzgün oyun) adlı filminin nümayişi keçirilmişdir.

Azərbaycan-Çexiya dövlət başçıları arasında sonuncu görüş 2015-ci ilin sentyabrında baş tutmuşdur. Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Miloş Zemanın iştirakı ilə Azərbaycan-Çexiya sənədləri, eyni zamanda, hər iki dövlət arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamə imzalanmışdı [4].

İki ölkə arasında əlaqələr barəsində danışan Çexiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vitezslav Pivonka Azərbaycan-Çexiya arasındakı əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini belə qeyd edib: "Paytaxt şəhərlərimiz-Praqa və Bakı arasında təxminən 3000 km. uçuş məsafəsi olmasına və əhalimizin fərqli dillərdə danışmasına baxmayaraq, bizi birləşdirən amillər bizi ayıran məqamlardan daha çoxdur. Konkret nəticələr verən, insanlarımız arasında ünsiyyəti asanlaşdıran və iqtisadi əlaqələrimizi dərinləşdirən əməkdaşlıq ölkələrimiz arasında münasibətlərin gələcək inkişafı üçün mütləq şərtdir. Onların potensialına dair şübhələr yoxdur və biz bu potensialdan mümkün qədər çox istifadə etməliyik" [5].

**Nəticə.** Məqalədə Azərbaycan-Çexiya əlaqələrinin son 25 illik tarixinə nəzər yetirilmiş, iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələri əhadə edən əməkdaşlıqdan bəhs edilmişdir. Qeyd olunan sahələri əhatə edən əməkdaşlıq tədbirləri- hər iki ölkənin nümayəndələri arasındakı görüşlər, bəhs olunan sahələr barədə imzalanan sazişlər və görülən digər tədbirlər xronoloji çərçivədə qeyd olunmuşdur. Azərbaycanın Çexiya ilə əlaqələrinin bundan sonra daha da inkişaf etməsi üçün kifayət qədər geniş imkanlar var.

2015-ci ildə dövlət başçıları arasında imzalanan “Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamə” də bu baxımdan mühüm rol oynaya bilər.

**Ədəbiyyat siyahısı:**


1. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005 , 631 s.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin saytı // http://www.mfa.gov.az
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin saytı// http://www.economy.gov.az
4. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı // http://www.president.az
5. Analitik-informasiya portalı //http://www.newtimes.az
6. Xəbər saytı // http: //www.azpress.az
7. Çexiya Respublikasının Azərbaycandakı səfirliyinin rəsmi internet saytı //http://www.mzv.cz/baku
8. Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı // http://diaspora.gov.az
9. Azərbaycan Dövlət İnformasiya Agentliyinin rəsmi internet saytı // http://azertag.az/

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ UZAQ ŞƏRQ ÖLKƏLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ

**Qurbanzadə Billurə Siyavuş qızı**
**Tarix fakültəsi, magistrant, II kurs**
**billure.qurbanzade@gmail.com**

*Məqalədə çap olunmuş monoqrafiyalardan və internet resurslarından istifadə edilməklə müstəqillik dövründə Azərbaycan Respublikasının Uzaq Şərq ölkələri ilə mədəni əlaqələri və bu əlaqələrin respublikamızın təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafında rolu araşdırılır.*

***Açar sözlər:*** *Mədəni əlaqələr, təhsil, səhiyyə, Azərbaycan-Çin, Azərbaycan-Yaponiya, Azərbaycan-Koreya*

***Cultural relations of Azerbaijan Republic with the Far East countries in the years of it`s independence***

*Cultural relations with the Far East countries during the period of independence the Republic of Azerbaijan and the role of this relations in development of our education, health and culture are reseaching in this article by using published monographs and internet resources.*

***Key words****: Cultural relations, education, health, Azerbaijan-Chinese, Azerbaijan-Japanese, Azerbaijan-Korean*

**Giriş.** Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn bir subyekti kimi, həm Qərb, həm də Şərq ölkələri ilə fəal diplomatik əlaqələr qurmağa başladı. Əslində, Azərbaycan öz müstəqilliyini bərpa etdiyi kimi, Qərb və Şərq ölkələri ilə də tarixən mövcud olmuş əlaqələrini bərpa etdirirdi. Çünki, Azərbaycan tarix boyu Asiya ilə Avropanı birləşdirən bir körpü olmuşdur.

Ölkələr arasında diplomatik əlaqələrin yaradılmasında, inkişaf etdirilməsində mədəni əməkdaşlığın çox mühüm rolu vardır. Çünki, beynəlxalq mədəni əlaqələr xalqlar arasında qarşılıqlı anlaşmanın və etimadın formalaşmasına xidmət edir. Azərbaycanın digər ölkələrlə mədəni əlaqələri müasir dövrün geosiyasi xüsusiyyətlərini nəzərə alaraq həyata keçirilir və ölkənin milli maraqlarına əsaslanır. Bu baxımdan Azərbaycanın Uzaq Şərq ölkələri ilə mədəni əlaqələr qurması Azərbaycanın həm dünyada tanınmasında, həm də elm, təhsil, texnologiya üzrə inkişafında olduqca əhəmiyyətli rol oynayır.

**Azərbaycan-Çin mədəni əlaqələri.** Tarix boyu Çin dünyada öz yeri, mövqeyi olan ölkə kimi diqqəti cəlb etmişdir. Müasir dövrdə də Çin Xalq Respublikası (ÇXR) böyük potensiala malik olan, ən müasir texnologiyalar

tətbiq edərək yüksək sürətlə tərəqqi edən bir ölkədir [3, 364]. Azərbaycan-Çin mədəni əlaqələrinin tarixi mənzərəsinə nəzər saldıqda bu əlaqələrin tarixinin qədimlərə təsadüf etdiyinin şahidi olarıq. Hələ sovet dövründə Azərbaycan, SSRİ-nin tərkib hissəsi kimi SSRİ-Çin mədəni əlaqələrində yaxından iştirak edirdi [8,77].

Müstəqilliyin bərpasından sonra Azərbaycanın Çinlə əlaqələri yeni mərhələyə qədəm qoydu. ÇXR Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. 1992-ci ilin aprelindən etibarən 2 ölkə arasında diplomatik əlaqələr qurulmuş və həmin tarixdən bu günümüzə qədər Çinlə Azərbaycan arasında mədəni əlaqələr sahəsində müntəzəm olaraq sazişlər imzalanmışdır. İki ölkə arasında kinematoqrafiya, radio və televiziya, mədəniyyət, turizm, səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında hökümətlərarası sazişlər imzalanmışdır. Bu sazişlərin böyük əksəriyyəti təhsil və mədəniyyət sahəsinə aid olmuşdur.

Çinlə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq daim inkişaf etdirilir. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində Çin dili tədris olunur, Konfutsi mərkəzi yaradılıb. Bu mərkəz Azərbaycan üçün çinşünaslıq üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır. Həmçinin, ÇXR azərbaycanşünas mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət yetirilir. Azərbaycan Dillər Universitetində isə "Çin dili və mədəniyyəti" mərkəzi fəaliyyət göstərir. Bundan əlavə, iki ölkə arasında mədəni əlaqələri inkişaf etdirmək məqsədilə 2002-ci ildə "Azərbaycan-Çin dostluq cəmiyyəti" də yaradılmışdı.

2014-cü ildə Azərbaycan və Çinin Təhsil Nazirlikləri arasında imzalanmış ikitərəfli əməkdaşlıq sazişi əsasında Çin höküməti "2014-2015-ci tədris ili üzrə Azərbaycan tələbələri üçün təqaüd proqramı" elan etmiş və bu proqram əsasında 26 nəfər Azərbaycan vətəndaşı Çin ali məktəblərində turizm, tibb, iqtisadiyyat, biznes ixtisasları üzrə təhsil almışdılar. Təhsil sahəsində iki ölkə arasında bu cür proqramlar müntəzəm olaraq təşkil edilir. Növbəti dəfə 2016-cı ildə Azərbaycan Təhsil Nazirliyi ilə ÇXR Təhsil Nazirliyi arasında "2016-2019-cu illər üçün təhsil sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdır. Bu proqram əsasında 17 tələbə beynəlxalq münasibətlər, hüquq, iqtisadiyyat, kompyuter elmləri və texnologiyaları və s. ixtisaslar üzrə Çinin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq hüququ əldə etmişlər.

Azərbaycan-Çin arasında əməkdaşlıq mədəniyyət sahəsi üzrə də uğurla davam etdirilir. Hələ 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı Azərbaycan Respublikası və Çin Xalq Respublikasının Mədəniyyət Nazirlikləri arasında "2005-2009-cu illərdə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında" protokol imzalanmışdır [6,80]. Həmin protokolun yerinə yetirilməsi nəticəsində

2008-ci və 2012-ci illərdə ÇXR-də Azərbaycan mədəniyyət günləri, 2011-ci ildə isə Azərbaycanda Çin mədəniyyət günləri keçirilmişdir. Mədəniyyət günləri hər iki xalqın bir-birlərini daha yaxından tanımasına böyük təsir göstərir. Son illərdə Çin və uyğur ədəbiyyatlarından Azərbaycan dilinə edilmiş tərcümə əsərlərinin Azərbaycanda nəşrinə də diqqət artmışdır. Bundan başqa, ölkəmizdə Uyğur dili və mədəniyyətinə dair tədqiqatların aparılması sahəsində də müəyyən nailiyyətlər əldə olunmuşdur.

**Azərbaycan-Yaponiya mədəni əlaqələri.** Azərbaycanın fəal və sıx mədəni əlaqələr qurduğu Uzaq Şərq ölkələrindən digəri Yaponiyadır. Yaponiya da Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Bu Azərbaycan dövləti üçün olduqca əhəmiyyətli idi. Çünki, Yaponiya bütün dünyada böyük siyasi, iqtisadi gücə malik olan və ən güclü inkişaf edən dövlətlərdən biri hesab edilir. Hələ, 1995-ci ildə yapon türkoloqu, qafqazşünası prof. Akira Matsunaqanın rəhbərliyi ilə “Azərbaycan-Yaponiya Elmi Tədqiqatlar və Mədəni Əlaqələr Mərkəzi” yaradılmışdı. Bu mərkəz ölkələr arasında mədəni münasibətlərin inkişafına təkan verdi. Azərbaycanın dostu və yorulmaz təbliğatçısı olan professor Akira Matsunaqa mədəni əlaqələrin inkişafında çox böyük işlər görmüşdü. Məhz onun rəhbərliyi ilə 1996-cı ildə "Azərbaycan türkcəsinin qrammatikası", 1999-cu ildə isə "Azərbaycan dilini müstəqil öyrənənlər üçün" kitablar, çoxlu sayda məqalələr çap olunmuşdur ki, bu da Azərbaycanın Yaponiyada tanınmasına yardım etmişdir. Bu xidmətlərinə görə, Akira Matsunaqa Azərbaycan Mətbuat İşçiləri Həmkarlar İttifaqı Təşkilatının "Azərbaycan bayrağı" mükafatına layiq görülmüşdür. Yaponiya ilə Azərbaycan arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ilin fevralında Yaponiyaya ilk səfərinin çox böyük tarixi əhəmiyyəti olmuşdur. Həmin görüşlər ərəfəsində Heydər Əliyev Yaponiyada təhsil alan azərbaycanlı gənclərlə görüşmüş, bu sahədə onlara faydalı məsləhətlər vermişdi [3,364].

Yaponiya müasir inkişaf səviyyəsinə daha çox elm və təhsil sahəsində həyata keçirdiyi islahatlar, habelə yeni texnologiyaların yaradılması və tətbiqi nəticəsində gəlib çata bilmişdir. Bu gün dünyada Yaponiyanın elm və təhsil sahəsindəki təcrübəsinin öyrənilməsinə böyük maraq vardır. Bu baxımdan Yaponiya ilə təhsil sahəsində qarşılıqlı əməkdaşlıq Azərbaycan üçün də olduqca əhəmiyyətlidir. Yaponiya beynəlxalq aləmdə təhsilə dəstək proqramları həyata keçirir. Azərbaycan da bu proqramlardan faydalanan dövlətlərdən biridir. 2000-ci ildən etibarən Yaponiyanın təhsilin inkişafına dəstək proqramları Azərbaycanda uğurla həyata keçirilir. Bu vaxtadək Azərbaycanla Yaponiyanın Təhsil Nazirlikləri arasında əməkdaşlığa dair hər hansı müqavilə və ya razılaşma sənədi imzalanmasa da, dövlət başçıları

tərəfindən qəbul edilmiş sənədlərdə elm, təhsil və yeni texnologiyaların tətbiqi ilə əlaqədar məsələlər öz əksini tapmışdı. Yaponiyanın təhsillə bağlı Azərbaycanda həyata keçirdiyi layihələrə-təhsilin inkişafına dəstək üçün yardım layihələrinin həyata keçirilməsi; ümumtəhsil məktəblərinin təmir edilməsi və tikintisi üzrə əməkdaşlıq layihələri; müəllim və tələbə mübadiləsi proqramları; yeni texnologiyaların tətbiqi proqramları və s. daxildir. Təhsilin inkişafına dəstək vermək üçün yardım layihəsi Yaponiya hökumətinin dünyada, o cümlədən ölkəmizdə həyata keçirdiyi "Ot kökləri və insan təhlükəsizliyi" Qrant proqramı hesabına gerçəkləşdirilmişdir. Bu proqramda məktəblərin tikintisi və təmiri ilə bağlı məsələlər daha geniş yer tutur. Qeyd olunan layihənin həyata keçirilməsi üzrə 2000-2008-ci illərdə Bakı şəhərində və Azərbaycan Respublikasının müxtəlif rayonlarında qaçqınlar və məcburi köçkünlər üçün məktəblər inşa olunmuşdu. Layihənin icrasının təhlili göstərir ki, Yaponiya hökuməti daha çox ucqar rayonlarda məktəblərin tikintisinə və təmirinə diqqət yetirmişdir. Belə ki, 2005-ci ilədək icra olunan 40 layihədən yalnız 7-si Bakı şəhərini, ətrafını və Sumqayıt şəhərini əhatə etmişdir. Digər layihələr Azərbaycan Respublikasının Astara, Lənkəran, Lerik, Yardımlı, Qax, İsmayıllı, Şəki, Xaçmaz, Qusar, Zərdab, Beyləqan, Göyçay və s. rayonlarında həyata keçirilmişdir. Rayonlarda bəzi məktəblər təmir olunmuş, avadanlıqlarla təchiz olunmaqla istilik sistemləri yenidən qurulmuşdur.

Bakı Dövlət Universitetində fəaliyyət göstərən Yapon dili mərkəzi öz fəaliyyətini genişləndirərək Yaponiya təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir. Universitetdə həmin ixtisas üzrə təhsil alan tələbələr Yaponiyada kurslarda iştirak etmiş, ölkənin təhsil sistemi və mədəniyyəti ilə də yaxından tanış ola bilmişlər [8,166].

Müəllimlərin və tələbələrin mübadiləsi sahəsində də Azərbaycanla Yaponiya arasında qarşılıqlı əməkdaşlıq proqramı həyata keçirilir. Yaponiya dövlətinin müəyyən etdiyi "Orta məktəb müəllimləri üçün tədris səfəri" proqramı çərçivəsində 2002-ci ildən başlayaraq Bakı şəhərinin ümumtəhsil məktəblərinin nümayəndələri Yaponiyada olmuş, bu ölkənin təhsil sistemi, mədəniyyəti və cəmiyyəti ilə yaxından tanış olmaq imkanı qazanmışlar. Azərbaycanın ayrı-ayrı rayonlarından olan məktəblilər də Yaponiyaya səfər etmişlər. Yaponiyanın İto şəhəri ilə qardaşlaşmış Azərbaycanın İsmayıllı rayonunun şagirdləri 2014-cü ildə Tokioda və ölkənin regionlarında yapon məktəblilərilə görüşmüşlər [8,167]. Azərbaycan müəllimlərinin Yaponiya səfərləri yeni nəsil pedaqoqlarının dünyagörüşünün daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Bundan başqa, ölkəmizdə Yaponiyada ali təhsil almağa marağın artdığı da müşahidə edilir. Bu vaxtadək Azərbaycan ali məktəblərində müsabiqə əsasında seçilmiş onlarla tələbə bakalavr və

“Monbukadakuso” adlandırılan proqram üzrə magistrlar Yaponiya Universitetlərində təhsil almaq imkanı əldə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici ölkələrdə ali təhsil şəbəkəsinin genişləndirilməsi haqqındakı sərəncamına uyğun olaraq 2007-ci ildən başlayaraq bir sıra dünya ölkələrində, o cümlədən Yaponiyada azərbaycanlı tələbələrin geniş miqyasda ali təhsil almaları təmin edilir.

Azərbaycanla Yaponiya arasında mədəni əməkdaşlıq yalnız təhsil sahəsini əhatə etmir. İki ölkə arasında səhiyyə, turizm, idman sahələri üzrə də fəal əlaqələr yaradılır. Azərbaycanda səhiyyə sahəsinin inkişaf etdirilməsində və müasirləşdirilməsində Yaponiya ilə əlaqələrin mühüm rolu vardır. Səhiyyə sahəsində Yaponiyanın Azərbaycandakı səfirliyinin vasitəsi və dəstəyi ilə bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirlərə - səhiyyə sistemində maddi-texniki bazanın möhkəmləndirilməsi; səhiyyə müəssisələrinin yenidən qurulması; yeni texnologiyanın tətbiqi; səhiyyə maarifçiliyinin təşkili və s. daxildir. Bu sahədə də həyata keçirilən tədbirlər əsasən Yaponiya dövlətinin ayırdığı Qrant layihələri hesabına həyata keçirilir. Həmin layihələr əsasında xəstəxanalarda xüsusi laboratoriyaların yaradılması təmin edilmişdir [8,170]. Bütün bunlar Azərbaycanda səhiyyə sisteminin dünya standartlarına yaxınlaşdırılmasında mühüm rol oynamışdı. Yaponiya tərəfindən ayrılmış Qrant layihələrinin bir hissəsi səhiyyə maarifçiliyi sahəsinə yönəldilmişdir. Bu yolla Azərbaycan həkimləri Yaponiyada tibb müəssisələrində stajirovka keçmişlər. Həyata keçirilən səhiyyə maarifçiliyi respublikamızda yeni texnologiyaya bələd olan, elmin son nailiyyətlərinə yiyələnmiş yüksək ixtisaslı tibbi kadrların formalaşdırılması prosesinin daha da sürətləndirilməsinə təkan verir.

Yaponiya dünyada həm də fərqli idman ölkəsi kimi tanınır. Bir çox oyun növlərinin vətəni məhz Yaponiyadır. Buna görə də Yaponiyanın idman ənənələrini öyrənməyə beynəlxalq aləmdə böyük maraq vardır. Digər sahələrdə olduğu kimi, idman sahəsində də Yaponiya daha çox ölkəmizdə idman komplekslərinin yeni avadanlıqlarla, müasir texnologiya ilə təmin olunmasına köməklik göstərməyə üstünlük verir. Yaponiya dövləti ölkəmizdə Şərq yönlü idman növlərinin daha da inkişaf etdirilməsində maraqlıdır. Cüdo, əlbəyaxa döyüş, karate tipli idman oyunları Yaponiyada da geniş yayılmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Yaponiyanın respublikamızdakı səfirliyi arasında 1999-cu ildə bağlanmış müqaviləyə əsasən ölkəmizdə Şərq əlbəyaxa döyüş idman növünün genişləndirilməsinə və inkişaf etdirilməsinə 400 min ABŞ dolları miqdarında maliyyə vəsaiti ayrılmışdır. Cüdo idman növünün banisi Ciqaro Komonun şərəfinə 2008-ci ilin dekabr ayında Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilmiş xatirə turnirində Azərbaycan yığma komandası da iştirak etmiş və

respublikamızı uğurla təmsil etmişdilər [8,175]. Bir sözlə, Yaponiya-Azərbaycan idman əlaqələri ölkəmizdə idmanın daha da inkişaf etdirilməsinə və respublikamızın idman şöhrətinin dünyada təbliğinə uğurla xidmət edir. Turizm, səhiyyə və idman əlaqələri qarşılıqlı olaraq Azərbaycanın da müstəqil bir dövlət kimi Yaponiyada daha yaxından tanıdılmasına xidmət edir.

Azərbaycandakı kitabxanaların inkişaf etdirilməsinə də Yaponiya hökuməti lazımi diqqət yetirmişdir. İlk növbədə Yaponiya hökumətinin dəstəyi ilə 2004-cü ildə M.F.Axundov adına Respublika Kitabxanasının audio-vizual sistemi yenidən qurulmuşdur. Bundan başqa, Yaponiyanın ölkəmizdəki səfirliyi ilə birgə həyata keçirilən Qrant layihəsi əsasında M.F.Axundov adına Respublika Kitabxanasında elektron kataloq sistemi yaradılmışdır ki, bu da öz növbəsində oxucuların kitabxanadan istifadəsini asanlaşdırmış və yaxşılaşdırmışdır. Respublika kitabxanasında elektron kataloqun yaradılması dünyanın ayrı-ayrı ölkələrində bu kitabxananın imkanlarından istifadə üçün müraciətlərin meydana çıxmasına şərait yaratmışdır. Bu isə Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanıdılmasına və təbliğinə meydan açmışdır [8,172].

Həmçinin, yapon mədəniyyəti də Azərbaycanda geniş təbliğ olunur. Bakıda 2007-ci ildə təşkil olunmuş Yapon kuklaları sərgisi bu cəhətdən mühüm əhəmiyyət kəsb etmişdir. Yaponiya hökumətinin bütün dünyada nümayiş etdirdiyi Kukla sərgisi bu ölkənin tarixi-mədəni əlaqələrini təbliğ etmək məqsədini daşıyır. Çünki, Yaponiya ölkənin tarixini, adət və ənənələrini, hətta əfsanələrini özündə əks etdirən zəngin kukla mədəniyyətinə malikdir. Bundan başqa, 2006-cı ildə Yaponiyanın Azərbaycandakı səfirliyinin Bakıda təşkil etdiyi «Ekibano» sərgisində yapon xalqının tarixi ənənələrə malik olan Gül buketi düzəltmə sənəti sahəsindəki nailiyyətləri nümayiş etdirilmişdir. 2007-ci ildə Azərbaycan Respublikası ilə Yaponiya dövləti arasında diplomatik münasibətlərin yaradılmasının 15 illiyi münasibətilə "Azərbaycan-Yaponiya dostluq əlaqələri" adlı poçt markası buraxılmişdir [4, 21].

Bütövlükdə, Azərbaycan-Yaponiya qarşılıqlı əməkdaşlığının inkişaf etdirilməsi mədəniyyətlərarası dialoqun formalaşmasında həlledici faktorlardan birini təşkil edir. Yaponiya ilə əlaqələr mədəniyyətimizin və incəsənətimizin dünyada təbliği işində özünün böyük töhfəsini vermişdir.

**Azərbaycan-Cənubi Koreya mədəni əlaqələri.** Digər Uzaq Şərq ölkələrindən fərqli olaraq Azərbaycanla Cənubi Koreya Respublikası arasında münasibətlər müstəqilliyin bərpasından öncə mövcud olmamışdı. 1992-ci ildə Azərbaycanla Cənubi Koreya Respublikası arasında diplomatik münasibətlər qurulmuş, 2006-cı ilin mart ayında Azərbaycan Respublikasında Cənubi Koreya Respublikasının səfirliyi, 2007-ci ilin martında isə Cənubi Koreya Respublikasında Azərbaycan Respublikasının səfirliyi yaradılmışdır.

Azərbaycan və Cənubi Koreya arasındakı mədəni əlaqələrdə təhsil və mədəniyyət sahəsindəki əməkdaşlıq böyük əhəmiyyətə malikdir. Hazırda ölkədə təhsil alan tələbələr də daxil olmaqla (70-dən çox azərbaycanlı tələbə Cənubi Koreyanın müxtəlif universitetlərində təhsil alır) Cənubi Koreya Respublikasında 90 nəfərə yaxın Azərbaycan vətəndaşı yaşayır. Azərbaycan dili, mədəniyyəti və tarixinin Koreyada öyrənilməsi və bu ölkədə Azərbaycan üzrə mütəxəssislərin hazırlanması məqsədilə 2008-ci ildən etibarən Cənubi Koreya Xarici Dillər Universitetində Azərbaycan dilinin tədrisinə nail olunmuşdur. Hal-hazırda bu universitetdə 24 koreyalı tələbə Azərbaycan dilini öyrənməkdədir. Azərbaycan və Koreya dilləri eyni Ural-Altay dil qrupundan olduğundan, Cənubi Koreyada Azərbaycan dilini və Azərbaycanda Koreya dilini öyrənmək üçün qarşılıqlı maraq vardır. Azərbaycanda Koreya dili 2 universitetdə - Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universitətində öyrədilməkdədir.

2008-ci il yanvarın 24-də isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Cənubi Koreya Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

2009-cu ilin aprel ayında Cənubi Koreyanın ən nüfuzlu tədris ocağı sayılan Seul Milli Universitetinin kitabxanasında Azərbaycan bölməsi yaradılmışdır. Azərbaycanın bu ölkədəki səfirliyinin təşəbbüsü ilə Cənubi Koreyada yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi məqsədilə 2009-cu il martın 21-də Seulda "Buta" Azərbaycan tələbə təşkilatı yaradılmışdır [8,222]. Bu təşkilat Cənubi Koreya Respublikasında təhsil alan azərbaycanlı tələbələrin təşkilatlanmasında, onlar arasında əlaqələrin və həmrəyliyin daha da möhkəmləndirilməsində, Azərbaycan xalqının tarixi, mədəniyyəti ilə bağlı məlumatların Cənubi Koreya ictimaiyyətinə çatdırılmasında çox mühüm rol oynayır.

2011-ci il iyunun 11-də Seul şəhərində Azərbaycan Dövlət İncəsənət Akademiyası və Koreya İncəsənət Universiteti arasında birgə əməkdaşlıq, məlumat və incəsənət xadimlərinin mübadiləsi haqqında Anlaşma Memorandumu imzalanmışdır.

2015-ci il 12-22 may tarixində Azərbaycanın Təhsil Naziri M.Cabbarov Cənubi Koreyaya rəsmi səfər etmiş və Koreya Respublikasının Təhsil naziri və Koreya Dillər Universitetinin rektoru ilə görüşmüşdür, təhsil sahəsində fikir mübadiləsi və müzakirələr aparılmışdır.

**Nəticə.** Bu gün Uzaq Şərq ölkələri dünya siyasətində və beynəlxalq münasibətlərin tənzimlənməsində yaxından iştirak edirlər. Azərbaycan Respublikasının Uzaq Şərq ölkələri ilə siyasi, iqtisadi, mədəni sahədə sıx əlaqələr qurması respublikamızın inkişafı üçün olduqca mühüm əhəmiyyətə

malikdir. Daim başqa xalqların, dövlətlərin mədəniyyətinə və incəsənətinə, dilinə, dininə hörmət və rəğbətini nümayiş etdirən Azərbaycan Respublikasının xarici ölkələrdə mədəniyyət sahəsində siyasəti milli maraqların təmin edilməsinə, xaricdə yaşayan həmvətənlərimizin mədəniyyət sahəsində hüquqlarının müdafiəsinə yönəldilmişdir.

**Ədəbiyyat siyahısı:**


1. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011, 584 s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya səfəri.// "Azərbaycan" qəzeti, 27 fevral 1998-ci il.
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 752 s.
4. Manafova M. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Dərs vəsaiti. Bakı, 2008, 36 s.
5. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2015, 660 s.
6. Qasımov (Qasımlı) M. Azərbaycanın xarici siyasəti. Bakı, "Mütərcim", 1997,80 s.
7. Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003, 112 s.
8. Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı,"Elm və təhsil", 2015, 312 s.
9. Turan A. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri nəticəsində iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoydu".//"Xalq qəzeti", № 108, 2014, 24 may.

# OĞUZ RAYONU DAĞLIQ QARABAĞ MÜHARİBƏSİ İLLƏRİNDƏ

**Məhiyeva Vüsalə Ənvər qızı**
**Tarix fakültəsi, bakalavr, I kurs**
**mehiyeva.vusale@gmail.com**

*XX əsrin sonunda respublikada baş verən siyasi hadisələr və Ermənistanın Azərbaycana ərazi iddiaları bütün xalqı bir məqsəd uğrunda birləşdirdi. Torpaqlarımızın düşmənlərdən müdafiə edilməsində bütün respublika əhalisi kimi Oğuz rayonunun əhalisi də fəal iştirak etmişdi. Məqalədə həmin proseslərdə Oğuz rayonu əhalisinin iştirakı haqqında təsəvvür yaradılır, Ermənistanın Azərbaycana ərazi iddialarına etirazları, rayon batalyonunun fəaliyyəti, şəhidlər və itkin düşənlər, həmçinin müharibə gedən rayonlardan Oğuza pənah gətirən qaçqın və məcburi köçkünlər barədə məlumat verilir. Məqalədə Oğuz rayonu haqqında olan kitablar və dövrün mətbuatında yer almış məqalələrdən istifadə edilmişdir.*

***Açar sözlər:*** *Oğuz, Dağlıq Qarabağ, Milli qəhrəman, Koroğlu Rəhimov, şəhidlər, qaçqın və məcburi köçkünlər*

**Oghuz disrtict in the Nagorno Garabagh war**

*Incidents taking place in the later 20th century and claims of Armenia on Azerbaijani lands made the people unite for a single aim. As the other parts of the republic, the people of Oghuz district also actively participated in the defense of the motherland. The participation of Oghuz people in that events, the claims of Armenians, the activity of district battalion, martyrs and missing people, also the people who came to Oghuz as IDP are described in the article. The books about Oghuz district and articles published in the media of the particular period were used in the article.*

***Key words**: Oghuz, Nagorno Karabakh, Koroghlu Rahimov, martyrs, IDP and refugees*

**Giriş.** Dünyada öz müstəqilliyi uğrunda mübarizə aparan xalqlar sırasında Azərbaycan xalqının adını ön sıralarda görmək təəccüblü hal deyil. Vətənin bütövlüyü uğrunda mübarizə aparan xalqımız bu mübarizələrdə bir olmağı, düşmənə qarşı vahid bir cəbhədə birləşməyi sözün əsil mənasında çox yaxşı bacarmışdı. Lakin xalqımızın birliyini, ərazi bütövlüyünü pozmağa atılan addımlar da az olmamışdır. Bu hadisələrdən biri də 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin Azərbaycan SSR-in Dağlıq Qarabağ muxtar vilayətini Ermənistana birləşdirmək barədə qəbul etdiyi qərar idi. Bununla barışmaq istəməyən xalqımız bu dəfə də düşmənə qarşı vahid cəbhədə birləşməyə başladı. 1988-ci ildə Bakıda başlayan milli azadlıq hərəkatı güclənərkən, Azərbaycanın bütün rayonları kimi, Oğuz

rayonunun əhalisi də azadlıq meydanına atıldı. Həm rayonda mitinqlər keçirilir, həm də Bakıya nümayəndələr gəlirdi (2; 7). Bu proseslər zamanı rayon əhalisi xalqın həmrəyliyi prosesində fəal iştirak edir, respublikada gedən siyasi proseslərə öz münasibətlərini bildirirdi. Rayon əhalisi cəbhə bölgəsinə Vətənin müdafiəsinə yollanır, həmin rayonlardan olan əhalinin bir hissəsi bura pənah gətirir. XIX əsrdən bu rayonda məskunlaşan ermənilər isə buradan köçüb gedirlər.

Məlumdur ki, Oğuz rayonu (1930-1991-ci illərdə Vartaşen adlanırdı) bu region ermənilərin əsas məskunlaşdığı yerlərdən biri olub. Ermənilər, əsasən, şəhərdə yaşayırdılar. Statistik məlumatlara əsasən, XX əsrin 50-80-ci illərində bütün rayonda təqribən 3.000 erməni yaşayırdı. Ermənilərin Dağlıq Qarabağa ərazi iddiaları başladığına və indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulmasına görə, rayonda əhali arasında narazılıqlar başlayır. Rayon hakimiyyəti və əhali Azərbaycan torpaqlarında gəlib məskunlaşmış ermənilərin tarixi Azərbaycan torpaqlarının sakinlərini qovmalarını qəbul edə bilmirlər. Nəticədə, rayonda ermənilərin sayı kəskin azalır və son illərdə bütün rayonda təxminən 5 nəfər erməni qalıb (8).

Əlavə etmək vacibdir ki, ermənilərin rayondan köçürülməsi onların öz siyasətlərinin nəticəsi olmuşdu. Əsrlərdir Oğuz rayonu tolerantlığı, müxtəlif xalqların birgə mehriban yaşadığı rayon kimi tanınır, öz tolerant mühiti ilə seçilir. Bu gün rayonda müxtəlif dinlərin nümayəndələri - yəhudilər, xristianlar, müsəlmanlar, müxtəlif xalqlar-türklər, yəhudilər, ləzgilər, ruslar, udinlər birlikdə yaşayırdılar. Onların abidələri qorunur. Bu xalqların hamısı birlikdə həmrəylik şəraitində yaşayırlar (9, 167-176).

**Rayon əhalisinin Vətənin müdafiəsində iştirakı.** Dağlıq Qarabağ əhalisinin düşmənə qarşı mübarizəsinə Azərbaycanın digər bölgələrindən də könüllü dəstələr qatılmışdı. Belə könüllü dəstələrdə oğuzlu gənclər də iştirak etmişdi. Sovet ordusunda respublikadan kənarda xidmət edən oğuzlu gənclərdən bir çoxu vətənə özbaşına qayıdaraq birbaşa Qarabağ uğrunda savaşa getmişlər. 1992-1994-cü illərdə gedən döyüşlərdə oğuzlu gənclər böyük qəhrəmanlıq və şücaət göstərmiş, igidliklə vuruşmuşdular. Həmin döyüşlərdə 57 nəfər Oğuz igidi şəhidlik zirvəsinə ucalmışdır. Yusif Rzayevin "Bura Oğuzdur" və Pənah Gülxaninin "Oğuz şəhidləri və itkinləri" kitabında itkin düşənlərin sayı 14 və 17 nəfər göstərilmişdir. Lakin bizim dəqiqləşdirmələrimizə əsasən itkin düşənlərin sayı 21 nəfərdir (4; 5; 7). Qarabağ uğrunda döyüşlərdə iştirak edən gənclər sırasında Oğuz batalyonunun komandiri Tofiq Oğuzun adını xüsusilə qeyd etmək lazımdır.

Tofiq Qafar oğlu Rzayev (1945-?) Yaqublu kəndində anadan olub. Ailəsi 1918-ci illərdə Ermənistandan qovulmuş və böyük müsibətlərlə qarşılaşaraq gəlib burada məskunlaşmışdı. Orta məktəbi bitirdikdən sonra

Sumqayıt şəhər Texnologiya Texnikumuna daxil olmuşdur. Gənc yaşlarından idmana böyük həvəsi olmuş, dəfələrlə SSRİ-də keçirilən yarışlara qatılmış və şöhrət qazanmışdır. O, SSRİ idman ustası adına layiq görülmüşdür. Onun yetişdirdiyi idmançılar bir sıra ölkələrdə Sambo üzrə yarışlarda fəxri yerləri tutmuşdular. Eyni zamanda, Tibb İnstitutunda müəllim kimi fəaliyyət göstərmiş, atası rəhmətə gedəndən sonra anası kənddə tək qaldığından 80-ci illərdə doğulduğu kəndə qayıtmışdı. Onu tanıyan hər kəs təmiz qəlbli, sadə, gözəl xasiyyətli bir insan olduğunu qeyd edir. Tofiq Oğuz ata-baba yurdundan qovulanlardan biri olmuş atasının çəkdiyi yurd həsrətini ondan da çox hiss edir, erməni işğalçılarına qarşı olan nifrəti getdikcə artırdı. Elə buna görə də, 1988-ci ildən yüksəlməyə başlayan demokratik hərəkatda yaxından iştirak etmiş, ilk etiraz səsini ucaldanlardan biri olmuşdur (4). Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayanda Tofiq orada baş verən hadisələri izləyir, dəfələrlə döyüş bölgələrinə gedərək vəziyyətlə tanış olmuşdu. O, torpaqlarımızın müstəqilliyi uğrunda düşmənə qarşı mübarizə üçün cəbhəyə yollanmışdı. Fiziki və mənəvi cəhətdən güclü olan Tofiq Oğuz batalyonunun komandiri vəzifəsinədək yüksəlmişdi.

O, Qubadlının Cibikli kəndinin müdafiəsində, sonradan isə Şuşanın müdafiə olunmasında fəallıq göstərmişdi. O zaman onunla birgə Şuşanın müdafiəsində çiyin-çiyinə döyüşən Oğuz batalyonunun hər bir əsgəri yaxşı bilirdi ki, 1992-ci ildə Şuşanın işğalından bir neçə gün əvvəl Tabor komandirliyindən uzaqlaşdırılsa da, Tofiq Oğuz Şuşanın son anına qədər, yaralı olsa belə, əlində silah vuruşub. O, Şuşaya kömək gələcəyi ümidi ilə son ana qədər Şuşanı tərk etməmişdi. Mayın 8-nə qədər Şuşa uğrunda döyüşlərdə çiynindən və başından yara almasına baxmayaraq böyük mərdliklə vuruşub. Onunla son ana qədər vuruşaraq Şuşanın müdafiəsində iştirak edən Qabil Əsədov, Ehtiram Əliyev, Mübariz Rzayev, Polad Poladov, bütün oğuzlu döyüşçülər Tofiq Oğuzu Şuşadan çıxara bilməmişdilər. Çünki o, Şuşanın xəyanətin qurbanı olacağını ağlına belə gətirmirdi. Beləliklə, Tofiq Oğuz Şuşanın müdafiəsində mərdliklə iştirak edərək onu son ana qədər qorumağa çalışmış, lakin sonuncu döyüşlərin birində itkin düşmüşdür. Yoldaşları axırıncı dəfə onu kolxozlararası tikinti idarəsi və Tar sexi ətrafında gedən döyüş zamanı görmüşdülər. O, Şuşanın son döyüşçülərinin sırasında olan bir oğuzlu kimi də yaddaşlarda qaldı. Batalyon komandiri Tofiq Oğuzun harada olduğu bu günə kimi məlum deyil (4; 5; 7).

Koroğlu İsmayıl oğlu Rəhimov (31.09.1953-03.07.1992) rayonun Xaçmaz kəndində anadan olub. Orta məktəbə Yaqublu kəndində getmişdir. 1961-ci ildə ailəsi ilə birlikdə Qərbi Azərbaycanın Zəngibasar mahalının Sarıcalar kəndinə köçmüş, təhsilini burada bitirərək 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. 1972-1974-cü illərdə Almani-

yada hərbi xidmət keçimişdir. Milli Ordu sıralarına yazılaraq, 1992-ci il 30 aprelində bölük komandiri kimi cəbhəyə yollanmış, döyüş yoluna başlamışdır. Onun komandanlıq etdiyi dəstə Buzlaq, Çartaz, Erkəç kəndlərinin azad edilməsində böyük qəhrəmanlıqlar göstərmişdir: 15 erməni yaraqlısını məhv edərək, xeyli silah və sursat ələ keçirmişdilər. Mənşəli, Başkənd, Madagiz, Gülüstan kəndlərini erməni işğalçılarından azad etmişdilər. Koroğlu Rəhimov Goranboy və Ağdərədə gedən qanlı döyüşlərin də iştirakşısı olmuş və 1992-ci ildə məhz elə Ağdərədə döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur (5; 6; 7).

Döyüşçü yoldaşlarının, tanışlarının yaddaşında qəhrəman döyüşçü kimi qalan Koroğlu Rəhimov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixli, 203 nömrəli fərmanına əsasən, vətənimizin bütövlüyü uğrunda öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür (1). Bakıda küçələrdən birinə Koroğlu Rəhimovun adı verilmiş və büstü qoyulmuşdur.

Oğuz camaatı da Koroğlu Rəhimovun bu xidmətlərini yüksək qiymətləndirmişdir. Oğuz rayonun Xaçmaz kəndindəki 3N-li körpələr evi-uşaq baxçası, Oğuz şəhərindəki küçələrdən biri qəhrəmanın adını daşıyır. Koroğlu Rəhimov nəinki ailəsinin, həmçinin, Oğuz camaatının, bütün Azərbaycan xalqının qəhrəmanlıq tarixində şərəfli iz buraxan bir döyüşçü kimi qalmışdır.

**Qaçqın və məcburi köçkünlər.** Bu müharibə minlərlə soydaşımızın öz doğma yurdlarından didərgin düşməsinə səbəb oldu. Çarəsiz insanlar müxtəlif bölgələrə üz tutaraq özlərinə məskən tapdılar. Belə bölgələrdən biri də Oğuz rayonunun ərazisi oldu. Müharibə gedən rayonlardan Oğuza 3.470 nəfərdən ibarət 759 qaçqın ailəsi və 2.270 nəfərdən ibarət olan 703 məcburi köçkün ailəsi pənah gətirmişdi. Onlardan 1.092 nəfəri Kəlbəcərdən, 519 nəfəri Ağdamdan, 478 nəfəri Laçından, 376 nəfəri Xocalıdan, 157 nəfəri Şuşadan, 48 nəfəri Ağdərədən, 46 nəfəri Cəbrayıldan, 12 nəfəri Füzulidən, 11 nəfəri Xocavənddən olmuşdur (4; 8).

Qaçqın və məcburi köçkünlər əvvəllcə məktəb binalarında, boş qalmış evlərdə, çadırlarda yerləşdirilmişdir. Hazırda qaçqın və məcburi köçkün ailələri Oğuz rayonunun Xaçmaz, Yaqublu, Bayan, Calut, Daşüz kəndlərində yaşayırlar. Ümumilikdə isə, Oğuzun bütün kəndlərində, eləcə də, Oğuz şəhərinin özündə belə ailələr yaşayır (3; 4).

Oğuz əhalisi onlara hərtərəfli dəstək olmaqla yanaşı, vətənimizin bütövlüyünün qorunması, işğal olunan torpaqların geri qaytarılmasında yaxından iştirak etməyə hazır olduqlarını bildirirlər.

**Nəticə.** Müharibələr, inqilablar, hərbi münaqişələr nəticəsində Azərbaycan parçalanmaya, azərbaycanlıların bir qismi mühacirət etməyə və deportasiya-

lara məruz qalsalar da, bir-birindən ayrı düşsələr də, həmişə həmrəy olmalıdırlar. 1989-cu ildə SSRİ-İran arasında Şimali və Cənubi Azərbaycan sərhəd dirəkləri dağıdıldı bu illərdə Dünya azərbaycanlılarının həmrəylik gününün əsası qoyuldu. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin əhəmiyyəti və vətən naminə görüləcək işləri daha da artdı. Həmin gündən etibarən Azərbaycan xalqı daha da sıx birləşməyə başladı.

Qarabağ müharibəsi vaxtı Oğuz rayonunun əhalisinin müharibə bölgəsinin əhalisi ilə həmrəyliyi, onlara köməyi bu həmrəyliyin, birliyin kiçik bir nümunəsidir. Ehtiyacda olan bacı-qardaşlarımıza əlimizdən gələn hər bir kömək etməyimiz vacibdir. Mən bu həmrəyliyimizin möhkəm bağlarının heç bir vaxt ayrılmamasını, əksinə daha da sıx birləşməsini arzu edirəm. Həmişə bölünməz Azərbaycan, həmrəy bir xalq olaraq qalaq.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://e-qanun.az /framework/9018.
2. Xalq qəzeti. Bakı, 25 Oktyabr 2012, 240 (27170).
3. İnformator Əzizov Zaur Xanlar oğlu. 24.12.1979. Xaçmaz kənd sakini. Məktəb müəllimi.
4. İsmayılov İ. Oğuz rayonunun şəhidləri və veteranları. Bakı, 2000. 67 s.
5. Quliyev F.. Milli qəhrəmanlar. // "Məktəb" qəzeti, №39 (304), 20 oktyabr 2014-cü il.
6. Milli Qəhrəman Koroğlu Rəhimov // http://sia.az/az/news/social/552537-milli-qehreman-korolu-rehimov-anim-gunudur; http://karabakhinfo.com/20027
7. Pənah Gülxani. Oğuz şəhidləri, itginləri. Bakı, "Mütərcim" nəşriyyatı, 1999, 295 s.
8. Rzayev Y..Bura Oğuzdur: Oğuz rayonu haqqında məlumat-informasiya kitabı. Mingəçevir, 2004. - 155 s.
9. Quliyeva S.Z.. Vartaşen (Oğuz) rayonunun əhalisinin milli tərkibi (1930-1999-cu illər) // BDU-nun Xəbərləri,humanitar elmlər seriyası, Bakı, Bakı Universitetinin nəşriyyatı, № 2, 2014. s.167-176.

# AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİLƏRİNİN ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞALI, QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMİ

**Muradova Nərmin Mustafa qızı**
**Tarix fakültəsi, bakalavr, I kurs**
**nemiska.444@gmail. com**

*Bu məqalədə ermənilər tərəfindən işgal edilmiş Azərbaycan ərazilərində təbii sərvətlərin, tarixi və mədəni abidələrin dağıdılmasından, öz vətənindən didərgin düşmüş azərbaycanlıların qarşılaşdığı çətinliklər və problemlərdən ,beynəlxalq təşkilatların problemlə bağlı mövqeyindən bəhs edilir.*
***Açar sözlər**: Ermənistan, Azərbaycan, işğal olunmuş ərazilər, münaqişə, qaçqın, məcburi köçkün*

***Occupation The Azerbaijan Territories By Armenia And Problem Of The Refugees And Forced Migrants***

*This article deals with the Armenian vandalism against natural resourses, historical and cultural monuments in the occupaid territories of Azerbaijan, position of international organization about this problem and the problems difficulties of internally displaced Azerbaijanis.*
***Key words:** Armenia, Azerbaijan, invaded areas, conflict, refugee, forced migrants*

Erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq arzusu, ermənilərin Azərbaycana qarşı torpaq iddiası tarixin bütün dövrlərində böyük münaqişələrə səbəb olmuşdur. Öz mənfur niyyətlərini həyata keçirmək üçün XX əsrin 80-ci illərində ermənilərin daha da fəallaşması heç də təsadüfi deyildi. Belə ki, həmin dövrdə Sovetlər birliyinə rəhbərlik edən M.Qorbaçovun siyasətində ermənilərə qarşı "xüsusi imtiyazlar" onlara planlarını həyata keçirmək üçün yeni imkanlar açırdı. Qeyri sakit və sabit olmayan münasibətlər erməni yazarlarının fikrincə ermənilərin daim ziyanına olubdur. Bununla əlaqədar məşhur erməni tarixçisi, tanınmış din xadimi 1899-cu ildə Kişinyov şəhərində çap edilmiş. "XIX əsrə qədər erməni kilsəsinin tarixi" kitabında Aleksandr Anninskiy yazmışdır: "Ermənilər daim öz vəziyyətlərini "pisləşdirmək bacarığına" görə fərqlənirlər və hər zaman bu qabiliyyətlərinə sadiqdirlər..." [5, səh.6]. "Kürəkçay" müqaviləsinin (1805-ci il) ardınca Rusiya ilə Qacarlar İranı arasında bağlanan "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqaviləsindən sonra Rusiya dövləti qısa müddətdə (1828-1830-cu illərdə) İrandan 40 min və Türkiyədən 90 min ermənini Qarabağa köçürdü və məskunlaşdırdı. Çar Rusiyası Qarabağda erməniləşdirmə

prossesinə başladı [3, səh. 5]. Tarixi faktlar bir daha sübut edir ki, ermənilərin Qarabağda məskunlaşması məhz bu dövrə təsadüf edir və elə bu dövrdən də Azərbaycanın Qarabağ bölgəsində ermənilərin torpaq iddiası ilə bağlı münaqişələri başlayıb. Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20%-i işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuşlar. İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfati, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1992-ci ilin yanvarında Rusiya Federasiyasının prezidenti Boris Yeltsin və ABŞ prezidenti Corc Buş birgə bəyanat verdilər. Bəyanatda hər 2 dövlət başçısının Qarabağ bölgəsində yaranmış vəziyyətdən ciddi narahat olduğu bildirilirdi. Orada deyilir: “Biz münaqişənin davam etməsini və kəskinləşməsini, yaşayış məntəqələrinin amansızcasına atəşə tutulmasını və bombardman edilməsini, qaçqınların sayının artmasını, girov götürülməsini və əsirlərlə vəhşicəsinə rəftar da daxil olmaqla beynəlxalq humanitar hüququn pozulmasını narahatlıqla qeyd edirik. Bu əməllər sivil dövlərlər, BMT və beynəlxalq humanitar qurumlar tərəfindən diqqət yetirilməsini və pislənməsini tələb edir”. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul edib [2, səh.247]. Lakin erməni işğalçıları bu qətnamələrin tələblərini yerinə yetirməyiblər. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən, müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlara hörmətlə davranılmalıdır. “Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair” IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən, mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, onlarla qəddar davranış, işgəncə verilməsi, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Həmin konvensiyanın 33-cü maddəsində qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Həmin konvensiyanın 34-cü maddəsinə görə, mülki əhalinin girov götürülməsi də qadağandır. Erməni təcavüzünün ən böyük vəhşiliklərindən biri də dinc əhaliyə, xüsusilə qadınlara, uşaqlara, qocalara qarşı amansız münasibətləri olmuşdur. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan materiallar sübut edir ki, erməni tərəfi “Müharibə qurbanlarının müdafiəsinə dair” 1949-cu il tarixli Cenevrə Konvensiyalarını, onların insan haqları ilə əlaqədar tələblərini kobud surətdə pozur, Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeridirdi [2, səh.318].

1989-1994-cü illərdə erməni separatçıları və terrorçuları tərəfindən Azərbaycan ərazisində 373 terror aktı törədilmiş, nəticədə 1.568 nəfər ölmüş, 1.808 nəfər yaralanmışdı. Azərbaycan Respublikası, eləcə də xarici ölkələrin məhkəmələri tərəfindən prosessual qaydada sübuta yetirilmişdir ki, həmin terror aktlarının 32-si Ermənistan Respublikasının xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərdən istifadə edilməklə, cəbhə xəttindən yüz kilometrlərlə aralıda yerləşən yaşayış məntəqələrində həyata keçirilmişdir. Fransada terror aktı törətdiyinə görə həbs edilmiş ABŞ vətəndaşı, tanınmış beynəlxalq terrorçu Monte Melkonyan azad olunduqdan sonra 1990-cı ildə Ermənistandan Dağlıq Qarabağa göndərilərək azərbaycanlıları öz torpaqlarından məcburi köçkün vəziyyətinə salmış terrorçu qruplara rəhbərlik etmişdi. İşğal olunmuş ərazilər heç bir dövlətin, beynəlxalq təşkilatın nəzarətində olmayan özünəməxsus kriminal mənbəyinə çevrilmişdir. ABŞ Dövlət Departamentinin 2001-ci ilin martında açıqlanmış hesabatında işğal edilmiş Azərbaycan ərazilərindən narkotik vasitələrin kütləvi şəkildə daşınması üçün istifadə olunduğu bildirilirdi Azərbaycanın işğal olunmuş sərhədyanı ərazilərində çətənək kollarının yetişdirilməsi faktı Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə məruzəsində öz əksini tapıb. Azərbaycanın işğal olunmuş ərazilərində evlərin, qəbirlərin, mədəniyyət abidələrinin dağıdılması, dəmir məmulatların və s. yüklərin digər ölkələrə daşınması barədə mütəmadi məlumatlar daxil olmaqdadır. İşğal edilmiş ərazilərdə meşələrin qırılması və məhv edilməsi hesabına Ermənistanda ağac emalı sənayesi inkişaf edir. İşğal edilmiş regionun faunasına da əvəzolunmaz zərər vurulur. Qeyd etmək lazımdır ki, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərinə yaxın olan rayonlarının su təminatı və suvarma sistemi də pozulmuşdur. Bu isə torpağın və bitki qatının vəziyyətinə mənfi təsir göstərirdi. Azərbaycan ərazisində axan transsərhəd çaylar Ermənistan tərəfindən qəsdən zəhərləyici maddələrlə çirkləndirilir. Bu çaylar arasında Araz, Ağstafa və s. çayların adlarını çəkmək olar.

Son zamanlar ermənilər qədim Azərbaycan musiqi alətlərini öz adlarına çıxararaq Avropa, MDB, Şimali Amerika ölkələrinə satması halları çoxalmışdır. Azərbaycanın işğal edilmiş ərazilərindən külli miqdarda çıxarılmış tarixi, mədəni və s. sərvətlərini ermənilər xarici ölkələrə satmışdılar.

Didərgin, qaçqın, məcburi köçkün, zorla qovulma anlayışlarına rast gələn kimi son yüzillikdə qərinələr boyu yerli əhali olan azərbaycanlıların Ermənistanda dəfələrlə başına gətirilən fəlakətləri, faciələri, onların dərdini, ağrısını içərisində qaynadan, alovlanan hislər kimi qavrayırsan. Qeyd edilənlərlə yanaşı, Ermənistanın işğal etdiyi ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş və bu əraziləri monoetnik zonaya

çevirmişdir. İşğal edilmiş ərazilərdən yerli azərbaycanlı əhali çıxarılaraq məcburi köçkünə çevrilmişlər. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti işğal edildikdən sonra azərbaycanlı əhali zorla öz vətənlərindən qovulmuş, bundan sonra isə eyni hadisələr Azərbaycanın digər 7 rayonunda da təkrarlanmışdır. Ermənistanın işğal etdiyi rayonlardan olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onların arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. Qaçqın və məcburi köçkünlərin problemlərindən biri də onların işlə, evlə təmin olunması ilə bağlı olan çətinliklərdir. İlk illərdə məcburi köçkünlər lazımi şəraiti olmayan çadır şəhərciklərində, məktəblərdə, yataqxanalarda, uşaq bağçalarında, yarımçıq qalmış tikililərdə, yük vaqonlarında müvəqqəti yerləşmişdilər. Qaçqın və məcburi köçkünlərin yaşayıs səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edir və göstərilən sahədə lazımi nəticəyə nail olunması üçün Azərbaycanın kifayət qədər böyük iqtisadi imkanları vardır [6, səh.3]. Məhz bu məqam ölkəmizin öz iqtisadi qüdrətini nümayiş etdirən əsas göstəricilərdən biri hesab olunur. Çünki qaçqın və məcburi köçkünlərin həyat şəraitinin daim yaxşılaşdırılması, onların dövlət hesabına yaşayış evləri ilə təmin olunması, bütün kommunal xərclərin dövlət tərəfindən ödənilməsi, məcburi köçkün statusu daşıyanlara hər ay çörək pulu verilməsi, ödənişli təhsildən azad edilməsi, bu kimi digər məsələlər böyük vəsaitlər, yaranan başqa problemlərin rasional həllini tələb edirdi. Doğma ocaqlarından didərgin salınmış bir milyonadək qaçqın və məcburi köçkün soydaşımızın üzləşdikləri problemləri dövlət tərəfindən uğurla həll edilir və bu kateqoriyadan olan insanlar tezliklə öz ata-baba torpaqlarına qayıdacaqlarına inam yaradırlar. O da danılmaz faktdır ki, qaçqın və məcburi köçkünlər dövlətin onlara qayğısını məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra hiss etməyə başlayıblar: “İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın və məcburi köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir” deyən Heydər Əliyev daim bu insanlarla şəxsən görüşür, onların problemləri ilə yaxından maraqlanır və belə problemlərin həlli istiqamətində müvafiq tapşırıqlar verirdi. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) Azərbaycanın üzləşdiyi bu humanitar fəlakətin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində də uğurlu nailiyyətlərə imza atdi. Bununla baglı görülən işlər sayəsində 1993-2004-cü illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar və inkişaf təşkilatları tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərildi. Azərbaycan ərazilərindəki maddi-mədəniyyət abidələrinin yerlə yeksan

edilməsini təsdiqləyən faktlar da bir daha göstərir ki, düşmən çox məkrli, dəhşətli, qorxunc və iyrənc siyasətlə tariximizi saxtalaşdırmaq yolu seçmişdir. İşğal altında qalan rayonların ərazilərindəki maddi-mədəniyyət abidələrinə göstərdikləri qeyri-insani münasibət bir daha bunu təsdiqləyir. Azərbaycan dövləti Qarabağ münaqişəsini beynəlxalq hüquq normalarına uyğun həll etmək istəyir. Ancaq ermənilərin qeyri-səmimi və qeyri-sivil siyasəti münaqişənin sülh yolu ilə həllini ləngidir. Dünya ictimaiyyəti də buna şahiddir. Dünya ictimaiyyəti tezliklə işğalın aradan qaldırılması, qaçqın və məcburi köçkünlərin öz vətənlərinə qaytarılması və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməsi istiqamətində praktiki səylərini artırmalı, ikili standartlara son qoymalıdır. Azərbaycanlılara qarşı müxtəlif mərhələlərdə törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək bizim mühüm vəzifəmiz olmalıdır. Torpaqlarımız nəyin bahasına olursa-olsun azad ediləcəkdir. Görkəmli dövlət xadimi Heydər Əliyev demişdir: “Azərbaycan Respublikası öz torpaqlarını qorumaq üçün böyük potensiala malikdir. Onun ən böyük potensialı-bizim vətəndaşların öz Vətənlərinə olan sədaqəti və məhəbbətidir. Bu hisslər xalqımızın tarixi qəhrəmanlıq ənənələri ilə doğulmuşdur...”. Azərbaycanın bütün sahələrdə dinamik inkişafı, dünya ölkələri arasında günü-gündən artan nüfuzu bizə bunu deməyə haqq verir. Erməni daşnaqları növratımızı pozdusa da, varlığımıza xələl gətirə bilmədi.

**Ədəbiyyat siyahısı:**

1. Elxan Süleymanov,Vurğun Süleymanov. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalı nəticələri. Bakı, 2012 , 181 s.
2. Əli Həsənov. Azərbaycanlıların soyqrımı: Tarixin qanlı salnaməsi. I cild. Bakı, 2012
3. İlham Xudiyev. Erməni təcavüzünün Qarabağ ünvanı. Bakı, MSA , 2013, 160 s.
4. İsmayıl Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, 2012,192 s.
5. Maksim Musayev. Ermənilər Amerikada. Bakı, “Nurlar”2012, 127 s.
6. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi. http://www.refugees-idps-committee.gov.az/
7.Taleh Cəfərov. Qondarma Erməni Soyqrımı faktların dili ilə. Bakı, Kitab aləmi” Nəşriyyat-Poliqrafiya Birliyi” 2013, 235 s.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ƏLİFBA İSLAHATI

**Nəbiyeva Səidə Vahid qızı**
**Tarix fakültəsi, əməkdaş**
**nabiyeva.22@mail.ru**

*Məqalədə mövzu ilə əlaqədar çap olunmuş monoqrafiyalardan, elektron internet resurslarından istifadə edilməklə müstəqillik dövründə əlifba islahatı ilə bağlı həyata keçirilən məsələlərə toxunulmuş, qəbul edilən fərman və sərəncamlar ətraflı şəkildə şərh edilmişdir.*
***Açar sözlər**: əski əlifba, latın qrafikası,Azərbaycan əlifbası,müstəqillik*

***Alphabet reform during independence years***

*This article is devoted to the alphabet reform based on the published monographs and electronic internet resources releated the issue. Alphabet reform and accepted ordinance during the independence years were considered in the paper.*
***Key words:**the old alphabet,latin graphic,Azerbaijan alphabet,independence*

Əlifba hər bir xalqın milli mədəniyyətinin tərkib hissəsi olub, onun milli-mənəvi sərvətidir. Tarixin müxtəlif dövrlərində Azərbaycan əlifbası dəfələrlə dəyişdirilməyə məruz qalmışdır. XIX əsrin ortalarından başlayaraq Rusiya və Avropada elmin inkişafı Azərbaycanda əlifba məsələsini gündəmə gətirmiş, əhalinin savadlanmasında və maariflənməsində ciddi əngəllər törətdiyi fikri irəli sürülmüşdür. Bu məsələdə ilk təşəbbüs görkəmli maarifçi M.F.Axundzadəyə məxsusdur. O, əlifbanın islah edilməsi yolunda on ildən artıq ciddi mübarizə aparsa da, buna nail ola bilməmişdir. Məlum olduğu kimi, 1929-cu ilə kimi Azərbaycanda yazı ərəb qrafikası ilə aparılmışdır. Bu əlifba dilimizin fonetik quruluşuna yad olduğu üçün orfoqrafiyamızda maneələr törətmişdir (1,s.24). XX əsrin əvvəllərində daha dəqiq desək, 1906-1907-ci illərdə Bakıda keçirilən Müəllimlər Qurultaylarında, 1926-cı ildə I Bakı Türkoloji Qurultayında əlifba məsələsinin islahı barədə məruzələr dinlənilmiş,qətnamələr qəbul edilmişdir (2,s18). I Oktyabr inqilabından sonrakı dövrdə bu məsələ ilə əlaqədar canlanma daha çox müşahidə edilirdi.Əski əlifbanın dəyişdirilməsi prosesi 1922-ci ildən başlamış 1929-cu ildə latın qrafikalı əlifbaya keçilməsi ilə başa çatmışdır. 1939-1991-ci illərdə yazı işlərində kiril qrafikalı əlifba tətbiq edilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı (5, s.11). Yeni əlifba müstəqil Azərbaycan dövlətinin mühüm atributlarından biridir.Latın




qrafikalı əlifba xalqı bir daha öz keçmişinə qaytardı. Ötən əsrdə aparılan əlifba dəyişiklikləri xalqın iradəsindən aslı olmayaraq həyata keçirilmişdi. 1991-ci ildən 2001-ci illədək olan dövrü Azərbaycanda latın qrafikalı əlifbadan istifadənin pərakəndə dövrü adlandırmaq olar. Çünki bu dövr ərzində respublikada latın qrafikalı Azərbaycan əlifbasından tam və məcburi şəkildə istifadə olunmamış, həm kiril, həm də yeni əlifba tətbiq edilmişdir.

Bu müddət latın qrafikalı əlifbaya keçid üçün həm də hazırlıq mərhələsi olub. Bu mərhələdə orta məktəblərin, liseylərin və digər ümumtəhsil məktəblərinin işini müsbət qiymətləndirmək olar. Məktəblilər və pedaqoji kollektiv çox böyük həvəslə latın qrafikalı Azərbaycan əlifbasını öyrənmiş, məktəb pedaqoji sahədə sənədləşmə işləri həmin əlifba ilə aparılmışdır. Təlim-tərbiyə işçiləri 10 il müddətində latın qrafikalı əlifbadan istifadə etməklə pedaqoji mühiti sağlamlaşdırmışlar. Bir sözlə, pedaqoji arenada latın qrafikasına keçid öz müsbət təsirlərini göstərirdi.

25 dekabr 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi haqqında qanun imzalanmışdır:

1. "Azərbaycan əlifbasının latından rus əlifbasına keçirilməsi haqqında" 11 iyul 1939-cu il tarixli Azərbaycan SSR-in Qanunu bu gündən qüvvədən düşmüş hesab edilsin.

2. 1940-cı ilə qədər Azərbaycanda istifadə edilən 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbası kiçik dəyişikliklərlə bərpa olunsun.

Latın qrafikalı Azərbaycan əlifbasının bərpası aşağıdakı mərhələlərlə həyata keçirilməli idi:

1992-ci ildə:

Sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslər yeni əlifba ilə keçirilsin.

Orta məktəblərin yuxarı siniflərində, texniki-peşə, orta ixtisas və ali

məktəblərdə latın qrafikalı əlifbanı öyrədən fakültativ məşğələlər təşkil edilsin.

Bütün təhsil ocaqlarında müəllimlərin və digər işçilərin latın qrafikalı əlifbanı öyrənməsi üçün lektoriyalar yaradılsın.

Bütün makinaçıların, korrektorların, mətbəə işçilərinin, qəzet-jurnal, nəşriyyat əməkdaşlarının latın qrafikalı əlifbaya yiyələnməsini təmin edən tədbirlər həyata keçirilsin.

Respublika qəzet və jurnalları rus əlifbası ilə paralel, həm də latın qrafikalı əlifbadan istifadə etsinlər.

Poliqrafiya avadanlıqları hazırlayan müəssisələrlə müqavilələr bağlanılması, avadanlıqların alınması və quraşdırılması təmin edilsin.

Kitab, qəzet mətbəələrində, habelə nazirliklərin, idarələrin, institutların və sair təşkilatların poliqrafiya sahələrində şrift təsərrüfatı tədricən yenidən qurulsun.

Möhür, ştamp və blank şəxslərinin yenidən qurulması və bütün təşkilatların möhürlərinin, blanklarının dəyişdirilməsinə başlansın.

Xəritələr yenidən çap edilsin, şəhər, kənd, qəsəbə, küçə adlarının lövhələri, vəsiqələr, VVAQ, notariat, statistika, uçot-hesabat sənədlərinin yenidən hazırlanmasına başlanılsın.

Respublika televiziyası ilə latın qrafikalı əlifbanı təbliğ edən və öyrədən lektoriyalar təşkil edilsin. Verilişlərin adları, titrlər, alanlar Yeni əlifba ilə də verilsin.

Latın qrafikalı əlifbanı öyrənmək istəyənlər üçün ictimai əsaslarla işləyən kurslar açılsın.

Mədəniyyət ocaqlarında latın qrafikalı əlifbanın tətbiqi həyata keçirilsin.

Elmi-tədqiqat institutları tədricən latın qrafikalı əlifbaya keçsin.

Azərbaycan dilinin orfoqrafiya lüğəti hazırlanıb latın qrafikalı əlifbada çap olunsun.

Yaşayış məntəqələrində latın qrafikalı əlifbanın öyrədilməsi və təbliği ilə məşğul olan mərkəzlər yaradılsın.

Küçə adlarının, vitrin və reklamların, idarə və müəssisə adlarının tədricən latın qrafikalın əlifba ilə yazılması təmin edilsin.

1993-cü ildə:

Orta, orta ixtisas və ali məktəb dərslikləri latın qrafikalı əlifba ilə çap edilsin.

Orta məktəblərin ibtidai siniflərində latın qrafikalı əlifbanın öyrənilməsinə başlansın.

Təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın tətbiqi başa çatdırılsın.

Mətbəələrin işinin latın qrafikalı əlifbaya uyğunlaşdırmaq üçün kom-

pleks tədbirlər görülsün; materiallar dəyişdirilsin, fotoyığım və digər bilgisayar (kompüter) sistemi, sətirtökən maşınlar, kitab və qəzet mətbəələrinin texniki vasitələrinin yeni əlifbaya uyğunlaşdırılması başa çatdırılsın.

Respublikanın bütün qəzet və jurnallarının, bədii elmi-texniki, ictimai-siyasi və sair kitabların, topluların latın qrafikalı əlifba ilə çapı təmin edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün lazımi təşkilati tədbirlər görsün.

2001-ci il 18 iyunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır.Fərmanda qeyd olunurdu ki, tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili Qanunları əsasında inkişaf edirsə də onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolunda geniş üfüqlər açıldı. 9 avqust 2001-ci il tarixdə isə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır. Fərmana əsasən hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilməsi qərara alınıb. Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Müstəqil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur (4, s.8).

Latın qrafikalı yeni Azərbaycan əlifbasının həyata keçirilməsi xalqımızın ümumi mədəni inkişafına və ölkəmizin dünya birliyinə mədəni inteqrasiyasına yardımçı oldu. Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunə 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunur;əsərlərin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin sanballı əsərləri latın qrafikasında yenidən nəşr edilərək gənc nəslə çatdırılması ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşdi. Dövlət başçısının

"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan artıq kitab nəşr edilərək kitabxanalara göndərildi, oxucuların ixtiyarına verildi. övlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, - Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2005-2008-ci illərdə latın qrafikası ilə yenidən çapı nəzərdə tutulan əsərlərin siyahısını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikasının Nazirlər Kabineti və respublikanın maliyyə qurumları ilə birlikdə müvafiq plan-qrafik tərtib edib latın qrafikası ilə yenidən nəşr olunması nəzərdə tutulan kitabların çapını təmin etsin; Azərbaycan Respublikasının aidiyyatı qurumları ilə birlikdə yenidən çapı nəzərdə tutulan kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitələri ilə yayılmasını, latın qrafikasında Azərbaycan ədəbiyyatının virtual kitabxanasının yaradılmasını təmin etsin.

Bu nəşrlər sayəsində gənc nəslin latın qrafikası ilə çap olunmuş bədii və elmi ədəbiyyata ehtiyacının ödənilməsi istiqamətində mühüm addım atılmış oldu. Sonrakı sərəncamlarda isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fonduna daxil edilərək onu zənginləşdirdi. Dövlət müstəqilliyini qazandıqdan sonra dilimizin tətbiqi işinin təkmilləşdirilməsi ilə bağlı hər il dövlət hesabına latın

qrafikasında çap olunması vacib hesab edilən ictimai əhəmiyyətli kitabların siyahısı müəyyənləşdirilir və dərc edilir. Dünya ədəbiyyatından tərcümə olunan nümunələr arasında klassik, müasir, Nobel mükafatçıları olan müəlliflərlə yanaşı, dünya antologiyasından toplular da nəzərdə tutulub. Toplunun çapa hazırlanmasında elmi-yaradıcı işlərin görülməsi, əsərlərin tərcüməsi də nəzərdə tutulub.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncamdır.Sərəncamda qeyd olunur ki, 2004-cü ilin sonuna qədər ensiklopediyanın "Azərbaycan Respublikası" adlanan birinci cildinin hazırlanıb latın qrafikasında nəşr olunması, onun mətninin elektron daşıyıcıları və internet vasitələri ilə yayılması təmin edilsin.

Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı. Dövlət başçısı milli xüsusiyyətlərimizin saxlanılmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çatdıraraq qeyd etmişdir ki: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

**Ədəbiyyat siyahısı:**

1. Ağazadə F .”Nə üçün ərəb hərfləri türk dilinə yaramır”.Bakı,1992
2. Ağazadə F .,Məhəmmədzadə C.”Yeni türk əlifbası”.Bakı,1926,87s.
3. Qəhrəmanlı N.”Köhnə-yeni əlifba: Azərbaycan əlifbasında dəyişmələr”. Bakı,”Yurd”, 2002,s.121
4. Rzalı R.”Əlifba islahatı latın qrafikalı nəşrləri kütləviləşdirdi”. ”Azərbaycan qəzeti”, 2013.il 19 fevral
5. Salmanlı R.”Dövlət dilinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli fərman Azərbaycan dilinin inkişafında mühüm rol oynamışdır. ”Azərbaycan qəzeti”,2016-cı il 18 iyun

# VI BÖLMƏ. ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

## XIX ƏSRİN SONU–XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI ŞƏHƏR MEMARLARI

**Babayeva Həbibə Marif qızı**
**Tarix fakültəsi, bakalavr, II kurs**
**babayeva.hebibe@mail.ru**

*Məqalənin yazılmasında məqsəd Bakı şəhərində yerləşən tikililər, bu gözəlliklərin kimlər tərəfindən düşünülüb ərsəyə gəlməsi haqqında gənc nəsli maarifləndirməkdən ibarətdir. Həmin dövrün məşhur memar və mühəndisləri, eləcə də bu binaların tikilməsində əməyi keçən xeyriyyəçilərdən bəhs olunur. Bu dövrdə Bakı şəhərində işləyən memarlardan Z.Əhmədbəyov, İ.V.Qoslavski, İ.K.Ploşko və başqalarının layihələri əsasında inşa etdikləri memarlıq nümunələri qeyd olunur.*
***Açar sözlər:*** *Bakı şəhəri, xeyriyyəçilər, Azərbaycan memarlığı, İsmailiyyə*

**_Baku city architects in the late XIX - early XX century_**

*The aim of article is to give information about the constructions of Baku and about those, who were thought and built these beauties. It devoted to the well-known architecrs, engineers of that time and philantropists, who financed these buildings.*

*During this period Z. Ahmedbeyov, I.V. Qoslavski, I.K. Ploshko and others who worked in the building are noted for their architectural samples.*
***Keywords:*** *Baku city, philanthropists, Azerbaijanian architecht, İsmayillya*

Bütün tarixi dövrlər boyu Bakı şəhəri öz sərvətləri və gözəlliyi ilə digər dövlətlərin diqqət mərkəzində olmuşdur. Məhz elə bu səbəbdən də müasir dövrümüzdə Bakı şəhərinin əvəzolunmaz, əsrarəngiz qədim tikililəri xarici vətəndaşların bura olan marağını daha da artırmışdı. Bu tikililəri kimlər yaradıb? Bu sualın cavabı əminəm ki, çoxlarına maraqlıdır.

Bakı şəhərinin formalaşmağa başladığı ilk günlərdən onun gözəlliyi üçün bir çox memarlar burada fəaliyyət göstərmişdir. Mövzunu işləyəndə biz olduqca maraqlı faktlarla rastlaşdıq, yeni məlumatlar əldə etdik və ən əsası adi günlərdə yanından ötüb keçdiyimiz bir çox tikililərə artıq bir başqa gözlə baxmağa başladıq. Bu tikililərin əksəriyyətinin cox mürəkkəb quruluşa malik olduğunun şahidi olduq. Eyni zamanda bu tikililərdə istifadə olunmuş Şərq və Avropa üslublarının biri-birindən çox fərqli, lakin ümumi baxanda necə möhtəşəm bir görünüş yaratdığını öz gözlərimizlə gördük.

Bakı şəhər memarları XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan memarlığında yeni təzahürlər məhz neft sənayesinin sürətli inkişaf etdiyi dövrlə müşahidə olunub. Bakı memarlığı həm ənənəvi Şərq memarlıq üslubunu daşıyan

binalarla, həm də Qərb, Avropa memarlığında inşa edilən tikililərlə zəngindir.

Bu istiqamətdə Bakı milyonçularının Bakı şəhərinin memarlıq tarixində əvəzsiz rolunu qeyd etmək istərdik. Onlardan Nabat Aşurbəyova (1795-1912), Şəmsi Əsədullayev (1840-1913), Ağa Musa Nağıyev (1849-1919), Hacı Zeynalabdin Tağıyev (1838-1924), Murtuza Muxtarov (1855-1920), İsa bəy Hacinskinin (1861-1919) və b. öz xalqı üçün göstərdikləri xidmətləri və tikdirdikləri tikililər indiyədək mühüm əhəmiyyət kəsb edir. Onların milyonları hesabına tikilən bir çox tikililər bugün də maddi mədəniyyətimizin inciləri sırasındadır.

Bakıda memar və mühəndislərin böyük bir nəsli: Qasım bəy Hacıbababəyov (1812-1874), Məmmədhəsən Cəfərqulu oğlu Hacınski (1875-1931), Zivər bəy Əhmədbəyov (1873-1925), Mikayıl Ələsgər oğlu Useynov (1905-1992), Sadiq Ələkbər oğlu Dadaşov (1905-1946), polyak İ.V.Qoslavski (1865-1904), İ.K.Ploşko (1867-1931) və başqaları fəaliyyət göstəriblər.

İ.V.Qoslavski Bakıya 1891-ci ildə gəlmiş, növbəti ildə isə şəhərin baş memarı vəzifəsinə təyin edilmişdi. Tağıyevin Qızlar məktəbi üçün binanın layihəçisi və inşaatçısı İosif Qoslavski həmçinin məşhur qubernatorluğun binası da (Baksovet) daxil olmaqla bir çox tikililərin layihəsinin müəllifidir. 1904-cü ildə Aşurbəyovlar ailəsinə məxsus borokko üslubunda tikilən bina memar İ.V.Qoslavskinin son işi olub.

İsmailiyyə binasının layihəsi 1907-ci ildə, əsası 1908-ci ildə qoyulub. Binanı Bakı milyonçusu Musa Nağıyev dünyadan erkən köçən oğlu İsmayılın xatirəsinə tikdirib. 5 ildən sonra 1913-cü ildə bina hazır olur. Venesiya qotikası üslubunda inşa etdirilmiş "İsmailiyyə" binasının memarı İ.K.Ploşko olub.

Qasım bəy Hacıbababəyov 1860-1868-ci ilədək Bakı şəhərinin memarı olub və onun tikdirdiyi binalardan Fəvvarələr bağı, Nizami muzeyi, Araz kinoteatrı və s. qeyd etmək olar (7).

M.Ə.Useynov Bakıdakı "M.F.Axundov adına Azərbaycan Milli kitabxanası", "Alimlər Evi", "Monolit", "Musiqi Akademiyası", "Azərbaycan Milli Elmlər Akademiyası", "Abşeron" ve "Azərbaycan" otelləri onun çalışmalarıdır (8).

Dövrünün tanınmış siyasi və ictimai xadimi, məşhur mühəndis M.C.Hacınski Bakının abadlaşmasına böyük diqqət yetirirdi. Dənizkənarı bulvarın tikintisi onun rəhbərliyi ilə 1911-ci ildə başa çatdırılmışdı.

Bakıda baş verən bütün dəyişiklikləri göstərərkən, qeyd etmək lazımdır ki, XIX əsrin I yarısında, 1859-cu ildə quberniya mərkəzi Bakı şəhərinə köçürülənə qədər, şəhər ərazisi neft sənayesinin güclü inkişaf dövründəki sürətli irəliləməsi ilə müqayisədə nisbətən az idi (3).

Bakı şəhərinin inkişaf etməsində, burada gözəl tikililərin yaranıb ərsəyə gəlməsində bir çox insanların böyük rolu olmuşdur. Bakıdakı şəhərsalmadan danışarkən mütləq bu gözəllikləri düşünüb yaratmış, öz

fantaziyalarının məhsullarını bu şəhərin gözəlləşməsi, inkişaf etməsi üçün sərf etmiş memarları xüsusi qeyd etmək lazımdır:

Bakı şəhərində yerləşən Təzəpir məscidi xüsusi memarlıq üslubu ilə fərqlənir. Məscid məşhur Aşurbəyovlar nəslinin nümayəndəsi Nabat xanımın vəsaiti hesabına tikilib. Nabat xanım Bakıda Şərqin ən möhtəşəm məscidlərinə bənzər məscid görmək istəyirdi. Zivər bəy Əhmədbəyovu Məkkə və Mədinəyə, İstanbula Şərqin memarlıq inciləri sayılan məscidlərin memarlıq üslubu ilə tanış olmağa göndərəndə ona belə demişdi: “Oğlum, qoy o müqəddəs ocaqların ruhu sənə ilham versin. Bax, öyrən, ən yaxşısını seç! Xalqımızın adına layiq elə məscid tik ki, adı dillər əzbəri olsun”. Zivərbəyin layihəsi əsasında ən bacarıqlı sənətkarların iştirakı ilə Bakıda unikal memarlıq abidəsi - Təzəpir məscidi tikilir (1905-1914). Bunun ardınca isə onun layihəsi əsasında Məkkədəki müqəddəs Kəbə evinin, Kərbəla məscidinin elementlərini özündə əks etdirən, məşhur Əjdər bəy məscidi ərsəyə gəlir. Məscid dövrün tanınmış xeyriyyəçilərindən sayılan Əjdər bəy Aşurbəyovun vəsaiti ilə inşa edilmişdi. Memarın Əmircanda tikdiyi məscid isə Şərq memarlığının ən yaxşı incilərindən biri kimi qorunur (6,səh.10).

Zivər bəy Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirirdi. 1917-ci ilə qədər Bakı Quberniya İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləyən Zivər bəy həmçinin ictimai fəaliyyətlə də məşğul olurdu. Onun səyləri nəticəsində 1917-ci ildə “İslam mədəniyyət abidələrini qoruyan” cəmiyyət yaranır. O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhərinin baş memarı vəzifəsində çalışıb. Həmin vəzifəni sovet hakimiyyəti illərindən ömrünün sonuna qədər icra edib.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın ilk ali təhsilli memarı Zivər bəy Əhmədbəyov 1918-1925-ci illərdə Bakı şəhərinin baş arxitektoru vəzifəsində çalışmışdır (5).

26 may 2011-cil ildə “Nizami” metro stansiyasının önündə heykəli qoyulmuşdur və elə heykəllə üzbə-üz bina da məhz onun layihəsi əsasında inşa olunmuşdur (1).

Bakıda inşa edilən imarətlərə nəzər salsaq ən çox Bakı milyonçularının yaşayış evlərinin, qazanc evlərinin, təhsil ocaqlarının, bazarların, hamamların olduğunu görərik. Bu tikililərin əksəriyyəti klassik, milli və islam memarlığına xas olan motivlərlə inşa edilmişdir (4).

Hamının tanıdığı “Səadət” sarayının binası məşhur azərbaycanlı milyonçu Murtuza Muxtarov tərəfindən XX əsrin əvvəllərində tikdirilib. Bakının memarlıq incilərindən biri olan və qotik üslubda tikilən ilk binanın memarı polyak İosif (Yozef) Ploşko olmuşdu. Bina Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə ölkə

əhəmiyyətli tarixi və memarlıq abidəsi kimi qeydə alınıb.2007-ci ildən təmirə dayanan saray, 5 iyul 2012-ci ildə istifadəyə verilib (9).

Məqalədə Bakı milyonçularının Azərbaycan tarixində əvəzsiz rolu qeyd olunur. Onların milyonları hesabına tikilən bir çox tikililər maddi mədəniyyətimizin inciləri sırasındadır.

Azərbaycana qazanc dalınca gələn memarlar, daşyonan ustalar əsasən renessans, barokko, qotika, modern, avanqard sonralar isə Şərq üslubundan istifadə edərək binalar inşa edirdilər.

Bu dövrlərdə Bakı memarlığında yeniliklər meydana gəldi. Fransadan, İtaliyadan gələn ustalar yerli ustalara binaların fasad üzərində müxtəlif heyvan, insan fiqurları yonmağı öyrədirdilər. Bakı milyonçularının mülkləri üzərində mələikə, şir, qartal, əfsanəvi varlıq və s. dekorları mülkə yaraşıq vermək məqsədi ilə vurulurdu. Bu fiqurlar, həm də rəmzi məna kəsb edirdi. Bu rəmzlər özlüyündə bir yenilik deyildi. Azərbaycan milli sənətkarlığında da buna rast gəlinib.

Yuxarıda qeyd etdiyimiz kimi, Qərbdən gələn memarlar getdikcə Şərq və yerli memarlıq elementlərindən faydalanmağa başlandı. Məsələn, Bakı memarlığında böyük rol oynayan İ.K.Ploşko qotik və modern üslubunda evlər tikdikdən sonra yerli memarlıq mövzusuna müraciət etməyi qərara aldı. Beləliklə, zaman keçdikcə Bakıda yenidən Şərq memarlıq üslubu bərqərar olurdu.

Nəticədə bu gün də öz möhtəşəmliyini qoruyub saxlayan, dünyanın ən müxtəlif memarlıq üslublarına xas tikililərin bəziləri yenidən bərpa edilib. Bakının mərkəzində vaxtilə neft milyonçuları tərəfindən tikdirilən, yaşı bir əsri ötmüş bu möhtəşəm binalar illər keçməsinə baxmayaraq öz cazibədarlığını qoruyub saxlayıblar.

**Ədəbiyyat siyahısı:**

1.Şamil Fətullayev-Fiqarov. Bakı memarları XIX əsrin sonu – XX əsrin əvvəllərində. Bakı,"Şərq-Qərb" nəşriyyat evi, 2013, 340 s.

2.Bakının memarlıq Ensiklopediyası. Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013,528 s.

3.S.Dadaşova, E.Qasımzadə, F.Məmmədov. Bakı – tarixin səhifələri".Bakı,"Şərq-Qərb"nəşriyyat evi, 2013, 188 s.

4. R.H.Əbdülrəhimov, N.C.Abdullayeva. "Azərbaycan memarlıq tarixi". Erkən kapitalizm dövrünün memarlığı (XIX-XX əsrin əvvəli). 4-cü cild.Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 344 s.

5.Şamil Fatullayev-Fiqarov. Azərbaycan memarlığının klassikləri.Memar İ.K.Ploşko "Ismailiyyə"nin müəllifi. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2013, 64 s.

6.Möhtəşəm sənət yadigarları http://www.anl.az/down/meqale /medeniyyet/2014 /may 368527.htm

7.Şamaxı ensiklopediyası. http://shamakhi-encyclopedia. az/ hacibababəyov-qasimbəy.

8.Azərbaycan memarları. http://www.azerbaijans. com/content _926_tr.html.

9.Səadət sarayı. http://avciya.az/az/index.php; http://www. eastwest. az/az/books/

**Əlavə 1**

**Bakı şəhər Dumasının binası**



Polyak memar İosif Qoslavski tərəfindən 1900-1904-cü illərdə tikilmişdir. Binanın inşasında barokko motivlərindən istifadə edilib. Hazırda Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasıdır.

**Əlavə 2**

**Tağıyevin Qızlar məktəbi**



Qızlar Məktəbinin binası (1896 ) İ.V.Qoslavski tərəfindən qotik üslubda tikilib. Hazırda AMEA-nın Əlyazmalar Fondu bu binada yerləşir.

**Əlavə 3**

**İsmailiyyə binası**



İsmailiyyə (1907-1913). İ.K.Ploşko tərəfindən Venesiya qotikası üslubunda tikilib. Hazırda AMEA-nın Rəyasət heyətinin binasıdır.

# GÜRCÜSTANDAKI ETNİK MÜNAQİŞƏLƏR NƏTİCƏSİNDƏ YARANAN MİQRASİYALAR (ABXAZİYA VƏ CƏNUBİ OSETİYA TİMSALINDA)

**Əsədov Murad Elçin oğlu**
**Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, dissertant**
**esedov-m@mail.ru**

*Dünyada münaqişə ocaqları kifayət qədərdir. Xüsusilə dondurulmuş və hələ də həllini tapmamış münaqişələr mövcuddur. Qafqaz regionu da belə münaqişələrin mövcudluğu baxımından siyasi düyün nöqtələrindən biri hesab olunur. Xüsusilə Qafqazın cənubu etnik müxtəlifliyin daha çox yayıldığı areal olduğu üçün burada münaqişələrin də sayı kifayət qədərdir. Məqalədə, dağlı xalqlarının Osmanlı İmperatorluğuna köçünün hazırlıq və reallaşma proseslərinin və nəticələrinin təqdim olunur. Məqalədə Cənubi Qafqazın bir hissəsi olan Gürcüstanda etnik münaqişələr zəminində yaranan miqrasiyalar təhlil edilmişdir.*

***Açar sözlər;*** *SSRİ, Gürcüstan, Abxaziya, Cənubi Osetiya, etnik münaqişələr, miqrasiya*

***Migrations Arising As A Result Ethnic Conflict In Georgia (The case of Abkhazia and South Ossetia)***

*There are enough conflicts in the world. Especially, the unresolved frozen conflicts still exist. The existence of such conflicts in the Caucasus region in terms of political knot is considered to be one of the points. Especially the South Caucasus, where ethnic diversity is more widespread natural habitat, there are the number of conflicts. The article presents the result of migration process of the mountain people to the Ottoman Empire. Also the article explores the ethnic conflicts in Georgia, which is part of the South Caucasus, as a result of the migration.*

***Key words:*** *USSR, Georgia, Abhazia, South Ossetia, ethnic conflict, migration*

**Giriş.** Qafqaz, Qara dəniz ilə Xəzər dənizi arasında yüksəkliyi beş min metr olan regiondur. Qafqaz bir çox müəlliflər tərəfindən və coörafi olaraq Şimali Qafqaz-Cənubi Qafqaz kimi qəbul edilmişdir. Çünki Şimali və Cənubi Qafqaz coğrafi baxımdan olduğu qədər digər bir çox fərqliliklər göstərən iki bölgədir.

Antik Yunan mənbələrində "As" adlandırılan Qafqaz bölgəsi Asiya qitəsinin daxilidir. "Aslar Dağı" mənasındakı Qafqaz, sonralar tatarlar tərəfindən "Jalbuz" (Buz Yelesi), nogaylar tərəfindən Yıldız (Ulduz) Dağları olaraq adlandırılmışdır. Başqa bir fikrə görə "Qafqaz" adı fars dilində "dağ" mənasını verən "kuh" ilə köhnə türkcədə "ağ" mənasını verən "əzələ" sözlərinin

birləşməsindən meydana gəlmişdir. Orta əsr müsəlman səyyahlarının əsərlərində və müxtəlif türk mənbələrində Qafqaz adına rast gəlmək olmur. Qafqaz adının bir bölgə olaraq istifadə edilməsi XIX əsrin əvvəllərindən başlanılmışdır.

Gürcüslər Qafqazda yaşayan qədim yerli xalqlarda olub "Kartveli" adıyla tanınmışdılar. Kartlar, Megrel-cavanlar və Savannalar olmaqla üç qol meydana gətirmişlər. Antik Yunan və Roma mənbələrində dəmirçilik ilə məşğul olan gürcülər, sonralar əkinçiliklə məşğul olmuşlar. Ümumiyyətlə, Asiyalı qövmlərin siyasi və mədəni təsirləri altında olan gürcülərin xalq kimi formalaşmasında Kartlar əsas rol oynamışdır.

Abxaz müəllifləri sübut etməyə çalışırlar ki, Abxaziya Gürcüstanın bir hissəsi deyil. Lakin Gürcüstan müəllifləri abxazların Kartvel tayfalarından biri, abxaz dilinin isə gürcü dilinin bir dialekti olmasına dair izahlarını ciddi tənqid edir. Cənubi Osetiya Cənubi Qafqazda yerləşən BMT, Avropa İttifaqı, ABŞ tərəfindən və eyni zamanda, beynəlxalq razılaşmalara əsasən, Gürcüstanın ərazisi kimi tanınan mübahisəli bölgədir. Bəzi müəlliflər hazırki Gürcüstan dövlətinin ərazi inzibati quruluşunu sual altına alaraq əslində Stalin və Orconekidze kimi bolşeviklərin sayəsində Abxaziya, Osetiya və Acarıstanın Gürcüstan ərazisinə əlavə edilməsi fikrini irəli sürür.

XX əsrin sonunda dünyada baş verən dəyişikliklər nəticəsində iki qütblü sistem öz əhəmiyyətini itirdi. SSRİ-nin dağılması ilə keçmiş sovet respublikaları ərazilərində etnik münaqişlər daha da gücləndi. SSRİ-nin dağılmasından sonra Rusiya və NATO dövlətləri müstəqilliklərini yeni bərpa edən keçmiş "qardaş sovet sosialist respublikaları"nı, xüsusi ilə Qafqaz regionunda olan respublikaları öz siyasi maraqları dairəsindən kənarda qoymaq istəmirdilər. Bu zaman "Avrasiyanın Balkanları" adlandırdıqları Qafqaz bölgəsində geopolitik bir boşluq sahəsi meydana gəlmişdir ki, bu da bölgədə yaranan bu boşluğu doldurmaq istəyən, bir sıra böyük dövlətlərin iqtisadi və siyasi mübarizəsinə təkan olmuşdur. Bu region NATO bloku dövlətlərinin və Rusiyanın geosiyasi maraq dairəsində olan zonaya çevrilmişdir. Bu səbəbdən də, XX əsrin sonunda Şimali və Cənubi Qafqazda bu günədək etnik münaqişələrin (Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, I, II və III Çeçen-Rus münaqışəsi. Çeçenler Rusiyadan müstəqillik istəyirdilər və s) meydanına çevrilmişdir. Rusiya politoloqu Sergey Markedonov qeyd edir ki, Sovet İttifaqının dağılmasından sonra və postsovet tarixində "Qafqaz" və "münaqişə" anlayışları eyniləşdirilmiş kimi göstərmək olar [15]. Cənubi Qafqazda yaranan respublikalardan biri Gürcüstandır ki, SSRİ-nin dağılmasından sonra geopolitik bir sarsıntı keçirmişdir [2] .

Hal-hazırda Gürcüstan Respublikasında 31 etnik qrup yaşayır. Gürcüstanda yaşayan azsaylı xalqların mədəniyyəti, dili, dini və sair müxtəlifliyi

onların tarix boyu danışıq dili kimi rus dilindən istifadə etmələri Rusiyanın bölgə üzərində nüfuzunun artmasının baris nümunəsidir.

Gürcüstan Respublikası əhalisinin milli tərkibinə sonuncu Ümumittifaq və müstəqil Gürcüstanın ilk siyahıya alma materialları əsasında nəzər salaq:

**Cədvəl 1**

**Gürcüstan Respublikasının əhalisinin etnik tərkib (seçmə yolu ilə)**

| **Etnik qrup** | **1989-cu il** | | **2002-ci il** | |
|---|---|---|---|---|
| Cəmi | 5.400.841 | % | 4.371.535 | % |
| kartvel* | 3.787.393 | 70,7 | 3.661.173 | 83,8 |
| azərbaycanlı | 307.556 | 5,7 | 284.761 | 6,5 |
| erməni | 437.211 | 8,1 | 248.929 | 5.7 |
| rus | 341.172 | 6,3 | 67.671 | 1.5 |
| osetin | 164.055 | 3 | 38.028 | 0,9 |
| yezidi | | | 18.329 | 0,4 |
| kürd | 33.331 | 0,6 | 2.514 | 0,1 |
| yəhudilər | 24.795 | 0.5 | 2.333 | 0,1 |
| abxazlar | 95.853 | 1,8 | 3.527 | 0,1 |
| qafqaz yunanları | 100.324 | 1,9 | 15.166 | 0,3 |
| assuriyalılar | 6.206 | 0,1 | 3.299 | 0,1 |
| ukraynalılar | 52.443 | 1 | 7.039 | 0,2 |
| digər | 50.502 | 0,9 | 18.766 | 0,5 |

**Mənbə**: Yelda Barış Kalkan. Gürcüstanda demokratiya məsələsi və azlıqlar. Birgün qəzeti 22 sentyabr 2012

Rusiya imperializminin siyasətinin ana xəttini "parçala və hökmranlıq et prinsipi" təşkil edir, bu da bölgədə Ermənistandan başqa, Azərbaycan və Gürcüstanda yaşayan etnik qruplar arası qarşıdurmalar yaratmaqla bu ölkələri özündən asılı vəziyyətə salmaq istəyidir. Bu halda bu dövlətlərin iqtisadi-siyasi və təhlükəsizliyinə problem yaratmaqla yanaşı, regiona Rusiyanın və Qərb dövlətlərinin müdaxiləsinə yol açmışdır [5].

Sovet İttifaqının dağılmasından sonra müxtəlif etnik münaqişələrlə qarşılaşan Gürcüstan Respublikası daxilində yaranan vəziyyətlə əlaqədar digər dövlətlərin maraq dairəsinə çevrilmişdir. Regionun vəziyyətini dəyişdirə biləcək potensiala sahib olan ünsürlərin də baş verən hadisələrə təsiri regionda bir çox etnik münaqişələrin yaranmasına səbəb olmuşdur. Hal-hazırda bir sıra münaqişələr dondurulmuş qalsa da (1994-ci ilin may ayında Bişkek protokulu ilə Azərbaycan-Ermənistan münaqişəsi), Qərbin bölgəyə olan maraqları hələ bitməmişdir.

---

* Gürcülər özlərini kartvel adlandırırlar.

Gürcüstandakı əsas münaqişə bölgələri aşağıdakı cədvəldə göstərilib:

**Cədvəl 2**

**Gürcüstan Respublikası əsas münaqişə əraziləri**

| | |
|---|---|
| Abxaziya | 1992-1993-cü illər arasında Gürcüstantan ayrılaraq Rusiyaya rəsmi müraciət etmiş. 2008-ci ilin avqustunda Rusiyanın köməyi ilə öz müstəqilliyini elan etdi. |
| Acarıstan | Yerli hakimiyyət Tiflis hakimiyyətini tanımır. Lakin 2008-ci ilin aprelində prezident Saakaşvili onları Tiflisə tabe etdi. |
| Cevaxetiya | Erməni separatizmi. |
| Cənubi Osetiya | 1990-1991-cü illər arasında Gürcüstantan ayrılaraq Rusiyaya rəsmi müraciət etmiş. 2008-ci ilin avqustunda nRusiyanın köməyi ilə öz müstəqilliyini elan etdi. |
| Pankisi və Kodori Vadisi | Rusiya iddia edirdi ki, burada çeçen hərbçiləri var və Gürcüstan onları himayə edir. |
| Rusiya hərbi hisssələri | Cevahetiya ərazisi, Ahılkalake, Abxaziyada |

**Mənbə:** Nadir dövlət, "Qafqaz, Orta Asiya, Cənub və Şərq Asiyadakı Böhran Qaynaqları və bölgələrinindirkiyənin Təhlükəsizliyinə Təsirləri", Türkiyə, NATO və Avropa Birliyi Perspektivindən Böhran Bölgələrinin Araşdırılması və Türkiyənin Təhlükəsizliyinə Təsirləri Simpoziumu, İstanbul, 27-28 May 2004, s. 205.

**Abxaziya problemi.** Abxaziya probleminin yaranması əsasında, Gürcüstan ərazisi daxilində olan və çoğrafi cəhəddən Qafqazın cənub hissəsinin bir parçası hesab olunan, Abxaziya Muxtar Respublikasının, müstəqil bir dövlət olmaq istəyi hər zaman gündəmdə idi. Abxazlar qədim zamanlardan, köklü bir dövlət ənənəsinə sahib, Qafqazın yerli xalqlarından biridir.

Abxaz tayfalarının adı ilk dəfə antik yunan qaynaqlarından adı çəkilir. Antik yunanlar Şərq Qara dəniz sahillərində yaşayan bütün tayfaları "Colchis" adlandırmışlar. Strabona görə e.ə. I əsrdə Abxaziyanın sərhədləri Pitsunda şəhərindən Trabzona qədər uzanırdı. Hekataios (e.ə. 500) bu əraziləri Abxaziyanın sərhədləri daxilində göstərir. Karyanda isə (e.ə. 500) Akhaioi (Achaenos) olaraq ifadə etdiyi cəmiyyəti və bölgəni yenə Abxaziya ilə eyniləşdirirdi. Abxaziya şimalında yaşayan, Akhaioilər antik yunan mənbələrində Akhalarının mənşəyi sayılır. Antik coğrafyaçılara görə Soçi və Qaqra ətrafı Akha yurdu idi. Akhaların Şubıh, Abxaz və Abazinlərin ataları olduqları elm aləmində bilinməkdədir. Bu bölgələr orta əsrin əvvəllərində Bizans imperatorluğunun ərazisi daxilində idi. Dolayısla imperator Yustinyanın zamanında xristianlıq dinini qəbul etmişdilər. Pitsunda bölgəsi, abxaz

xristian dininin və mədəniyyətinin mərkəzi olmuşdur. Bu dövrün xristian qaynaqları və orta əsrlər gürcü tarixçiləri abxazlar varlığından yazırlar. VII əsrin sonlarında Bizans imperatorluğunun zəifləməsi nəticəsində abxaz kralı II Levan Abxaziya, Egrisi, Likheyi də öz hakimiyyəti altında birləşdirərək Abxaz krallığı yaratmışdır. Sonralar abxaz krallığı indiki Qərbi Gürcüstanı da işğal etmiş və krallığın ərazisi genişlənmişdir. Bu vəziyyət 200 il davam etmişdir. Bu dövr abxaz kralı III Baqratın gürcü taxtına keçməsi və iki dövləti birləşdirilməsi tarixinə qədər davam etmişdi. X əsrin sonunda Feodisi adında abxaz kralının varisi olmaması, taxta bacısının oğlunu çıxarmaq məcburiyyətində qalmışdır. O, III Baqrat adıyla tanınan kralın atası gürcü, anası isə abxaz mənşəli idi. Daha çox dayıları tərəfindən yetişdirilmiş olduğundan uzun müddət bu krallıq Abxaz krallığı adlanırdı. Əslinin gürcü mənşəli olmasına baxmayaraq, Baqrat xanədanlığının qurduğu "Abxaz Krallığı" bu cür adlanmasının səbəbi, bu krallığın əsasını abxaz feodalları tərəfindən qoyulması olmasıdır. 790-975-ci illərdə "abhazia" adı, bütün Gürcüstana verilən ad olmuşdur. XIII əsrdə monqolların qərbə yürüşü və Türk-Səlcuq dövlətini məğlub etməsi nəticəsində Gürcüstanın, xüsusilə şərq və orta hissəsi monqolların əlinə keçmişdir, Tiflis isə yandırılmışdır. Monqol vəhşiliyindən qaçan gürcülər qərbdə toplanmışdılar. Bu hadisələr nəticəsində dövlət zəifləmiş, dövlət keçmışdə olduğu kimi yenə abxaz və gürcü kyazlığı olaraq ikiyə bölünmüşdür [20].

XV-XVI əsrlərdə abxazlar təkrar öz krallıqlarını qurub abxaz-gürcü birləşmiş krallığını ayırdılar. Amma bu dəfə Osmanlı imperatorlığunun kölgəsində yaşamaq məcburiyyətində qalmışdılar. Bu zaman yüz illərlə xristian dininə inanan abxazların əhəmiyyətli bir hissəsi müsəlman olmuşdular [20].

1810-ci ildə Abxaz krallığı, Rusiyanın himayəsinə keçdi. Çox keçmədən Qafqazda milli ideyaların güclənməsi abxazlar arasında da müstəqillik ideyalarının daha da güclənməsinə səbəb olmuşdur. 1812-ci ildə Rusiya ilə Osmanlı İmperiyası arasında Buxarestdə imzalanan müqaviləyə əsasən, Osmanlı imperiyası tərkibində olan Abxaziya və İmereti knyazlığı Rusiyanın himayəsinə verilmişdi. Abxaziya yarımüstəqil xanlıq statusunu saxlaya bildi və 1864-cü ilə kimi Çar Rusiyası abxazların yarımüstəqilliyini tanıdı. Lakin 47 il davam edən Qafqaz müharibəsi sona çatana qədər abxazlar təslim olmadılar. 1864-cü ildən etibarən Rusiya çarlığı Abxaziyanın qərbində yaşayan abxazları, adigeylərlə birlikdə vətənlərindən sürgün etməyə başladı. Çar Rusiyası Cənubi Qafqazı tam işğal edəndən sonra verdiyi bir qərara əsasən Qafqaz xalqlarının bölgədən köçürülməsi, əsk halda bütün xalqın müharibə əsiri sayılacağını elan etmişdir. Bu köç zamanı 750 min nəfərdən çox əhali öz doğma vətənlərindən məcburi şəkildə sürgün

edilmişdilər. Bunlar daha çox Osmanlı İmperiyası ərazisində məskunlaşmışdılar. Trabzondakı Rusiya konsulunun yazdığı məlumata əsasən "bunların 30 min nəfəri aclıq və xəstəlikdən ölmüşdür. Gəmilərdə xəstəlik əlaməti olan insanları dərhal dənizə atırdılar. 1858-1865-ci illərdə 493.124 nəfər Trabzona gəlmişdir" [19].

1864-cü ildə Çərkəzistanın işğalını başa çatdırandan sonra Abxaziyanın yarımmüstəqilliyinin formal şəkildə olsa da saxlanılması Rusiyanı qane etmirdi. Ona görə də, Çərkəzistanın işğalından az sonra rus çarı II Aleksandr Abxaziyanın yarımüstəqilliyini ləğv edərək, onun ərazisi əsasında yeni Suxumi idarəetmə dairəsi yaratdı. Abxaz xanlığına da son verdilər.

Abxaz yazıçısı Hayri Ersoyun apardığı araşdırmalara görə, Abxaziya xanlığı ləğv edilməzdən 6 il əvvəll 1858-ci ildə onun əhalisinin sayı 94 min nəfər idi. Amma abxazlar öz müstəqilliklərinin ləğv edilməsini kəskin etirazlarla qarşıladılar və buna qarşı üsyan qaldırdılar. Bu üsyan Çar Rusiyasının hərbçiləri tərəfindən qəddarcasına yatırıldı. Bundan sonra rusların zülmündən qaçan minlərlə abxaz Osmanlı imperiyasına sığındı. 1866-cı ildə rus çarı Abxaziyada torpaq islahatları keçirdi və bu zaman feodalların bir sıra torpaqları onların əllərindən alındı. Buna etirazını bildirən abxaz feodallarının əksər hissəsi Osmanlı İmperiyasına köç etməyə və orada yaşamağa üstünlük vermişdilər. 1864-cü ildə, Qərbi Qafqazdan Osmanlı İmperatorluğuna köç etmiş olan Qafqaz xalqlarının arasında, 100 min nəfər abxaz da köç etmişdir. Bu dövrdə, Abxaziyanın Ahçıpsı, Ayqba, Abjoka kimi bölgələri tamamilə boşalmışdır. 1864-cü ildən başlayaraq, 1878-ci ilə kimi 100-125 min müsəlman abxaz ailəsi Anadoluya köçmüşdür. Onlar əsasən Düzcə, Sakarya, Qocaeli, İstanbul və digər yerlərdə məskunlaşdırıldılar [9].

1877-ci ildə Osmanlı ilə Rusiya arasında yeni müharibə başladı. Bu müharibədə rusların əsas diqqətini cəbhədən yayındırmaq məqsədi ilə 1877-ci ilin may ayında Osmanlı Abxaziya sahillərinə çaşdırıcı xarakterli hərbi hissələr çıxardılar. Bu işdə osmanlıya abxazlar da yardım edirdilər. Onlar 4 ay ərzində Abxaziyanın dəniz sahillərini əllərində saxladılar. Amma Abxaziyanın daxilində keçmiş knyaz Şervaşidze və torpaqları hələ də əllərindən alınmayan bəzi yerli feodallar ruslara dəstək verdilər [9].

Nəticədə Abxaziyada qalan və xristianlığı qəbul edən abxazlar adıçəkilən ərazidə çoxluq təşkil edirlər. Tədqiqatçı Fəxrəddin Çiloğlunun araşdırmalarına görə, əgər Rusiya işğalından sonra bölgədə 68.773 nəfər abxaz yaşayırdısa, 1886-cı ildə Suxumi idarə etmə dairəsində onların sayı 28.320 nəfərə qədər azalmışdı. Buna səbəb köçlər və qırğınlar idi. Amma Hayri Ersoy həmin dövrdə bölgədə 58.960 abxazın yaşadığını yazır. Bu fərqli rəqəmə səbəb Ersoy tərəfindən 30 min Samurzaka adlanan xalqın abxaz kimi hesaba alınmasından əmələ gəlib. Amma hər iki yazar 1926-cı ildə

Abxaziyada 55.918 min nəfərin yaşadığını bildirirdi [9]. 1911-ci il Britaniyada nəşr olunan ensiklopediyada Sohum-qala (Sohum) əhalisinin 43.000 nəfər olduğunu yazırdı ki, onun da üçdə ikisinin kartvelər, üçdə birini isə abxazların payına düşdüyünü yazırdı [19].

**Cədvəl 3**

**Abxaziyanın etnik tərkibi**

| İl | abxaz | gürcü | rus | yunan | erməni |
|---|---|---|---|---|---|
| 1886 | 58.963 | 4.166 | 1.106 | 2.149 | 1.090 |
| 1926 | 55.918 | 67.494 | 13.259 | 15.106 | 32.400 |
| 1939 | 56.197 | 91.967 | 60.201 | 34.621 | 49.705 |
| 1959 | 61.193 | 158.221 | 86.715 | 9.101 | 64.425 |
| 1970 | 77.276 | 199.595 | 92.889 | 13.114 | 77.276 |
| 1979 | 83.097 | 213.322 | 73.350 | 13.642 | 73.350 |
| 1989 | 93.267 | 239.872 | 74.914 | 14.664 | 76.541 |
| 2003 | 94.597 | 44.041 | 23.420 | 1.486 | 44.869 |
| 2011 | 122.175 | 46.499 | 22.064 | 1.382 | 1.907 |

**Mənbə:** Этнокавказ Этносостав населения Абхазии www.ethno-kavkaz.narod.ru/abkhazia.html

Abxazlar, 1917-ci ildə Rusiyada oktyabr inqilabından sonra, şimalda yaşayan Qafqaz xalqları ilə inteqrasiya olunmuşdular. 1 may 1917-ci ildə Terekkale (Vladikavkaz) şəhərində baş verən, Şimal Qafqaz Xalqları Qurultayına, Abxaziya nümayəndələri də qatılmışdır. 11 may 1918-ci ildə qurulan, Birləşmiş Dağlı Respublikası dövlətinin sərhədləri daxilinə Abxaziya da birləşdirilirdi və bu respublikanın bayrağındakı, yeddi ulduzdan biri də Abxaziya xalqını işarə edirdi [10].

1917-ci il noyabrın 8-də Suxumidə abxaz xalqının I qurultayı keçirilmişdir. Burada Abxaziya Xalq Şurası seçilmişdi. Qurultayda abxazların və gürcülərin nümayəndə heyətləri iştirak edirdilər. Abxazlar kazaklar və dağlılarla ittifaq bağladılar, sonra samurzakanlar* və meqrellərə† dedilər, əgər bizimlə birlikdə yaşamaq istəyirsinizsə sizdə bu ittifaqa daxil olun. Lakin onlar bunu rədd etdilər. 1917-ci ildə Abxaziyada yaşayan əhalının say dinamikasına əsasən, 59 min nəfəri gürcü, 26 min nəfəri abxazlar idi [9]. 1918-ci il fevralın 9-da abxazlar ilə Gürcüstan Sovet Respublikası arasında müqavilə bağlandı.

1921-ci ilin iyul ayının 5-də Kommunist Partiya Mərkəz Bürosunda Stalinin verdiyi qərarda belə idi: Partiya işləri baxımından Abxaziyanın

---

* Gürcülər Abxaziyanın cənub hissəsini belə adlandırırla

† Gürcüstanın şimal-qərbində yaşayan etnik tayfalardı.

Muxtar Respublikasının Gürcüstan Sosialist Respublikası sərhədləri daxilində qalması lazımdır. Stalinin bu müdaxiləsi, Abxaziya Respublikasına və abxaz xalqına duyduğu kin və düşmənçiliyini də ifadə etmək idi. Müqavimət göstərmələrnə baxmayaraq, sonda Abxaziya 1922-ci ildə Gürcüstanın daxilinə qatılmağı qəbul etmişdir. Rusiya 1931-ci ildə isə razılaşmanı tək tərəfli olaraq pozulmuşdur. Abxaziya yalnız muxtariyyət hüququ saxlanılaraq Gürcüstan Sosialist Respublikasına tərkibinə daxil edilmişdir [3].

1949-1953-cü illərdə Abxaziyada yaşayan 1500 erməni buranı tərk etdi. 1951-ci ilin iyun ayının 28-də BMT Baş Məclisin Konvensiyasına uyğun olaraq, XX əsrdə sürgün edilən abxaz (Abaza) xalqına qaçqın statusu verildi. 1989-cu il siyahıyaalma materiallarına əsasən Abxaziya əhalisinin 93300 nəfərini abxazlar, 239900 nəfərini gürcülər, 74900 nəfərini ruslar,76500 ermənilər, 14700 nəfərini yunanlar, 25800 nəfərini isə digər xalqlar təşkil edirdi [3].

Gürcüstan 1991-ci ilin aprel ayının 9-da öz müstəqilliyini elan edəndən sonra, Abxaziya Parlamenti də, 23 iyul 1992-ci ildə öz müstəqilliyini elan etmiş və Abxaziya Muxtar Respublikasının adındakı "Sovet, Sosialist və Muxtar" adını ləğv etmişdilər. 1991-ci ildə Abxaziya Muxtar Respublikası SSRİ-dən ayrılır və öz müstəqilliyini elan edir və 1992-ci ildə isə Gürcüstan Respublikasından ayrılır və öz müstəqilliyini elan edir. Lakin Rusiyadan başqa heç bir dövlət Abxaziyanın müstəqilliyini tanımamışdır [11].

Gürcüstan Respublikasında 1990-cı ilin sentyabr ayında Zviad Qamsahurdiyanın hakimiyyətə gəlməsi Tiflis hakimiyyətinin abxazlara qarşı olan mövqeyini sərtləşdirdi. Z.Qamsahurdiya "Gürcüstan, Gürcülər üçündür" siyasəti yeridərək Gürcüstanda olan xırda etnik qruplara qarşı təmizləmə siyasəti aparırdı, bu da silahlı münaqişəyə zəmin yaratmışdır [12]. Gürcüstanın Abxaziyaya qarşı apardığı siyasəti tam olaraq Gürcüstanın keçmiş prezidenti Eduard Şvardnadzenin Gürcüstan radiosunda 1992-ci ilin dekabrın 7 və 8-də verdiyi müsahibədə abxaz xalqının narahatlığına səbəb oldu. Gürcüstan prezidenti bu müsahibədə bütün abxaz xalqının məhv edilməsi niyyətini açıq-aşkar etiraf edir. Gürcü kommunistlərin köhnə rəhbəri xüsusilə bunları vurğulayır: "Buranın gürcü torpağı olduğunu və burada Gürcüstan dövlətinin quracağı nizamın etibarlı olacağını hər kəs anlamalıdır. ... Gürcüstanın taleyi, azadlığa və müstəqilliyə gedən yolu bu gün Abxaziyada həll edilir. Buna görə bütün gürcü vətəndaşlarını Gürcüstanın bu azadlıq və müstəqillik mübarizəsində əlindən gələni etməyə çağırıram" [2]. Məxməri inqilabdan sonra Gürcüstanda hakimiyyətə gələn Mixail Saakaşvili ölkə ərazisini yenidən bərpa etmək məqsədi ilə Abxaziya və Cənubi Osetiyanı yenidən öz hakimiyyətinə tabe etməyə çalışmışdır. Bu separatçı hərəkətlər tarixi proseslərdən qaynaqlanmışdır.

1992-ci ildə gürcü ordusu, Abxaziyanı işğal etmiş və Suxumiyə hücumlar etmiş, iki xalq arasında qanlı qarşıdurmalara səbəb olmuşdur. Qarşıdurmalar üzərinə Şimal Qafqazın muxtar respublikaları abxazlar lehinə, Rusiyadan kömək istəmişdilər. Rusiyanın bu hadisəyə müdaxiləsi, hadisələrin sürətlənməsinə və Gürcüstan ilə əlaqələrin gərginləşməsinə gətirib çıxarmışdır. Rusiyanın nəzarətində olan Abxaziya və Gürcüstan arasında olan danışıqlar nəticəsində, 20 may 1993-cü ildən etibarən atəşkəs elan edilmişdir. Lakin, atəşkəsə uyğun hərəkət edilməmiş və 1993-ci ilin iyul ayında qarşıdurmalar yenidən geniş vüsət almışdır. Abxaz hərbi hissələri sentyabr ayında Abxaziya sərhədlərini, təbii sərhəd olaraq ortaya çıxan İnguri çayına qədər olması qərarlaşdırılmışdır. Münaqışə nəticəsində, əhalinin əksəriyyətinə sahib olan gürcülərin böyük hissəsi (250 min nəfər) Abxaziyadan qaçmaq məcburiyyətində qalmış və yerlərinə, abxaz əsilli əhali yerləşdirilmişdir [10]. Qartal Çətin isə göstərirdi ki, 1993-cü ildə 90 min nəfərlik abxaz ordusu, Gürcüstandan ayrılma tələbiylə mübarizəyə başladılar. Abxaziyanın idarəsinin abxazların əlinə keçməsindən sonra, 300 min gürcü öz evlərini tərk etmək məcburiyyətində qalmışdı [8].

1993-cü ilin dekabr ayında tərəflər BMT-nın iştirakı ilə Cenevredə müzakirələr başlanmışdır. Münaqişəni dayandırmaq məqsədiylə, tərəflər arasında 1994-ci il aprel ayının 4-də yeni bir atəşkəs müqaviləsi imzalanmış və razılaşmanın tətbiqini nəzarət etmək üçün BMT Gürcüstan Müşahidəçi Heyəti (UNOMİG) sülhü qorumaq əməliyyatını həyata keçirilmiş, bu məqsədlə heyət Suxumiyə yerləşdirilmişdir. Tərəflərin tələbi əsasında, 1994-ci ilin iyun ayında Gürcüstan və Abxaziya arasında sərhəd olan İnguri çayı ətrafında qurulan, sabit bölgəyə 2.500 şəxsi heyəti olan MDB sülhməramlı hissələri (yalnız rus hərbi hissələrindan ibarət olan) yerləşdirilmişdir [13]. Abxaziya Məclisi, 1994-ci ildə qəbul etdiyi yeni konstitusiya ilə suveren bir dövlət olaraq, "Abxaziya Respublikası"nın qurulduğunu elan etmiş, Gürcüstan hökuməti tərəfindən, bu cəhd pislənmişdir. Politoloqlara görə Abxaziyanın müstəqilliyini ilk elan etdiyi tarixdə hədəflədiyi iki yol vardı: ilk əvvəl Gürcüstan xaricində tam müstəqil bir dövlət olmaq, ikincisi isə Gürcüstan ilə birlikdə federasiya qurulmasına nail olmaq idi [1]. Rusiya Gürcüstanın ərazi bütövlüyünü tanıdığını elan etmişdir. BMT Təhlükəsizlik Şurası, tərəflərin problemin həlli istiqamətində Rusiyanın öhdəçiliyi ilə ziddiyyət təşkil etdiyini ifadə etmiş və Gürcüstanın ərazi bütövlüyünə olan təəhhüdünü təsdiq etmişdir.

Abxaziya Muxtar Respublikası tam müstəqillikdən danışarkən, Gürcüstan ilə bərabər iki ölkə prinsiplərinə dayanan konfederasiya tezisini mənimsəməkdədir. Münaqişə zamanı Gürcüstana köçmək məcburiyyətində qalan təxminən, 200.000 gürcünün geriyə dönməsi nəticəsində abxazların

bölgədə azlıqda qalmasına səbəb olurdu. UNİMOG-in təxminlərinə görə Abxaziyanın 1994-cü ilədək olan cəmi əhalisinin sayı 230.000 nəfər olmuş, onlardan 90.000 min nəfəri abxaz, 40.000 min nəfəri gürcü , qalan əhalisi isə rus, erməni və yunan idi [14].

Münaqişənin əsasında, Abxaziyanın statusunun necə olacağı xüsusu ilə qeyd olunurdu. Abxazlar tam müstəqillik istəyərkən, gürcülər isə Gürcüstanın ərazi bütövlüyünü qorumağa çalışmaqda idi. Digər əhəmiyyətli bir problem isə mühacirlərin vəziyyəti idi. Münaqişə zamanı yaşadıqları yerləri tərk etmək məcburiyyətində qalan gürcülərın, Abaziyaya geri dönməsi hələ də sual altında qalmaqda idi. Abxazlarla gürcülərin öz torpaqlarına geri dönməsi üçün danışıqlar aparılmış, lakin abxazlar müstəqilliklərinin tanınmasını israr edərək, gürcülərin öz torpaqlarına yenidən dönməsinə icazə verməmişdilər. Abxaziya federal muxtariyyət müqaviləsini Gürcüstanla imzaladıqdan sonra, əhalinin yenidən öz torpaqlarına qayıtmasını istəyirdi. Gürcüstanın keçmiş prezidenti Eduard Şvardnadze, bölgədə Rusiyanın təzyiqini azaltmaq məqsədi ilə, MDB (rus) sülhməramlılarının, beynəlxalq sülhməramlıları ilə yer dəyişdirməsini istəmişdir [17].

İlk olaraq Gürcüstan üzərindəki nüfuzunu davam etdirmək istəyən və abxaz rəhbərliyini dəstəkləyən Rusiya belə bir müstəqilliyin bənzərinin yarana biləcəyi narahatlığı ilə, son zamanlar, Gürcüstan sərhədlərinin daxilində həll olunmasının, daha uyğun olacağını dilə gətirməkdədir. Rusiya Abxaziyadakı problemi Gürcüstanın bir daxili problemi olaraq gördüyü üçün, Gürcüstanın ərazi bütövlüyünə tərəfdar olduğunu, Rusiyanın başqa bir ölkənin torpaqlarında olan münaqişəyə qarışmamaq niyyətində olmadığını, Abxaziyadakı Rusiya hərbi hissələrinin çəkiləcəyini, Gudautadakı hərbi hissələrin boşaldılacağını, yalnız sərhəd bölgələrdə qalacağını bəyan etsə də, buna əməl etmədi [14].

Bu gün abxazlar Rusiyanın himayəsi altında öz müstəqilliklərini elan ediblər. Abxaziyada yaşayan abxazların sayı təxminən 100-120 min nəfərdir. Abxazlar da çərkəzlərlə bərabər, hər il may ayının 21-ni hüzn günü kimi qeyd edirlər [18]. Abxazların sayı 800.000 nəfərdir ki, bunlar da əsasən Türkiyə və Abxaziya ərazisində məskunlaşmışdılar. Belə ki, Türkiyə Cümhuriyəti Təhsil Nazirliyi 2012-ci ildə abxaz dilinin seçmə dərs olaraq bütün dövlət məktəblərində öyrənilməsi haqqında qərar qəbul etmişdir [21]. Bundan başqa abxazlar İordaniya, Misir, Suriya, Almaniya (təxminən 5000 nəfər), Hollandiya (təxminən 1000 nəfər), Fransa, Avstriya, İsveçrə və Amerikada yaşayırlar [6].

SSRİ-nin dağılmasından sonra abxaz-gürcü müharibəsinin Abxaziya lehinə nəticələnərək, de fakto müstəqilliyin qazanılması ilə, sürgünə göndərilən abxazların geri dönmələri barədə qanun qəbul olundu və işlərə

başlanılmışdır. Bununla əlaqədar abxaz parlamenti 1997-ci ilin avqust ayının 15-də qanun qəbul etmişdir:

1. XX əsrdə abxaz xalqının Osmanlı torpaqlarına sürgünü ağır bir insan hüquqları pozuntusu və soyqırım olaraq qəbul edilməlidir.

2. 1951-ci ilin iyun ayının 28-də BMT Baş Məclisin Konvensiyası uyğun olaraq, XX. əsrdə sürgün edilən abxaz (abaza)xalqı qaçqın statusuna sahib olmalıdır.

3. Sürgün edilən abxaz (Abaza) xalqının nəvələrinin anavətənlərinə geri dönmək istəkləri qeyd-şərtsiz qəbul edilməlidir.

4. Geriyə dönmək istəyən abxazlara (Abaza) hər cür insani, hüquqi və siyasi dəstəyin BMT, ATƏT, MDB və SSRİ-nin hüquqi varisi hesab olunan Rusiya bu tarixi səhvin düzəldilməsi üçün lazımlı səylərin göstərilməsi.

5. Abxaziya Parlamenti Hüquq Komitəsi ilə Parlamentlər və xaricdəki soydaşlarla Əlaqələr Komitəsi, geriyə qayıtmaqla əlaqədar hər cür qanuni işləri görməli.

6. Dövlət - Prezident və Nazirlər Kabineti ölkənin daxili və xarici siyasətində XX əsrdə ölkədən gedən insanların geriyə qayıtmasına kömək etməli və ölkə xaricində yaşayan soydaşlarımızın geriyə dönməsi üçün geniş bir proqram qəbul etməlidirlər.

7. Abxaziya parlamenti bunun xaricində yerli rəhbərliklərə, siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına və xüsusi təşkilatlara bu geriyə qayıtmaq layihəsinə siyasi, iqtisadi, psixoloji və mənəvi dəstək vermələri üçün müraciət etməli.

8. Qərar dərc olunan andan etibarən radio və TV vasitəsilə ilə xalqa çatdırılmalı [7].

2010-cı il aprel ayının 30-da Stalin-Beriya dövrü başda olmaqla siyasi təzyiq altında qalanların reabilitasiya edilmələri ilə əlaqədar qanun Abxaziya Parlamenti tərəfindən qəbul edilmişdir [3].

**Cənubi Osetiya.** Qafqaz dağlarının Şimal və Cənub yamaclarında yaşayan osetinlər Hind-Avropa irqinə mənsub, iran mənşəli bir Qafqaz xalqıdır. Osetin xalqları haqqında tarixi qaynaqlarda müxtəlif fikirlər var. Bir mənbədə onların VII əsrdə hunların hücumları ilə ələqada olaraq Qafqaza gəlmişdilər. Başqa bir mənbədə isə Şərqi İran mənşəli xalqların qalıqlarıdır [20].

Hal-hazırda ərazi Şimali Osetiya-Cənubi Osetiya şəklində iki yerə ayrılmışdı. Şimal hissəsi Rusiya Federasiyası tərkibində ikən, cənub hissəsi isə Gürcüstan sərhədləri daxilindədir. Cənubi Osetiya təxminən 100.000 nəfər əhaliyə, mərkəzi Gürcüstanda Şimali Osetiyanın sərhəddində yerləşən bir ərazidir. Cənubi Qafqazın Rusiya tərəfindən işğalı nəticəsində könüllü surətdə Rusiya ilə birləşmək istəyən osetinlər 1843-cü ildə Tiflis quberniyası tərkibində Osetin mahalının yaradıldığını, 1859-cu ildə isə onun Qori

qəzasının tərkibinə verildiyini, 1921-ci ilin sentyabrında isə Cənubi Qafqaz Sovet Sosialist Respublikası kimi Gürcüstanla könüllük əsasında federativ ittifaq bağlandığını bildirirlər [16].

Osetin müəllifi Mark Bliyevin rusların Qafqaza yürüşdən müstəmləkə marağı güdmədikərini və günahlarının isə "gürcülərə qarşı həddən artıq qayğıkeş olmaları"ndan ibarət olması ilə izah edir. Müəllif daha irəli gedərək heç bir fakt göstərmədən Qızılbaşların və Osmanlıların gürcülərə qarşı vaxtaşırı genosid törətdiklərini, Çar Rusiyasının imdad diləyən gürcüləri faktiki olaraq labüd məhvolmadan qurtardığını qeyd edir. Münaqişənin köklərinə gəldikdə isə, Bliyev bunu Qafqazın istilasında ruslara yardım edən gürcülərə XIX əsrin ortalarında Osetiya kəndlərinin idarəçiliyinin verilməsi ilə əlaqələndirir. Bunun nəticəsində, müəllifə görə, həmin dövrdən başlayaraq Osetiyada yaşayan osetinlərin sayı azalan xətt üzrə getmişdir. Qeyd edir ki, statistik məlumatlara görə, XIX əsrin 60-cı illərində bölgədə 150000 osetinin yaşadığı halda, bu rəqəmin 1930-cu ildə 107000-ə, 1989-cu ildə isə 96000-ə qədər azaldığı göstərilir [6].

Müasir dövrə qədər davam edən gürcü-osetin münaqişəsinin əsası: Osetinlərin 1918, 1919 və 1920-ci illərində baş vermiş kəndli qiyamında bolşeviklər tərəfində olduqları üçün, Gürcü Hökuməti tərəfindən qanlı bir şəkildə yatırılmasına gətirib çıxarmışdır. Gürcüstanda sovet rejiminin qurulmasından sonra da, osetin xalqının Çar Rusiyası dövründəki ikiyə bölünmüş vəziyyəti qalmaqda idi. Gürcüstan 1918-ci ilin mayın 26-da ölkədəki bütün azlıqlara bərabər siyasi və ictimai hüquqlar verdi. Lakin 1921-ci ilin fevralın 25-də Cənubi Osetiyadakı gürcü hakimiyyəti Qırmızı Ordunun Gürcüstana girməsiylə sona çatdı [17].

Cənubi Osetiya, 1922-ci ildə "Cənubi Osetiya Muxtar Bölgəsi" olaraq Gürcüstana bağlandı. Cənubi Osetiya, 1922-ci ilin aprel ayının 20-də muxtariyyətini elan etsə də, Gürcüstan Sovet Sosialist Respublikasının daxilinə qatıldı. Digər hissəsi, Şimali Osetiya isə 1925-ci ildə Sovet Rusiyasına qatılsa da, Şimali Osetiya 1936-cı ilin dekabr ayının 5-də Muxtar Respublika statusunu aldı [16]. 1979-cı ildə Cənubi Osetiyada siyahıyaalınma nəticəsində əhalinin 66%-nin osetinlərdən ibarət olduğu qeyd olunurdu. SSRİ-nin dağılması dövründə Cənubi Osetiyanın, Şimali Osetiya ilə birləşmək tələbləri daha da artdı və bu da gərginliyi daha da artırdı. 1989-cu ildə tərəflər arasında gərginlik yaranmışdır. 1989-ci il siyahıya alınmasına əsasən osetinlərin sayı 600 min nəfər olmuşdur [20] 1990-cu ildə Cənubi Osetiyanın müstəqilliyini elan etməsinə qarşılıq olaraq, Gürcüstanın, "bölgənin müxtariyyət statusunu ləvğ etdiyini elan etməsiylə" tərəflər arasındakı siyasi gərginlik, qanlı qarşıdurmalara çevrilmişdir. 1989-cu ilin sentyabr ayının sonlarında, gürcü hərbi hissələri Cənubi Osetiya bölgəsinə daxil oldular və silahlı qarşıdurmalar başladı.

Rusiyanın dəstəyi sayəsində, osetinlərin qalibiyyətiylə nəticələnən qarşıdurmada 53.000 nəfərdən çox Cənubi Osetiya vətəndaşı bölgəni tərk etmək məcburiyyətində qalmışdır. Münaqışə zamanı Şimali Osetiyaya keçən 17.000 nəfər osetiyalının xaricində, gürcü mühacirlərin böyük əksəriyyəti hələ də Gürcüstan daxilində, dağınıq halda yaşayırlar. Cənubi Osetiyanın iqtisadi vəziyyətinin Gürcüstandan daha ağır olması, xüsusilə elektrik və təbii qaz baxımından mərkəzi rəhbərlikdən asılı vəziyyətdə olmasın, Cənubi Osetiyanı siyasi baxımdan da Gürcüstana yaxınlaşdıran səbəblərdəndi [15].

Cənubi Osetiya Parlamentində Rusiya tərəfdarı olan Kommunist Partiyası və İctimai Demokratların əksəriyyətdə olması və bunların böyük əksəriyyətinin Şimali Osetiya ilə inteqrasiya olunmağı dəstəkləmələri, tərəflər arasındakı problemin barış yoluyla həll edilməsinə maneə törətməkdə, iqtisadi səbəbləri ikinci plana keçməkdədir. Rusiya baxımından bu bölgə, strateji mövqeyə malikdir. Ayrıca bu bir problem olaraq Rusiyanın Gürcüstan üzərində nəzarətinin güclənməsinə gətirib çıxarırdı.

2000-ci ilin dekabr ayında Rusiya Federasiyası Gürcüstan vətəndaşlarına viza tətbiq edərkən, Abxaziya və Cənubi Osetiya sakinlərini bu tətbiqin xaricində tutaraq, Gürcüstanın ərazi bütövlüyünə hörmət etmədiyini göstərmişdir [8].

Cənubi Osetiya parlamenti 2004-ci il 09 iyun tarixli iclasında, Rusiya Federasiyası ilə birləşməyi qərarı aldı. Cənubi Osetiya Dövlət Başçısı Eduard Kokoev, 2004-cü il 12 iyun tarixində, Moskvada mətbuata: "Osetiya xalqının bölünmüş bir xalq olduğunu, beynəlxalq ictimaiyyətin Cənubi Osetiya problemini bölünmüş xalq daxilində ələ alması, həmçinin ərazi bütövlüyünə əlaqəli qanun və tələblərin yanında bir millətin öz seçimini etmə haqqını da göz önünə almasının lazım olduğu, yaxın bir tarixdə osetin Cənub və Şimal bölümməsindən qurtularaq, Osetiyanın Rusiya Federasiyasına daxil olacağına inandığı, Cənubi Osetiyanın Rusiya Federasiyasına daxil edilməsi üçün lazımlı olan müraciətin DUMA-ya və Rusiya Hökümətinə edildiyini” bildirmişdir [10].

2008-ci ilin avqust ayında baş verən münaqişədən əvvəl Cənubi Osetiya əhalisinin üçdə ikisi osetin, təxminən 25-30%-i isə gürcü idi. Ölkə ərazisinin şərq hissəsində əsasən gürcülər, mərkəz və qərb regionlarda isə osetinlər sayca üstünlük təşkil edirdilər. Şimalda yerləşən dağlıq ərazilərdə əhali çox seyrək şəkildə məskunlaşmışdı. 2002-ci ildə Gürcüstanda keçirilmiş əhalinin siyahıyaalınmasında Cənubi Osetiya iştirak etmədiyindən onun əhalisinin dəqiq sayını təyin etmək çətindir. Təxmini dəyərləndirmələrə görə 2007-ci ildə Cənubi Osetiyada 47.000 nəfər etnik osetin və 17.500 min nəfər etnik gürcü yaşayırdı. Lakin 2008-ci ildəki müharibədən sonra Cənubi Osetiyanı demək olar ki, bütün gürcü milliyətindən olan şəxslər tərk etdilər.

Təxminən 500 nəfər bu müharibədə həlak oldu. Beləliklə Cənubi Osetiyanın 2009-cu ildə əhalisinin sayı 54.500 nəfərə qədər azaldı [4].

**Cədvəl 4**

**Cənubi Osetiyanın etnik tərkibi**

| **İl** | **osetin** | **gürcü** | **rus** | **erməni** | **yəhudi** |
|---|---|---|---|---|---|
| 1886 | 57.786 | 20.652 | 11 | 1.357 | 1.956 |
| 1926 | 60.351 | 23.538 | 157 | 1.374 | 1.739 |
| 1939 | 72.266 | 27.525 | 2.111 | 1.537 | 1.979 |
| 1959 | 63.698 | 26.584 | 2.380 | 1.555 | 1.723 |
| 1970 | 66.073 | 27.993 | 1.574 | 1.254 | 1.485 |
| 1979 | 65.077 | 28.187 | 2.046 | 953 | 649 |
| 1989 | 65.232 | 28.544 | 2.128 | 984 | 396 |

**Mənbə:** Этнокавказ. Этносостав Южной Осетии в 1886-1989 //www.ethno-kavkaz.narod.ru/ossetia.html

2008-ci il avqustun 26-da Rusiya Federasiyası, sentyabrın 3-də Nikaraqua 2009-cu il sentyabrın 10-da Venesuela tərəfindən müstəqil dövlət kimi tanınır. Cənubi Osetiya Rusiya, Nikaraqua və Venesuela istisna olmaqla bütün başqa dünya dövlətləri tərəfindən Gürcüstanın əyaləti kimi tanınır [22].

Gürcüstan Abxaziya və Cənubi Osetiya ilə "yenidən" və "konstruktiv" əlaqələr qurulması istiqamətində addım atmaq istəyir. Gürcüstan Parlamentinin Xarici Əlaqələr Komitəsi, Xaricdə Yaşayan soydaşlarla (diaspora) Əlaqələr Komitəsi və Torpaq Bütövlüyü Müvəqqəti Komissiyasının 2009-cu ilin dekabr ayının 29-da keçirilən konfransında, bu istiqamətdə və bir növ "yol xəritəsi" olaraq adlandırılan sənəd müzakirə olunmuşdur. Gürcü nazir Temuri Yakobaşvili, parlamentin 9 səhifəlik bir strategiya sənədi hazırladığını bildirmişdir. Bu sənədin tam mətni, hələ hökumət tərəfindən təsdiqlənmədiyi üçün açıqlanmadı. "İşğal altındakı torpaqlara dair Dövlət Strategiyası" adlanan sənəd hakimiyyətin buistiqamətdə strategiyanın reallaşması üçün işlərin 2010-cu ilin yanvar ayının 1-dən başlaması və 31 İyul etibarilə tamamlanması hədəflənmişdi [8]

**Nəticə.** Gürcüstandakı regional problemlərin əsas qaynağını etnik müxtəlifliyin olmasıdı ki, bu da bölgədəki siyasi, tarix və beynəlxalq siyasi rəqabətdə dövlətin inkişafı üçün problemlərin davam etməsində əhəmiyyətli faktorlardandır. Siyasi tarix baxımından baxıldığında, məsələn Acaristan Muxtar Respublikası Sovet Rusiya zamanında da muxtar bir respublika olaraq qalırdı. Bölgədəki milli və dini fərqliliklər da bunu tələb edirdi. Abxaziya üçün də eyni vəziyyət olmuş və Sovet İttifaqı daxilində muxtariyyətini qoruya bilmişdi. Cənubi Osetiya isə tarix boyunca Gürcüstan

siyasi sərhədləri olmasına baxmayaraq, etnik mənşəyi baxımından Şimali Osetiyadan bir fərqi yoxdur. Bu siyasətin tətbiqi bölgədə hakimiyyət qurmuş olan SSRİ-nin Gürcüstana buraxdığı siyasi miras olaraq qalmışdır.

Mixail Saakaşvilinin hakimiyyətə gəldikdən sonra Gürcüstanın ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə separatçı bölgələri nəzarət altına almağa çalışmışdır. Bu çərçivədə Acarıstan bölgəsini hərbi müdaxilə ilə nəzarət altına almağı bacarmışdır. Saakaşvili bu zəfər sonrası eyni şəkildə Abxaziya və Cənubi Osetiya bölgələrini də nəzarət altına ala biləcəyini düşünürdü. Yaşanan gərginliklər gedərək artmış və Gürcüstanın Cənubi Osetiyaya girməsi nəticəsində qarşıdurma çıxmışdır. Çıxan qarşıdurmaya Rusiyanın da qarışması ilə problem transmilli bir hal almış və Rusiya-Gürcüstan münaqişəsinə çevrilmişdir. Qısa zamanda davam edən münaqişədən sonra Rusiya Cənubi Osetiya və Abxaziyanın müstəqilliklərini tanımışdır. Beləliklə, Gürcüstan Qərbə daha da yaxınlaşmışdır. Lakin gözlənilən dəstəyin görü bilməyən Gürcüstan hakimiyyəti Qərb yönümlü siyasətini bir qədər dəyişmişdir.

Gürcüstanda problemlərin həll edilə bilməsi üçün hər şeydən əvvəl ABŞ və Rusiya hərbi hissələrinin ya bölgədən çəkilməsi, ya da öz ölkələrinin maraqları yerinə beynəlxalq sülhü qorumağa və etnik rezistansı yumşaltmağa istiqamətli demokratiya və insan hüquqlarının həyata keçirilməsi istiqamətində istifadə edilməsi lazımdır. Bunun yanında Gürcüstan da etnik problemləri həll edə bilmək üçün problemli bölgədə etnik, dini və tarixi gerçəkləri göz qarşısında saxlayaraq demokratik bir həll axtarmaq məcburiyyətindədir. Məsələn Abxaziya müstəqilliyini elan etməsinə baxmayaraq heç bir ölkə tərəfindən tanınmayınca, bu an geri addım atmaq məcburiyyətində qalmışdır. Bu gün problemin əsas səbəbi Rusiya hərbi hissələrinin abxaz-gürcü sərhədinə yerləşdirilməsi və ABŞ əsgərlərinin yaxın bölgələrə yerləşdirilməsi ilə çox tərəfli bir problemə çevrilmiş ola bilər. Bunun yerinə Gürcüstanın Abxaziya ilə masa başında oturaraq bu problemin beynəlxalq tərəfsiz müşahidəçilərin köməkliyi ilə demokratik yolla həlli daha doğru olacaq.

2008-ci ilin avqustunda olan Rusiya-Gürcüstan münaqişəsi bir daha onu göstərdi ki, Cənubi Qafqaz regionunda baş verən hadisələrdə birbaşa Rusiyanın gizli də olsa müdaxiləsi vardır. Bu müharibədən sonra Gürcüstan və Ermənistanın xarici siyasətlərinin istiqamətlərində dəyişikliklər baş verməsə də, Azərbaycanın xarici siyasətinə yenidən baxışının şahidi olmaq olar. Müharibəyə qədərki dövrdə Ermənistan birmənalı şəkildə Rusiyapərəst, Gürcüstan tamamilə Qərbləşmə siyasəti yürütsə də, Azərbaycanın xarici siyasətinin istiqaməti balansı saxlamaqla qərblə inteqrasiya kimi izah edilirdi. Rusiya-Gürcüstan münaqişəsi zamanı Abxaziya və Cənubi Osetiya müstəqillik qazansalar da, lakin hələ də miqranların öz doğma yerlərinə qayıtması sual olaraq qalmaqdadır.

**Ədəbiyyat siyahısı:**

1. Aslanlı Araz, Küresel ve Bölgesel Dengeler Açısından Abhazya Sorunu, Karam, www.karam.org.tr/pdf/bolgesel...1251629624.pdf
2. Ardzınba Vladislav. Abhazya Cumhuriyeti. Cumhurbaşkanı Abhazya ve Gürcistan'ın hukuksal ilişkileri http://abhazya.org/
3. Açuqba Timur Kronolojik Abhaziya Tarihi. Çeviri: Oktay Çkotua. İstanbul, 2015 s. 141
4.Anıt Baba Abhazya'ya dönüş yapanlar (Repatriantların) hukuk rehberi. İstanbul , 2013, s .18
5. Bozkurt Giray Saynur, "Gürcistan'daki Etnik Çatışmalar Karşısında Türkiye ve Rusya'nın Tutumu", *Karadeniz Araştırmalar*, Say: 19, Güz, 2008, s.7-8
6. Blievin Mark "Cənubi Osetiya: Rusiya-Gürcüstan münasibətlərinin toqquşmasında" Moskva, 2013. // http://1905.az/cənubi-osetiya-gurcustan-munasibətləri-blievin-birtərəfli-baxisinda
7. Cincal Sokrat Abhazya Parlamentosu Başkanı //http://www.kapba.de/Tarih.html 15.10.1997
8. Çelikpala Mitat. Gürcistan'ın Yeni Abhazya-Güney Osetya "Açılımı"? Kafsam Politika Notu 1001 / 7 Ocak 2010 Qafqaz Strateji Araşdırmalar Mərkəzi ).
9. Ersoy Hayri, Sürdüler Sürgün Oldum 2005 , İstanbul s. 21-22
10. Qartal Çətin .Gürcistan ve Türkiye. Edirne, 2007, s. 135-136
11. Kostantin Kazenin, "Грузино-абхазский конфликт: 1917-1992" apsnyteka.org/794 - kazenin _k_gruzino_abhazskiy_koflikt_1917_1992html
12. Karayel Erol, "Kafkasya'da Etnik Çatışmalar: Sebepler ve Çözümler", Kafkas Vakfı Bülteni, 1998. www.kafkas.org/bgkafkas/etniksorunlar.html. 23.10.2005
13. Mərt Okan, Türkiye'nin Kafkasya Politikası ve Gürcistan, İQ Kültür-Sanat Yayıncılık, 1.Baskı, İstanbul, Sentyabr, 2004
14. Türkiyənin Güney Kafkasya Ülkeleriyle ilişkileri. http//www.mfa.gov. tr/turkce/grupa/kafkasya.htm
15. Turan Anar. Cənubi Qafqazda "dondurulmuş münaqişələr". 16.11.2013 http://karabakhinfo.com/11835
16. Tavkul, U., "Tarihi ve Etnik Yapısıyla Kafkasya", Yeni Türkiye Dergisi, Yıl:3, Sayı:16, Temmuz-Ağustos ,1997.
17. Yalçınkaya, Alâeddin. Kafkasya'da Siyasi Gelişmeler Etnik Düğümden Küresel Kördüğüme, Ankara, Lalezar Kitapevi, 2006, s. 189
18. Yavuz G.Yıldız, Kafkas Toplumlarının Siyasi ve Ekonomik Yapıları ve Gelişmeleri ile Bunlar Üzerinde Güç ve Rekabet Mücadeleleri ve Türkiye'nin İzlemesi Gereken Politikalar", Kafkaslar, Orta Doğu ve Avrasya Perspektifinde Türkiye'nin Önemi Sempozyumu, Harp Akademileri Yayını, İstanbul, 28-29 Nisan 1998, s.180.
19.Tarihte Abhazlar https://turkiyeabhazyayitanisin.wordpress.com/abhazya-tarihi
20. Abhazya ve Abhazya Tarihi. www.mszlabs.org\forum\tarih
21. Kafkasya'daki rus işgali ve kafkasya'nın siyasi-sosyal durumu hakkında Rapor, 2013.imkaander.org.tr s. 4.
22.Cənubi Qafqazda "dondurulmuş" münaqişələr. //http://www.xalqqazeti.com/ az/news / analytics

## Əlavələr

### Gürcüstanın etnik xəritəsi




### Abxaziyanın fiziki xəritəsi



# AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ: KİTABXANALARIN YANAŞMASI (AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN PREZİDENT KİTABXANASININ MATERİALLARI ƏSASINDA)

**Həsənova Aysel Vaqif qızı**
**Kitabxanaçılıq-informasiya fakültəsi, doktorant**
**sahra.hsnv@mail.ru**

*Məqalədə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının materialları əsasında Azərbaycan Respublikasının tarixinə dair informasiya öz əksini tapmışdır. Kitabxananın Azərbaycan Respublikasının tarixi və mədəniyyətinin təbliği baxımından önəmli informasiya müəssisəsi olduğu qeyd olunur. Həmçinin tədqiqata kitabxananın yaratdığı "Azərbaycan Respublikası" elektron layihəsi cəlb edilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Prezident Kitabxanası, elektron layihə, sənəd-informasiya təminatı*

***Azerbaijan Republic in independence years: approach of libraries (based on the materials of the Presidental Library at the Administrative Department of President of Azerbaijan Republic)***

*The article reflected information on Azerbaijan history based on the materials of Presidential Library at the Administrative Department of the President of the Republic of Azerbaijan. This paper indicates an importance of the library and describes it as an institution for the promotion of history and culture of Azerbaijan Republic. İn article has been involved in research "Azerbaijan Republic" electronic project.*

***Key words:*** *Azerbaijan Republic, Presidential library, electronic library, document information provision*

XX yüzilliyin sonunda yenidən müstəqilliyə qovuşmuş Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Müstəqilliyin ilk illərində baş verən çətinliklər Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxanalardan da yan keçməmişdi. Kitabxanaların çoxu bağlanmaq təhlükəsi ilə üzləşmişdi. 1992-1993-cü illərdə 100-dən artıq partiya kitabxanası, 326 həmkarlar təşkilatı kitabxanası və 100-ə yaxın texniki kitabxana bağlanmışdı [3, s. 9].

Kitabxanaların məhv olması dövləti həyəcan təbili çalmağa vadar etdi. Belə ki, dövlət artıq ciddi tədbirlər görməyə başladı. Kitabxanaların məhv olmasının qarşısını almaq üçün 1995-ci il sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1993-2003) tərəfindən "Azərbaycan

Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" fərman imzalandı. Bu fərmanın birinci bölməsində özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı verildi. Bu siyahıya kitabxanaların daxil edilməsi onları özəlləşdirilmək bəlasından xilas etdi [2, s. 223].

1996-cı ildə bilavasitə Prezidentin tövsiyəsilə Azərbaycan Respublikası Nazirlər Kabineti Kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırılmasına dair qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrinin qorunub saxlanılması və əhaliyə kitabxana xidmətinin daha da yaxşılaşdırılması, kitabxanalara diqqətin artırılması əsas vəzifə kimi qarşıya qoyulmuşdu.

1998-ci ildən başlayaraq dövlət büdcəsindən kitabxanalara yeni ədəbiyyat almaq üçün vəsait ayrılmağa başladı [3, s. 9].

Ümumiyyətlə, bu dövr Azərbaycanda kitabxana işi haqqında dövlət siyasətinin formalaşdığı illər olmuşdu. 29 dekabr 1998-ci ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi [1, s. 95].

Müstəqillik illərində respuublikada yeni dövlət statusuna malik olan kitabxanalar yaradılmış və bir sıra kitabxanalara ali, elmi statuslar verilmişdir. Azərbaycan tarixinin öyrənilməsi və müstəqillik illərində Azərbaycan Respublikasının inkişaf istiqamətlərinin öyrənilməsi sahəsində kitabxanaların rolu əvəzsizdir. Bu günə qədər kitabxanaşünas alimlər tərəfindən Azərbaycan Respublikasının hərtərəfli tədqiqi və müstəqillik illərində kitabxana siyasətinin formalaşması istiqamətində addımlar atılmışdır. Xüsusilə professor Abuzər Xələfov bu sahəyə xüsusi həssaslıqla yanaşmışdır. Müəllifi olduğu dərslik və dərs vəsaitlərində və monoqrafiyalarda, o cümlədən məqalələrdə müstəqillik illərində Azərbaycan tarixinə, müstəqillik illərində inkişafına dair məlumat əldə etmək olar.

Bundan əlavə, Azərbaycan Respublikasının tarixi və müasir vəziyyətinin dünyada təbliği baxımından Prezident Kitabxanasının fəaliyyətini vurğulamaq mütləqdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra ictimai fəaliyyətin bir sıra sahələrində olduğu kimi, kitabxana sahəsində də əsaslı dəyişikliklər baş verdi. Dövlətin ali icra orqanı olan Prezident Aparatının fəaliyyətinin sənədlə, kitabxana xidməti ilə təminatının zəruri olması nəzərə alınmaqla, 1992-ci ilin yanvarında fəaliyyəti dayandırılmış S.M.Kirov adına Siyasi Maarif Evinin Kitabxanası Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tərkibinə verildi və ölkənin ali icra hakimiyyəti orqanının, eləcə də, digər dövlət qurumlarının mütəxəssislərinə xidmət etməyə başladı. 2003-cü il yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin göstərişi ilə bu kitabxana daha yüksək statusda Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası kimi yenidən təşkil edildi. Kitabxananın fəaliyyətinin daha da geniş təşkil edilməsini təmin

etmək məqsədilə Mərkəzi şəhər kitabxanasının fondu da İşlər İdarəsinin Kitabxanasına verildi. Beləliklə, Prezident Kitabxanası iki zəngin kitabxananın bazasında yaradıldı. Onlardan biri vaxtilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin S.M.Kirov adına Siyasi Maarif Evinin Kitabxanası, ikincisi isə Mərkəzi Şəhər Kitabxanası idi [4, s.18].

2005-ci il dekabrın 9-da isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə kitabxanaya İşlər İdarəsinin sektor statusu verilmişdir. Həmin vaxtdan etibarən Kitabxananın bütün əməkdaşları dövlət qulluqçularıdır.

Keçən dövr ərzində Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında fəaliyyətin bütün istiqamətlərinin ardıcıl olaraq təkmilləşdirilməsi həyata keçirilmiş, maddi-texniki baza gücləndirilmiş, yeni metod və texnologiyalar mənimsənilmiş, kadrların bilik və peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər görülmüşdür.

2006-cı ildə kitabxana ən müasir fərdi kompyuterlər və digər hesablama qurğuları, şəbəkə texnikası, çap üçün avadanlıq və s. ilə təchiz edilmişdir. Kitabxana 2007-ci il yanvarın 9-dan Prezident Kitabxanası kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezident İşlər İdarəsinin Prezident Kitabxanası ardıcıl olaraq oxuculara xidməti təkmilləşdirmək üçün müasir kitabxana-informasiya ximətinin yeni forma və üsullarından istifadə etməyə üstünlük verir. Yeni iş üsulları təcrübədə sınaqdan keçirilir, ən yaxşıları seçilir və kitabxana işinə tətbiq edilir.

**Azərbaycan Respublikası müstəqillik illərində: kitabxanaların yanaşması.** Prezident Kitabxanası elektron biblioqrafik informasiya və sənəd informasiya resurslarının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Bu işlərin həyata keçirilməsi xüsusi plan əsasında aparılır:

1.Kitabxananın fondunda olan kitabların və dövri nəşrlərdəki məqalələrin elektron formada biblioqrafik verilənlər bazasında (elektron kataloq və kartotekada əks olunması);

2.Kitabxananın fondunda olan ən əhəmiyyətli kitabların və dövri nəşrlərdə dərc edilmiş aktual materialların tammətnli verilənlər bazasının tərtib ediməsi;

3.Kitabxananın fondunun elektron nəşrlərlə komplektləşdirilməsi yolu ilə elektron Sənəd-informasiya resurslarının zənginləşdirilməsi.

Prezident Kitabxanasında elektron sənəd-informasiya mənbələri iki istiqamətdə həyata keçirilir: e-resurslar və e-layihələr. İndiyə qədər kitabxanada 11 adda e-resurs və 16 adda e-layihə yaradılmışdır.

Prezident Kitabxanasının əməkdaşları dövlət müstəqilliyimizin bərpasının 20 illiyi ilə əlaqədar 9 fəsildən ibarət "Azərbaycan Respublikası" adlanan internet layihə-elektron resurs hazırlamışlar. Layihədəki materiallar 9 tematik hissədən, onların daxilində 29 bölmədən və onların tərkibində altbölmələrdən ibarətdir. Layihənin yaradılmasında mövzu ilə bağlı

kitablardan, məqalələrdən və internetdəki informasiya resurslarından istifadə edilmişdir. Layihə müxtəlif ölkələrdə yaşayan, müxtəlif dillərdən istifadə edən auditoriya üçün nəzərdə tutulmuşdur və buna görə də, onun Azərbaycan, ingilis və rus versiyaları yaradılmışdır. Layihədə dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi istiqamətində görülən işlər, hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlar, həmçinin müstəqil Azərbaycanın ötən 20 il ərzində dünya birliyinə inteqrasiyası, beynəlxalq qurumlarla qarşılıqlı münasibətləri haqqında materiallar toplanmışdır.




"Azərbaycan Respublikası"elektron resursun ilk 3 fəsli dövlətçilik tariximizi, dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və dünya birliyinə inteqrasiyası sahəsində görülən işləri, demokratik və hüququ dövlət quruculuğu, sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində 20 ildə qazanılan uğurları özündə əks etdirir. Elektron resursa dövlətçilik atributlarının bərpası və dövlət quruluşunun əsaslarına dair sənədlər toplanılmışdır. İstifadəçilərə, həmçinin kitabxananın əməkdaşları tərəfindən hazırlanan müstəqilliyə qədərki dövrdə və müstəqillik illərində baş verən mühüm hadisələrin xronologiyası təqdim edilir (1988-ci ildən indiyədək) [5].

"Elektron resurslar" fəsli dövlət quruculuğunun müxtəlif sahələrini özündə əks etdirən kitabların və məqalələrin elektron versiyalarını özündə əks etdirir.

"Kitablar" altbölməsində Azərbaycan dilində 17 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Kitabların tam mətnini http://www.ebooks.az linkindən, yəni Prezident Kitabxanasının "Elektron kitablar" verilənlər bazasından əldə etmək mümkündür.

1062 səhifə həcmində və pdf formatında olan "Məqalələr" altbölməsində isə 227 adda məqalənin biblioqrafik təsviri və tammətni verilmişdir. Hər bir məqalənin üzərinə sıxdıqda eyni adlı məqalənin tam mətnini əldə etmək olar. Eyni zamanda burada biblioqrafik təsviri verilmiş məqalələrin tammətnini səhifəni aşağı sürüşdürməklə də əldə etmək mümkündür.

"Biblioqrafiya" fəslində istifadəçilərə kitabxananın fonduna daxil olan və müstəqil Azərbaycanın həyatının mühüm sahələrini əhatə edən kitabların, qəzet və jurnal məqalələrinin və avtoreferatların biblioqrafiyası təqdim edilir.

"Kitablar" altbölməsi Milli Məclis, Məhkəmə hakimiyyəti, Konstitusiya, Qanunlar, Məcəllələr, Fərmanlar və Sərəncamlar, Seçki, Hüquq, Siyasət, İqtisadiyyat, Statistika, Bələdiyyə, Ekologiya, Elm və təhsil, Mədəniyyət və turizm, Din, Bədən tərbiyəsi və idman, Kütləvi informasiya vasitələri və Diaspora adlı daxili bölmələrdən ibarətdir. Burada "Milli Məclis" bölməsində 225 adda Azərbaycan dilində və 1 adda rus dilində Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti ilə bağlı nəşr olunan ədəbiyyatın və Azərbaycan Respublikası Milli Məclisinin stenoqramları və protokollarının biblioqrafik təsviri öz əksini tapmışdır. Materiallar əks xronoloji qayda ilə düzülmüşdür. 1996-2016-cı illəri əhatə edir. "Məhkəmə hakimiyyəti" bölməsində 31 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. "Konstitusiya" bölməsində 36 adda Azərbaycan dilində, 9 adda rus dilində, 2 adda ingilis dilində ədəbiyyatın, ümumilikdə 47 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. "Qanunlar" bölməsində 33 adda Azərbaycan Respublikasında qəbul olunmuş qanunun biblioqrafik təsviri öz əksini tapmışdır. "Məcəllələr" bölməsi 61 adda Azərbaycan dilində, 30 adda rus dilində təsdiqlənən məcəllənin biblioqrafik təsviri verilmişdir. "Fərmanlar və sərəncamlar" bölməsinə Azərbaycan Respublikası Prezidentinin 2003-2016-cı illərdə imzaladığı 30 adda fərman və sərəncamın biblioqrafik təsviri daxil edilmişdir. "Seçki" bölməsində 11 adda Azərbaycan dilində, 1 adda rus dilində ədəbiyyatın və yaddaş kitabçalarının biblioqrafik təsviri verilib. Burada materiallar 1994-2010-cu illəri əhatə edir. "Hüquq" bölməsində 290 adda Azərbaycan dilində, 10 adda rus dilində, 7 adda ingilis dilində, ümumilikdə 307 adda kommentariyaya, dərslik və dərs vəsaitinə, qanun toplularına, aktlara verilən biblioqrafik təsvirlər və aktların və topluların ayrı-ayrı hissələrinə verilən analitik biblioqrafik təsvirlər öz əksini tapmışdır. "Siyasət" bölməsində 464 adda Azərbaycan dilində, 41 adda rus dilində, 51 adda digər dillərdə, ümumilikdə 556 adda siyasi ədəbiyyatın biblioqrafik təsviri öz əksini tapmışdır. "İqtisadiyyat" bölməsində 364 adda Azərbaycan dilində, 40 adda rus dilində, 14 adda digər dillərdə,

ümumilikdə 418 adda iqtisadi ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. “Statistika” bölməsində 132 adda Azərbayca dilində statistik məcmuə haqqında biblioqrafik məlumat verilmişdir. “Bələdiyyə” bölməsində Azərbaycanın yerli özünüidarəetmə fəaliyyəti, bələdiyyə siyasəti və Azərbaycan Respublikasında fəaliyyət göstərən bələdiyyələrin fəaliyyəti haqqında 21 adda ədəbiyyatın biblioqrafik təsviri əks edilib ki, onlardan 1-i türk dilindədir. “Ekologiya” bölməsində 103 adda məcmuə, məlumat və soraq kitabları, dərslik və dərs vəsaitləri, qanunvericilik aktları və topluları haqqında haqqındaa biblioqrafik məlumat verilmişdir ki, onlardan 1 adda ədəbiyyat ingilis dilindədir. “Elm və təhsil” bölməsində 54 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. “Mədəniyyət və turizm” bölməsində 84 adda Azərbaycan dilində, 21 adda rus dilində, 17 adda ərəb, türk, alman, ingilis və digər dillərdə, ümumilikdə 122 adda ədəbiyyatın biblioqrafik təsviri toplanmışdır. “Din” bölməsində 19 adda dini ədəbiyyatın, “Bədən tərbiyəsi və idman” bölməsində Azərbaycanın idman tarixi, Azərbaycan idmançılarının fəaliyyətini və Olimpiya komitəsinin fəaliyyətini özündə əks etdirən 13 adda Azərbaycan dilində, 3 adda ingilis dilində olan ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. “Kütləvi informasiya vasitələri” bölməsində isə 22 adda Azərbaycan dilində, 2 adda rus dilində, “Diaspora” bölməsində 23 adda Azərbaycan dilində, 8 adda rus dilində, ümumilikdə 31 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir.

2016-cı ilin noyabrına qədər olan məlumata əsasən qeyd etmək olar ki, 167 səhifə həcmində olan “Kitablar” bölməsində ümumilikdə 2273 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Bu bölmədə müxtəlif növ ədəbiyyat haqqında biblioqrafik məlumat almaq olar ki, bu ədəbiyyat növlərinə dərslik, dərs vəsaiti, məqalələr toplusu, qanunvericilik aktları, statistik məcmuələr, fərman və sərəncamlar, qanunlar və s. daxildir. [6]

“Məqalələr” altbölməsində 2004-2016-cı illərdə nəşr olunan məqalələrin biblioqrafik təsviri verilmişdir. Bu fayl 58 səhifə həcmində və pdf formatındadır. Bu altbölmədə 2016-cı ildə 145 adda, 2015-ci ildə 89 adda, 2014-cü ildə 110 adda, 2013-cü ildə 134 adda, 2012-ci ildə 75 adda, 2011-ci ildə 197 adda, 2010-cu ildə 31 adda, 2009-cu ildə 40 adda, 2008-ci ildə 24 adda, 2007-ci ildə 27 adda, 2006-cı ildə 23 adda, 2005-ci ildə 21 adda, 2004-cü ildə 34 adda, ümumilikdə 950 adda məqalənin biblioqrafik təsviri öz əksini tapmışdır. Onlardan 824 məqalə Azərbaycan dilində, 2 məqalə İngilis dilində, 124 məqalə rus dilindədir. [6]

“Avtoreferatlar” altbölməsi də özlüyündə iki bölməyə ayrılır ki, onlardan biri Azərbaycan dilində, digəri isə rus dilində olan avtoreferatları özündə əks etdirir. 32 səhifə həcmində olan bölmədə 1999-2016-cı illəri əhatə edən 305 adda Azərbaycan dilində olan avtoreferatın, 2001-2016-cı illəri əhatə edən 96 adda rus dilində olan avtoreferatın biblioqrafik təsviri verilmişdir. [6]

"Fotoqalereya"bölməsi müstəqil Azərbaycanın keçdiyi tarixi yolun fotoxronikasını özündə əks etdirir. Burada 106 foto öz əksini tapmışdır.

Layihənin rus və ingilis dilində olan versiyaları ilə Azərbaycan dilində olan versiyaları arasında müəyyən fərqlər vardır. Layihənin ingilis dilində olan versiyasında "E-resources" bölməsinin "e-books" altbölməsində 5 adda kitabın, "Articles" altbölməsində 36 adda məqalənin biblioqrafik təsviri və tammətni öz əksini tapmışdır. Rus dilində olan versiyasında isə "Электронные ресурсы" bölməsinin "Книги" altbölməsində 36 adda kitabın biblioqrafik təsviri, "Статьи" altbölməsində 46 adda rus dilində olan məqalənin biblioqrafik təsviri və tammətni öz əksini tapmışdır.

"Bibliography" bölməsində 611 adda Azərbaycan dilində kitabın, 86 adda rus dilində olan kitabın, 75 adda digər dillərdə olan kitabın, ümumilikdə 772 adda kitabın biblioqrafik təsviri verilmişdir. 2016-cı ilin noyabr ayına olan məlumata görə bu faylın həcmi 57 səhifədir. "Articles" və "Статьи" altbölmələrində isə "Dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş tədbirlər" adlanan altbölməsində 27 adda sənədin və Azərbaycan dilində olan 270 adda məqalənin, 12 adda sənədin və 52 adda rus dilində olan məqalənin, 15 adda ingilis dilində olan məqalənin biblioqrafik təsviri verilmişdir. Hər iki bölmədəki məqalələr Azərbaycanlı müəlliflər tərəfindən Azərbaycanda və Azərbaycandan kənarda ingilis dilində nəşr edilən məqalələrdir.

"Abstracts" altbölməsi və "Авторефераты" altbölməsi eyni informasiyanı əhatə edir və burada Azərbaycan dilində 112 adda, rus dilində 49 adda olan avtoreferatın biblioqrafik təsviri verilmişdir.

**Nəticə.** Cəmiyyətin sənəd-informasiya təminatında kitabxanalar xüsusi rola və əhəmiyyətə malikdirlər. Öz fondlarında çap əsərlərindən və digər sənədlərdən ibarət zəngin kolleksiyalar yaradan kitabxanalar onları tələbatçıların istifadəsinə verir. Müasir ictimai fəaliyyətin heç bir sahəsi (maddi istehsalat, təhsil, elm, səhiyyə, hərbi iş, ətraf mühitin mühafizəsi və s.) mükəmməl sənəd-informasiya təminatı olmadan fəaliyyət göstərə bilməz. Sənəd formasında olan informasiya mənbələri (kitab, məqalə, hesabat, normativ sənəd, dissertasiya, patent və s.) hər hansı hadisə, problem, proses, obyekt haqqında həm ümumi, həm də detallı məlumat əldə etməyə, bu barədə müxtəlif yanaşma və fikirlərlə tanış olmağa şərait yaradır. Bu informasiyanı əldə edən şəxs maraqlandığı sualla bağlı daha dolğun məlumat əldə edir ki, bu da tədricən sistemli biliyə, fikir söyləmək, qərar çıxarmaq üçün istinad nöqtəsinə çevrilir.

Məlumdur ki, cəmiyyətin sənəd-informasiya təminatı ilə sənəd-kommunikasiyalar sisteminə daxil olan təsisatlar (kitabxanalar, arxivlər, elmi və texniki informasiya orqanları, nəşriyyatlar və kitabların, digər nəşriyyat məhsulunun yayımını həyata keçirən müəssisələr) məşğuldur ki, bunların içərisində kitabxanaların müstəsna rolu vardır.

Kitabxanalar cəmiyyətin ehtiyac hiss etdiyi informasiyanı özündə əks etdirən ən müxtəlif forma və təyinatlı sənədlərdən ibarət fondlar yaradır və həmin sənədləri müvəqqəti olaraq tələbatçılara verməklə onların ictimai istifadəsini təşkil edir. Tələbatçı bu sənədlərdən həm kitabxana binasında, həm də abonoment xidməti ilə istifadə edə bilər. Onu da qeyd etmək lazımdır ki, XX əsrin son rübündə informasiya texnologiyalarının xüsusilə geniş inkişafı və onun nailiyyətlətinin kitabxana fəaliyyətinə daha intensiv tətbiq edilməsi nəticəsində kitabxanalarda tələbatçıların sənəd-informasiya təminatı sahəsində yeni istiqamətlər yaranmışdır. Əgər əvvəllər kitabxana ancaq hazır sənədlər alırdısa, artıq qabaqcıl kitabxanalar prinsipcə yeni bir fəaliyyətlə məşğul olmağa başlamışlar. Onlar özləri həmin kitabxananın profilinə, istifadəçilərinin tələbatına müvafiq olan sənədlərin toplanması, rəqəmləşdirilməsi, tərcüməsi, analitik-sintetik işlənməsi, redaktə və tərtibat işlərinin yerinə yetirilməsi ilə müxtəlif həcmli, təyinatlı soraq-informasiya və təmmətnli resurslar yaradılır. Bir sıra hallarda mətnlər bilavasitə kitabxananın mütəxəssisləri tərəfindən tərtib edilir. Bu isə kitabxana fəaliyyətində keyfiyyətcə yeni bir iş hesab edilə bilər. Bu resurslar lazımi hallarda yardımçı biblioqrafik siyahılarla, xəritə və illustrasiyalarla təchiz edilir. Kitabxananın başlıca ənənəvi xidmət və fəaliyyət formalarından əsaslı şəkildə fərqlənən bu fəaliyyət tələbatçıların informasiya ehtiyacları barədə dolğun təsəvvürün olmasını, eləcə də xeyli bilik, səriştə, vaxt və zəhmət tələb edir.

Aparılan tədqiqatın nəticəsində aşağıdakı nəticələri qeyd etmək lazımdır:

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası Azərbaycan tarixinin və mədəniyyətinin təbliği üçün elektron resurslar və elektron layihələr yaradır;
2. "Azərbaycan Respublikası" elektron layihəsi Azərbaycan tarixinin və müstəqillik illərində inkişafının təbliği baxımından mühüm informasiya mənbələrindən biridir.

**Ədəbiyyat siyahısı:**

1.Əhmədov E.Y. Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası. Bakı, 2012, 216 s.
2.Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə. Bakı, 2010, 432 s.
3.Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. Bakı, 2009. 185 s.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Bakı, 2013, 87 s.
5. Müstəqil Azərbaycan. http://republic.preslib.az ; http://files.preslib.az /projects /republic/az/
6. Elmi-nəzəri, metodik və təcrübi jurnal . //www.anl.az/el/emb/Kitabxanaçılıq /dergiler/biblioqrafiya/2_2010.pdf

# QONŞU DÖVLƏTLƏRDƏ MÖVCUD OLAN AZƏRBAYCAN MƏKTƏBLƏRİ

**Həsilova Sona Namiq qızı**
**BDU, magistrant**
**sonya.hesilova@mail.ru**

*Məqalədə dünya azərbaycanlılarının həyatında əsas yeri tutan Azərbaycandilli məktəblər məsələsinə toxunulmuşdur. Azərbaycana qonşu olan dövlətlərdə fəaliyyət göstərən məktəblərin fəaliyyətinə nəzər salınmış, təhsil sahəsində soydaşlarımızın qarşılaşdığı problemlər araşdırılmışdır. Təhsil müəssisələrinin fəaliyyət göstərdikləri regionlar, adları dəqiqliklə göstərilmişdir.*

***Açar sözləri:*** *Azərbaycan məktəbləri, Dünya azərbaycanlıları, İran azərbaycanlıları, qonşu dövlətlər, qardaşlaşmış məktəblər*

***The Azerbaijani schools existing in the neighboring countires***

*The article concerns the condition of Azerbaijani schools. It was glanced the activity schools in the neighboring states of Azerbaijan and researched the problems of our compatriots in education sphere. The name and the region of acting education institutions were shown in this article.*

***Key words:*** *The schools of Azerbaijan, Azerbaijanis of the world, Azerbaijanis of İran, neighboring states, fraternizaing schools*

**Giriş.** Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan müstəqil dövlət olaraq mövcudluğunu itirsə də azərbaycanlılar yenə mövcudluğunu saxladı və böyük sürətlə dünyanın hər bir nöqtəsinə yayılmağa başladı. Bir azad ruhlu xalq olaraq Azərbaycan xalqı Amerikanın ən soyuq nöqtəsindən Afrikanın ən qızmar nöqtələrinə qədər torpaqları özünə məskən etdi.

Bu bir gerçəkdir ki, ümumilikdə insanlar uzun müddət öz Vətənlərindən kənarda yaşayırlarsa, yad mühit, yad mədəniyyət onların bu və ya digər dərəcədə dəyişməsinə səbəb olur. Bu baxımdan, digər ölkələrdə yaşayan insanların öz milli köklərindən, adət-ənənələrindən ayrı düşməməsi üçün dövlətlər tərəfindən mədəniyyət mərkəzlərinin açılmasına, diaspora ilə iş çərçivəsində fəaliyyətə mühüm diqqət yetirilir. Bu fəaliyyətdə milliyyətin əsas komponentlərindən biri olan dilin unudulmaması, digər ölkələrdə dünyaya gəlmiş və böyüməkdə olan gənc nəslin Ana dilinə və adət-ənənələrinə bağlılığının qoruyub saxlamasına yardım etmək üçün Ana dilində təhsil verən məktəblərin açılmasına xüsusi diqqət yetirilir. Bu baxımdan, Azərbaycan və azərbaycanlılar da istisna deyillər. Belə ki, hazırda azərbaycanlıların daha çox yaşadıqları ölkələrdə Azərbaycan məktəblərinin açılması və fəaliyyət göstərməsinə bütün imkanlardan istifadə

edərək yardım göstərilməsi Azərbaycan dövlətinin xüsusi önəm verdiyi məsələlərdən biridir. Məktəblərin açılması üçün, konkret bir ölkədə yaşayan insanların sayı ilə bərabər, həm də dövlətlər arasında münasibətlərin müəyyən səviyyədə olması, həmçinin bu münasibətlərin xarakteri də vacib şərtlərdən biridir.

**Xaricə miqrasiya etmiş azərbaycanlılar arasında ana dilində təhsil məsələləri**. Dünyada 50 milyondan çox azərbaycanlı yaşayır, lakin azərbaycandilli məktəblərin sayı dünyada yaşayan azərbaycanlıların sayı ilə tərs mütənasibdir. Bunun üçün sadəcə 1 saylı cədvələ diqqət yetirmək yetərlidir.

**Cədvəl 1**

**Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların sayı**

| N | Ölkə adı | Sayı |
|---|---|---|
| 1 | ABŞ | 1.000.000 |
| 2 | Albaniya | 12.000 |
| 3 | Almaniya | 300.000 |
| 4 | Avstraliya | 8.000 |
| 5 | Avstriya | 19.000 |
| 6 | Argentina | 12.000 |
| 7 | Banqladeş Xalq Cümhuriyyəti | 170.000 |
| 8 | Belçika | 13.000 |
| 9 | Belarus | 6.600 |
| 10 | Birləşmiş Ərəb Əmirlikləri | 55.000 |
| 11 | Birma | 7.600 |
| 12 | Bolqarıstan | 64.400 |
| 13 | Böyük Britaniya | 70.000 |
| 14 | Braziliya | 74.000 |
| 15 | Butan krallığı | 1.500 |
| 16 | Çexiya | 2.000 |
| 17 | Çin Xalq Cümhuriyyəti | 30.000 |
| 18 | Danimarka | 56.000 |
| 19 | Estoniya | 1.800 |
| 20 | Əfqanlstan | 430.000 |
| 21 | Əlcəzair | 260.000 |
| 22 | Finlandiya | 11.600 |
| 23 | Fransa | 70.000 |
| 24 | Gürcüstan | 600.000 |
| 25 | Hindistan | 300.000 |
| 26 | İndoneziya | 44.600 |
| 27 | Ürdün Haşimi Krallığı | 410.000 |
| 28 | İraq | 800.000 |
| 29 | İran İslam Respublikası | 30.000.000 |
| 30 | İrlandiya | 4.000 |

| | | |
|---|---|---|
| 31 | İspaniya | 14.000 |
| 32 | İsveç | 20.000 |
| 33 | İsveçrə | 15.000 |
| 34 | İtaliya | 30.000 |
| 35 | Kanada | 174.000 |
| 36 | Küveyt | 18.000 |
| 37 | Qazaxıstan | 90.000 |
| 38 | Qırğızıstan | 16.000 |
| 39 | Latviya | 1.700 |
| 40 | Litva | 1.500 |
| 41 | Macarıstan | 26.000 |
| 42 | Malta | 2.500 |
| 43 | Meksika | 26.000 |
| 44 | Misir | 850.000 |
| 45 | Moldova | 5.000 |
| 46 | Monqolustan | 4.800 |
| 47 | Hollandiya | 20.000 |
| 48 | Norveç | 50.000 |
| 49 | Oman Sultanlığı | 19.000 |
| 50 | Özbəkistan | 60.000 |
| 51 | Pakistan İslam Respublikası | 350.000 |
| 52 | Polşa | 10.000 |
| 53 | Portuqaliya | 8.000 |
| 54 | Rumıniya | 44.000 |
| 55 | Rusiya Federasiyası | 2.000.000 |
| 56 | Səudiyyə Ərəbistanı Krallığı | 40.000 |
| 57 | Slovakiya | 2.000 |
| 58 | Sudan Demokratik Respublikası | 17.000 |
| 59 | Suriya Ərəb Respublikası | 92.500 |
| 60 | Tackistan Respublikası | 13.400 |
| 61 | Türkiyə Cümhuriyyəti | 3.000.000 |
| 62 | Türkmənistan Respublikası | 33.300 |
| 63 | Ukrayna | 500.000 |
| 64 | Yaponiya | 10.000 |
| 65 | Yeni Zenlandiya | 2.000 |
| 66 | Yəmən Respublikası | 58.000 |
| 67 | Yunanıstan | 12.400 |

**Mənbə:** Azərbaycan diasporunun yerləşmə coğrafiyası (1,1)

Fikrimizi azərbaycanlıların çox yaşadıqları bir neçə yaxın ölkənin timsalında nəzərdən keçirək. Məsələn, İran. İranda milyonlarla azərbaycanlının yaşamasına baxmayaraq bu dövlətdə Azərbaycan məktəbi yoxdur.

İllərdir bu məsələ ətrafında çox mübahisələr getsə də, qeyd edə bilərik ki, 2016-cı ildə İranın Təbriz Universitetində Azərbaycan dili tədris olunmağa başlanmışdır.

Azərbaycanlıların ən çox yaşadığı ölkələrdən biri də Rusiyadır. Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycanın etnomədəni komponentləri əsasında 157 saylı məktəb fəaliyyət göstərir. 17 ildir ki fəaliyyət göstərən bu məktəb K.Kərimovun adını daşıyır. Məktəbdə Moskvada yaşayan azərbaycanlı uşaqlara Azərbaycanın tarixi, mədəniyyəti, dili və adət-ənənəsi öyrədilir. Bu məktəbin bir özəlliyi də ondadır ki, məktəb təkmillətli deyil çoxmillətlidir. Rusiyada 2009-cu ildə Heydər Əliyev fondunun dəstəyi ilə Azərbaycan etnomədəni komponentləri ilə 940 saylı Moskva ümumtəhsil linqvistika məktəbi açılmışdır [2].

Azərbaycanlıların daha çox yaşadığı regionlardan biri də Dərbənddir. 2006-cı ilin sentyabrında Dərbəndin Cəmikənd kəndində Heydər Əliyev adına məktəb açılmışdır. Məktəb, hərəsində 520 şagird yeri olan iki korpusdan ibarətdir [3].

2007-ci ildə Palmali şirkətlər qrupunun rəhbəri M.Mənsimovun dəstəyilə Ərdahan vilayətində Türkiyə-Azərbaycan qardaşlıq məktəbi açılmışdır.

2016-cı ilin noyabrında "SOCAR" Dövlət Neft Şirkətinin binasında "Dərbənd" Xeyriyyə İctimai Birliyi "Azərbaycan Dili "adlı dərsliyin təqdimatı keçirilmişdir.

Dərbənddə mövcud problemlərdən biri də məktəblərdə Azərbaycan dili fənninin tədris saatlarının az olmasıdır.

2016-cı il fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Qardaşlaşmış məktəblər" layihəsi çərçivəsində Rusiya, Türkiyə və Azərbaycan məktəbliləri arasında "Qardaşlaşma Sazişi" imzalanmışdır [4].

Azərbaycana həm siyasi baxımdan həm də milli köklər baxımından ən yaxın – qardaş ölkə olan Türkiyədə də çoxlu azərbaycanlı yaşasa da təəssüf hissi ilə bildirmək lazımdır ki, burada da Azərbaycan məktəbləri həddindən artıq azlıq təşkil edir.

2015-ci ilin martında Qarsda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Heydər Əlyev adına Anadolu peşə və Anadolu texniki liseyinin açılışı gerçəkləşmişdir. Bu məktəbdə 424 şagirdə təhsil verilməsi, yataqxananın isə 200 yerlik olması nəzərdə tutulmuşdur [5]. Bundan başqa, 2014-cü ildə İstanbulda məktəb açılmışdır ki, bu da Zeynəbiyye Halkalıda yaşayan və qeydiyyatda olmayan azərbaycanlı ailələrin uşaqları üçün nəzərdə tutulmuş "Zehra Ana" dərnəyinin nəzdində olan ibtidai məktəbdir. Bu məktəbdə də Azərbaycandan gələn üç müəllim 75 şagirdə Azərbaycan Təhsil Nazirliyinin qaydalarına əsasən dərs keçirlər [6].






Şəkil 1. Şəkil 2.

Lakin nəzərə alsaq ki, Türkiyədə 3 milyondan çox azərbaycanlı yaşayır, bu zaman Türkiyədə yerləşən Azərbaycan məktəblərinin sayı həqqiqətən də azdır. Türkiyədə Azərbaycan məktəblərinin az olması ilə bağlı göstərilən müxtəlif səbəblər sırasından biri, fikrimizcə çox maraqlıdır. Əvvəldə qeyd etmişdik ki, "yad mühit" və "yad mədəniyyət" insanların dəyişməsinə, bu və ya digər dərəcədə öz köklərindən uzaqlaşmasına səbəb ola bilir. Türkiyədə nə mühit yad deyil, nə də mədəniyyət çox fərqli deyil. Dil baxımından da çox böyük fərq olmadığına görə, burada Azərbaycan məktəblərinin açılmamasının problem olmadığını hesab edənlər var.

Azərbaycanlıların ən çox məskunlaşdığı ölkələrdən biri də Gürcüstandır. Burada kifayət qədər Azərbaycan məktəbi mövcuddur. Məlumatlara görə, 2010-cu ilə qədər 124 Azərbaycan məktəbi fəaliyyət göstərmişdir. 2014-cü ildə Azərbaycan Respublikasından bu məktəblərə III-IX siniflər üçün 16 adda 20 min kitab göndərilmişdir. 2013-cü ildə Heydər Əliyev fondunun dəstəyi ilə üç Azərbaycan məktəbi: 73 saylı (M.F.Axundov adına), Dmanisi və Qardabanidə 2 saylı məktəb yenidən təmir olunmuşdur [7].

Lakin qeyd edilməlidir ki, digər dövlətlərlə müqayisədə Gürcüstanda məktəblərin sayının çox olmasına baxmayaraq, ümumilikdə onlarla bağlı vəziyyət bir o qədər də ürək açıcı deyildir. Əgər əvvəllər bu ölkədə ümümilikdə 168 Azərbaycan məktəbi fəaliyyət göstərirdisə hal-hazırda bu rəqəm azalaraq 124 olmuşdur. Müəllim kontingentinin 67% -i təqaüdçüdür. Borçalıda 500 min azərbaycanlının yaşamasına baxmayaraq burada məktəb direktorlarının demək olar ki, hamısı gürcüdür. Marneulidə isə 54 məktəb fəaliyyət göstərir. 2010-cu ildə diasporanın apardığı işlər nəticəsində 25

məktəbdə müsbət nəticə əldə olunmuşdur [8].

Yekun olaraq qeyd edək ki, dünyanın digər regionlarında, azərbaycanlıların yaşadıqları bir sıra digər dövlətlərdə də az sayda olsa da Azərbaycan məktəbləri fəaliyyət göstərir. Azərbaycan dövləti və dünyada fəaliyyət göstərən diasporamız bu məktəblərə vaxtaşırı kömək edir, onların fəaliyyəti üçün lazım olan yardımı göstərməyə çalışır. Ümumiyyətlə isə, azərbaycanlıların yaşadıqları ölkələrdə Azərbaycan məktəbləri, onların fəaliyyəti məsələsi fikrimcə əsaslı şəkildə araşdırılmalı, mövcud vəziyyət müəyyənləşdirilməli, yardım göstərilməli, həmçinin ehtiyac hiss edilən digər dünya dövlətlərində də Azərbaycan məktəblərinin fəaliyyətinə nail olmaq üçün müvafiq addımlar atılmalıdır.

**Nəticə.** Azərbaycanlıların xarici ölkələrdə yaşama coğrafiyasına baxarkən görmək olur ki, həqiqətən də azərbaycanlıların sayı ilə Azərbaycan məktəblərinin sayı tərs mütənasibdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan diasporasının yerləşim coğrafiyası http://www.azerbaijans.com/content_1713_tr.html
2. http://www.disput.az; http://www.azeri.ru/diaspora/organization/257/
3. Dərbənd rayonunda Heydər Əliyev adına məktəb acılacaq. http://azertag.az//xeber/
4. Rusiya,Türkiyə və Azərbaycan ziyalıları qardaşlaşan məktəbliləri təbrik etdilər. http://az.trend.az/azerbaijan/society/2494694.html
5. Türkiyə,Azərbaycan,Gürcüstan Cumhurbaşkanları okul açtı . http://www.haberler.com/turkiye-azerbaycan-gurcistan-cumhurbaskanlari-okul-7085314-haberi/
6. Zehra Ana Azerbaycan Okulu, 2014-2015 eğitim döneminin kapanışını ve karne törenini yapılan coşku dolu programla kutladı. http://www.zeynebiye.com/zehra-ana-azerbaycan-okulu-ndan-gurur-dolu-karne-toreni-(foto)_d85137.html
7. При поддержке российского представительства Фонда Гейдара Алиева в Москве капитально отремонтировано здание азербайджанской школы этнокультурного типа №157 имени Керима Керимова. http://1news.az/society/ 20140902113102963.html
8. http://vesti.az/news/

# AZƏRBAYCANIN ŞİMAL–QƏRB BÖLGƏLƏRİNDƏ KİTABXANALARIN FƏALİYYƏTİ

**Leyla Vaqif qızı**
**Tarix fakültəsi, kiçik elmi işçi**
**Leyla-Vaqif@mail.ru**

*Məqalədə kütləvi kitabxanaların cəmiyyətin sosial-mədəni həyatında və maariflənməsində rolu göstərilir. Şimal-Qərb bölgəsində yerləşən kütləvi kitabxanaların mərkəzləşdirmə prosesi və kitabxana işinin yaxşılaşdırılmasında qəbul olunmuş qərarların zəruriliyi izah olunur. Tədqiqat statistik məlumatlara əsasən araşdırılmış, cədvəllər verilmiş və təhlil edilmişdir.*
***Açar sözlər:*** *Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, kitabxana, statistik məlumat, kitabxana fondu, maarif*

***The activity of libraries in the North- western regions of Azerbaijan***

*The article describes the role of public libraries, social and cultural life and enlightenment. The centralization process of the Public libraries in the northwest region is explained by the importance of the decisions made in the improvement of library work. This research examines the statistical data, moreover, tables have been given and analyzed.*
***Keywords:*** *Balakan, Zaqatala, Qkah, Shaki, Oquz, Gabala, libraries, statistical information, library fund, enlightenment*

Azərbaycanın şimal-qərb rayonlarının (Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ) təhsil sistemi çox böyük yol keçmiş və bu sahədə ölkənin başqa rayonlarına nisbətən inkişaf etmişdir.

XIX əsrin ortalarından başlayaraq Çar Rusiyasında aparılan maarif və məktəb islahatı Rusiya tərəfindən işğal edilmiş Azərbaycanın təhsil sisteminə də təsir etdi. Azərbaycanda qəza ibtidai məktəbləri, müsəlman məktəbləri, gimnaziya və realnı məktəblər, rus-tatar məktəbləri, seminariyalar, rus və müsəlman qız məktəbləri və peşə məktəbləri yaranmağa başladı. Bu da xalqın maariflənməsinə, təhsil və mədəni səviyyəsinin yüksəlməsinə təkan oldu. Bu dövrdən başlayaraq təhsil sahəsində böyük uğurlar əldə edilmiş, hətta ucqar kəndlərdə belə yeni tipli məktəblər, qiraətxanalar və kitabxanalar çətinliklə olsa da açılırdı.

Təhsilin, maarifin və mədəniyyətin inkişaf etməsində və yayılmasında kitabxanaların rolu böyük oldu. Kitabxanalar adi saxlanma yerlərindən təhsil müəsissələrinə, qiraətxanalara çevrilmiş və cəmiyyətin sosial-mədəni dəyişikliklərində aktiv rol oynamışdır.

Kitabxana işinin tarixi çox qədimdir. İlk milli kitabxanamız olan və

əsası M.N.Tusi tərəfindən qoyulan Marağa rəsədxanasının kitabxanasını qeyd etmək olar. Ərəb alimi İbn Şakir Əl Kütibi göstərirdi ki, Marağa rəsədxanasının kitabxanasında 400 mindən çox kitab toplanmışdı. R. Fəzlullah tərəfindən yaradılmış akademiya tipli universitetin kitabxanasında isə İran, Hindistan, Çin, Misir, Bizans və başqa ölkələrdən gətirilmiş və özündə hazırlanmış 60 min adda müxtəlif dildə əlyazmalardan ibarət zəngin kitabxana var idi [6,s.14,15] .

XIX əsrin 40-cı illərindən başlayaraq Azərbaycanda yeni milli ictimai kitabxanalar və bir cox ziyalılar tərəfindən şəxsi kitabxanalar yaranmağa başladı [10]. Çar Maarif Nazirliyinin qəbul etdiyi əsasnaməyə əsasən bütün məktəblərin yanında məktəb kitabxanaları fəaliyyət göstərməli idi [4, s.261]. Bu da öz növbəsində kitabların nəşrinə tələbatı artırmışdı. Mətbuatın yaranma tarixi də məhz bu dövrə aid idi. Kitabxana işinin inkişafı yolunda bir sıra özünəməxsus çətinlikləri var idi. Bu çətinliklər kitabxanaların yeni ədəbiyyatlarla təmin olunmaması və mövcud kitabların rus dilində olması idi. Kitabxana işini inkişaf etdirmək üçün N.Nərimanov Azərbaycanda ilk ümumaçıq kitabxana-qiraətxana təşkil etmişdir və 1920-ci il oktyabrın 31-də [5,s.179] kitabxanaların milliləşdirib dövlət müəssisəsi elan edilməsi haqqında Azərbaycan İnqilab Komitəsinin dekretini imzalamışdı. Milliləşdirmə işindən sonra yeni kitabxana, səyyar kitabxana və uşaq kitabxanaları təşkil edilməyə başlandı. Hətta kəndlilər öz xərclərinə 500-ə qədər qiraət komaları tikdirmişdirlər. 1932-1933-cü illərdə respublikada 135 kitabxana fəaliyyət göstərirdi.

1935-ci il 4 iyun tarixində Azərbaycan Xalq Kommisarları Soveti tərəfindən kitabxana işi haqqında qərar qəbul olundu və qərara əsasən bütün respublikada geniş kitabxana şəbəkəsinin yaradılmasına başlandı [1,s.288]. Qərarın əhəmiyyəti kitabxana fondlarının dövlət əmlakı olaraq qorunmasında, kiatabxana işinin, uşaq kitabxanalarının və kitab saxlayıcılarının yaxşılaşdırılmasında rolu böyük oldu. Həmin illərdə kitabxanalarda kitab müzakirələri, məruzələr, ucadan oxular keçirilirdi. Nuxa (Şəki), Zaqatala rayonları bu sahədə qabaqcıl işlərilə fərqlənirdilər.

II Dünya müharibəsi illərində mədəni maarif müəssisələrinin azalmasına baxmayaraq müharibədən sonrakı illərdə bu müəssisələr yenidən intibah dövrünü yaşamağa başladı. Məsələn: Ümumrespublika üzrə 1946-cı ildə kütləvi kitabxanaların sayı 815 idi, 1970-ci ildə bu say artaraq 2922 olmuşdur [2, s.124].

Statistik məlumatlara əsaslanaraq, aşağıdakı göstərilən cədvəl 1-i təhlil etdikdə görürük ki, Azərbaycan Respublikası üzrə kitabxanaların ümumi sayı 1965-ci ildə 2413 idi, 1969-cu ildə 2852 olmuşdur, 1970-ci ildə 2922 olmuşdur. Şimal-Qərb bölgələrində yerləşən kitabxanaların ümumi sayını respublika ərazisində olan kitabxanaların sayı ilə müqayisə etdikdə aşağıdakı nəticəni əldə etmiş oluruq. Balakən rayonunda kitabxanaların sayı respublikada olan kitabxa-

naların sayının 1.11% təşkil edirdi. 1969-cu ildə bu say artaraq 1.29% olmuşdur, 1970-ci ildə 1.12% -ə enmişdir. 1965-ci ildə Vartaşen (Oğuz) rayonu üzrə kitabxanaların sayı respublika ərazisində olan kitabxanaların sayının 0.95% təşkil edirdi. 1969-cu ildə 1.01 %, 1970-ci ildə 0.92% olmuşdur. 1965-ci ildə Zaqatala rayonunda kitabxanaların sayı respublikada olan kitabxanaların sayının 2.19% təşkil edirdi. 1969-cu ildə 2.06 % artmış, 1970-ci ildə 1.81% azalmışdır. Zaqatala rayonu üzrə 1965-ci illə 1969-cu ili müqayisə etdikdə artım, 1969-cu illə 1979-cu ili müqayisə etdikdə isə kitabxanaların sayının azalması müşahidə olunur.1965-ci ildə Qax rayonunda yerləşən kitabxanaların sayı respublikadakı kitabxanaların sayının 1.20% təşkil etmişdir, 1969-cu ildə 1.40 %, 1970-ci ildə isə bu say azalaraq 1.36% olmuşdur. Qutqaşen (Qəbələ) rayonu üzrə kitabxanaların sayı 1965-ci ildə respublika ərazisində olan kitabxanaların sayının 1.45%, 1969-cu ildə 1.47%, 1970-ci ildə 1.40% təşkil etmişdir. 1965-ci ildə Şəki rayonu üzrə kitabxanaların sayı respublika ərazisində olan kitabxanaların sayının 1.78% təşkil etmişdir. 1969-cu ildə kitabxanaların sayı artaraq 1.85% olmuş, 1970-ci ildə isə 1.81% azalmışdır.

Bu təhlildən belə bir nəticəyə gəldik ki, Şimal-Qərb bölgələrinin kitabxanalarının sayında 1965-ci illə 1969-cu ili müqayisə etdikdə nisbətən artım, 1970-ci ildə isə əksinə kitabxanaların sayında azalma müşahidə olmuşdur. Bunu kiçik kitabxanaların və kəndlərdə təşkil olunmuş qiraətxanaların nisbətən iri kitabxanalarda birləşdirilməsilə izah etmək olar.

**Cədvəl 1**

**Respublika tabeliyində olan rayonlar üzrə kitabxanaların sayı (seçmə, ilin sonunda)**

| Rayonlar | Ümumi kitabxanaların sayı | | | Onlarda kitabların sayı-min nüsxə | | |
|---|---|---|---|---|---|---|
| | 1965 | 1969 | 1970 | 1965 | 1969 | 1970 |
| Respublika üzrə | 2413*) | 2852 | 2923 | 18459,3*) | 21931,0 | 22952,3 |
| Rayonlar: Balakən | 27 | 37 | 33 | 146,6 | 176,0 | 173,7 |
| Zaqatala | 53 | 59 | 53 | 249,5 | 261,1 | 285,7 |
| Qax | 29 | 40 | 40 | 178,7 | 241,3 | 253,2 |
| Şəki | 43 | 53 | 53 | 361,0 | 401,8 | 408,1 |
| Vartaşen (Oğuz) | 23 | 29 | 27 | 192,5 | 222,1 | 232,2 |
| Qutqaşen (Qəbələ) | 35 | 42 | 41 | 164,1 | 191,2 | 191,8 |

*) Общественные библиотеки по районам не распределены.

**Mənbə:** Народное хозяйство Азербайджанской ССР в 1970 (стр 381-382)

Kitabxanalarda yerləşən kitab fondlarının sayına gəldikdə isə, cədvəl 1-də kitabların sayı min nüsxə ilə qeyd olunmuşdur. Ümumi respublika üzrə 1965-ci ildə kitab nüsxələrinin sayı 18459,3, 1969-cu ildə 21931,0 və 1970-ci ildə artaraq 22952,3 olmuşdur.

Bunlardan ümumi respublika üzrə kitabxanalarda yerləşən kitabların sayının 1965-ci ildə 0.79%-i, 1969-cu ildə 0.80%-i, 1970-ci ildə 0.75%-i Balakən rayonunun payına düşürdü. Vartaşen (Oğuz) rayonunda 1965-ci ildə 1.04%, 1969-cu ildə 1.01%, 1970-ci ildə 1.01% kitab sayı olmuşdur. Zaqatala rayonunda 1965-ci ildə 1.35% kitab, 1969-cu ildə 1.19 % , 1970-ci ildə 1.24% olmuşdur . Qax rayonunun payına düşən kitabların sayı 1965-ci ildə 0.96%, 1969-cu ildə artaraq 1.10%, 1970-ci ildə 1.10% idi. Qutqaşen (Qəbələ) rayonunda 1965-ci ildə 0.88% kitab, 1969-cu ildə 0.87%, 1970-ci ildə 0.83% olmuşdur. 1965-ci ildə 1.95%, 1969-cu ildə 1.83%, 1970-ci ildə kitabların sayının 1.77%-i Şəki rayonunun payına düşmüşdür.

Eyni zamanda məhz 70-80-cı illərdə kütləvi kitabxanaların mərkəzləşdirmə prosesi başlanmışdı və bu proses Azərbaycanın şimal-qərb bölgələrində yerləşən rayon kitabxanalarına da öz təsirini göstərdi və bu bölgələrdə yerləşən rayon kitabxanaları da mərkəzləşmiş qayadada fəaliyyət göstərməyə başladı.

Nuxada (indiki Şəki) Nuxa qəza məktəbinin açılması ilə məktəb kitabxanalarının da əsası qoyulur. 1835-ci ildə qəza məktəbinin kitabxanasında 360 adda kitab var idi [3,s.89]. 1921-ci ildə 20 qiraətxana, 1925-ci ildə 24 qiraətxana fəaliyyət göstərirdi [8,s.132]. 1978-ci ildən Şəki rayonunda kitabxanalar Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) şəklində fəalliyyət göstərməyə başladı.

Qaxda 1906-cı ildə kitabxana açılmışdır. Kitabxana və qiraət zalları 1945-ci ildə mədəniyyət şöbəsinin sərəncamına daxil olur və kitabxanalardakı kitablar uçota alınır, həmin ildən 1953-cü ilə qədər isə bütün kənd kitabxanaları və qiraət komaları kitabxanalara çevrilir. 1949-cu ildə uşaq kitabxanası açılır. 1979-cu ildə yenitipli mərkəzləşdirilmiş kitabxana binası tikilir və həmin ildə Qax rayonunda kitabxanalar Mərkəzləşdirilmiş Kitabxana Sistemi şəklində fəaliyyət göstərməyə başlayır. Qax MKS-in tərkibində 48 kitabxana var, kitab fondu 333160 min nüsxədir [12].

1906-cı ildə Zaqatalada qiraətxana açılmışdır. 1923-cü ildə Zaqatala rayon Mərkəzi Kitabxanası yaradılmışdır. 1970-ci ildə kitabxana–informasiya şəbəkəsinin mərkəzləşdirilməsi həyata keçirilərkən 79 kitabxana filialı və 1 rayon Mərkəzi kitabxanası birləşdirilərək vahid rayon MKS yaradılmışdır [16].

Qəbələ rayon MKS 1930-cu ildən mərkəzi kitabxana kimi, 1976-cı ildən isə MKS kimi fəaliyyət göstərir, kitab fondu isə 165982 nüsxədir [13].

Oğuz rayonda 1941-ci ildə kitabxana açılmışdır. 1980-cı ildə sentyabr

ayında Oğuz rayon mərkəzi kitabxanası MKS-nə çevrilmişdir. Kitab fondu 174709 ədəddir [14].

Balakən rayon Mərkəzi Kitabxanası 1948-ci ildə yaradılmışdır. 1979-cu ildən rayonun kitabxanaları mərkəzləşmiş qaydada fəaliyyət göstərmək üçün MKS yaradılmışdır. Kitab 159322 nüsxədir [11].

Respublikada 1988-ci illərindən başlayaraq baş verən Dağlıq-Qarabağ problemi, siyasi-iqtisadi böhran başqa sahələrdə olduğu kimi kitabxanaların fəaliyyətinə və kitab nəşrinə mənfi təsir göstərdi.

2005-2014-cü illərin statistik məlumatlarına nəzər saldıqda, respublika üzrə kütləvi kitabxanaların sayı 2005-ci ildə 4004 idi, 2014-cü ildə isə bu say azalaraq 3291-ə enmişdir. Aşağıda verilən cədvəl 2-də 2005-2014-cü illərdə Azərbaycanın şimal-qərb bölgələrində kütləvi kitabxanaların sayı, onlarda olan kitab fondu göstərilmişdir. Bu sayı həmin illərdə respublika üzrə kütləvi kitabxanaların ümumi sayı ilə müqayisə etdikdə azalma müşahidə olunur. Balakən rayonunda 2005-ci ildə kütləvi kitabxanaların sayı 53, 2014-cü ildə 31 idi, bu da respublika üzrə 2005-ci ildə 1,32% -ni təşkil etmiş, 2014-cü ildə 0,94 % -ə enmişdir. Zaqatalada bu say 2005-ci ildə 1,99%, 2014-cü ildə azalaraq 1,73% təşkil etmişdir. Qax rayonunda 2005-ci ildə 1,59% təşkil etmiş, 2014-cü ildə 1,45% olmuşdur. Şəki rayonunda da bu sayın azalması müşahidə olunur. 2005-ci ildə 2,17% idisə, 2014-cü ildə bu say azalaraq 1,97% olmuşdur. Oğuzda 2005-2014-cü illərdə respublika üzrə kütləvi kitabxanaların ümumi sayı ilə müqayisə etdikdə, dəyişiklik olmamış və 0,82%-ni təşkil etmişdir. Qəbələ rayonunda yenə kütləvi kitabxanaların sayında azalma müşahidə olunur, yəni 2005-ci ildə Qəbələ rayonunda kütləvi kitabxanaların sayı 69 idi, 2014-cü ildə bu say azalaraq 27 olmuşdur ki, bu da ümumrespublika üzrə kütləvi kitabxanaların sayının 2005-ci ildə 1,72% -ni təşkil etmiş, 2014-cü ildə 0,82 % -ə enmişdir.

Bütün bu azalma prosesinə kitabxana binalarının yararsız vəziyyətdə olması, maddi-texniki bazanın zəif olması nəticəsində bağlanması, kiçik kəndlərdə olan kitabxanaların birləşdirilməsi və kitabxana binalarının özəlləşdirilməsi, bu binaların ticarət obyekti və başqa məqsədlər üçün istifadə olunması ilə izah olunur.

Kitabxanalarla yanaşı kitab fondlarının da azalması müşahidə olunur. Kitabxana binalarının təhlükəli vəziyətdə olması kitab fondlarının saxlanmasına, kitabların çoxunun kiril əlifbası ilə olması, yeni ədəbiyyatın azlıq təşkil etməsi bilavasitə kitab fondlarının azalmasına təsir etdi. Şübhəsiz ki, bu problemlər və informasiya texnologiyalarının, internetin yayılması oxucu kontingentinin azalmasına bir başa səbəb olmuşdur. Bütün bu problemləri aradan qaldırmaq üçün Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra kitabxana işinin perspektivini yaxşılaşdırmaq və artırmaq

məqsədilə bir sıra sərəncam verilmişdir.

**Cədvəl 2**

**Azərbaycanın Şimal-Qərb bölgələrində kütləvi kitabxanalar**

| | Balakən | | Zaqatala | | Qax | | Şəki | | Oğuz | | Qəbələ | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2014 | 2005 | 2014 | 2005 | 2014 | 2005 | 2014 | 2005 | 2014 | 2005 | 2014 |
| Kütləvi kitabxanaların sayı | 53 | 31 | 80 | 57 | 64 | 48 | 87 | 65 | 33 | 27 | 69 | 27 |
| Onlarda kitab fondu, 1000 nüsxə | 251,7 | 159,3 | 488,9 | 395,7 | 324,0 | 322,3 | 648,1 | 574,9 | 226,3 | 173,4 | 395,2 | 138,2 |
| Orta hesabla hər 1000 sakinə, nüsxə | 2896 | 1679 | 4350 | 3173 | 6022 | 5837 | 3907 | 3176 | 5758 | 4070 | 4381 | 1362 |

**Mənbə:** Dövlət Statistika Komitəsi //http://www.stat.gov.az/source/regions/

1996-cı ildə Azərbaycan hökuməti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən, son üç il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Yeni nəşrlər kitabxana fondlarını və onlardan istifadə imkanlarını xeyli genişləndirməklə yanaşı, həmin kitabların yerləşdirilməsi baxımından çətinliklər yaratmışdır [9] .

Azərbaycan Respublikasının Prezidenti 6 oktyabr 2008-ci il taixində "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzalanmışdır [15].

Son dövrdə oxucu kontingentini kitabxanaya yenidən cəlb etmək və fəallığını artırmaq üçün Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən bir sıra layihələr həyata keçirilmişdir. Buna misal "Səyyar kitabxanaçı" layihəsini göstərmək olar.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan tarixi. VII cilddə, VI cild.Bakı, Elm, 2008, 568 s.
2.Azərbaycan tarixi. VII cilddə, VII cild. Bakı, Elm, 2008, 608 s.
3.Əmrah M., Maisqızı M. Şəkidə təhsil:tarix, inkişaf yolu. Bakı,2014, 522 s.
4.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. I hissə. Bakı ,2004, 326 s.
5.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. II hissə. Bakı ,2007, s.551
6.İsmayılov H. Zaqatala maarifi. Bakı, Ağrıdağ, 1999, 112 s.
7.Мамедов М.М. Культурно-просветительная работа в Азербайджанской ССР в условиях совершенствования социализма (1976-1980 гг.) Автореферат, канд. дисс. с. 25, Баку,1988
8.Таирова А. История города Шеки. Баку,2014, с.204
9.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 aprel 2007-ci il sərəncamı //http://ict.az/az/content/189
10. Azərbaycan müəllimi //www. muallim.edu.az
11. Balakən rayon Mərkəzi Kitabxanası //www.balakan.cls.az
12. Qax rayon Mərkəzi Kitabxanası //www.qax.cls.az
13. Qəbələ rayon Mərkəzi Kitabxanası //www.qebele.cls.az
14. Oğuz rayon Mərkəzi Kitabxanası //www.oquz.cls.az
15.Ümummilli lider Kitabxana sahəsinə dövlət qayğısı. 25 Avqust, 2015 // http://sabunchu.cls.az/more/text/20111
16. Zaqatala rayon Mərkəzi Kitabxanası //www.zaqatala.cls.az

# AZƏRBAYCANDA TURİZM SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

**Şirinova Əminə Qasım qızı**
**Tarix fakültəsi, baş müəllim**
**sirinova.amina@mail.ru**

*Məqalə günümüzün aktual probleminə - Azərbaycanda turizm sahəsinin təşkili probleminə həsr edilmişdir. Bu sahədə mövcud vəziyyət, ölkədə turizmi inkişaf etdirmək məqsədilə qəbul edilən qanunvericilik aktları və görülən tədbirlər təhlil edilmişdir.*
***Açar sözlər:*** *turizm, region,turizm sektoru, dövlət siyasəti*

**_State policy in the sphere of tourism in Azerbaijan_**

*This article is devoted to the actual problem of organizing the sphere of tourism in Azerbaijan. In addition, the article analyzes the legislative acts adopted by the leadership for the development of tourism in the country and the measures taken to attract tourists.*
***Key words:*** *tourism, development, region, directions*

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Respublikamızın inkişafı üçün məhz bu sahə həlledici əhəmiyyət kəsb edir. Turizmdə Azərbaycan böyük perspektivlərə malikdir və rəqabət imkanları çox yüksəkdir.

Azərbaycanın zəngin tarixi-mədəni irsi, təbii sərvətləri və rəngarəng iqlimi cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Ölkəmizin malik olduğu təbii sərvətlər, zəngin milli mətbəx, mədəniyyət nümunələri və s. ölkədə turizmin bir çox növünün (ekoloji, kənd, mədəni, müalicə-sağlamlıq, dini və s.) inkişafı üçün şərait yaradır. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi də bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb.

Azərbaycanda turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədər genişdir: turizm ehtiyatlarının öyrənilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və s. Bir sözlə, söhbət turizmin ölkə iqtisadiyyatının ən dayanıqlı və rəqabətə davamlı sahəsinə çevrilməsindən gedir.

Ümumi daxili məhsulun formalaşmasında, yeni iş yerlərinin yaradılmasında və əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayan turizm sektorunu inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən

qoyulmuşdur. Hələ Azərbaycana rəhbərliyinin ilk mərhələsində Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə bölgələrdə səyahətlər və ekskursiya büroları, turizm bazaları fəaliyyətə başlayır. 1983-cü ildə isə Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli istirahət zonasının yaradılması barədə müvafiq qərar qəbul edildi və Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədərki dövrü əhatə edən turizmin inkişafı sxemi qəbul olundu [2].

Müstəqillik bərpa edildikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini, o cümlədən beynəlxalq turizm münasibətlərini genişləndirməli idi. Lakin sosialiqtisadi sıxıntılar içində boğulan, hərbi təcavüzə məruz qalmış bir olkədə turizmdən danışmaq, turizm sənayesinin fəaliyyətini təmin etmək üçün şərait yox idi. Bu sahənin tədricən dirçəldilməsi və inkişaf etdirilməsi yalnız ölkə iqtisadiyyatının dirçəldilməsi və ölkədə əmin-amanlığın təmin edilməsi şəraitində mümkün idi.

Müasir dövrdə turizm dünya ölkələrinin böyük əksəriyyətində aparıcı sahələrdən birini təşkil etdiyi bir dövrdə Azərbaycan bu proseslərdən kənarda qala bilməzdi. Turizmin həm dünya iqtisadiyyatında yeri, həm də Azərbaycanın malik olduğu potensial onun qeyri-neft sektoruna alternativ sahə kimi önəm verməsini zəruri edirdi.

Turizm sahəsinin inkişafında əsaslı dirçəliş 1990-cı illərin axırı – yeni əsrin əvvəllərində müşahidə edilməyə başladı. 1993-cü ildə siyasi hakimiyyətə təkrar qayıdışından sonra turizm sahəsinin inkişafı üçün yollar arayan Heydər Əliyevin tapşırığı ilə “Turizm haqqında” Azərbaycan Respublikası Qanunu hazırlandı və 1999-cı ildə Milli Məclis tərəfindən qəbul edildi. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirmiş oldu və turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.Əsrin ilk illərində iqtisadi inkişafda əldə olunmuş nailiyyətlər, transmilli layihələrin işə düşməsi sosial-iqtisadi həyatın bütün sahələrində geniş fəaliyyət üçün şərait yaratdı. Ölkədə aparıcı neft sektoruna alternativ ola biləcək sahələrdən biri kimi turizmə də xüsusi diqqət yetirildi. Bu sahədə xidmətin müvafiq səviyyəyə qaldırılması, peşəkar kadrların hazırlanması istiqamətində işlərə təkan verildi.

Azərbaycanda turizmin potensial imkanlarını yüksək qiymətləndirən Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli sərəncamı ilə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Gənclər, İdman və Turizm Nazirliyi bu sahənin inkişafı, o cümlədən turizmin təbliği sahəsində uğurlu addımlar atmaqda idi. Nazirliyin təşəbbüsü

ilə 2001-ci ildə müstəqil respublikamızda ilk dəfə olaraq 27 sentyabr – Ümumdünya Turizm Günü qeyd olundu. Sonrakı illərdə bu günün qeyd edilməsi ənənəyə çevrildi [5].

2001-ci il sentyabrın 25-də isə Koreya Respublikasının paytaxtı Seulda keçirilən Ümumdünya Turizm Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turizm təşkilatına üzv oldu [5].

2002-ci il 27 avqust tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edildi. Bu Dövlət Proqram ilə bir sıra mühüm tədbirlər, o cümlədən turizmin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, turizm sahəsində çalışan sahibkarlığın inkişafı, mövcud turizm obyektlərinin yenidən qurulması və yenilərinin yaradılması, turizmin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər tədbirlər müəyyənləşdirilmişdi [2].

Qısa müddət ərzində Azərbaycanın turizm potensialının beynəlxalq aləmdə tanınması, xarici turistləri ölkəyə cəlb etmək, turizmin potensial sahələrini inkişaf etdirilməsi, turizm infrastrukturlarının müasir tələblərə cavab verməsini təmin etmək, yeni infrastrukturların qurulması istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər növbəti illərdə də davam etdirildi. 2003-cü ildə siyasi hakimiyyətə gələn Prezident İlham Əliyevin iqtisadi, siyasi, sosial və mədəni sahələrlə yanaşı turizm sahəsinə olan diqqəti sayəsində bir sıra mühüm işlər görülmüşdür və bu da öz növbəsində ölkəmizin beynəlxalq turizm sisteminə inteqrasiyasını sürətləndirmiş oldu.

Zəngin iqlimi, tarixi-mədəniyyət abidələrinin mühafizəsi, köhnə turizm marşutlarının bərpası, yeni marşutların yaradılması, otellərin dünya standartlarına uyğunlaşdırılması, regionlarda beynəlxalq turizm standartlarına cavab verən turizm obyektlərinin tikilməsi və s. tədbirlərin həyata keçirilməsinə baxmayaraq, ölkəmizdə turizm sahəsinin üzləşdiyi başlıca problemlərdən biri olaraq, turizm xidmətlərinin səviyyəsinin artırılması məsələsi həll olunmamış qalırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə həmin vaxta qədər fəaliyyət göstərən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi əsasında Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Daha sonra, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdində Azərbaycanda turizm təhsili verən yeganə ali məktəb– Azərbaycan Turizm İnstitutu yaradıldı. Bu institutun yaradılması Azərbaycanda turizm sənayesinin inkişaf etdirilməsi, səyahət və istirahət sahəsində ixtisaslı kadrlara olan ehtiyacı ödəmək üçün mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsi məqsədi daşıyırdı.

Yarandığı ilk gündən bu təhsil ocağı Avropanın qabaqcıl universitetləri ilə sıx əməkdaşlıq edir, birgə proqramlar əsasında tədrisi həyata keçirir. 2014-cü ildən Turizm İnstitutu Azərbaycan Turizm və Menecment Universiteti kimi fəaliyyətini davam etdirir. 2006-cı ildə fəaliyyətə başlayan bu ali təhsil müəssisəsində 10 il ərzində yüzlərlə mütəxəssis yetişdirilmişdir. Onlar hazırda turizm sahəsinin müxtəlif istiqamətlərində fəaliyyət göstərirlər.

"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" və "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkəmizdə bu sahənin inkişafı üçün daha ciddi əsas yaratdı. Bu dövlət proqramlarında turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün əhatəli tədbirlər planı öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 iyul tarixli 1644 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"na əsasən turizmin müxtəlif istiqamətlərinin inkişafı, turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, peşəkar mütəxəssislərin hazırlanması, viza problemlərinin həlli, regionlarda turizmin inkişafı və s. məsələlər üzrə bir sıra mühüm işlər görülmüşdür [3].

Regionların inkişafı üzrə dövlət proqramlarının qəbulu və reallaşdırılmasında da turizmin payı çox böyükdür. Bu istiqamətdə həyata keçirilən sonuncu dövlət proqramı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionlarda iqtisadiyyatın mühüm sahələrinin inkişafında, sahibkarlıq fəaliyyətlərinin genişləndirilməsində, yeni müəssisələrin yaradılması və iş yerlərinin açılmasında xeyli nailiyyətlər əldə edilir. Bu proqramda regionlarda turizmin inkişafı prioritet məsələlərdən biri kimi qoyulur.

2012-ci ildə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyri-neft sektorunun, o cümlədən turizmin inkişafına xüsusi diqqət yetirilməsi əsas strateji məsələlərdən biri kimi qoyulur. Konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulur.

Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri də ölkədə müxtəlif beynəlxalq tədbirlərin, forumların, müsabiqələrin, idman yarışlarının keçirilməsi, onların sayəsində Azərbaycanın mədəniyyətinin, mənəvi ruhunun, qonaqpərvərliyinin tanıdılmasıdır.

2002-ci ildən başlayaraq hər il Bakıda həm yerli, həm də xarici turizm şirkətlərinin nümayənlərinin iştirak etdiyi Beynəlxalq Turizm Sərgisinin

(AİTF) keçirilməyə başladı. Həmin sərgilərdə müxtəlif ölkələrdən iştirak edən turizm şirkətlərinin sayının artması Azərbaycan turizminin artan inkişaf dinamikasını və genişlənən əlaqə miqyasını nümayiş etdirir. 2002-ci ildə 5 ölkədən 26 şirkət var idisə, artıq 2016-cı ildə 29 ölkədən 330 turizm şirkəti iştirak etmişdir. Qeyd etmək vacibdir ki, keçirilən sərgilər ölkə turizminin dünyada reklam edilməsinə xidmət edir [7].

2013-cü il noyabr ayında isə Azərbaycanda ilk dəfə olaraq I Beynəlxalq Turizm Filmləri Festivalı keçirildi. Festivala turizmə dair 70-dən çox layihə təqdim olunmuşdur [8]. Bu festivalın məqsədi turizmin müxtəlif sahələrinə həsr olunan, daxili və beynəlxalq turizmin inkişafına təkan verə biləcək filmləri təbliğ etmək, ən yaxşı filmləri aşkara çıxarmaq, onların müəlliflərini həvəsləndirməkdir. Festival eyni zamanda tarixi və mədəni irsin beynəlxalq mərkəzlərindən biri olan Azərbaycanın turizm potensialına diqqət cəlb etməyi qarşısına məqsəd qoyub.

Azərbaycanda 2012-ci ildə 57-ci Avroviziya Mahnı Müsabiqəsinin, 2015-ci ildə 1-ci Avropa oyunlarının və 2016-cı ildə "*Formula 1*" Avropa Qran Prisinin əhəmiyyətini də qeyd etmək lazımdır.

Respublikamızda turizmin mövcud vəziyyətinin və potensialının tanıdılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi bir sıra tədbirlər həyata keçirmişdir. Nazirliyin sifarişi ilə ölkəmizin turizm imkanlarını əks etdirən rus, ingilis, fransız, ərəb, yapon, çin, alman, ispan və s. dillərdə 40-dan çox reklam-çap məhsulları, CD və DVD disklər hazırlanmışdır. Bu reklam-çap məhsulları beynəlxalq turizm sərgilərində sərgi iştirakçılarına və ziyarətçilərə, respublikamızın xarici ölkələrdəki səfirlik və nümayəndəliklərinə çatdırılır [4].

Bundan əlavə, Azərbaycanın turizm potensialını dünyada tanıtmaq məqsədilə www.azerbaijan.tourism.az saytı yaradılmışdır. Mütəmadi olaraq yenilənən bu saytın adı beynəlxalq telekanallarda nümayiş olunan, Azərbaycanın turizm potensialını əks etdirən reklam çarxlarında, beynəlxalq turizm sərgilərinin rəsmi kataloqlarında, eləcə də digər rəsmi xarici mənbələrdə göstərilir [4].

Son illərdə nazirliyin iştirak etdiyi beynəlxalq turizm sərgilərinin coğrafiyası da genişlənmişdir. Bu sərgilərdə nazirliklə birlikdə respublikamızda fəaliyyət göstərən bir sıra turizm şirkətləri və mehmanxana kompleksləri də təmsil olunur. Sərgidə iştirak edən turizm şirkətləri sərgi zamanı xarici ölkələrin turizm şirkətləri ilə danışıqlar aparır və əməkdaşlıq haqqında müqavilələr imzalayırlar.

Azərbaycanın turizm potensialını dünyaya nümayiş etdirmək, həmçinin turist axınını cəlb etmək məqsədilə ölkəmizin turizm imkanlarını əks etdirən filmlər və reklam çarxları 2006-cı ildən etibarən dünyanın nüfuzlu televiziya kanallarında (CNN, "Euronews", "Travel Channel", BBC, CNBC,

"Eurosport", "National Geographic", TV5 MONDE) yayımlanır [5].

Dünyada turizm sahəsində böhran və çətinliklərin olmasına baxmayaraq, Azərbaycan turist sayının yüksək artımına nail olub. Bu, ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nəticəsi olmaqla yanaşı, həm də dövlət tərəfindən turizm sahəsinə göstərilən diqqətin təzahürüdür.

Son vaxtlar bu istiqamətlərdə müsbət dinamika güclənməkdədir. Hər il Azərbaycanda yeni otel və digər turist yerləşdirmə obyektinin təməli qoyulur. Turizm sahəsinin sürətlə inkişafı ölkəyə bir çox xarici otel şəbəkəsinin gəlməsinə də imkan yaratmışdır. Bunların içərisində dünyaca çox məhşur olan brendlər də vardır: Four Seasons Hotel Baku, Hyatt Regency, JW Marriott Absheron Baku Hotel, Jumeirah Bilgah Beach Hotel, Grand Hotel Europe, Hilton Baku, Kempinski Hotel Badamdar və s.

Artıq regionlarda da xeyli dünyaca məşhur brend otellər istifadəyə verilmişdir. Belə ki, Qubada Qudyalçayın sahilində inşa olunan “Rixos Quba Azerbaijan”, Şamaxı rayonunda istifadəyə verilən “Şamaxı Palace Platinum By Rixos” oteli əhəmiyyətli turizm obyektləridir. Azərbaycanın turizm mərkəzinə çevrilən Qəbələ rayonunda isə bir neçə otel fəaliyyət göstərməkdədir. Bunlardan “Qafqaz Karvansaray”, “Qafqaz Sport Hotel” və Yengicə kəndində yerləşən Qafqaz Yengicə Termal Hotel və SPA” kompleksini qeyd etmək olar.

Regionların sosial-iqtisadi inkişafı layihələri çərçivəsində istifadəyə verilən turizm obyektləri sırasında adları sadalananlarla yanaşı, Gəncədə “VEGO”, “Ramada Plaza”, Naftalanda “Chinar Hotel & SPA Naftalan”, “Naftalan Hotel by Rixos”, Qaxda “El Resort”, Şəmkirdə “Excelsior Hotel Shamkir”, Şəkidə “Green Hill İnn” otellərini və s. də göstərmək olar.

Qusar rayonunda, Şahdağın ətəklərində yaradılmış olan qış-yay turizm kompleksi isə əsl turizm incisi sayıla bilər. Bu kompleks həm təyinatına, həm də nadir layihə strukturuna görə xüsusi önəm daşıyır. 2009-cu ilin sentyabrında təməli qoyulan və 2012-ci ildə istifadəyə verilən “Şahdağ” Turizm Kompleksi Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının yaxınlığında yerləşir. Dünyada ən mükəmməl layihələrdən biri olan “Şahdağ” Yay-Qış Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır [1].

Müalicəvi istirahət mərkəzləri də bu sahədə xüsusi yerə malikdir. Naftalanın müalicəvi nefti artıq dünyada öz adını tanıdır. Əlbəttə infrastrukturun gücləndirilməsi, düzgün marşutların tətbiq olunması bu qeyri-adi müalicə mərkəzinə daha çox turist cəlb edəcəkdir. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda müalicəvi duz mağaraları, Darıdağ termal su sanatoriyası,

Masallıdakı İstisu mərkəzi turist cəlbətmə potensialına malikdir.

Dövlət siyasətində ekoturizmin də inkişafına diqqət ayrılmışdır. Xüsusi mühafizə olunan təbiət əraziləri genişləndirilmiş, ekoturizmin inkişafı məqsədilə 2003-cü ildən etibarən Bakı və Abşeron yarımadasında palçıq vulkanları, Eldar şamı, Korçay dövlət təbiət qoruqları, Abşeron milli parklı yaradılmışdır. Həmçinin regionlarda Ağgöl, Göygöl, Şahdağ, Şirvan, Zəngəzur, Hirkan, Altıağac, Samur-Yalama milli parkları yaradılmışdır.

Respublikamızda sosial turizmin - aztəminatlı ailələrin, əlillərin istirahət və sağlamlıqlarının bərpasına yönələn turizmə də çox ciddi önəm verilir. Turizmin bu növlərinin genişlənməsində Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər əlaqədar təşkilatlar dövlətimizin siyasətini uğurla həyata keçirirlər [6].

Beləliklə, Azərbaycanda turizmin inkişafı üçün mükəmməl imkanlar mövcuddur və bu gün həmin imkanlardan kifayət qədər istifadə edilir. Əldə edilən nəticələr, ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması da onu göstərir ki, bu istiqamətdə dövlət və özəl sektorun apardığı birgə siyasət öz səmərəsini verir.

Əminliklə demək olar ki, Azərbaycan Respublikasında turizm tədricən iqtisadi siyasətin ən qabaqcıl istiqamətlərindən birinə çevrilir. Təbiət bizə Azərbaycanın turizm sənayesini beynəlxalq səviyyəyə qaldırmaq üçün bütün imkanları bəxş etmişdir, bundan sonrakı işlər isə insanların fəaliyyətindən və bu işə münasibətlərindən asılıdır.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev M. Azərbaycanın regionlarında turizmin geniş inkişaf potensialı var. //“Yeni Azərbaycan”, 2015-ci il 27 avqust.
2. Bilalov B. Heydər Əliyev və Azərbaycan turizmi. //“Mədəniyyət”, 2009-cu il 13 may.
3. Ələddin qızı N. 2011-ci ilin "Turizm ili" çərçivəsində böyük layihələr həyata keçiriləcək. “Səs”, 2011-ci il 1 fevral.
4. İsmiyev A. Turizm sektoru davamlı inkişaf yolunda. // “Mədəniyyət”, 2011-ci il 26 yanvar.
5. Qarayev Ə. Azərbaycan turizminə baxış: 10 illik inkişafın nəticələri. // “Azərbaycan”, 2013-cü il 27 sentyabr.
6. Mürvətov Ə. Azərbaycanda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır. //“Azərbaycan”, 2009-cu il 7 may.
7. 2016-cı il Turizm sərgisinin yekunları.www.aitf.az -
8. Bakıda I Beynəlxalq Turizm Filmləri Festivalı. www.bitff.az

## **“DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK”** ELMİ-NƏZƏRİ TOPLUSUNUN **I-IV** BURAXILIŞLARINDA ÇAP OLUNAN MƏQALƏLƏR

### I BURAXILIŞ. 2003-cü il

**Redaksiya heyətindən** 6

**I. Nəzəri məsələlər**

**Şükürov K.K-** Dünya Azərbaycanlılarının öyrənilməsi: struktur yanaşma 7

**II.Azərbaycan XVIII- XX əsrlərdə**

**Ələkbərzadə M.Z.-**Azərbaycan xanlıqları ( dövrün bədii-sənədli telefilmlər vasitəsi ilə əksinə dair) 12

**Məmmədova A.Ə.-**Car-Balakən camaatlığının hərb tarixinə dair 20

**İbişov S.Ə.-**Quba xanlığı əhalisinin rus çarizminə qarşı azadlıq mücadiləsi (1806-1811) 28

**Kazımov İ.F.-**Naxçıvan bölgəsi əhalisinin say dinamikası və yerləşməsinə dair (1828-1920-ci illər) 52

**Şirvanova T.Ə.-**Rusiyanın Azərbaycanda yeritdiyi siyasətdə ermənilərə himayəçilik (1828-1917) 58

**Xəlilova S.S.-**XIX əsrin sonu- XX əsrin əvvəllərində azərbaycanlı sahibkarların Azərbaycan unüyütmə və düyütəmizləmə sənayesində iştirakına dair 67

**Əhmədov H.O.-**1920-1930-cu illərdə milli ziyalı kadrların say dinamikası və tərkibi 75

**Мустафаева С.О.-**Сталинские репрессии и реабилитация их жертв в Азербайджане 85

**Fərəcov Ş.F.-**1950-70-ci illərdə Qərbi Azərbaycanda azərbaycanlıların demoqrafik vəziyyəti 92

**Həsənova L.L.-**XX yüzilin ikinci yarısında Azərbaycanda əhalinin miqrasiyası (sovet əhali siyahıyaalmaları üzrə) 96

**Mustafayev A.N.-**Qaçqınların Naxçıvanda yerləşdirilməsi 105

**Paşayeva U.M.-**Azərbaycan, Ermənistan və Gürcüstan respublikalarında qaçqınların hüquqlarına dair qanunvericilik sənədlərinin müqayisəli təhlili 111

**III.Xaricdə yaşayan azərbaycanlılar**

**Новрузова Г.Т-**Азербайджанцы в России 124

**Новрузова Г.Т.-** Профессиональная занятость азербайджанцев России 132

**IV. Xarici ölkələrin Azərbaycandakı diasporu**
**Verdiyeva H.Y.-** Yelenendorf koloniyasında məktəblər (1891-1914-cü illər) 140
**V.Kitablar, Rəylər**
Açılmamış səhifələrin həqiqətləri 145
Qərbi Azərbaycan "ensiklopediyası" 150
Redaksiya heyəti və müəlliflər haqqında məlumat 155

## II BURAXILIŞ. 2004-cü il.

**Ön söz** 5
**I. Azərbaycan tarixi və etnoqrafiyası problemləri**
**Abbasova A.A.-**Nadir şah Əfşarın dini islahat cəhdləri 7
**Quliyev N.Ə.-**Naxçıvan əyaləti Əlincəçay mahalının əhalisi (1831-ci il kameral təsvirinin materialları əsasında) 16
**Şahmuradov A.Ş.-**Ş.Əsədullayevin Azərbaycan neft sənayesindəki fəaliyyətindən 23
**Əhmədov H.O.-**Müstəqilliyimiz və neft strategiyamız 30
**Paşayeva U.M.-**Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərə dair qanunvericilik haqqında 38
**Şükürov K.K.-**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramının (2004-2008-ci illər) demoqrafik aspektlərinə dair 45
**Quliyeva N.H.-**Azərbaycanın azsaylı xalqları:tatlar 51
**Əsədova Ə.A.-**Orta əsr Azərbaycan xalq geyimləri ("Kitabi Dədə Qorqud" dastanları əsasında) 58
**II. Azərbaycan diasporu**
**Новрузова Г.Т.-**Участие азербайджанской диаспоры в общественно-политической и культурной жизни России 70
**Новрузова Г.Т.-**Азербайджанская диаспора России в интернете 91
**III.Ümumi tarix problemləri**
**Rəhimova A.M-** XIX əsrin II yarısında Volqaboyunda maarif və elm 101
**Leyla Vaqif qızı.-**Birinci Balkan müharibəsi 115
**Мустафаева С.О.-**Некоторые аспекты административно-территориальных реформ царизма на Южном Кавказе 124
**Сафарова И.Д.-**Ряд направлений Азербайджано-Пакистанских отношений во второй половине 90-х годов XX века 137
**Əmirov.İ.C.-**Türkiyə-Yaponiya münasibətləri yeni mərhələdə 147
**IV. Kitablar, rəylər**

**Şükürov K.K.**-Azərbaycan demoqrafiyasında mühüm hadisə 167
**Redaksiya heyəti və müəlliflər haqqında məlumat** 175

## III BURAXILIŞ. 2009-cu il

**I BÖLMƏ.**
«Dünya azərbaycanlıları: tarixi demoqrafiya bölməsi» nin tarixindən
***Redaksiya heyəti*** 5
**Şükürov K.K.**-Dünya azərbaycanlılarının öyrənilməsi: struktur yanaşma 13
**II BÖLMƏ. Plan işi üzrə başa çatdırılmış tədqiqatlar**
**XIX-XX əsrlərdə Şimali Azərbaycanda demoqrafik vəziyyət**
Quba xanlığının əhalisi 16
Dərbənd əhalisi XIX – XX əsrin əvvəllərində 34
Naxçıvan xanlığının əhalisi 71
Qazax sultanlığı . 88
Şimal-Qərbi Azərbaycanın əhalisi (tarixi-demoqrafik tədqiqat)
Car-Balakən camaatlığının ərazisi və əhalisi 103
Şəki xanlığının əhalisi 132
Qərbi Azərbaycan əhalisi XIX-XX əsrlərdə 142
Rusiya Federasiyasında Azərbaycan diasporu 178
**III BÖLMƏ. XVIII-XX əsrlərdə Azərbaycanın ərazisi və əhalisi**
**Летифова Э. М.**- Илисуйское султанство: территория и этническая история 187
**Şabiyev B.Ş.** - Çuxur-Səəd bəylərbəyliyinin ərazisi 197
**Abbasova A.A.**-XVIII əsrin əvvəllərində Cənubi Qafqaz ərazisində demoqrafik vəziyyət haqqında (Gəncə-Qarabağ əyaləti üzrə) 202
**Məmmədov K.H.**-Borçalı azərbaycanlılarının soykökü 206
**Rzayeva-Əliyeva Y.Ə.**- XIX əsrin II yarısında Bakı əhalisinin tərkibində sosial dəyişikliklər barədə 210
**Paşayeva U.M.**- XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya proseslərinin tarixi köklərinə dair 216
**Мустафаева С.О.**-Территориальные изменения на Южном Кавказе с октября 1917 года по май 1918 год 222
**Əhmədov H.O.** - XX əsrin əvvəllərində Azərbaycanda çarizmin köçürmə siyasətinə dair 230
**Babayev X.Q.**-XX əsrdə Naxçıvan əhalisinin say dinamikası və yerləşməsi 234
**Fərəcov Ş.F.**-Ermənistan SSR-də azərbaycanlılara qarşı soyqırım siyasəti 243

**IV BÖLMƏ. Ümumi tarix məsələləri**
**Gözəlova Y.H.**- Eldənizlərin hakimiyyəti dövründə Azərbaycanın beynəlxalq ticarət əlaqələri 246
**Səidə Əli qızı** -Видный мыслитель Азербайджана Ахмед бек Ага оглы о международном положении и русско-японской войне в начале XX века 252
**Paşayeva U. M.-** Məcburi miqrasiya və beynəlxalq hüquq 258
**Novruzova G.T**- Azərbaycan diasporu 265
**Quliyeva S.Z.-.**İslam Konfransı Təşkilatının Azərbaycanla əlaqəli qətnamələrində qaçqın və məcburi köçkünlər problemi 287
**Leyla Vaqif qızı** - Avropa İttifaqının yardım proqramları və Azərbaycan (1999-2004-cü illər) 291
**Abdullayeva Y.M.**-Azərbaycanda toxuculuğun inkişafı tarixindən 295

## IV BURAXILIŞ. 2015-ci il

**Redaksiya heyətindən** 4
**I BÖLMƏ.**
**XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya prosesləri (tarixi-demoqrafik tədqiqat)** 7
**II BÖLMƏ.**
**Azərbaycanın ərazisi və əhalisi**
**Abdullayev M.Q**. – Azərbaycan xanlıqlarında ali zümrənin say tərkibi (Quba, Bakı, İrəvan və Naxçıvana aid materiallar əsasında) 98
**Novruzova G.T.-** Миграция Азербайджанцев в Россию 116
**Mustafayeva S.O** .- Проблема границ в Южно-Кавказском регионе после окончания I Мировой войны 145
**Paşayeva U.M., Məmmədova A.Ə**. - 1930-1991-ci illərdə Şəki rayonunun inzibati-ərazi quruluşu və ona edilən dəyişikliklər 170
**Quliyeva S.Z.–** Vartaşen (Oğuz) rayonu əhalisinin say dinamikası və yerləşməsi (1930-2010) 188
**Məmmədli Ş.M**.– Oğuz rayonunun tarixi abidələri 199
**Mustafayeva K.S**.– “Maaf” institutu və onun xanlıqların idarəetmə sistemində yeri 204

***Məqalələrin qəbulu şərtləri:***

- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər qarşısında qoyduğu tələblər əsas götürülür.
- Tələblərin 29-cu bəndinə əsasən müəllif hüquqları ilə əlaqədar olaraq xaricdə və ya respublikada eyni adlı və məzmunlu məqalələrin jurnala tədqim edilməsi yolverilməzdir.
- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələr jurnalın elmi redaksiyasına daxil olan heyət üzvləri tərəfindən ciddi oxunur və anonim rəyə göndərilir. Yanlız müsbət rəy verilən məqalələlər çap olunur.
- Jurnal ildə bir dəfə nəşr edilir.
- Məqalələr müəlliflərin hesabına çap edilir.
- Məqalələr çap və elektron formada Dünya azərbaycanlıları: tarixi-demoqrafiya elmi-tədqiqat laboratoriyasına (III korpus, 1007-ci otaq) təqdim edilməlidir.
- Jurnal respublikanın əsas kitabxanalarına təqdim edilir.
- Jurnalın elektron versiyası Bakı Dövlət Universitetinin saytında yayımlanır: http://bsu.edu.az

***Məqalənin tərtibi qaydaları:***

- Mətn ölçüləri: Times New Roman, ölçü 12, interval 1;
- Vərəq ölçüləri: hər tərəfdən 2 sm;
- Həcm 3-8 səhifə (təqribən 1500-5000 söz);
- Yazılara kompüterdə səhifə nömrəsi verilməməlidir;
- Başlığın hamısı böyük hərflərlə Times New Roman shriftində, 12 ölçü ilə tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;
- Məqalənin adı ilə məzmunu tam uyğun olmalıdır;
- Məqalənin başlığının altında sağ tərəfdə 10 ölçü ilə müəllifin adı, soyadı – tünd rəngdə (Bold), fakültəsi, akademik və elektron poçt ünvanı göstərilməlidir;
- İlk səhifədə məqalənin 10 ölçü ilə kursiv ilə (italic) Azərbaycanca xülasənin altından məqalənin ingiliscə başlığı , xülasə və açar sözlər verilməlidir. İngiliscə başlıq, xülasə və açar sözlər Azərbaycan dili ilə eyni olmalıdır;
- Məqalələr struktur olaraq “Xülasə”, "Giriş”, "Əsas hissə”, "Nəticə və elmi yenilik”, "Ədəbiyyat siyahısı”ndan ibarət olmalı və məzmun buna uyğun qurulmalıdır;
- Məqalə içindəki yarımbaşlıqlar Birinci hərfi böyük, qalanları kiçik olmaqla verilməlidir. Məsələn, Giriş; Nəticə, Ədəbiyyat siyahısı;

- Məqalədə istifadə edilən ədəbiyyat və internet resursları son 5-10 ilin tədqiqatlarını əhatə etməlidir. Mənbələrin ünvanı isə dəqiq göstərilmlidir (nəşr yeri, ili, nəşriyyat və cəmi səhifəsi);
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda 10 ölçü ilə əlifba sırası ilə düzülür. Mətndə istinadlar həmin sıraya uyğun kodla verilir. Məsələn [5, səh. 8];
- İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan məqalənin ya yazının müəllifi, məqalənin ya məlumatın bağlılığı və ondan sonra hiperiqtibas qoyulmalıdır;
- Məqalədə mövzu ilə bağlı internet materiallarından 40% istifadə etmək olar;
- Məqalədə sitatlar məqalənin ümumi həcminin yalnız 30 faizini əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir olmalıdır;
- Cədvəl və şəkil verilərsə, cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 və s. şəklində sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən);
- Məqalədə verilən şəkil və xəritələr ayrıca fayl (GİF, JPEG) kimi diskdə təqdim edilməlidir;
- Cədvəllər və cədvəlin mənbəsi cədvəlin aşağısında 10 ölçüdə verilməlidir;
- Məqalələr tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

**QEYD:** **1.** Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır. Müəlliflərin və redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
**2.** Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.

**DÜNYA AZƏRBAYCANLILARI:**
**TARİX VƏ MÜASİRLİK**
(Elmi-nəzəri toplu)

V BURAXILIŞ

Kompüter tərtibatı: Ulduz Miri qızı Paşayeva
Səidə Zakir qızı Quliyeva
Səidə Vahid qızı Nəbiyeva

**Bakı-2017**